ZİYA BÜNYADOV

# AZƏRBAYCAN VII-IX ƏSRLƏRDƏ

TARİX İNSTİTUTU



Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

Azərbaycan dili və tarixi

ZİYA
BÜNYADOV

# AZƏRBAYCAN VII-IX ƏSRLƏRDƏ

ŞƏRQ – QƏRB

BAKI 2007

*Bu kitab "Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə"
(Bakı, Azərnəşr, 1989) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

Rus dilindən tərcümə edənlər: **Cabbar Cabbarov**
**Həsən Əlizadə**

**ISBN 978-9952-34-085-3**

**947.54/04-dc22**
Azərbaycan tarixi - VII-IX əsrlər

**Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə**
Bakı, "Şərq-Qərb", 2007, 424 səh.

Kitabda Azərbaycanın ərəblər tərəfindən istila edilməsi dövrü ilk dəfə tədqiq olunur. Onun siyasi və sosial-iqtisadi vəziyyəti, yerli hakimiyyətin Ərəb xilafətinə münasibəti, istilaçılara qarşı xalqın azadlıq mübarizəsi nəzərdən keçirilir. İnzibati bölgü, vergi sistemi, kənd təsərrüfatının inkişafı və s. haqqında məlumat verilir. Zülmkarlarla mübarizə aparmış Babək və onun silahdaşları haqqında ərəb mənbələrindən götürülmüş materiallar böyük maraq doğurur.

© "Şərq-Qərb", 2007

# GİRİŞ

Son illər tarix elmi Zaqafqaziya xalqları tarixinin öyrənilməsində əhəmiyyətli müvəffəqiyyətlər əldə etmişdir. Yazılı mənbələri nəşr etməklə yanaşı, Zaqafqaziya respublikalarında arxeoloji və etnoqrafik tədqiqatlar aparılır, bu tədqiqat mənbələri əsasında Gürcüstan, Azərbaycan və Ermənistan tarixinə aid ümumi əsərlər, habelə Zaqafqaziyada yaşayan xalqlar tarixinin ayrı-ayrı məsələlərinə dair bir sıra monoqrafıya və xüsusi əsərlər yaradılmışdır. Buna baxmayaraq, Zaqafqaziyanm ayrı-ayrı rayonlarının və hətta bir sıra dövrlərin tarixi hələ də işlənib hazırlanmamışdır. Bu, hər şeydən əvvəl, tarixi-coğrafı məfhum kimi götürülən Azərbaycan ərazisini təşkil edən vilayətlərin tarixinə aiddir.

Azərbaycan tarixinin XIII əsrdən başlayan dövrü nisbətən öyrənildiyi halda, VII-IX əsrlər dövrü əsla öyrənilməmişdir. Bu monoqrafıya, yazılı mənbələr və arxeoloji (xüsusilə numizmatik) materiallar imkan verdiyi dərəcədə, VII-IX əsrlər dövründəki Azərbaycan tarixini işıqlandırmaq üçün bir təşəbbüsdür. Lakin bu monoqrafıya Azərbaycanın həmin dövrdəki sosial-iqtisadi və siyasi tarixinin bütün cəhətlərini işıqlandırıb hazırlamaq vəzifəsini öz qarşısına qoymur: bu tarixin əsas aspektləri tədqiq edilmişdir; mədəniyyət və din məsələləri yalnız Azərbaycan ərazisində yaşayan xalqların etnogenezi (mənşəyi) problemini işıqlandırmaqla əlaqədar olaraq nəzərdən keçirilmişdir.

Azərbaycan ərazisinin arxeoloji cəhətdən tədqiqi (mövcud olan bütün maddi mədəniyyət abidələrini qeyd etmək mənasında tədqiqi) hələ başa çatmadığından, müəllif yalnız arxeoloji qazıntılar nəticəsində əldə edilən azacıq materialdan istifadə etmişdir.

Azərbaycanın ilk orta əsrlər dövrü arxeoloji cəhətdən az öyrənildiyi üçün tam bir sıra məsələlər həll edilməmiş halda qalır; bu məsələlər isə yalnız Azərbaycan, Gürcüstan və Ermənistan elmlər akademiyaları maddi mədəniyyət obyektlərini ümumi proqram əsasında birgə öyrənmələri nəticəsində həll edilə bilər. Orta əsrlər materiallarının yalnız birgə öyrənilməsi həm Azərbaycan xalqının,

həm də Zaqafqaziya respublikaları xalqlarının tarixinə aid məsələləri kifayət qədər dolğun işıqlandırmağa imkan verər.

Biz, eyni bir dildə danışan azərbaycanlıların indi yaşadığı ölkənin hər iki hissəsini Azərbaycan adlandırmaqla bərabər, hər bir müəyyən halda Azərbaycanın məhz hansı ərazisinin nəzərdə tutulduğunu, məsələn, onun şimal rayonları olan Arran (Albaniya), Şirvan, Sünik, Arsax, Uti, Girdiman, Şəki, Qəbələ, Dərbənd vilayəti, Beyləqanmı, yoxsa cənub rayonları olan Muğan, Bəzzeyn, Naxçıvanmı nəzərdə tutulduğunu aydınlaşdırırıq.

VII-IX əsrlərdə Azərbaycan ərəblər tərəfindən işğal olunur, onun ərazisi Ərəb xilafəti tərkibinə daxil edilir və nəzərdən keçirilən dövrün axırlarında ərəb ağalığına son qoymuş bir sıra müstəqil dövlət və ölkələr yaradılır. Azərbaycanda bu dövr onun ərazisində iki böyük dövlətin - Məzyədilər - Şeybanilər (şimalda) və Sacilər (cənubda) dövlətinin əmələ gəlməsi ilə bitir. Bu iki dövlətin Azərbaycan ərazisində yaranıb əmələ gəlməsi prosesi, vaxtilə vahid olan Ərəb xilafətinin hər yerində eyni hadisələrin baş verməsi ilə eyniyyət təşkil edir və bütün Yaxın Şərqdə feodal münasibətlərinin daha da inkişafını əks etdirirdi.

Əsərin qarşısında duran vəzifə, ərəb hakimiyyəti dövründəki Azərbaycan tarixini nəzərdən keçirmək, habelə ərəb hakimiyyətinin ortadan qaldırılması ilə nəticələnib Azərbaycan xalqının uzun sürən təşəkkülü tarixində yeni səhifə açan sosial-iqtisadi və siyasi prosesləri, səbəb və şəraiti xarakterizə etməkdir.

Təbiidir ki, tədqiqatımızın nəticələri tamamilə bitkin hesab edilə bilməz, zira qarşıda, hələ aşkara çıxarılmamış yazılı mənbə materiallarını və maddi mədəniyyət abidələrini toplamaq və tənqidi təhlil etmək kimi böyük və çox ağır bir iş durur.

Müəllif, sonralar Azərbaycan ərazisini təşkil etmiş vilayətlərin ümumi tarixi xülasəsini vermək, ölkənin tarixi inkişafının əsas dövrlərini qeyd etmək və onun iqtisadi, siyasi və ictimai tarixinin ən mühüm problemlərini işıqlandırmaq vəzifəsini öz qarşısına qoymuşdur. Bununla əlaqədar olaraq bir sıra məsələlər bir problem kimi, habelə əməli fərziyyələr şəklində irəli sürülüb izah edilir.

Sonralar təkcə azərbaycanlılar adı ilə məşhur olan ümumi etnik qrup əsərdə şərti olaraq ümumi termin mənasında "türklər" deyə adlandırılmışdır.

Marksizm-leninizm klassiklərinin əsərləri: müxtəlif ictimai iqtisadi formasiyaların məhsuldar qüvvələri və istehsal münasibətləri haqqındakı nəzəriyyə, xalqların əmələgəlmə prosesləri məsələlərinə dair müddəalar və xüsusilə dissertasiyanm mövzusuna çox yaxın olub Şərqdəki feodalizmə, Şərq istibdad hakimiyyətinin vəzifələrinə və Şərq əkinçiliyində irriqasiyanın roluna dair marksizm leninizm klassiklərinin fikirləri bu əsər üçün metodoloji əsas olmuşdur.

Bu əsər, sovet şərqşünaslığı ilə xarici şərqşünaslığın ən yeni tədqiqat nəticələri nəzərə alınaraq, müxtəlif dillərdəki geniş mənbələri öyrənmək əsasında yazılmışdır. Sitat gətirilən ərəb mətnləri rus transkripsiyası ilə verilmişdir. Şəxs adları, terminlər və coğrafi adlar əlavə işarələr qoyulmadan sadə şəkildə verilir.

Müəllif əsərin müzakirəsində iştirak etmiş aşağıda adları çəkilənlərin hamısına təşəkkürünü bildirməyi özünə borc bilir: tarix elmləri doktorları Y.A.Belyayev və Z.V.Ançabadze, tarix elmləri namizədləri O.A.Əfəndiyev, R.M.Vahidov, Z.İ.Yampolski, M.S.Nemətova, filologiya elmləri namizədi P.A.Qryazneviç, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun Orta əsrlər şöbəsinin və Azərbaycan Dövlət Universiteti Azərbaycan tarixi kafedrasının əməkdaşları, institutun elmi arxivinin müdiri Ş.Əliyeva və Azərbaycan SSR Elmlər Akademiyası kitabxanalarında mövcud olmayan əsərlərin fotomikrofimlərini çıxarmaq üçün müəllifin sifarişlərini yerinə yetirməkdə ona böyük kömək etmiş SSRI EA Asiya Xalqları İnstitutunun Leninqrad şöbəsi elmi kitabxanasının elmi katibi V.B.Tretyakova.

* * *

"Azərbaycan VII-IX əsrlərdə" kitabı ilk dəfə 1965-ci ildə Azərbaycan Elmlər Akademiyası nəşriyyatı tərəfmdən rus dilində nəşr olunmuşdur.

1965-ci ildə rusca nəşr olunmuş mətnlə hazırkı nəşrin mətninin məzmunu demək olar ki, eynidir. Yalnız Xürrəmilər hərəkatının rəhbəri Babək haqqında əldə edilmiş yeni məlumat bu kitaba əlavə edilmişdir.

***Ziya Bünyadov***
*Bakı, 1989-cu il*

# I FƏSİL

## MƏNBƏLƏRİN VƏ İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN XÜLASƏSİ

VII əsrin birinci yarısının sonlarında qüdrətli Sasani imperiyası yenicə meydana gəlmiş Ərəb xilafəti qoşunlarının zərbələri altında süqut etdi. Bu imperiyanm tərkibinə daxil olan bütün ölkə və vilayətlər Atlantik okeanı sahillərindən Hindistan və Çinə qədər uzanıb gedən yeni böyük dövlətin bir parçası oldu.

Azərbaycan Xilafət tərəfindən işğal edilərək onun tərkibinə iki əyalət - Azərbaycan və Arran əyalətləri şəklində daxil edildi. Buna görə də Azərbaycan ərəb salnaməçiləri və coğrafiyaşünaslarının diqqətini cəlb etmişdi. Azərbaycanın VII-IX əsrlər tarixinə dair materialların çoxu məhz onların əsərlərindədir. Bundan əlavə, gürcü və Bizans müəlliflərinin, habelə erməni dilində yazan müəlliflərin əsərləri də Azərbaycan tarixinin mənbələrindəndir. Biz həmin əsərlərdəki materialları tənqidi surətdə müqayisə etdikdən sonra Azərbaycanın tarixinə, iqtisadiyyatına, siyasi vəziyyətinə, həmçinin sosial-iqtisadi həyatının digər sahələrinə dair çox az məlumat əldə edə bildik.

Azərbaycanın VII-IX əsrlərdəki vəziyyəti haqqında fikir yeritməyə imkan verən yeganə yerli mənbə Moisey Kalankatuklunun (Dasxuranlı) [1]"Ağvan tarixi" əsəridir.

"Ağvan tarixi" əsərinin adına ilk dəfə Ermənistan katolikosu Ananiya Mokatsinin (943-967) Xaçenə gəlməsi ilə əlaqədar olaraq təsadüf edilir. Katolikos Xaçenə 958-ci ildən az sonra Hagiq

---

[1]X əsr müəllifi M.Kalankatuklunun "Ağvan tarixi", qədim erməni dilindən tərcümə edəni К.Патканов. СПБ., 1861 ;The History of the Caucasian Albaians by Mouses Dasxuranci. Trans by C.J.F.Dowsett. London. 1961. Sonralar rus və ingilis dillərinə tərcümələrin səhifələri birlikdə göstəriləcəkdir.

Albaniya katolikosu olarkən (948-962) gəlmişdi[1]. Hagiq xəbər verir ki,"elə əvvəldən olduğu "Ağvan tarixi"ndə yazıldığı kimi, ("орпес ев ер и скзбане леал ев каргеал и патмут'еан Агуаниц") Müqəddəs Qriqori adından onu Albaniya katolikosu etmişdir. Hagiq bu tarix kitabını yazmağa başlayanda eşitmişdi ki, Albaniya Ermənistandan qabaq xristianlığı qəbul etmişdir; ancaq Ermənistan katolikosu bunu yazmağa icazə verməmişdi. Ananiya demişdi ki, bu kitab səhih deyil, çünki "Albaniya - arxiyepiskopluq, Ermənistan isə - katolikosluqdur". "Tarix" təsadüfən erməni katolikosunun əlinə düşür və o tələb edir ki, "[albanların] xristianlığa qəbul olunması haqqında orada yazılıb bizə lazım olan (yəni bizə əlverişli olan), bizim görmək arzusunda olduğumuz məlumatı (зор сиреак' орум ев цангордн еак', тесут'еан) həmin “Tarix"dən tapsınlar". Sonra Ananiya bu tarixdən aşağıdakı parçanı oxudu: "Apostol Bartolomey və apostol Faddeydən 266 il sonra, Ermənistan padşahı Trdatın 17-ci ilində və Albaniya padşahı Urnayrın (hakimiyyəti günlərində) Surean Paxlav Arşakuni nəslindən olan erməni maarifçisi Müqəddəs Qriqori həmin apostollar tərəfindən taxta çıxarıldı; Ermənistan və Albaniya padşahları olan Trdat və Urnayr isə bu zaman hələ də bütpərəstlikdə qalmaqda davam edirdilər"[2].

Bildiyimiz kimi, bu, "Ağvan tarixi"ndə yoxdur.

Stepannos Orbelian eyni hadisələri təsvir edərək deyir ki, Ananiyanın məsləhəti ilə "Ağvan tarixi"nə son dərəcə diqqətlə əlavə edilmişdi ki, Albaniyada ilk yepiskop Albaniya padşahı Urnayrın xahişi ilə Ermənistan maarifçisi Müqəddəs Qriqori tərəfindən bu rütbəyə təyin olunmuşdu; onlar [albanlar] 440 il ərzində erməni taxt tacının müti benefisiyaları vəziyyətində qalmışdılar; Albaniya katolikosları ermənilərin əli ilə bu dini rütbəyə çatırdılar, çünki bu erməni [arxiyepiskopları]-patriarx, onlar [albanlar] isə - arxiyepiskop

---

[1] Вах Х.Дадеан. Арарат, 1896, стр. 22-25; Н.Акиньян. Мовсес Дасхуранци (по проэванию Каганкатваци) и его "История Агван". Андес Амсореа. Вена, 53, стр.13-15.

[2] X.Dadean. Sitat gətirilən əsəri, səh. 25.

idi; bu vəziyyət Ermənistanın 25 katolikosunun hakimiyyəti ərzində, ta baş yepiskop Avraamadək [davam etmişdir][1].

Bu parça (əlavə izahatla birlikdə) "Ağvan tarixi"ndə (1, 9 və 11, 48) verilmişdir: lakin bütün bunlar "Ağvan tarixi"nə əlavə edilmiş uydurma və qondarmadan başqa bir şey deyildir. Ananiya "Tarix"in mətnində oxumamışdı ki, (II, 47)[2] "Albaniya taxt-tacı ermənilərinkindən qabaq təsis edilmişdi və bizimlə [ermənilərlə] həmfikir idi".

Sonralar "Ağvan tarixi"nin adı, Uxtanesin X əsrin sonlarında tərtib edilən "Gürcülərlə ermənilər arasında kilsə əlaqələrinin kəsilməsi tarixi"[3] əsərində çəkilir. Bu əsərdə həqiqətən mətnlər uyğun gəlir. Uxtanes 60-cı fəsildə yazır ki, öz mətnini o, "başqa bir tarixdən (йайлме патмут'ене)" götürmüşdür, həm də Uxtanesin mətni "Ağvan tarixi"nin 47-ci fəslinin II hissəsi ilə[4] kəlmə-kəlmə düz gəlir: burasını da qeyd etmək lazımdır ki, "Ağvan tarixi"ndə Avraamın məktubunun təkcə şərhi verildiyi halda, Uxtanes həmin məktubu daha tam şəkildə sitat gətirir [70-ci fəsil][5]. Bu isə yalnız onu göstərir ki, Uxtanes eyni mənbədən daha tam şəkildə istifadə etmişdir.

Uxtanesin 65-ci fəsildə [6]qeyd etdiyi bəzi təfərrüatlar "Alban tarixi"ndən "и патмут'ене ивреанц (daha düzgünü агуаниц)", yaxud "alban tarixçilərindən (патмаграцн агуаниц)"[7] götürülmüşdür. Çox ehtimal ki, bu təfərrüat "Ağvan tarixi"nin II hissəsinin 48-ci fəslindən deyil, I hissəsinin 6-cı fəslindən götürülmüşdür. Yenə də aydın olur

---

[1] Степаннос Орбелиан. Патмут'ивн Сисакан, стр. 279; Histoire de la Siounie..., p. 161.

[2] История Агван, стр. 216-217/174.

[3] Ухтанес. История отделения…, II, стр. 122; Deux historiens Armeniens..., p. 338.

[4] Yenə orada.

[5] История Агван, стр. 216-217/174.

[6] Ухтанес, стр. 122/345-346; История Агван, стр. 220-221/177.

[7] Uxtanesin bu sözündən görünür ki, "Ağvan tarixi" tək bir müəllif tərəfindən tərtib edilməmişdir. Sonralar bu barədə ətraflı danışılacaqdır.

ki, Uxtanes də, Moisey Kalankatuklu da eyni bir mənbədən istifadə etmişlər.

XIII əsr müəllifi Stepannos Orbelianın əsərinin 25 və 26-cı fəsillərində "Ağvan tarixi"ndən danışması həmin tarixin müvafıq yerlərinin birbaşa öz əsərinə köçürülməsindən başqa bir şey deyildir; onun 25-ci fəsli isə tamamilə "Ağvan tarixi"nin "orta (ikinci) hissəsini" xatırladır.[1]

"Ağvan tarixi"nin tərtib edildiyi təxmini vaxtı göstərən ilk tarixçi Mxitar Anetsi[2] olmuşdur. O, "Ağvan tarixi"nin Sebeosla (VII əsr) Gevond (VIII əsr) arasında yazıldığını qeyd edir. Lakin Şapux Baqratunidən başlayaraq həmin tarixin Sebeosdan da qabaq olduğunu göstərirlər. Lakin "Ağvan tarixi" öz məzmununa görə orta əsr mənbələri sırasında başqa bir mövqe tutmalıdır.

Bir qayda olaraq, "Ağvan tarixi"nin müəllifliyi iki Moiseyə Kalankatuklu və Moisey Dasxuranlıya isnad edilir. Lakin indiyədək bu məsələ qəti həll edilməmişdir; çünki həmin "Tarix"in müəllifinin, yaxud müəlliflərinin adı barəsində bir söz deyən olmamış, bu haqdakı mülahizələr isə son dərəcə ziddiyyətli olmuşdur. Bu barədə deyilən fikirlər əsas etibarilə salnamənin öz mətninə əsaslanır; orada deyilir: "Kalankatuk kəndi həmin Uti vilayətindədir ki, mən özüm də oradanam”. [3] A.Y.Manandyan belə hesab edir ki, müəllifin "Kalankatuklu" təxəllüsü salnamənin mətninin yanlış şərh edilməsi nəticəsində sonrakı müəlliflər tərəfindən uydurulmuşdur, odur ki, A.J.Manandyan müəllifi 'Utili Moisey" deyə adlandırır[4]. Bu ənənəyə riayət edən M.Abeqyan belə güman edir ki, salnamənin müəllifi "özünün yazdığı kimi, Uti vilayətindəki Kalankatuk kəndindən olan"[5] olan"[5] Moiseydir.

---

[1] Степаннос Орбелиан. (Тифлис, XXV, стр. 90-100): "Агуаниц Патмут’эани и мижин хатори". Histoire de la Siounie..., p. 63.

[2] Мхит’арай Анецвой патмут’ивн, изд. К.П.Патканова СПБ., 1879, стр. 15.

[3] История Агван, стр. 106/84

[4]H.Manandean. Beitrage zur albanischen Geschichte. Leipzig, 1897, p. 22.

[5] М. Абегян. История древнеармянской литературы, стр. 521

İlk dəfə Kalankatuklunu (Aqvanits) "Tarix"in müəllifi adlandıran Mxitar Ayrivantsi[1] olmuşdur. Həm Mxitar, həm də ondan sonra gələn müəlliflər Kalankatuklunu "Tarix"in hər üç hissəsinin müəllifi hesab edirlər. Bu cəhətə diqqət yetirən K.Patkanov yazır ki, "əgər erməni müəlliflərindən biri "Alban tarixi"nin iki kitabdan ibarət olduğunu demiş olsaydı, mən onun müəllifinin VII əsr tarixçisi olduğunu qəbul edərdim, çünki "Tarix"in üçüncü hissəsi, şübhəsiz, X əsrin əsəridir"[2].

Salnamədə şərh edilən VII əsrə aid hadisələr bunların şahidi olan bir şəxsin dilindən nəql edilir ki, bu da Matenadaranın 667 (1855) nömrəli əlyazmasının sonundakı əlavədən aydın görünür:

"Bu tarix erməni təqviminin 74-cü ilində (eramızın 625-ci ili), vardapet Moisey Kalankatuklu tərəfindən yazılmış "Ağvan tarixi" adlanan surətdən köçürülmüşdür" [3]. Lakin buna baxmayaraq, Z.İ.Yampolski haqlı olaraq göstərir ki, həmin qeyd "Moisey Kalankatuklu adının səhih məlum olduğu" haqqında şübhəni də əsla aradan qaldırmır[4].

"Tarix"in ən qədim əlyazması 1279-cu ilə aiddir[5]. Buna görə də də onun müəllifinin - VII əsr hadisələrinin şahidi olan Moisey Kalankatuklu adının səhihliyi yalnız Mxitar Ayrivantsinin şəhadətinə əsaslanır. Həmin adamın əsil adı isə bizə məlum deyildir. "Tarix"in ikinci müəllifi və Moisey Kalankatuklu davamçısı olan adamın da adı yenə Moisey olaraq göstərilir. Mxitar Qoşun (Kirakos Qandzaketsinin müəllimi) şagirdi vardapet Vanakan bu ikinci Moiseyin təxəllüsü məsələsini aydınlaşdırır. O, "Ağvan tarixçisi kimdir?" - sualına özü cavab verib deyir: "Moiseydir, özü də Dasxurranlı kəndindəndir[6].

---

[1] Мхит‘арай Айриванецвой Патмут'ивн Хайоц, изд. Эммина, М., 1860, стр. 23, 57; Histoire chronologique par Mkhithar d'Alrivank, p. 25. 88.

[2] K.P.Patkanovun "Ağvan tarixi"nə müqəddiməsi, səh. VII-IX.

[3] Bu deyilənlər X əsr hadisələri şərh edilən mətnə də aiddir.

[4] И.Ямпольский. К изучению Летописи Кавказской Албании, стр. 150.

[5] K.P.Patkanov. Sitat gətirilən əsəri, səh. IV.

[6] Г.Алишан. Хайапатум, патмут'ивн хайоц, стр. 175; Т.И.Тер-Григорян. К вопросы об "Истории страны Албанской Моисея Каганкатваци", л. 90.

Beləliklə, təsdiq olunur ki, iki Moisey olmuşdur. Mxitar Qoş yazır ki, "Tarix"in müəllifi Moisey Dasxuranlıdır və o, "alban sülaləsi haqqında *mükəmməl* (kursiv bizimdir - *Z.B.)* hesabat yazmışdır" [1]. Kirakos Qandzaketsi Moisey Kalankatuklunu X əsr müəllifi hesab edir [2]. Görünür ki, N.Akinyan son məlumata əsaslanaraq bu nəticəyə gəlmişdir ki, "Tarix"in müəllifi yalnız bir Moisey olmuşdur. Lakin hansı Moisey? O yazır ki, "XII və XIII əsrlərdə tarix oxucuları bu naməlum müəllifin kim olduğunu bilmək istədikdə, təbii olaraq, belə bir nəticəyə gəlirdilər ki, alban tarixçisi yalnız Albaniya katolikosudur. Əgər belədirsə, onda həmin tarixçi sonuncu katolikos "Moisey ola bilər" ("Tarix"in sonuna bax) [3]. Ç.Dovsett belə hesab edir ki, "Kalankatuklu təxəllüsü Kalankatukdakı Moisey monastırının adından götürülmüşdür. Dasxuran isə onun doğma kəndidir. Beləliklə, biz belə bir nəticəyə gələ bilərik ki, Moisey Kalankatuklu və Moisey Dasxuranlı eyni bir adamdır"[4]. Lakin sonralar Ç.Dovsett Dasxuranlı təxəllüsünə üstünlük üstünlük verir[5].

T.İ.Ter-Qriqoryan bu fikirdədir ki, "Tarix"in müəllifi ikidir: biri VII əsrə qədər baş vermiş hadisələri təsvir edən, daha doğrusu, Tarix"in ilk iki hissəsinin müəllifi olan Moisey Kalankatuklu, biri də ona üçüncü hissəni əlavə edən Moisey Dasxuranlı[6]".

Z.İ.Yampolski "Tarix"in N.Akinyan və Ç.Dovsettin hesab etdikləri kimi eyni bir Moisey (Kalankatuklu - Dasxurantlı) tərəfindən tərtib edildiyi, yaxud Moisey adlı iki başqa-başqa müəllif olduğu məsələsindən bəhs edərək yazır ki, gətirilən dəlillər

---

[1] Мхитар Гош. Албанская хроника, стр. 8; C.J.F.Dowsett. The Albanian Chronicle of Mkhitar Gosh. BSOAS, XXl/3, 1958, p. 476.

[2] К.Гандзакеци. История, стр.15."Çox qəribədir ki,Vanakanın şagirdi K.Qandzaketsi Dasxurantlının adını çəkmir. O, ümumiyyətlə, ad çəkmir, sadəcə olaraq "Ağvan tarixi"ni yazan adam" deyir.

[3] N.Akinyan. Sitat gətirilən əsəri, səh. 30.

[4] C.J.F.Dowsett. The Albanian Chronicle of Mkhitar Gosh. BSOAS, XXI/3, 1958, p. 476.

[5] History, p.XIX.

[6] T.İ.Ter-Qriqoryan. Sitat gətirilən əsəri, vər. 91.

həqiqətdən uzaqdır, çünki bu vaxta qədər "Tarix"in tədqiqatçılarından heç biri əsərin əvvəlinə yaxşı diqqət yetirməmişlər. Halbuki əsərin əvvəli onun müəlliflərinin adını dəqiq göstərir [1] . Z.İ.Yampolski "Tarix"in VII əsrədək məlumat olan hissəsinə istinad edir və deyir ki, həmin hissədə hadisələrin şahidi olan adamın belə bir qeydi vardır. "Bu sözləri yazan mən, Adrian siz oxuculardan xahiş edirəm ki, mən həqiri xatırlayasınız" [2] . Z.İ.Yampolskinin fikrincə, yazının üzünü köçürən adam "Tarix"in ilk fəsillərindən birinə Adrianın sözlərini heç cür artıra bilməzdi: deməli, Adrian "Tarix"in ən mötəbər müəlliflərindən biridir[3]. Z.İ.Yampolski öz nəticəsini əsaslandırmaq üçün Adrianın özü haqqında danışdığı hissədən yuxarıda gətirdiyimiz ifadəni xatırladır: "Kalankatuk kəndi həmin Uti vilayətindədir ki, mən özüm də oradanam"(и нмин йУти гавари йорме ев ес) və sonra da "bizim Albaniya ölkəsində"[4].

Zənnimizcə, Z.İ.Yampolskinin gətirdiyi dəlillərin əlavə sübutlara ehtiyacı vardır, çünki "bu sözləri yazan Adrian" yalnız əsərin üzünü köçürmüş, daha doğrusu, surətçıxaran olmuşdur. Surətçıxaranın öz adını əlyazmasma əlavə etməsi adi bir haldır və əlbəttə, buradan belə bir nəticə çıxarmaq olmaz ki, o, mütləq müəllif olmalıdır. Bizə belə gəlir ki, "Tarix"in müəllifi məsələsində T.İ.Ter-Qriqoryanın çıxardığı nəticələrlə razılaşmaq, başqa sözlə, "Tarix" müəllifinin iki nəfər - Moisey Kalankatuklu və Moisey Dasxuranlı olduğıınu etiraf etmək lazımdır.

Bəzi tənqidçilər "Tarix" müəlliflərinin əməyini lazımınca qiymətləndirməyərək, belə hesab etmiş və edirlər ki, həmin əsər erməni dilində olan müxtəlif mənbələrdən götürülmüş uydurma məlumat və materiallar məcmusundan ibarətdir. Lakin N.Y.Marr[32],

---

[1] Z.İ.Yampolski. Sitat gətirilən əsəri, səh. 150.

[2] История Агван, стр. 98/72.

[3] Z.İ.Yampolski. Sitat gətirilən əsəri, səh. 150-151.

[4] История Агван, стр. 93/70. Müqayisə et. Z.İ.Yampolski. Sitat gətirilən əsəri.

K.Patkanov [1] , K.Şahnazaryan [2] və digər tədqiqatçılar "Tarix"in materialını gürcü və erməni dillərində yazılmış müvafiq mənbələrlə müqayisə etmək yolu ilə belə bir nəticəyə gəlmişlər ki, "Tarix" Azərbaycan tarixinə dair mühüm bir mənbədir və bu əsərdə şərh edilən hadisələr tamamilə səhih və mötəbərdir.

Bizim tədqiqatımız üçün "Tarix"in ikinci və üçüncü hissələri maraqlıdır. Burada M.Kalankatuklu VII-IX əsrlərdə Azərbaycanın iqtisadi və siyasi vəziyyəti haqqında zəngin material verir. İkinci hissədə Mehranilər sülaləsinin Arranda meydana gəlməsi, knyaz Cavanşirin fəaliyyətini əks etdirən VII əsr hadisələri haqqındakı məlumat qiymətlidir. "Tarix"in 23 fəsildən ibarət olan üçüncü hissəsi alban və qriqoryan kilsələrinin qarşılıqlı münasibətlərinə həsr edilmişdir; burada həmin kilsələrin əsrlərlə davam etmiş mübarizəsini əks etdirən alban kilsə yığıncaqlarının qanun və qərarlarına dair material verilir.

"Tarix"in rusca tərcüməsinə daxil olmayıb bir çox tədqiqatçılara tanış olmayan bir parça xüsusilə maraqlıdır. Hələ T.İ.Ter-Qriqoryan yazmışdı ki, çatışmayan vərəqlərin "Tarix"in nəşr olunan mətnlərinə daxil edilməsi Dasxuranlının xronologiyasında olub bu vaxtadək izah edilməmiş uyğunsuzluqları aradan qaldırır[3]. Ç.Dovsett də bu cəhətə diqqət yetirmiş və haqlı olaraq göstərmişdir ki, çatışmayan bu parçanın əhəmiyyətini bütün alimlər etiraf etməlidirlər[4]. Həmin buraxılmış parçada bu vaxtadək mənşəyi aydın olmayan alban knyazı Səhl ibn Sumbatın genealogiyası verilir; bu parça, həmçinin Babəkin ərəb və Bizans mənbələrində göstərilən əsiralınma tarixini təsdiq edir. Beyləqanlılar (pavlikianlar) haqqında olan materiallar bizi vadar edir ki, pavlikianlar hərəkatı məsələsini, habelə Arranda hakimiyyəti ələ keçirməzdən qabaq knyaz Yesai Əbu

---

[1] Y.Mapp. Rus sözü "salo" haqqında, səh. 70-72.

[2] Предисловие к "Истории Агван".

[3] K.Şaxnazaryan. M.Kalankatuklunun "Ağvan tarixi"nə müqəddimə. Paris, 1860 (erməni dilində).

[4] C.J.F.Dowsett. A.Neglested Passage..., p. 468.

Musanın mübarizə etdiyi üsyan və basqınlar məsələsini yenidən nəzərdən keçirək[1].

Qeyd etmək lazımdır ki, Ç.Dovsett tərəfindən nəşr edilmiş "Tarix" K.Patkanovun nəşrindən əsaslı surətdə fərqlənir. K.Patkanov J.Şaxatuniyə məxsus təkcə bir əlyazmasının surətindən köçürülmüş materialdan istifadə edərək "Tarix"i rus dilinə tərcümə etmişdir. Ç.Dovsett isə "Tarix"i ingilis dilinə tərcümə edərkən dünyanın kitab saxlanılan müxtəlif yerlərində və xüsusi kitabxanalarda olan, demək olar ki, bütün əlyazmalarını (40-a yaxın), həmçinin nəşr olunmuş mətnləri bir-biri ilə tutuşdurmuşdur. Buna görə də, nə qədər ki, "Tarix"in tənqidi mətninin rus dilinə tərcüməsi çap olunmayıb, ən yaxşısı, tədqiqat üçün Ç.Dovsettin nəşrindən istifadə etməkdir.

Tədqiqatımızda istifadə etdiyimiz eyni dərəcədə mühüm mənbələrdən biri də Sebeosun "İmperator İraklın tarixi"dir[2]. Bu əsərdə Sebeosun şərhinin əsasını ərəb istilalarının şahidi olmuş adamların dilindən şərh edilən hadisələr təşkil edir; Sebeos VII əsrin birinci yarısında baş vermiş hadisələri təsvir edərkən yazır: "Biz bütün bunları taciklərin (ərəblərin) əsir apardıqları adamlardan eşitmişik. Bunların hamısını onlar bir şahid kimi özləri danışırdılar"[3].

Sebeos öz əsərində Sasanilər tarixinin qısa xülasəsini verir. Sebeos imperator İraklın Azərbaycan ərazisinə hərbi səfərlərinə xüsusi diqqət yetirmiş, ərəblər tərəfindən istila olunmuş Zaqafqaziya ölkələrində islam dininin yayılması məsələsinə də çox yer vermişdir. Sebeos öz "Tarixi"nin eramızın 661-ci ilində, xəlifə Müaviyənin hakimiyyət başına gəlməsi ilə əlaqədar olan hadisələrin təsviri ilə qurtarır.

---

[1] Z.M.Bünyadov. Bir daha Moisey Kalankatuklunun "Ağvan tarixi"nin nəşr olunmamış səhifələri haqqında, səh. 3-9.

[2] К.П.Патканов. Библиографический очерк армянской исторической литературы. СПб., 1880, стр. 36-38.

[3] История императора Иракла, стр. 122.

Gevondun "Xəlifələr tarixi"[1] əsəri də bizim tədqiqatımız üçün çox faydalı olmuşdur. Bu əsər müəllifin özünün bilavasitə şahidi və müasiri olduğu VIII əsrin son rübündəki hadisələrinin şərhi ilə bitir. Gevondun bütün "Tarix"i təxminən 127 il ərzində: Müaviyənin xəlifəliyə başlamasından (661) katolikos Stepannosun seçildiyi ilədək (788) olan dövrdə Zaqafqaziyada baş vermiş hadisələri əhatə edir. Bu əsərdə Gevond ərəblərin yalnız talan məqsədilə və islamı yaymaq üçün Azərbaycan və Ermənistana ilk hücumlarından danışır; daha sonra ərəblərin albanları, erməniləri və Qafqazın digər xalqlarını özlərinə tabe etmələrindən, onların ermənilər, yunanlar xəzərlərlə etdikləri müharibələrdən bəhs edir. "Tarix"in bu hissəsində Gevondun verdiyi məlumat xüsusilə maraqlıdır; çünki burada o, xəzərlər haqqında başqa mənbələrdən bizə məlum olmayan tarixi təfsilatlardan xəbər verir[2].

Gevond öz "Tarixi"ndə Zaqafqaziya xalqları barəsində ərəblərin yeritdikləri siyasəti izah edir, öz ağalıqlarını möhkəmləndirmək üçün ərəblərin dağılmış şəhərləri bərpa etmələrindən, yeni qala divarları tikmələrindən, dayaq məntəqələri yaratmalarından, yeni şəhərlər salmalarından, ərəblər zamanında ticarətin tərəqqisindən danışır. Gevondun "Tarix"i VII- VIII əsrlərdə Zaqafqaziya, Bizans və Xəzər xaqanlığının iqtisadi vəziyyətini öyrənənlər üçün də maraqlıdır.

Bu "Tarix"də bütün hadisələr xəlifələrdən Əbu Bəkr, Ömər və Osmanın fəaliyyəti ilə əlaqədar surətdə şərh olunur. Azərbaycanda baş vermiş tarixi hadisələrin izahı Gevondun vəzifəsinə bilavasitə aid olmasa da, Gevond həmin hadisələrdən kənarda qalmır. "Tarix"də Azərbaycan ərazisinə xəzərlərin dağıdıcı qəfil hücumlarından parlaq səhnələr təsvir edilir.

Katolikos VI İohan Drasxanakertlinin (897-925) "Ermənistan tarixi"ndə Ermənistanda Sacilər sülaləsi nümayəndələrinin fəaliyyəti

[1] К.П.Патканов. Библиографический очерк армянской исторической литературы. СПб., 1880, стр. 33-34.

[2] К.П.Патканов. Предисловие к "Истории халифов вардапета Гевонда”. СПб., 1882, стр. VII; yenə onun: Библиографический очерк…, стр. 34

haqqında geniş məlumat vardır. Təsvir etdiyi hadisələrin demək olar ki, hamısının iştirakçısı olan katolikos VI İohan Sacilərin Ermənistan səfərlərindən, yerli hakimlərlə, xüsusilə Baqratilərlə onların siyasi əlaqələrindən ətraflı danışır[1].

X əsr müəllifi Foma Artsruninin "Artsruni xanədanının tarixi"[2] əsərində bizi "Sanarlar arasında nələr baş verdiyi haqqında" 10-cu fəsil maraqlandırır.

Sanar tayfaları hələ IX əsrdə Arranın şimal hissəsində qəbilə icmaları şəklində yaşayırdılar: heç bir yadelli hakimiyyət tanımır, Buğanın komandası altında olan ərəb qoşunlarına qarşı rəşadətlə vuruşurdular. Adı çəkilən fəsildə Beyləqan hakimi knyaz Yesai Əbu Musa ilə xilafətdən ayrılmış Azərbaycan və Gürcüstanı itaət altına almağa cəhd edən Buğa arasında baş vermiş saysız-hesabsız vuruşmalar təsvir olunur.

Sacilər dövlətinin tarixini və onlann Ermənistanda yeritdiyi siyasəti öyrənmək üçün Stepannos Taronskinin (Asogikin) "Ümumi tarix"[3] əsərinin üçüncü hissəsində verilən məlumat maraqlıdır. Bu əsərdə Baqratilər xanədanının 885-ci ildən 1004-cü ilədək 119 illik tarixi, daha doğrusu, bu sülalənin yeddi nümayəndəsinin hakimiyyət dövrü təsvir olunur. Yusif ibn Əbu Sacın Ermənistan səfərləri, Ermənistan, Gürcüstan və Arran ərazilərində müxtəlif sülalələrə qarşı onun mübarizəsi ətraflı şərh edilir.

Bu göstərilən mənbələrdən əlavə, Babəkin rəhbərliyi ilə Azərbaycan xürrəmilərinin üsyanına aid məsələlərin, habelə Şimali Azərbaycana aid bəzi sosial-iqtisadi məlumatın tədqiqində Vardanın

---

[1] Histoire d'Armenie par le patriarche Jean VI dit Jean Catholios..., Paris, 1841; К.П.Патканов. Библиографический очерк армянской исторической литературы. СПб., 1880, стр. 35; M.X.Şərifli. Sacilər dövləti, səh. 23.

[2] Th. Ardzrouni. X-e S. Histoire des Ardzrouni, tr. par M.Brosset Collection Historiens Armeniens, t. I, St.-P., 1874 (sonrakı səhifələrdə bu mənbə Arstruni göstəriləcəkdir). K.P.Patkanov. Sitat gətirilən əsəri, səh. 35-36.

[3] Степаннос Таронский (Acoruk). Всеобщая история. Ermənicədən N.Emin tərcümə etmişdir. M., 1864; К.П.Патканов. Sitat gətirilən əsəri, səh. 37-38.

"Ümumi tarix"[1] əsərindən, Stepannos Orbelianın çox qiymətli "Sünik tarixi"[2] əsərinin 14 fəslindən və Mxitar Ayrivantsinin "Xronoqrafık tarix"[3] əsərindən istifadə edilmişdir. Bu əsərlərdə erməni dilindəki digər mənbələri tamamlayan məlumat və tarixlər vardır. Gürcü mənbələri bizim tədqiqatımızda xüsusi yer tutur. Bunların içərisində "Kartlis Tsxovreba"[4] salnamə külliyyatı çox əhəmiyyətlidir: burada Məzyədilər-Şeybanilər sülaləsi nümayəndələrinin fəaliyyətinə, sanarların ərəblərə müqavimət göstərmələrinə, xəzərlərin Azərbaycan və Zaqafqaziyaya soxulmalarına dair və i.a. bir çox qiymətli məlumat vardır.

Azərbaycan tarixinə dair bir çox maraqlı məlumat verən gürcü agioqrafık abidələri də çox maraqlıdır[5].

Ərəb dilində yazan tarixçi, qanunşünas və ilahiyyat mütəxəssisi Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbərinin (838-923) "Tarix ər-rüsul və-1-müluk" ("Peyğəmbərlərin və padşahların tarixi")[6] əsəri

---

[1] Всеобщая история Вардана Великого. Ermənicədən N.Emin tərcümə etmişdir. M., 1861; К.П.Патканов. Sitat gətirilən əsəri, səh. 42-43.

[2] К.П.Патканов. Sitat gətirilən səri, səh. 45-46.

[3] Mxitar vardapet Ayrivanskinin tərtİb etdiyi "Хронографическая история". Ermənicədən К.П.Патканов tərcümə etmişdir. СП6., 1869.

[4] Kartlis Tsxovreba. Kauçxişvilinin nəşri. Tbilisi, 1955, I cild (gürcü dilində); histoire de la Georgie, trad. M.Brosset. St.-P., 1849; Gürcüstan mənbələrində Azərbaycan tarixinə dair materiallar haqqında daha müfəssəl məlumat üçün b a x: L.M.Melikset-Bek. Gürcü mənbələri "Azərbaycan tarixinə dair mənbələrin icmalı" məcmuəsində, II buraxılış, Bakı, 1939.

[5] М.Сабинин. Полное жизнеописание святых грузинской церкви, ч. I, II. СПб., 1871-1872; Qədim gürcü agioqrafık ədəbiyyatı abidələri. Gürcü mətninin tərcüməçisi, tənqidçisi və ona müqəddimə yazan Gürcüstan EA-nm akademiki K.S.Kekelidzedir. Tbilisi, 1954-1956.

[6] Annales quos scripsit Aby Djafar Mohammed Ibn D'arir at-Tabari. Ed. M.J. de Goeje, ser. I-IU, Lugduni Batavorum, 1879-1901 (sonrakı səhifələrdə bu mənbə ət-Təbəri göstəriləcəkdir). Onun haqqında bax: В.И.Беляев. Арабские источники по истории туркмен и Туркмении IX-XIIl вв., стр. 21-23; Н.А.Медников. Палестина от завоевания ее арабами до Крестовых походов, стр. 35-138; R. Paret. At-Tabari. EI, IV, 607-608; C.Broc Kelmann. Geschichte der Arabischen Litterature, I, p. 142-143; Supplementband (SB), I, 217-218.

Azərbaycanın tədqiq etdiyimiz dövrünün siyasi tarixinə dair əsas mənbədir.

Ayrı-ayrı ölkə və ya vilayətlərin tarixi şərh edilərkən materialın çoxluğu və dəqiqliyi, həmçinin xilafət daxilində baş vermiş üsyan və xalq hərəkatları haqqında verilən məlumat - bütün bunlar ət-Təbərinin əsərini birinci dərəcəli tarixi mənbələr sırasına keçirir.

K.Brokkelman ət-Təbərini orta əsrlərin çox görkəmli tarixşünası kimi qiymətləndirərək yazır: "Əlbəttə, o, müstəqil düşüncəli bir mütəfəkkir olmamışdır, lakin çox qiymətli materialın toplanıb mühafızə edilməsinə səy göstərdiyi üçün biz ona minnətdarıq"[1].

Ət-Təbəri Azərbaycan tarixinə dair materialları özündən əvvəlki müəlliflərin: Əbu Abdullah Məhəmməd ibn Ömər əl-Vəqidi, əl-Mədayini, Əbu Minhəf, Əbu Məşər və başqalarının əsərlərindən istifadə edərək verir[2]. Ət-Təbərinin istinad etdiyi müəlliflərin demək olar ki, hamısı ərəblərin istilaçılıq səfərlərində (xüsusilə Azərbaycana) bilavasitə iştirak etmiş olduqlarından onların əsərlərində verilən məlumat Azərbaycanın ərəblər tərəfindən işğal edildiyi dövrün tarixini tədqiq etmək üçün son dərəcə qiymətlidir.

Ət-Təbərinin əsərində verilən məlumat VII-IX əsrlərdə Azərbaycanın siyasi tarixinin mənzərəsini təsəvvür etməyə imkan verir, Ət-Təbərinin Azərbaycan xürrəmilərinin Xilafətə qarşı üsyanını xarakterizə edən materialları, xəlifə əl-Mötəsim dövründə ərəb ordularının baş komandanı Afşin Heydər ibn Kavusun fəaliyyəti, onun Babəklə əlaqələri, Babəklə və Təbəristan hakimi Məzyarla danışıqları, Babək qalib gəldiyi təqdirdə Xilafəti devirmək və parçalamaq planları, habelə Babəkin Bizans imperatoru Feofillə yazışması haqqındakı məlumatı xüsusilə qiymətlidir. Ət-Təbərinin məlumatı Xilafətin siyasi həyatında türklərin rolu və Azərbaycanda

---

[1] C.Brockelmann. GAL, I, 142.

[2] Ət-Təbəri. I, 2647; II, 3397; II, 343, 635, 896 və sonrakı səhifələr; III, 3037; Kytab al-Fihrist, 2 Bde, Leipzig, 1871-1872, p. 98-99 (sonrakı səhifələrdə bu mənbə əl- Fihrist göstəriləcəkdir. EI, IV-də "Əl-Vəqidi məqaləsinə bax; Əli Ədhəm. Bə'z mu’arrixey əl-İslam. Əl-Qahirə, səh. 17-18.

onların fəaliyyəti haqqında da mühüm material verir. Azərbaycanda sülalə və mütəqəlliblər - ayrı-ayrı vilayətlərin və feodal dövlətlərinin hakimləri haqqında ət-Təbərinin verdiyi məlumat da maraqlıdır. Həmin feodal dövlətlərindən biri IX əsrin sonlarında yaranmış Sacilər dövlətidir.

Lakin ət-Təbərinin əsəri 302 (914-915)-ci illərdə baş vermiş hadisələrin təsviri ilə qurtarır: odur ki, biz Sacilər dövlətinin sonrakı taleyi haqqındakı məlumatı ət-Təbərinin davamçısı Arib ibn Səd əl-Kurtubinin "Silat tarix ət-Təbəri"[1] adlı əsərindən öyrənirik.

Əbu-l-Abbas Əhməd ibn Yəhya ibn Cabir əl-Bəlazurinin (892-ci ildə ölmüşdür) "Kitab fütuh-əl-buldan" ("Ölkələrin fəthi kitabı")[2]əsəri də bizim tədqiqatımız üçün qiymətli mənbələrdəndir.

Əl-Bəlazuri sadəcə kompilyator olmamışdır. O, tarixşünas istedadına malik olduğu üçün istifadə etdiyi şifahi məlumata tənqidi surətdə yanaşaraq, bunların içərisindən daha mötəbər olanları seçmişdir. "Kitab fituh əl-buldan"ın məziyyəti orasındadır ki, bu əsər, İ.Y.Kraçkovski demişkən, "quru bir hərbi tarix deyildir. Əl-Bəlazuri əhali və mühacirət haqqındakı yerli məlumatı diqqətlə toplayırdı. O, dəftərxanalarda ərəb dilinin işlənməsi, vergilər, sikkə işləri, ərəb hürufatının tarixi haqqında tam təfsilatı ilə bir sıra tarixi məlumat verir"[3].

Əl-Bəlazurinin Azərbaycan və Arran haqqında, ərəb ordularının bu ölkələrə hərbi yürüşləri, Azərbaycan vilayət və şəhərlərinin hakimləri ilə ərəb hərbi rəislərinin bağladıqları

---

[1] Arib ibn Sa'd al-Katib al-Kortobi. Tabari continiatus. Ed. M.J. de Goeje, 1871 (sonrakı səhifələrdə bu mənbə Arib göstəriləcəkdir). Həmçinin bax: M.X.Şərifli. Sitat gətirilən əsəri, səh. 22-23.

[2] Kitab futuh al-Buldan. Liber expugnationis regionum. Ed. M.J. de Goeje, Leiden, 1870 (sonrakı səhifələrdə bu mənbə əl-Buldan göstəriləcəkdir). Əl-Bəlazuri haqqında b a x: В.И.Беляев. Арабские источники по истории туркмен и Туркмении IX-XIII вв., стр, 18-19; И.Ю.Крачковский. Арабская географическая литература, стр. 35, 154-156, 158, 161, 206, 208, 302; Х.А.Р.Гибб. Арабская литература, стр. 56; C.H.Becker. Al-Beladhori, EI, I, 624-625; C.Brockelmann. GAL, I, 141-142

[3] И.Ю.Крачковский. Избор. Соч., т. IV, стр. 156.

müqavilələr, ərəb tayfalarının Azərbaycan ərazisinə köçürülüb yerləşdirilməsi haqqında verdiyi məlumat bizim tədqiqatımız üçün əhəmiyyətli olmuşdur.

Əl-Bəlazurinin verdiyi məlumat ən xırda təfərrüatda belə digər orta əsr tarixçilərinin məlumatı ilə düz gəldiyinə görə bu məlumatın səhihliyi heç bir şübhə doğurmur[1].

İzzəddin Əbü-l-Həsən Əli ibn Məhəmməd ibn əl-Əsir (1160-1233) Azərbaycanın siyasi tarixinə dair çoxlu material verir. Onun "əl-Kamil fit-tarix" ("Tarixə dair mükəmməl məcmuə")[2] adlı əsəri dünya tarixi haqqında on iki cildlik böyük bir külliyyatdır. Burada hadisələr xronoloji qaydada, ilbəil verilir. İbn əl-Əsirin 303 (915)-cü ilədək Azərbaycanda baş vermiş hadisələrdən bəhs etdiyi hissələr əl-Bəlazurinin əsərindən götürülmüş materiallar da əlavə edilməklə, ət-Təbərinin əsərinə əsaslanır. Azərbaycanda 303 (915)-cü ildən sonra - 290-363 (903-974)-cü illər baş vermiş hadisələr haqqında məlumatı ibn əl-Əsir, ət-Təbərinin davamçısı olan tarixçi Sabit ibn Sinanın əsərindən götürmüşdür. Hadisələrin təsvirini 370 (980)-ci ilədək davam etdirən "Təcarib ül-üməm" ("Xalqların təcrübəsi") əsərinin müəllifi ibn Miskəveyh də Sabit ibn Sinanın əsərindən istifadə etmişdir. İbn əl-Əsir ibn Miskəveyhinin də materiallarını öz salnaməsinə daxil etmişdir. Sacilər haqqında ət-Təbəri, Arib və ibn Miskəveyhə nisbətən daha geniş məlumat verən ibn əl-Əsir tarixçi Əbu Zəkəriyyə Yəzid ibn Ayas əl-Əzdi əl-Mavsilinin bizə gəlib çatmamış "Tarix Mavsil" ("Mosul tarixi") əsərindən də istifadə etmişdir. Bu əsərdə Sacilər haqqında başqa müəlliflərdə təsadüf edilməyən çox maraqlı və müfəssəl məlumat verilmişdir. İbn əl-Əsir

---

[1] Əl-Bəlazurinin əsərləri ərəblərin Azərbaycanı istila etməsi haqqındakı hissə P.KJuze tərəfindən rus dilinə tərcümə edilmişdir. Bax: Əl-Bəlazuri. Ölkələrin istilası kitabı. Azərbaycan tarixinə dair materiallar. Azərbaycan tədqiq və tətəbbö cəmiy-yəti, Bakı, 1927.

[2] Ibn-el Athire chronicon, quod perfectissimum Inscriibtur. Ed C.I.Tornberg, 14 Bde, Lugbuni Batavorum, 1851-1876; 12 Bde, Kairo, 1290, 1303 (sonrakı səhifələrdə bu mənbə - İbn əl-Əsir göstəriləcəkdir). Onun haqqında b a x; C.Brockelmann. GAL, I, 345-346- SB, I

ibn Ayasdan hörmətlə yazır, onu ləyaqətli imam, hərtərəfli biliyə malik alim adlandırır və qeyd edir ki, ibn Ayas təsvir etdiyi hadisələrin şahidi olmuşdur[1].

Qeyd etmək lazımdır ki, ibn əl-Əsir ət-Təbərinin əsərinin bizə gəlib çatmayan mükəmməl redaksiyasından, həmçinin sonradan itmiş bir çox mənbələrdən istifadə etmişdir. Misal üçün, ibn əl-Əsir Babək üsyanı haqqında əlavə olaraq çoxlu maraqlı məlumat verir ki, bunlar ət-Təbərinin əsərində yoxdur, bundan başqa, ibn əl-Əsir Azərbaycan xürrəmilərinə qarşı müharibədə Afşin Heydər ibn Kavusun fəaliyyəti ilə əlaqədar olaraq onu ət-Təbəriyə nisbətən daha ciddi xarakterizə edir.

İbn əl-Əsirin ət-Təbəri[2], əl-Bəlazuri və digər müəlliflərə etdiyi əlavələr onun əsərlərini Azərbaycan tarixinə aid mühüın müstəqil mənbə kimi qiymətləndirməyə haqq verir.

Babəkin Bizans imperatoru Feofillə yazışması haqqında ibn əl-Əsirin verdiyi məlumat da maraqlıdır.

Beləliklə, demək olar ki, ibn əl-Əsir öz dövrünün birinci dərəcəli tarixçisi olmuşdur; buna görə ibn əl-Əsirin hətta "tarixçisi" sözünün o zamankı mənasında da tarixçi olmadığı haqqındakı yanlış fikri gözdən keçirib dəyişdirmək lazımdır[3].

---

[1] İbn əl-Əsir, VII, 300, "va kənə imamən fadilən alimən bimə yəqul və huvə yuşahidul-hal". Əbu Zəkəriyyə əl-Əzdi 334(945)-ci ildə vəfat etmişdir. Onun üçcildlik "Mosul tarixi" əsərindən yalnız ikinci cildi (719-837-ci illərin hadisələri) bizə gəlib çatmışdır. Onun haqqında bax: Qurqis Avvad. Mədinət əl-Mausil. Bağdad, 1959, səh. 16.

[2] İbn əl-Əsir və ət-Təbərinin materiallarının müqayisəsi haqqında b a x: O.B.Frolova. Ibn əl-Əsir (XIII əsr) salnaməsinin mənbələri SSRİ xalqlarının tarixinə həsr olunmuş bölmələrdə. Dissertasiyasının avtoreferatı, L., 1954; İbn əl-Əsir və ət-Təbərinin dil xüsusiyyətlərinə görə tutuşdurulması haqqında bax: C.Brockelmann. Das verhaitnis von İbn-el-Athiri Kamil fit Tarih in Tabaris ahbar errusul val muluk. Strassburg, 1820.

[3] "Tarix əl-Kamil"dən Azərbaycan tarixinə dair materiallar, səh. 8.

Əbu Hənifə əd-Dinəvərinin (təxminən 895-ci ildə vəfat etmişdir) "Kitab əl-Əxbar ət-Tivəl" ("Uzun rəvayətlər kitabı")[1] əsərində Babək üsyanının son dövrünə həsr olunmuş səhifələr xüsusi maraq doğurur.

Azərbaycanın, həmçinin Xilafətin bir çox digər vilayətlərinin VII-IX əsrlər tarixinə dair mühüm mənbələrdən biri də Əhməd ibn Əbu Yəqub ibn Cəfər əl-Yəqubinin (897-ci ildə vəfat etmişdir) "Tarix"[2] əsəridir. Əl-Yəqubinin əsərində hadisələrin şərhi 872-873-cü ilədək çatdırılır: bu əsərdə Azərbaycan tarixinə dair verilmiş materiala başqa mənbələrdə təsadüf edilmir.

X əsrin orijinal coğrafiyaşünas müəlliflərindən biri olan[3] Əbü-l-Həsən Əli ibn əl-Hüseyn ibn Əli əl-Məsudinin (956-ci ildə vəfat etmişdir) [4] əsərlərində Azərbaycan, xüsusilə də Xəzər dənizi haqqında, onun qərb sahillərində yerləşən ölkələr haqqında, Urmiya gölü haqqında maraqlı və müfəssəl məlumat vardır. Onun əsərlərindən ikisi – tarixi-coğrafı əsər olan "Mürüc əz-zəhəb və məadin əlcəvahir" ("Qızıltəmizləmə yerləri və əlvan daş mədənləri") və coğrafi əsər olan "Kitab ət-tənbih və-l-işrəf" ("Xəbərdarlıq və təkrar yoxlama kitabı") Hindistandan Mərakeşə, Qırmızı dənizdən Xəzər dənizinə qədər, demək olar ki, bütün ölkələrə səyahət zamanı müəllifin şəxsi müşahidələri və sorğu-sualı əsasında yazılmışdır.

Bu əsərlər Abbasilər xilafətinin mədəni həyatı haqqında ən yaxşı hesabatdır. Bunlarda hər bir ölkə, vilayət, şəhər və xalqın tarixi və coğrafiyası haqqında məlumat verilir. Əsil ensiklopediya olan əl-Məsudinin əsərləri ət-Təbərinin əsərlərindən sonra IX əsrdən

---

[1] Kitab al-ahbar at-tiwal. Ed. W. Guirgass. Leiden, 1888 (sonrakı səhifələrdə bu mənbə əd-Dinəvəri göstəriləcəkdir). Onun haqqında bax: S.Brockelmann. GAL, I, 153; SB, I, 187.

[2] А.Ю. Крачковский. Избр. Соч., т. IV, стр . 151-154; C.Brockelmann. SB, I, P- 405; əl-Yəqubinin əsərinin Azərbaycana aid hissəsini P.K.Juze rus dilinə tərcümə etmişdir

[3] T.N.Kramers. Masudi. EI, SB, 67.

[4] Əl -Məsudi haqqında bax: Н.Ю.Крачковский.Избр.Соч., т. IV, стр. 171-184; S.Brockelmann. GAL, I, 220-221.

başlayaraq Azərbaycan tarixinə dair çox mühüm mənbələrdir. Səlcuq sultanlarından Alp Arslan və Məlik şahın vəziri Nizam ül-Mülkün "Siyasətnamə" adlı siyasi traktatından[1] "bidətçilər" və xalq üsyanları haqqındakı fəsillər xüsusilə əhəmiyyətlidir: həmin fəsillər Babək və xürrəmilər haqqındakı materialı tamamlamaqla bərabər, xürrəmilərin üsyanı və onun Xilafətin digər vilayətlərinə yayılmasına dair əlavə məlumat verir.

Əbu-l-Fərəc Məhəmməd ibn İshaq ən-Nədiminin (995-ci ildə vəfat etmişdir) "əl-Fihrist"[2] əsərində xürrəmilər hərəkatının meydana gəlməsi, Cavidan və Babəkin gəncliyi haqqında material vardır. Müəllif bu əsəri 987-988-ci ildə yazmağa başlamış və XI əsrin əvvəllərində bitirmişdir. İbn ən-Nədiminan bu əsəri nə məqsədlə yazdığı onun öz müqəddiməsindən aydın görünür: "Bu kitab, bütün ərəb və qeyri-ərəb xalqların ərəb dilində və hürufatında, müxtəlif elmlərə dair kitablarının siyahısı, həmin kitabların tərtibçiləri haqqında, müəlliflərinin kateqoriyası və mənşəyinə dair, təvəllüd tarixi, vəfat tarixi haqqında, ölkələrinin yeri, məziyyət və nöqsanları haqqında, icad edilmiş hər bir elmin meydana gəlməsindən bizim günlərədək, yəni hicri 377-ci ilədək məlumat verən məcmuədir"[3].

V.V.Bartold yazır ki, ibn ən-Nədiminin əsəri "islamın ilk dörd əsrinin ədəbiyyatı və elmi haqqında daim başlıca məlumat mənbəyi olaraq qalacaqdır"[4].

Biz burada qeyd etməliyik ki, Babək və xürrəmilərin mənşəyi haqqında məlumat yalnız ibn ən-Nədiminin əsərində mühafizə olunub saxlanmışdır, çünki ən-Nədiminin həmin məlumatı götürmüş olduğu Vaqid ibn Əmr ət-Təmiminin "Babəkin tarixi" əsəri bizə gəlib çatmamışdır.

---

[1] Siyasətnamə. XI əsr vəziri Nizam-ül-Mülkün dövləti idarə etmək haqqında kitabı. Fars dilindən ruscaya B.N.Zaxoder tərcümə etmişdir. M., 1949.

[2] İbn ən-Nədim haqqında b a x: C.Brockelmann. GAL, I, 147-148; SB, I, 207.

[3] Əl-Fihrist, səh. 2; И.Ю. Крачковский. Избр. Соч., т. IV, стр. 238-240.

[4] В.В.Бартольд. Мусульманский мир, стр.51.

Təsviri xarakter daşıyan "Kitab əl-məsalik və-1-məmalik" ("Yollar və dövlətlər haqqında kitab") adlı coğrafı əsəri bizə gəlib çatan ilk müəllif Əbü-1-Qasim Übəydullah ibn Abdullah ibn Xordadbeh (912-913-cü illərdə vəfat etmişdir) olmuşdur[1]. Xəlifə əl-Mötəsimin hakimiyyəti dövründə Cibəl əyalətinin poçt rəisi vəzifəsini tutan[2] ibn Xordadbeh o zamanın demək olar, bütün yazılı mənbələri ilə tanış olmuş və onlardan istifadə etmişdir. Əl-Müqəddəsi göstərir ki, ibn Xordadbeh "xəlifənin vəziri idi və Əmir əl-mömininin kitabxanasında saxlanılan elmi sərvətlərdən tam istifadə etmək hüququna malik idi"[3].

"Yollar və dövlətlər haqqında kitab" Zaqafqaziya ölkələrinin, xüsusilə Azərbaycanın tarixi və tarixi coğrafıyasını öyrənmək üçün çox mühüm mənbədir. Yaşayış məntəqələri arasındakı məsafələri göstərən müfəssəl yol marşrutları şəhərlər, iqtisadiyyat, kənd təsərrüfatı haqqında müxtəlif məlumat, hər cür coğrafı məlumat, Azərbaycanın inzibati bölgüsü, vergilər və i.a. haqqında məlumat - bütün bunlar ibn Xordadbehin əsərini ərəb coğrafı ədəbiyyatının elə əsərləri sırasına keçirir ki, bunlarsız orta əsrlər Xilafətinin tarixini tədqiq etmək olmaz[4].

Əbu İshaq İbrahim ibn Məhəmməd əl-Fərnan əl-İstəxri (təqribən 951-952-ci illər)[5] 930-933-cü illərdə özünün "Kitab məsalik əl-məmalik" ("Dövlətlərin yolları haqqında kitab") əsərini tərtib

[1] Kitad al masalik wal mamalik. BGA, 1889 (sonrakı səhifələrdə bu mənbə-Ibn Xordadbeh göstəriləcəkdİr). Onun haqqında b a x: И.Ю.Крачковский. Избр. Соч., т. IV, стр. 147-150; C. von Arendonk. Ibn Khorbadhben. EI, II, 442; C.Brockelmann. GAL, I, 225-226; SB, 1,404.

[2] Əl-Fihrist, səh. 149.

[3] Əl-Müqəddəsi, BGA, III, 362.

[4] П.Г.Булгаков. "Книга путей и государств" Ибн Хордадбеха, стр.127-136.

[5] Kitab al-mamalik, BGA, I (sonrakı səhifələrdə bu mənbə əl-İstəxri göstəriləcəkdir). Qnun haqqında bax: И.Ю.Крачковский. Избр. Соч., т. IV, стр. 194-198; Hüdud əl-aləm, səh. 11-17; C.Huart. Al-Balkhi. EI, 1, 638; yenə də onun: Al-Istakhri, EI, II, 596; M.Y. de Goeje. Die Istakhri-Balkhi Frage, p. 42 və sonra C.Brockelmann. GAL, I, 229, SB, 1, 408.

edərək Əbu Zeyd ibn Səhl əl-Bəlxinin (850-934) "Süvar əl-Əqalim" ("İqlimlərin təsviri") əsərindən coğrafı xəritələr atlasını izahları ilə birlikdə işləyib düzəldərək, demək olar ki, bütünlüklə öz əsərinə daxil etmişdir. Əl-İstəxri Azərbaycan və Arranın sərhədləri, şəhərləri, marşrutları, məsafələri haqqında ətraflı məlumat verir, Xəzər dənizini təsvir edir. Əl-İstəxrinin əsərini onun xahişi ilə 951-ci ildə müasiri Əbu-1-Qasim ibn Havqəl onun bu əsərini yenidən işləmiş və tamamlamışdır. İbn Havqəl yazır ki, "Kitab əl-məsalik və-1-mətnalik", yaxud "Kitab surət əl-ard" əsərini tərtib edərkən "ibn Xordadbehin, əl-Ceyhaninin kitablarından, Əbu-1-Fərəc Kudama ibn Cəfərin yaddaş kitabından ayrılmırdım. Mən Əbu İshaq və-1-Farisi (əl-İstəxri) ilə görüşdüm. Mən Azərbaycanı bu səhifədə olduğu kimi təsvir etdim, o, bunu bəyəndi, lakin əl-Cəzirəni bundan üstün tutdu. 0 (əl-İstəxri) mənə dedi: Mənim kitabımın səhv olan yerlərini düzəltməyi səndən xahiş edirəm". Mən həmin kitabda onun müəllif olduğu bir neçə xəritəni düzəltdim, lakin sonradan bu qərara gəldim ki, həmin kitabı ayrıca olaraq tərtib edim, səhvlərini düzəldim, ona izahı ilə birlikdə xəritələr daxil edim. Əbü-1-Fərəcin yaddaş kitabı hər bir cəhətdən, ümumiyyətlə, doğru və dürüst olsa da, mən ona riayət etməməyi qət etdim. Mən bu kitabımda onun həkimanə sözlərini verməli idim, lakin başqasının zəhmətinin məhsulu olan şeydən istifadə etməyi layiq bilmədim"[1].

İbn Havqəlin kitabında Azərbaycan və Arranın maraqlı coğrafi təsviri (dağları, çayları və iqlimi) verilir. Habelə əkinçilik və suvarmanın vəziyyəti, torpağın münbitliyi, bağ, otlaq və faydalı qazıntıları, ixracat və idxalat malları, yolları, bazar və karvansaraları sikkə, vergi və rüsumları və sairədən danışılır. İbn Havqəl əhalinin məişəti: yeməyi, geyimi, qonaqpərvərliyi, adamların xarakteri Azərbaycanın şəhər və kəndləri haqqında da məlumat verir. Əl-İstəxri kimi ibn Havqəl də Azərbaycan və Arranın sərhədlərinin müfəssəl təsvirini, habelə paytaxtlar və digər şəhərlər haqqında tarixi-coğrafı məlumat verir: "Mən Azərbaycanın xəritəsini verir və

[1] İbnHavqəl, BGA, 11,235.

orada heç bir dənizlə əlaqəsi olmayan Xilat və Kəbuzan göllərinin təsvirinə qədər dağları, yolları, Araz və Kür kimi şirin sulu çayları göstərirəm"[1].

Göründüyü kimi, ibn Havqəlin Azərbaycan haqqında verdiyi məlumat çox müfəssəl və dürüstdür: bu məlumata etibar etmək olar. Buna görə də iqtisadi məsələlərin tədqiqində ibn Havqəl və əl-İstəxrinin əsərləri başlıca mənbə olacaqdır.

Şəmsəddin Əbu Abdullah Məhəmməd ibn Əbu Bəkr əl-Müqəddəsi (946-947- 1000-ci illər)[2] özünün "Əhsən ət-təqasim fı mərifət əl-əqalim" ("İqlimləri dərk etmək üçün ən yaxşı bölgü") əsərində əl-İstəxri və ibn Havqəlin materiallarına əlavə olaraq Azərbaycan tarixi haqqında bir çox qiymətli məlumat verir.

İ.Y.Kraçkovski qeyd edir ki, əl-Müqəddəsi "ətraflı düşünülmüş və metodik işi ilə fərqlənir"[3]. Əl-Müqəddəsi oxucuya müraciətlə yazır: "Bil ki, mən bu kitabı möhkəm bünövrə üzərində yazıb ona davamlı dayaqlar vermişəm. İmkanım daxilində həqiqəti yazmağa çalışmışam, ağıllı adamların biliyindən kömək istəmiş və Allahtaalaya yalvarmışam ki, səhv və nöqsanları məndən uzaq etsin, məni ümid və təvəkkülə yaxınlaşdırsın. Bu kitabın ən möhkəm istinadı mötəbər əsası mənim görüb dərk etdiklərim və öyrənib yazdıqlarımdır"[4].

Əl-Müqəddəsidə rustak və şəhərlərin sayı haqqında məlumata rast gəlirik ki, başqa coğrafiyaşünasların əsərlərində belə məlumat yoxdur. Əl-Müqəddəsi Azərbaycanı təsvir edərkən şəhərlərin topoqrafıyası, salınma tarixi, əhalisi, dili, dini, mədəniyyəti, məişəti, adətləri sənətkarlığı, ixracat və idxalat malları, suvarma, kənd təsərrüfatı bitkiləri, yerli çəki və ölçü vahidləri, vergilər və nəhayət,

---

[1] İbn Havqəl, BGA, II, 8.

[2] Al-Muqaddasi. Ahsan at-taqasim, Fi ma'rifatal aqalim. BGA, II (sonrakı səhifələrdə bu mənbə əl-Müqəddəsi göstəriləcəkdir) onun haqqında bax: C.Brockelmann, GAL, I, 230: SB, S.411.

[3] И.Ю.Крачковский. Избр. Соч.,т. IV, стр.

[4] Əl-Müqəddəsi. III, 3.

yol marşrutları haqqında məlumat verir. Beləliklə, X əsr ərəb coğrafiyaşünasının klassik inkişaf dövrünü tamamlayan əl-Müqəddəsinin əsəri Azərbaycanın, həmçinin Abbasilər xilafətinin tərkibinə daxil olan bir çox başqa ölkələrin iqtisadi tarixinə dair qiymətli mənbədir.

Azərbaycan haqqında məlumat verən orta əsrlər ərəb coğrafiyaşünaslarından biri də Əbu Bəkr Əhməd ibn Məhəmməd ibn İshaq ibn əl-Fəqih əl-Həmədanidir (902-903-cü illərə yaxın yazmışdır)[1]. Onun "Kitab əl-buldan" ("Ölkələr haqqında kitab"), yaxud "Kitab əxbar əl-buldan" ("Ölkələr haqqında hekayələr kitabı") adlı böyük coğrafi külliyyatında hər cür elmi tənqiddən uzaq hekayələr toplanmışdır ki, bunlarda azacıq da olsa coğrafiyaya, yaxud coğrafi adlar məsələsinə toxunulur.

Ibn əl-Fəqihin bir növ kompilyativ coğrafi müntəxəbat xarakterli əsəri demək olar ki, başdan-ayağa digər yazılı mənbələr (əl-Mədaini, əl-Bəlazuri, əl-Yəqubi, ibn Xordadbeh və başqaları) əsasında tərtib edilmişdir. Əl-Fəqihin verdiyi məlumat, qismən də şifahi rəvayətlərə [2]- hadisələrə, əfsanələrə və i.a. əsaslanır. İbn Xordadbeh kimi ibn əl-Fəqih də Azərbaycanın bəzi şəhərlərinin cografı təsvirini verərkən Afşinin xürrəmilərlə etdiyi müharibələr dovründə gördüyü tikinti işlərindən də qısaca danışır.

Xəlifə Mütədidinin hakimiyyəti dövründə (892-902) yaşamış Əbu Əli Əhməd ibn Rusta (IX əsrin sonu - X əsrin əvvəlləri) böyük bir ensiklopedik əsərin müəllifidir: bu əsərin bizə yalnız yeddinci hissəsi olan "Kitab əl-əlak ən-nəfisə" ("Qiymətli sərvətlər kitabı") gəlib çatmışdır. İbn Rusta əsərinin coğrafıyaya dair bölməsində

---

[1] Kitab al-Buldan, BGA, V. İbn əl-Fəqih haqqında b a x: И.Ю.Крачковский. Избр. Соч., т. IV, стр. 124-127; В.Р.Розен. Рецензия на издание де Гуе, стр. 239-248; А.З.Валидов. Мешхедская рукопмсь Ибн ал-Факихас, стр. 237-248; А.П.Ковалевский. Книга Ахмада ибн Фадлана, стр. 9-117; C.Brockelmann. GAL, I.

[2] Kitab al a'Iaq annafisa, BGA, VII. İbn Rusta haqqında b a x: И.Ю.Крачковский. Избр. соч., т. IV, стр. 159-160; C. von Arendonk. Ibn Rosteh. El. II, 435; C.Brockelmann. GAL, I, 227; SB, 1,406.

Məkkə və Mədinənin, sonra digər ölkələrin – əvvəlcə "İslam aləminin", sonra isə bütün qalan yerlərin təsvirini verir. İbn Rustanın əsəri başdan-ayağa yazılı mənbələrə - ərəb səyyahlarının və öz müasiri olan alimlərin əsərlərinə əsaslanır. Buna görə də ibn Rustanm Azərbaycan və Arran haqqındakı məlumatı başqa mənbələrdən bizə məlum olan materialın təkrarıdır, odur ki, onun bütün yazdıqlarını kütləvi ədəbiyyat tipinə aid etmək olar.

Arami Əbü-1-Fərəc Kudama ibn Cəfər əl-Katib əl-Bağdadi (922-948-ci illər arasında vəfat etmişdir)[1] ibn əl-Furatın vəzirliyi dövründə nəzarət idarəsinin müdiri ("sahib məclis əz-ziməm"), ömrünün sonlarında isə "sahib əl-bərid" - poçtun müdiri olmuşdur. "Kitab əl-xərac və sənət əl-kitabə" ("Xərac və katiblik sənəti haqqında kitab") əsərində Xilafətin bütün vilayətlərindən, o cümlədən də Azərbaycan və Arrandan gələn vergilər haqqında məlumat vardır. Bundan başqa, həmin əsərdə poçt marşrutları göstərilir, poçt xidmətinin təşkili haqqında məlumat və Azərbaycanın iqtisadi coğrafıyasına dair materiallar verilir.

Kudama vergi məsələlərinə xüsusi fikir verərək, Xilafətin ayrı-ayrı vilayətlərində vergilərin bölüşdürülməsi və yığılması sistemini ətraflı təsvir edir, hər bir əyalətdən yığılan verginin dürüst məbləğini göstərir.

"Kitab əl-xərac" Xilafət divanlarının sənədlərinə əsaslanır. Kudama ibn Xordadbehin əsərindən istifadə etdiyi materiala xeyli əlavələr etmişdir ki, bu da hər iki mənbədə verilən materialları tutuşdurmağa və bunlardakı rəqəmləri dəqiqləşdirməyə imkan verir.

İbn Xordadbehin, əl-Yəqubinin, ibn əl-Fəqihin, ibn Rustanın və Kudamanın verdiyi məlumatlar bir sıra hallarda digər mənbələrdəki materialları təkrar etsə də, onları tamamlayır, yaxud əlavə yeni məlumatla zənginləşdirir. Bu əsərlərdəki məlumatlarda

---

[1] Kitab al-harag, BGA, VI. Kudama haqqında b a x: И.Ю.Крачковский. Избр. Соч., т. IV, стр. 160-162; Kudama ibn Cəfərm "Bəlağət" əsəri, səh. 373-387; C.Brockelmann. Kudama, EI, II, 1158; GAL, I, 228; SB, I, 406-407.

yalnız yaşayış məntəqələri arasındakı məsafələrdə, həmçinin digər kiçik təfərrüatlarda müxtəliflik nəzərə çarpır.

Əbu Əli Əhməd ibn Məhəmməd ibn Miskəveyhin (1030-cu ildə vəfat etmişdir)[1] "Kitab təcarib al-üməm" ("Xalqların təcrübəsi haqqında kitab") adlı çox böyük əsərində biz xürrəmilərin üsyanı haqqındakı məlumatdan istifadə etmişik ki, bu da ət-Təbərinin əsərindən köçürülərək tərtib edilmişdir. İbn Miskəveyhin əsərində 300(912-913)-cü illərdən sonrakı hadisələrin təsviri, daha doğrusu, Sacilərin fəaliyyətindən söhbət gedən hissələr maraqlıdır. Həmin hadisələr haqqındakı məlumatı ibn Miskəveyh ət-Təbəridən və Aribdən götürmüş olsa da, özündən əvvəlki müəlliflərdə olmayan maraqlı məlumat da verir[2].

Cəmaləddin əl-Əzdinin Sacilər sülaləsinə həsr edilən "Vaxtilə movcud olmuş dövlət haqqında məlumat" əsəri Sacilər dövlətinin siyasi tarixini öyrənmək üçün maraqlı mənbədir. Bu əsərin əlyazması Britaniya muzeyində saxlanılır[3]. Bu əsərdə Sacilər haqqında digər mənbələrdə olan məlumatı tamamlayan çox maraqlı material verilməsinə baxmayaraq, vətən tarixşünaslığında bu mənbədən istifadə edilməmişdir.

Məşhur ərəb coğrafıyaçısı və səyyahı Yaqut ibn Abdullah ər-Rumi əl-Həməvinin (1179-1229) "Mu'cəm əl-buldan" ("Ölkələrin

---

[1] The conciuding Portuon of the Experiences of the Nations by Miskawaihi, arabic toxt ed. by H.F.Amedroz, v. 1, Oxford, 1920 (sonrakı səhifələrdə bu mənbə İbn Miskəveyh göstəriləcəkdir). Onun haqqında b ax: C.Brockelmann. GAL, I, 342, 518, 525; SB, I, 582; Б.Я.Шустер. Место Ибн мискавейха среди арабоязычных историков, стр. 127-138; yenə onun: Шестой том Всемирной истории. Ибн Мискавейха как источник по социалбном отношениям в позднем халифате, стр. 82-88.

[2] Kitab tagarib al-uman. Ed. M.J. de Goeje. FCA, t. II, Lugbun Batavorum, 1871.

[3] Ms. Or. 3685 in British Museum, Bax: Ch. Ricu Supplement to the catalogue of the Arabic Manusarits. London, 1894, № 461 (fol. 25a-29 a).

əlifba sırası ilə siyahısı") adlı çox böyük coğrafi lüğəti Azərbaycan və Arranı öyrənmək üçün son dərəcə mühüm mənbədir[1].

"Mu'cəm əl-buldan" böyük kompilyativ əsərdir. Burada çoxu bizə gəlib çatmayan yüzdən artıq ilk mənbədən istifadə edilmişdir. Yaqut Azərbaycan və Arran tarixinə dair məlumatında əl-İstəxri ibn əl-Fəqih və bir çox başqa müəlliflərin əsərlərindən material verir. Özü də demək olar ki, hər yerdə hansı mənbədən istifadə etdiyini göstərir və başqa əsərlərdən götürdüyü materialı öz səyahətləri zamanı topladığı məlumatla tamamlayır. O öz materialını müvafiq ölkə, vilayət, şəhər və kəndlərin adlarına uyğun əlifba sırası ilə sistemə salmışdır. Yaqutun lüğətinin xüsusiyyəti burasındadır ki, müntəzəm olaraq, gətirdiyi coğrafı adların dürüst tələffüzünü müəyyən edir və beləliklə, toponimika cəhətdən düzgün nəticələr çıxarmağa imkan verir.

Yaqut şəhərləri və yaşayış məntəqələrini təsvir edərkən bunların görməli yerlərini saymaqdan əlavə, həmin yerlərdən çıxmış görkəmli şəxsiyyətlərin tərcümeyi-halı haqqında da məlumat verir.

Əbu Yusif Yəqub əl-Kufinin (731-798) müsəlman hüququ haqqındakı "Kitab əl-xərac" ("Xərac haqqında kitab") əsəri Azərbaycanın və Xilafətdəki digər vilayətlərin tədqiq etdiyimiz dövr tarixi üçün xüsusilə qiymətlidir [2]. Xəlifə Harun ər-Rəşidin hakimiyyəti zamanı (786-809) Bağdadda qazılıq edən Əbu Yusif xərac və onun yığılması haqqında, dövlət torpaqlarında və xüsusi şəxslərə məxsus torpaqlarda kəndlilərin feodal istismarımn növləri və formaları və i.a. haqqında xəlifə üçün çox mühüm və qiymətli məlumat verən bir əsər tərtib etmişdir[3].

---

[1] Mugam al-buldan. Jacuts geographicshes worterbuch. V nəşr. F.Wustenfeld, 6 Bde. Leipzig. 1866-1873 (sonrakı səhifələrdə bu mənbə Yaqut göstəriləcəkdir). Onun haqqında bax: C.Brockelmann. GAL, I, 479-480; SB, I, 1880; О.И.Сенковский.Некоторые сомнения касателбно истории Грузии, стр. 191; И.Ю.Крачковский. Избр. соч., т. IV, стр. 370.

[2] C.Brockelmann. GAL, I, 171; SB, I, 283.

[3] Э.Т.Сихарулидзе."Китаб ал - Харадж" Абу Йусуфа Йакуба как источник по истории феодальных отношений в халифате. Автореферат дисс.

"Kitab əl-xərac" elə bir mənbədir ki, Xilafətin VII-VIII əsrlər tarixini tədqiq edərkən onsuz keçinmək olmaz. Əbu Yusifin əsərində vergi və əhalinin natural mükəlləfıyyəti sistemi həyata keçiriləndə istilaçı ərəblərin öz mənafelərini necə güddüklərindən çoxlu məlumat verilir.

Ərəblərin Azərbaycanda yeritdikləri inzibati siyasət və idarə sistemi məsələlərini təsdiq edərkən ibn Xəldunun "Kitab əl-ibar və divan əl-mübtəda" əsərində qiymətli materiala rast gəldik. Ərəblərin vergi siyasəti və torpaq münasibətləri haqqında Məkrizinin “əl-Məvaid və-l-i’tibar bi zikr əl-xitab və-l-asar", əl-Kəlkəşən-dinin "Sübh əl-ə'şa fı sina, at al-inşa" əsərində, ət-Tənuhinin "əl-Fərəc bə'd əş-şiddə" və "Kitab nişvar əl-mühadərə" əsərlərində, əs-Samaninin "Kitab əl-ənsab", ibn əl-Cauzinin "Kitab əl-müntəzəm", əl-Mavərdinin "əl-Əhkam əs-sultaniyyə", əl-Cəhşiyarinin "Kitab əl-yüzara və-1-küttab" əsərində də və i.a. məlumat vardır[1].

Bu əsərlərdə bizim tədqiqatımız üçün ikinci dərəcəli əhəmiyyəti olan çoxlu digər materialdan da istifadə edilmişdir; çünki həmin materialda, başlıca mənbələrdə olmayıb diqqəti cəlb edən bu və ya digər təfərrüat vardır.

Azərbaycanın VII-IX əsrlər tarixi hələ yazılmamışdır. Lakin bu heç də o demək deyildir ki, tarixçilər Azərbaycanın həmin dövr tarixinin bu və ya digər aspektinin tədqiqi ilə məşğul olmamışdır. Tarixçilərin bizi maraqlandıran məsələlərə bu və ya digər dərəcədə toxunan ən mühüm tədqiqatlarının qısa xülasəsini aşağıda veririk. Ərəb istilası ərəfəsində və istila dövründə Azərbaycanın siyasi tarixini öyrənmək nöqteyi-nəzərindən N.V.Piqulevskayanın [2] tədqiqatları diqqəti cəlb edir, bu tədqiqatlar ərəb istilasınadək Azərbaycanın da inzibati bir vahid kimi daxil olduğu Sasanilər İranı

---

Тбилиси, 1958.Bu mənbə materialları A.Y.Yakubovskinin "Об испольных арендах в Ираке в VIII в." adlı məqaləsində təhlil olunur (CB, т. IV, 1947)

[1] İstifadə etdiyimiz ərəb müəlliflərinin əsərlərinin siyahısı kitabın axırında verilmişdir.

[2] Н.В.Пигулевская. Византия и Иран на рубеже VI-VII веков, М.-Л., 1945; yenə onun: К вопросу о податной реформе Хосрова Ануширвана. BDU, 1937, *Ns* 1.

tarixinin bir sıra prinsipial məsələlərini işıqlandırır. N.V.Piqulevskayanın tədqiqatları bizi bir daha inandırmışdır ki, ərəblər Azərbaycanda yeritdikləri inzibati siyasəti və idarə sistemini öz sələfləri olan Sasani və Bizans imperiyalarından əxz etmişdilər.

N.Adons [1] və K.Patkanovun [2] tədqiqatları da Azərbaycanın ərəb istilası dövrü tarixini öyrənmək üçün qiymətlidir, çünki bu tədqiqatlarda təkcə Ermənistanın deyil, Azərbaycan və Gürcüstanın da daxili tarixi məsələləri işıqlandırılır. Azərbaycan tarixinin tədqiqatçısı üçün görkəmli bizansşünaslardan F.İ.Uspenski, Y.M.Kulakovski, A.A.Vasilyev, Q.Laskin və başqalarının əsərləri də faydalıdır. Bu əsərlərdə Azərbaycan ərazisindəki dövlətlərin Bizans ilə qarşılıqlı münasibətlərinin tarixinə, İran-Bizans müharibələri zamanı Bizans qoşunlarının Azərbaycanda fəaliyyətinə, VII-IX əsrlərdə Bizans imperatorlarının Azərbaycan hakimləri ilə qarşılıqlı münasibətlərinə dair bir sıra maraqlı məlumat və müşahidə materialı vardır.

VII əsrdə Albaniyada meydana gəlmiş antifeodal pavlikianlar hərəkatı məsələsi Azərbaycan tarixində yeni problemdir. Ermənistanın qədim əlyazmaları mühafizə olunan Matenadaranda pavlikianlar haqqında mövcud əsərlər belə bir cəhəti müəyyən etməyə imkan vermişdir ki, bu hərəkat məhz Albaniyada meydana gəlmiş və buradan Ermənistan və Bizansa keçmişdir. Buna görə də pavlikianlar hərəkatının guya Ermənistanda meydana gəldiyi barədə bu vaxtadək mövcud olan mülahizə[3] əsassız sayılmalıdır.

---

[1] Burada və sonralar qeyd olunacaq müəlliflərin əsərləri ədəbiyyat siyahısında verilir.

[2] К.П.Патканов. Опыт истории династии Сасанидов по сведениям, сообщаемым армянскими писателями, ч. XIV, СПб., 1869.

[3] Г.Мелик-Бахшян. Павликианское движение в Армении. Ереван, 1955; А.Г.Иоаннисян. Очерки истории армянской освободительной мысли, т. 1. Ереван, 1957 (erm.dilində); С.Т.Еремян. Раннефеодальная культура Армении. Очерки истории СССР, III-IX вв., М., 1958

Q.M.Bartikyanın əsəri də pavlikianlar hərəkatına həsr olunmuşdur, Müəllifin gətirdiyi sənədlərə (Partav kilsə yığıncağının 706-707-ci illərdə qəbul etdiyi qərarlar) əsasən bu hərəkatın meydana gəldiyi tarixi və yeri müəyyən etmək olar.

T.İ.Ter-Qriqoryanın Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun elmi arxivində saxlanılan "Azərbaycan III-VII əsrlərdə", Moisey Kalankatuklunun "Alban ölkəsinin tarixi məsələsinə dair" dərc olunmamış əsərlərində ərəb istilasından əvvəlki Azərbaycan haqqında bir çox maraqlı məlumat vardır.

Ərəb istilasından əvvəlki Azərbaycanın orta əsrlər şəhərlərinin həyatına dair məsələləri tədqiq etmək üçün Azərbaycan tarixçiləri və arxeoloqlarından Y.A.Paxomov, Q.M.Aslanov, Q.M.Əhmədov, İ.M.Cəfərzadə, S.M.Qazıyev, R.M.Vahidov və Z.İ.Yampolskinin əsərlərindən istifadə etmişik. Qazıntılar zamanı əldə edilən materiallara həmçinin mənbələrə əsasən müəyyən edilmişdir ki, Qafqaz albanlarının gürcü və erməni yazıları ilə ümumi əlamətləri olan öz yazısı olmuşdur. Qeyd etmək lazımdır ki, bu məsələnin öyrənilməsində akademiklərdən A.Q.Şanidze, Ş.Abuladze, L.M.Melikset-Bek və Z.İ.Yampolskinin böyük xidməti olmuşdur.

K.V.Treverin əsəri eramızdan əvvəl IV əsrdən eramızın VII əsrinə qədər Albaniyanın tarixi və mədəniyyəti aspektlərinin öyrənilməsinə həsr edilmişdir. Əsər ona görə maraq doğurur ki, burada ölkənin tarixi və arxeologiyasına dair materiallar birlikdə toplanmışdır. Bir sıra nəticələrinin mübahisəli olmasına baxmayaraq, K.V. Treverin kitabı Azərbaycanın (Albaniyanın) orta əsrlər tarixi ilə maraqlananlara lazımi kömək göstərə bilər.

Öz əsərlərində Azərbaycanın ərəb istilasından əvvəlki dövrünün tarixinə diqqət yetirən xarici tarixçilərdən, Sasanilər imperiyasının tarixinə dair böyük bir tədqiqatın müəllifi olan Q.Raulinsonu, "Sasanilər zamanında İran" əsərinin müəllifi A.Kristenseni, "Sasanilər dövründə Qafqaz və Ermənistanın hərbi cəhətdən müstəmləkəyə çevrilməsi" adlı məqalənin müəllifi C.Kramersi, "Bizans imperiyasının tarixi" çoxcildli əsərinin müəllifi Ş.Lebonu, "Atropatenada Roma və Bizans müharibələri" adlı məqalənin müəllifi V.Minorskini, Qafqazdan Bizans ərazisinə

mühacirət etmiş, pavlikianlar haqqında məqalə yazmış Q.le Strenci göstərmək olar.

Vyanada çıxan "Handes Amsoria" jurnalının redaktoru mxitarist N.Akinyan bütün xarici tədqiqatçılar arasında xüsusi mövqe tutur. İllərdən bəri N.Akinyan Moisey Kalankatuklu (Dasxuranlının) "Ağvan tarixi"ni tənqidi surətdə təhlil edən məqalələr yazır. Bir cəhəti qeyd etməmək haqsızlıq olardı ki, N.Akinyan Qafqazda qriqoryan kilsəsinin ilkinliyi məsələsinə dair yazılarında məsələdən dərindən baş çıxardığını göstərir, fikrini isbat etmək üçün hətta mümkün olmayan hər şeyi edir. Özünün hər bir yeni məqaləsində N.Akinyan daha faydalı işlərdə tətbiq olunmağa layiq böyük məharət və dəqiqliklə orta əsr "yalançılarının", yəni Albaniya tarixinin müstəqil inkişafı lehinə danışmağa cüzi də olsa səy göstərmiş tarixçi və xronika müəlliflərinin əleyhinə çıxır. Albaniya tarixçisi Moisey Kalankatuklu haqqındakı bütün məqalələrində N.Akinyan tarixi həqiqəti təhrif etməyə çalışır ki, bizim bəzi müasir tədqiqatçılar da təəssüf ki, bundan istifadə edirlər.

Misal üçün, N.Akinyan belə hesab edir ki, "Ağvan tarixi"nin müəllifi Moisey Kalankatuklu, demək olar ki, bütün hadisələri erməni müəlliflərinin əsərlərindən sadəcə olaraq köçürmüşdür və buna görə həmin mənbə əhəmiyyətsiz bir şeydir. Daha sonra N.Akinyan “Ağvan tarixi"nin müəllifini bir çox hadisə və şəxsiyyətləri özündən uydurmaqda ittiham edir. N.Akinyan bunların sırasına alban knyazı Cavanşiri də daxil edərək iddia edir ki, "ümumiyyətlə belə bir knyaz heç olmamışdır".

Lakin N.Akinyanın məqalələrində Gürcüstan katolikosu Kürion və Albaniya katolikosu Viro haqqında maraqlı məlumatlar vardır; müəllif bu məlumatı Vyanada mxitaristlər kitabxanasında saxlanılan nadir əlyazmalarından götürmüşdür.

Azərbaycan əhalisinin bir qisminə islam dininin, digər qisminə isə qriqoryan dininin qəbul etdirilməsi ciddi məsələlərdəndir. Ərəb istilasına məruz qalmış ölkələrdə islam dininin yayılması haqqında istər tədqiqat xarakteri daşıyan, istərsə də kütləvi xarakterli bir çox əsər yazılmışdır. Ərəb istilasına qədər Azərbaycan əhalisinin bir qismi (cənubda yaşayanlar) atəşpərəst; digər qismi isə (şimalda

yaşayanlar) xristian idi. Buna görə də burada islam dini iki müxtəlif yolla yayılmışdır; məcusların (maqların) yaşadığı cənubda islam dini zor gücünə yayılmış, daha doğrusu, əhalinin qarşısına iki şərt qoyulmuşdu - ya müsəlmanlığı qəbul etmək, ya da məhv olmaq, Buna görə də Cənubi Azərbaycan şəhər və vilayətlərini işğal edərkən ərəblərin bağladığı müqavilələrdən görünür ki, əhali özü üçün yeni olan bu dini hamılıqla qəbul etmişdi, xüsusən ona görə ki, islam dinini qəbul edənlər ilk vaxtlarda can vergisindən azad idi.

Ölkənin şimal hissəsində isə xristian əhalisi "əhl əl-kitab" olduğu üçün islam dinini qəbul etməyə bilərdi, lakin bu halda onlar xəracdan əlavə cizyə də verməli idi. Ölkənin kəndli kütlələrinə göstərilən bu iqtisadi təzyiq nəticəsində Azərbaycanın şimal hissəsinin əhalisi həm ərəblərə, həm də yerli feodallara verilən vergi yükünə tab gətirə bilməyib islam dinini qəbul etməyə məcbur oldu.

V.V.Bartold, Y.A.Belyayev, A.J.Yakubovski öz tədqiqatlarında Azərbaycan əhalisinə islam dinini qəbul etdirmək məsələsinə toxunmuşlar.

Alban və qriqoryan ruhaniləri arasında kilsə rəhbərliyi və birinciliyi üstündə əsrlər boyu davam edən mübarizə, məlum olduğu kimi, qriqoryan kilsəsinin qələbəsi ilə qurtarmış və qriqoryan kilsəsi alban katolikosluğunun bütün kilsə camaatını xarici qüvvələrin köməyi ilə özünə tabe etmişdi. Alban katolikosluğu Eçmiədzinin təkidi ilə Müqəddəs Sinod tərəfindən 1836-cı ildə bağlanmışdır.

Lakin nədənsə tədqiqatçıların çoxu albanlarla ermənilər arasındakı kilsə mübahisələrini bir qədər qərəzlə işıqlandırır. Belə ki, külli miqdarda sənədlərin və çoxlu ciddi tədqiqat nəticələrinin əksinə olaraq, Nerses Akinyanın və S.T.Yeremyanın məqalələrində, A.L.Yakobsonun məqaləsində və K.V.Treverin yuxarıda adı çəkilən əsərində iki düşmən kilsənin mübarizə tarixi tamamilə, yaxud qismən qriqoryan kilsəsinin mənafeyi nöqteyi-nəzərindən işıqlandırılır. K.Patkanov, N.Y.Marr, İ.A.Cavaxov, İ.P.Petruşevski, A.S Vartapetov, T.İ.Ter-Qriqoryan və digər müəlliflərin əsərlərindən görünür ki, VII əsrdə Azərbaycanın şimalında əhali qriqoryan kilsəsinin himayəsi altında olmamış və qriqoryanlıq onlara zorla qəbul etdirilmişdir.

Orta əsrlər dövründə alban və gürcü kilsələrinin erməni kilsəsi ilə qarşılıqlı münasibətləri və mübarizəsi məsələsi isə hələ tədqiq edilməyə möhtacdır.

Azərbaycan tarixində Xəzər problemi mühüm yer tutur. Məlum olduğu kimi, ölkənin şimal hissəsində xəzərlər 150 ilə yaxın ağalıq etmiş və ölkənin cənubuna, Xilafətin içərilərinə tərəf dağıdıcı basqınlar etmişlər.

Xəzər xaqanlığı və xəzərlərin Qafqaz ölkələrinə hücumları haqqında mənbələrdə çoxlu məlumat vardır; bu barədə bir neçə əsər də yazılmışdır ki, bunlann içərisində M.İ.Artamonov və D.M.Danlopun kitablarını, M.Kmoşko, A J.Krımski, Z.M.Bünyadov, K.Tseqledi, S.B.Şişmanın məqalələrini qeyd etmək lazımdır. Xəzərlərin Albaniyada nə qədər qaldıqları haqqında iki rəy vardır. Bunlardan biri A.J.Krımskinin rəyidir ki, xəzərlərin burada 100 il qaldığını qeyd edir; ikinci rəy isə M.İ.Artamonovundur, onun fikrincə, xəzərlər bu ölkədə cəmi üç il ağalıq etmişlər. Mənbələrdə verilən məlumatı ətraflı öyrənmək və tutuşdurmaqla müəyyən etdik ki, həqiqətdə xəzərlər ölkədə 150 ildən də çox qalmışlar, beləliklə, M.İ.Artamonovun tezisi rədd edilmiş olur.

Bu vaxtadək heç tədqiq edilməyən çox ciddi məsələlərdən biri də ərəblərin Azərbaycan ərazisində məskən salması haqqında vaxtilə P.K.Juzenin irəli sürdüyü problemdir. Bu problem haqqında V.V.Bartoldun "Müsəlman aləmi" əsərində, P.K.Juzenin “Zaqafqaziyada IX-X əsrlərdə mütəcəlliblər", M.H.Vəliyevin “Azərbaycan əhalisi etnoqrafik xəzinə "muzeyidir", N.K.Zeydlisin “Bakı quberniyasının etnoqrafik oçerki", A.N.Genkonun "Ərəb dili və qafqazşünaslıq" əsərində və bir sıra başqa müəlliflərin qeydləri vardır.

Bu əsərdə biz mənbələrin köməyi ilə ərəb qəbilələrinin Azərbaycanda yerləşdirilməsi tarixini izləyib, tarixşünaslıqdakı bu boşluğu doldurmağa çalışacağıq.

Azərbaycanın tədqiq etdiyimiz dövrdəki tarixini öyrənmək üçün ölkədə ərəblərin vergi siyasətinə və torpaq münasibətlərinə dair məsələnin böyük əhəmiyyəti vardır. Bu münasibətlər həmin torpaqların əhali ilə dinclik şəraitində bağlanan müqavilələr əsasında

tutulmasından ("sülhən"), yoxsa silah gücünə ələ keçirilmiş olmasından ("ənvətən") asılı idi. Bu məsələ ilə Vətən tarixçilərindən V.Girqas və V.V.Bartold ("Xəlifə II Ömər və onun şəxsiyyəti haqqında ziddiyyətli xəbərlər") məşğul olmuşlar. Tədqiq etdiyimiz dövrdə Azərbaycanda torpaq kateqoriyaları və əhalidən alınan vergi növləri məsələsini öyrənməkdə A.J.Yakubovskinin və Y.A.Belyayevin əsərləri bizə kömək etdi. Azərbaycan şimalda və şimal-qərbdə yerləşən ölkələrlə Bağdadın tranzit ticarətində yükboşaltma məntəqəsi idi. Xilafətin ümumi ticarət sistemində Azərbaycan ticarət mərkəzlərinin oynadığı rolu tədqiq edərkən Ş.A.Mesxianın "IX-XIİI əsrlərdə feodal gürcü şəhərləri tarixindən" və Y.A.Manandyanın "Qədim dövrlərin dünya ticarəti ilə əlaqədar olaraq Ermənistan ticarəti və şəhərləri haqqında"əsərini də gözdən keçirdik. Hər iki əsər öz quruluşu etibarı ilə, həmçinin VII-IX əsrlərdə Gürcüstan və Ermənistan iqtisadiyyatının təşkilinə dair çıxarılan nəticələrinə görə maraqlıdır.

Azərbaycanda pul tədavülü məsələlərini tədqiq etmək üçün professor Y.A.Paxomovun Azərbaycan, Gürcüstan və digər ölkələrin numizmatikasına dair əsərləri çox qiymətlidir.

Azərbaycanın qocaman arxeoloqu İ.M.Cəfərzadənin "Köhnə Gəncənin tarixi-arxeoloji oçerki" əsəri, Y.A.Paxomov, V.M.Sısoyev və L.P.Taşçyanın Bərdə haqqında məqalələri, M.Altmanın Gəncə, M.X.Şəriflinin Şamaxı, V.F.Minorskinin Qazax, S.M.Qazıyev və O.Ş.İsmizadənin Qəbələ, R.M.Vahidovun Mingəçevir, Y.A.Paxomov və Q.M.Əhmədovun Örənqala (Beyləqan) haqqında əsərləri Azərbaycanın iri şəhərlərinin meydana gəlməsi və inkişafı tarixinə həsr olunmuşdur.

Xilafətə qarşı Azərbaycan xalq kütlələrinin hərəkatını və Babəkin rəhbərlik etdiyi xürrəmilər üsyanını tədqiq edərkən, hər şeydən əvvəl, "xürrəm" termininin mənşəyini izah etməyə çalışdıq. Bu termin haqqında, həmçinin xürrəmilər dini barəsində mövcud olan bütün nöqteyi-nəzərləri ətraflı təhlil edərkən bu nəticəyə gəldik ki, "xürrəm" terminini Q.Vayl, Y.A.Manandyan, Q.Flyugel, V.Myur, Q.van Floten, İ.Velhauzen və digər tədqiqatçıları əsərlərində olduğu kimi izah etmək olmaz. Həmin tədqiqatçılar xürrəmiləri hər cür

qəbahət və əxlaqsızlıqda təqsirləndirərək, "xürrəm" terminini istədikləri kimi izah etmiş, onun tarixi və etimoloji köklərini araşdırmamışlar.

F.Engelsin fikirlərinə, həmçinin A.Müllerin və N.V.Piqulevskayanın müşahidələrinə əsasən biz belə bir nəticəyə gəldik ki, "xürrəm" termini qədim fars və qədim erməni sözü olan "xur", "xvar" - "günəş", "gözə görünməyən, mücərrəd atəş" sözləri ilə əlaqəli surətdə izah etmək bəlkə də daha doğrudur. Bu haqda N.Emin və N.Nemətov da öz əsərlərində yazırlar.

Babəkin rəhbərliyi ilə Azərbaycan xürrəmilərinin üsyanından danışmazdan əvvəl biz Azərbaycan və Xilafətin tərkibinə daxil olan qonşu ölkələr ərazisində xürrəmilər üsyanından qabaq baş vermiş xalq hərəkatlarının xarakteri və gedişini tədqiq etdik, habelə xürrəmilər hərəkatını meydana gətirən səbəbləri öyrəndik.

IX əsrin birinci yarısında Babəkin rəhbərliyi ilə Azərbaycan xalq kütlələrinin hərəkatı məsələsi, mənbələrdə və tarixçilərin əsərlərində müxtəlif vaxtlarda müxtəlif şəkillərdə izah edilmişdir. Lakin bu vaxta qədər, ümumiyyətlə, Xilafət tarixinin tədqiqatçıları, xüsusilə də babəki-xürrəmilər hərəkatını tədqiq edənlər orta əsrlər tarixinin bu mühüm hadisəsini öyrənmək məsələsinə lazım olduğu kimi yanaşmamışlar.

Babəkilər hərəkatı təkcə Azərbaycan tarixində böyük yer tutmur. Bu hərəkat qüdrətli Abbasilər dövlətinin ayrı-ayrı dövlətlərə parçalanmasına səbəb olan əsas siyasi qüvvələrdən biri olmuşdur.

Babəkilər hərəkatı Xilafət tarixində ən möhtəşəm xalq hərəkatlarından biri olmuş və X əsr ərəb müəlliflərindən birinin dediyi kimi, ”...az qala Abbasilər dövlətini yıxmışdı"[1]. Babəkin fəaliyyəti və şəxsiyyəti Hannibalın fəaliyyəti və şəxsiyyətinə bərabər tutulur[2].

---

[1] Əl-Məsudi, II, 348.

[2] H.Daghbaschean. Gründung des Bagratidenreiches dürch Aschot Bagratuni, s.2-4; müqayisə et: Əhməd Fərid Riafa'i. Əsr əl-Mə'mun, c. III, Bağdad, 1927, səh. 258.

Lakin bu ötəri müqayisələr Abbasilər xilafətinin taleyi üçün Babəkin rəhbərlik etdiyi xalq hərəkatının həqiqi əhəmiyyətini və Babəkin özünün rolunu yalnız təhrif edilmiş şəkildə göstərir. IX əsrdə Azərbaycan xalq kütlələrinin hərəkatını üsyan kimi qiymətləndirmək azdır. Bu hərəkat, xarici işğalçılara qarşı Azərbaycan xalqının apardığı uzunsürən qüdrətli azadlıq müharibəsi idi.

Bu mübarizənin hansı şüarlar altında edildiyi, babəki-xürrəmilərin sosial siyasəti, hərəkatın güddüyü ınəqsədlər, babəkilər ordusunu təşkil edən xalq kütlələrinə rəhbərlik - bütün bunlar hələ ətraflı tədqiq edilməli olan son dərəcə mürəkkəb məsələlərdir.

Babəkilər hərəkatı haqqında əsasən ərəb mənbələrindən çoxlu məlumat bizə gəlib çatmışdır. Lakin mənbələrdə bir-birinin təkrarı olan bütün bu məlumatlar ən adi həqiqətləri belə bu və ya digər dərəcədə təhrif edir, E.Raytın [1] haqlı olaraq göstərdiyi kimi, qərəzkarlıq ruhu daşıyaraq babəki-xürrəmilər hərəkatını "milli" (bütün Xilafət üçün, sülalə üçün) fəlakət və bədbəxtlik kimi qələmə verir. Bu mənbələrdə Babək özü və onun rəhbərlik etdiyi xalq kütlələri birtərəfli, təhrif olunmuş şəkildə əks etdirilir. Həmin mənbələrdə xəlifələrin müdrikliyindən, Xilafətin ərəb sərkərdələrinin rəşadəti və strateji istedadından uzun-uzadı danışıldığı halda, Xilafətə düşmən olub öz azadlığı uğrunda mübarizə edən Azərbaycan xalqı barəsində az və qərəzkarlıq ruhunda yazılmışdır. IX-X əsrlər salnamə və "tarixlərinin" müəllifləri üsyan etmiş xalqı təhqir edən kobud ibarələr yağdırmaqdan çəkinmirdilər; halbuki bu "qara camaat", "tərbiyəsiz" Xilafətə və onun sərkərdələrinə uzun müddət yaddan çıxmayan bir çox ibrət dərsi vermişlər. Ərəb və erməni mənbələrində, həmçinin onlardan sonra fars və digər dillərdəki mənbələrdə verilən məlumatlarda yeganə fərqli cəhət üsyan etmiş xürrəmilərin verdikləri "qurbanların" sayında bir də bəzi

[1] E. M. Wright. Babak of Badhdh and al-Afshin during the yeaps 816-841; A.D. The Muslim world, v. 38, № 1-2, 1948, p.45 (sonrakı səhifələrdə bu mənbət E.Rayt göslərilələcəkdir).

xırda təfərrüatlardadır. Bütün qalan məsələlərdə həmin mənbələr mahiyyət etibarı ilə bir-birini təkrar edir. Misal üçün, Azərbaycan xürrəmilərinin hərəkatı haqqında fars mənbələrində verilən məlumat babəkilər hərəkatından təqribən yüz il sonrakı dövrdə yaşamış ət-Təbəri, ibn ən-Nədimi, əl-Məsudi, əd-Dinəvəri və başqa ərəb tarixçilərinin verdikləri məlumatm eynən təkrarından başqa bir şey deyildir. Fars dilində yazan müəlliflər, həmçinin nisbətən sonrakı dövrün tarixçiləri IX əsrin birinci yarısı hadisələrinin şərhində Babək və xürrəmilərdən danışarkən əsli olmayan bir çox şeylər uydurmuş, öz dövrünün hakim dairələrinə qulluq göstərərək hadisələri qəsdən tünd boyalarla təsvir etmişlər.

Burjua şərqşünaslarının böyük əksəriyyəti, orta əsr mənbələrinin Babəkə və onun başçılıq etdiyi xalq hərəkatına sinfi cəhətdən məhdud və qərəzli münasibətini tənqidi surətdə, demək olar, heç təhlil etmədən öz tədqiqatlarının səhifələrinə köçürmüşlər. Bu alimlərin heç biri xürrəmilərin və Babəkin tarixdə dərin iz buraxdığını inkar etməsə də, ənənəyə uyaraq xürrəmiləri və Babəki bədnam etməkdən çəkinməmişdi. Onlardan bəzisi, sanki Babəklə şəxsi ədavəti olan bir adam kimi, açıq-aşkar onu "quldur və nihilist"[1], "lovğa və təkəbbürlü adam" [2] ,"məşhur soyğunçu və quldur" [3] adlandırır. Başqaları isə özlərini Xilafət dövrünün adamı və hadisələrin sanki canlı şahidi hesab edərək, Azərbaycan xürrəmilərinin başçısını "qorxunc bidətçi və qiyamçı"[4], "təriqətçi və mehdi"[5], "üsyançı"[6], "böyük bidətçi"[7] deyə qələmə verir.

---

[1] Ameer Ali. A.Short History of the Saracens. London, 1834, p.271.

[2] M.Chamich. History of Armenia, v. I, Calcutta, 1927, p. 400.

[3] W.Muir. The Caliphate, its Rise, Decline and Fall, Edinburg, 1924, p.504.

[4] W.C.Taylor. The History of Mohammedanİsm and its sects. London, 1839, p.203

[5] Я.А.Манандян. Народные восстания в Армении против арабского владычества. Ереван, 1939, стр. 21

[6] Ph. Hitti. History of the Arabs. London, 1937; 1957, p.323.

[7] Edw. A.Browne. Literary History of Persia. London, 1929, p.323.

Burjua şərqşünasları arasında elə tədqiqatçılar da vardır ki, onlar Azərbaycan xürrəmilərinin hərəkatını elmi surətdə təhlil etmədən Babəkin fəaliyyətinə subyektiv surətdə heyran olurlar. Bu halda həmin tarixi hadisənin elmi təhlili deyil, yalnız ona verilən qiymət yaxın olur və Babəkin bütün əzəmətini dərk etməyə kömək edir. Məsələn, Bernard Lüis Babəki "bidətçi" hesab etsə də, göstərir ki, o "böyük hərbi və siyasi istedada malik bir adam"[1] olmuşdur. R.Dozi Babəki "cəsur mübariz"[2] adlandırır. Lakin Babəkə layiq olduğu qiyməti verən burjua tədqiqatçıları azdır. Buna görə də babəki-xürrəmilər hərəkatı haqqında şərqşünasların əksəriyyəti tərəfindən elmi ədəbiyyatda yaradılmış yanlış təsəvvür hələlik üstünlük təşkil edir[3].

İlk dəfə bilavasitə Babək haqqında yazan xarici burjua şərqşünası Qustav Flyugel[4] olmuşdur. O, ibn ən-Nədimin "Fihrist"inin mətnini nəşr etməklə Avropada ilk dəfə "Babəkin meydana gəlməsi və təşəkkülü məsələsini aydınlaşdırmağa və beləliklə, Babəkin şəxsiyyəti, istedadı və çıxışları haqqında düzgün fikir yeritmək üçün imkan yaratmağı"[5] qarşısına məqsəd qoymuşdu. Lakin Flyugelin məqaləsi nə qədər əhəmiyyətli olsa da, onun müəllifi orta əsrlər ərəb və fars müəlliflərinin Babəkə verdikləri qiymətin təsiri altına düşməkdən yaxa qurtara bilməmişdir. Q.Flyugel Babəki və onun ardıcıllarmı düşmənə qarşı rəhmsiz olmaqda və özünə tabe olan ərazidə təxribat törətməkdə ittiham edir. Vaxtilə Z.İ.Yampolskinin qeyd etdiyi kimi, A.Müller də Babəki və xürrəmiləri Xilafət daxilində "ən dəhşətli qarışıqlıq" salmaqda təqsirləndirir; həm də Müllerin fıkrincə, bütün bu "qarışıqlıq" ilə eyni zamanda "hədsiz fikir azğınlığı gözə çarpırdı"[6]. E.Braun özünün

---

[1] B.Lewis. The Arabs in History. London, 1950, p.103.

[2] R.Dozy. Essai sur l'histoire de l'Islamique. Paris, 1874, p.246.

[3] Z.M.Bünyadov. "Xürrəm" termini haqqında, səh. 45-52.

[4] G.Flügel. Bahek, Seine Abstammung und Erstes Auftreten, 1869, p.531-542.

[5] Yenə orada, səh. 531.

[6] А.Мюллер. История ислама, т. II, стр. 183, 195, 237; З.И.Ямпольский.

"Fars ölkəsinin ədəbi tarixi" əsərində xürrəmilərə və Babəkə geniş yer vermişdir[1]. E.Braun bu əsərində ibn ən-Nədimin "Fihrist"ində Babək və onun ardıcılları haqqında olan fəslin məzmununu eynilə təkrar edir.

Babək haqqında yazan müasir şərqşünaslardan E.Raytı göstərmək lazımdır. Onun məqaləsində Babək haqqında, həmçinin Xilafət ordusunun baş komandanı Afşinin yüksəlişi və süqutu haqqında, Babək, Afşin və Məzyar arasındakı qarşılıqlı münasibətlər haqqında ibn ən-Nədimdən və digər tarixçilərdən götürülən faktlar obyektiv surətdə şərh edilmişdir[2].

Çex alimi İrji Çeypek Babək haqqında icmal məqaləsi dərc etməmişdi[3]. V.Minorski də xürrəmilərə və Babəkə müəyyən diqqət yetirmişdir[4].

Öz əsərlərində Babəkin rəhbərlik etdiyi xürrəmilər hərəkatı məsələsinə toxunan müasir ərəb tarixçilərindən misirli Həsən İbrahim Həsəni və İraq alimi Əbd ül-Əziz əd-Durinini göstərmək olar. Həsən İbrahim Həsən Xilafətin sosial-iqtisadi tarixinə dair böyük bir əsərin müəllifidir. Ərəb burjua millətçiliyinin nümayəndəsi olmaq etibarilə, o, mümkün olmayan bir şeyi - xəlifələrin və onları əhatə edənlərin mənəvi təmizliyini və qüsursuzluğunu sübut etməyə, tarix qarşısında onların üzünü ağartmağa cəhd edərək, Xilafətin bütün düşmənlərini, xüsusilə də xürrəmilər hərəkatına heç bir elmi təhlil vermədən Babəki və xürrəmiləri bədnam edir[5]. Əd-Duri xürrəmilərə və Babəkə daha ciddi yanaşaraq, "Birinci Abbasilər dövrü" əsərində etiraf edir ki, bu hərəkat Abbasilər xilafətinin müqəddəratı üçün ən təhlükəli olub, öz vüsətinə görə Xilafət

---

Восстание Бабека, стр. 7.

[1] E.Braun. Sitat gətirilən əsəri, səh. 247, 313-315, 323-330.

[2] E.Rayt. Sitat gətirilən əsəri, 1948, Jfe 1, səh. 43-59, M° 2, səh. 124-131.

[3] J.Ceipek. Babek, muz pred kterym setrasli chalifore. Praha, 1952, № s.163-164

[4] V.Minorsky. Caucasica, IV, BSOAS, XV/3, 1953.

[5] Həsən İbrahim Həsən. Tarix əl-islam-əs-siyasiy və-d-diniy və-s-səqəfiy və-l-ictima'iy, c. II, əl-Qahirə, 1953, səh. 95-98

əleyhinə bundan əvvəlki hərəkatların heç biri ilə müqayisəyə gəlməz[1].

Müasir İran tədqiqatçıları xürrəmilər və Babək haqqındakı tədqiqatlarında sübut etməyə çalışırlar ki, istər xürrəmilər, istərsə də Babəkin özü sırf İrana məxsus hadisə imiş. Paniranizm mövqelərində duran Q.X.Sadiqi[2], Abbas Xəlili[3] və başqaları kimi tədqiqatçılar belə bir fikir yürüdürdülər ki, Azərbaycan həmişə olduğu kimi indi də İran vilayətlərindən biri olduğuna görə Babəkin rəhbərlik etdiyi xürrəmilər hərəkatı Abbasilər xilafətinə qarşı Iran azadlıq hərəkatının ən parlaq təzahürüdür. İnqilabdan əvvəlki burjua tarixçiləri babəkilər və xürrəmilər tarixindən yazarkən özlərinin demək olar, bütün xarici həmkarları kimi burjua subyektivizmi mövqelərində duraraq bu hərəkatın bütün mütərəqqi cəhətlərini heçə çıxarmış, xürrəmilərin o dövrün xüsusiyyətlərindən doğan mənfi cəhətlərini qəsdən gözə çarpdırmış, onları "qadınları kommunistcəsinə ictimailəşdirməkdə" ittiham etmək üçün bəhanələr axtarmağa cəhd etmişlər. Tarixçilərdən Leo[4] və Y.A.Manandyan[5] məhz belə tədqiqatçılardandır; onlar orta əsr müəlliflərinin yolu ilə gedərək, xürrəmiləri və Babəki fars üsyançı və təriqətçiləri adlandırırlar. Məşhur bizansşünas A.A.Vasilyev özünün böyük əsərində[6] Azərbaycan xürrəmiləri hərəkatına nisbətən obyektiv qiymət verərək, Babəkin illər boyu davam etmiş Xilafətə qarşı etdiyi və Xilafətə böyük maddi ziyan və insan tələfatı verən qızğın mübarizəsini işıqlandırır.

Sovet tarixşünaslığında babəkilər tarixinə ilk dəfə toxunanlardan biri P.K.Juze[7] olmuşdur. Xürrəmilər haqqında öz əsas müddəaları və fikirlərinin yanlış olmasına baxmayaraq P.K.Juze

---

[1] Əbd əl-Əziz əd-Diiri. Əl-əsr əl-Abbasiy əl-əvvəl. Bağdad, 1945, səh. 335-336.

[2] G.H.Sadighi. Les Mouvements Religieux iraniens. Paris, 1938.

[3] Abbas Xəlili. İran və İslam, Tehran, 1336 h.

[4] Лео. История Армении, т.II, Ереван, 1947, стр. 347.

[5] Y.A.Manandyan. Sitat gətirilən əsəri, səh. 3, 4, 21, 22.

[6] А.А.Василбев. Византия и аоабы. СПб., 1900.

[7] П.К.Жузе. Папак и папакизм, Баку, 1921, стр. 204-216.

onların mürəkkəb ictimai-siyasi proqramını araşdırmağa çalışmışdır. V.V.Bartold [1] və A.Y.Krımski [2] də bir sıra tədqiqatlarında bu məsələyə toxunmuşlar.

1936-cı ildə "Görkəmli adamların həyatı" seriyasından M.Tomaranın "Babək" kitabçası çapdan çıxmışdır. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitabça mahiyyət etibarı ilə Xilafət tarixində xürrəmilər hərəkatının rolu kimi mürəkkəb məsələni həqiqətən elmi cəhətdən işıqlandırmaq üçün göstərilən ilk təşəbbüs idi. Qeyd etmək lazımdır ki, M.Tomaranın əsəri də xürrəmilər hərəkatına qiymət verilməsində hələ ona qədər buraxılmış bir sıra səhvləri təkrar edirdi. Lakin biz xalqımızın tarixinin diqqətəlayiq səhifələrindən birinin tədqiqi işində müəllifin böyük xidmətini inkar edə bilmərik.

Böyük Vətən müharibəsi dövründə, Azərbaycan xürrəmiləri haqqında kütləvi kitabçalar nəzərə alınmazsa, sovet tədqiqatçılarının iki əsəri çapdan çıxmışdı[3]. Tədqiqat xarakteri daşıyan bu əsərlərdə ilk mənbələrin məlumatı əsasında xürrəmilər hərəkatı tarixinin bir sıra konkret məsələləri dəqiqləşdirilmiş, bu hadisənin Azərbaycan xalqının tarixi ilə üzvi surətdə bağlı olduğu elmdə ilk dəfə olaraq göstərilmişdir. Z.İ.Yampolskinin kitabçası [4] və Z.İ.İbrahimovun dissertasiyasının[5] qiyməti də məhz burasındadır.

---

[1] В.В.Бартольд. Историко-географический обзор Ирана, СПб., 1905; yenə onun: К истории крестьянских движений Персии (Сб. "Памяти Н.И.Караева"), Петроград, 1926.

[2] А.Е.Крымский. Страницы из истории Северного или Кавказского Азербайджана (классическая Албания). Шеки. Сб. "Памяти акад. Н.Я.Марра" М.-Л., 1938.

[3] Z.İbrahimov və Y.TokarjevskＩ. Azərbaycanlıların mərdliyi və qəhrəmanlığı
haqqında. Bakı, 1943; Z.İbrahimov. Babək. Bakı, 1944.

[4] Z.İ.Yampolski. Sitat gətirilən əsəri.

[5] Z.İbrahimov. Azərbaycan xalqının ərəb işğalçılarına qarşı mübarizəsi. Bakı, 1941.

1954-cü ildə İran alimi Səid Nəfisinin kitabı çapdan çıxmışdır. Babək haqqında onun ilk əsərləri hələ 30-cu illərin əvvəllərində yazılmışdı[1]. Həmin kitaba müəllifin əvvəllərdə yazdığı məqalələri də daxildir. Bu kitab xürrəmilər və Babək haqqında orta əsr mənbələrində olan məlumatların məcmusundan ibarətdir. Müəllif özü də etiraf edir ki, kitabı tərtib etməkdə məqsədi "Babəkin həyatına dair bizə gəlib çatmış təfsilatı bir yerə toplamaq" (səh.7) olmuşdur. S.Nəfısinin əsəri ona görə böyük maraq doğurur ki, burada çoxlu faktiki material toplanmış, həm də ilk müxtəlif mənbələrdən götürülən bu materiallar çox diqqətlə bir-biri ilə tutuşdurulmuşdur.

Özündən əvvəlki bir sıra tədqiqatçılardan fərqli olaraq S.Nəfisi xürrəmilərin mübarizəsini dini bir hərəkat kimi deyil, azadlıq və istiqlaliyyət uğrunda xalqın mübarizəsi kimi qiymətləndirir. Lakin belə bir faktı da qeyd etməyə bilmərik ki, İranın digər müasir alimləri kimi S.Nəfısi də bu məsələdə paniranizmə haqq qazandıraraq, Babəki "İran torpağının böyük simalarından biri" (səh.3), "İranın adını əbədiləşdirən milli qəhrəmanlardan biri'[1] (səh.7) adlandırır. S.Nəfısi belə hesab edir ki, Azərbaycanın babəki-xürrəmilər hərəkatı milli Azərbaycan xüsusiyyətlərindən məhrum olub, yalnız İran milli ruhu üçün xarakterikdir (səh. 24-25)[2].

Mənbələrdə xürrəmilər hərəkatının vətəni olaraq bilavasitə Azərbaycanın göstərildiyinə baxmayaraq, S.Nəfisi oxucuya belə bir fikir təlqin etməyə çalışır ki, xürrəmilər üsyanı İranda, İsfahanda törəmiş və guya bundan yalnız 30 il sonra Azərbaycan xürrəmiləri mübarizəyə qoşulmuşlar. Müəllifin qərəzkarlığı bundan görünür ki,

---

[1] S.Nəfisi. Babek xürrəmdin, "Mehr" jurnalı, Tehran, 1312 (hicri), № 9, 19; 1313 (hicri), № 12; yenə onun: Babəkin ələ keçirilməsi ve edamı, Yenə orada, 1313 (hicri), № 1,3 (fars dilində).

[2] "Babək xürrəmdin" məqaləsinin müəllifi Ehsan Təbəri də beləcə paniranizm mövqelərində durur. Misal üçün, o yazır ki, Babək "Iran inqilabının görkəmli qəhrəmanlarından biridir", "xürrəmilər hərəkatı İran xalqının ictimai hərəkatı idi, və i.a. Ehsan Təbəri. Babək xürrəmdin. "Dünya" jurnalı, № 4, 1339 h.

Azərbaycan tarixində baş vermiş böyük bir hərəkatı açıq-aşkar iranlılaşdırmağa cəhd edir (səh.28, 38-39).

Bütövlükdə S.Nəfisinin əsəri, bir sıra nöqsan və yanlış cəhətlərinə, həmçinin nəzəri ümumiləşdirmələrin yoxluğuna baxmayaraq, Azərbaycan xalqının qəhrəman oğlu Babək haqqında, onun 20 ildən artıq rəhbərlik etdiyi xürrəmilər hərəkatı haqqında orta əsr mənbələrindən götürülüb toplanmış mühüm məlumat verir.

İlk mənbələrin köməyi ilə biz "Babək ölkəsinin" paytaxtı Bəzz qalasının yerini dəqiq müəyyən edə bilmişik; V.F.Minorski də bizim bu barədəki nəticələrimizlə razıdır. Bu əsərdə biz xürrəmilər üsyanının meydana gəlməsi, inkişafı və dağıdılması məsələlərini təfsilatı ilə araşdırmağa çalışmışıq.

Babəklə Afşin arasındakı əlaqələrə dair materiallar da, şübhəsiz, maraq doğurur. Afşinin, həmçinin daha sonrakı dövrlərdə Usruşananın digər nümayəndələrinin Azərbaycandakı fəaliyyəti N.Nemətovun əsərində[1] təsvir olunmuşdur.

Biz bu əsərdə, xürrəmilərin ərəb qoşunları ilə mübarizəsini imkan daxilində müfəssəl təsvir edərək, Babəkin bir sərkərdə kimi oynadığı rolu, onun ən mühüm vuruşmalarının gedişini və nəhayət, üsyanın məğlub olmasının səbəblərini, həmçinin sonralar Xilafətdə baş verən siyasi hadisələrə və xalq hərəkatlarına bu üsyanın təsirini göstərmişik.

Əsərdə Azərbaycan tarixində görkəmli rol oynamış bəzi hökmdarlar haqqında da məlumat verilmiş, habelə Azərbaycanda ilk müstəqil sülalələr olan Məzyədi-Şirvanşahların və Sacilərin fəaliyyəti göstərilmişdir.

Babək və xürrəmilər üsyanı haqqında ərəb dilindəki mənbələrdən götürülən məlumatların tərcüməsi də əsərə əlavə edilmişdir.

---

[1] Н.Негматов. Усрушана в древности и раннем средневековье. Сталинабад, 1957.

# II FƏSİL

# AZƏRBAYCAN ƏRƏB İSTİLASI ƏRƏFƏSİNDƏ

## I. VI əsrin axırları və VII əsrin əvvəllərində

**siyasi vəziyyət**

VII əsrin başlanğıcında təqribən bütün Orta Şərq, o cümlədən Zaqafqaziya bir-biri ilə çəkişən iki qüdrətli rəqib dövlət - Bizans ilə Sasanilər İranı arasında bölüşdürülmüşdü.

Ümumi adı "Arran" (Albaniya, Ağvank) olub, yarımmüstəqil, əmirlik və ya padşahlıq şəklində İrandan asılı olan Azərbaycanın şimal rayonları daim öz daha güclü qonşuları və xəzərlərin[1] işğalçılıq hücumlarına məruz qalmışdır; bu işğalçılardan hər biri Arran xalqını kölə halına salmağa, onun torpaqlarını və təbii sərvətlərini qarət etməyə cəhd edirdi. Bu şəraitdə Arran çox vaxt gah bir, gah digər güclü qonşudan siyasi və iqtisadi cəhətdən asılı vəziyyətdə olmuşdur.

Bir əyalət (kustak) kimi Sasanilər imperiyası tərkibinə daxil olmuş Azərbaycanın cənub rayonları da Bizans ilə İran arasında tez-tez baş verib bəzən on illərlə davam edən dağıdıcı müharibələr nəticəsində çox məhrumiyyətlərə qatlaşmışdır.

VI əsrin axırlarında həm Azərbaycan, həm də Arran Sasanilər imperiyasının tərkibinə daxil olub İberiya və Ermənistanla birlikdə imperiyanın dörd inzibati vahidindən biri olan Şimal canişinliyi (Qafqaz kustakı)[2] təşkil edirdilər. İranın inzibati bölgüsü haqqındakı məlumata əd-Dinəvəridə rast gəlirik: "Kisra Ənuşirəvan ölkəni dörd yerə (hissəyə) böldü və bunlardan hər biri bir nəfər rəis tərəfindən idarə olunurdu. Dörd hissədən biri Xorasan, Sicistan və Kirmandan, o birisi - İsfahan, Qum, Cibəl, Azərbaycan və Ermənistandan, üçüncüsü - Fars, əl-Əhvaz və əl-Bəhreyn, dördüncüsü – İraqdan tutmuş Rum ölkəsinin sərhədinədək uzanan yerlərdən ibarət idi"[3].

Lakin pəhləvi mənbələrindən istifadə etmiş Təbərinin (ət-Təbərinin) qədim ərəb müəlliflərindən verdiyi məlumatda deyilir ki, imperiyanın dörd əyalətə (kustaka) bölünməsi hələ I Xosrovdan

---

[1] А.Ю.Якубовский. Ибн Мискавейх о походе руссов в Берда'а в 332 (943/944 г. н.э.). ВВ, т.XXIV, 1926, стр. 74.

[2] С.Т.Еремян. Феодальные образования Картли в период марзбанства (532-627 гг.), стр.3.

[3] Əd-Dinəvəri.

əvvəl mövcud idi; Xosrov taxta çıxandan sonra "İranın dörd ölkəsini idarə edən dörd Sepəhbudə məktub göndərdi". Məktublardan biri "Azərbaycan, Ermənistan və qonşu ölkələrin Sepəhbudu Zədüyyə ibn ən-Nahiracana göndərilmişdi"[1].

I Xosrova qədər Sepəhbud adlanan baş hərbi rəis vəzifəsini bir nəfər daşıyırdı. I Xosrov bu vəzifəni dörd nəfər arasında böldü: "Şərq, yəni Xorasan və qonşu torpaqlar Sepəhbudu, Qərb (Məğrib) Sepəhbudu, Cənub (Nimruz), yəni Yəmən Sepəhbudu, Azərbaycan və qonşu torpaqlar, yəni Xəzərlər Sepəhbudu"[2].

Kustaklar daha xırda vahidlərə bölünürdü və bu vahidlərdən hər biri tarixən əmələ gəlmiş ərazi və etnik şəraitə uyğun olaraq az-çox müstəqil vilayətdən (şəhərdən) ibarət idi. Şimal kustakına 13 belə vilayət (şəhər), o cümlədən Azərbaycan (Atrpatakan), Ermənistan (Ərmən), İberiya (Varçan), Arran (Ran), Balasakan, Sisakan və digər vilayətlər (Mukan, Deyləm, Dəmavənd, Ruyan, Amul və s.) daxil idi[3].

İbn Xordadbeh təsdiq edir ki, Qərbi və ya Şimal vilayətləri Sasanilər imperiyasının dörddə bir hissəsini təşkil edirdi və Azərbazqansepəhbud adlanan ölkə Şimal Sepəhbudunun hakimiyyəti altında idi; bu hissəyə Azərbaycan, Ermənistan, Rey, Arran və başqaları daxil idi [4] . Padşahlara verilən adlardan danışan ibn Xordadbeh bildirir ki, hələ I Ərdəşir (224-241) Azərbaycan, Ermənistan və digər ölkə padşahlarına şah adı vermişdi, məsələn, Azərbazqan şah, Şiryan şah, Baraşkan şah (Azərbaycanda), Allan şah (Mukan), Ərmənian Şah, Filan şah və i.a[5]. Mitilenli Zaxarinin Suriya

---

[1] Ət-Təbəri, I, 892-894. Müqayisə et. Th.Nöldeke. Geschichte der Perser und Araber zur zeit Sasaniden, p. 152-153; A.Chrlstensen. L´Iran sons la Sassanides, Paris, 1936, p. 134, 1358-359; Н.В. Пигулевская. Города Ирана в раннем средневековье, М.-Л, 1956 стр.169-173.

[2] Ət-Təbəri, I, 89.

[3] Армянская география, VII в, стр, 58, b a x В.Г. Луконин. Иран в эпоху первых сасанидов, стр, 19-24; J.Manquart. Eransahr nach der geographie der Ps.Moses Xorenaçi. Berlin, 1901, p. 108-136.

[4] İbn Xordadbeh, 118-119.

[5] İbn Xordadbeh, 17-18.

xronikasında Zaqafqaziyada yerli hakimlərin olduğu haqında məlumat vardır. "Bu şimal tərəfdə (Zaqafqaziyada - *Z.B.)* beş dindar xalq və onların 24 yepiskopu vardır. Onların katolikosu İran Ermənistanının böyük şəhəri olan Dvindədir. Qurzan da Ermənistan torpağındadır, onların dili yunan dilinə oxşayır, onların İran şahına tabe olan xristian padşahı vardır. Arranın da öz torpağı, öz daxili, dindar və xaçpərəst xalqı vardır, onların da İran şahına tabe olan padşahı vardır"[1].

Azərbaycan bu Şimal canişinliyində mühüm strateji mövqe tutaraq, imperiyaya girən yolları həm şimalda xəzərlərdən, həm də qərbdə Bizansdan qoruyurdu. Xəzərlər Arran və Azərbaycana başqalarına nisbətən tez-tez basqın edirdilər, buna görə də Sasani şahları öz sərhədlərini möhkəmləndirməyə son dərəcə əhəmiyyət verirdilər.

"Ağvan tarixi"ndə Sasani şahlarından II Şapurun (309-379) hökmranlığı zamanı xəzərlərin təqribən 350-ci ildə Arrana basqını haqqında anaxronik məlumat vardır: "Külli miqdarda xəzər Çoqa qapısından keçib, bizim ölkəyə girmişdi. Şapur Assuriya, Xorasan və Xarəzmdən saysız-hesabsız ordu və Atrpatakan[2] əyalətindən çoxlu qoçaq iranlıları (azərbaycanlıları - *Z.B.),* albanları və Qafqaz dağlarının vəhşi xalqlarından 12 tayfa toplayıb bu böyük qüvvə ilə yürüşə başlayaraq, onların qarşısına çıxdı"[3].

Lakin xəzərlərə qarşı ciddi tədbir görən ilk İran şahı I Qubad (Kavad - 446-531-ci illər) idi; onun sərkərdələrindən biri Dinavərədək gəlib çıxan xəzərləri təqib edərək, Curzan (Gürcüstan) və Arranı onlardan geri aldı. "O, Arran ölkəsinə daxil oldu və ər-Ras

---

[1] The Chronicle of Zachariah of Mitylene, p. 327-328; həmçinin b a x; Из Сирийской хроники Захария Митиленского, стр. 114; müqayisə et: Adons. Sitat gətirilən əsəri, səh. 219.

[2] К.П.Патканов. "Из храбрых персов области армянской Атрпатакана".

[3] История Агван, стр. 80-81/62; Müqayisə et: Л.М. Меликсет-Бек. Хазары по древнеармянским источникам в связи с проблемой Моисея Хоренского, стр. 112 və b.; М.И.Артамонов. История хазар, Л., 1936 стр. 116.

(Araz - *Z.B.)* adı ilə məşhur olan çayla Şirvan arasında olan [bütün torpaqları] tutdu"[1].

Bundan sonra I Qubad özü Arrana gəldi, burada Beyləqan, Bərdə, Qəbələ[2], Dərbənd və Şəki şəhərlərini salıb möhkəmləndirdi. Bu məlumat ilk dövrlərin ən yaxşı və mötəbər məxəzlərindən biri hesab olunan Bəlazuridən (əl-Bəlazuridən) götürülmüşdür. Qubad Şirvandan tutmuş Bablan adlanan keçidə qədər çiy kərpicdən hasar çəkməyə başladı. Bu hasarın tikintisini Qubadın oğlu I Xosrov Ənuşirəvan (531-578) başa çatdırdı və daha şimala doğru Bab əl-Əbvab [3] şəhərini möhkəmləndirdi, zira o belə hesab edirdi ki, Zaqafqaziyada hökmranlığın təmini öz imperiyasının rahatlığı üçün birinci şərtdir.

Xəzərlərin Zaqafqaziyaya soxulması haqqında Yəqubidə (əl-Yəqubidə) gözəl məlumat vardır: "Xəzərlər bütün Arminiya torpaqlarını tutanlara deyilir"[4]. Onlara xaqan adlanan padşah başçılıq edir. Onun Arran, Curzan, Basfurcan'[5] və Sisican üzərində Yəzid Balaş adlı canişini vardır. Bu əyalətlər dördüncü Arminiya adlanır ki, vaxtilə İran şahı Qubad tərəfindən işğal edilmiş və Bab əl-Lanadək

---

[1] Əl-Bəlazuri, səh. 194, İbn Xordadbeh 122: "Провинции Аран, Джурзак и Сисаджан в Хазарском йарстве"; İbn əl-Əsir, I, səh. 319; J.H.Kramers. The Military Colonization of the Caucasus and Armenia under the Sasanides. BSOS, VIII, 2-3, 1936, p. 611; D.M.Dunlop. The History of the Jewich Khazars, Prinseton, 1954, p. 20.

[2] Əl-Bəlazuri, səh. 194-195. Qəbələyə gəldikdə, bu şəhər antik tarixçilərinə görə hələ b.e.I əsrində müvcud idi. Bax: Plniy, 6, 29. "Cabala" Птоломей.

[3] Əl-Bəlazuri, səh. 194; İbn əl-Əsir, I, 319; История епископа Себеоса, стр. 30;Е.А.Пахомов. Пехлевийские надписи Дербенда, стр. 3-22; П.С.Нюберг. Материалы по истолкованию пехлевийских надписей Дербенда, стр. 26-32; С.Баратов. История Грузии, тетради II-III, стр. 55; Е.А.Пахомов. Краткий курс истории Азербайджана, стр. 12; М.М.Дьяконов. Очерк истории древнего Ирана, стр. 307, 314.

[4]Əl-Yəqubi "Arminiya" deyəndə ərəblərin Əməvilər xilafətinə (dördüncü) bir canişinlik kimi daxil etdikləri bütün Zaqafqaziya ölkələrini nəzərdə tutur.

[5] B a s f u r c a n - "Arranda bir vilayətdir. Paytaxtı Naşava, ona Naxçıvan da deyilir", Yaqut, I, 624,

min fərsəx[1] uzanıb üç yüz altmış şəhəri olan bu ərazi [onun oğlu] Ənuşirəvana keçmişdir". İran şahı Bab əl-Əbvab, Babasaran və Balancarı tutdu. 0, Kaliqala şəhərini və bir çox başqa şəhərlər saldı və bunlarda iranlıları yerləşdirdi. Sonra xəzərlər, vaxtilə iranlıların onlardan [xəzərlərdən] aldıqları torpaqları yenidən iranlılardan tutub aldılar və [bu yerlər] uzun müddət onların əlində qaldı; o vaxta qədər ki, rumlar (bizanslılar - *Z.B.)* xəzərləri məğlub edərək, dörd Arminiya[2] üzərində padşah təyin etdilər. Beləliklə, aydındır ki, xəzərlər hələ VI əsrdə (531 -ci ildən gec olmayaraq) Zaqafqaziya ölkələrinə basqınlar edib çapırdılar, buna görə də I Qubad və Xosrov Ənuşirəvanın hökmranlığı dövründə xəzərlərin adının çəkilməsi heç də təsadüfi deyildir.

Ənuşirəvanın öz imperiyasını dörd böyük əyalətə böldüyünü bildirən Təbəri qeyd edir ki, Azərbaycanın qonşusu "Xəzər ölkəsi olmuş və bu yeri Sul[3] adlanan xalq tutmuşdu". Təbərinin dediyinə görə, xəzərlər Azərbaycana soxulan zaman Ənuşirəvan onlara qalib gəldi və tutduğu 10 min xəzəri ölkədə yerləşdirdi. Ənuşirəvan gələcəkdə şimaldakı cəngavərlər tərəfindən baş verə biləcək hücumları dəf etmək üçün qalanı Bab əl-Əbvab (Dərbənd) şəhərini saldı; bu şəhər Çoqa ilə birlikdə əvvəlcə Sasanilər dövründə İranın,

---

[1] B i r f ə r s ə x - 6-7 kilometrdir.

[2] Əl-Yəqubi, I, səh. 203-204; Dörd Arminiya bölgüsü 536-cı ilə aiddir.

[3] Əl-Təbəri, I, səh. 896; Ərəb mənbələrindəki "Sul xalqı", "Sul keçidi", "Sul qapıları", "sərhəd vilayəti Sul", "böyük Sul şəhəri" erməni mənbələrində olan Çoqa (Çora) adının eynidir. "Ağvan tarixi"ndə adı çəkilən "Çoqa ölkəsi", "Dərbənd yaxınlığında olan Çoqa şəhəri" indiyədək bəzi tədqiqatçılar tərəfindən Dərbənd şəhəri ilə eyniləşdirilir. Dərbənddən əvvəl əmələ gəlmiş Çoqa şəhəri Dərbəndin cənubunda yerləşirdi; bu şəhərin xərabələri indi Torpaqqala adlanır və Belici dəmiryol stansiyasındadır. Çoqa haqqında bax: А.С.Башкиров. Изучение памятников старины Дагестана; М.Исаков. Исчезнувший город в Дагестане; В.Г.Котович. Дагестан в III-V вв.; M.İ.Artamonov belə hesab edir ki, sonralar şəhər Dərbənd adlanmışdır.
Ancaq bu fikir Dağıstan tarixçilərinin və arxeoloqlarının əsərlərində rədd edilir. B a x: Р.Магомедов. История Дагестана, стр. 70; J.Marquart. Eransahr. p, 96-100, 102.

sonralar isə Ərəb xilafətinin şimal sərhədlərində güclü bir istehkam idi[1].

"Ağvan tarixi"nin müəllifı yazır ki, Dərbənd istehkamları və qalasını tikmək üçün "İran şahları ölkəmizi (Arranı *-Z.B.)* taqətdən saldılar; bu qəribə binanı tikmək üçün memarları səfərbərliyə alan və çoxlu müxtəlif material axtarıb tapan İran şahları həmin tikinti, vasitəsi ilə Qafqaz dağı ilə Şərq (Xəzər) dənizi arasındakı keçidləri qapalı saxlayırdılar"[2].

Ənuşirəvanın müqabil hərəkətlərindən bəhs edən Təbərinin bu barədə göstərdiyi faktlar yalnız xəzərlər 553-cü ildə Arrana (Albaniyaya) hücum edərək və kəndləri yandırıb dağıdandan və xalqı əsir edib aparandan sonra baş verdi. Arran katolikosu Abas (551 - 595) xəzərlərin tez-tez etdiyi basqınlar nəticəsində daha Çoqa şəhərində qala bilmədi və öz iqamətgahını Arranın mərkəz şəhəri və paytaxtı olmuş Bərdə şəhərinə köçürdü. Moisey Kalankatuklu belə yazır: "Albaniya ölkəsi xəzərlər tərəfindən tutulmuş, kilsələr və müqəddəs kitablar yandırılmışdı. Şahənşah Xosrovun (Ənuşirəvanın 533-cü il - *Z.B.)* ikinci ilində erməni tarixinin əsası qoyulduğu zaman [552] Albaniya patriarxlığının taxtı Çoqa şəhərindən Partav paytaxtına köçürüldü, çünki İsa xaçı düşmənlərinin (yəni xəzərləri- *Z.B.)* qarətçi basqınlarının ardı-arası kəsilmirdi"[3].

---

[1] Əl-Təbəri, I, səh. 894-895; История епископа Себеоса, стр. 30; Dərbəndin şimal divarında pəhləvi yazıları vardır. Bu yazılar sübut edir ki, qalanın tikintisinə vergiləri yığan və Atrpatakan (Azərbaycan) dövlət tikintisinin başçısı Barzinş başçılıq edirdi. Dərbənd divarının tikintisi 567-ci ildə qurtarmışdır (Е.А.Пахомов. К истолко-ванию пехлевийских надписей Дербенда).

[2] История Агван, стр. 105/83. Об остатках укреплений сасанидского времени. Вах Е.А.Пахомов. Крупнейшие памятники сасанидской архитектуры в Закавказье, стр. 39, 40-43; И.Л.Щеблыкин. Памятники Азербайджанского зодчества эпохи Низами, стр. 8; К.В.Тревер. Очерки по истории и культуре Кавказской Албании. М.-Л., 1959, стр. 271-272; М.И.Артамонов. История хазар, стр. 117-119.

[3] Yenə orada, səh. 90, 280/70,228; ронографическая история. Mxitarın atası, vardapet Ayrivanski tərəfindən tərtib edilmişdir, səh. 369; Мхитар Гош. Албанская хроника, стр. 9; Т.И.Тер-Григорьян. Азербайджан в III-VII вв., стр.

Bizans ilə Sasani imperiyası arasında Arranı ələ keçirmək üstündə gedən mübarizədə təkcə siyasi deyil, iqtisadi məqsəd də güdülürdü. Bu mübarizənin ən qızğın çağında şimaldan xəzərlər və digər köçəri xalqlar Bizansın köməyinə gəldilər, çünki onlar Arran və Azərbaycanın zəngin şəhərləri hesabına varlanmağa can atırdılar.

Mənbələrdə yadellilərin basqınları dövründə Azərbaycan xalqlarının dözdüyü məhrumiyyət və çəkdiyi məşəqqətlər haqqında da, müxtəlif işğalçıların zülmünə qarşı onların qəhrəmanlıq mübarizəsi haqqında və bu mübarizənin işğalçılar üçün çox böyük güc sərf etmək və çoxlu hərbi qüvvə səfərbərliyə almaq bahasına başa gəldiyi haqqında məlumat verilir.

Bizanslı Menandrın "Tarix"indən məlum olur ki, Bizans sərkərdələri Arran torpağında istədikləri kimi ağalıq edərək, adamları tutub girov saxlayır, ölkənin xalqlarını öz bildikləri kimi bir yerdən başqa yerə köçürür, ölkəni var-yoxdan çıxarırdılar. Məsələn, 586-cı ildə Bizans ilə İran müharibələrinin birində "Roma" (Bizans - *Z.B.)* *s*ərkərdələri Albaniyaya hücum etdilər, sabirlər və digər tayfalar icərisindən adamları tutub girov saxladılar, sabirləri və albanları Kirin (Kür çayının - *Z.B.)* bu tərəfinə keçməyə və bundan sonra Roma ölkəsində qalmağa məcbur etdilər"[1].

İran-Bizans müharibələri seriyasında 628-ciilədək uzanan son müharibə 603-cü ildə II Xosrovun yürüşü ilə başlanmışdı. Bizansa qarşı müharibə iranlılar üçün əlverişli keçirdi və onlar bir neçə il ərzində çoxlu vilayət tutmağa və imperiyanın paytaxtı Konstantinopolun[2] özünə yaxınlaşmağa nail olmuşdular.

---

62-63; Н.Акиньян. Мовсес Дасхуранци. ”История Агван”, стр. 576; C.J.F.Dowset. The Albanian chronicle..., p. 477.

[1] L.Dindorfius. Historici Graeci Minores, I, p. 80, 83; Bizans tarixçiləri, səh. 411-412.

[2] Sh. Lebeau. Histoire du Bas-Empire, v. XI, Paris, 1 830; Ф.И.Успенский. История Византийской империи, т. I, Л., 1927,

610-cu il oktyabrın 5-də İrakli[1] Bizans taxtına çıxdı. O, II Xosrov ilə barışığa girməyə cəhd etdi, lakin Xosrov romalılarla nəinki barışıq bağlamadı, həttа digər vilayətləri də onların əlindən aldı. "İranlılar o vaxtadək (622-ci ilədək - *Z.B.)* Pont[2] sahilindən şərqdəki bütün Roma torpaqlarını tutdular".

İranlıların müvəffəqiyyətləri 623-cü ilədək davam etdi. Həmin il İrakli iranlılar üçün əlverişli olan bir barışıq bağlamağa II Xosrovun razılıq vermədiyini gördükdə böyük bir ordu toplayıb, dolama yol ilə, Kolxida və İberiyadan keçərək İran üzərinə getdi.

Bizans ordusu Dvini tutdu, Azərbaycana soxuldu və Naxçıvanı işğal etdikdən sonra Arazı keçdi. Sonra Cənubi Azərbaycanın paytaxtı Qazaka [3] tutuldu və atəşpərəstlərin bu şəhərdəki baş məbədi bizanslılar tərəfindən dağıdıldı [4]. Gürcü mənbəyi İraklinin bu hərbi səfərini bir qədər başqa şəkildə təsvir edir: "Stepanozun padşahlığında (600-619) imperator İrakli

---

[1] Н.В.Пигулевская. Византия и Иран на рубеже VI и VII веков. М.-Л, 1945, стр. 189

[2] Michel le Syrien. Chronique, p. 404.

[3] Qazaka haqqında b ax: Артсруни, II, 3; Əbu Dulafın ikinci məktubu, səh. 33; P.Schwarz Iran in Nittelalter nach den Arabischen geographen, p. 1111-1120; V.Minorsky. Roman and Byzantine Canpaigns. p. 243-265; Aby Dulaf. Mis'ar ibn Muhalhil's travels in Iran. p. 66-67.

[4] История Агван, стр. 102/70; Артсруни, II, 3; Себеос, стр. 93; Феофан. Хронография, стр. 257-258; Феофилакт Симокатта. Истории, стр. 78; Из анонимной сирийской хроники, 1234 г."Византия и Иран" kitabında, səh. 268. Həmçinin b a x: К.П.Патканов. Опыт истории династии Сасанидов…стр. 67; Г.Ласкин. Ираклий, стр. 49; M.M.Dyakonov. Sitat gətirilən əsəri, səh. 318-319; Ch. Lebeau. Histoire du Ras-Empire. Paris, 1919, p. 96-97; A.Christensen. L'Iran... p. 443; C.Rawlinson, p. 510-511; Edw. Browne, p. 128-129; Edw. Gibbon. The Decline and fall of the Roman Empire. v.3, London, 1895, p. 308; V.Minorsky. Roman and Byzantine. Campaigns in Atropatene, XI/2, 1944, pp. 243-265; İraklinin hərbi yürüşləri haqqında b a x: Я.Манандян. Маршруты персдиских походов императора Ираклия, стр.132, 146.

Ermənistan, Azərbaycan və Şirvanı istila etdikdən sonra Gürcüstana girdi, gürcülərə qalib gəldi və onların padşahı Stepanozu öldürdü"[1].

İrakli çoxlu əsir və külli miqdarda qiymətli şey ələ keçirdikdən sonra öz qoşunlarnıı qışlamaq üçün Arrana apardı. Bizans əsgərləri ölkədə özbaşınalığa başladılar: "Saysız-hesabsız yunan ordusu gələndən sonra sürətlə axan bir çayın yaxınlığındakı Kalankatuk[2] kəndi ətrafında ordugah qurdu. Bu ordu keçdiyi gözəl üzümlük və tarlaları tapdayıb viran etdi. Oradan çıxdıqdan sonra isə Trtu [Tər-tər] çayı kənarında Divdəkan kəndi yaxınlığında düşərgə saldılar"[3].

Y.Kulakovski və digər bizansşünaslar qeyd edirlər ki, imperator İrakli taxta çıxandan sonra öz hökmranlığının ilk on ilində daim çətinliklərlə qarşılaşır və imperiyanın xarici-siyasi nüfuzunu yüksəltməyə cəhd edirdi, çünki İranın etdiyi müvəffəqiyyətli müharibələr və öz sələfi Fokanın fəaliyyətsizliyi nəticəsində imperiyanın xarici-siyasi nüfuzu çox aşağı düşmüşdü. Buna görə də İrakli gözünü şimaldakı xəzərlərə[4] dikdi; o, xəzərlərin köməyi ilə Sasanilər İranının qüdrətini qırmağa ümid bağlayırdı[5].

---

[1] М.Джанашвили. Известия грузинских летописей и историков о северном Кавказе и России, стр. 23; Histoire de la Qeorgie, p. 225-229.

[2] Uti vilayətində "Böyük kənd" (История Агван, стр.106/84) iti axan çayın (Tərtər çayının) yaxınlığında bir dağın ətəyində yerləşir. Ərəb coğrafiyaşünasları bu yeri Kalkatus adlandırr və göstərirlər ki, bu yer Bərdədən Dəbilə gedən ticarət yolu üstündə, Bərdənin 9 və Matrisin 13 fərsəxliyindədir, İstəxri, 193; İbn Havqəl, səh. 251-252; el-İdrisi (Geographie d'Idrisi, p.324) Kalkatusu "hasarlı kiçik şəhər" adlandırır. M.Barxudaryanın məlumatına görə, 1902-ci ildə Kalankat kəndi xərabələrində bir neçə azərbaycanlı ailə yaşayırdı. Bu kənd Divdəkan kəndi xərabələri ilə Tərtərin sol sahilində "Qarı körpüsü" yaxınlığında tərk edilmiş Metagis kəndi arasında idi. B a x: История Агван, стр. 31.

[3] История Агван, стр. 102-103/80-81; Е.С.Такайшвили. Источники грузинских летописей, стр. 42.

[4] M.İ,Artamonov öz son əsərində ("История хазар") L.N.Qumilevin fərziyyələrinin təsiri altında "xəzər" əvəzinə mübahisəli etnik ünsür olan "türkütlər" ifadəsini işlədir.

[5] Ю.Кулаковский. История Византии, стр. 92-93

625-626-cı ildə İrakli öz əyanlarından ağıllı və bacarıqlı bir xadim olan Andreni səfərə hazırlayıb ona təlimat verdi və [xəzərlərin yanına] göndərərək onlara çoxlu var-dövlət vəd verib dedi: "Əgər onlar [iranlılardan] qisas almağıma səylə yardım etsələr, onların ürəyi nə istəsə mən verərəm"[1]. Cebu xaqan[2] elçiyə cavabında belə dedi: "Onun [İraklinin] düşmənlərindən qisas almağa mən özüm çıxaram və öz igid ordum ilə özüm onun yanına gələrəm. Mən onun arzusuna uyğun olaraq, onun istədiyini vuruşmaqla, öz qılıncım və yayımla yerinə yetirərəm"[3].

Orta əsrlərə aid gürcü, ərəb, Bizans və erməni mənbələrindən göründüyü kimi, 627-ci ildə, son İran-Bizans müharibəsinin qızğın çağında İrakli Tiflisə gəlir və yeni müttəfiqlər mühasirəyə alınmış şəhərin hasarları yanında görüşürlər[4]. E.Gibbon xəzərlərin İraklini necə qəbul etdiyini gözəl təsvir etmişdir[5].

O zaman, 628-ci ildə edam edilən II Xosrovun yerinə onun oğlu Şiruyə (II Qubad) İran taxtına çıxmış və Arran katolikosu Viro 25 il İranda həbsdə qalandan sonra Arrana qayıtmışdı[6].

---

[1] История Агван, стр. 109-110/87; М.Т.Джанашвили. Осада Константинополя скифами, кои суть русские и поход императора Ираклия в Персию, стр. 49-51; Müqayisə et: М.И.Артамонов. Очерки древнейшей истории хазар. Л., 1936, стр. 52-53 və b., D.M.Duniop. Adı çəkilən əsəri, səh. 29.

[2] Hər iki titul türk mənşəlidir (A.V.Gabain. Altturkische grammatik, p. 309, 350).Onun oğlu Şat-Şad adlanır (yenə orada, səh. 336) Bizans mənbələrində Cebu xaqanzibel (Feofan, стр. 316) və Cavanşirdə - Cibqa ("Краткая история Грузии"). Bununhaqqında və başqa titullar və terminlər haqqında həmçinin bax: A,Zajachkowski, Zestudiow nad zagadnienien chazarskim, Krakow, 1947.

[3] История Агван, стр. 110-87; Histoire de la Georgie, p. 228-229.

[4] E.Chavannes, Documents sur les Tou-Kiue (Turks) occidentaux, p. 252; Ch. Lebeau. Histoire, p. 117; M. Ed. de Musalt. Essai de Chronographie Byzantine, p. 279-280; C.Toumanoff. Iberia on the Eve of Bagratig Rule, p. 200.

[5] Edw. Gibbon. The Decline and fall..., p. 46.

[6] М.Буниятов. О деятельности каталикоса Албании Виро (596-630 гг.), стр. 15-20.

Qafqaz Albaniyasının (müqəddəs Şupxaqişodan) on dördüncü katolikosu Viro[1] bu ölkənin tarixində xüsusi bir mövqe tutur. Onun fəaliyyəti indiyədək tədqiqatçıların nəzərini cəlb etməmişdir və bu cəhət xüsusilə onun həyatının son beş ilinə (626-630) aiddir. Mənbələrdə göstərilir ki, Sasani padşahı II Xosrovun 628-ci ildə ölümündən sonra onun xələfi Şiruyə "atasının saray həbsxanasında yatan kişilərin hamısını evə buraxdı"[2]. Əsarətdə olan bu adamlar arasında Albaniya katolikosu Viro da var idi, "o, hikmətdə güclü olan dahi və müdrik bir adam idi; böyük və şahanə işlərdə müdrik məsləhətlər verməkdə onun dili cəld yazan bir qələm kimi idi. Onun çox mülayim danışığı sadə adamların və xalqın xoşuna gəlirdi. O, filosof kimi danışar və çoxlu hikmətli sözlər deyərdi: mirvari saf qızıl sapma düzüldüyü kimi, onun ağzından bir-birinin ardınca hikmətli sözlər tökülürdü. O, fars dilinə tərcümə işində xüsusilə mahir idi, çünki Xosrovun sarayında 25 il həbsdə olarkən bu dili mükəmməl öyrənmişdi"[3]. Gördüyümüz kimi, salnaməçi təmtəraqlı ifadələr işlətməkdə xəsislik etməmişdir; salnaməçinin Viro haqqında yazdığının çoxu Albaniya kilsəsi başçısının şənini yüksəltmək üçün olsa da, biz Vironun həqiqətən ağıllı bir dövlət xadimi olduğunu qeyd etməyə bilmərik: onun kilsə və dövlət başçısı vəzifəsindəki bütün fəaliyyəti bunu göstərir. Arran xalqının təşəkkül tarixində və

---

[1] "История Агван" (стр. 281/229) bildirir ki, Viro 34 il, Kirakos Qandzaketsi (История, стр. 101) və Mxitar Ayrivantsi (Histoire chronologique, p. 16) 33 il katolikos olmuşlar. Basmacan (Chronologie de 1'hİstoire d'Armenie. Revue de l'Orient Chretien, XIX, 1914, p. 366-369) Vironun idarəetmə tarixini 593-630-cu illərə, yəni 34 ilə, Т.И.Тер-Григорьян (прим. 650 к "Истории", К.Гандзакеци, стр. 267) – 569-631-ci illərə, yəni 35 il; Мхитар Гош (Албанская хроника, стр.9) - 33 il qeyd edir. Həmçinin bax: C.J.Dowsett. The Albanian chronicle, p. 477.

[2] История Агван, стр. 116/92; К.Гандзакеци, стр. 35; "İran şahı Xosrovdan sonra şahın taxtına Kəvat çıxdı. O, öz atasının həbsxanaya saldığı Albaniya katolikosu Vironu əsarətdən azad etdi", səh. 101; O, yəni Viro uzun müddət İran şahı Xosrovun sarayında həbsdə idi, onun ölümündən sonra isə azad olub öz ölkəsinə qayıtdı".

[3] Yenə orada, səh. 117, 93.

birləşdirilməsi prosesində Vironun rolu o qədər böyükdür ki, orta əsrlərdə Azərbaycanın çox görkəmli şəxsiyyətlərindən biri olan Viro haqqında tarixi mənbələrdəki materiallar imkan verdikcə daha ətraflı danışmaq lazımdır.

602-ci ildə Foka Bizans imperatoru Mavrikini (582-602) öldürdükdən sonra imperiyanın taxtını ələ keçirdi. Bundan istifadə edən Xosrov, Mavrikinin intiqamını almaq bəhanəsi ilə Bizansa müharibə elan etdi və bu müharibə II Xosrov devrilib öldürülənədək uzandı. İlk dövrdə Sasanilər müvəffəqiyyət qazanıb Bizansın təqribən bütün Kiçik Asiya torpaqlarını, habelə Misiri tutmuşdular. Sasani qoşunları hətta imperiyanın paytaxtı Konstantinopola yaxınlaşmışdılar. Lakin Foka öldürüləndən sonra imperiya taxtına çıxan I İrakli (610-641) Xəzər xaqanı ilə ittifaq bağladı və görəcəyimiz kimi, müharibə 629-cu ildə İranın tam məğlubiyyəti ilə qurtardı[1].

Albaniya xalqı İranla Bizans arasında gedən müharibədən istifadə edib 603-604-cü ildə Sasani hökmranlığına qarşı üsyan qaldırdı. Lakin II Xosrov üsyan etmiş Albaniya xalqına çox tez divan tutmağa müvəffəq oldu. Üsyan rəhbəri katolikos Viro "İran şahına qarşı qəzəblənən Ağvan əyanlarının qiyamında ittiham edilmişdi; [onlardan] çoxu məhv oldu; bəziləri qılıncdan, digərləri şikəstlikdən məhv oldu, bəziləri də uzaq ölkələrə sürgün edildi"[2].

Viro II Xosrovun cəza dəstələrindən gizlənməyə müvəffəq oldu. O, imperiyanın paytaxtı Ktesifona (Mədainə) qaçdı və orada II Xosrovun arvadı xristian[3] məlikə Şirinin himayəsinə sığındı, onun himayəsi nəticəsində Viro, ələ keçmiş knyazların əksəriyyətinin başına gələnlərdən canını qurtara bildi[4]. Məlikə Şirin "çox səy göstərəndən sonra şah, Vironun həyatını ona bağışladı", lakin II

---

[1]История Агван, стр. 99-117/76-92;Джуаншер. Краткая история Грузии, стр, 96-97; История епископа Себеоса, стр. 63-72, 77-83; Киракос Гандзакеци, стр. 34-35.

[2] История Агван, стр 117-118/93

[3] Себеос, стр. 45;müqayisə et6 Zəbihulla səfa. Xəmasə-i Saraiyi dər İran. Tehran, 1333 h, səh 48.

[4] История Агван, стр.118/93

Xosrov belə bir şərt qoydu ki, Viro ömrünün axırınadək "öz ölkəsinə qayıtmasın və sarayda nəzarət altında qalsın. O, (Xosrov) Vironun patriarx gəlirini əlindən almadı və onu katolikos ləqəbindən məhrum etmədi"[1].

Təəssüf ki, "Ağvan tarixi" əsərindən başqa heç bir mənbə Sasanilərin zülmünə qarşı Albaniya üsyanı haqqında məlumat vermir. Lakin həmin illərdəki hadisələri "Məktublar kitabı" bir qədər işıqlandırır. 606-607-ci ildə Gürcüstan katolikosu Kürion Dvində olan Virk[2] (İveriya) mərzbanı Smbat Baqratuniyə bu məzmunda bir məktub yazmışdı: "Tsurtav yepiskopu Moisey öz pis əməllərinə görə gecə gizlicə qiyamçılara [Albaniya qiyamçılarına] tərəf qaçaraq Vaqramın [Vironun] yanına gəldi və etdiyi pis hərəkətilə arilər ölkəsinə (yəni İrana - *Z.B.}* böyük ziyan verdi[3]. Lakin yepiskop Moisey özünü doğruluğa çıxararaq həmin Smbata yazır: "Mən Vaqramın yanında olmamışam. Lakin sən cənaba bildirirəm ki, Vaqram mənə belə yazmışdır: "Sənin kilsədən uzaqlaşmağın böyük bir işdir, indi ki, sən çıxıb getmişdin, gərək yolunu bizə tərəf salaydın. Burada [Albaniyada] kilsənin mülkü vardır; bu mülk səni də təmin edə bilər". Mən bu məktubu katolikos Abraama göstərdim, sən hakimə də göstərirəm, mən elə buradaca cavab verdim: "Mən [Vaqram-Viroya] dedim nə üçün oradan getdim - Sizin yanınıza gəlmək üçün - axı sizinlə [albanlarla] onların [gürcülərin] dini etiqadı birdir"[4].

---

[1] Yenə orada.

[2] Deux 'historiens armeniens. Oukhtanes d'Ourha, p. 280 (daha sonra – Ухтанес Урхаеци). Gürcü, alban, erməni kilsələri arasında olan çəkişmələr üçün bax; И.А.Джавахова, "История церковного разрыва между Грузией и Арменией в начале VII века", стр. 433-536. Virk adı haqqında bax: Н.Эмин. Происхождение и значение имени: Иверия-Вирк, армянских писателей (Приложение 13 в книге, "Всеобщая история Степанноса Таронского", стр. 255-258); С.Т.Еремян. Феодальнйе образования Картли, стр. 3.

[3] Книга писем,стр. 171; Ухтанес Урхаеци, стр. 333-334.

[4] Yenə orada, стр. 173.

Zənnimizcə, bu iki yazı parçası Vironun (Vaqramın) Albaniyadakı üsyan rəhbəri olduğundan şübhə etməməyə əsas verir[1].

Ktesifonda I Xosrovun yanında əsir kimi qalan Viro, Şirinin himayəsindən istifadə edərək, öz yanına gələn adamları qəbul edir, vətəni haqqında məlumat alır, müxtəlif dini mübahisələrdə iştirak edirdi.

612-613-cü ildə İran yığıncağı adlanan dini yığıncaq oldu, bir-birinə düşmən olan iki təriqətin keşişləri xalkedon və antixalkedon dini yığıncaqların mahiyyətini II Xosrovun təklifi ilə bu yığıncaqda aşkara çıxarmalı və bir "nəticəyə gəlməli idilər". Bu yığıncaqdakı xalkedonçular arasında Albaniya katolikosu Viro da var idi[2]. Asogik qeyd edir ki, yığıncaqda "xalkedon dini yığıncağının təliminə etiqad Paytakaranda İran padşahının sarayında məhbus olan Albaniya katolikosu [Viro] da var idi"[3].

Viro həbsdə ikən Mehranilər[4] xanədanından olan Albaniya knyazlarına "Girdiman hakimi və Albaniya ölkəsinin knyazı" ləqəbini bəxş etdiyi haqqında II Xosrovun bir sərəncam verməsinə nail oldu[5]. Bu hüquq əldə edildi və Albaniyanın ilk knyazı seçilən Varaz Oriqor 627-ci ildə Ktesifonda (Mədaində) "Albaniya katolikosu Viro tərəfindən edilən xaçaçuran (xristianlığı qəbuletmə) mərasimindən keçdi"[6].

Bəzi alimlərin Viroya verdiyi xarakteristikanın dəqiq olmadığını burada qeyd etmək lazımdır. M.İ.Artamonov belə güman

---

[1] Viro (Vaqram) haqqında bax: N.Akinean. Kİwrion, Katolikosi Wraç, p. 203-207. Gürcüstan xalkedon katalikosu Kürion haqqında b a x: “История Армении каталикоса Иоаннеса Драсканакертского” , стр. 53

[2] История епископа Себеоса, стр. 104.

[3] Всеобщая история Степанноса Таронского…, стр. 68 (Asogikin rusca tərcüməsində); "Агванский католикос, что при дворе царском в Пайтакаране" (стр. 68).

[4] Mixr sülaləsi haqqında bax: History, p. 107-198, n. 3.

[5] История Агван, стр. 281/229.

[6] Yenə orada, səh. 137/109; С.Баратов. История Грузин, тетрадь II, стр. 69-70.

edir ki, onun monofizit hesab etdiyi Viro, knyaz Varaz-Qriqoru xaçaçuran etdiyi halda xalkedonçu Bizans imperatoru I İraklinin [1] Varaz-Qriqoru ikinci dəfə xaçaçuran etməsi Vironun xoşuna gəlməyə bilərdi[2]. Gördüyümüz kimi, Viro da xalkedonçu idi; odur ki, Varaz-Qriqorun İrakli tərəfindən ikinci dəfə xaçaçuran olunması Albaniya kilsəsini Gürcüstanın da mənsub olduğu xalkedon kilsə yığıncağına daha möhkəm bağladı[3]. Albaniya tarixində baş verən sonrakı hadisələr [4] təsdiq edir ki, Albaniya kilsəsi məhz katolikos Vironun hökmranlığı dövründən etibarən xalkedon kilsə yığıncağı mövqeyində idi[5]. Viro 25 illik həbsdən azad olunduqdan sonra vətənə getdi. "Viro vətəninə gəldikdən sonra öz yerarxiya kilsələrinin qarşısında səcdə edib qapı və döşəmələrini qucaqlayır, sel kimi göz yaşı axıdıb dizi üstə yerdə sürünürdü"[6]. Lakin katolikosa katolikosa "bir az istirahət etmək və həsrətini çəkdiyi" doğma yurdunu "doyunca görmək" müyəssər olmadı, çünki "onu dəhşətli kədər, zəhmət və məşəqqətlər gözləyirdi və çox keçmədən baş verən dağıntının şahidi olmalı idi"[7].

Məlum olduğu kimi, 627-ci ildə, Vironun azad olmasına bir il qalmış, Bizans ilə xəzərlər arasında İrana qarşı bağlanan hərbi ittifaqa görə Xəzər orduları Zaqafqaziya ərazisinə ilk böyük basqına başladılar. Bizans tarixçisinin bildirdiyinə görə, "İmperator İraklinin

---

[1] Е.С.Такайшвили. Источники грузинских летописей, стр. 128; Hİstoire de la Georgia, p. 228.

[2] M.İ.Artamonov. Sitat göstərilən əsəri, səh. 60.

[3] İ.A.Cavaxov. Sitat gətirilən əsəri, səh. 514; С.Баратов.История Грузии, стр. 70; "O [İrakli] Varaz-Qaqeldən (Varaz-Qriqordan) və bütün Qardabani [yəni Qardman] əhalisindən xahiş etdi ki, həmin dövrdə monofizitlərin təlimi iIə zəhərlənmiş erməni kilsəsindən üz döndərsinlər". Histoire de la Georgie, p. 228, n. 5; p. 231, n. 7; V.SaintMartin. Memoires sur l'Armenie, I, p.333; C.Toumannoff. Iberia; v. 65, 3-4, p. 250; yenə onun: The Bagratids of Iberia, p. 288-289.

[4] Bax: katolikos Nerses Bakur və knyaginya Spramanın işi

[5] N.Akinean. Wiroç katolikosi Aluaniç, p. 473-474.

[6] История Агван, стр. 118/94.

[7] Yenə orada, səh. 118-119/94-95.

Sasanilərlə müharibəsi zamanı İrakli xəzərlər adlanan Şərq türkləri ilə ittifaq bağladı. Onlar xaqandan sonra ən böyük şəxs sayılan [Cebu Xaqanın] rəhbərliyi ilə Atrpatakan əyalətinə soxuldular[1], Xəzərlərin bu hücumu "Ağvan tarixi"ndə əks olunmuşdur; burada deyilir: "xəzərlərin saysız-hesabsız quldur dəstələri İraklinin buyruğu ilə ölkəmizə [Albaniyaya] basqınlar edirdi"[2].

Ölkəyə soxulan xəzərlər birinci zərbəni Dərbəndə endirdilər. Onlar şəhəri uzun müddət mühasirəyə alandan sonra Dərbəndin "gözəl hasarlarını" dağıtdılar; halbuki İran şahları bu hasarları çəkmək üçün memarları səfərbərliyə alıb bir çox müxtəlif materiallar axtarmaqla ölkəmizi [Albaniyanı] taqətdən salmışdılar"[3]. Xəzərlər şəhəri alarkən əhaliyə qarşı o qədər rəhmsizlik göstərdilər ki, Albaniya əhalisi arasında çaxnaşma başlandı. Çoxlu adam öz evi və əmlakını buraxıb ölkənin paytaxtı Partava üz qoydu, lakin xalq "yırtıcı canavarlardan" o qədər qorxmuşdu ki, "keçilməz Arsax dağlarında özünə sığınaq axtarmağa başladı". Xəzərlər isə Partavı alıb "baş verən əhvalatdan xəbərdar olan kimi, qaçanları təqib edərək onların bir hissəsinə çatdılar"[4]. Xəzərlər Albaniya ərazisini işğal etdikdən sonra Tiflisə tərəf getdilər və burada impertor İraklinin orduları ilə görüşdülər[5].

---

1 Diokletiandan padşah Mixail və onun oğlu Feofilakt padşahadək bizanslı Feofanın salnaməsi, səh. 235; С.Баратов. История Грузии, стр. 69.

2 История Агван, стр. 103/81-82; müqayisə et: M.Kmoşko. Araplar ve Hazarlar, s. 133.

3 История Агван, стр. 105/83; müqayisə et: А.Ю.Якубовский. Ибн Мискавейх о походе руссов в Берда'а, стр. 74.

4 История Агван, стр. 160/84; müqayisə et: А.Ю.Якубовский. Sitat gətirilən əsəri, стр. 75; К.П.Патканов. Опыт по истории династии Сасанидов…, стр. 69-70.

5 Е.С.Такайшвили. Источники грузинских летописей…, стр. 44, 125-132; История Агван, стр. 107; müqayisə et: Ю.Кулаковский. История Византии, т. III, стр. 93; M.İ.Artamonov. Sitat gətirilən əsəri, səh. 56.

Qış başlananda xəzərlər "padşah [İrakli] ilə birlikdə qatlaşmalı olduqları zəhmətə tab gətirməyərək yavaş-yavaş sovuşub getməyə başladılar və nəhayət, onu tərk edib qayıtdılar"[1]. Lakin qırx minlik ordusu Tiflisdən çəkiləndən sonra Qafqaz dağ ətəklərində Qəbələ rayonunda qışlayaraq, Albaniyada qalmaqda davam edirdi. Aradan bir neçə ay keçmədi ki, "ikinci dəfə şimal küləyi əsməyə basladı... və şimal yırtıcısı[2] (xəzərlər - *Z.B.)* özünün qaniçən bala qartalı Şat ilə yürüşə çıxdı"[3].

Xəzər xaqanı Albaniya üzərinə ikinci dəfə ordu göndərəndə öz oğlu Şata belə tapşırıq verdi: "Əgər onların ölkəsinin [Albaniyanın] hakim və əyanları mənim oğlumu qarşılayıb öz ölkələrini onun tabeliyinə verərlərsə, şəhərləri, qalaları və ticarəti mənim qoşunlarıma təslim edərlərsə, siz də imkan verin onlar yaşayıb mənə qulluq etsinlər. Yox əgər onlar belə etməsələr, onda qoy sizin gözləriniz 15 yaşından yuxarı kişi nəslinə rəhm etməsin və onları (15 yaşınadək oğlanları - *Z.B.)* qadınlarla bərabər mənə və özünüzə qul və kəniz kimi saxlayın"[4].

Albaniyaya soxulan Şat İran şahının canişini Albaniya mərzbanı Sema Vştnasın və katolikos Vironun yanına elçilər göndərib tələb etdi ki, ölkəni onun tabeliyinə versinlər. Mərzban Şatın ultimatumunu rədd etdi, "bütün malını və ölkədən oğurladığı bir çox şeyləri özü ilə götürüb canını qurtarmaq üçün İran ölkəsinə qaçdı"[5].

Mərzban qaçdıqdan sonra, Azərbaycanın yeganə başçısı olaraq qalan katolikos Viro, "ölkəni dağıntı və fəlakətdən xilas etmək üçün" [6] xəzərlərlə danışığa girdi və bu məqsədlə 629-cu ilin martaprelində Şatın qərargahına getdi.

---

[1] Летопись византийца Феофана…, стр. 236.

[2] Yəqin 629-cu ilin yayında.

[3] История Агван, стр. 119/94.

[4] Yenə orada, səh. 121/95.    .

[5] Yenə orada.

[6] Yenə orada.

Viro İran şahına məktub göndərərək xəzərlərə qarşı kömək istədi və Ktesifondan cavab və kömək gələnədək Şat ilə danışıqları süründürməyə başladı. Lakin katolikos İrandan əbəs yerə cavab gözləyirdi - şah sarayı taxt üstündə edilən daxili mübarizə ilə məşğul idi; odur ki, Vironun çağırışlarına diqqət verən olmadı.

Xəzərlər Vironun taktikasını tez başa düşdülər, buna görə də danışıqları kəsib "Albaniyadakı müxtəlif vilayət və kəndləri, su axarı və çayları, bulaq və meşələri, dağ və dərələri qabaqcadan püşk ilə öz aralarında bölüşdülər və hamılıqla müəyyən bir vaxtda, dağıdıcı basqınlarına başladılar. Ölkəmiz başdan-başa lərzə içində titrəyirdi"[1]. Bu dəfə Arsax vilayətinin keçilməz dağları da Albaniya əhalisini xilas edə bilmədi; halbuki adamlar həmişə yadellilərin hücumu zamanı bu dağlarda gizlənirdilər.

Basqınların qızğın çağında xəzərlər ikinci dəfə Vironun yanına elçilər göndərdilər. Elçilərin başçısı katolikosa belə dedi: "Mən əmr etdiyim kimi hərəkət et (yəni ölkəni təslim et - *Z.B.),* onda sən, sənin evin və sənin torpağında qalanların hamısı nicat tapar. Əgər sən boyun qaçırsan, mənim əmrimlə səni tutub zorla mənim yanıma gətirəcəklər"[2]. Onda katolikos Viro "padşah xanədanından olan bütün baş şahzadələri və bu [Alban] padşahlığın əyanlarını, əyalətlərin hakimləri və kətxudaları, habelə keşişləri, dyakonları və başqa ruhaniləri" öz yanına çağırıb, ölkənin gələcək taleyi haqqında onlarla məsləhətləşdi. Viro tezliklə qərar qəbul olunmasını tələb etdi, "çünki gələn elçi Vironu buna məcbur edirdi"[3]. Yığıncağa gələnlər bütünlüklə katolikosun etibar və müdrikliyinə əmin olduqlarını bildirib, ondan xahiş etdilər ki, yubanmadan qərar qəbul etsin. Onda Viro toplananların hər birinə təklif etdi ki, öz maddi vəziyyətinə uyğun olaraq onun yanına "qızıl, gümüş və paltar" gətirsinlər, həm də

---

[1] История Агван, стр. 122/97.

[2] Yenə orada, səh. 123/97; xəzərlərin Albaniyaya basqınının təfsilatı haqqında b a x: З.М.Буниятов. О длительности пребывания хазар в Албании в VII-VIII вв., стр. 21-34.

[3] История Агван, стр. 124/98.

xəbərdarlıq etdi ki, hər kəs xəsislik edib öz sərvətini gizlətməsin, çünki Albaniyanın müqəddəratı məsələsi həll olunur.Viro Xəzər ordusunun bütün rütbə sahibləri və əyanları üçün çoxlu hədiyyələri arabalara yükləyib, Albaniyanın bütün adlı-sanlı adamlarını məcbur etdi ki, onunla birlikdə düşmən düşərgəsinə getsinlər; habelə bildirdi ki, belə hərəkət etməkdən "məqsəd sizinlə birlikdə bir təbəə sifətilə onun [xaqanın] yanına gedişimiz ona inandırıcı görünsün"[1] .

Viro alban əyanları ilə birlikdə Şatın Partava yaxınlığında ordugahına sağ-salamat çatdı. Burada Xəzər mənsəb sahibləri "hədiyləri əllərinə alıb, təkcə katolikosu şahzadənin oturduğu içəri çadıra apardılar"[2]. Şahzadə hədiyyələri alıb, Viroya dedi ki, əmr edəcək onun qoşunları öz düşərgələrinə qayıtsın və basqını dayandırsınlar. Lakin katolikosdan tələb etdi ki, ölkənin bütün qaçqın əhalisi öz yerlərinə qayıdıb öz işləri ilə məşğul olsun və vəd etdi ki, bu gündən "xəzər xaqanının əbədi mülkü" sayılan ölkənin bundan sonra dağıdılmasını dayandıracaqdır[3].

Viro ölkəni dağılmaqdan xilas etmək xatirinə Şatın bütün tələblərini qəbul etməyə məcbur oldu və Albaniya əyanları adından ona belə dedi: "Biz - mən və ölkənin bütün əhalisi - sənin atanın və sənin bəndələrinik. Bizə öz nökərlərin kimi rəhm et və öz qılıncını bizim üstümüzdən qaldır ki, biz Sasanilərə qulluq etdiyimiz kimi sənin atana və sənə qulluq edək"[4].

Şatın bu münasibətlə düzəltdiyi böyük qonaqlıqda katolikos Viro ondan xahiş etdi, Albaniyanın bütün yaşayış məntəqələrinə xəzər canişinləri göndərsin ki, xəzərlərin bundan sonrakı basqınlarına mane olsunlar; bir də indi ki, Albaniya xəzərlərin tabeliyinə keçmişdir, Şatdan belə bir sərəncam verməsini tələb etdi: "Sənin qoşunların tərəfindən əsir alınıb çadırlarında saxlanan kişi və

---

[1] История Агван, стр. 125/98; müqayisə et: Л.М.Меликсет-Бек. Хазары по древнеапмянским источникам, стр. 116.

[2] История Агван, стр. 126/100.

[3] История Агван, стр. 126/100; müqayisə et: M.İ.Artamonov. Adı çəkilən əsəri, səh. 63

[4] Yenə orada, səh. 127/100.

qadınlar, oğlan və qızlar buraxılsın ki, atalar öz oğullarından, analar da öz qızlarından ayrı düşməsinlər"[1].

Vironun bu xahişi yerinə yetirildi və albanlardan alınan bütün əsirlər buraxıldı. Bundan əlavə Viro, Cebu xaqanın oğlu Şat Xəzərin yanında Ermənistan və Gürcüstandan olan əsirləri də buraxdırdı[2].

Beləliklə, Albaniya, "İran şahı Ərdəşir Qubad oğlunun ikinci ilində, o öz iradəsi ilə şahlıq edərkən"[3], yəni 629-cu ilin sentyabrı ilə 630-cu ilin apreli arasındakı dövrdə, xəzərlər tərəfindən istila edildi.

Xəzərlərin Albaniya üzərinə etdikləri dağıdıcı basqınları və əhalini kütləvi surətdə sürüb aparmaları nəticəsində, ölkədə heç kəs torpağı becərmirdi, buna görə də 630-cu ilin yazında "üç sərkərdə - Aclıq, Qılınc və onların köməkçisi Ölüm Albaniyanı" tutdular[4]. Ölkəni epidemiya bürüdü. Əzab çəkən xalqa kömək etmək üçün katolikos Viro yenidən öz səy və bacarığını işlətməli oldu. O, "xəstəliyə tutulanların acınacaqlı halına günlərlə göz yaşı axıdırdı"[5] və görünür, özü də xəstəliyə tutuldu. Katolikos Vira 630-cu ildə epidemiya zamanı öldü.

Orta əsr Albaniyasının görkəmli xadimlərindən biri olan və Mxitar Qoş demişkən "xeyirxahlığı ilə parlayan pak insan" katolikos Vironun həyatı bu cür sona çatdı[6].

Ölkəyə üz vermiş dəhşətli fəlakətə baxmayaraq, xəzərlər Albaniyadan bac almaqda davam edirdilər. Xəzər xaqanı - "şimal əmiri" qızıl, gümüş, dəmir filizi və mis çıxarmaqda biliyi olan müxtəlif peşə sahiblərini tapmaq üçün öz nəzarətçilərini göndərdi, İran şahlarının kadastrına uyğun olaraq tacirlərdən, böyük Kür və

---

[1] Yenə orada, səh. 128/100.

[2] Yenə orada, səh. 281/229; Киракос Гандзакеци, стр. 101.

[3] Истори Агван, стр. 131/104. III Ərdəşirin hökmranlığının ikinci ili 629-cu il iyunun 17-də başladı və 630-cu il aprelin 27-də onun edamı ilə bitdi (Табари-Нельдеке, стр. 386).

[4] Yenə orada, səh. 130/103.

[5] Yenə orada, səh. 129/103; Мхитар Айриванци, стр. 76.

[6] Мхитар. Гош. Албанская хроника, стр. 9.

Araz çayları balıqçılarından alınan vergi və dirhəm (didrak, mayk) məbləğini müəyyən etdi[1].

629-630-cu ildə xaqan, yoxlama vaxtı ölkədəki ərzaq ehtiyatından heç bir şeyin ondan gizlədilmədiyini yəqin edəndən sonra, Ermənistana və onunla qonşu ölkələr üzərinə yeriməyə hazırlaşdı və hücuma keçdi. Əvvəlcə Çorpan Tarxanın[2] başçılığı ilə üç min nəfərlik dəstə göndərdi ki, özü üçün təhlükəsiz bir yol hazırlasın, sonra özü də qoşunla yürüşə başladı[3]. Xəzərlər Göyçə gölü yaxınlığında "10 min nəfərlik İran qoşununu məğlub etdilər, meyitlərin üzərindəki şeyləri qarət edib, atların bəzək şeylərini topladılar, onların nizələrini və yunanlılar tərəfindən məharətlə qayırılıb qızıla tutulmuş qılınc, qalxan və paltarlarını yığdılar, bunların hamısını öz aralarında bölüşdürdülər[4].

M İ.Artamonov belə hesab edir ki, xəzərlərin Albaniyadakı üçillik hökmranlığı bununla başa çatır və A.Y.Krımski[5] iddia etdiyi kimi xəzərlərin bu ölkədə "yüzillik hökmranlığı barəsində heç söz ola bilməz"[6]. O öz iddiasını əsaslandırmaq üçün M.Kalankatukluya istinad edir ki, o da belə yazır: xəzərlər 10 minlik İran ordusunu darmadağın etdikdən sonra, yenidən "keçidlərlə üç dövlətə Ermənistan, Gürcüstan və Albaniyaya tərəf üz qoydular"[7], lakin "məğlub edildilər"[8].

M.İ.Artamonov xəzərlər tarixinə dair son tədqiqatında xəzərlərin Albaniyada qalmaları müddətinin nə qədər uzun olduğu barədə əvvəlki nöqteyi-nəzərini dəyişdirib belə deyir:

---

[1] История Агван, стр. 131/104.

[2] Türk termini "tarxan", "tarkan" haqqında bax: E.Chavannes. Documents, p. 19, n. 2; D.M.Dunlop. Adı çəkilən əsəri, səh. 72.

[3] История Агван, стр. 132/104.

[4] Yenə orada, səh. 133/105-106.

[5] А.Е.Крымский. Страницы из истории Северного или Кавказского Азербайджана, стр. 298.

[6] M.İ.Artamonov. Adı çəkilən əsəri, səh. 65; həmçinin onun: Древний Дербент, стр. 137.

[7] История Агван, стр.134/106.

[8] M.İ.Artamonov. Adı çəkilən əsəri, səh. 64-65.

"Zaqafqaziyada türkütlər (xəzərlər - *Z.B.)* haqqında "Alban tarixi"nin ətraflı məlumatı bununla (xəzərlərin məğlubiyyətindən sonra - *Z.B.)* bitir, bundan sonra nə varsa, hamısı him və eyhamlardan toxunmuşdur"[1].

M.İ.Artamonov L.N.Qumilyevin[2] fərziyyələrinə əsaslanaraq bu faktı əsassız hesab edir ki, "M.Kalankatuklu L.N.Qumilyevin "türkütlər" adlandırdığını "xəzərlər adlandırır və xəzərlərin qısa müddət üçün Albaniyada olmamasını 630-cu ildə Qərbi türkütlər xaqanlığındakı hadisələrlə əlaqələndirir"[3].

Lakin M.İ.Artamonovun bu fikri ilə razılaşmaq olmaz ki, xəzərlər məğlubiyyətə uğradıqdan sonra Albaniyanı həmişəlik tərk etdilər.

Qeyd etdiyimiz kimi, hələ Xosrov Ənuşirəvan dövründə Albaniyaya 10 min xəzər köçürülmüşdü, xəzərlərin əlində olan Qəbələ[4] şəhərində onların inzibati mərkəzi yerləşirdi[5]; çox ehtimal ki, ki, xəzərlər cənuba doğru növbəti hücumları zamanı məğlubiyyətə uğradıqda, M.İ.Artamonovun dediyi kimi, Albaniyanı tərk etmədilər, sadəcə Albaniya ərazisində əvvəlki hərəkət yerinə, Qəbələ rayonuna qayıtdılar. Burada onlar öz soyğunçu yürüşləri üçün əlverişli hadisələrin baş verməsini gözləməyə başlayaraq, qərbdə çox ehtimal ki, Gürcüstan sərhədlərinədək, cənubda isə Kür çayınadək uzanan, şübhəsiz, böyük bir ərazini nəzarət altında saxladılar. Onlar şərqdə öz mərkəzi hakimiyyətlərilə daimi əlaqə saxlayaraq təkcə Dərbənd

---

[1] Л.И.Артомонов. Истории хазар, стр. 153.

[2] Л.Н.Гумиле. "История хазар" mətninə qeydlər, səh. 154-155.

[3] М.И.Артамонов. "История хазар", стр. 154, 155. Xəzərlərin Albaniyada qalmaları müddətinin nə qədər olduğuna gəlincə, bu məsələ M.İ.Artamonovun yeni əsərində əsla öz əksini tapmır; habelə demək lazımdır ki, onun A.Y.Krımski ile mübahisəyə girişməsi də bu dəfə nəzərə çarpmır.

[4] Əl-Bəlazuri, səh. 193

[5] A.Y.Krımski. Sitat göstərilən əsəri, səh. 298. Xəzərlər onda nəinki Qəbələdə, indiki Qusar və Mingəçevir şəhərlərinin ərazisində yaşamışlar. Mingəçevir və Sarkelin katakomba şəkilli qəbirlərin oxşarlığı bizi bunda əmin edir. Qəbələ və digər qonşu vilayətlərin ərazisində indi də "Xəzəri" adlı kəndlər vardır.

keçidini deyil, Dərbənddən qərbdəki bütün dağ keçidlərini (Ağbulaq, Salavat keçidləri, Bazardüzü dağındakı iki keçidi) də diqqətlə nəzarət altında saxlayırdılar, çünki bu keçidlərdən ən qısa müddətdə Albaniya ərazisinə qoşun yeritmək olardı.

Xəzərlərin Arran əhalisinə münasibəti haqqında "Azərbaycan tarixi"ndən verilən izahat heyrətə səbəb olur, çünki burada deyilir ki, İranla Bizans arasındakı müharibələr zamanı xəzərlər "albanlarla dostlaşıb onlarla birlikdə Bizans qoşununu düşməncəsinə qarşıladılar"[1]. Gətirilən material bunun əksini göstərir.

Beləliklə, deyilənlərə yekun vuraraq, belə nəticəyə gəlmək olar ki, ərəblərin hücumu zamanı Azərbaycanın bütün cənub hissəsi Sasanilər imperiyasının tərkibində qalmaqda davam edirdi. Azərbaycanın şimalı (Arran, Albaniya) isə Qafqaz dağ ətəklərində yerləşən xəzərlərin tez-tez hücumlarına məruz qalırdı. Eyni zamanda ölkədə Sasanilər canişini mərzban qalırdı ki, bu da Albaniyanın İrandan vassal kimi asılı olduğunu göstərir. Eyni zamanda Arran xəzərlərə böyük məbləğdə bac verməli olurdu, xəzərlərlə bir çox il ərzində edilən mübarizə isə ərəblərin ölkəni istila etmələrində öz rolunu oynadı.

İstər yazılı mənbələr, istərsə xüsusilə arxeoloji qazıntı materialı VI əsrin axırı və VII əsrin əvvəllərində ölkənin mədəni siması haqqında bizə məlumat verir. Mənbələr göstərir ki, V əsrin əvvəllərində Azərbaycanın şimal hissəsinin (Arran) öz əlifbası olmuşdur[2] və bu əlifbanın gürcü və erməni əlifbaları ilə ümumi oxşar cəhətləri var imiş. Hələ V əsrdə Arranda zəngin ədəbiyyat var idi, lakin sonralar bu ədəbiyyat yox olmuşdur[3].

---

[1] Azərbaycan tarixi, I c., səh. 95.

[2] М.Хоренский. История Армении, стр. 211; История Агван, стр. 70, 89/54, 69; Корюн. Житие Маштоца, л. 20. Bax St. Strelcyn. Sur une tradition ethiopienne d'origine yemenite conseruant l'ecritur, p/ 265-267; Н.В.Пигулевская. К вопросу о "письменных" народах древности, стр. 336-339.

[3] A.Diringer. The Alphabet,. p. 325-327; N.Kurdian. The Newly Discovered Alphabet, p. 81-83.

Arran (Alban) əlifbası hərflərinin sayı haqqında müxtəlif fikirlər vardır. Məsələn, N.Karamyans belə hesab edir ki, hərflərin sayı 21 idi[1], Ellis Minns belə güman edir ki, hərflərin sayı 32 imiş[2]. Lakin A.Q.Şanidze və digər tədqiqatçılar belə hesab edirlər ki, hərflərin sayı 52 olmuşdur[3]. Bu o demək deyildir ki, Arranda yalnız bir əlifba, bir yazı olmuşdur. Ola bilər tapılmış əlifba, ölkədə işlədilmiş bir neçə əlifbadan biri imiş; A.Q.Şanidze deyir ki, "çox ehtimal, Arranda təkcə bir xalqın deyil, bir neçə xalqın öz milli yazısı olmuşdur"[4].

Mingəçevirdəki arxeoloji qazıntılar zamanı tikinti hissələri və saxsı qablar üzərində alban oyma yazılarının bir neçə parçası tapılmışdır. Bunlardan biri Mingəçevirin qədim ibadətgahı üzərində oyulub yazılmışdır. Bu ibadətgahın yerləşdiyi ərazidə tapılan saxsı qablar üzərində də belə yazılar vardır[5]. Bundan başqa, üzərində alban yazısının 21 hərfi olan kirəmit parçaları[6], qırmızı gildən qayırılmış qabın bir tikəsi üzərində, ehtimal, alban yazısı[7], ölçüsü 67x62 və üzərində 62 hərf olan böyük daş və 49 hərfi olan gil şamdan tapılmışdır[8].

---

[1] N.Karamianz. Einundzwanzig Buchstaden..., p. 315.

[2] A.Diringer. Göstərilən əsəri, səh 327.

[3] А.Шанидзе. Новооткрытый алфавит кавказских албанцев и его значение для науки; yenə onun: Порядок букв грузинского, армянского и албанского алфавитов, стр.37; И.Абуладзе. К открытию алфавита кавказских албанцев, стр. 69-71; Л.М.Меликсет-Бек. По поводу заметки о письменности у кавказских албанцев, стр. 561-563; yenə onun: К вопросу о генезисе армянского, грузинского т албанского алфавитов, стр. 45-68; həmçinin bax: Р.Ачарян. Албанский алавит, стр. 3.

[4] А.Шанидзе. Новооткрытый алфавит…, стр. 56

[5] S.M.Qazıyev. Mingəçevirdə alban yazısı; R.M.Vahidov. Sitat gətirilən əsəri, səh.137-138.

[6] Т.И.Голубкина. Еще одна албанская надпись в Мингечауре, стр. 234-236.

[7] S.M.Qazıyev. 1949-cu ildə Mingəçevirdə yeni arxeoloji tapıntı, səh. 397.

[8] R.M.Vahidov. Alban yazısı olan gil şamdan parçası, səh. 4; yenə onun, Mingəçevir III-VIII əsrlərdə, səh. 138-139; R.V.Vahidov və V.T.Fomenko.

Bu cür gil parçalarının tapıldığı yer bir tək Mingəçevir deyildir. İ.M.Cəfərzadənin qədim Gəncədə qazıntı zamanı tapdığı saxsı qırığının üst tərəfində qabarıq şəkildə ştamplanmış yazı vardır ki (hələ oxunmamışdır), bunun hərfləri "erməni, gürcü, bəlkə də alban əlifbasının hərflərini xatırladır"[1].

A.Q.Şanidzenin göstərdiyi kimi, alban yazısı məsələsini aydınlaşdırmaq üçün, Azərbaycan ərazisində bir çox məbəd binası xərabələrini yoxlamaq lazımdır. Lakin alban əlifbasının varlığı şübhə doğurmur.

V əsrdə Arranda məktəblər var idi və burada uşaqlar oxuyurdular. Məsələn, "Ağvan tarixi"ndə belə bir məlumat vardır: "[padşah] Vaçaqan əmr etdi ki, cadugərlərin, sehrbazların, bütpərəst kahinlərin, ağlayanların uşaqlarını yığıb məktəbə göndərsinlər və orada onlara dini ayinləri öyrətsinlər. O, oğlanlara əmr etdi ki, hamı birlikdə onun Rustak kəndinə toplansınlar. Onlar üçün təqaüd ayırıb məktəb müdiri təyin etdi və xristianlığı öyrənməyi onlara əmr etdi[2]. O, kəndlərə gələndə, tez-tez məktəblərə gedər, sehrbaz və bütpərəst kahinlərin uşaqlarını öz ətrafına toplayar, onu əhatə edən camaatın içərisində bəziləri əllərində kitab, başqaları isə yazı lövhəsi tutub dayananlara əmr edərdi ki, ucadan bir-birinə oxusunlar və belə hallarda o qədər sevinərdi ki, böyük bir xəzinə tapsa, o qədər sevinə bilməzdi"[3]. Bu məktəblərdə rahiblər “maaşla”[4] dərs verirdilər, yəni ruhanilər maarifçi rolu oynayırdılar.

E.Ağayanın alban təqviminə [5] aid tədqiqatı göstərir ki, albanların öz tarix hesabı var idi.

Mingəçevirdəki qazıntı zamanı tapılan alban əlifbası parçaları təsdiq edir ki, V-VII əsrlərdə Arranın öz yerli yazısı var idi və bu

---

Mingəçevirdə orta əsr ibadətgahı, səh. 92; А.Л.Монгайм. Археология в СССР, стр. 248.

[1] İ.M.Cəfərzadə. Qədim Gəncənin tarixi-arxeoloji oçerki, səh. 30-31.

[2] K.P.Patkanovun tərcüməsində yoxdur.

[3] История Агван, стр. 38/29-30.

[4] Yenə orada, səh. 55/43.

[5] Э.Агаян. Албанские названия месяцев "Изв. АН Арм. ССР", 1946, Ns5.

yazı ölkədə ərəb hökmranlığı hələ qurulmazdan əvvəl mövcud olmuşdur. Belə güman etmək olar ki, Arranda yazılı mənbələr və ədəbiyyat xəlifə Əbd ül-Malikin (685-705) hökmranlığı dövründən başlayaraq məhv edilmiş və ya sıxışdırılıb aradan çıxarılmışdır[1]. Divanxanalar ərəb dilinə keçdi, alban yazısı, habelə fars və Xarəzm yazıları, əhali içərisində savadlı təbəqələrin azlığı və qriqoryan kilsəsinin təzyiqi üzündən sıxışdırılıb unuduldu və təbii olaraq məhv oldu. Erməni dili alban dilini əvəz etdi[2].

VII əsrdə "Ağvan tarixi"nin tərtib edilməsi başlandı[3]; burada xalq yaradıcılığı nümunəsinə də təsadüf edilir ki, bu da "Böyük knyaz Cavanşirin ölümü"[4]münasibəti ilə şair Davtakın şeirlə yazdığı ağı və "yaşadığımız günlərədək mühafizə olunub qalan yeganə qədim poemadır"[5].

Yuxarıda qeyd edildiyi kimi, Sasanilər imperiyasının bir hissəsi (əyaləti) olan Cənubi Azərbaycan ərəblər tərəfindən işğal edildikdən sonra, Xilafətin digər əyalətlərində olduğu kimi, xəlifələrin canişinləri vasitəsi ilə idarə olunurdu; Arranda isə ərəblərin hücumu ərəfəsində Mehranilər nəslinə mənsub hökmdarlar var idi və bunlar yalnız quru adları olsa da, uzun müddət ərzində, VIII əsrin əvvəlinədək bütün ölkəni və ya onun bir hissəsini idarə edirdilər.

Mehranilər nəslinin yüksəlməsi VI əsrin axırına və VII əsrin əvvəllərinə təsadüf edir. Orta əsrlərdəki müəlliflərin dediyinə görə, Mehranilər sülaləsinin banisi olan Mehran Sasani şahı II Xosrovun qohumu idi. Öz atası IV Hürmüzün (579-590)[6] qatillərinə divan tutan

---

[1] История Агван, стр. 238-246/189-198; Киракос Гандзакеци, стр. 101.

[2] Е.А.Пахомов. Краткий курс истории Азербайджана, стр. 15

[3] З.И.Ямпольский. К изучению Летописи Кавказской Албании, стр. 149-159.

[4] История древнеармянской литературы, стр. 311-313.

[5] История Агван, стр. 182-184/145-148; З.М.Буниятов. Еще раз о неизданных страницах "Истории Агван".

[6] IV Hürmüz ilə onun qohumları Vindo, Vistəhm və Bəhram Çubin arasında və sonralar Hürmüzün oğlu II Xosrov arasındakı mübarizə haqqında bax :

tutan Xosrovun intiqamından canını qurtarmağa çalışıb "Xosrovla qohum olan Mehran[1] qaçıb Albaniyaya getmiş və özü ilə 30000-ə yaxın ailə aparmışdı. O, Uti vilayətinə gəlib böyük Partav şəhərinin yaxınlığında dayanmışdı və istəyirdi xəzərlərin torpağına gedib bu düşmənlərə [İranın düşmənlərinə] qoşulsun"[2].

Xosrov isə yəqin başa düşmüşdü ki, Mehran xəzərlərlə birləşsə, böyük bir təhlükə olacaqdır, buna görə də M.Kalankatuklunun dediyinə əsasən, Xosrov İranın adlı-sanlı əyanlarının təzyiqi ilə Mehrana aşağıdakı məzmunda bir məktub göndərir: "Qardaşım, mənim, sadiq qardaşım (həzərat)! Düşmən olub məndən uzaqlaşma. Əgər mənimlə bir yerdə yaşamağa xoşun gəlmirsə, bu məktub sənə çatanda nə qədər yol getmişsənsə, ölkədə [Albaniyada] yaşamaq üçün özün bir o qədər torpaq götür"[3].

M.Kalankatuklunun dediyinə görə, Xosrovun qasidi elə bir yerdə Mehrana çatmışdı ki, orada o, Mehravan şəhəri salmışdı. Sonra Mehran Girdiman vilayətindən şimala getdi, onun 12 hakimini (yerli knyazları - *Z.B.)* hiylə ilə öz yanına çağırdı və qılıncdan keçirib ölkəyə sahib oldu"[4].

---

Feofan, səh. 263-266; F.Simokatta, səh. 155, Sebeos, səh. 29-37; Artsruni, səh. 86; ət-Təbəri, I, 889-944; əd-Dinəvəri, səh. 85-89.

[1] Alban Mehraniləri sülaləsinin banisi zənn edilən bu Mehran, Sebeosun Mehran Mehrevandəki (səh. 28-31) deyilmi, yəni Mehranın nəslindən olub I Xosrovun dövründə yaşayan və 572-ci ildə Vardan Mamikonyan ilə vuruşan Bəhram Mehrevantək Çubinin qohumu deyilmi (Bax: ət-Təbəri, I, 1000; əd-Dinəvəri, səh, 91-96). Əgər belədirsə, onda M.Kalankatuklu II Xosrovu I Xosrov ilə qarışdırmışdır. Kalankatuklu belə zənn edir ki, Mehran Sasani nəslindəndir və bunu bir neçə yerdə təsdiq edir.

[2] История Агван, стр. 136/108.

[3] Yenə orada. Mehranilər İran monarxiyasının yeddi böyük nəslindən biri idi. (A.Chiristensen. Göstərilən əsəri, p. 103-110). Bu nəslin nümayəndələrinin ehtimal ki, Azərbaycanın cənubunda torpaqları var idi. (Müqayisə et: Н.Адонц. Армения в эпоху Юстиниана, стр. 440). Onlar Mehranilər sülaləsi olaraq alban Əşkanilərinin yerini tutdular.

[4] Yenə orada, səh. 136/108.

Mehranın nəvəsi igid Vardan[1] Arranın Eranşahik[2] sülaləsindən olan keçmiş hakimlərinin son 60 nümayəndəsinə yemək vaxtı"zəhərli çörək" verib onları məhv etdi və bundan sonra bütün Arran qəti olaraq yeni sülalənin əlinə keçdi. O, köhnə sülalədən yalnız öz qızlarından birinin əri Zərmehr Eranşahiki [3] öldürməyib salamat buraxdı.

İgid Vardanın nəvəsi Varaz-Qriqorun (628-636) [4] hökmranlığında Mehranilər xristianlığı qəbul etmiş və hətta iki dəfə xaçaçuran edilmişlər; birinci dəfə imperator İrakli, ikinci dəfə isə katolikos Viro tərəfindən xaç suyuna salınmışlar.

Mehranilər sülaləsinin ən görkəmli nümayəndəsi Varaz-Qriqorun ikinci oğlu knyaz Cavanşir idi (637/8-680) [5] ; onun hökmranlığı dövründə ərəblər Arranı istila etməyə başladılar.

---

[1] M.Kalankatuklu igid Vardanı Aquen dini yığıncağının iştirakçısı kimi göstərir və "Girdimanın hakimi" adlandırır, lakin sonralar (səh. 276/225) onu "İsaya etiqad edən" Vardan adlandırır və deyir ki, o, "Girdiman qalasını tikməmişdir". Burada açıq-aşkar anlaşılmazlıq var, çünki 136/108-ci səhifədə bunun əksini yazır.

[2] Bu Arran sülaləsinin adı olub (bax: M.Kalankatuklunun əsərində "Arran" adına, səh. 31/24), Markvartın iddia etdiyi "İranşah" titulu deyildir, çünki o, "Aronsaxik sözünü düzəldib "Aransaxik" şəklində yazmışdır. B a x; История Агван, səh. 71,261, 266/55,209,214.

[3] З.М.Буниятов. Шаки; History, p.217.

[4] Вараз-Гагел грузинских хроник (Bax: Е.С.Такайшвили. Источники грузинских литописей, стр. 128; Histoire de la Georgie, p. 228). Markvartın verdiyi 627-ci il tarixi düzəldilib 628 olmalıdır; bu ildə Viro həbsdən azad olmuşdur. Varaz-Qriqoradək Mehranilər sülaləsi təqribən belə davam etmişdir: Mehran - təqribən 480-ci il, Harmel - təqribən 510-cu il, I Vard - təqribən 540-cı il, igid Vardan - təqribən 570-ci il, II Vard - təqribən 600-cü il.

[5] С.Т.Еремян. Политическая история Албании III-VII вв., стр. 323: 636-669 гг.; K.V.Trever. Sitat göstərilen əsəri, səh. 236: 636-669-cu illər. İran-Alban Cavanşirin adını S.T.Yeremyan vo K.V.Trever tərəfindən erməniləşdirildiyi diqqəti cəlbedir: S.T.Yeremyanın əsərində "Djuanşer", K.V.Treverin əsərində isə "Djıvanşer". B a x.: F.Justi. İranisches Namenbush, p. 123: "Alban knyazı Cavanşir Mehranilər nəslindəndir". Vardana görə (səh. 86) Arran knyazı Cavanşir və onun

## 2. Ərəblərin hücumu ərəfəsində - Azərbaycanda sosial-iqtisadi münasibətlər (VI əsrin axırı - VII əsrin əvvəli)

Mənbələrdə Azərbaycan haqqında son dərəcə az məlumat mövcud olduğundan, bu dövrdə ölkənin daxili həyatını təsvir etmək çox çətindir. Cənubi Azərbaycan Sasanilər imperiyasının tərkibinə daxil olduğundan, onun bütün iqtisadi və siyasi həyatı mərkəzi şah hakimiyyətinə tabe edilmişdi. Şimali Azərbaycana gəldikdə, İran şahının buradakı mərzbanı şah sarayına hər il vaxtlı-vaxtında bac verilməsinə göz qoyurdu [1]. Xəzərlərin və ya bizanslıların ölkəyə soxulması nəticəsində mərzban ölkəni tərk etdikdə, bacı müvəqqəti olaraq, yeni istilaçı ağalar yığırdılar.

---

bacısı (erməni hakimi) Qriqori Mamikonyanın əvvəlki arvadı albanlar adından Qriqordan Müqəddəs Qriqorinin çənəsini istəmişlər. M.Kalankatuklu (səh. 189, 190/151) qeyd edir ki, Müqəddəs Qriqorinin çənəsi Arrana I Varaz-Trdat - Cavanşİrin qardaşı oğlu zamanı verilmişdir. Ç.Dovsett onu Cavanşirin oğlu adlandırır. (B a x: History, p. 109-110, n. 7).

[1] Albaniya Əşkanlərindən II Vaçe taxtdan əl çəkəndən sonra Sasanilərdən Perozun (Firuzun) (459-484) və hətta Valaş tərəfindən Albaniya taxtında bərpa edilən Vaçenin qardaşı III Vaçaqanın (484-488) hökmranlığında Albaniya VII əsrin başlanğıcınadək iqamətgahı Bərdədə olan İran mərzbanının nəzarəti altında idi (müqayisə et: C.Toumanoff. Iberia on the Eve of Bagratid Rule, p.236). Məsələn, Albaniyadakı İran mərzbanı Barzabod - Gürcüstan padşahı Vaxtanq Qorqasalın ana tərəfindən babasi olan bu şəxs "Vaxtanq Qorqasalın tarixi"ndə Arranın eristavı ("Eristav Ranis") adlandırılır.

Məlum olduğu kimi, Sasanilər, imperiyanın tərkibinə daxil olan xalqların siyasi istiqlaliyyətini məhv etməyə çalışırdılar. Bunun üçün İran şahları, özlərinə tabe olan ölkələrə mərzbanlardan canişin təyin edirdilər və bütün inzibati, məhkəmə və hərbi hakimiyyət onların əlində olurdu. Ölkəni idarə edən Sasanilərin dövlət sistemi və ölkənin daxili quruluşu haqqında məlumat, Ərəb xilafətinin bu və ya başqa təsisatının fəaliyyəti təsvir olunarkən ərəb müəlliflərinin gətirdiyi arayışlardan, Bizans müəlliflərinin əsərlərindəki materialdan və epiqraf xarakterli qədim erməni mənbələrindən əldə edilə bilər. Lakin bu məlumatların demək olar, hamısı yalnız ümumi şəkildə verilmişdir.

Azərbaycan Sasanilər imperiyasının tərkib hissəsi olduğuna görə, torpaq sahibliyi, torpaqdan istifadə, vergi sistemi və s. demək olar, imperiyanın digər rayonlarında olduğu kimi idi. Şah hakimiyyətindən yalnız vassal kimi asılı olan Arranın özünəməxsus təsərrüfat sistemi var idi və İrandan fərqli olaraq, Arranda başlıca rolu xristian kilsəsi oynayırdı, yəni ölkənin vəziyyəti öz qonşuları olan Gürcüstan və Ermənistandakı vəziyyətin təqribən eyni idi.

Sasanilərə və xəzərlərə ağır töycü verildiyinə baxmayaraq Arranın yarımasılı vəziyyəti onun məhsuldar qüvvələrinin artmasını təmin edir, təsərrüfat və mədəniyyətinin inkişafına kömək edirdi.

Arranda yaxşı suvarma sisteminin olması sayəsində Kür çayı sahilindəki torpaqlar çox yaxşı dənli bitkilər və bağ-bostan məhsulu verirdi. Geniş torpaq sahələrində üzüm bağları salınmış, yağlı bitkilər və tut ağacı əkilmişdi, tut ağacları isə toxuculuq sənətinin inkişafına kömək edirdi. Əhali maldarlıq və balıqçılıqla da məşğul idi.

Moisey Kalankatuklu Arran torpağının münbitliyi və yeraltı sərvətləri haqqında belə deyir: "Uca Qafqaz dağları arasında yerləşən Albaniya ölkəsi çoxlu təbii sərvətlərlə dolu və zəngindir. Böyük Kür çayı ölkənin ortasında sakitcə axaraq, böyük və kiçik balıq gətirir və öz suyunu Xəzər dənizinə tökür. Onun ətrafındakı çöllərdə bolluca taxıl və çaxır, neft və duz, ipək və pambıq və çoxlu zeytun ağacı vardır. Dağlarda qızıl, gümüş, mis və oxra çıxarılır. Vəhşi

heyvanlardan şir, bəbir və çöl eşşəyinə, çoxlu quş arasında qartal, şahin və s. təsadüf edilir. Albaniyanın paytaxtı böyük Partavdır"[1].

Mənbələrin verdiyi məlumata görə, Arranda pambıq becərilməsinin əsrlər boyu qədim tarixi vardır. Pambıq tarlaları yaxşı suvarılan Şirvan, Mil və Muğan rayonlarında idi. VII əsrdəki "Erməni coğrafıyası"nda tamamilə aydın göstərilir ki, Arran "saysız-hesabsız miqdarda pambıq istehsal edir"[2].

Arranda mədənçıxarma sənayesinin olması onunla əlaqədar metal emalının inkişafına təkan verirdi. Ölkədə "qızıl, gümüş, dəmir fılizi və mis çıxarmada biliyi olan" çoxlu sənətkar usta vardı[3].

Cavanşirin Moisey Kalankatuklu tərəfindən təsvir edilən knyazlıq dövrü belə güman etməyə əsas verir ki, VI əsrin axırı ilə VII əsrin əvvəllərində Arranın ictimai quruluşunda feodalizmin xarakter cəhətləri var idi. Padşah Vaçaqanın (V əsr) və katolikos Simeonun kilsə qaydaları ilə müəyyən edilmiş qərarlarının təhlili əsasında ölkənin ictimai quruluşu barəsində müəyyən nəticə çıxarmaq olar. Bu qərarlar Arranda feodalizm quruluşunun bəzi xüsusiyyətlərini aydınlaşdırmağa kömək edir.

Feodalizm cəmiyyətinin sosial-iqtisadi tarixini öyrənmək üçün torpaq sahibliyi formaları məsələsinin çox böyük, birinci dərəcəli əhəmiyyəti vardır.

Orta əsrlərin əvvəllərində Arran (Albaniya) feodallarının əsas torpaq sahəsi şəxsi mülk idi; bu mülk kəndli icma torpaqlarını tutmaq nəticəsində və uğurlu müharibələr edilәndə yeni torpaqları əlavə etməklə arta bilərdi. Bu torpaqlar ən müxtəlif asılılıq şərti əsasında, müxtəlif hüquqi əsas və normalara görə feodalların ixtiyarına keçirdi.

Bu dövrdə Arranda hakim siniflər feodallardan (knyazlardan) və ruhanilərdən ibarət idi. Hər bir knyaz öz mülkünün kiçik feodal padşahı olub, öz sarayı və bəzən hətta şəxsi qoşunu var idi; qoşun lazım olduqda, knyaza tabe olan camaatdan yığılırdı. Öz təbəələrinin həyatı knyazın ixtiyarında olduğuna görə knyaz onlarla öz bildiyi

[1] История Агван, стр. 5-6.

[2] Армянская география VII в., стр. 50а-51.

[3] История Агван, стр. 131/104

kimi rəftar edirdi. Bəzən knyaz adı şah (knyazlar knazı) tərəfindən müəyyən xidmətə görə bir şəxsə verilirdi[1], knyaz ona verilən len (mülk) üçün şaha yalnız vergi verirdi ki, bunu da özünə tabe olan kəndlilərdən yığırdı. Knyazların lenləri irsi idi və nəsildə böyük olan şəxsə, onun bölünməz tam mülkiyyəti olaraq keçirdi.

Arranın ən böyük mülkü və yeri olan ən iri feodalı şah, yaxud knyazlar knyazı (böyük knyaz) idi; bütün ölkənin sahibi olan şah silk iyerarxiyası silsiləsinin başında dururdu. Məsələn, Bizans imperatorunun Albaniya knyazı Cavanşirə göndərdiyi məktubdan götürülən aşağıdakı parça bunu aydın göstərir: "Girdiman hakimi və Albaniya knyazı cənab Cavanşirə"[2]. Göründüyü kimi, Cavanşir öz şəxsi mülkü olan Girdimanın sahibi idi, ölkənin qalan hissəsini idarə edirdi.

Özü mülkiyyətçi olan Albaniya padşahı Vaçe V əsrdə ölkəni idarə etməkdən əl çəkəndə yalnız atasından ona qalan öz hissəsini - min ailəni özü üçün götürdü[3]. Cavanşir isə ölərkən varis təyin etməyib, öz mülkü olan Girdiman vilayətini öz oğulları arasında bölüşdürdü, "öz oğullarından hər birinə sərvəti və titul verdi, hər birinə öz sahəsini ayırdı"[4].

Padşah və ya böyük knyaz eyni zamanda knyaz hərbi dəstələrindən ibarət olan Arran qoşunlarının baş komandanı idi. Bundan əlavə, onun özünəməxsus hərbi dəstəsi var idi ki, daim onun yanında olurdu. Böyük knyazdan sonra çox böyük torpaq sahibi Arran kilsəsi idi. Kilsə-monastır torpaqları kilsələrin, monastır və böyük ruhani zadəganların bölünməz və irsi mülkiyyəti idi və "müqəddəs kilsənin irsi" adlanırdı. Kilsə-monastır torpaqları, adətən, padşahın, knyazların, feodalların, onların ailə üzvlərinin nəzir və ianələri hesabına, bəzən ayrı-ayrı varlı kəndlilərin hesabına, habelə

[1] История Агван, səh. 145/116.

[2] Yenə orada, səh. 145, 148, 173/117, 119, 137.
[3] Yenə orada, səh. 12/10
[4] Yenə orada, səh. 181

kəndli icma torpaqlarının satın alınması, yaxud tutulması nəticəsində genişlənirdi.

Ərəblərin Arrana hücumu ərəfəsində, bəxşiş və nəzirlərdən varlanan kilsə torpaq tutub öz əlində saxlamaq üçün feodal və knyazlarla, "hərbi adamlar" adlananlarla açıq mübarizəyə girişir. Bəzən bu mübarizə, yeni torpaq əldə etmək, habelə siyasi hakimiyyəti ələ keçirmək məqsədilə rəqabət edənlər arasında silahlı vuruşma şəklini alırdı[1].

Hələ V əsrdə padşah Vaçenin dövründə "ilk meyvələr, xırmanlarda döyülən taxılın, tarladan yığılan və anbarlarda[2] olan məhsulun, bütün ev heyvanlarının onda biri kilsəyə həsr edilmişdi, habelə torpaq kilsə üçün idi"[3].

Ruhanilər natural rüsumlar hesabına yaşayırdılar, padşah Vaçaqanın (V əsr) "kilsə qaydası qərarlarının" Aquen dini yığıncağı tərəfindən qəbul edilməsi də bunu təsdiq edir[4]. M.Kalankatuklunun qeyd etdiyi kimi, ölkədə vergi verən silk üç qrupa: "lazımınca varı olanlara", "yoxsullara" və "heç bir şeyi olmayan kəndlilərə" bölünmüşdü. Bu bölgü [torpaq] məhsullarının xalq tərəfindən keşişlərə verilməsi qaydası olmalıdır. Kim dövlətlidirsə, 4 vahid buğda, 6 arpa və 16 kuzə şirin [çaxır] verir. Yoxsul adam yarım kömbə çörək və imkanı olduğu qədər çaxır verir; kimin ki nə əkin yeri var, nə də üzümlüyü, ondan heç bir şey alınmamalıdır. Öz ruhunu şad etmək üçün bundan artıq şey verənlər, xeyir iş görmüş

---

[1] Ermənistandakı eyni proses üçün bax: С.Е.Акопян. История армянского крестьянства, Ереван, 1952.

[2] "Şaranas". K.P.Patkanov bu sözü tərcümə edə bilməmişdir. К.Шахназарян. История Агвании, 23-cü qeyddə "İndiyədək ermənilər bu sözü qış üçün yayda ipə düzüb qurutduqları meyvə mənasında işlədirlər".

[3] История Агван, стр. 15/12.

[4] Aquen dini yığıncağı İran şahı Balaş Vaçaqanı Albaniya padşahı (484-488) kimi tanıdıqdan bir müddət sonra - 484/5-487/8-ci illər arasında oldu.Yığıncağın başlandığı 13 Mareri günü 486/7-ci il yanvarın 26-na düşür. Bu yığıncağı Vaçaqan çağırmışdı: səbəbi bu idi ki, bir tərəfdən kilsə, digər tərəfdən "əsilzadələr" və qara camaat arasında böyük çəkişmə meydana gəlmişdi.

olarlar. Evində qoyunu olanlar bir qoyun, üç qoyununun yununu və bir baş pendir verir; atı olanlar bir dayça, qaramalı olanlar[1] isə bir buzov verir[2]. Bundan əlavə, "azad adam (azad mərd)[3], yaxud kənd əhli və ya ruhani olmayan hər bir adam öz ölənlərinə rəhmət oxumaq üçün hər il öz imkanı daxilində nəzir gətirməyi unutmamalıdır. Əgər ölənin atı olmuşsa, kim isə [onun əvəzinə] istədiyi atı kilsəyə verməlidir; əgər onun qaramalı vardısa, istədiyi öküzü verməlidir".[4]

Demək lazımdır ki, kilsə nəzir verilən mal-qaranı, xüsusilə atları həvəslə alırdı. Bu, ilk növbədə, "əsilzadələrə" aid idi. "Azad adam və padşah ailəsinin üzvü olanlar öz ruhunu şad etmək xatirinə ömrünün axırınadək öz əlləri ilə [kilsəyə] yəhərlənib yüyənlənmiş bir at və bundan başqa arzu etdiyi şeyləri verməlidir. Əgər bu adam öz ömründə bunu verməmişsə, öləndən sonra onun ailəsi bunu verməlidir".[5]

Kilsənin nəzir (məcburi nəzir) olaraq at əldə etməyə çalışması onunla izah olunur ki, Qafqaz xalqlarının mərasim və dini ayinlərində at böyük rol oynayırdı. Bu, xristianlığın əvvəllərində bu dinə daxil olmuş bütpərəstlik adətinin qalığıdır; bu cəhət, Vaçaqanm "Kilsə qaydası qərarları"nın yuxarıda gətirilən maddəsindən aydın görünür.[6]

Kilsəyə, qeyri-məhdud ixtiyarı olan katolikos başçılıq edirdi. O, böyük knyaza tabe olmaqdan boyun qaçıra bilərdi və onun adı çox

---

[1] "P a x r e k" - "qaramal, pul". İrancadan götürülmüş söz. Müqayisə et: soqdicə "prxyy" - "mükafat" (J.Gerschevich. Grammar of Manichaean Sogdian. Oxford, 1954, p.144)

[2] История Агван, стр. 66-67/51. Mötərizə arasında verilen mətn K.P.Patkanovun tərcüməsində yoxdur.

[3] Н.В.Пигулевская. К вопросу о феодальной собственности на землю в Иране, стр. 82-83.

[4] История Агван, стр. 66/51.

[5] Yenə orada.

[6] Ata sitayiş haqqında b a x: R.Bleichsteiner. Rosweihe und Pferderennen im Totenkult der Kaukasischen Völker. Die Indogermanen - und Germanenfrage. Vienna, 1936.

vaxt knyazın adından əvvəl çəkilirdi.[1] Katolikos ölkədə bütün knyazları itaət etməyə məcbur edə bilən yeganə qüvvə idi. Katolikosun qərarlarına tabe olmayan knyazlara lənət oxunur və bunlar hətta məhv edilirdi.[2]

Aquen dini yığıncağı dövlət və kilsə hüququna dair bir sıra normalar da müəyyən etmişdi. Yığıncaqda qəbul edilən qərarlar ruhanilərdən yalnız "dini nizamnamələri", yəni kilsə qanunlarını "öyrənməyi" tələb etmək deyil, dünyəvi həyata qarışmağı da onlara əmr edirdi[3]. Məsələn, qərarların 10-cu maddəsində[4] deyilirdi: "Kişi, üçüncü nəsil qohumluğu çatan qadınlarla[5] və öz qardaşı arvadı ilə evlənə bilməz"[6]. Feodalların əmlakının irs olaraq yalnız oğullarına keçə biləcəyi və bunlar olmadıqda kilsənin həmin əmlaka dotələb ola biləcəyi nəzərə alınırsa, demək lazımdır ki, "bu qərarda hərislik: qadın vərəsəni əmlakdan məhrum edib onu əlindən almaq arzusu ola bilər"[7]. Yenə də eyni səbəbə görə əcnəbilərlə evlənmək qadağan edilirdi[8].

Katolikos Simeonun qərarları kilsənin feodallar və "hərbi adamlar" təsiri və nəzarətinə tabe olması əleyhinə çevrilmişdi, "çünki ilahi qanunlara görə camaatın Allah evinə gətirdiyi nəzirlərdən yalnız

---

[1] История Агвана, 168, 170, 209/134, 136, 168.

[2] Yenə orada, стр. 172/137.

[3] Sonralar, Vaçaqanın kilsə qanunları Arran katolikosu Simeonun (704-706) qərarları ilə təsbit edilmişdi. Bax: История Агван, стр. 249/199.

[4] K.P.Patkanovun tərcüməsində maddələrin sayı ixtisar edilmişdir, 21 əvəzinə 19. Bu maddə Patkanovda 8-cidir.

[5] "Zerrord azqi kin", yəni öz babasının nəvəsi, onun "т'орнакис"i. Belə bir evlənmə hadisəsi katolikos Mikael (706-741) dovründə evlənən adama lənət oxunmasına səbəb olmuşdu: "Varazo, Vaxtanqın oğlu Varazmanın nəvəsi (Cavanşirin qardaşı) Varazmanın qız nəvəsi Vardanuxi (yəni əmioğlu, əmiqızı - *Z.B.*) ilə evlənmişdi. Mikael Varazo ailəsinə lənət yağdırdı". (История Агван, стр. 215/204).

[6] История Агван, стр. 67, 255-256/52, 204-205.

[7] З.И.Ямпольский. О зарождении феодализма в Азербайджане, л.17.

[8] История Агван, стр. 172/137.

keşişlər və mehrab din xadimləri faydalanmalıdırlar. Bu, onların gəliridir! Ləyaqətsizlərə və ya hərbi adamlara kilsə üzərində hakim olmağa icazə verilmir; ona görə ki, heç kəs Allahın kilsəsini ləyaqətsizlərə və ya hərbi adamlara tabe etməyə, yaxud onu bir əmlak kimi satmağa, ya da knyazlara və ya onların hökmdarlarına bir hədiyyə kimi bağışlamağa cürət etməsin; ona görə də, ləyaqətsizlər və hərbi adamlar cəsarət edib kilsəni özlərinə tabe etməsinlər, kim cəsarət edərsə, ona lənət oxunacaqdır"[1].

Katolikos Simeonun qərarının bütün maddələrində başlıca cəhət belə bir əmr idi ki, kilsə işlərini ancaq keşişlər idarə etməlidir, ruhani olmayanların və hərbi adamların kilsə üzərində beç bir hüququ yoxdur və camaatdan güclə nəzir almağa əsla ixtiyarı yoxdur[2].

Arran kilsəsi tez bir zamanda o qədər güclənib müstəqil oldu ki, hökmdar knyaz və feodalları əmrlər verib ki, torpaq satılarkən, yaxud varislərə vəsiyyət edilərkən "hansı torpağın hansı kilsəyə məxsus olduğunu"[3] göstərməyi onlardan tələb etməyə başladı, yəni feodal, istəsə də, istəməsə də torpağın bir hissəsini kilsəyə ayırmalıdır, yoxsa ona lənət oxunacaqdır.

Katolikos və ruhanilər başa düşürdülər ki, kilsənin nüfuzu və gücü torpaq mülkünün böyüklüyündən asılıdır, buna görə də onlar heç bir şeyə baxmadan cəhd edirdilər ki, öz mülklərini genişləndirmək üçün hətta ən cüzi fürsəti əldən qaçırmasmlar. Məsələn, Arranın knyazlar knyazı Varaz-Trdat tərəfindən Pusan Vex adlı bir süvariyə bağışlanan kiçik bir kəndin irsiyyəti məsələsinə baxılarkən kilsə işə qarışmş və Pusan Vexi pozğunluq və yalançılıqda ittiham edərək "sübut etmişdi" ki, Varaz-Trdat bu kiçik kəndi "öz ruhunu şad etmək üçün müqəddəs xaça" vəsiyyət etmişdir[4]. etmişdir[4].

---

[1] История Агван, стр. 249-250/199-200.

[2] Yenə orada, səh. 252/201.

[3] История Агван, стр. 251/200.

[4] Yenə orada.

Bütün Arran yepiskopluqlara bölünmüşdü. Ruhanilər silki sırasına yepiskoplardan başqa, alim ilahiyyatçılar, keşişlər, dyakon və rahiblər də daxil idi. Onlar katolikosun ətrafında toplanan adamlar idi. Yepiskoplar əsil ruhani knyaz olub, böyük qüvvəyə malik idilər. Əgər bunlardan bəziləri hər hansı bir bidətçi təriqətə tərəfdar olduğuna və ya başqa səbəblərə görə katolikosun itaətindən çıxırdılarsa, katolikos onları öz əlində saxlamaq üçün zora əl atırdı.

Xristian bir ölkə olan Arranda ruhanilərin çox olmasının səbəbi qismən budur ki, hər bir knyaz keşişdən tutmuş dyakonlara qədər öz xanədan kilsəsinə mənsub çoxlu ruhanini vassal kimi öz itaətində saxlayırdı. Lakin əsas səbəb budur ki, kilsə hakimiyyətə və sərvətə yol açırdı, buna görə hamı kilsəyə soxulmağa cəhd edirdi. Bütün bu kilsə xadimləri kütləsinin yaşamaq üçün çoxlu vəsaitə ehtiyacı vardı, odur ki, onlar bu vəsaiti qara camaata dəhşətli zülm etməklə onların belindən çıxarırdılar.

Ərəblərin hücumuna yaxın zamanda kilsələrə, necə deyərlər, "bəxşiş" olaraq kənd və vilayətlər verilməsi sistemi diqqəti cəlb edir. M.Kalankatuklu bu "bəxşişlər" üçün, demək olar, standart bir ifadə olaraq, "əhalisi ilə birlikdə kəndlər" və "balığı çox olan çaylar" sözlərini təkrar edir[1]; bu cəhət isə kilsə və feodalların mülkləri özləri istismar etdiklərindən, yaxud icarəyə verdiklərindən asılı olmayaraq, kilsə və feodal hakimiyyətinin iqtisadi xarakterini qeyd edir, habelə kilsə və feodalın əsas gəlir mənbəyi olan kənd əhalisinə onların münasibətini göstərir. Kilsə və feodallara edilən bəxşişlər cox vaxt kəmər, qolbaq, paltar, mirvari, qızıl, parça, az tapılan heyvan, quş, zinət şeyləri və sairədən ibarət idi[2].

Arran xalqı başlıca olaraq kənd əhalisindən ibarət idi; onların çox hissəsi isə mülki və ruhani knyazların feodal asılılığında idi. Məsələn, yada salaq ki, padşah Vaçenin min ailəlik təhkimli kənd-

---

[1] Yenə orada, səh. 139/112.

[2] История Агван, стр. 139, 149, 249/112, 120, 199.

liləri var idi.. Kilsə və feodalların ixtiyarında olan bütün kəndlərin əhalisi, əlbəttə, təhkimçilik asılılığında idi.

Lakin tədqiq edilən vaxtda Arranda azad olub bir qədər sıxışdırılan kəndlilər hələ var idi. Bu kəndlilər çox vaxt öz hüquqlarını açıq (çox ehtimal, silah ələ alıb) müdafiəyə qalxırdılar. Bu mübarizə çox kəskin idi və padşah Vaçaqanın hökmranlığı dövründə bununla nəticələndi ki, padşah Aquen dini yığıncağını çağırdı; burada isə azad icmaçıların feodallar və kilsə ilə mübahisəsi müəyyən dərəcədə həll olunurdu. Elə "əsilzadələr" və qara camaat bu yığıncağın çağırılmasına və "Kilsə qaydası" qərarlar qəbul etməsinə səbəb olmuşdur.

Yığıncaqda bir tərəfdən padşah Vaçaqanın özü ilə bərabər Partav, Qəbələ və digər şəhərlərin yepiskopları, keşişləri, digər tərəfdən "azad adamlar", "əsilzadələr", Arsax və Kalankatuk və sair yerlərin qəbilə ağsaqqalları iştirak edirdilər.

"Azad adamların" açıq müqavimətinə baxmayaraq, padşah Vaçaqan öz hökmü ilə əmr etdi ki, "hər bir azad şəxs, yaxud kənd əhli, ya da "əsilzadələrdən" hər kəs ölənləri yad etmək üçün bir il ərzində ibadət etməli" və bunun üçün kilsəyə müvafiq nəzir verməlidir[1], kəndli pəhriz vaxtı ət yedikdə, kilsə kətxuda vasitəsilə kəndlinin öküzünü əlindən alıb keşişə verirdi[2].

Həmin yığıncaqda yepiskoplar və keşişlər padşah Vaçaqana şikayət edib demişdilər ki, azad kəndlilər öz kəndlərinin hər birində iki-üç kilsə və ya monastır tikməklə kilsənin gəlirini dağınıq hala salırlar. Padşah Vaçaqan buradaca sərəncam vermişdi ki, bu kilsələrin bütün gəliri bütöv kilsə camaatını birləşdirən vahid baş kilsəyə verilsin[3].

Vaçaqan onda bir vergini ödəyən "azad adamları" məcbur etdi ki, bu verginin yarısını baş kilsəyə, ikinci yarısını isə öz kənd kilsəsinə versinlər; halbuki əvvəllər onda bu verginin hamısı kənd

---

[1] Yenə orada. səh. 66-67/51.

[2] Yenə orada, səh. 68/52.

[3] История Агван, стр. 68/53.

kilsəsinə verilirdi[1]. Bundan sonra "azad adamların" keşişləri öz kəndlərindən qovmaları və öz istədiklərini kəndə gətirmələri qadağan olunurdu.

Qərarın həmin və digər maddələri əsasında azad kəndlilərin hüququ xeyli məhdud edilirdi və onlar tədricən kilsə və feodallardan asılı olurdular.

Qeyd etmək lazımdır ki, tədqiq etdiyimiz dövrdə, Arranda quldarlıq hələ ləğv edilməmişdi, qul və kənizlərin sayı olduqca çox idi[2].

Arranda bu silklərdən başqa "hərbi adam" və "atlı" adlananlar var idi; bunlar, yəqin, müharibə zamanı feodal ordusu kimi padşahın qoşununda xidmət etmək üçün pulla tutulan və padşah qoşununun özəyini təşkil edən muzdlu əsgərlərin bir növü idi və kənd yerlərində qoşun sırasına yığılırdı. Dinclik dövründə bu "hərbi adamlar" heç bir maaş almır, ancaq qənimət və qarətlə dolanırdılar, Çətinlik çəkmədən ehtimal etmək olar ki, bu silk həqiqətdə kilsənin fəaliyyəti üçün ciddi təhlükə təşkil edirdi, buna görə də kilsə var qüvvəsini sərf edirdi ki, "hərbi adamların" kilsəyə zidd fəaliyyətini cilovlasın. Varaz-Trdatın hökmranlığında katolikos Simeon xüsusi bir qərar çıxarmalı oldu; bu qərarda Arran kilsəsinə və onun xadimlərinə tövsiyə olunurdu ki, "ləyaqətsizlərə, hərbi adamlara, habelə atlılara kilsə üzərində hakim kəsilməyə icazə və yol verilməsin. Heç kəs cəsarət edib kilsənin ixtiyarını onlara tapşırmasın, onlara nə taxıl, nə də başqa gəlir verilməsin". "Ləyaqətsizlər və hərbi adamlar" cürət edib kilsəyə yaxınlaşmırdılar. "Ləyaqətsizlər və hərbi adamlar kilsəyə hakim kəsilməməli və ölkəni Allahın qəzəbinə düçar etməməlidirlər... Ləyaqətsizlər və hərbi adamlar cəsarət edib kilsəni özlərinə tabe etməsinlər, kim cəsarət edərsə, ona lənət oxunsun... Heç kəs cürət

---

[1] Yenə orada, səh. 69/53. K.P.Patkanov səhv olaraq "onda bir alır" tərcümə etmişdir.

[2] Yenə orada, səh. 249-250/199-200.

edib Allahın kilsəsini ləyaqətsizlərə və hərbi adamlara tabe etməsin"[1].

"Hərbi adamlar" və "atlılar" kilsə xadimlərinin səhlənkarlığından istifadə edərək tez-tez kilsə vəzifələrinə və rahiblər sırasına soxulurdular; odur ki, kilsənin nüfuzu üçün onların törətdiyi təhlükə və əhalini maneəsiz olaraq qarət etmək imkanı artırdı. Buna görə Simeon kilsə xadimlərini bu cəhətə də ciddi diqqət yetirməyə çağırırdı: "Mənə çox vaxt belə nəql edirdilər ki, çox yerlərdə Allahın kilsələrində hərbi adamlar rahiblər sırasındadır, halbuki bunlar öz bəd əməllərinə gorə nəinki kilsənin çörəyini və gəlirini yeməyə, hətta Allahın kilsəsinə ayaq basmağa da layiq deyillər... Hərbi adamların kilsə üzərində heç bir ixtiyarı olmamalı və onlar zorla nəzir almamalıdırlar". Simeon deyir ki, "ləyaqətsiz adamlar hərbi adam və atlılar deyil", yepiskoplar və keşişlər kilsənin qayğısına qalmalıdırlar[2].

Yuxarıdakı materialdan gördüyümüz kimi, Şimali Azərbaycanda "əsilzadələr" (azad mərdlər), "hərbi adamlar" və "atlılar" kimi əhali təbəqələri mövcud idi. Cənubi Azərbaycanda eyni kateqoriyanı yenə də "əsilzadələr" (azadlar) təşkil edirdilər. Ölkənin həm şimalında, həm də cənubunda bu əhali kateqoriyaları padşah və ya knyaz hakimiyyətinin dayağı və arxası olub öz xidmətləri əvəzində onlardan şərti olaraq torpaq alırdılar. "Əsilzadələr" və "hərbi adamlar" kiçik dvoryan olub yeni əmələ gələn feodallar sinfini təşkil edirdilər, müstəqil vəziyyət və hakimiyyəti olan qədim qəbilə əyanlarına nisbətən, padşahdan və ya knyazdan xeyli asılı idilər[3].

Həmin "əsilzadələr" və "hərbi adamlar" cənubda ölkənin padşahı ilə, ya da şimalda knyazla hərbi qulluq təəhhüdü ilə bağlı idilər və mülk olaraq onlara verilmiş torpaqlarda yaşayan kəndliləri feodal kimi istismar etməklə öz rifahlarını təmin edirdilər. "Əsilzadələrin" 'hərbi adamların" hakimiyyəti və mülkiyyətinin əsas

---

[1] История Агван, стр. 249-250/199-200.

[2] Yenə orada, səh. 251-252/200-201.

[3] Н.В.Пигулевская. К вопросу о феодальной собственности на землю в Иране, стр. 82-83; M.M.Dyakonov. Sitat gətirilən əsəri, səh. 282.

obyekti, öz icmasını mühafizə edən kənd idi; odur ki, kəndləri ələ keçirmək məqsədi kəndli icması üzvlərini daha artıq istismar edib əsarətdə saxlamağa cəhd edən bu adamlar üçün əsas olmuşdur.

Qəbilə əyanları da qəbilə mülklərinə istinad edirdilər, bunların arasında isə malikanələr çox yer tuturdu[1].

İzafi məhsulu bölüşdürmək üstündəki mübarizə bu iki qrup arasında gedirdi, nəhayət, kilsə də bu mübarizəyə qarışdı və tərəfləri barışdırmaq bəhanəsi ilə mülklərin çoxuna əl uzatdı və hər iki düşmən tərəfinin hərəkətini məhdud etdi.Təəssüf ki, VI-VII əsrlərdə istər Şimali, istərsə Cənubi Azərbaycanda ruhani olmayan feodalların xeyrinə əhali üzərinə qoyulan vergilərin miqdarı haqqında heç bir mənbədə məlumat tapmadıq. Sasanilər xəzinəsinin xeyrinə isə, mərzbanlar həmin ölkələrdən xərac (torpaq vergisi, xərac), gizit (can vergisi, cizyə) və bac alırdılar[2]. Bu vergilərin, can vergisi və bacların Arranda pul və ya məhsulla alındığını söyləmək çətindir. Sasanilər dövründə ölkədə olan daimi və səyyar sikkəxanalar ölkənin hər iki hissəsi üçün pul kəsirdi; bu isə göstərir ki, lap ərəblərin istilası zamanından ölkədən vergi həm məhsulla, həm də pulla alınırdı.

Sasanilərin Azərbaycandan vergi almaq qaydasına gəlincə, bu qayda imperiya əhalisi və torpaq mülklərini xüsusi olaraq siyahıya aldıran I Xosrov Ənuşirəvan tərəfindən qoyulmuşdu. Bu isə Sasanilər xəzinəsinin, istər Azərbaycanın hər iki hissəsində, istərsə, ümumiyyətlə, bütün imperiyada əhalidən vergi alınmasını qaydaya salmasına imkan vermişdi. I Xosrovadək torpaq vergisi[3], kənd təsərrüfatı məhsullarının gəliri nəzərə alınaraq, götürülən hasilatın üçdə bir, dörddə bir, beşdə bir və altıda bir hissəsi miqdarında əsasən məhsulla alınırdısa, I Xosrovun dövründə vergi torpağın becərilməsi və suvarılmasından və məhsulun miqdarından asılı idi. Can vergisi, əyanlardan, ruhanilərdən və hərbi adamlardan başqa, 20-dən 50

---

[1] История Агван, стр. 62/48. В а х; Н.В.Пигулевская. Города Ирана в раннем средневековье, стр. 202-206.

[2] Bu barədə b a x: ət-Təbəri-Neldeke, səh. 243-245; Н.В.Пигулевская. К вопросу о податной реформе Хосрова Ануширвана. ВДИ, 1937, №1.

[3] M.M.Dyakonov. Sitat gətirilən əsəri, səh. 284.

yaşadək bütün əhalidən alınırdı. Can vergisinin miqdarı qəti müəyyən edilməmişdi və ildə 4 dirhəmdən tutmuş 12 dirhəmədək alınırdı[1].

# III FƏSİL

# AZƏRBAYCAN ƏRƏBLƏRİN HAKİMİYYƏTİ ALTINDA

## 1. Ərəblərin Azərbaycanı istila etmələri

642-ci ildə Nəhavənd yaxınlığındakı vuruşma və Sasani ordusunun ikinci məğlubiyyəti, əsasən, onun nəticəsində baş vermişdi ki, ayrı-ayrı müstəqil vilayətlərdən ibarət olan İran vahid və birləşmiş bir dövlət deyildi. Yerli hökmdarlar çox güclü olub şahdan asılı olmadıqlarına görə, III Yəzdigerdin çağırışına gəlmirdilər, gələndə isə aralarında köhnə ixtilaflar başlanırdı, nəticədə onlar öz qoşunlarını aparıb gedirdilər. İranın ayrı-ayrı hökmdarlarının ayrılma əhvali-ruhiyyəsi Sasani imperiyasının dağılmasma son dərəcə kömək edir və bir-birindən ayrılmış hissələrinin ərəblər tərəfindən işğal edilməsini asanlaşdırırdı.

İranın ayrı-ayrı vilayətlərinin, o cümlədən Azərbaycanın hökmdarları, mərkəzi hakimiyyətin mövcud olmadığını nəzərə alaraq, ərəb qoşunu qarşısında təslim olmaq qərarına ayrılıqda gəlirdi, çünki bilirdilər ki, faydasız müqavimət ancaq qırğına səbəb olar. Buna görə onlar ərəblərə təslim olub onlarla sülh müqavilələri

---

[1] Ət-Təbəri, l, 960-962; əd-Dinəvəri, səh. 72-73.

bağlayırdılar, beləliklə də bac vermək şərtilə şəhərləri, şəxsi əmlakı və öz təbəələrinin həyatlarını salamat saxlayırdılar.

Daxili çəkişmələr və müharibələrdən zəifləmiş Sasani imperiyası bədəvi ərəb qoşunlarının təzyiqi altında dağılmağa başladı. Sebeos qeyd edir ki, "o zaman İran padşahlığı tənəzzül edirdi və onun qoşunu üç yerə parçalanmışdı"[1].

III Yəzdigerd imperiyanın paytaxtı Ktesifonu (Mədaini) mühasirə edən ərəblərə qarşı Rüstəmin komandanlığı ilə Azərbaycandan 80 min nəfərlik ordu göndərdi. "İran şahının hakimiyyəti altındakı" ölkələrin, yəni Arran və Ermənistanın qoşunları da Rüstəmin komandanlığı altında idi [2]. Lakin ərəblər Rüstəmin qoşununu, habelə İranın bütün başqa qoşunlarını darmadağın etdilər. Rüstəm, ermənilərin sərkərdəsi Muşeq Mamikonyan və Sünik knyazı Qriqori həlak oldular[3].

Darmadağın edilən qoşunun qalıqları, o cümlədən knyaz Cavanşirin komandanlığı ilə Ktesifon yaxınlığında iranlıların tərəfində vuruşmalarda iştirak edən Arran döyüşçüləri Azərbaycana geri çəkildilər. Cavanşirin qoşunları "Ölü suların o tayında" [4] ərəblərlə vuruşmuş və onların üzərində dəfələrlə qələbə çalmışdılar.

Bir müddət sonra Arran qoşun dəstələri Cavanşirin komandanlığı ilə İran qoşunları tərəfindən yenidən ərəblərə qarşı vuruşmaya girişdilər. M.Kalankatuklu həmin vuruşmanı belə təsvir

---

[1] Себеос, стр. 119.

[2] Ət-Təbəri (I, səh. 2351) bildirir ki, Qadisiyyə vuruşmasında ərəblərin 35 min nəfər, iranlıların isə (I, səh. 2351) 80 min nəfər qoşunu var idi. Lakin ət-Təbəri başqa bir yerdə (I, səh. 2258) qeyd edir ki, 120 minlik İran qoşunundan, irəlidə Calnusun komandanlığı ilə 40 min nəfər (I, səh. 2249), mərkəzdə Rüstəmin 60 min, arxada Birzanın komandanlığı ilə 20 min nəfər var idi, Əl-Bəlazuri deyir ki, (səh. 255-256) bu vuruşmada ərəblərin 9-10 min nəfərlik qoşunu, iranlılardan isə 120 min nəfərdən çox qoşunu var idi. Lakin iranlılarda olan qoşunun sayı nəzərə alınarsa, əl- Bəlazurinin gətirdiyi rəqəm həqiqətə uyğun görünmür.

[3] История Агван, стр. 138; Себеос, стр. 119; əl-Bəlazuri, səh. 255-262; ət-Təbəri, I, səh. 2322 və sonralar; əd-Dinəvəri, səh. 125-129, 133.

[4] Əl-Batıx gölü, yaxud İraqda Nəcəf.

edir: "Bir neçə gün sonra, meheqan ayında, İsanın doğulduğu gündə[1], onlara (ərəblərə) qarşı 30000 atlı və 20000 piyada[2] hücuma keçdi. Katşandan [Qadisiyyə] gələn Hacər oğulları, çoxlu atlı və 20000 piyada qalxan taxmış halda irəliyə atılaraq, İran ordusu ilə vuruşmağa başladılar. Arran Sparapeti [Cavanşir] öz igid nəfərləri ilə onların [ərəblərin] cərgələri içərisinə hücum etdi, öz düşmənlərindən ikisini yerə sərdi və özü üç yerdən ağır yaralandı. Düşmən onu quduz bir kinlə çayadək təqib etdi, o isə həmlələri dəf edə-edə çayı üzüb keçdi"[3].

III Yəzdigerd Cavanşirin igidliyinə layiqincə qiymət verərək "ona bayraq, uca səsli kərənay, iki qızıl mizraq və iki qızıl qalxan bəxş etdi; bunları həmişə onun qabağında aparırdılar. O [Yəzdigerd], Cavanşirə hamıdan çox hörmət edərdi. Ona mirvari düzülmüş qızıl kəmər, dəstəsi qızıldan qılınc verib, qoluna qolbaq bağladı və başına gözəl bir tac qoydu. Ona həmçinin mirvari düzülmüş dizbağı verib, onun boynundan sapa düzülmüş çoxlu mirvari asdı"[4] və i.a.

Bir müddət sonra, "Yəzdigerdin səkkizinci ilində" [5] Azərbaycan yaxınlığında ərəblərin iranlılarla vuruşmasında Cavanşir "üç min nəfərlə" ərəblərə qarşı vuruşmaya çıxdı və burada yenidən fərqləndi. Lakin Sasanilərin son günlərinin gəlib çatdığı Cavanşirə

---

[1] Qadisiyyə vuruşmasının nə ayı, nə də ili düz deyil. Müxtəlif mənbələrdə bu vuruşma üçün 635 və 638-ci illər göstərilir, bu dövrdə İsanın anadan olması (6 yanvar) Meheqan ayına düşür. Ət-Təbəri (I, səh. 2349) və İbn əl-Əsir (II, səh. 235) bu vuruşma üçün hicri 15 (yanvar, 637)-ci ilin axırlarını göstərirlər. Əbd əl-Munim Məcid qeyd edir ki, Qadisiyyədə vuruşma hicri 15 (636)-ci ildən sonra olmuşdur. Əbd əl-Munim Məcid. Ət-Tarix əs-Siyasiy li-d-davla əl-Ərəbiyyə. Əl-Qahirə, c.VIII, 1960, səh. 201.

[2] Rusca tərcümədə (səh. 138) "On min piyada" göstərilir.

[3] История Агван, стр. 139/111

[4] Yenə orada.

[5] 639-640-cı illərdə. B a x: Əl-Bəlazuri, səh. 301-302; Себеос, стр. 124; "Yunan padşahı II Konstantın birinci ilində (641-668-ci illər) və İran şahı Qazkertin onuncu ilində", yəni 641-ci ildə.

aydın olan kimi o, "onlarla salamatlaşdı və Atrpatakan əyalətinə gəldi", oradan da öz ölkəsinə qayıtdı.

Beləliklə, Cavanşir İran şahı tərəfində yeddi il ərəblərlə vuruşdu və onun igidliyi artıq ərəblərə məlum idi. Buna görə də sonralar Arrana hücum edərkən ərəblərin siyasəti məhz o dövrün digər hökmdarları arasında Cavanşirin mövqeyi və nüfuzu ilə müəyyən edilirdi. Bundan əlavə, ərəblər Cavanşirlə üz-üzə gəldikdə, onun özünün Sasanilərdən uzaqlaşıb onlara qarşı mübarizəyə girişdiyini nəzərə alırdılar.

Ərəblərin darmadağın etdiyi Sasanilər dövləti daha mövcud olmadıqda, məğlub edilən İran qoşununun qalıqları şimala doğru, Arrana geri çəkilməyə başladılar və M.Kalankatuklunun dediyinə görə, burada öz mövqelərini möhkəmlətmək istədilər. Onlar geri çəkilərkən Arran əhalisini qarət edir və zorakılıq göstərirdilər.”Düşmənin qabaqda gedən qoşun dəstəsi tələsə-tələsə onun (Cavanşirin) əyalətinin son hüduduna girəndə, o təcili surətdə silahlanıb ordunun başçısı məşhur Geçmazgi (Gelani) özü şəxsən vurdu. Özü və onun qoşunu əldə qılınc onları (iranlıları) dəhşətli surətdə qırdı. Onlar düşməndən çoxlu əsir, at, qatır və xeyli qənimət alıb qayıtdılar. Dağlarda onlar bir daha toqquşdular və bu gün qələbə ona nəsib oldu”[1].

Cavanşir iranlılarla uzun müharibə etməli oldu. Vuruşmaların gedişində o, İberiya hökmdarı Atrnersex[2] ilə "sarsılmaz ittifaq"

---

[1] История Агван, стр. 141/113.

[2] Ehtimal, bu gürcü knyazı Atrnersexdir ki, Cüanşerə görə, (səh. 97) Zibel ilə birlikdə Tiflisin mühasirəsini davam etdirib şəhəri İraklidən aldı. Qeyd edilir ki, o, 41-ci matavr olaraq, 619-dan 639-cu illədək hökmranlıq etmişdir (Histoire de la Georgie, p. 229-231). "İrakli qalanın (Tiflisin) mühasirəsini xaqan Cibquya və Adarnasa tapşırdı; sonra Adarnası Gürcüstan padşahı təyin etdi" (M.Djanaşvili.Adı çəkilən əsəri, səh. 23-24). Atrnersexin adı VII əsrin başlanğıcında bir gürcü knyazı kimi "Məktublar kitabı"nda çəkilir (səh. 133, 138, 169). Onun "Roma imperiyasından üç titulu" var idi (b a x: История Агван, стр. 142. Müqayisə et: Kürion, 165. Orada deyilir ki, "padşah şahı titulu bizanslıların canişin (tituluna) oxşayır: habelə Atrnersexhivpata (hypatos) aid olaraq M.Brosse tərəfindən kəşf edilən yazılar. B ax M.Brosset Rapports sur une voyage Archeologique dans la Georgie, p, 48-50; Histoire de la Georgue, p. 232, n. I; N.Arinean, Kiwrion, S. 33).

bağladı və gürcü qoşunlarının köməyi ilə iranlıları Uti və Şakaşen vilayətlərində qəti surətdə məğlub etmək ona müyəssər oldu. Məğlub edilmiş iranlılar Sünik knyazı vasitəsilə Cavanşiri mütarikəyə razı edə bildilər, bundan sonra o, "böyük İran imperiyasının süqutu və ilk [Arran] padşahlarının müstəqilliyini xatırlayıb, padşahlıq calalında onları özü ilə müqayisə edərək bu fikrə gəldi ki, öz knyazlığını daha heç kəsə tabe etməsin"[1]. Lakin iranlılar hiylə ilə Cavanşirin atasını tutdular və qarışıqdan istifadə edərək, yenidən Azərbaycandan Arrana hücum etdilər və əyalətləri bir-bir tutmağa başladılar.

Şiddətli vuruşmalarda iranlılar yenidən və qəti olaraq məğlub edilib Arrandan qovuldular. "Yəzdigerdin şahlığının 20-ci ilində isə İran imperiyası tamamilə darmadağın edildi; bu, Hacər övladının (ərəblərin) dünyada məşhur müharibələrinin 31-ci ili və Cavanşirin [hökmranlığının] 15-ci ili idi"[2].

Yaxın keçmişdə ərəb qoşunları ilə etdiyi vuruşmalardan aldığı təəssüratı unutmayan Cavanşir ərəblərin Arrana hücumundan sonra onlara qarşı amansız mübarizəyə başladı. Onun atası Varaz-Qriqor Cavanşirin bu taktikasına etiraz edirdi, odur ki, Varaz ərəblərlə danışığa girməyi qərara alıb, "özxoşuna düşmənə tabe oldu"[3]. Lakin Cavanşir görəndə ki, ərəblər "tayfa başçılarını məcbur edirlər qalaları

---

Atmersex dövründə "altıncı dini yığıncaq Kartaliniya, Kaxetiya, Şəki, Şirvan, Svanetiya, Çərkəz, Ovsetiya iIə birlikdə bütün dağlıq vilayəti, bütün Yuxarı Gürcüstanı, Samsxeni Msxet patriarxı taxtına tabe etdi. Gürcüstan katolikosu Qara dənizdən Dərbəndə qədər biitün xalqlar və ölkə padşahlarının tacqoyma mərasimi keçirir və keşişlərinə rütbə verir" (Histoire de la Georgie, p. 236; M.Djanaşvili. Adı çəkilən əsəri, səh. 25-26). Əgər Atrnersexin padşahlıq ixtiyarı alması düz 639-cu ilə təsadüf edirsə, onda Cavanşirin İranlılardan uzaqlaşıb getməsi Ktesifon (Mədain) vuruşmasından sonra (637) və Nəhavənd vuruşmasından əvvəl (642) ola bilərdi.

[1] История Агван, стр. 143/115.

[2] История Агван, стр. 144/115. Yəzdigerd hökmranlığının 20-ci ili 651/2-ci ilə, hicri 31-ci ilə isə 24. 08. 651 -11. 08 652-ci ilə təsadüf edir. Deməli, Cavanşirin hökmranlığınının birinci ili 637/8-ci ilə düşür.

[3] Yenə orada, səh. 144/115.

onlara təslim etsinlər və onların arvad-uşaqlarını girov saxlayırlar ki, ərəblərə qarşı qalxmasınlar"[1], erməni sərkərdəsi ilə ittifaq bağladı[2] və onu Bizans imperatorunun vassalı olmağa meyilləndirdi.

Cavanşir ciddi siyasi şərait qarşısında manevr etməyə təşəbbüs göstərdi və imperator II Konstanta (641-668) müraciət edib "uzaqda olan bir xalqı özünə yeni təbəəliyə qəbul etməyi"[3] ona təklif etdi.

Bizans çoxdan arzuladığı bu ittifaqa həvəslə razı oldu, çünki cənubdan yaxınlaşan dəhşətli təhlükə imperatoru vadar edirdi ki, imperiyanın şərq sərhədlərini möhkəmlətməyin fıkrini çəksin. 654-cü ildə imperator II Konstant ilə Cavanşir bir neçə dəfə görüşdülər; bu gorüşlərdə hər iki tərəfı maraqlandıran ən ciddi məsələlər həll olunurdu. II Konstant bu ittifaqı Alban knyazına qiymətli hədiyyələr göndərməklə möhkəmləndirdi. "II Konstant ona bəxşiş olaraq gözəl hədiyyələr: arxası qızıla tutulan, oyma naxışlı gümüş taxt, zərli paltarlar, öz kəmərindən mirvari düzülmüş qılınc göndərdi. Onu proton-patrisi edərək əmr etdi ona 12000 kişi[4] üçün bəxşişlər, patrisi, ipat, apoipat, stratelat və elist diplomları göndərsinlər ki, istədiyi adama bəxş etsin... Onun oğullarını patrisi etdi. O, ilk alban padşahlarına məxsus bütün kənd və vilayətləri nəsildən-nəslə ona verdi"[5].

---

[1] Yenə orada, səh. 144/115.

[2] Albanlar, habelə gürcü və süniklilər 654-cü ildə Ermənistanı ərəblərə təslim edən Teodor Rştuninin tərəfdarı kimi qeyd edilir(b a x: Sebeos, səh. 151-155). Cavanşirin atası əmələ gəlmiş vəziyyəti yaxşı başa düşürdü və onun qəbul etdiyi qərar yeganə düzgün qərar idi. Cavanşir isə, görəcəyimiz kimi, Muşeq Mamikonyana və II Konstanta tərəf meyil göstərdi. Arran xalqına gəldikdə isə, Bizansa möhkəm müqavimət göstərdiyinə görə Cavanşirin müttəfiqi adlananlar bu xalqı amansızcasına qarət etdilər (Sebeos, səh. 155). "II Konstant öz qoşununun bir hissəsini İberiya, Aqvaniya və Sünikə göndərdi ki, onların (Rştuni ilə) ittifaqını pozsun. Bizans qoşunları onların ölkəsini qarət etdi və tapdıqları hər şeyi qarət edəndən sonra öz padşahlarının yanına qayıtdı". K.P.Patkanov ("История Агван, стр. 144.): "Smbad Baqratuni – Ermənistan mərzbanıdır" (yanlışdır).

[3] История Агван, стр. 145/116.

[4] K.P.Patkanov: "1200 kişi".

[5] История Агван, стр. 145, 148/116-117, 119.

M.Kalankatuklu yazır ki, Cavanşirin hökmranlıq etdiyi vilayətlərin hüdudları Gürcüstan sərhədlərindən tutmuş hunlar qapısı [Dərbənd] və Araz çayınadək uzanırdı[1].

Lakin mənbələrdə Cavanşir ilə II Konstant arasında bağlanan ittifaqın başqa, zənnimizcə, daha doğru variantına rast gəlirik. Sebeosun dediyinə görə, Qərbi Ermənistanda olan II Konstant İberiya, Albaniya və Simik hökmdarlarının o zaman ərəblərlə ittifaq bağlamış Şərqi Ermənistan hakimi Teodoros Rştuni ilə öz ittifaqlarını möhkəmləndirmələrinə mane olmaq məqsədilə həmin ölkələrə ordu göndərmişdi. Çox ola bilər ki, Cavanşir təkcə II Konstant ilə deyil, Rştuni ilə də ittifaqda idi və yalnız Bizansın Albaniya üzərinə hücum edəcəyi təhlükəsi onu II Konstantin tərəfində olmağa məcbur etmişdi[2]. Əgər bu cəhət həqiqətə uyğundursa, onda belə zənn etmək olar ki, M.Kalankatuklunun bəhs etdiyi görüşlərə getməklə Cavanşirin güddüyü məqsəd yalnız cənubdan yaxınlaşan təhlükə qarşısında Bizansın siyasi və hərbi imkanlarının nisbətini aydnlaşdırmaq idi.

M.Kalankatuklunun dediyinə görə, Bizans imperatorunun Cavanşir ilə görüşlərindən biri "Konstantinin hökmranlığının 19-cu ilində"[3] olmuşdu və o zaman "İraklinin nəvəsi İrana gəlmişdi. O öz yaxın adamlarından birini Cavanşirin yanına göndərdi ki, özü ilə görüşməsini ondan xahiş etsin; o da [Cavanşir] təcili olaraq midiyalılar ölkəsinə böyük imperatorun yanına gəldi; imperator da onun gəldiyini eşidən kimi şəxsən onu qarşılamaq üçün Künqr[4]

---

[1] Yenə orada, səh. 153-154. "654-cü ildə xəlifə Osman II Konstanta əks olaraq Teodoros Rştuniyə Ermənistan, İberiya, Aqvaniya və Sünik üzərində Qafqaz dağları və Çoqa qapısınadək hakimiyyət verdi" (Sebeos, səh. 159). Lakin Sebeosa görə, bu zaman xəlifə I Müaviyə (661-680) imiş.

[2] Sebeos, səh. 154-155.

[3] 659/60-cı ildə. Lakin II Konstant təkcə bir dəfə 654-cü ildə (İrana deyil) Ermənistana gəlmişdi (B a x: Grousset. Histoire, p. 302).

[4] N.Adonts (N.Adonz. Anahit, p. 26) Künqr ilə Kanqavarini eyniləşdirir və belə hesab edir ki, M.Kalankatuklu Konstant ilə İraklini səhv salmışdır. "İrakli 627-ci ildə, Ktesifona girməklə, Həmədana daxil oldu... Künqr onun yolunda

kəndinə getdi, onunla salamlaşdı və ona əmr etdi ki, arvadının vəfatı[1] münasibətilə geyindiyi yas paltarını çıxartsın, sonra onlar Cavanşirə padşah paltarı geyindirdilər"[2].

662-ci ildə xəzərlər Balancar yaxınlığında ərəbləri məğlub edərək, yenidən "qənimət və qarət üçün"[3] Arrana soxuldular. Knyaz Cavanşir xəzərlərin hücumunu dəf etmək üçün "öz ordusunu götürüb böyük Kür çayının o biri tərəfinə keçdi və onlarla vuruşmağa başladı"' [4] . Moisey Kalankatuklunun dediyinə görə, xəzərlərlə vuruşmada Cavanşir böyük qələbə qazandı və bu vəhşi tayfaya dedi: "Get, Çoqa qapısına gir və bir daha buraya (Albaniyaya - *Z.B.)* qayıtma"[5].

Lakin 664-665-ci ildə xəzərlər yenidən Albaniya knyazlığı ərazisinə hücum etdilər və "Kür çayının bu tərəfinə keçərək Araz sahilinədək getdilər və təkcə yerli əhalini əsir etmək deyil, habelə Ararat və Sünik vilayətləri əhalisini də qışlaqlara gətirdiyi qoyun və mal-qara sürüləri ilə birlikdə toplayıb öz ordugahlarına apardılar'[6].

Cavanşir xəzərlərlə sülh bağlamalı oldu; bunun nəticəsində Arran xəzərlərdən asılı vəziyyətdə qaldı, çünki xəzərlərin "120 000 baş qoyunu, 7000 at və öküzü və əsir alınmış kişilərdən azı 1200 nəfəri"[7] qaytarmasını başqa cür izah etmək olmaz. Xəzər xaqanının

---

birinci ən böyük yaşayış məntəqəsi idi. Ehtimal ki, Künqr hər şeydən əvvəl, Azərbaycanda olan əl-Kinkivardır. B a x: Y.Marquart. Eransahr, s. 24.

[1] История Агван, стр. 143/114. Deməli, Cavanşirin birinci evlənməsi təxminən 638-ci ildən təqribən 659-cu ilədək davam etmişdir. Öz duasında (История Агван, стр. 152) Cavanşir deyir: "Mənim və arvadım Xosrov Anuşun günahından keç". Əgər bu qadın onun ikinci arvadıdırsa, hunlar padşahının (Xəzər xaqanının) qızı, Cavanşirin 665-ci ildə evləndiyi bu qadın onun üçüncü arvadı imiş. История Агван, стр. 154.

[2] История Агван, стр. 147/118.

[3] Yenə orada, səh. 149/120.

[4] Yenə orada, səh. 150/120.

[5] Yenə orada.

[6] Yenə orada, səh. 153/123.

[7] Yenə orada.

qızı ilə Cavanşirin evlənməsi, əlbəttə, xaqanlıqdan bir vassal kimi asılı olduğunu qəbul etmək şərtlərindən biri idi[1].

Çox keçmədən Cavanşir Xilafət ordularının hücumu təhlükəsi qarşısında bu nəticəyə gəldi ki, Bizansla manevr etmək heç bir nəticə verməyəcəkdir, çünki Bizansın özü öz torpaqlarını ərəblərdən qorumalı idi. Digər tərəfdən xəzərlər daim qarət məqsədi ilə Arrana hücum edirdilər. Odur ki, Cavanşir də "Cənub hakiminin boyunduruğuna", yəni xəlifəyə tabe olmaq qərarına gəldi. O iki dəfə Dəməşqə, xəlifə Müaviyənin sarayına getdi; Müaviyə "ölkənin canişinlərindən heç birinə göstərmədiyi böyük bir calal ilə onu qəbul etdi"[2].

Nəhayət, siyasi mülahizə Cavanşirə göstərdi ki, o, Xilafət ilə qarşılıqlı münasibətlərdə öz nöqteyi-nəzərini dəyişdirməlidir, çünki siyasət səhnəsində Xilafət Bizansdan güclü çıxmışdı. Bundan əlavə, ərəb orduları Ermənistanı işğal edəndən sonra Arran həqiqətdə öz süzereni və müttəfıqi Bizansdan ayrı düşmüş oldu. Arran üçün məsuliyyətli olan bu dövrdə "Şərqin böyük knyazı Cavanşir öz ölkəsi haqqında böyük qayğı çəkirdi. O hiss etmişdi ki, cənubdan gələn quldur qoşunu onun ölkəsini tutub tapdaq altına sala bilər. O, türküstanlıların (xəzərlərin - *Z.B.)* saysız-hesabsız qoşunlarını öz köməyinə çağıra bilərdi; lakin Cavanşir buna baxmayaraq, yenə də bu qərara gəldi ki, cənub hökmdarının vassalı boyunduruğuna tabe olsun"[3].

Cavanşir iki dəfə xəlifə Müaviyənin görüşünə getdi. Birinci dəfə (667-ci ildə) getməkdən məqsədi Xilafətdən bir vassal kimi asılı olmağı qəbul etməklə Arranı ərəb ordularının qarətindən qorumaq ümidində idi. Bu, Cavanşirə müyəssər oldu. Xilafət İranı və Suriya vilayətlərini istila edəndən sonra işğalçılığı lap Bizansın Kiçik

---

[1] N.Akinyan. Sitat gətirilən əsəri, səh. 309-322.

[2] История Агван, стр. 157-158/126; müqayisə et: А.Мюллер. История ислама, стр. 289-291.

[3] Yenə orada, səh. 156/125.

Asiyadakı torpaqlarının sərhədlərinədək genişləndirdi. Bu zaman Bizans nəinki Arrana heç bir kömək edə bilmirdi, hətta imperiyanın paytaxtı yaxınlığında olan vilayətləri də öz əlində saxlamaq iqtidarında deyildi. Buna görə də Cavanşirin uzaqları görən çox tədbirli hərəkəti Arranı qarşıdakı labüd dağıntıdan yalnız qurtarmaqla qalmadı, ona uzunsürən müharibə və məhrumiyyətlərdən xeyli nəfəs dərməyə imkan verdi. Hər halda Cavanşirin 667-ci ildə Dəməşqə ilk səfərindən sonrakı üç ildə Arran əhalisi hər hansı xarici hücumlardan xilas olmuşdu.

Üç ildən sonra (670-ci ildə) xəlifə Müaviyə yenidən Cavanşiri Dəməşqə dəvət etdi, burada o, Xilafət ilə Bizans arasındakı danışıqda vasitəçi rolunu oynayırdı. (Bu zaman Bizans imperatorunun elçiləri Xilafətin paytaxtına kömək haqqında danışığa gəlmişdilər.) M.Kalankatuklu yazır ki, "Konstantin hökmranlığının 30-cu ilində hərəm xadimləri onu öldürmək istəyirdilər və padşah [xəlifə] yunanların nümayəndə heyətinə əmr etmişdi ki, Şərq knyazının [Cavanşirin] gəlməsini gözləsinlər"[1].

Xəlifə, Cavanşirə hədiyyələr verərək, Sünik[2] knyazlığını ona tabe etdi və onu məcbur edirdi ki, Atrpatakanın hakimliyini də öhdəsinə götürsün. Lakin Cavanşir bu təklifi rədd etdi və xəlifədən xahiş etdi ki, "onun ölkəsi üzərinə [Xilafət tərəfindən] qoyulan ağır

---

[1] История Агван, стр. 159/127. Konstantın hökmranlığının 30-cu ili 670/1-ci ilə düşməlidir, lakin o, 668-ci ildə Siciliyada edam edilmişdi. Bizanslıların elçiliyi kubikulari Andreasın başçılığı ilə (Feofan, səh. 348-350) 667-ci ildə, Konstantın ölümündən bir il əvvəl Dəməşqə, erməni qiyamçısı Soboriusa (Şapux) qarşı xəlifədənkömək istəmək məqsədilə gəlmişdi. Soborius da öz tərəfindən elçi Sergiosu (Sarkisi) Müaviyənin yanına göndərib, bizanslılara qarşı ondan kömək istəmişdi. Müaviyə kömək əvəzinə, bizanslılardan bac tələb etdi. Təhqir olunmuş Andreas Dəməşqi tərk etdi və öz vəzifəsini yerinə yetirməkdə müvəffəqiyyət qazanan Sergios üçün pusqu düzəltdi. Çox ehtimal, Cavanşir danışıqlarda iştirak edirdi və "hər vasitə ilə çalışırdı padşahı onların [bizanslıların] xeyrinə razı etsin". Lakin bizə belə gəlir ki, 667-ci il, onun Dəməşqə ilk və ehtimal ki, yeganə səfər ilidir.

[2] История Агван, стр. 160/128.

vergini yüngülləşdirsin. Cənub padşahı buna məmnuniyyətlə razı oldu və əmr etdi ki, vergi yükü üçdə bir yüngülləşdirilsin"[1].

Tarixçinin verdiyi məlumata görə, Cavanşirin bütün hökmranlığı onun adına yalnız şöhrət və iftixar qazandırdı. "O, dörd xalqın hakim padşahlarının hörmət və iftixarını qazanmışdı"[2], çünki Arranı iranlıların, bizanslıların, xəzərlərin və ərəblərin qarətindən mühafizə edə bilmişdi.

Gördüyümüz kimi, xəlifə Müaviyə hələ Cavanşirin nüfuzu ilə hesablaşıb, Xilafətin şimal sərhədlərində Arranın strateji mövqeyini, həmin sərhədləri Bizans və xəzərlərin hücumlarından müdafiə etmək üçün onun silahlı qüvvələrindən istifadə etmək imkanını nəzərə alaraq, Arranın daxili müstəqilliyinə toxunmamış və oradakı əvvəlki qaydaları saxlamışdı.

Xilafətdən bir vassal kimi asılı olan Arran, ona yalnız bac verir, lakin knyaz hakimiyyətini toxunulmaz şəkildə saxlayırdı.

İstilaların ilk dövründə ərəb ordularının hücumları müxtəlif dəlillərlə pərdələnirdi, guya Allah müsəlmanları Sasanilər İranı və digər bütpərəst ölkələrin qanuni varisi edibmiş: Allah "istədiyi adama hakimiyyət verir və (onu) istədiyi adamdan geri alır"[3]; İslam dinini bütün yer üzərində yaymaq lazımdır və nəhayət, ərəblər hər hansı bir ölkəni işğal edəndə, tabe etdikləri ölkə xalqlarının can və malını hər cür düşməndən qorumaq təəhhüdünü öz öhdələrinə götürməlidirlər. Ərəb sərkərdələrinin tutduqları ölkə və şəhərlərin əhalisi ilə bağladıqları müqavilələr, məhz yuxarıda göstərilən təəhhüdlərin rəsmən yazıldığı sənədlərdir.

İstila edilən ölkələrin əhalisi ərəblərə düşmən nəzəri ilə baxmayıb onların gəlişini öz əvvəlki ağaları tərəfindən alınan ağır vergidən və edilən zülmdən qurtuluş kimi hesab etsinlər deyə hələ xəlifə Əbu Bəkr (632-634) ərəb istilalarının ilk dövründə ərəb

---

[1] Yenə orada, səh. 160/128. K.P.Patkanovun tərcüməsində: "...o, [Müaviyə] əmr etdi ki,vergi yükü yarıyadək azaldılsın, üçdə bir tələb olunsun".

[2] Yenə orada, səh. 162/130

[3] Quran, III, 25,

qoşunlarına belə əmr etmişdi: "Düşmənləri şikəst etməyin, nə kiçik uşaqları, nə çox qoca adamları, nə də qadınları öldürməyin; xurma ağaclarını qırıb yandırmayın; meyvə ağaclarını tələf etməyin, yemək üçün lazım olandan başqa, qoyun, inək və dəvələri kəsməyin. Siz, hücrələrdə dini ayinlə məşğul olan adamların yanından keçəcəksiniz: onları rahat buraxın və məşğələlərinə mane olmayın"[1]. Sonra əmrdə deyilir: "Sizi qəbul edən hər bir şəhər və xalq ilə müqavilə bağlayın, onlara verdiyiniz vədlərə sadiq olun, qoy onlar biz gələnədək əməl etdikləri qayda və qanunlarla yaşasınlar. Onlarla aranızda bir hədd olmaq üçün bac qoyun ki, onlar öz din və öz torpaqlarında qalsınlar. Sizi qəbul etməyənlərlə müharibə edin"[2].

Ərəb qoşunları İranda Rey və Qəzvin şəhərlərini işğal etdikdən sonra Azərbaycana soxuldular, lakin Azərbaycan qoşunlarının şiddətli müqavimətinə rast gəldilər. Azərbaycan qoşunlarına mərzban İsfəndiyar ibn Fərruxzad komandanlıq edirdi; o, Bacrəvan, Mayməd, Nariz, Şiz, Miyanəc və digər yerlərin əhalisindən Ərdəbildə böyük qoşun toplayıb ərəblərlə vuruşmağa girişdi; vuruşma bir neçə gün davam etdi[3]. Lakin ərəblər qələbə qazandılar. İsfəndiyar əsir alındı, amma onu öldürmədilər. O, ərəblərə dedi ki, Azərbaycan əhalisini tabe etmək çox çətin olacaqdır, çünki əhali çoxlu qalası olan dağlarda gizlənəcək və oradan ərəblərə hücum edəcəkdir[4]. Çox keçmədən ərəblər İsfəndiyarın qardaşı Bəhramın komandanlığı altında olan Azərbaycan qoşunlarının günlərlə davam edən hücumlarına tab gətirməli oldular[5]. Ərəblər yenidən qələbə çaldılar; odur ki, əsirikdə olan İsfəndiyar ərəblərlə aşağıdakı məzmunda sülh müqaviləsi bağlamağa məcbur oldu:

---

[1] Ət-Təbəri, I, 1850. Müqayisə et: İbn əl-Əsir, II, 310.

[2] Из анонимной сирийской хроники, 1234 г., стр. 27

[3] Əl-Bəlazuri, səh. 325-326; Yaqut, I, 173.

[4] Ət-Təbəri, I, 2660; İbn əl-Əsir, VII, 20

[5] Ət-Təbəri, 1,2661.

"Bismillahirrəhmanir-rəhim (Mərhəmətli və rəhmdil Allahın adı ilə). Bu sənəd o barədədir ki, Utbə ibn Farkad, Əmir əl-Möminin Ömər ibn əl-Xəttabın canişini (amili), Azərbaycan əhalisinə, onun dərələrdə və dağlarda, ucqarlarda və sərhədlərdə olan bütün xalqına əmin-amanlıq (aman) bəxş edir [ə'ta əhli Azərbaycan], həm onların özlərinə, həm də onların əmlakına, din və ayinlərinə; bu şərtlə ki, onlar öz varına görə cizyə versinlər; uşaqlar, qadınlar, daim xəstə olanlar, habelə heç bir vəsaiti olmayan (şəxslər) və heç bir gəliri olmayan zahidlər isə can vergisindən azad olunurlar. [Bu əminamanlıq] onlara, həm də onlarla birlikdə yaşayanlara verilir; onlar da borcludurlar ki, müsəlman qoşunundan olan müslimi (ərəbi – *Z-B)* bir gün bir gecə saxlayıb yedirsinlər və ona yol göstərsinlər. Orduya götürülən adamdan həmin ilin vergisi alınmır, kim [ölkədə] qalırsa, ölkəni tərk etməyən adamlara verilən hüquqlar eynilə ona da verilir. Ölkəni tərk etmək istəyənlər özlərinə təhlükəsiz bir sığınacaq tapıncayadək onlara aman bəxş edilir.

Bunu Cunadib yazmışdır, şahidlər isə Bukeyr ibn Abdullah əl-Leysi və Simak ibn Xaraşi əl-Ənsari olmuşlar. Hicri 18-ci il (b.e. 639-cu il)"[1].

Bəlazuri isə yazır ki, "hicri 18-ci ildə Xuzeyfə ibn əl-Yəmən Azərbaycanı dinc yol ilə istila edib, Azərbaycan əhalisi adından hərəkət edən Azərbaycan mərzbanı ilə müqavilə bağlamışdır. Bu müqaviləyə görə mərzban "800 min dirhəm verməyi öhdəsinə götürdü" ərəblər isə öz tərəfindən öhdələrinə almışdılar ki, heç kəsi öldürməsinlər, əsir almasınlar, atəşgədələri dağıtmasınlar və Balasacan, Savalan və Satrudan kürdlərini təqib etməsinlər. Şiz əhalisinin öz bayramlarında rəqs etməsinə və (keçmişdə) icra etdikləri hər işi açıq görmələrinə mane olmasınlar"[2]. Bundan sonra xəlifə Ömər, Xuzeyfə ibn əl-Yəməni vəzifəsindən götürdü və Utbə ibn Farkadı Azərbaycana canişin təyin etdi.

---

[1] Ət-Təbəri, I, 2662. Müqavilənin tarixi hicri 18-ci ildir, lakin ət-Təbəridə "Hicri 22-ci il hadisələri" bölməsində verilmişdir. İbn əl-Əsirdə müqavilənin mətni yoxdur.

[2] Əl-Bəlazuri, 326; əl-Yaqut, I, 173.

Lakin ərəb qoşunları Azərbaycandan gedəndən sonra ölkənin əhalisi hicri 24 (644-645)-cü ildə üsyan qaldırıb, "müsəlmanların onlarla bağladıqları sülh şərtlərinə əməl etməkdən boyun qaçırdılar"[1].

646-cı ildə ərəb ordusu Valid ibn Uqbənin komandanlığı ilə yenidən Azərbaycana hücum etdi. Ordunun qabaq dəstəsində Salman ibn ər-Rəbiə əl-Bəxili gedirdi. Azərbaycan ikinci dəfə istila edildi, "bu şərtlə ki, (hər il) onlar (əhali) səkkiz yüz min dirhəm versinlər. Bu, Xuzeyfə ibn əl-Yəməninin 22 (b.e. 644)-ci ildə, yəni Nəhavənd vuruşmasından bir il sonra onlarla bağladığı sülhün şərtləri idi"[2].

639-cu ildə ərəb qoşunlarının bir hissəsi Azərbaycandan şimal-qərb tərəfə keçdi və bir neçə vuruşmadan sonra Mukanı işğal etdi və əhalisini cizyə verməyə məcbur etdi[3]. Bu dəstənin komandanı Bukeyr ibn Abdullah mukanlılarla müqavilə bağladı və onlara aşağıdakı məzmunda fərman verdi:

"Bismillahirrəhman-irrəhim. Bu fərman Bukeyr ibn Abdullah tərəfindən Mukan əhalisinə, onların şəxsiyyəti, əmlakı, dini və qanunlarını mühafizə etmək haqqında verilən mühafizə fərmanıdır ki, həddi-büluğa çatmış hər bir şəxs bir dinar, yaxud onun dəyərini versin, müsəlmana səmimi yanaşsın, ona yol göstərsin və bir gün bir gecə onu saxlayıb yedirsin. Nə qədər ki, onlar öz üzərində (ərəb) hakimiyyətini qəbul edib ərəblərə xeyirxahlıqla yanaşırlar, onlara əmin-amanlıq təmin olunur və biz öz təəhhüdlərimizi yerinə yetirərik. Əgər onlar öz təəhhüdlərini pozub səmimi olmadıqlarını göstərsələr, xainləri ələ verməyincə, onlara aman yoxdur! Əks halda! Onlar xainlərin həmfikri hesab olunacaqlar. Şahidlər əş-Şəmmax ibn Dirar, ər-Rusaris ibn Cunadib və Xəmələ ibn Cuveyyə olmuşlar. Hicri 21-ci ildə (b.e. 642-ci ildə) yazılmışdır"[4].

---

[1] Ət-Təbəri, I, 2804; əl-Bəlazuri, 328.

[2] Əl-Bəlazuri, 326.

[3] Yenə orada, 326.

[4] Ət-Təbəri, I, 2666; əl-Bəlazuri, 326; İbn əl-Əsir, III, 22.

Bukeyr ibn Abdullah Mukandan Xəzər dənizinin sahili ilə şimala doğru hücum etdi və həmin il Bab-ül-Əbvaba (Dərbəndə) çatdı[1].

Sonrakı 642/643-cü illərdə xəlifə Ömər Dərbəndə Surakə ibn Əmri göndərdi. Surakə ordusunun qabaq dəstəsi Əbd-ür-Rəhman ibn ər-Rəbiə əl-Bəxilinin komandanlığı ilə şəhərin hasarları yanında Bukeyr ilə birləşdi. Surakənin ölümündən sonra xəlifə Dərbənd yaxınlığındakı sərhəd xəttinə Əbd-ür-Rəhman ər-Rəbiəni təyin etdi və ona əmr verdi ki, xəzərlərə qarşı çıxsın. Ərəb atlıları əl-Beyda şəhərinə çatıb onu işğal etdi[2]. Lakin Balancar yaxınlığındakı xəzərlər hücuma keçib ərəbləri məğlub etdi və onların komandanı Əbdür-Rəhman ər-Rəbiəni öldürdülər[3].

Bununla da ərəb ordularının Dərbənddən şimala doğru birinci hücumu qurtardı. Şəhər əhalisi ilə, Azərbaycanda bağlanan müqaviləyə oxşar müqavilə bağlandı[4].

Arranın istilasına gəlincə, ərəb qoşunları Arran ərazisinə şərqdən deyil, cənub-qərbdən, Naxçıvandan keçməyə başladılar. Arrana soxulan ilk ərəb dəstəsi Salman ibn Rəbiə əl-Bəxilinin komandanlığı altında olan dəstə idi ki, bu da Həbib ibn Məsləmənin ordusuna daxil idi.

Naxçıvan xəlifə Osman ibn Affanın (644-656) hökmranlığı zamanında tutulmuşdu. Həbib ibn Məsləmə Naxçıvanı işğal edəndən sonra onun əhalisi ilə sülh müqaviləsi bağladı və aşağıdakı fərmanı verdi:

"Bismillahirrəhman - irrəhim. Bu fərman Həbib ibn Məsləmə tərəfindən Naşava (Naxçıvan) şəhəri əhalisinə, onun burada olan və olmayan kahinlərinə və yəhudilərinə, ona görə verilir ki, mən sizin əmin-amanlığınızı və əmlakınızı, sizin kilsə və ibadətgahlarınızı və şəhərinizin hasarlarını mühafizə altına alıram. Siz əmin-amandasınız və biz sizinlə bağladığımız müqaviləni o vaxtadək yerinə yetirməyi

---

[1] Ət-Təbəri, I, 2665-2666; İbn əl-Əsir, III, 21-22.

[2] Ət-Təbəri, I ,2668.

[3] Yenə orada, I, 2668-2669-2871.

[4] Yenə orada, I, 2665-2666.

təəhhüd edirik ki,siz özünüz ona əməl edib cizyə və xərac verəsiniz, ən mötəbər zamin olan Allah özü buna zəmanətdir.

Fərman Həbib ibn Məsləmənin möhürü ilə təsdiq olunur"[1].

Gevondun dediyinə görə, xəlifə orduları "Midiya (Azərbaycan) və Naxçıvan kəndlərini viran etdilər. Bir çox kişiləri öldürdülər, digərlərini isə arvad-uşaqlan ilə əsir götürüb Culfa bərəsi ilə Arazın o tayına apardılar"[2].

Ərəblərin yerli əhalidən zamin tutub girov saxlamaları işğalçılara müqavimət göstərildiyinin sübutudur; buna görə də təbiidir ki, ərəblər şimala doğru irəlilədikcə öz arxa yollarmdan arxayın olmaq istəyirdilər.

Salman ibn Rəbiənin dəstəsi Naxçıvandan çıxandan sonra Biçənək keçidindən Şəki, Gorus tərəfə yeridi və Arran ərazisinə çatanda Beyləqan üzərinə yürüş etdi. Salman "sülh müqaviləsinə görə Beyləqanı tutdu və yenə də bu müqaviləyə görə əhalini xərac və cizyə verməyə məcbur edib onun həyatını, əmlakım, şəhər hasarlannı qorumağı təmin etdi. Sonra Salman Bərdəyə gəldi və şəhərdən bir fərsəxdən az aralı olan Turtur [Tərtər] çayı sahilində ordugah çadırları qurdu. Şəhər əhalisi darvazaları onun üzünə bağladığna görə, Salman bir neçə gün şəhəri mühasirədə saxlamalı oldu. Eyni zamanda şəhər ətrafmda əkini biçilmiş kəndlərə basqınlar edildi. Bu hal, əhalini məcbur etdi ki, Beyləqan əhalisinin Salmanla bağladığı sülhə oxşar sülh bağlasm. Əhali şəhər darvazalarını onun üzünə açdı və Salman şəhərə daxil olub (bir müddət) orada qaldı. Buradan öz atlılarını götürüb yurüşə başladı. Şakşin (Şakaşen), Meskean (Meskuenk), Ud (Uti), Mesiran (Mesarans), Xarxilyan (Xarcilank), Tabar (Tri) mahallarının kəndlərini və Arranın digər yerlərini tutdu"[3]. Sonra Salmanın dəstəsi "qədim şəhər hesab olunan" Şamxoru tutdu, şərqə tərəf dönərək, "Bardinc arxasında Arazın Kürə qovuşduğu yerə

---

[1] Əl-Bəlazuri, 200. Müqavilə öz rnəzmununa görə, ərəblərin Dəbil əhalisi ilə bağladığı müqavilənin eynidir.

[2] История халифов-Гевонда..,, стр. 3-6.

[3] Əl-Bəlazuri, 203-204; əl-Yəqubi, II, 194.

getdi, Kürün o tayını keçib Qəbələni tutdu, Şakkan və Kamiberan hakimləri ilə bac vermək şərti əsasında sülh bağladı. Xeyzan əhalisi, Şirvan padşahı, qalan dağların padşahları, Məsqət, Şabran və Bab (Dərbənd) şəhərinin əhalisi də onunla (Salmanla) eyni məzmunda sülh bağladılar"[1].

Sonra Salmanın dəstəsi Dərbənddən şimala doğru hərəkət etdi, lakin Balancar çayının o tayında xəzər qoşunları ilə rastlaşdı və qanlı vuruşmadan sonra, demək olar, bütün dörd min nəfərlik dəstə qırıldı və Salmanın özü öldürüldü.

Salmanın ölümündən sonra xəlifə Osman Azərbaycan və Arrana Xuzeyfə ibn əl-Yəməni hakim təyin etdi; Xuzeyfə artıq xəlifə canişinlərinin iqamətgahı olan Bərdə şəhərinə gəldi, bir tərəfdən Bərdə ilə Qaliqala, digər tərəfdən Bərdə ilə Xayzan (yəni Bərdənin şimal-qərbində) arasında olan bütün vilayət və şəhərlərə məmurlar (amillər) göndərdi[2].

Ərəblər Azərbaycanda və Arranda möhkəm yerləşdikdən sonra öz hərbi səfərlərində yerli əhalidən, istər islamı qəbul etmiş olanlardan (mövlalardan), istərsə xristianlardan (zimmilərdən) döyüşçü kimi istifadə etməyə başladılar, lakin mövlaları yalnız piyada qoşuna götürürdülər[3], Bu hərbi səfərlərdə zimmilər görkəmli rol oynayaraq, əvvəllər yerli hərbi rəislərin komandanlığı altında əlahiddə doyüş vahidləri kimi əməliyyatda iştirak edirdilər; Zimmi birləşmələri ərəblərlə birlikdə, müqavilə əsasında[4] vuruşurdular və dövlət hesabma dolanmırdılar. Onlar yalnız qənimətin bölüşdürülməsində iştirak edirdilər.Ərəblər zimmi birləşmələrindən vuruşmaların ən ağır sahələrində istifadə edirdilər; bu ağır sahələrdə zimmilər, şəraitdən asılı olaraq, ya ərəb qoşunlarını qoruyur, ya da

---

[1] Əl-Bəlazuri, 203-204; əl-Yəqubi, II 194-195.

[2] Yenə orada.

[3] Ət--Təbəri, III, 1934, 639; Əbd əl-Əziz əd-Duri. Əl-Əsr əl-Abbasiy əl-əvvəl, səh. 7.

[4] Əl-Bəlazuri, 200, 439; əl-Yəqubi, II, 381.

düşmənin başlıca zərbəsini öz üzərindən götürürdülər. Zimmi qoşunlarından istifadə edildiyini göstərən məlumatı həm yerli, həm də ərəb müəlliflərinin əsərlərində tapmaq olar. M.Kalankatuklu bildirir ki, 713/714-cü illərdə Məsləmə ibn Əbd ül-Malik xəzərlərin təzyiqi altında Dərbənddən geri çəkiləndə, "bütün əmlakilə birlikdə öz qərargahını tərk etdi, hətta öz hərəmxanasını da arxada buraxmışdı. Onun arxasını [Aqvan] patrisilərindən Eranşahik Vaçaqan müdafiə edirdi"[1].

Sonralar xəlifə olan Mərvan ibn Məhəmməd də Arran canişini olarkən [xəlifə Hişamın - 724-743 - hökmranlığının son illəri və xəlifə Validin xəlifəliyinin bir ili - 743/744] eynilə belə hərəkət etmişdir. "O, Şirvan hakiminə əmr etmişdi ki, müsəlman ordusu xəzərlərə qarşı qəzvəyə (hərbi səfərə) gedəndə qabaqda, oradan qayıdanda isə arxada olsun; Filanşaha əmr etmişdi ki, yalnız müsəlmanların hücumlarında iştirak etsin; Tabarsaran şahına isə əmr etmişdi ki, onlar (müsəlmanlar) hücum edəndə ordunun arxasında geri çəkiləndə isə qabaqda olsun"[2].

Zimmilərin yerli birləşmələri ərəblərə silahlı kömək göstərəndə, ərəblər onları vergi ödəməkdən azad edirdilər, çünki hərbi xidmət vergini əvəz edirdi. Əhali ərəb qoşunlarında xidmət etməkdən və onlara yardım göstərməkdən boyun qaçıranda, Azərbaycan əhalisi də belə etmişdi - azad olmaq üçün böyük ödənc verməli idi[3]. Bu cəhəti ibn əl-Əsir təsdiq edərək yazır: "Kim evdə qalıb, düşmənlə müharibə etmirsə, cizyə onlardan alınmalıdır"[4].

Bəzən zimmi birləşmələrinin komandanı olan yerli hakimlər ərəblərin hərbi səfərləri zamanı onlara yalnız kömək etmək deyil, onlar üçün xəbərçilik də edirdilər; məsələn, 722/723-cü illərdə əl-Cərrah Arranı tərk edərkən, əldə etdiyi bütün sərvət və qənimətləri

---

[1] История Агван, стр. 261/299; Gevond, səh. 28.

[2] Əl-Bəlazuri, 209.

[3] Ət-Təbəri, 1,2665; müqayisə et: Ameer Ali. A short History, p. 33; A.S.Tritton. Non Muslim Subjects, p. 206-207.

[4] İbn əl-Əsir, III, 12.

Balancar hakiminə vermişdi, çünki bu hakim ərəblərin xeyrinə gizli xəbərçilik edib öz müttəfiqlərinin niyyətlərini ərəblərə xəbər verirdi[1].

Ərəblər bu kimi xidmətlərdən istifadə edərək ayrı-ayrı feodallar arasındakı ixtilafları çox məharətlə qızışdırırdılar və bunun nəticəsində həmişə onların ixtiyarında kifayət qədər zimmi qoşunu olurdu. Lakin Xilafətin hərbi sistemini nəzərdən keçirmək bizim vəzifəmizə daxil deyildir, çünki bu məsələyə dair maraqlı əsərlər vardır ki, bunlarda istər Əməvilərin, istərsə Abbasilərin hərbi qüvvələrinin quruluşu haqqında çox qiymətli məlumat tapmaq olar[2].

Ərəblər Azərbaycanı, Arranı və digər vilayətləri istila edəndən sonra əhali ilə bağladıqları müqaviləyə əsasən, uzun müddət onlardan vergi alırdılar. Onlar hətta ayrı-ayrı şəhərləri (məsələn, Naxçıvan, Beyləqan, Bərdə, Bacravan) aldıqdan sonra, onlarla müqavilə bağlamışdılar.

Ərəblər hər hansı vilayəti itaət altına alanda torpaqları sülh müqaviləsinə görə (sülhən) öz əvvəlki sahiblərinin ixtiyarında saxlayırdılar bu şərtlə ki, onlar torpaq vergisi versinlər. Bir vilayəti silah gücünə (ənvətən) işğal edəndə isə, ya torpaqları qoşun arasında bölüsdürür, ya da yerli əhalinin ixtiyarında saxlayırdılar. Təxtəvinin fikrincə bu kimi hallarda, ərəblər itaət altına aldıqları ölkələrin əhalisi üçün əkinçilikdə zəruri olub daşınan əmlakın hamısını əhalinin ixtiyarında saxlayır, əhali üzərinə cizyə və torpaq üzərinə xərac qoyurdular, torpaq isə ordularına vəqf olub ayrı-ayrı əsgərlər arasında bölünmürdü[3]. Lakin belə hallar da olurdu ki, ərəblər əvvəlki torpaq sahiblərini öz yerindən qovub, onların yerinə başqalarını

---

[1] İbn əl-Əsir, V, 84.

[2] Л.Е.Куббель. О некоторых чертах военной системы халифата Омайядов (661-750 гг); A.V.Kremer. Cultur geschichte des Orients, p. 203-255; W.Fries. Das Heereswesen der Araber zur Zeit der Omajjaden..., Nüman Sabit. Əl-Cundiyyə fi-d-davla əl-Abbasiyyə. Bağdad, 1929.

[3] Sitat V.Girqasdandır. Права христиан на Востоке по мусульманским законам, стр. 16.

köçürürdülər və onlar islamı qəbul etmədikdə onlardan cizyə və xərac, müsəlman olduqda isə üşr alırdılar.

## 2. Azərbaycan əhalisinin müsəlmanlaşdınlması və qriqoryanlaşdırılması

Ərəb orduları 642-ci ildə Sasani ordularını darmadağın etdikdən sonra Sasani şahlarının əfsanəvi sərvətlərindən başqa, Sasa nilər İranının bütün ərazisi də onların əlinə keçdi. Zahirən qüdrətli görünən bir dövlətin məhv olub getməsi ərəblər üçün bir qədər təəccüblü və gözlənilməz oldu, çünki Təbərinin dediyinə görə, ərəblər öz istilalarını daha da davam etdirmək fikrində deyildilər[1] və əsas məqsədləri, məlum olduğu kimi, hələ o zaman ərəblərin yaşadığı və onların həyatı üçün zəruri olan Mesopotamiyanı (Beyn ən-Nəhreyni) tutmaq idi. Xəlifə Ömər ibn əl-Xəttab (634-644) öz qoşunlarını təhlükəyə salmaq istəmirdi və görünür, ərəblərə məlum olmayan digər ölkələrdə Xilafət ordularının başına nələr gələ biləcəyindən ehtiyat etdiyinə görə qoşun komandanı Sədə belə bir əmr verdi: "Öz yerində dayan və onları (düşmənləri) təqib etmə"[2]. Lakin ərəb qoşunu, məğlub olub hər tərəfə qaçışan Sasani orduları üzərində asanlıqla qazandığı qələbələrdən və əldə etdiyi zəngin qənimətlərdən həvəsə gəlib daha şimala doğru irəliləməkdə davam edirdilər və xəlifələr adətən öz komandalarının bu "özbaşınalığına" fikir vermirdilər, xüsusilə ona görə ki, qələbə ilə qurtaran hər bir vuruşma xəlifənin xəzinəsinə və qoşuna böyük gəlir gətirirdi. Ərəblər yeni vilayət və ölkələri tutanda əvvəllər həmin yerləri öz idarə

[1] Ət-Təbəri, IV, 257.
[2] Yenə orada, 141.

anlayışları əsasında idarə etməyə başladılar. Bu idarə üsulu həmin ölkələrdə yalnız mümkün olduğu qədər çox vergi və natural mükəlləfiyyətlər əldə etməkdən, habelə başqa dinə mənsub olub itaət altına alınanlar arasında islam dinini yaymaqdan ibarət idi.

Azərbaycan və xüsusilə Arran əhalisi, bu ölkələr ərəblər tərəfindən istila edilməzdən əvvəl, daimi Bizans-İran müharibələri, xəzərlərin və digər köçəri xalqların basqınları nəticəsində çox yoxsul vəziyyətdə idi. Müharibələr təsərrüfatın dağılmasına səbəb olur, ölkələrin istehsal qüvvələrini tükəndirirdi. Buna görə əhali ərəb istilaçılarının Azərbaycana gəlməsini illər boyu davam edən zülm və əzablardan xilas olmaq kimi hesab edirdi. Ərəblərin dövründə (hər halda Əməvilər hakimiyyəti başlayanadək) kəndlilər əvvəlkinə nisbətən, bir qədər yaxşı yaşamağa başlamışdılar, çünki ərəblər yalnız vergi və töycüləri yığıb, bu ölkələrin daxili həyatına qarışmırdılar, öz dini əqidələrində və dini ayinləri icra etməkdə onlara sərbəstlik verirdilər. N.V.Piqulevskayanın qeyd etdiyinə görə, "Ərəblərin bunları (müxtəlif vilayətləri - *Z.B.)* işğal etdikdən sonrakı ilk onilliklərdə ağır vergi yükü şübhəsiz azaldılmışdı, habelə dini əqidəyə görə təqiblər dayandırılmışdı"[1].

Əksəriyyəti köçəri olan istilaçı ərəblərin özləri hələ yeni olan dini (islamı) lazımınca mənimsəmədiklərinə görə, əvvəllər Azərbaycan əhalisini islamı qəbul etməyə məcbur etmirdilər[2], əlbəttə, yeni dini qəbul etmək istəyənlərə mane olmurdular. Bu xüsusilə Arrana aid idi, çünki onun əhalisi xristian, "Kitab əhli" ("əhl əl-Kitab") idi[3].

---

[1] Н.В.Пигулевская. К вопросу об общественных отношениях на Ближнем Востоке, стр. 68.

[2] B a x : Beyt ül-müqəddəs xristianları ilə xəlifə I Ömərin bağladığı müqavilənin 9-cu şərtinə, burada deyilir: "Sizin (xristianların - *Z.B.)* qohumlarınızdan biri islamı qəbul etmək istəsə, ona mane olmamaq" (Ət-Turtuşi. Sirac əl-Mülük. Bulaq, 1872, səh. 229-230); müqayisə et: Əli əl-Həmədaninin bəhs etdiyi müqavilə mətninin 6-cı şərti.

[3] Е.А.Бельяев. Мусульманское сектанство, стр.17.

Ölkənin cənub hissəsinə gəldikdə isə, burada islam dini İranın dövlət dinini (zərdüştiliyi) sıxışdırmışdı. Ancaq atəşpərəstlər və məcuslar (çoxallahlılar) təqib olunurdular, çünki onlar "Kitab əhli" deyildilər.

Azərbaycan dehqan-feodalları əvvəllər öz ata-babalarının dinini müdafiə etməyə cəhd etmiş olsalar da, çox keçmədən yəqin etdilər ki, öz əvvəlki imtiyazlarını saxlamaq üçün onlara ancaq ölkədə hakimiyyəti ələ keçirmiş ərəblərlə əməkdaşlıq etmək qalır. Buna görə də Azərbaycanın feodal aristokratiyasının (kəndli kütlələri hələ bir yana dursun) islam dinini qəbul etməsi prosesi çox tez başa çatdı, belə ki, cəmi yüz il ərzində, Abbasilərin hakimiyyət başına keçməsi ilə islam dini zərdüştiliyi tamamilə sıxışdırdı[1].

Azərbaycanda yalnız ərəb qoşunları və hakimiyyət idarələrinin əl çatdıra bilmədiyi dağ rayonlarının əhalisi qədim dinə inanmaqda davam edirdi, çünki ibn Xəldunun sərrast söylədiyi fıkrinə görə, ərəblər "dağlıq yerlərə deyil, düzənlik yerlərə basqın etməyə meyil göstərirlər, ona görə ki, bu xalq öz vəhşiliyindən qarəti, soyğunçuluğu və viran etməyi sevir, dağ yerlərində isə bu məqsədə nail olmaq asan deyildir"[2].

Lakin qeyd etməliyik ki, ərəblərin Azərbaycanda "Kitab-əhli" ilə mülayim rəftar etmələrinin səbəbi bir də odur ki, onlar Bizans imperiyasına qarşı mübarizədə hərbi əməliyyat meydanı olan Zaqafqaziya vilayətlərinin strateji əhəmiyyətini yaxşı başa düşürdülər. Buna görə də işğalçı ərəblərin Zaqafqaziya əhalisi ilə, nə səbəbə belə "dostcasına iltifatla" rəftar etdiklərini başa düşmək olar.

Şimali Azərbaycanda da islam dini əvvəlki xristian dilini sıxışdırıb aradan qaldırmağa başlamışdı, lakin Cənubi Azərbaycana nisbətən müsəlmanlaşdırma prosesi burada uzun sürdü. Arranda islam dini birinci növbədə o qədər də müqavimət göstərmədən ərəblərə tabe olan yerli zadəganlar tərəfindən qəbul olunurdu[3], çünki

---

[1] Yenə orada, səh. 18.

[2] İbn Xəldun, I, 125.

[3] А.Ю.Якубовский. Ирак на грани VIII-IX вв., стр. 28.

knyazlar öz aralarındakı şəxsi ixtilafları həll etmək üçün işğalçıları köməyə çağırırdılar. Bundan əlavə, Arran zadəganlarının islam dinini qəbul etməsi maddi mənfəətdən və əsasən bundan irəli gəlirdi ki, ərəblər zadəganların torpaq mülkiyyətinə sahiblik hüququnu olduğu kimi saxlayır vo onları cizyə verməkdən azad edirdilər; məlum olduğu kimi, cizyə aşağıdakı prinsipə görə alınırdı: dövlətlinin dövlətindən, varlının varından, yoxsulun yoxsul güzəranından.

V.V.Bartold qeyd etmişdir ki, "xristianlıqdan fərqli olaraq, islam dini fərdi missionerlərdən istifadə etmirdi və yalnız istila yolu ilə yayılırdı; müsəlman torpaqlarının sərhədləri ilə islamın yayılan sərhədləri bir-birinə uyğıın gəlirdi", həm də "islam dini zorakılıqla yayılmırdı və nə xristianlar, nə də zərdüştilər təqib olunmurdular"[1].

Biz, islam dininin qəbul edilməsi məsələsində yalnız Əməvilərdən sonrakı Xilafət dövründə kəskin dönüş əmələ gəldiyindən bəhs edə bilərik. Vaxtilə V.R.Rozen bu cəhətə diqqəti cəlb etmişdi; o, X əsrin əvvəllərindəki ərəb münəccimi ibn Əbu Tahirin (Tayfurun) aşağıdakı sözlərini sübut gətirir: "...bu vəziyyətdə (göstərilən övzəyi kəvakibdə - *Z.B.}* hakimiyyət Əməvilərdən Abbasilərə keçdi, dehqanların da sehrbaz maqlara etiqadı ölüb getdi və onlar Əbu Müslimin dövründə islam dinini qəbul etdilər; bu [etiqad] dəyişikliyi [yeni] dinin başlanğıcına oxşayırdı [yəni bu dəyişiklik öz əhəmiyyətinə, öz mənasına görə, yeni dinin əsası qoyularkən əmələ gələn dəyişikliyə bənzədilə bilər]"[2].

Əməvilər Xilafətdə vahid hakimiyyət və vahid dil bərqərar edib, Xilafətin təbəələri arasında islam dinini yaymaqla yalnız sonralar onların xələfləri Abbasilərin istifadə etdikləri maddi şəraiti yaratmışdılar[3].

Arran əhalisi haqqında hətta bunu da demək olmaz, çünki "Kitab əhli" olan Arran əhalisini onlar üçün yeni olan bir dini qəbul

---

[1] В.В.Бартольд. Место прикаспийских областей…, стр. 45, 142

[2] В.Розен. Рецензия на "Alberuni's İndia", стр. 156.

[3] H.A.R.Gibbə (Арабская литература, стр. 36) görə Abbasilərin tərəqqisi "teokratik və monarxiyaçı ərəb partiyalarının ittifaqı və farsların dövlət tabeliyində olan digər xalqların sayəsində" baş vermişdi.

etməyə heç də məcbur etmirdilər, əksinə, xristianların özləri islam dinini çox müvəffəqiyyətlə qəbul edirdilər[1].

Xəlifələr ərəblərdən "təqaüd alan və divanın hesabında olan şəxsləri" [2] Azərbaycan torpaqlarında yerləşdirir və onlara əmr edirdilər ki, "əhalini islama dəvət etsinlər"[3].

Bütün islam tədqiqatçıları qeyd edirdilər ki, ərəblərin itaət altına aldıqları ölkələrin xalqları yeni dini kütləvi şəkildə qəbul edirdilər, cünki V.Rozenin dediyinə görə "ərəblər öz sadəliyi və bəsitliyi ilə əzəmətli, yeni bir din gətirmişdilər və dini təqib və didişmələrin təzyiqi altında haldan düşüb əzilən kütlələrin zövqünə bu yeni din xüsusən ona görə uyğun gəlmişdi ki, demək olar, hər yerdə yadellilərin (əlavə edək: öz həmvətənlərinin də - *Z.B.}* ağır iqtisadi zülmündən kütləri azad edən xilaskar kimi göstərirdi"[4].

Buna görə aydındır ki, ərəblərin itaət altına aldıqları xalqların ərəb istilaçılarının zülmündən şikayət etməyə heç bir ciddi əsası yox idi. Başqa dindən olanlar öz əvvəlki dinlərini dəyişdirməyə bilərdilər, lakin bu halda onlar xəracdan başqa cizyə də verməli idilər, ərəblər isə öz təbəələrinin "ruhunu xilas etmək" ilə heç maraqlanmırdılar. Yalnız vergilər vaxtında və düzgün ödənməyəndə və əvvəlki dini etiqadı müdafiə etmək bəhanəsi siyasi və milli istəkləri örtüb gizlədən bir pərdə rolunu oynayanda, yəni iş böyüyüb ərəb hakim dairələrinə qarşı açıq üsyan şəklini alanda ərəblər cəza tədbirlərinə əl atırdılar.

Əlbəttə, xəlifə I Ömərin zimmilər (başqa dindən olanlar) haqqında təhqiredici qərarları, yəni onların öz əvvəlki dini etiqadlarında qala biləcəklərini, lakin aşağı silkə mənsub olub cizyə verdiklərinin əlaməti olaraq boyunlarına qurğuşundan nişan taxdıqlarını yadda saxlamalı olduqlarını göstərən bu qərarlar bildirirdi ki, Allah elçisinin qanunları yalnız çoxallahlılara və

[1] V.Rozen. Sitat gətirilən əsəri, səh. 155.
[2] Divan əl-'əta - təqaüd verilən dəftərxana.
[3] Əl-Bəlazuri, 328.

[4] V.Rozen. Sitat gətirilən əsəri, səh. 155.

atəşpərəstlərə qarşı çıxır. A.J.Krımski düzgün olaraq qeyd etmişdir ki, "xristianlıqda hər bidəti amansızlıqla təqib edən qonşu xristian Bizansa nisbətən, islam dini qanunu, hətta Ömərin nəzəriyyəsində kifayət qədər liberal qanun idi"[1], xəlifə Ömər ibn Xəttab isə Məhəmmədin özündən daha ardıcıl müsəlman idi[2].

Ərəb istilasından sonra zərdüşt ruhaniləri ölkədə öz hakim mövqelərini itirmiş olsalar da, yerli əhali üzərində öz təsirlərini itirməmişdilər[3]. Bu cəhət, xüsusilə, Azərbaycanın və İranın digər əyalətləri, dağ rayonlarının (Deyləm, Gilan, Təbəristan) əhalisinə aiddir, zira bu yerlərdə hakim vəziyyətdə olan din ərəblərə qarşı üsyanlar zamanı əhalini birləşdirirdi. Azərbaycanın dağ rayonlarının əhalisi, digər rayonlardan ayrılmış vəziyyətdə olduğuna görə, uzun zaman müstəqil siyasi həyat keçirməkdə davam edirdi.

Ərəblər Azərbaycanda özlərine tabe etdikləri əhalinin mədəni səviyyəsindən aşağıda olaraq, Azərbaycana islam dini və öz dillərindən başqa heç bir şey gətirmədilər. Bundan əlavə, ərəblər özlərindən əvvəl bu ölkələrdə mövcud olan qayda və ənənələri öz ehtiyaclarına uyğunlaşdırmağa başladılar, xüsusilə ona görə ki, ərəblərdən əvvəlki dövlət mexanizmi "yaxşı qurulmuşdur"[4].

Sasanilər İranının və Bizansın siyasi mexanizmləri Ərəb xilafətinin təzyiqinə tab gətirmədilər, çünki bu mexanizmlər çoxdan "içəridən pozulmuşdu"[5], lakin həm İranın, həm də Bizansın mənəvi qüvvələri kütlələr içərisində yaşamaqda davam edirdi və Xilafət əleyhinə çoxlu üsyanlar şəklində özünü büruzə verirdi.

VIII əsrin əvvəllərinə doğru, islam dini Azərbaycanda hakim bir din olur. Azərbaycanda islam dinini yuxarı silk adamları birinci

---

[1] Ət-Turtuşi, səh. 232.

[2] A.Y.Krımski. Sitat gətirilən əsəri, səh. 131; Th. Nöldeke, Orientalische Skizzen, p. 83.

[3] Zərdüştilik ruhaniləri haqqında ətraflı b a x: Karaka. The History of the Parsis, v. I, II, London, 1884.

[4] К.А.Иностранцев. Сасанидские этюды, стр. 2.

[5] V.Rozen. Sitat gətirilən əsəri, səh. 153.

növbədə və tamamilə danışıqsız qəbul etdilər, çünki belə hərəkət etməklə öz imtiyazlı mövqelərini itirmədilər[1]. Yeni din tacir və sənətkarlar arasında müvəffəqiyyət qazanırdı, çünki ərəb hakim dairələri tacir sinfinə və sənətkarlara böyük güzəştə gedir, asanlıq yaradır və beləliklə, onların fəaliyyətini genişləndirirdilər. Kəndlilər isə islam dinini qəbul etməklə birinci növbədə çalışırdılar ki, çox ağır can vergisindən xilas olsunlar[2], çünki Xilafətdə bu vergi, Sasanilər və ya Bizans xəzinəsinə verilən töycülərdən yüngül və az olsa da, ağır idi. Bundan başqa, kəndli islam dinini qəbul etdikdə, xəlifə I Ömərin qanununa görə, müəyyən müddət xəzinədən hətta illik pul mükafatı alırdı[3].

Lakin yuxarıda göstərdiyimiz kimi, şəhərlərdə islam dini nisbətən sürətlə yayılırdısa, Azərbaycanın kənd yerlərində yeni dinin qəbul edilməsi, bəzən ərəblər əleyhinə geniş üsyanlarla qarşılanırdı; çünki ərəblər kənd yerlərində öz dinlərinin yayılmasını ölkədə mövcud olan istismar (ərəblərə Sasanilərdən keçən istismar) sistemi ilə sıx əlaqələndirirdilər.

İslam dini bütün bütpərəstlik və çoxallahlılıq formalarına qarşı şiddətlə mübarizə edib canlı vücudların şəklini çəkib onlara sitayiş etməyi qəti qadağan edirdi. Lakin bizə elə gəlir ki, bəzi "tədqiqatçılar" arasında yayılan belə bir fikri tamamilə və həmişəlik rədd etmək lazımdır ki, guya islam dini əmələ gəldiyi gündən insanın və canlı vücudların təsvir edilməsinə düşməncəsinə münasibət bəsləyirmiş. Çoxdan müəyyən edilmişdir ki, VIII əsrin ortalarına qədər ərəblər arasında insanı və canlı vücudları təsvir etməyin yolverilməz olduğu haqqında heç bir təsəvvür yox idi[4].

---

[1] В.В.Бартольд. К ситории крестьянских движений в Персии, стр. 57.

[2] [89] Mahmud Mustafa. Əl-ədəb əl-ərəbiyy və tarixuhu (Fi əsrey sədr əl-İslam və`d-davla əl-Əməviyyə), c. I, əl-Qahirə, 1937, səh. 165.

[3] A.Y.Krımski. Sitat gətirilən əsəri, səh. 133.

[4] K.A.Creswell. The Lawfullness of Paintingin..., №11-12, 1946; IC, №24, 1950.

Islam dininin yayılması ilə Azərbaycan və Arranda təsviri incəsənətin tətbiq dairəsi daralır. Burada islamdan əvvəlki dövrün incəsənətində (xristian incəsənəti) böyük yer tutan dini naqqaşlıq və heykəltəraşlıq tamamilə yox olur. Lakin müsəlman ilahiyyatçıları dini olmayan təsviri incəsənəti X əsrədək təqib etmirdilər.

Qeyd etdiyimiz kimi, Arran əhalisinin islam dinini qəbul etməsi, Azərbaycandakı müsəlmanlaşdırma şəraitindən fərqli idi.

İstilaçılardan asılı olmayan müxtəlif səbəblərə görə, Arran əhalisinin müsəlmanlaşdırılmayan hissəsinin taleyindən ayrıca danışacağıq. Bu, xüsusilə dağ rayonlarının əhalisinə aiddir.

Digər xristian ölkələrində olduğu kimi, Arranda da yunan diofizit dini etiqadından kənara çıxan bir çox hallar var idi və bunlar qriqoryan təriqətinə düşmən, müxtəlif bidət cərəyanları şəklində təzahür edir və amansızlıqla təqib olunurdu.

Ortodoks "kilsə knyazlarının" üstünlüyü və təzyiqi yerli Alban ruhanilərini hiddətləndirir və onların qəzəbinə səbəb olurdu. Lakin Alban kilsəsini təqib etməkdə və onun müstəqil olmaq hüququnu məhdudlaşdırmaqda erməni qriqoryan kilsəsi xüsusi rol oynamışdır. Erməni katolikosluğu həmişə özünün ilkinliyini və Alban kilsəsindən üstün olduğunu iddia edirdi. Alban "bidətçilərinin" "başına ağıl qoymaq" üçün öz əleyhdarını təhqir etməkdə heç bir vasitədən çəkinmirdi. Erməni və Alban ruhaniləri arasında əsrlər boyu mübarizə olmuşdur[1].

Erməni katolikosları Alban kilsəsini öz nüfuzuna tabe etmək üçün əvvəlcə Sasanilərin, sonra isə Ərəb xilafətinin silahlı qüvvələrinin köməyinə əl atırdılar. Nəhayət, Alban kilsəsi erməni katolikosunun xahişi əsasında 1836-cı ildə Peterburq Müqəddəs Sinodunun qərarı ilə ləğv edildi və daha yaşamadı[2].

---

[1] Alban kilsəsi b.e. 74-cü ilindən mövcuddur (История Агван, I, глава VI).

[2] М.Орманиан. Армянская церковь, ее история, учение, управление, внутренний строй, литература, ее настоящее. М. 1913, стр. 118; "Xəzər(?) Albaniyasının taxtı XIX əsrin əvvəllərində Xəzər-Alban və ya Ağvan millətinin erməni milləti ilə birləşməsi nəticəsində məhv edildi".

Bir çox tədqiqatçılar arasında belə bir fikir vardır ki, "Alban xalqı heç bir zaman ayrıca dini kilsədə təşəkkül tapmamış və onun dili dua icra edilən dil olmamışdır" (yəni Alban dilində kilsə ayinləri icra olunmurdu. - *Z.B.*[1]

Biz bu cür iddialarla razılaşa bilmərik, çünki əsrlər boyu erməni kilsəsinin Alban kilsəsinə qarşı mübarizəsi məhz bunun əksini sübut edir, hər dəfə Alban ruhaniləri öz kilsələrinin hər bir başqa kilsədən və xüsusilə erməni kilsəsindən asılı olmayıb müstəqil olduğunu müdafiə üçün hər dəfə öz səslərini ucaldanda, bu kimi hadisələr erməni katolikosluğunun heç xoşuna gəlmirdi, odur ki, erməni katolikosluğu hər vasitə ilə bu kimi təşəbbüslərin əleyhinə çıxırdı. Alban katolikosları Arran ilə qonşu olub ondan asılı olan knyazlıqların (məsələn, Sünik)[2] yepiskoplarını bu vəzifədə təsdiq etmək üçün öz əllərini onların başına qoyub dua etmək hüququna malik olduqlarına baxmayaraq, erməni katolikosları Alban katolikoslarının bu hüququna etinasız yanaşırdılar. Məsələn, Sebeos bildirir ki, hələ ermənilərin üsyanından və İran mərzbanı Surenin 577-ci ildə öldürülməsindən əvvəl, "Sünik torpağının hakimi Vaqay üsyan edib ermənilərdən ayrıldı və İran şahı Xosrovdan xahiş etdi ki, Sünik torpağının arxivini (divanını - *Z.B.)* Dvindən Paytakaran (Beyləqan) şəhərinə köçürsün və onların şəhərində Atrpatakan hüdudlarına daxil etsin ki, erməni adı onların üzərindən götürülsün. Bu əmr yerinə yetirildi"[3].

S.T.Yeremyan Alban və erməni kilsələri arasındakı kilsə ixtilaflarından danışarkən bu nəticəyə gəlir ki, "VII əsrdən (qəti olaraq VIII əsrin əvvəllərindən) Alban kilsəsinə erməni kilsəsinin bir

---

[1] А.Иоханнисян. Очерки истории армянской освободительной мысли, стр. 129; habelə N.Akinyanın "Andes Amsorea" jurnalının 1953-1960-cı illərdəki nömrələrində erməni və Alban katolikosluğu arasında gedən kilsə mübahisələri haqqındakı məqalələr seriyasına bax.

[2] История Агван, стр. 10; И.А.Джавахов. История церковного разрыва между Грузией и Арменией, стр. 436.

[3] История епископа Себеоса, стр. 28-29; Н.Адонц. Армения в эпоху Бстиниана, стр. 220.

hissəsi kimi baxılırdı"[1] və bu zaman Arran vilayətlərindən Sünik, Arsax, Uti və başqaları *erməniləşdirildi*[2].

Bu iki kilsənin kilsə mübahisələri məsələsi böyük və ətraflı tədqiqat tələb edirsə də biz bu barədə qısaca danışacağıq, çünki Arranın dövlət dini VII əsrdə və sonrakı əsrlərdə erməni katolikosluğu üçün böyük cəncəl olub ona daim narahatlıq və başağrısı vermişdir.

Yuxarıda qeyd edildiyi kimi, Mitilenli Zaxarinin VI əsrə aid olan "Suriya xronikası"nda deyilir: "Bu şimal tərəfdə (Zaqafqaziyada - *Z.B.}* özlərinin 24 yepiskopu olan beş dindar xalq vardır. Qurzan da Ermənistan torpağındadır, onların dili yunan dilinə oxşayır, onların İran şahına tabe olan xristian padşahı vardır. Arran torpağı da həmin Ermənistan torpağındadır, onların [öz] dili, dini və xaçpərəst xalqı vardır, onların da İran şahına tabe olan padşahı vardır".[3]

Qurzanın (İberiya, Gürcüstan) və Arranın VI əsrdə öz dilləri və öz padşahları olduğunu nəzərə alaraq qeyd etmək olar ki, nə Qurzan, nə Arran etnik və ya siyasi cəhətdən Ermənistanın bir hissəsi olmamışlar. Burada birlik sırf kilsə birliyi olmuş və 527-ci ildə Dvin şəhərində çağırılan Alban, İberiya və erməni kilsələrinin yığıncağında elan edilmişdi; lakin 607-ci ildə həmin Dvində bu kilsələr erməni kilsəsindən ayrılmışdır[4].

Bizim üçün isə bu cəhət daha çox əhəmiyyətlidir ki, Suriya xronikası müəllifi açıqca deyir ki, Arranın öz dili vardı və bu dil müəllifin xronikada adını çəkdiyi xalqlardan heç birinin dilinə əsla

[1] С.Т.Еремян. Идеология и культура Албании III-VII вв., стр. 328.

[2] Kursiv bizimdir. İki müxtəlif anlayış olan erməniləşdirmə və qriqoryanlaşdırma anlayışlarının qarışdırılması diqqəti cəlb edir. Bu yerdə erməni kilsəsinin köməyi ilə Arran əhalisinin yalnız qriqoryanlaşdırılmasından danışıla bilər. S.T.Yeremyanın bu barədəki nöqteyi-nəzəri o qədər də doğru deyildir, çünki Arran vilayətlərində Sünik vilayəti və Arsaxın xeyli hissəsi, XII əsrin əvvəllərinə yaxın erməniləşdirilmişdir. B a x: А.С.Вартапетов. Христианские памятики Карабаха, л. 8.

[3] Из сирийской хроники Захария Митиленского, стр. 114.

[4] Histoire de la Siounie, p. 252: İ.A.Cavaxov. Sitat gətirilən əsəri, səh. 445.a

oxşamırdı. N.V.Piqulevskaya qeyd edir ki, "VI əsrdə güclü erməni təsirinə baxmayaraq, bu vilayət (Arran - *Z.B.)* hələ öz doğma ləhcəsini saxlamışdı"[1].

Biz yalnız bunu əlavə edək ki, "güclü erməni təsiri" xeyli dərəcədə onda ifadə olunurdu ki, ərəblərin basqını və Ərəb-Bizans, ondan əvvəl isə, İran-Bizans müharibələri zamanı Arrana külli miqdarda erməni köçmüşdü və bunlar yerli əhali ilə qarışaraq, qriqoryan kilsəsinin təlimi və ehkamlarını yaymaqda bu kilsəyə böyük yardım göstərirdilər. Buna baxmayaraq, təkcə VI əsrdə deyil, habelə IX-X əsrlərdə Bərdə ətrafında Arran dili qalmışdı. Orta əsrlərdəki ərəb müəllifləri və coğrafiyaşünasları (İstəxri, ibn Havqəl, Müqəddəsi və s.) bildirirlər ki, Arran əhalisi öz Arran dilində danışırdı. XIII əsrdə Gəncədə yaşamış Kirakos Qandzaketsi yazır ki, yalnız Alban "rəislərinin", yəni zadəganlarının əksəriyyəti erməni dilini bilirdi və bu dildə danışırdı[2].

Müasir tədqiqatçılar (A.Y.Krımski, V.F.Minorski, S.Nəfisi, Z.İ.Yampolski və s.) da bu fikrə şərikdirlər ki, IX-X əsrlərdə Bərdə şəhərinin ətrafında Arran dilində danışırdılar; onlar belə güman edirlər ki, Azərbaycan Respublikasının şimal hissəsində və Gürcüstanda yaşayan udilər (utilər) Alban dilçiliyi ənənələrinin bilavasitə davamçıları hesab olunur[3].

Beləliklə, Arranın öz dili olduğundan bəhs edən həm Suriya mənbəyi, həm də IX-X əsrlərdəki ərəb müəlliflərinin verdiyi məlumat belə bir həqiqəti təsdiq edir ki, Arran nə etnik, nə də siyasi cəhətdən Ermənistan və ya onun bir hissəsi olmamışdır, yalnız eyni adlı bir kilsəyə mənsubiyyət buna səbəb olmuşdur ki, suriyalılar

---

[1] Н.В.Пигулевская. Сирийский источник VI в. о народах Кавказа, стр.109.

[2] Киракос Гандзакеци, səh 99.

[3] А.Крымский. Страницы из истории Северной или Кавказского Азербайджана, стр. 372; Səid Nəfisi.Babək xürrəmdin. Tehran, 1333, səh.21.

Arran və Qurzanı Ermənistanın tərkibinə daxil etmiş və Ermənistan adlandırmışlar.

VIII əsrin əvvəllərində erməni katolikosu İlya, xəlifə Əbd ül-Malikə (685-705) xəbərçilik edib bildirmişdi ki, albanlar Xilafət əleyhinə Bizansla ittifaq bağlayırlar. Onda, Əbd ül-Malik ərəblərin hərbi siyasi qüdrətinə istinad edərək, Arran katolikoslarını İlyaya tabe etdi. Ermənistan, Arran və İberiya torpaqlarının Suriya və ərəb mənbələrində "Arminiya" adlandırılması yalnız onların inzibati birliyini və Ermənistan katolikosluğunun iddialarına iltifatla yanaşan Xilafətdə erməni keşişlərinin yaxınlığını ifadə edirdi [1]. Alban (diofizit) kilsəsinin Bizansdan kömək umub ona arxalanması ərəblərin heç xoşuna gəlmirdi. Buna görə də ərəblər erməni katolikosluğunun xahişlərini böyük həvəslə qəbul edir və beləliklə, bir oxla "iki dovşan" vururdular, yəni Zaqafqaziyada Bizansın mənafeyini sarsıdır və qriqoryan keşişlərindən yardım görürdülər; bu keşişlər isə Arranda öz mənafelərini yeridirdilər.

Erməni katolikosu İlyanın xəlifə Əbd ül-Malik ilə yazışması aşağıda verilir.

**Erməni katolikosu İlyanın Əbd ül-Malik Əmir əl-Mömininə məktubu**

*"Hökmdar Əbd ül-Malik [2] Əmir əl-Mömininə erməni katolikosu İlyadan.*

*Qadir Allahın iradəsi ilə bizim tabe ölkəmiz Sizə qulluq edir. Biz və Alban kilsəsi bir ilahi İsa dininə etiqad edirik. Partav taxtında oturan indiki Alban katolikosu yunan imperatoru ilə sazişə girib öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun və onun himayəsini qəbul etsin.*

*İndi qoy bu Sizə məlum olsun, ta bu barədə qərar qəbul edəsiniz, çünki bu bədəfkarlıqda onun bir əyan qadın həmfikri də*

---

[1] История Агван, стр. 237; Киракос Гандзакетси, səh. 101.

[2] Vardan (səh. 92) və Drasxanakertli İohannes (səh. 78}onu səhv olaraq Ömər (II. 717-720) adlandırırlar.

*vardır. Böyük hökmdar, Siz öz hakimiyyətinizlə əmr buyurun onlar Allaha qarşı işlədikləri günah üstündə müstəhəqq olduqları cəzaya çatsınlar".*

**Erməni katolikosu İlyanın məktubuna Əbd ül-Malik Əmir əl-Mömininin cavabı**

*"Ey Allahın xadimi və erməni xalqının katolikosu İlya, sənin səmimi məktubunu oxudum və sənə mərhəmətim olduğuna görə öz sədaqətli bəndəmi çoxlu qoşunla göndərdim. Əmr etdik ki, bizim hökmranlığımıza qarşı qiyam edən albanlarda sizin dininizə uyğun dəyişiklik edilsin. Bizim hökmü bəndəmiz Partavda, sənin hüzurunda icra edəcəkdir: Nersesi və bədəfkarlıqda onun həmfikri olan qadını bir zəncirə bağlayacaq və elə şahanə mühakimə edəcəkdir ki. onlar bütün qiyamçıların yanında rüsvay olsunlar".*

**Erməni katolikosu İlyanın Partava gəlməsi; Nersesin cəzalandırılması**

Böyük erməni patriarxı Albaniya paytaxtı Partava gəlib böyük kilsədə oturdu və əmr etdi ki, Nersesi onun hüzuruna gətirsinlər. Lakin Nerses gizlənmişdi və onu tapa bilmirdilər; onda böyük din xadimi, Alban knyazı Şeroy onun yaxın adamlarını tutub əmr etdi ki, Nersesi gətirsinlər; sonra onu böyük yığıncağın ortasında İlyanın qarşısına gətirdilər. Lakin bu aciz adam cavab verə bilmədiyi üçün padşahın əmri ilə dəhşətli əzab çəkdi, həmin qadınla addım-addım gətirildi və onların sürgün edilməsi qərara alındı. Nerses buna dözə bilmədi, 8 gün heç bir şey yemədi və öldü. O vəsiyyət etdi ki, özünü ayağındakı zəncirlə basdırsınlar. Nerses Şeroya lənət yağdırdı, çünki hakimiyyət üstündə Şeroy və Sprama arasında başlayan çəkişmədə, o [Şeroy], Nerseslə Spramanın məhv olmasına səbəb oldu. Nerses pravoslav məzhəbinin patriarx taxtında 14 il oturdu və 3 il yarım günahkar qaldı (688-704-cü illər).

Bütün bunlardan sonra dini yığıncaq həlim adam Simeonu seçdi və onu Albaniyanın katolikosu etdi. O, ölkədə Nersesin hərcmərcliyini dayandırdı və yolunu azmış kilsəyə çoxlu həqiqi

etiqad qərarı verdi. O özünün Berdakor adlanan yay iqamətgahında əmr etdi ki, Nersesin bidət dolu bütün kitablarını sandıqlara doldurub Trtu [Tərtər] çayına atsınlar[1].

Bu əhvalatı IX əsrin başqa (erməni) mənbəyi də təsdiq edir. "Böyük Yegiya öz hikmət və mərdliyi ilə ismaililərin amirapeti (xəlifəsi - *Z.B.)* Ömərə[2] məktub yazıb ərz etdi ki, "bizim ölkədə bir yepiskop və onun kimi bir qadın (I Varaz-Trdatın arvadı Sprama - *Z.B*) vardır; bunlar sizin böyük dövlətinizə tabe olmaqdan boyun qaçırıb, oxuduğumuz dualarda sizin adınızı çəkmək məsələsində bizimlə (erməni kilsəsi ilə - *Z.B.)* bir deyildirlər, əksinə, yunan padşahının adını çəkib ölkəmizi onlara vermək fıkrindədirlər. Əgər təcili surətdə onları aramızdan götürüb məhv etməsəniz, onlar vergi məsələsində və digər işlərdə tez bir zamanda böyük imarətə [Bizansa] tərəf keçərlər".

Sonra amirapet bunu oxudu və boyük patriarxın elçisinə minnətdarlıqla hörmət etdi və xadimlərindən birini göndərib əmr etdi ki, dərhal həmin Nersesi böyük qadınla birlikdə onun yanına göndərsinlər.

O gəldi, hər ikisini tutub zəncirlə bağladı, dəvələrə mindirib amirapetin yanına apardı[3].

Az sonra xəlifənin nümayəndələri knyaz Şeroyu və Arranın bir çox knyaz və əyanlarını Suriyaya apardılar[4].

---

[1] История Агван, стр. 239-241; Vaxtilə Konstantinopol patriarxı Malaxiya Ormannan "Erməni kilsəsi" adlı kitabında (səh. 45) Alban katolikosunun "bidətini" əzməkdə Ilyanın rolunu xüsusilə qeyd edir: "Artçeşli İlyanın (703-717) patriarxlığının ən görkəmli cəhəti Xəzər Albaniyasını erməni kilsəsinin ağuşunda saxlamağa səy göstərməsi idi. Alban patriarxı Nerses Bakur yunan kilsəsinə tərəf meyil göstərirdi. O, dərhal kənar edildi".

[2] Burada səhv vardır, gərək xəlifə Əbd ül-Malik olsun.

[3] Katolikos Drasxanakertli İohannesin "История Армении", səh. 78; Vardan, səh. 92,

[4] Onların [knyazların] hamısını Əbd ül-Malik Əmir əl-Mömininin arxivinə yazdılar ki, əgər onlardan biri öz pərəstişində iki təbiətli olarsa, qılıncla və əsarətlə məhv ediləcəkdir'". История Агван, стр. 247/198.

Arran yarımmüstəqil vəziyyətini itirir və tamamilə ərəblərin hakimiyyəti altına keçir.

Sonralar erməni kilsəsi Alban ruhanilərini tutduqları mövqelərdən sıxışdırıb çıxarmış və ölkədə ərəblərin əlləri çatmayan dağlıq yerlərdə yaşayan albanları möhkəm qriqoryanlaşdırmağa başlamışdı. Erməni ruhaniləri Arran kilsəsinin nüfuzunu yerli əhali arasında tədricən heçə çıxarmış və ərəb hakimlərinin əli ilə albanların bütün ədəbi abidələrini dağıdıb Alban mədəniyyətini, heç olmazsa, azacıq xatırlada biləcək hər şeyi məhv etmişlər. Bütün bu işlər, təkrar edirik, əvvəlcə Xilafətin köməyi ilə, sonralar isə digər istilaçıların icazəsi və köməyi ilə görülmüşdür[1].

Qriqoryan kilsə xadimləri Arran ədəbi abidələrini məhv edərkən, əvvəlcə bu abidələri qrabara çevirirdilər[2]. Məsələn, Moisey Kalankatuklunun "Ağvan tarixi" əsəri ilə, albanların bir çox başqa ədəbi əsərləri kimi.

T.Ter-Qriqoryan qeyd edir ki, Moisey Kalankatuklunun əsəri öz əvvəlki şəklində bizə gəlib çatmamışdır və onun üzünü köçürüb yazanlar erməni rahibi olduqlarına görə, əsərin üzünü köçürəndə erməni katolikoslarının göstərişi ilə mətndə qəsdən təhriflərə yol vermişlər[3]. S.T.Yeremyan "Ağvan tarixi"nin bizə gəlib çatan məhz erməni variantlarına istinad edərək yaza bilmişdir ki, guya Moisey Kalankatuklu "öz Albaniya ölkəsinin tarixini" yalnız qədim ədəbi erməni dilində yaza bilərdi"[4].

Bizim fikrimizcə, M.Kalankatuklunun guya erməni tarixçisi olduğu haqqında bəzi alimlərin "qəti iddiası" yanlışdır. Arran (Albaniya) əhli olan M.Kalankatuklu yeganə müəllifdir ki, öz vətəni haqqında X əsr hadisələrinədək məlumat verən tarixini yazmış və bizə miras qoyub getmişdir. Y.Manandyan da bu fıkrə şərikdir. Lakin

---

[1] İ.Ormanian. Sitat gətirilən əsəri, səh. 45, 118.

[2] С.Т.Еремян. Идеология и культура Албании III- VIII вв., стр. 329

[3] T.Ter-Qriqoryan. Sitat göstərilən əsəri, səh. 4; З.И.Ямпольский. К изучению летописи Кавказской Албании..

[4] С.Т.Еремян. Экономика и социальный строй Албании IV-VII вв., стр. 305.

V.S.Nalbandyan isə Tbilisi haqqında bu yaxınlarda çıxan kitabında inadla sübut etməyə cəhd edir ki, M.Kalankatuklu erməni tarixçisi imiş[1].

Şübhəsiz, M.Kalankatuklu VII əsrin başlanğıcındakı hadisələr haqqında "məzmunlu və aydın nəql edir" və "bu dövrdəki Tbilisi tarixi haqqında yeganə etibarlı mənbə" M.Kalankatuklunun əsəridir[2]. Ancaq qəribə görünən cəhət budur ki, Moisey Kalankatuklunun həqiqətən "qədim Alban tarixçisi olması" inkaredilməz bir fakt olduğu halda, V.S.Nalbandyan həm bu faktı, həm də bu barədə məhz "Gürcüstan tarixi" kimi mötəbər əsərdə də bəhs edildiyini bir növ kədərverici bir anlaşılmazlıq" hesab edir[3].

T.Ter-Qriqoryan "Ağvan tarixi" əlyazmasına erməni kilsə xadimlərinin münasibətini göstərən maraqlı faktlar gətirir. Məsələn, Eçmiədzin katolikosu Simeon əlyazmasının kənarlarında bu sözləri yazmışdır: "Yalnız Albaniya tarixində [deyilir ki,] - buna bütün nüsxələrdə deyil, ancaq bəzi nüsxələrdə rast gəlmək olar – guya Yegişedən sonra (b.e. 74-cü ili) Müqəddəs Qriqoriyədək (340) Albaniya patriarxı taxtında başqaları (albanlar) da oturmuşlar. Lakin bu yalandır və bunlar sonradan əlavə edilmişdir". Başqa bir yerdə: "Bizim dırnaqla işarə etdiyimiz yerlər - yalandır və sonralar şöhrətpərəstlər tərəfindən öz xeyrinə əlavə edilmişdir, çünki digər tarixlərdə ("Ağvan tarixi" əlyazmalarında - *Z.B.)* bu əsla yoxdur. Belə güman olunur ki, bunu katolikos Ananiyadan sonra (945-ci il) Alban rahibləri etmişlər"[4].

Albaniya şairi Davtakın əsərlərinin aqibəti də belə olmuşdur. S.T.Yeremyan onu "Alban-erməni (?) işxanı Cuanşerin saray şairi"

---

[1] В.С.Налбандян. Тбилиси в армянских литературных памятниках древних и средних веков, стр. 32, 34, 39, 44, 47.

[2] В.С.Налбандян. Тбилиси в армянских литературных памятниках древних и средних веков, стр. 34, 47.

[3] Н.Бердзенишвили, И.Джавахишвили, С.Джанашиа. История Грузии' I, стр. 142. (V.Nalbandyanda b a x səh. 34).

[4] Архив армянской истории, 1894, стр. 399; T.Ter-Qriqoryandan sitat gətirilmişdir, səh.5.

hesab edir[1]. Bizim fikrimizcə, Davtakın qəsidələrini Albaniyanın deyil, "feodal Ermənistanı ilk dünyəvi poeziyasının abidəsi"[2] hesab etmək doğru deyildir.

Mxitar Qoşun "Qanunnamə"sinin taleyi də M.Kalankatuklunun "Ağvan tarixi"nin taleyinə bənzəyir. Məlumdur ki, Mxitar Qoşun başlıca əsərinin adı "Datastanak", yəni "Qanunnamə"dir və onu müəllif təxminən 1184-cü ildə (erm. erasının 633-cü ilində) tərtib etmişdir[3]. Lakin Qoşun bu əsərinin naşirləri nədənsə əlyazmasında olmayan "hayos" sözünü onun adına əlavə etmişlər və beləliklə, Qoşun özünün heç bir zaman yazmadığı yeni qondarma ad: "Datastanagirk hayos", yəni "Erməni qanunnaməsi" adını uydurmuşlar[4].

Məlum olduğu kimi, Qoş bu "Qanunnamə"ni "Alban sülalə kilsələrinin nəcib başçısı" Albaniya katolikosu III Stepannosun dəfələrlə etdiyi xahişinə görə yazmışdır[5]. "Qanunnamə"yə heç bir sistem və rəhbər rabitə olmadan Şərqi Roma imperiyası qanunları ilə yanaşı Albaniya kilsə qanunları, "Musanın qanunları"[6] və erməni xalq adətləri daxil edilmişdir ki, bu da "Qanunnamə"nin erməni hüququ sənədlərinə aid olduğunu əsla təsdiq etmir.

Arran tarixinə dair bir çox digər orta əsr mənbələri kimi Qoşun "Qanunnamə"si və Kirakos Qandzaketsinin "Tarix"i də qrabarca yazılmış Alban ədəbiyyatı abidələri hesab edilməlidir. Azərbaycanda Arran (Albaniya) tarixinin xristian dövrü

---

[1] С.Т.Еремян. Раннефеодальная культура Армении, стр. 236.

[2] Yenə orada, səh. 237.

[3] Bu barədə b a x G.Vovsepean. Visatakarank jeragrac..., Antelias, 1951, 507-508; C.J.Dowsett. The albanian chronicle..., p. 473.

[4] Mxitar Qoşun "Erməni qanunnamə"si, A.A.Papovyanın tərcüməsi. Yerevan, 1954. Mütərcim Alban qanunlarını şərh edən mətnin xeyli hissəsini atmışdır.

[5] Yenə orada.

[6] B a x: Kirakos Qandzaketsinin "Tarix"i. T.İ.Ter-Qriqoryanın 540-cı qeydi, səh. 260.

tədqiqatçılarının mövcud olmaması buna imkan vermişdir ki, ortada dildən başqa heç bir əsas olmadığı halda, bütün bu ədəbiyyat nədənsə, erməni ədəbiyyatı hesab edilmişdir. Geniş yayılmış Alban ədəbi abidələrinin mövcud olduğu, Ermənistan dövlətinin Matenadaran kitab anbarında tapılmış əlyazmaları ilə təsdiq olunur. Məsələn, A.D.Anasyan bu yaxınlarda belə bir əlyazması tapmışdır (siyahı № 101, səh, 386a-389a; siyahı № 2121, səh. 341b-343b); "Müqəddəs və ilahi mərhəmin tarixi haqqında"; bunu müqəddəs keşiş babalar Şərqdə (yəni Albaniyada - *Z.B.)* Alban dilində tapmış və erməni dilinə tərcümə etmişlər"[1].

A.Q.Şanidze göstərir ki, VII-IX əsrlərdə albanlar Qafqazın bütün siyasi və mədəni həyat sahələrində gürcü və ermənilərlə bərabər fəal surətdə iştirak etmişlər"[2]. S.T.Yeremyan belə bir sual verir: "Səbəb nədir ki, erməni və gürcü yazıları tətbiq olunduğu ilk günlərdən etibarən erməni və gürcü dillərində indiyədək mövcud olan zəngin ədəbiyyat meydana gəldiyi halda Alban yazısı və Alban dilində mətnlər heç izi-tozu qalmadan yox olmuşdur?"[3]. Bu sualın cavabını, nəticə etibarilə Alban kilsəsinin bütün hüquqlarını zorakılıqla qəsb etmiş qriqoryan katolikosluğunun albanlara zidd olan siyasətində axtarmaq lazımdır.

Alban ədəbi abidələrinin yox olmasını heç də bununla əsaslandırmaq olmaz ki, "Alban dili daha dini ibadət dili deyildi" və yaxud "Alban kilsəsi dini cəhətdən erməni kilsəsinə mənsub idi"[4]. Alban dili ərəb istilası dövründə ərəblərin nüfaz dairəsindən kənarda qalan vilayətlər əhalisinin qriqoryanlaşdırılması nəticəsində yox olmuşdur; bu hal ermənilərin kütləvi surətdə aşağıda göstərilən rayonlara köçürüləndən sonra baş vermişdi; ərəblərin işğal etdiyi

---

[1] С.Т.Еремян. Идеология и культура Албании III-VII вв., стр. 329. Matenadarandakı əlyazmalarının diqqətlə yoxlanılması nəticəsində, çox ehtimal ki, digər bu kimi əlyazmaları da kəşf edilə bilər.

[2] А.Шанидзе. Новооткрытый алфавит кавказских албанцев, стр. 3.

[3] S.T.Yeremyan. Sitat gətirilən əsəri, səh. 327.

[4] Yenə orada, səh. 328.

digər vilayətlərdə isə Alban dili X əsrdən sonra yox olmağa başladı. Lakin qriqoryanlaşdırma prosesi albanların kəskin müqavimətinə rast gəldi, buna görə də bu çox uzun sürdü. XIII əsrdə Gəncədə yaşamış Kirakos Qandzaketsi yazır ki, "...erməni dilini yalnız Alban "rəislərinin" əksəriyyəti, yəni zadəganlar bilir və bu dildə danışırdı. Deməli, hətta XIII əsrdə Arran əhalisinin hamısı erməni dilini bilmir və öz ana dilində danışırdı. Bunu S.T.Yeremyan da təsdiq edir və bu nəticəyə gəlir ki, "Alban ədəbiyyatı" yenə də (!) yaşayırdı"[1].

Arranın dağlıq vilayət və rayonları olan Sünik[2], Arsax, Xaçen, Şəki, Girdiman əhalisi ilə indiki Gəncə, İsmayıllı, Qəbələ, Oğuz rayonlarının və Azərbaycan Respublikasının bir sıra digər rayonların əhalisi, həmçinin Ermənistan Respublikasında Sisian, Basarkeçər və digər rayonların bəzi kənd yerlərinin əhalisi indi erməni olsa da, bu əhalinin adət və ənənələri, qonşuluqda yaşayan və ata-babaları müxtəlif səbəblər üzündən müsəlman olan azərbaycanlıların adət və ənənələrinin eynidir. Bu rayonların əhalisi məhz onlardır ki, “erməni dini kilsəsinə qoşulmuş və ermənilərlə qarışmışlar”[3].

İ.P.Petruşevski haqlı olaraq göstərir ki, erməni kilsəsi Albaniyada "ölkəni erməniləşdirmək aləti olmuşdur. Onun bu rolu VIII əsrin başlanğıcından etibarən xüsusilə nəzərə çarpır, yəni o zamandan sonrakı erməni monofizit katolikosu Yegi xalkedonçuluq edən Alban katolikosu Nersesi (Bakuru) ərəb xəlifəsinin köməyi ilə devirmişdi və Albaniyada ruhanilər və knyazların bir hissəsinin, Alban kilsəsinin erməni kilsəsindən müstəqilliyini qorumaq cəhdini əks etdirən xalkedonçuluq (pravoslav, yunanpərəst, gürcüpərəst) hərəkatı ermənipərəst monofizitlər tərəfindən yatırılmışdır"[4].

N.Y.Marr da vaxtilə göstərmişdir ki, Albaniya ərəb xəlifələrinin köməyi ilə "Ermənistanın antixalkedon kilsəsinin əlinə

---

[1] Yenə orada, səh. 329.

[2] Sünikin Alban vilayəti olması barədə b a x: Feofon.

[3] A.İohannesyan. Sitat gətirilən əsəri, səh, 130.

[4] И.П.Петрушевский. О дохристианских верованиях крестьян Нагорного Карабаха, стр. 8.

keçmişdir"[1]. Ruhanilərin başına əl qoyub onları keşişliyə keçirmək hüququ Alban katolikoslarından erməni katolikoslarına keçdi və bundan sonra Arranda xalkedonçuluğa rəğbət bəsləyənlər "qılıncla və əsarətdə məhv edilməli"[2] idi. Tədqiqatçıların bir hissəsi arasında geniş yayılan "erməni Albaniyası", "erməni albanları"[3] kimi adlar elə buradan törəmişdir.

Beləliklə, aydın olur ki, nə Arsax və nə də əhalisi erməniləşdirilmiş albanlardan, hazırda isə ermənilərdən ibarət olan digər vilayət və rayonlar "heç bir zaman erməni mədəniyyəti mərkəzlərinə mənsub olmamışdır. Erməni kilsəsi heç olmazsa Sünikdə Orbeli naxararları dövründə və ondan sonra göstərdiyi mədəni təsiri Arran xalqlarının erməniləşmiş nəsilləri arasında göstərə bilməmişdir."[4]

Beləliklə, erməni kilsəsi "Albaniyanın bütün kilsələrində sülh"ü yalnız yadelli işğalçıların köməyi ilə bərqərar etmişdi[5]. Erməni katolikosluğu və naxararlarının mənafeyi hər dəfə tələb etdikdə erməni kilsəsi həmişə yadelli işğalçıların köməyinə əl atır,

---

[1] Н.Я.Марр. Аркаун, монгольское название христиан в связи с вопросом об армянах-халкедонитах, т.XIII, 1906, стр. 7.

[2] История Агван, стр. 240-247/192-198.

[3] К.П.Патканов. Ванские надписи и значение их для истории Передней Азии, стр. 338-339.

[4] İ.P.Petruşevski. Sitat gətirilən əsəri, səh. 13. B a x: Н.Адонц. Армения в эпоху Юстиниана (стр. 225): "Arsax həmişə erməni təsiri dairəsindən kənarda olmuşdur". Belə fikirlər söyləndiyi halda, başa düşmək olmur, nə səbəbə A.L.Yakobson, məsə-lən, iddia edir ki, Arsax (və Xaçen) qədim erməni vilayətləridir (və ya knyazlıqlarıdır), halbuki onun özü Alban Qandzasar məbədindən (monastırından deyil) bəhs edərkən təsdiq edir ki, bu məbəd "XIX əsrədək Alban katolikosunun kafedrası olmuşdur (b a x
А.Л.Якобсон. Из истории армянского средневекового зодчества, стр. 144)

[5] История Агван, стр. 247.

"xaç bayrağı ilə öz yolu üzərində tarixi Aqvaniya və onun bir hissəsi olan Qarabağ (Arsax) xalqlarını" yox edirdi[1].

N.Vartapetov qeyd etdiyi kimi, erməni kilsəsi "həmişə özü üçün yeni şəraitə bacarıqla uyğunlaşırdı və siyasi vəziyyətdən asılı olaraq, Səfəvilərə, sonra da rus çarına qulluq göstərirdi; necə ki, vaxtilə eynilə həmin qaydada hərəkət edib Bizans imperatorları, İranın Sasani şahları, ərəb xəlifələri, monqollar və digərləri qarşısında baş əymişdi"[2].

## 3. Azərbaycan Əməvilər xilafəti tərkibində (VIII əsrin I yarısı)

Təxminən 681-ci ildə knyaz Cavanşir bizanspərəst əhvali-ruhiyyəli Arran knyazlarının gizli qəsdi nəticəsində öldürüldü[3]. Knyaz Cavanşir öldürüləndən sonra, Arran knyazlıq taxtını ələ keçirmək üstündə ölkədə daxili çəkişmə və vuruşmalar başlandı; bu çəkişmədə knyazlar və ruhanilərdən başqa, "silahlı camaat" da iştirak edirdi[4]. Xalq kütlələrini sakitləşdirmək üçün, paytaxt şəhəri Bərdəyə zadəgan nəsillərinin başçıları, hökmdarlar, canişinlər, əyanlar, naxararlar və ölkənin hıər yerindən knyazlar toplandılar; onlar katolikos Yeliazarla birlikdə vəliəhd seçmək barəsində məsləhətləşməyə başladılar. Onlar "razılaşdılar ki, [taxta] baş naxararlardan birini, imperatorun verdiyi ekskonsul [apoipat] titulu

---

[1] А.С.Вартапетов. К вопросу об историческом исследовании христианских памятников Народного Карабаха, в I; yenə onun: Христианские памятники Карабаха, л. 9.

[2] А.С.Вартапетов. Христианские памятники Карабаха, стр. 11

[3] Bu əhvalat, Alp İlitverin komandanlığı ilə xəzərlərin ölkəyə basqınından bir az əvvəl, 681-ci ilin 9 iyun-23 dekabr arasında və yəqin 680-cı ilin sentyabrından sonra baş vermişdir. В а х: История Агван, стр. 185.

[4] История Агван, стр. 182/145.

dərəcəsinə yüksəldilən və patrisi rütbəsi olan bir şəxsi seçsinlər. Onun adı, Cavanşirin qardaşı Varaz-Perojun oğlu, Varaz-Trdat idi"[1].

Xəlifə I Yəzid (680-683) I Varaz-Trdatı (680-699) "Şərq vilayətlərinin canişini, Alban padşahlığı və Uti əyalətinin hökmdarı" kimi tanıdı[2].

Varaz-Trdat taxta seçilən kimi böyük Xəzər ordusu Ali İlitverin komandanlığı altında, xaqanın qohumu knyaz Cavanşirin öldürülməsinin intiqamını almaq bəhanəsi ilə Arrana basqın etdi[3].

Xəzərlər "Albaniyaya soxularaq lap Böyük Qafqaz dağları ətəklərinədək irəlilədilər və Kapalax vilayəti kəndlərindən [keçdilər]. O, [Alp İlitver] çoxlu dəstələri ilə birlikdə düzənliklərə üz qoyaraq, Kür sahili boyunca Uti əyalətinə getdi. Orada çoxlu əsir alıb, vilayətin mal-qarasını tutub və qənimət götürüb, hamısını əsarətə apardi. Oradan qayıdandan sonra Lpink vilayətindəki düzənlikdə ordugah qurdu"[4].

I Varaz-Trdat Arranı xəzərlərin yeni basqınlarından xilas etmək üçün bu qərara gəldi ki, mötəbər bir adamı xaqanla danışığa göndərsin, çünki "çoxlu xəzər qoşununun ölkəyə basqın edərək çoxlu əsir götürdüyünü və hər şeyi dağıtdığını görürdü"[5].

681-ci ildə katolikos Yeliazar xəzərlərin yanına göndərildi; I Varaz-Trdat xaqana yazdığı məktubunda "sədaqətlə itaət etdiyini" bildirib deyir ki, knyaz Cavanşirin öldürülməsində albanların əli yoxdur və onu "alçaq bir adam" öldürmüşdür. Yeliazar xaqanın

---

[1] История Агван, стр. 185/149.

[2] Yenə orada, səh. 186-187/151.

[3] Yenə orada, St. Taronski (Asogik, səh. 72) xəzər basqınının tarixi üçün erm. erasının 130-cu ilini (9. 06. 681) göstərir. Bu, İsrailin xəzər elçiliyi ərəfəsində, yəni 681-ci il dekabnn 23-dən əvvəl olmuşdur. Bax: History, səh. 154, çıxarış 1.

[4] История Агван, стр. 185-186/150.

[5] Yenə orada.

ürəyini yumşalda bildi və ondan "sülh və pozulmaz dostluq" əldə etməyə nail oldu"[1].

Yenə həmin 681-ci ildə (sentyabrın 20-dək) Alban knyazları və katolikosun iştirak etdiyi müşavirədə I Varaz-Trdat demişdir: "Rəhmsiz Ərəbistan [Taçkastan] xalqının üzərimizə qoyduğu vergilər bizi möhkəm sıxır, eyni zamanda hunların hər il ölkəmizə etdiyi basqınlar da bizim üçün dəhşətli fəlakətdir, buna gorə də ölkəmiz ikitərəfli düşmən basqınlarından talan olunub taqətdən düşür"[2]. Müşavirədə yepiskop İsrailin başçılığı ilə xəzərlərə elçilər göndərmək qərara alındı.

Erməni erasının 130-cu ilinin 18 mexekanında (23.12.681) elçilər yola düşdülər. Altı həftədən sonra (8.02.682) onlar "gözəl Varaçan şəhərinə[3] gəldilər və burada "hunların böyük knyazı tərəfindən ehtiramla qarşılandılar[4].

Təəssüf ki, mənbələr İsrailin elçilik missiyasının nəticələri haqqında məlumat vermir. Yalnız M.Kalankatuklu deyir ki, yepiskop İsranlin dini təbliğatı nəticəsində xəzərlərin müəyyən hissəsi xristianlığı qəbul etdi[5]. Xəzər xaqanı Alp İlitverin öz əyanları

---

[1] Yenə orada

[2] История Агван, стр. 190/53.

[3] Varaçan haqqında b a x: V.Minorsky. Hudud al-Alam, p. 453; yenə onun: Addenda to the Hudud al-Alam, p. 268.

[4] Səfir hahaqqında ətraflı b a x: Ю.Кулаковский. К истории Готской епархии (в Крыму) в VIII вв., 1898, ч. 315, стр, 186; С.Т.Еремян. Моисей Каланкайтукский о посольстве албанского князя Вараз-Трдата к хазарскому хакану Алп Илитверу, стр. 129-155.

[5] Biz belə güman edirik ki, "İsaya yaxınlaşmağa tələsən və namuslu keşişlərin əllərindən ata, oğul və məşhur Abo Tbileli müqəddəs ruh naminə xristianlığı qəbul edən" xaçaçuran mərasimindən Varaçanda və ya harada isə onun yaxınlığında keçmişdir, çünki M.Kalankatuklunun verdiyi məlumata görə (səh. 193-209), Alp-İlitverin başçılığı ilə bir çox xəzər xristianlığı qəbul etmişdi. Gürcü tarixçisinin verdiyi məlumata görə, "bu şimal ölkəsində [Xəzərdə] sərbəst olaraq xristian dinində olan çoxlu kənd və şəhər var idi". Biz akademik K.S.Kekelidzenin belə bir fikri ilə şərik deyilik ki, Abonun xaçaçuran mərasimindən keçdiyi yer "yalnız Azov dənizinin şərq sahilində qot-tetraksitlər ölkəsi ola bilərdi" (Иоанн

Xorasan iltigini[1] və Çatn Xəzr vasitəsilə I Varaz-Trdata göndərdiyi məktubda deyilir ki, ancaq yepiskop İsrail xəzərlərin yanında qalarsa, "bizim vəhşi xalqların sizin ölkənizə basqınları kəsiləcəkdir” [2] . Lakin nə Varaz-Trdat, nə də Arran katolikosu Yeliazar xəzərlərin yanına İsraili göndərməyə razılıq vermədilər, yalnız buna razı oldular ki, o, Arran ilə xaqanlıq arasında vasitəçi olsun[3].

N.Akinyan qeyd edir ki, İsrailin bir daha xəzərlərin yanına gedib gəlmədiyi məlum deyildir[4]. Aydındır ki, o, ikinci dəfə xəzərlərin yanına getməmişdir, çünki Arran ilə xəzərlərin arasındakı qısamüddətli sülh az sonra pozulmuşdu: "Onun [Bizans imperatoru II Yustinianın - 685-711 - padşahlığının] birinci ilində Xəzər adlanan şimal xalqı Ermənistan, İberiya və Albaniyanı ələ keçirdi. Onlar vuruşmada knyaz Qriqorinin[5], bir çox gürcü və alban əyan və knyazlarını öldürdülər. Yenə onlar Ermənistanı talan etdilər, çoxlu

---

Сабанисдзе. Мученичество Або Тбилели, стр. 34, 49). Fikrimizi təsdiq etmək üçün aşağıdakı mətnə istinad edək: "Müqəddəs, şanlı, məzlum Abo Tiflislinin həyatı və çəkdiyi əzablar" (М.Сабинин. Полное жизнеописание святых грузинской церкви, ч. I, стр. 167-168). "Nerses [Kartaliniya hökmdarı] Daryeli adlanan Osetiya qapısından üç yüz adamla kcçdi; müqəddəs Allah bəndəsi Abo da onların arasında idi. Lakin Nerses təqib olunmaqdan çəkinərək Osetiya torpağında qalmadı, xəzərlərin yaşadığı Şimal ölkəsinə tərəf getdi, Müqəddəs Abo özünü müsəlmanlardan xətərsiz gördükdə, İsaya qovuşmağa tələsdi və mömin keşişdən xristianlığı qəbul etdi. Bu ölkədə elə şəhərlər var idi ki, burada xristianlar əmin-amanlıq içində İsaya ibadət edirdilər.
Bir az keçəndən sonra Nerses Xəzər padşahından xahiş etdi ki, onu Abxaziyaya buraxsın... Nerses öz dəstəsi ilə yola çıxdı, bütpərəst ölkələrdən maneəsiz və zərərsiz keçdi və üç aydan sonra Abxaziya hökmdarının torpağına qədəm qoydu".

[1] K.P.Patkanov. "Zirdkin-Xursan".

[2] История Агван, стр. 211/169.

[3] Yenə orada, səh. 213/171.

[4] N.Akinyan. Sitat gətirilən əsəri.

[5] Qriqori Mamikonyan (662/3-685). Həmin İsrail I Varaz-Trdatın əmrilə ondan ürfanlı Qriqorinin çənəsini xahiş edib almışdı. История Агван, стр. 188-190; Vardan. səh. 87.

vilayət və kəndləri tutdular, qənimət və çoxlu əsir ələ keçirib, öz ölkələrinə getdilər"[1].

Bu vuruşmada bütün üç ölkə qoşunlarının inadlı müqavimətinə baxmayaraq, xəzərlər böyük qələbə qazandılar. Beləliklə, onlar "Albaniya ilə bu yaxınlarda əmələ gəlmiş dini əlaqələri unudaraq" [2] ərəblərin bu ölkə üzərindəki nəzarətinin zəifləməsindən istifadə edib yenidən Arrana, sonra da Gürcüstan və Ermənistana növbəti dağıdıcı basqın etdilər[3].

Bu zaman Xilafətdə xəlifə taxtı üstündə daxili çəkişmə və vuruşmalar gedirdi. Xəlifə əleyhdarı Əbd-ul-lah ibn əz-Zübeyrin üsyanı yatırıldıqdan sonra hakimiyyət başına Mərvanilər sülaləsinin banisi I Mərvan keçdi. Mərvan cəmi bir il hakimiyyət başında dayana bildi (684-685), sonra onun oğlu Əbd-ül-Malik (685-705) xəlifə oldu. Məhz bu qarışıq zamanda "errnənilər, gürcülər və ağvanlar 30 illik itaətdən sonra {ərəblərə} daha vergi vermədilər"[4].

Xəlifə Əbd-ül-Malik 685-ci ildə imperator II Yustinianla barışıq bağladı; həmin barışığa görə, Arran, Gürcüstan və Ermənistandan alınan vergi Xilafət ilə Bizans arasında bərabər bölünməyə başladı[5]. Zaqafqaziya hər iki qüdrətli rəqib üçün nüfuz dairəsi oldu; onlardan hər biri burada istədiyi kimi hərəkət edirdi: hücum edir, rəhmsizliklə qarət edir və əhalini əsarət altına alır, maddi nemətləri məhv edirdi. Məsələn, 688-ci ildə II Yustinian Ermənistana çox böyük qoşun göndərdi; bunlar da 25 mahalı talan etdi və 8 min ailəni qul kimi satdı[6]. Sonrakı 689-cu ildə Ermənistana yenidən hücum etdilər; bu dəfə hücum iki tərəfdən: - həm Bizans, həm də

---

[1] Gevond, səh. 10; Asagik, səh. 72, 91; Vardan, səh 90; K.Qandzaketsi, səh. 39

[2] D.M.Dunlop, p. 60; History..., p. 270.

[3] Xəzərlərlə ərəblər arasında xəlifə Əbd-üI-Malikin hökmranlığından başlayaraq 710-cu ilədək edilən müharibələr haqqında b a x: F.Gabrieli. le califfato di Hisman, p. 74-85; A. H.V.Togan. Ibn Fadlan, p. 296-298.

[4] Gevond, səh. 9-10.

[5] Ю.Кулаковский. История Внзантии, III, стр. 251.

[6] Asogik. səh. 72; Gevond, səh. 10-11

Xilafət tərəfindən edildi və Ermənistana yenidən dəhşətli fəlakət üz verdi[1].

689-690-cı illərdə Zaqafqaziya ölkələrinə qarşı ikinci hərbi səfərə II Yustinian özü başçılıq etdi. O öz qoşunlarını üç dəstəyə böldü və bunları Gürcüstan, Arran və Ermənistana göndərdi. II Yustinian "bu ölkələrin bütün knyazlarını öz yanına çağırdı; onlar da heç istəmədikləri halda onun yanına gəlməyə məcbur oldular: II Yustinian bəzi knyazları özü ilə apardı, digərlərindən tələb etdi ki, öz oğlanlarını onun yanında girov qoysunlar. Bəzi knyazlara isə hədiyyələr verib, onları adı çəkilən ölkələrin hökmdarı təyin etdi: Nersesi... Ermənistan hökmdarı, ikinci knyazı Ağvan padşahı, patrisi Varazdatı [Varaz-Trdatı] ekzarx etdi, onlara kömək üçün 30 min qoşun verdi, özü isə Konstantinopola qayıtdı[2].

Beləliklə, Əbd-ül-Malik və II Yustinian arasında barışıq haqqında bağlanan saziş nəticəsində, Arran "üç xalqa: xəzərlərə, taciklərə [Xilafətə] və yunanlara [Bizansa] bac verirdi"[3].

I Varaz-Trdat xəzərlərlə münasibəti nizama saldıqdan sonra bu qərara gəldi ki, Bizansa dözülməz dərəcədə ağır bacı daha verməsin, çünki bu bac üzündən "bərk sıxıntı çəkirdi"[4]. Bu məqsədlə məqsədlə o, iki oğlu Haciq və Vardan ilə birlikdə danışıq aparmaq üçün 699-cu ildə ildə Konstantinopola getdi. Burada II Yustinian onları qalaya saldı, buna gorə ki, I Varaz-Trdat Xilafət ilə yaxınlaşmış və Bizansla hər bir əlaqəni kəsmişdi. II Yustinian I Varaz-Trdatın oğlanlarını öz yanında girov saxladı, knyazın özünü də geri buraxmayıb, 704-cü ilədək *5* il Konstantinopolda saxladı.

Bu zaman Arranda elə bir hadisə baş verdi ki, Xilafətin bu işə bilavasitə qarışmasına səbəb oldu. Xalkedon dini təliminin ardınca gedən Girdiman yepiskopu Nerses Bakur I Varaz-Trdatın arvadı

---

[1] Yenə orada. Müqayisə et: Feofan, səh. 267.

[2] Asogik, səh. 72.

[3] История Агван, стр. 253.

[4] История Агван, стр. 253/203.

Spramanı dilə tutub "özünün Ağvan patriarxlığına dəvət olunmasını" ondan xahiş edə bildi, çünki Yeliazar öləndən sonra (688-ci ildə) katolikos taxtı boş qalmışdı. Varaz-Trdat Bizansda olanda Nerses bu qərara gəldi ki, knyazın Xilafətlə yaxınlaşmaq siyasətinin əleyhinə çıxsın və Konstantinopola tabe olmağa davam etsin. Lakin knyaz Şeroy başda olmaqla Arranın bir qrup nüfuzlu feodalları xalkedonçuluğun qatı düşməni olduqlarına görə buna mane oldular.

Xəlifə Əbd-ül-Malik Ermənistan katolikosu İlyanın məktubunu aldıqdan sonra, Bərdədə dini yığıncaq çağırmasını ona əmr etdi; bu yığıncaqda Nerses, Bakur xəlifə nümayəndəsinin hüzurunda mürtəd elan olundu, knyaz arvadı Sprama isə qalaya salındı. Bundan əlavə, xəlifə bir çox Arran knyazlarının xüsusi siyahıya alınmasını əmr etdi, ona görə ki, "əgər onlardan biri diofizit olarsa, qılınc və əsarətlə məhv edilməlidir"[1].

704-cü ildə knyaz I Varaz-Trdat Arrana qayıtdı və bu zamandan Arran Xilafətdən asılı bir vassal oldu. Ölkə "ancaq taciklərə [ərəblərə]"[2] bac verməyə başladı, çünki bu vaxt Ərəb-Bizans müharibələrinin başlanması ilə əlaqədar olaraq Ermənistana Məhəmməd ibn Mərvanın komandanlığı altınla ərəb qoşunları göndərilmişdi. Ərəblərin cəza dəstəsi Arrana da göndərilmişdi. Məhəmməd ibn Mərvan burada knyaz Şeroyu və ona yaxın olan adamları tutub Taron vasitəsilə Dəməşqə göndərdi[3].

Knyaz I Varaz-Trdatın[4] hökmranlığından başlayaraq Arran hətta öz vassallığını da itirdi. Ölkədə xəlifənin canişinləri tam hökmran olmağa başladılar. Knyaz və katolikos canişinlərin yanında bir növ məşvərətçi oldular; onlar müstəqil surətdə daha heç bir qərar qəbul edə bilmirdilər.

---

[1] Yenə orada, səh. 246-247/197-198.

[2] Yenə orada, səh. 253/203.

[3] Yenə orada, səh. 259-260.

[4] I Varaz-Trdatın vəfatı tarixi mənbədə göstərilmir, Yalnız deyilir ki, "...bu Varaz-Trdatın günlərində Ağvaniya içərisində dəhşətli aclıq oldu". История Агван, стр. 253-254.

## 4. Ərəb-Xəzər müharibələri və Azərbaycan

Xəlifə I Validin hökmranlığı illərində (705-715) ərəblər tədriclə şimala keçməyə başladılar. Lakin I Valid xəzərlərə qarşı ciddi hücuma başlamazdan əvvəl öz arxasını: Arranı, Şərqi Gürcüstanı və Ermənistanı bu ölkələrdə olan yerli bizanspərəst hakim və knyazların gizli qəsdlərindən təhlükəsiz hala gətirməli idi. İlk növbədə erməni naxararlarına qarşı cəza tədbirləri görülmüşdü. Xəlifə sərkərdəsi Məhəmməd ibn Mərvan yunan-erməni qoşunlarını darmadağın etdikdən sonra təslim olmayan bütün erməni başçılarından 800 nəfəri aldadıb əsir etdi və Naxçıvan hakimi Hişama (?)[1] əmr etdi ki, onları kilsəyə salıb yandırsın. Bu qayda ilə də 400 nəfər məbəddə yandırıldı[2].

Bu hadisələrdən sonra 89 (707-708)-cu ildə, Təbərinin verdiyi məlumata görə, xəlifənin qardaşı Məsləmə ibn Əbd-ül-Malik Azərbaycanda təslim olmamış bütün qala və şəhərləri tutub, türklərlə vuruşa-vuruşa Bab ül-Əbvaba çatdı[3].

Hicri 91 (709-710)-ci ildə Məsləmə ibn Əbd-ül-Malik türklərə qarşı yeni hücuma keçdi və "Azərbaycan vilayətində əl-Baba çatdı, burada şəhər və qalaları aldı"[4]. Lakin erməni erasının 158 (2.06.709-1.06.710)-ci ilində "xəzər hökmdarı 80 min nəfərlik qoşunla yürüş etdi və Albaniyanı tutdu"[5], yəni ərəblər Dərbənddən qovuldular və Arrandan Azərbaycana geri çəkildilər. İki il sonra (711) xəlifə Əbdül-Əzizin canişini ibn Xatim əl-Bəhili Arran paytaxtı Bərdəyə gəldi və xəzərlərə qarşı yeni hücum hazırlayaraq,

---

[1] Asogik, səh. 92.

[2] История Агван, səh. 259; Asogik, səh. 92-93; Gevond, səh. 22-24; Vardan, səh. 91-92; Q.Artsruni, səh. 93.

[3] Ət-Təbəri, II, 1200; İbn əl-Əsir, IV, səh. 428.

[4] Ət-Təbəri, II, 1217; İbn əl-Əsir, IV, səh. 439.

[5] История Агван, стр. 260; əl-Məkin, səh. 62.

yenidən Kürün o tayına keçdi[1]. Yəqin bu, ərəb qoşunlarının Dərbənd üzərinə yeni hücumu idi, çünki Təbəri bildirir ki, hicri 92 (710-711)-ci ildə ərəb ordusu Dərbəndə çatdı, lakin şəhəri yalnız 714-cü ildə, xəlifə I Validin hökmranlığının axırıncı ilində ala bildi[2]. Məsləmə 714-715-ci ildə Dərbənd üzərinə yenidən hücuma keçdi, onu dağıdaraq, xaqanlığın ərazisinə soxuldu. Burada xəzərlər Məsləmənin ordusu ilə vuruşmağa başladılar və ərəblər geri çəkildilər. Ərəblər geri çəkilərkən onları "Alban patrisilərindən..." Eranşahik Vaçaqanın komandanlığı altında olan Arran qoşunları arxadan mühafizə edirdi. "Xəzərlər onun üzərinə atıldılar, lakin məğlub edilib qaçmağa başladılar"[3].

Asogik və Gevond bildirirlər ki, Məsləmənin komandanlığı ilə ərəblərin Dərbənd üzərinə hücumu xəlifə Süleymanın (715-717) hökmranlığının "üçüncü ilində" (Asogik) və ya "ikinci ilində" (Gevond) başlandı[4]. Şəhər üstündə vuruşma gecə-gündüz davam etdi və ertəsi gün səhərçağı Dərbənd alındı. Ərəb ordusunda 6 min nəfər var idi və hər birinə çoxlu qənimət düşdü. Məsləmə Əbd əl-Əzizi Arranda qoyub özü Dəməşqə qayıtdı[5].

Xəlifə II Ömərin (717-720) hökmranlığının birinci ilində xəzərlər ərəblərə qarşı böyük hücumlara başladılar[6]. Xəzərlər Arrandan keçib Azərbaycana soxuldular və işğal edərək ərəb qoşunlarından bir qədər qırdılar. Bu hadisəni Təbəri belə qeyd edir: "Bu il [99(717-718)-cu il] türklər Azərbaycana hücum edib bir qədər müsəlman qırdılar və onlara ziyan yetirdilər. Ömər ibn Əbdül-Əziz

---

[1] Yenə orada, səh. 260/209.

[2] Ət-Təbəri, II, 1217.

[3] История Агван, стр. 260-261.

[4] Asogik, səh. 27-28; Gevond, səh. 95. Hər iki müəllif bildirir ki, ərəblər Dərbənd qala hasarlarını dağıdarkən üzərində aşağıdakı yazı olan bir daş tapdılar: "İmperator hökmdar Markian (450-457) bu şəhər və qalanı saldı və buna öz xəzinəsindən çoxlu talant (pul vahidi - *mütərcim)* sərf etdi. Sonralar İsmayıl övladları [ərəblər] onları dağıdıb öz pulları ilə yenidən quracaqlar".

[5] A.Bakıxanov. Gülüstani-İrəm, səh. 53-54.

[6] M.Kmoşko. Araplar ve Hazarlar, s. 135-136.

onlara qarşı Xatim ibn əl-Noman d-Bəxilini göndərdi. O həmin türkləri qırdı və əsir düşən 50 nəfərdən başqa heç kəs canını qurtarmadı; o, bu əsirləri Xunasirə Ömərə göndərdi"[1].

II Yəzidin (720-724) hökmranlığı zamanı 722-723-cü illərdə xəzərlər qıpçaq və digər türk tayfalarının köməyi ilə təqribən 30 min nəfərlik ordu ilə yenidən Arrana soxuldular[2] və onun ərazisindən keçərək Ermənistana girdilər. Mərc əl-Həcərdə bunları Sübeytə ən-Nəhraninin komandası altındakı ərəb ordusu qarşıladı[3]. Ərəblər məğlub edildilər və onların ordugahı xəzərlərin əlinə keçdi.

Həmin ildə II Yəzid əl-Cərrah ibn Abdullah əl-Həkəmini Azərbaycan və Ermənistana hakim təyin etdi və ona 25 min nəfərlik qoşun verib, əmr etdi ki, xəzərlərə qarşı hücuma başlasın[4]. Lakin xəzərlər böyük ərəb ordusunun hücuma keçdiyi xəbərini alıb Dərbəndə tərəf çəkildilər. Cərrah Bərdəyə yaxınlaşdı, orduya istirahət verdi, sonra Kürdən keçərək, Dərbəndə yaxınlaşdı. Xəzərlər xaqanın oğlu Barcikin[5] komandası altında 40 min nəfərlik ordunu Cəraha qarşı çıxartdılar. Vuruşma nəticəsində xəzərlər məğlub edildilər, onlardan çoxu əsir düşdü. Ərəblər Xamzin[6] və Tarqu[7] şəhərlərini tutdular və Balancara çatdılar[8]. Qala qarnizonu qısa

---

[1] Ət-Təbəri, II, 1346; İbn əl-Əsir, V, 31

[2] Bal'ami. Chronicle, ed. B. Dorn. Nachrichten uber die Ghazaren. St- P., 1844, p-510 (sonralar-Bələmi).

[3] Ət-Təbəri, II, 1453; İbn əl-Əsir, V, 82-83.

[4] Yenə orada, 83-84.

[5] Bələmi (səh. 510): "Barxabak"; "Dərbəndnamə" (səh. 72); "Paşenk"; İbn

Əsam (vər. 180 a): "Barsbik", Gevonda görə (səh. 71) xaqanın anası "Parsbit" adlanır. Bartolda görə (Türküstan, səh. 79). Xaqanın oğlunun adı gərək "Barcinq" olsun, bu Aral dənizinin şərqində Barciq Liq kənd adı ilə əlaqədardır. B a x: V.Minorsky. A New Book, p, 126.

[6] İbn Əsam (vər. 180 a): "Xasin"; İbn əl-Əsir (V, 84); "əl-Hüseyn".,

[7] İbn əl-Əsir, V, 84; "Yarqu".

[8] ƏT-TƏBƏRI, II, 1453; əl-Mekin, səh. 79.

vuruşmadan sonra təslim oldu və ərəblər çoxlu qənimət əldə etdilər[1]. Cərrah bu şəhərlərin əhalisini Arran ərazisinə, xüsusilə Qəbələ mahalına köçürtdü, burada xəzərlərin məskən saldığı kəndlər var idi[2]. idi[2].

İbn əl-Əsirin verdiyi məlumata görə, hər bir ərəb atlısı Balancar vuruşmasından sonra qənimət olaraq 300 dinar almışdı[3]. Yenə də ibn əl-Əsirin verdiyi məlumata görə, ərəb ordusunda 30 min atlı olduğunu nəzərə alsaq, xəzərlərdən alınan pulun böyük bir məbləğ təşkil etdiyini görərik. Ərəblər xəzərlərdən çoxlu əsir aldılar.

Balancardan sonra Cərrahın ordusu Vabandar (ya da Vananlar)[4] şəhərini aldı; burada 40 min türk evi var idi, bu ordu xaqanlıq ərazisində daha bir neçə yürüş etdikdən sonra, qışlamaq üçün Şəki vilayətinə çəkildi.

Hicri 107 (725-726)-ci ildə xəlifə Hişam (724-743) Cərrahı vəzifədən kənar edərək Ermənistan və Azərbaycan hakimi vəzifəsinə öz qardaşı Məsləmə ibn Əbd-ül-Maliki təyin etdi[5].

Hicri 108 (726-727)-ci ildə xəzərlər "xaqanın oğlunun" komandası altında Arrana növbəti hücum etdilər. Ölkəni işğal etdikdən sonra Azərbaycana tərəf yeridilər və orada bəzi şəhərləri mühasirəyə aldılar. Əl-Haris ibn Əmra ət-Tainin komandası altında ərəb ordusu onlara qarşı hücuma keçdi. Xəzərlərin qarşısı alındı, onlar məğlub edilib Arazın o tayına qovuldular, oradan isə geri çəkilməyə məcbur oldular[6].

---

[1] Əl-Bələmi, səh. 522-524; İbn Əsam, vər. 180a-181.

[2] Əl-Bəlazuri, səh. 194. b a x: A. Bakıxanov. Sitat gətirilən əsəri, səh, 55.

[3] İbn əl-Əsir, V, 84; M.Kmoşko (səh. 152) 30 dinar göstərir.

[4] İbn əl-Əsir, V, 84; Vardan (səh. 95): "Varaçan"'. Bu şəhər haqqında b a x: M.Артамонов. Очерки…, стр. 1-49; История хазар, стр. 207-208.

[5] Məsləmə haqqında b a x: İbn əl-Əsir, V, 102.

[6] Ət-Təbəri bu hadisə üçün hicri 108 (729/130)-ci ilini göstərir: İbn əl-Əsir, V, 104; Feofan, səh. 340-341; "Həmin [728] ildə xəzər şahzadəsi xaqanın oğlu Midiyaya [Azərbaycana] böyük hücum etdi. Xəzərlər Midİya əyalətlərini viran etdilər".

727 və 728-ci illərdə Məsləmə ibn Əbd-ül-Malik Azərbaycandan iki dəfə xəzərlərin üzərinə hücum etdi[1]. O, xaqanlıq ərazisinə basqın edib, müxtəlif yaşayış məntəqələrinə hücumlar edir, əsir və qənimətlərlə geri qayıdırdı[2].

729-730-cu illərdə Hişam Məsləməni geri çağırdı və əl-Cərrah ibn Abdullah əl-Həkəmini yenidən Ermənistan və Azərbaycanın hakimi təyin etdi; o isə çox çəkmədən yenidən şimala doğru hücuma başladı[3].

730-731-ci illərdə xəzər və türklərin 300 min nəfərlik ordusu[4] ordusu [4] Barcikin komandası altında ərəblərə qarşı əks-hücuma başlayıb Dərbənd, Daral və digər keçidlərlə Arran ərazisinə soxuldu[5]. soxuldu[5]. Əl-Cərrah öz qoşunlarını Bərdə yolu ilə Ərdəbilə çəkdi və orada hadisələrin inkişafmı gözləməyə başladı.

Xəzərlər ərəb qoşunlarının harada yerləşdiyini bir gürcü knyazından öyrəndilər[6]. İki ordu Araz sahilindəki Varsanda üz-üzə gəldi. Ərəblər xəzərlərin üstün qüvvələrinin təzyiqi altında Ərdəbilə tərəf çəkildilər; burada Savalan dağı yaxınlığında onların arasında bir gecə-gündüz davam edən böyük vuruşma oldu. Ərəblər tamamilə məğlub edildilər, əl-Cərrah öldürüldü[7].

Xəzərlər uzun mühasirədən sonra Ərdəbili aldılar, şəhərin kişi əhalisini qırdılar, qadın və uşaqları isə əsir apardılar[8]. Sonra xəzər

---

[1] İbn əl-Əsir, V, 108, 115.

[2] Ət-Təbəri, II, 1500-1506; əl-Yəqubi, II, 315; İbn əl-Əsir, V, 108, 115; Feofan, səh. 341.

[3] История Агван, стр. 209-210; ət-Təbəri, II, 1527; İbn əl-Əsir, V, 117.

[4] Gevond, səh. 71-72; ət-Təbəri, II, 1530-31; İbn əl-Əsir, V, 118.

[5] Bələmi, səh. 517.

[6] Yenə orada, səh. 516.

[7] История Агван, стр. 261; əl-Malik, səh. 79; ət-Təbəri, II, 1521; əz-Zəhəbi, səh. 56; Dərbəndnamə, səh. 175-176; İbn əl-Əsir, V, 118; "Aqvan tarixi"nə görə əl-Cərrah erm. erasının 179 (28.05.730-27.05.731)-cu ilində, ərəb mənbələrinə görə hicri 112 (26.03.730-14.03.731)-ci öldürülmüşdür (Baratov. Sitat gətirilən əsəri, səh. 79).

[8] İbn əl-Əsir, V, 112, Feofan, səh. 626; Gevond, səh. 72,

ordusu Azərbaycanı viran etdi, ölkənin şəhər və qalalarını bir-birinin ardınca tutub Diyarbəkrə və Mosula çatdı[1].

Gevond xəzərlərin basqını haqqında belə məlumat verir. "Onlar Hunlar torpağından, Cor [Dərbənd] keçidindən, Maskutlar torpağından keçərək Paytakaran [Beyləqan] ölkəsinə basqın etdilər; Araz çayından keçib İrana [Azərbaycana] getdilər, Artaveti [Ərdəbili], Qandzak-Şahastanı, Atşi-Baquan adlanan vilayəti, Spatar-Perozu və Ormizd-Perozu dağıtdılar"[2].

Xəzərlərin belə sürətli hücumu xəlifəni və onun saray əhlini çox çaşdırdı. Hişam ərəb qoşunlarının baş komandanı vəzifəsinə Səid ibn Əmr ül-Xəraşini təyin etdi və o dərhal 30 minlik ordu ilə xəzərlərə qarşı yola çıxdı. Səid xəlifədən məxaric üçün 100 min dirhəm pul da aldı[3].

Ərəblər Van gölü yaxınlığındakı Xilat şəhəri hasarları qabağında xəzərlərlə qarşılaşdılar[4]. Ərəblər hücumla şəhəri alıb xəzərləri təqib etməyə başladılar. Onlar Bərdə üzərinə hücuma keçərkən yolda bütün qalaları dağıdırdılar. Ərəblər "onları [xəzərləri] tamamilə məğlub edib onların bayrağını aldılar; bayrağın mis təsviri indiyədək Xəraşi dəstəsində onların əcdadının igidliyi şərəfinə saxlanılır"[5].

Bərdədə Səid şəhər əhalisi qarşısında nitq söyləyib, onları xəzərlərdən gözlənilən böyük təhlükə qarşısında birləşməyə çağırdı. O, xüsusilə Arran paytaxtının zəngin sakinlərinə müraciət edərək, vəsait verməkdə xəsislik etməməyi onlardan xahiş etdi[6].

Sonra Səid Beyləqana getdi, şəhəri alıb Varsana gəldi, buradan da xəzərlərin qarnizonunu qovdu.

---

[1] Əz-Zəhəbi, səh. 56-57; İbn əl-Əsir, V, 118.

[2] Gevond, səh. 72.

[3] Bələmi, səh. 520.

[4] İbn əl-Əsir, V, 118.

[5] Gevond, səh. 72.

[6] Dərbəndnamə, səh. 117-178; A. Bakıxanov. Sitat gətirilən əsəri, səh. 56.

Xəzərlər Barcikin komandası altında 100 min nəfərlik qoşunu Səid ordusuna qarşı göndərdilər. Beyləqan yaxınlığındakı çayın kənarında [1] baş verən vuruşma nəticəsində xəzərlər darmadağın edildi. Barcikin özünü isə Səid atdan saldı və başını kəsərək Hişama göndərdi[2].

Ərəblər xəzərlərin üzərində böyük qələbə çaldılar, çoxlu qənimət ələ keçirdilər. Hər bir ərəb əsgərinə mükafat olaraq, azı 1700 dinar (!) verildi[3].

Yenə də hicri 112 (730-73l)-ci ildə xəlifə Hişam əl-Xəraşini paytaxta çağırdı. Məsləmə ibn Əbd ül-Maliki Ermənistan və Azərbaycana hakim təyin etdi; o dərhal xəzərlərə qarşı hücuma başladı və qışa yaxın Dərbəndə çatdı[4]. Hicri 113 (731-732)-cü ildə Məsləmə daha irəliyə doğru hücum edərək, Balancara çatdı; buradakı vuruşmada xaqanın ikinci oğlu öldürüldü[5].

Yenə də hicri 113-cü ildə xəzərlər yenidən Arrana soxuldular[6], lakin Dərbənddə məğlub edildilər. 1000 nəfər öz ailələri ailələri ilə birlikdə əsir düşdü[7].

Sonrakı hicri 114 (732-733)-cü ildə[8] ərəblər Hişamın Cəzirə, Azərbaycan və Ermənistan hakimi təyin etdiyi Mərvan ibn Məhəmmədin komandası altında xəzərlərə qarşı hücuma keçdilər. Mərvanın qərargahı Kasalda (Qazaxda) idi[9], buradan Bərdəyə 40 fərsəx və Tiflisə 20 fərsəx yol var idi[10]. O, buradan Daryal keçidi

---

[1] İbn əl-Əsir, V, 120; Dərbəndnamə, səh. 178-180

[2] Əl-Yəqubi, II, 381.

[3] Bələmi, 531; A. Bakıxanov. Sitat gətirilən əsəri, səh. 57.

[4] Ət-Təbəri, II, 1531-1532; İbn əl-Əsir, V, 120; Kitab əl-Uyun, səh. 90.

[5] Ət-Təbəri, I, 1560; Kitab əl-Uyun, səh. 90; İbn ət-Əsir, V, 129-130.

[6] Ət-Təbəri, II, 1560; İbn əl-Əsir, V, 120; əl-Yəqubi, II, 381.

[7] Bəlaziri, 207; Bələmi, 533-534.

[8] Ət-Təbəri, II, 1562; İbn əl-Əsir, V, 131-132; Kitab ol-Uyun, səh. 90.

[9] Kasal haqqında b a x: V.Minorsky. Kasal (Kazah), p. 120-123.

[10] Əl-Bəlazuri, 207. Vardan (səh. 95) deyir ki, "Mərvan hun şəhəri Varaçana hücum etdi və oradan qələbə ilə qayıtdı".

vasitəsi ilə xəzərlərin diyarına hücuma keçdi, qoşunun digər hissəsinə isə əmr etdi ki, Dərbənddən hücuma keçsinlər. Bəlazurinin dediyinə görə, ərəblərin gücündən qorxuya düşən xaqan sülh istədi, Mərvan isə əsir aldığı xəzərləri "Samur ilə Şabiran arasında düzənlikdə Lakzlar vilayətində yerləşdirdi"[1]. Gevond bildirir ki, Varaçan şəhərini alan Mərvan böyük qənimət əldə etdi və "Hunlar ölkəsindən şanlı qələbə ilə qayıtdı. Partav şəhəristanına [paytaxtına] çatan Mərvan qənimətin beşdə birini və əsirləri öz hökmdarı Geşama [Hişama] gondərdi və ona məktub yazıb qələbə haqqında məlumat verdi"[2].

Xaqan islam dinini qəbul etdi, Mərvan isə "Şirvan hökmdarına (Şirvanşaha - *Z.B.)* bir vəzifə olaraq tapşırdı ki, müsəlman ordusu xəzər diyarına hücum edərkən qoşunun qabağında getsin, bu ordu oradan qayıdarkən arxada gəlsin"[3].

Sonrakı iyirmi il ərzində Əməvilər sülaləsi devrilənədək xəzərlər ərəblərin nəzarəti altında idi. Abbasilər hakimiyyət başına gələndə xəzərlər Xilafətdə baş verən hadisələrdən istifadə edərək, öz paytaxtlarında xəlifə nümayəndələrini öldürüb, bir müddət müstəqil oldular.

Bizans da Xilafətdəki daxili çəkişmələrdən istifadə edərək, Zaqafqaziyada öz hərbi və diplomatik fəaliyyətini gücləndirdi.

Xəlifə Mənsur (754-775) hakimiyyət başına gələn kimi, ərəblər Bizansa qarşı dərhal əks-tədbir gordülər, "Mənsur xəlifə olanda Yəzid ibn Useyd əs-Sulamini Azərbaycan və Ermənistana hakim təyin etdi. O, [Yəzid] Bab əl-Lanı [Daryal] tutdu və orada muzdlu əsgərlərdən ibarət qarnizon yerləşdirdi. Sonra o, sanarları tabe etdi və onlar xərac verməyi öhdələrinə götürdülər. Bu zaman Mənsur ona məktub yazaraq əmr etdi ki, xəzər padşahı ilə qohum olsun. Yəzid bu əmri yerinə yetirdi"[4]. Bu, şübhəsiz, onu göstərir ki,

---

[1] Əl-Bəlazuri, 208; İbn əl-Əsir, V, 132.

[2] Gevond səh. 80-81.

[3] Əl-Bəlazuri, 209; əl-Yəqubi, II. 382; İbn əl-Əsir, V, 133

[4] Əl-Bəlazuri, 209-210; əl-Yəqubi, II, 446-447.

xəzərlər yenidən qüvvətlənmişdilər və Bizansdan kömək görüb təhrik edilərək, Xilafətin mənafeyi üçün təhlükə təşkil etməyə başlamışdılar. Mənsur bununla hesablaşmalı idi, çünki Bərdədə olan Yəzidə göndərdiyi başqa bir məktubda belə yazmışdı: nə qədər ki, xəzərlər fəaldır, Azərbaycan onun canişinliyi üçün rahat yer olmayacaqdır – "mən sənin üçün və bütün sənin vilayətin üçün xəzərlər tərəfindən gələn təhlükədən ehtiyat edirəm"[1].

Yəzid ibn Useyd xəzər xaqanının qızı ilə evləndi. Bu qadın "onun üçün bir oğlan doğdu, lakin uşaq öldü; anası da doğum zamanı öldü"[2]. Bu hadisə haqqında Gevond belə məlumat verir: "Yəzid öz hökmranlığı zamanı, Xaqan adlanan Şimal padşahının yanına elçilər göndərdi ki, onunla qohum olsun, beləliklə də, onunla və xəzər qoşunları ilə sülh şəraitində dolansın. Xəzər padşahı öz qızı Xatunu ona verməyə razı oldu"[3].

Xəzərlərin arasında belə bir şayiə yayıldı ki, Xaqanın qızını və uşağı ərəblər özləri öldürmüşlər. Bundan bir az sonra Xaqan ərəblərə qarşı müharibəyə başladı. "Xaqan güclü qoşun toplayaraq, onu Xatirlitber nəslindən olan sərkərdə Raj Tarxana [ərəbcə Rəs Tarxana] tapşırdı və Yəzidin idarə etdiyi bizim ölkəyə göndərdi. Xəzərlər böyük Kür çayının şimal tərəfinə səpələnərək, bir çox vilayətləri[4], hamısı Albaniya vilayətləri olan Xecar, Qala, Ostan-i Marzpanyan[5], Xaband[6], Qelave, Şake, Biyes, Xeni, Kambexçan[7], Xozmas vilayətlərini tutdular; çox gözəl Balasakan çöllərini də tutdular[8] və saysız-hesabsız mal-qara və ilxı apardılar[1]. Bundan

---

[1] İbn Əsam, II, 241. (Kurat, p. 272).

[2] Əl-Bəlazuri, 210; İbn Əsam, II, vər. 242 a.

[3] Gevond, səh. 92; K.Segledi. Sitat gətirilən əsəri, səh. 79.

[4] Albaniya vilayətlərinin adları haqqında b a x: M.Хоренский. История Армении.

[5] N.Hubsehmann. Die Altar menische ortsnamen, p. 461.

[6] Yenə orada, səh. 348-349.

[7] Y.Marquart. Sitat gətirilən əsəri, səh. 118.

[8] Н.Адонц. Армения в эпоху Юстиниана, стр. 220.

əlavə, xəzərlər Gürcüstan vilayətləri Şuçk, Kuyeskapor, Çeltd, Suket[2], Velissixe[3], Tianet[4] və Yergini[5] qarət edib, böyük qənimətlə vətənə getdilər.

Yəqubi, Təbəri və ibn əl-Əsir xəzərlərin bu hücumunun hicri 145 (763-764)-ci ildə olduğunu qeyd edirlər[6]. Təbərinin verdiyi məlumata görə, bundan iki il sonra (764-765) xəzərlər yenidən Zaqafqaziyaya soxuldular: "Bu ilin (hicri 147) hadisələri sırasına Astarxan əl-Xarəzminin türk qoşunları ilə Zaqafqaziya müsəlmanları [ərəblər] üzərinə hücumu daxildir. Onlar müsəlman və zimmilərdən çoxlu əsir aldılar, Tiflisi tutdular. Hərb ibn Abdullah ər-Ravəndi onlarla vuruşdu. Hərb öldürüldü və ərəblər qaçdılar"[7].

Sonrakı ildə Mənsur, Hərbi öldürən və Tiflisi qarət edən xəzərlərə qarşı Hümeydə ibn Qəhtabı göndərdi, lakin o, xəzərlərə rast gəlməyib qayıtdı[8].

Sonralar xəzərlər VIII əsrin axırınadək Zaqafqaziyanı öz basqınları ilə narahat etmədilər. 796-797-ci ildə xəlifə Harun ər-Rəşid (786-809) Səid ibn Səlm ibn Kuteybə əl-Bəhilini Ermənistan və Azərbaycana hakim təyin etdi; o da öz vəzifəsinə yerli hökmadarları təhqir etməklə başladı, nəticədə isə Arranda iğtişaşlar

---

[1] Gevond, səh. 92-93. Raj Tarxan adı haqqında b a x: K.Segledi, səh- 86-87, qeyd 48

[2] M.Brosset. Sitat gətirilən əsəri, səh. 305-307.

[3] Yenə orada, səh. 315.

[4] Histoire de la Georgie, 1, p. 127, n. 153.

[5] K.Toumanoff. Iberia, p. 218-219, n. 2: "Xerki".

[6] Ət-Təbəri, III, 318; əl-Yəqubi, II, 446; İbn əl-Əsir, V, 437.

[7] Ət-Təbəri, III, 328; əz-Zəhəbi, 77; İbn əl-Əsir, V, 441; K.Segledi, səh. 83-84.

[8] Ət-Təbəri, III, 353. Xəzərlərin Tiflis zonasında ve Gürcüstandakı əməliyyatının təfsilatı haqqında b a x: K.Segledi, səh. 84-88. Əz-Zəhabi (səh. 77) bildirir ki, bunlar xəzərlər deyil, qıpçaqlar idi (K.Seklediyə görə türklər və xarəzmlərdən olan muzdlu qoşunlar idi).

baş verdi[1]. Bu zaman Dərbəndin komendantı (hakimi) ən-Nəcm Ibn Haşim idi.

Səid ən-Nəcmə əmr etdi ki, qaladakı komandirlərdən birini vəzifədən çıxarıb başqasını təyin etsin. Lakin Nəcm bundan boyun qaçırdı. Səid isə onu itaətsizlik üstündə öldürdü. O zaman ən-Nəcmin oğlu Həyyun ibn ən-Nəcm, Səidin Dərbənd nümayəndəsi əl-Munacim əs-Sulamini öldürtdü və xəlifə əleyhinə üsyan qaldırdı. "O, xəzər padşahı xaqanla danışığa girdi, xaqan da onun köməyinə gələrək böyük bir ordu ilə müsəlmanlara hücum etdi, onları qırıb, həddən artıq əsir aldı"[2].

100 min nəfərdən çox xəzər ordusu[3] kiçik ərəb dəstələrinin müqavimətini qıraraq, Arran ərazisində irəlilədi və az sonra Kür sahilinə çatdı[4]. Harun ər-Rəşid hücumun qarşısını almaq üçün tədbir görüncəyədək, xəzərlər tutduqları əsirlərlə öz yerlərinə qayıtdılar. Bu dəfə onlar Albaniyada 70 gün qaldılar[5]. Əs-Suyuti bildirir ki, xəzərlər xəzərlər "özləri ilə 100 mindən artıq əsir apardılar. Bu elə bir dəhşətli fəlakət idi ki, indiyədək əhali [Arran əhalisi] bunun mislini görməmişdi"[6].

Bu, Xilafətə qarşı mübarizədə xəzərlərin son əhəmiyyətli müvəffəqiyyəti idi. Xəlifə Harun ər-Rəşidin hökmranlığı dövründə xəzərlərin Arrana və onunla qonşu olan ölkələrə hücumları kəsildi, xəzərlərlə sülh və ittifaq bağlandı.

---

[1] Əl-Yəqubi, II, 517-518.

[2] Əl-Yəqubi, II, 518-519; ət-Təbəri, III, 648; Dərbəndnamə, səh. 129-130.

[3] Ət-Təbəri, III, 648; İbn əl-Əsir, VI, III; əl-Məkin, səh. 115.

[4] Əl-Yəqubi, II, 518-519; Ət-Təbəri, III, 648; İbn əl-Əsir, V, III.

[5] Ət-Təbəri, 648; İbn əl-Əsir, VI, 1 1 1-112.

[6] Əz-Zəhəbi, 285; Katib Çələbi "Cahannüma"da 140 min nəfərin öldürülməsindən danışır (İstanbul nəşri, hicri 1145-ci il, səh. 400); nıüqayisə et: A.Bakıxanov. Sitat gətirilən əsəri, səh. 60-61; С.Н.Джанашиа. К критике Моисея Хоренского, стр. 494; Е.А.Пахомов. Краткий курс истории Азербайджана, стр. 13.

Beləliklə, A.Y.Krımski deyəndə ki, xəzərlər Arranda yüz il hökmranlıq etmişlər, daha haqlıdır. Baxmayaraq ki, yüz il ərzində Arran daim xəzərlərin hakimiyyəti altında olmamışdır. Ancaq onların ölkə üzərində nəzarəti və hücumlarının arası, demək olar, kəsilmirdi. Onlar ölkəni daim gərgin vəziyyətdə saxlayır və ondan böyük bac alırdılar. A.Y.Krımski xəzərlərin Arrandakı hökmranlığı və dağıdıcı hücumlarının təqribən 737-ci ildə qurtardığını yazırsa da[1] yuxarıda göstərilən materiallardan görünür ki, xəzərlər hətta VIII əsrin axırında: 796 və ya 799-cu illərdə Arran ərazisinə hücum etmişlər[2]. Doğrudur, xəzərlərin çox sonralar da ərəblərlə vuruşduğu haqqında məlumat vardır. Məsələn, X əsrə aid bir yəhudi sənədində deyilir: “budur, bu xalqlar bizimlə (xəzərlərlə) müharibə edirlər: Bab ül-Əbvab, Zibus, Türklər, Luzaniya”[3].

...Lakin Kordova xəlifəsi III Əbd ür-Rəhmanın (912-961) yəhudi əyanı Xasay ibn Şapruta xəzər padşahı Yusifin (İosifin) yazdığı cavab məktubundan göründüyü kimi, bu zaman xəzərlər Ərəb xilafətinin şimal sərhədlərində bir növ mühafizə dəstəsi rolunu oynayaraq, ruslar və digər xalqların Zaqafqaziya vasitəsilə müsəlman ölkələri ərazisinə girmələrinə mane olurdular. Yusif belə yazmışdı: "Mən çayın [İtil çayının] ağzını qoruyuram və gəmilərə minib gələn rusları dənizdən keçib İsmayıl övladının [ərəblərin] üstünə getməyə qoymuram və [eynilə] onların [ərəblərin] bütün düşmənlərinin quru yol ilə Bab ül-Əbvaba (Dərbəndə) yaxınlaşmalarına imkan vermirəm. Mən onlarla müharibə edirəm. Əgər mən onları bir saat [rahat] buraxsam, onlar bütün İsmayıl övladının ölkəsini Bağdada qədər məhv edərlər"[4].

---

[1] Y.A.Krımski. Sitat gətirilən əsəri, səh. 300.

[2] Əs-Suyuti və əz-Zəhəbidə belədir.

[3] S.Schechter. An unknown Khazar Document, p.219; П.К.Коковцев. Новый еврейский документ о хазарах и хазаро-русско-византийских отношениях в X веке, стр. 16

[4] П.К.Коковцев. Еврейско-хазарская переписка в X веке, стр. 83-84; müqayisə et: О.И.Артамонов. История хазар, стр. 262-282. Xəzərlərin

## 5. Azərbaycanda torpaq münasibətləri və ərəblərin vergi siyasəti

Qeyd etdiyimiz kimi, ərəblər Azərbaycanı və Arranı istila etdikdən sonra, tutduqları digər ölkələrdə olduğu kimi, burada da öz sələfləri olan İran və Bizans vergi aparatını saxlamışdılar.

Əməvilər hakimiyyət başına gələndən sonra vergi toplamaq qaydası dəyişməyə başladı, lakin bu vergilər yenə də o qədər ağır deyildi. Anili Samuilin dediyinə görə, Əməvilər Zaqafqaziya ölkələrində bərqərar olduqda aşağıdakı vergiləri alırdılar: "Hər həyətdən dörd dirhəm, üç modi[1] ələnmiş buğda, heyvan tükündən bir ip və bir əlcək. Əmr edilmişdi ki, keşişlərdən, habelə azadlardan və atlılardan bir şey alınmasın"[2]. Keşişlərə belə münasibətin səbəbi o idi ki, ərəblər Arran, Ermənistan və digər xristian ölkələrində kilsələrə himayəçilik edir, onların toxunulmazlıq və vergidən azad olmaq

---

yəhudiləşdirilməsi tarixinin bəzi təfərrüatı haqqında b a x : S.Szyszman. Le Roi Bulan et la Probleme de la conversion des Khazars, t. 33, I, 1957.

[1] Modi (mudd) - 3,264 kiloqram.

[2] Anetsi Samuil. Ayrı-ayrı parçalar məcmuəsi, səh. 92. Ərəb müəlliflərinin verdiyi məlumata görə 4-dən 12 dirhəmədək alınırdı. B a x: ət-Təbəri, I, səh. 960-962, əd-Dinəvəri, səh. 72-73.

hüququ olduğunu qəbul edirdilər. Ərəb hakimləri ruhanilərə ona görə imtiyaz verirdilər ki, əhalini dinin köməyi ilə itaətdə saxlamaq istəyirdilər.

Beləliklə, Azərbaycan və Arranın istila edilməsinin lap başlanğıcından vergilərin ayrı-ayrı şəxslərdən deyil, bütün ölkədən alındığı faktına təsadüf edirik. Bunu təsdiq edən sənəd, 658-ci ildə əl-Əştərin Misir hakimi vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq xəlifə Əlinin (656-661) ona yazdığı məşhur məktubdur. Əl-Əştərə əmr olunurdu ki, "xərac yığmağa deyil, torpağın becərilməsinə çox böyük diqqət versin, çünki [xərac] yalnız becərilmiş torpaqdan alına bilər və hər kəs torpağın becərildiyini [hesaba almadan] xərac tələb edirsə, ölkəni var-yoxdan çıxarır, xalqı qırıb tükədir, buna görə də belə bir şəxs yalnız qısa müddətdə fəaliyyət göstərə bilər. Əgər xalq vergilərin ağırlığından, yaxud hər hansı təbii fəlakətdən, suvarmanın kəsilməsindən, bədbəxt hadisələrdən, ya da torpağın dəyişdirilməsindən, onun bataqlığa və ya quraq yerlərə çevrilməsindən öz narazılığını bildirirsə, onların dərdini öz bildiyin yolla yüngülləşdir. Sən bunlara gücçatmaz ağır bir yük kimi baxmamalısan"[1]. Sonra deyilirdi ki, əgər torpaq gəlir verməzsə, xəzinəyə gələn vergi kəsilər.

Məsələn, vəzirin vəzifələri haqqında Nəcm əd-Din-Razinin verdiyi izahat da bu qəbildəndir: "Kəndlilərin var-yoxdan çıxması ölkənin var-yoxdan çıxmasına səbəb olur"[2].

Bu vəziyyət xəlifə Əbd ül-Malikin hökmranlığınadək davam etdi, o isə vergilərin alınması qaydasını dəyişdirdi. Tell-Mahrlı Dionisi bildirdi ki, "1003 [b.e. 691-692]-cü ildə Əbd ül-Malik [vergilərin alınmasında] dəyişiklik etdi. O bir sıra sərəncam verərək hər bir adama əmr etdi ki, öz ölkəsinə, doğulduğu kəndə qayıtsın və orada öz adını, habelə atasından irs qalmış öz təsərrüfatını, üzümlükləri, zeytun ağaclarını, əmlak və uşaqlarını, malik olduğu hər şeyi dəftərə saldırsın. Can vergisi *[cizyə]* və xristianlara şamil edilən

---

[1] Əli ibn Əbu Talib. Nəhc əl-Bəlağa. Beyrut, c. II, 1889, səh. 23-25.

[2] Nəcm əd-Din Razi. Maraşid əl-İbad min əl-məbdə ilə a-imad. Tehran, 1312 h., səh. 268.

bütün müsibətlər belə əmələ gəldi. O zamanadək padşahlar adamlardan deyil, torpaqdan bac alırdılar. Bu, ərəblərin həyata keçirdikləri ilk sayım adı idi"[1]. Suriyalı Mixail də bundan danışır, lakin bu hadisənin bir il sonra baş verdiyini göstərir[2].

Arran əhalisi xristian olduğuna görə, xəlifənin xəzinəsinə iki vergi - cizyə və xərac verirdi, müsəlmanlar isə istila etməsindən əvvəl nə qədər idisə, indi də o qədər idi, yəni dövlətlilərdən ildə 48 dirhəm, orta varlılardan 24 dirhəm, yoxsullardan isə 12 dirhəm alınırdı. Müsəlmanlardan yalnız onda bir vergisi *(üşr)* alınırdı. Torpaq vergisinə gəldikdə, müsəlman olmayanlardan ikiqat artıq alınırdı. Əmr olunmuşdu ki, xristian əhalidən vergi təzyiq göstərmədən[3], bağlanan müqavilələrə əsasən alınsın, digər vergi toplayanlar həqiqətdə, adətən, bu əmrə qulaq asmırdılar. Kilsələrin vəqf təsis etmək hüququ qəbul edilmişdi. Xristian əhalisi haqqında bir qədər güzəştə getmək halları yalnız xəlifə II Ömərin (717-720) hökmranlığı zamanında nəzərə çarpmağa başladı[4]. Gevondun dediyinə görə, sonra xəlifə olan Hişam Xilafət xəzinəsinin gəlirini azaldan bu güzəştlərə görə Öməri təqsirləndirdi. O, "Ömərin səxavətini pislədi və onu öz sələflərinin yığdığı sərvətləri qanunsuz olaraq xərcləyib dağıtmaqda təqsirləndirdi"[5].

Xəlifə Ömər öldükdən sonra, onun xələfı II Yəzidin (720-724) zamanında Xilafətin xərac işləri müdiri (sahib əl-xərac) Usamə ibn Zeyd ət-Tənuhi 721-722-ci illərdə "xristianlar üçün xəracı artırdı, onları vergi verməyə məcbur edib pullarını əllərindən alırdı və rahiblərin əllərini damğalayırdı"[6]. II Yəzidin hökmranlığında Zaqafqaziyanın xristian əhalisinə qarşı ifrat rəhmsizlik göstərildi. Erməni dilində yazan tarixçilərin hamısı bildirir ki, Yəzid kinli,

---

[1] Chronique de Denys de Tell-Mahre, p. 10.

[2] Suriyalı Mixail, II, 473.

[3] Ət-Təbəri, II, 1366-1367.

[4] Gevond, səh. 29. Bu xəlifə haqqında V.V.Bartoldun maraqlı məqaləsinə b a x: “Халиф Омар" противоречивые известия о его личности.

[5] Gevond, səh. 71

[6] Əl-Məqrizi. Əl-məvaiz və-l-etibar bi-ziir əl-xitət və-l-asar. c. IV, əl-Qahirə, səh. 395.

qəddar, qəzəbli bir adam idi. O, ikona və xaçların məhv edilməsi əmrini vermişdi. Sərəncam vermişdi ki, Xilafət ərazisindəki bütün donuzlar məhv edilsin[1].

Xəlifə Hişamın zamanında Azərbaycan və Arranda ərəblərin vergi siyasəti əsaslı dəyişikliyə uğradı. O zamanadək müsəlman hüququ cizyə ilə xərac arasında fərq qoymurdusa da, bu terminlərin hər ikisi sinonim kimi işlədilirdisə[2], indi yerlərdəki əməvi hakimləri, Hişamın sərəncamlarını rəhbər tutaraq, xəracı xəzinəyə böyük gəlir gətirən əsas vergilərdən biri hesab etməyə başladılar. Əlbəttə, əsas diqqət xəracın özülü hesab edilən kənd təsərrüfatına verilirdi, çünki ərəblərin arasında belə möhkəm əqidə var idi ki, "müsəlmanların gücü xəracdadır". Məqrizinin verdiyi məlumata görə, Hişamın hökmranlığı dövründə Zaqafqaziyada "xristianların istismarı da, xəracı da artdı"[3].

725-726-cı illərdə Hişamın sərəncamına görə, Azərbaycan və Arranda əhali, torpaq, mal-qara və hər cür digər əmlak yenidən siyahıya alınıb sayım keçirildi. Bu barədə həm M.Kalankatuklu, həm də Gevond məlumat verir: "Bunun ərəfəsində Arranda 174-cü erməni ilinin (29.05.725-28.05.726) yayında mal-qara qırılmışdı"[4]. Hişam öz öz sərkərdəsi Haris ibn Əmri[5] Arrana göndərdi, o da həmin ilin qışında sayım keçirdi. M.Kalankatuklunun dediyinə görə, ağır vergi qoyulmasına səbəb olan bu növbəti sayım "insanları, mal-qaranı və bütün ölkəni köləlik boyunduruğu altına saldı"[6], belə ki, sonrakı ildə Arrana dəhşətli aclıq üz verdi.

---

[1] Gevond, səh. 70-75; Asogik, səh. 96; Vardan, səh. 94.

[2] Ət-Təbəridə isə (II, 1367) II Ömərin ləğv etdiyi vergilərin sırasında xəracın da adı çəkilir.

[3] Əl-Məqrizi, səh. 395; Asogik, səh. 96.

[4] История Агван, стр. 261/209.

[5] Veyldə: "Hars ibn Şurayk".

[6] История Агван, стр. 261; müqayisə et: Gevond, səh. 71. Ayrivanlı Mxitarın tərtib etdiyi xronoqrafik tarix, səh. 399; Asogik, səh. 96.

Həmin sayımdan sonra tətbiq edilən yeni vergi sistemində əhalidən başqa, rahiblərdən də vergi alınması nəzərdə tutulurdu[1]. "[Xəlifə] əmr etdi rahiblər siyahıya alınsın, buna görə onları siyahıya aldılar; onların hər birindən cizyə almağa başladılar və bu, rahiblərdən alınan ilk cizyə (oldu)[2].

Yenə də Hişamın dövründə əhalinin üzərinə sənaye və sənət məlumatı vergisi, kəbin kağızı vergisi kimi əlavə vergilər qoyuldu[3]. Azərbaycanda isə əvvəlki Sasani vergiləri, "Novruz və Mehrican hədiyyələri" adlanan bəxşişlər[4] bərpa edildi, halbuki bu vergilər xəlifə II Ömərin dövründə ləğv edilmişdi. Onun xələfi II Yəzid belə bir sərəncam verdi: "Ömər aldadılmışdı... Siz onun zamanında bildiyiniz şeyləri unudun, qoy xalq öz əvvəlki işinə qayıtsın - fərqi yoxdur: istər məhsul alsın, istər qıtlıqdan əzab çəksin, istər toxum alsın, ya almasın, istər yaşasın, ya da ölüb getsin"[5]. Haris ibn Əmrin keçirdiyi sayımdan sonra qoyulan vergi sistemi o dərəcəyə çatdı ki, təkcə yoxsulları deyil, hətta Arranın bir çox əyan və varlı adamlarını da dilənçi kökünə saldı. Bu barədə Gevond aydınca deyir: "O [Haris ibn Əmr] çox fəlakətlərə səbəb oldu, [belə ki] hamı ağır zülmdən inləyirdi və dözülməz fəlakətlərdən xilas olmağa heç bir imkan yox idi"[6].

Bu çətinliklər, birinci növbədə, vergi ödəyən zimmilərə zərbə endirdi, zira məlum olduğu kimi, onlar bir tək ərəblərə deyil, həmçinin öz ağaları olan yerli feodallara da vergi verirdilər. Vergi verənlərdən alınan böyük məbləğlər xəlifə xəzinəsinə tam şəklində

---

[1] Əl-Məqrizi, səh. 394.

[2] Bəndəli Cövzi. Min tarix əl hərəkat əl-fikriyyə fi-l-İslam, əl-Qüds, 1928, səh. 42.

[3] Ət-Təbəri, VIII, 129; İbn əl-Əsir, V, 23.

[4] Ət-Təbəri, II, 1366-1367; В.В.Бартольд. "Халиф Омар II и противоречивые известия о его лияности", ХВ, VI, 1920, səh. 228.

[5] Kürd Əli. Əl-İdarə əl-islamiyyə fi izz əl-ərəb, əl-Qahirə, 1934, səh. 114.

[6] Gevond, səh. 71.

gedib çatmırdı, çünki əyalətin əmiri və onun məmurları, onlara tapşırılan əyaləti şəxsən varlanmaq üçün bir mənbə hesab edirdilər. Xəlifələr bu cinayətlərin qarşısını almağa cəhd edir və çox vaxt məmurlara qarşı çox sərt tədbirlər görürdülər. I Müaviyə (661-680) hətta xüsusi nəzarət orqanı *(dar əl-istixrac)* yaratmışdı; bu orqanın vəzifəsi hər hansı bir əyalətdə məmurlar arasında rüşvətxorluq hallarını aşkara çıxartmaqdı. Lakin bu tədbir az kömək edirdi. Dövlət xəzinəsi məmurlarının etdiyi cinayətlərin qarşısını almaq məqsədilə bu vəzifələrə ərəblərin əvəzinə yerli feodalları təyin etməyə başladılar, çünki bunlar xəzinə işlərinə yaxşı bələd idilər və gizlədilən məbləğləri verməyə onları asanlıqla məcbur etmək olardı. Lakin bu tədbir də nəticə vermədi, çünki əksəriyyəti islam dinini yalnız zahirdə qəbul edən yeni məmurlar öz imtiyazlarını əldə saxlamaq üçün tez bir zamanda ərəblərdən daha pis oldular, ərəblərə can-başla qulluq edib, onlarla əlbir olub öz keçmiş təbəələri olan əkinçiləri qarət etməyə başladılar. Kremer bunu belə qeyd edir: "Bu feodal zadəganlar islam dinini qəbul etməklə öz keçmiş hakimiyyət qalıqlarını vaxtında qorudu və vergi toplayan kimi əlverişli vəzifə ələ keçirərək tezliklə sərvət və nüfuz qazandı"[1].

Çoxlu ağır vergilər torpaq sahiblərini çox tez iflasa uğradırdı, buna görə də onlar məcbur olurdular ki, öz torpaqlarını ərəb tayfasının, ərəb iri torpaq sahibləri və dövlət qulluqçularının hamiliyinə versinlər. Bu torpaqlar hami və ya ilca kateqoriyasına daxil edilib qeydə alınırdı. Torpağın əsil sahibləri məhsulun bir hissəsini hamilərə verirdilər ki, onlar torpaq sahiblərini məmurların zülmündən qorusunlar[2], torpağın özü isə sahibinin adına qeydə alınırdı. Məsələn, Marağa əhalisi öz torpaqlarını Mərvan ibn Məhəmmədin himayəsinə vermişdilər[3]. Həmin qayda ilə Azərbaycan əhalisindən bir çoxları öz kənd və torpaqlarını, onları mühafızə etmək üçün buraya köçmüş ərəb tayfalarının himayəsinə verirdilər. Azərbaycana köçmüş ərəblər "nə qədər bacarırdılarsa, bir o qədər

[1] A.V.Kremer. Streifzüge auf dem Gebiete des Islam, s. 19.

[2] Cahşiyari, 118; В.Р.Озен. Рецензия на А.Ф.В.Кремер, стр. 134.

[3] Əl-Bəlaziri, səh. 329.

torpaq [tuturdular]. Onlardan bəziləri torpağı ərəb olmayanlardan (əcəmlərdən) satın alırdılar. Bundan əlavə, mühafızə etdikləri kəndləri onlara güzəşt edirdilər, beləliklə, həmin kənd əhalisi onlar üçün işləyirdilər"[1].

Əməvilər dövründə Xilafətin şimal sərhədlərinə hələ də istilaçı hərbi səfərlər edilirdi və ərəblər hər hansı bir vilayəti tutduqda bütün vilayət üzərinə bac qoymaqla kifayətlənirdilər. Xəlifə Hişamın dövründə Arran hakimi Mərvan ibn Məhəmməd Sərir[2] torpaqlarını tutaraq, "Sərir hökmdarını məcbur etdi ki, ona tabe olsun və öz üzərində onun hakimiyyətini qəbul etsin. Onların arasında bağlanan sülh müqaviləsinə görə Sərir hökmdarı öhdəsinə götürmüşdü ki, [Xilafətə] ildə 1500 oğlan və 500 qız versin və əl-Bab [Dərbənd] taxıl anbarına 100 min mudd buğda gətirsin..."; Tuman əhalisi "öhdəsinə almışdı ki, ildə 150 qız, 50 oğlan versin və taxıl anbarına 20 min mudd buğda gətirsin"; Zirehgeran hökmdarı "təəhhüd etmişdi ki, ildə 50 oğlan verib taxıl anbarına 100 min mudd buğda gətirtsin"; Xəmzin hakimi "öhdəsinə götürmüşdü ki, birdəfəlik 500 [oğlan və qız] göndərsin və taxıl anbarına ildə 30 min mudd [taxıl] təhvil versin"; Sindan hakimi "öhdəsinə almışdı ki, sonralar mükəlləfıyyətdən azad olmaq şərtilə birdəfəlik ona 100 [oğlan və qız] göndərsin və ildə əl-Bab taxıl anbarına 5 min mudd [taxıl] təhvil versin"; Lakz hökmdarı "öhdəsinə götürmüşdü ki, taxıl anbarına ildə 20 min mudd [taxıl] təhvil versin" və i.a[3].738-ci ildə Mərvan ibn Məhəmməd Dərbənddə olanda "Məsləmə tərəfindən qoyulan xəracı [Dağıstan] vilayətlərindən yığırdı. O, Qumuxdan və Tumandan ildə

---

[1] Əl-Bəlazuri, səh. 329; "ilca" məsələsi haqqında b a x: İbn əl-Fəqih, 282; İbn Xəldun II, 308, Cürci Zeydan. Tarix ət-təməddün əl-islami, I, səh. 142 (ərəb dilində) (sonralar - C.Zeydan); T.Qədirova. İlkin feodal təsisatı "ilca" haqqında yeni məlumat, səh. 37-41.

[2] Əl-Yaqut, III, səh. 88: "Sərir əl-Lan ilə Bab əl-Əbvab arasında yerləşən geniş ölkədir. Onun dağlarında 18 min kənd vardır. İstəxri deyir ki, bu həm dövlət, həm də şəhər adıdır.

[3] Əl-Bəlazuri, səh. 208-209; əl-Yəqubi, II, səh. 381-382.

100 qul, 100 kəniz və 20 min batman buğda alırdı; Kəbəçidən 50 kəniz, Qaraqaytaqdan 500 qul və 20 min batman buğda, Kür və Miskincidən 1 4 min batman buğda və 40 min dirhəm, Şirvandan 20 min batman buğda və 50 min dirhəm alırdı. Bütün bu vəsait müəyyən yerdə saxlanılır və [Dərbənd] şəhəri əsgərlərinə maaş verməyə xərclənirdi"[1].

Lakin xərac, cizyə və digər vergi və gəlirlərin miqdarı haqqında bir sıra orta əsr müəlliflərinin verdiyi məlumatm mövcud olmasına baxmayaraq, terminologiyanın qeyri-müəyyənliyi və ya dürüst olmaması Əməvilər dövründə Azərbaycan və Arran torpaqları üzərində qoyulmuş vergilərin məbləğini dürüst hesablamaq mümkün deyildir. Habelə həmin ölkələrdə vergi qoyulmasının dinamikasını və torpaq sahibliyinin xarakterini izləmək mümkün deyildir, çünki Əməvilər dövründəki torpaq sahibliyinin və torpaqdan istifadənin xarakterik cəhətlərini təsvir edən heç bir yerli mənbə hələlik əldə edilməmişdir (halbuki Xilafətin bəzi əyalətlərinin tarixi, kənd təsərrüfatı və sənəti haqqında yazılan əsərlərdə bu cür məlumat vardır, məsələn, Suriya, Təbəristan, Qum və i.a. tarixinə dair mənbələr). Hətta Abbasilər dövründə, tədqiq etdiyimiz ölkələrin öz reyestri yox idi və biz bu barədə yalnız qırıq-qırıq məlumat tapa bilərik. Azərbaycan və Arran haqqında daha ətraflı məlumata yalnız X əsrdən başlayaraq Abbasi xəlifələrinin hökmranlığı dövründəki mənbələrdə təsadüf edilir.

Əməvi hökmranlığının son dövründə, Xilafətin əyalətlərində, xüsusilə Azərbaycan və Arranda belə bir vəziyyət əmələ gəldi ki, ölkədə hər bir hakim öz bildiyi kimi ağalıq edərək, əhalini qarət edib sıxışdırır, var-yoxdan çıxarır və öz əməlləri üçün mərkəzi hakimiyyət qarşısında demək olar, heç bir zaman məsuliyyət daşımırdı. Əməvi xəlifələri və onların yerlərdəki hakimləri əhalidən yalnız vergi qopartmaqla məşğul olur, təkrar istehsalın qeydinə qalmırdılar. Əhali vergi təzyiqinin ağırlığına tab gətirməyərək kütləvi surətdə kəndləri tərk edir, torpaqsız kəndlilər *(sülukların)* sırasını artırırdı. Bu

[1] Dərbəndnamə, səh. 108.

süluklar iri torpaq sahibləri və feodalların yanına muzdurluğa gedirdilər; torpaq sahibləri və feodallar isə kəndlilərin tərk etdiyi bütün torpaqları, demək olar, tutur və ya alıb tədricən öz əllərinə keçirirdilər. Bu proses Azərbaycanda feodalizmin daha da genişlənməsinə və Əməvilərin mövqeyinin zəifləməsinə səbəb oldu, çünki iri feodallar *(mütəcəlliblər)* və torpaq sahibləri daha mərkəzi hakimiyyətin nümayəndələri ilə hesablaşmır və tədricən separatizm göstərməyə başlayırdılar. Lakin Abbasilər hakimiyyət başına gəlincəyədək bu feodalların Xilafətdən ayrılması barəsində danışıq da ola bilməzdi və Azərbaycanda, Arranda bu yolla nadir hallarda edilən belə cəhdlərin qarşısı dərhal Xilafətin silahlı qüvvələri tərəfindən alınırdı. Haşimilərin nümayəndəsi olan Abbasilər Əməvi mövqelərinin zəifləməsindən istifadə edərək siyasi səhnəyə çıxdılar. Abbasilər Xilafətin şimal vilayətlərində Əməvilər əleyhinə geniş fəaliyyətə başladılar və müxtəlif vədlərlə öz tərəfinə çəkdikləri məzlum kütlələrin köməyi ilə 750-ci ildə Əməvi sülaləsini yıxdılar. Lakin Abbasilərin çevrilişi xalqın ağır vəziyyətini yalnız müvəqqəti olaraq yüngülləşdirdi.

Əməvilər öz fəaliyyətində yalnız ərəblərə arxalandıqları halda, 750-ci ildə onları əvəz edən Abbasilər Mövliya [1] silki vasitəsilə, yəni islam dinini qəbul etdiyi halda, Əməvilər dövründə heç bir nüfuza malik olmayan yerli feodallar vasitəsilə təbəələrə rəhbərlik etməyə başladılar.

Lakin Abbasilərin inzibati idarəsi və mahiyyəti etibarilə Əməvilər dövründə olduğu kimi idi. Vergilərin toplanması, yerli özünüidarə, ordu və divanxana qaydaları əvvəlki kimi qalırdı[2].

Abbasilərdən birinci xəlifə olan Əbu-l-Abbas əs-Səffah (750-754) Xilafətin şimal vilayətlərində olan bütün Əməvi məmurlarını işdən çıxarıb öz adamlarını təyin etdi və demək olar, bütün vilayətlərdəki hakimlər ya sülalə və ya saray adamları

---

[1] Mövliya haqqında b a x: И.Ю.Крачковский. Избр. соч., т. I, стр. 194-195

[2] ƏI-Bəlazuri, səh. 329; Əbd əl-Əziz əd-Duri. Əl-əsr əl-Abbasiy əl-əvvəl, səh. 45.

nümayəndələrindən ibarət oldu. Azərbaycan və Arranda Əməvilərin bütün torpaq və mülkləri Abbasilərin əlinə keçdi. Bəlazuri bildirir ki, Marağa, Varsan, Azərbaycanın digər şəhərləri və bunların ətrafında olan torpaqlar "Əməvilərin bütün mülkləri ilə birlikdə müsadirə edildi"[1].

Abbasilərin verdiyi vədlərə baxmayaraq, yeni hakimlərin dövründə Azərbaycan və Arran kəndli kütlələrinin vəziyyəti çox tez bir zamanda Əməvilərin dövründə olduğundan daha da pis oldu. M.Kalankatuklu yazır ki, Abbasilərin hakimiyyət başına keçməsi "bizim vətənimiz Ağvan üçün böyük bədbəxtlik idi, çünki taciklər [yəni ərəblər] öz iyrənc qarətçiliyi üzündən Partav [Bərdə] paytaxtını Ağvan knyazlarından aldılar və öz hökmranlıqlarının keçmiş paytaxtı Suriya Dəməşqində olduğu kimi, indi Ağvan Partavında özlərinə iqamətgah qurmuşlar ki, torpağın bol nemətlərini sorsunlar"[2] .

Əməvilərin dövründə bütün vergilər nağd pulla ödənilirdisə, Abbasilər dövründə vergilərin yalnız bir hissəsi nağd pulla alınırdı. Bu sistem, xüsusilə ikinci Abbasi xəlifəsi əl-Mənsur (754-775) dövründə işə düşmüşdü. Onun vaxtında torpağın əkilib-əkilmədiyindən asılı olmayaraq, xərac nağd pulla torpaq sahəsinə görə (misahə), eynilə hələ Ömər ibn əl-Xəttab tərəfindən qoyulmuş qaydaya əsasən alınırdı[3] . İbn əl-Əsir bildirir ki, əl-Mənsurun vaxtında vergilərin bir hissəsi nağd pulla alınırdı. Əl-Mənsurun dövründəki bu vergi sistemi kəndli kütlələrini mütəşəkkil surətdə qarət etmək şəkli almışdı. Vilayətlərdən vergilərin gəlməsinə nəzarət etməkdə poçt (*bərid*) idarəsinin xüsusi rolu var idi. "Poçt idarəsinin başçısı sahib əl-bərid hər gün məhsulların qiymətləri barəsində məlumat verirdi"[4].

---

[1] Yenə orada.

[2] История Агван, стр. 265/213.

[3] Əl-Mavərdi, səh. 170; İbn Xəllikan. Vafayan əl-Əyan, əl-Qahirə, səh. 277; Əbu Yala. Əl-ehkam əs-sultaniyyə, əl-Qahirə, 1938, səh. 169.

[4] Ət-Təbəri, IX, 314.

Az sonra Azərbaycan əhalisi daha xəlifənin xəzinəsinə nağd pulla vergi ödəmək iqtidarında deyildi, çünki əhalinin əlində nağd sikkə, habelə gümüş və qızıl kifayət qədər deyildi ki, vergi borclarını vermək mümkün olsun"[1].

Gevondun dediyinə görə, əl-Mənsur "zorakılıq və zülmü ilə hamını təngə gətirmiş və hətta ölülərdən də vergi tələb etməklə əhalini dilənçi kökünə salmışdı. O, dul qadınlara və yetim uşaqlara dəhşətli zülm edirdi: keşişlərə, kilsə xadimlərinə hər cür işgəncə verir, biabırcasına döyür, vurur və onlardan ölənlərin adı və ailələri haqqında zorla məlumat yığırdı. O habelə ölkə əhalisini incidərək onlardan dözülməz vergi hesabına adambaşına çoxlu gümüş tələb edirdi və əmr etmişdi ki, hamı boynunda qurğuşun damğa gəzdirsin. Knyaz nəslindən olanlar istər-istəməz ona bəxşiş olaraq at və qatır, gözəl paltar, qızıl və gümüş gətirirdilər ki, əjdahanın ağzını yumsunlar... Abdulla [yəni Mənsur] acgözlüklə istədiyi hər şeydən gözü doyandan sonra, İran və Midiya ölkələrinə gedib Xorasana çatdı, oradan isə Misir və Pentapolisə gedərək Apekə [Afrikaya] ayaq basdı. Lakin o haraya gəlirdisə, oranı qarət edir və hərisliklə hamını tora salırdı; yaşamaq üçün zəruri olan şeyləri də camaatın əlindən alırdı; onun acgözlüyü o dərəcəyə çatmışdı ki, öz xalqı ona "pul atası" ləqəbini vermişdi, çünki - doğrusunu desək - o, pulu Allahdan çox istəyirdi"[2]. Doğrudan da, Mənsur özündən sonra böyük bir miras - 810 milyon dirhəm qoyub getdi[3].

Bəzi müəlliflər, əksinə, belə hesab edirlər ki, əl-Mənsurun hökmranlığı Xilafətin "qızıl dövrü" idi və hər yerdə ucuzluq var idi[4].

Əl-Mənsuru əvəz edən xəlifə Mehdi (775-785) dövründə vergi verənlər silkinin vəziyyəti bir az yüngülləşdi. Mehdinin verdiyi sərəncama görə xərac almaq sistemi dəyişildi. Misahə xəracı – nağd pul vergisi əvəzinə müqasimə xəracı - kənd təsərrüfatı məhsulu ilə

---

[1] Bu barədə b a x: Gevond, səh. 135, 139.

[2] Gevond, səh. 89-90; Asogik, səh. 98-99.

[3] Əl-Məsudi. Muruc, II, 175, 177.

[4] Məhəmməd Dıya. Sitat gətirilən əsəri, səh. 387.

ödənilən vergi tətbiq edildi[1]. Suvarılan torpaqlardan məhsulun yarısı, daliya və kirbə ilə suvarılan yerlərdən məhsulun üçdə biri, dulab ilə suvarılan torpaqlardan məhsulun dörddə biri alınırdı [2]. Lakin Mehdinin dövründə meyvə ağaclarına, zeytun bağlarına və üzümlüklərə xərac qoyuldu. Bu ağır vergi idi və əl-Cahşiyarinin dediyinə görə, "təbəələrin əzabını artırdı"[3].

Gevond qeyd edir ki, "Mehdi atasından daha alicənab və xasiyyəti daha yaxşı idi. O, günahkar atası Abdullanın qıfıl altında saxladığı xəzinənin ağzını açıb, öz əsgərlərinə hədiyyələr payladı; sərhədlərdəki qarovulxanaları aradan qaldırdı ki, tacirlərə daha çox sərbəstlik verilsin və ehtiyacı olanlar razı salınsın. Yer üzərində yenidən bolluq əmələ gəldi, gümüş çıxarılması artdı və əhali zorakı vergilərdən xilas oldu. O, vergi boyunduruğunu artırmış olsa da, gümüş çıxarılmasının çoxalması nəticəsində ölkə yoxsul vəziyyətdən xilas oldu. Onun hökmranlığı günlərində sikkəxanalarda əhalinin ehtiyacı üçün saf gümüşdən pul kəsməyə başladılar"[4].

Sonrakı Abbasilərdən "ən pis, ən qatı və qəddar"[5] Musa əl-Hadinin qısa hökmranlığı dövründə (785-786) Azərbaycan, Arran və Ermənistan ərazisində baş verən üsyanları yalnız xəlifə Harun ər-Rəşid (786-809) dövründə yatırtmaq mümkün oldu[6]. Harun ər-Rəşid öz xəlifəliyinin əvvəllərində, bu ölkələrin hakimi Yəzid ibn Mezyədi vəzifədən kənar etdi (788)[7]. Lakin bundan sonra burada on il ərzində 15-dən çox hakim dəyişdi, nəhayət, Harun 799-cu ildə yenidən həmin Yəzidi bu ölkələrin hakimi vəzifəsinə təyin etməyə məcbur

---

[1] Əl-Bəlazuri, səh. 280-281.

[2] Əl-Mavərdi, səh. 168, 171. D a l i y a, d u l a b –suvarma çarxları növləridir, bu çarxlar vasitəsi ilə suvarılan sahədir. K i r b ə (cəmi kirab) su tuluğudur.

[3] Əl-Cahşiyari, səh. 142-143.

[4] Gevond, səh. 107.

[5] Yenə orada, səh. 112.

[6] Əl-Yəqubi, II, 515.

[7] V.Minorsky. A History of Shirvan and Darband, p. 1 (ar.).

oldu; Yəzid isə ömrünün axırınadək, 801-ci ilə qədər bu vəzifədə qaldı[1].

Xəlifə Harun ər-Rəşidin son dərəcə qəddarlıqla məşhur olan hökmranlığı xalq kütlələrinin narazılığına və Xilafətə qarşı xalq üsyanlarının tez-tez baş verməsinə səbəb oldu. M.Kalankatuklu yazır ki, "o bizim ölkəyə çox əzab-əziyyət verdi"[2]. Onın dövründə vergi təzyiqi yenidən gücləndi. Azərbaycan və Arran əhalisindən alınan müxtəlif vergi məbləği hədsiz dərəcədə artdı. Hakimlər heç bir şey ilə hesablaşmadan xalqı qarət edirdilər. Harunun dövründə xristian əhalisi üzərində qoyulan vergi xüsusilə çox ağır idi, buna görə də əhali öz evləri və tarlalarını tərk edərək şəhərlərə köçürdü; ərəb feodalları isə bundan istifadə edərək, qaçan adamların mülkiyyətini mənimsəyirdilər[3].

Bu hakimlərdən biri olan Süleyman ibn Bərməkin (?) [4] dövründə canişinlərin iqamətgahı 789-cu ildə qəti olaraq Bərdəyə keçirildi. Bu dövrdə ucqar ərəb və xristian əmirlik və knyazlıqlarının separatizmi xüsusilə gücləndi. Süleyman adamların üzərinə elə dözülməz vergi yükü qoydu ki, əhali var-yoxunu verəndən sonra da onun zülmündən yaxa qurtara bilmirdi"[5].

Azərbaycan, Arran, Muğan və digər vilayətlərdən yığılan xəracın məbləği haqqında əldə etdiyimiz ilk məlumat yalnız xəlifə Harun ər-Rəşidin hökmranlığı dövrünə aiddir. Azərbaycandan ildə 4 milyon dirhəm, Muğan və Karxanın hərəsindən 300 min dirhəm alınırdı[6]. Harunun hökmranlığı dövründə xəlifə xəzinəsinin bütün gəliri

---

[1] Yenə orada.

[2] История Агван, стр. 236/189.

[3] A.Tritton, op, cit. p. 210-211.

[4] Р.Р.Фасмер. Хронология наместников Армении при первых Аббасидах, т. 1, Л., 1925, стр. 399) Süleyman adından sonra sual işarəsi qoyur.

[5] Gevond, səh. 115.

[6] Əl-Cahişiyari, səh. 287; İbn Xəldun. Müqəddimə, səh. 157.

gəliri ildə 530312 min dirhəm idi. Harun öləndən sonra xəlifə xəzinəsində 900 milyon dirhəm pul var idi"[1].

Xəlifə Harunun dövründə vergiverən silkə edilən zülm o qədər ağırlaşmışdı ki, o zaman yaşamış hüquqşünas Əbu Yusif xəlifə üçün xüsusi olaraq "Xərac haqqında kitab" *("Kitab əl-Xərac"}* yazmışdı [2]. Bu əsər o qədər əhəmiyyətlidir ki, orada verilən məlumatdan istifadə etmədən o dövrdəki Xilafətin sosial-iqtisadi tarixini öyrənməyin mümkün olduğunu təsəvvür etmək çətindir. A.Y.Yakubovski qeyd edir ki, "bu kitabın bəzi səhifələrindəki material o qədər qiymətlidir ki, bu səhifələr, demək olar, sənədli mənbələrə yaxındır"[3].

Əbu Yusifin kitabında vergi sistemində, bilavasitə istehsalçılardan məhsulla vergi almaq sahəsində və sairədə Xilafətin öz mənafeyini necə qoruduğu barədə çoxlu məlumat vardır. "Kitab əl-Xərac" əsərini oxuyarkən vergiyığanların vergiverənlər silkinə etdiyi zülm və verdiyi əziyyət haqqında ermənicə yazan və yunan müəlliflərinin verdiyi məlumatın doğru olduğuna yəqinlik hasil edirsən. Əbu Yusif göstərir ki, çox vaxt əyalətlərin hakimləri bir adamdan tələb olunan xərc həddini aşan "bir məbləğ" təyin edirdilər; vergi ödəyən şəxs bu artırılmış məbləği vermək iqtidarında olmadıqda onu döyür, sıxışdırırdılar, onun inəkləri və davarını aparırdılar"[4]. O, əhalidən vergi və qalıqların alınması qaydalarını çox çox gözəl təsvir edir: "Cizyə verməyə məcbur etmək məqsədilə zimmilərdən heç birini döymək olmaz. Onları [bu məqsədlə] günün altında saxlamaq və ya başqa [cəzalar] vermək olmaz, ya da onların üzərindən nifrət doğura biləcək şeylər asmaq olmaz" [5]. (Vergi

---

[1] Ət-Təbəri, III, 764.

[2] Əbu Yusif Yəqub. Xərac haqqında kitab, səh. 172-175 (sonralar - Əbu Yusif).

[3] А.Ю.Якубовский. Об испольных арендах в Ираке в VIII в., стр. 177.

[4] Əbu Yusif, səh. 117.

[5] Yenə orada, səh. 208.

yığarkən adamları qızrnar günəş altında saxlayar və başlarına yağ tökərdilər)[1].

Kəndlinin vergi məbləğini vergi məmuruna verməsi üçün ərəblər təhqiredici bir mərasim uydurmuşdular; hakimlərin fıkrincə, bu mərasim tabe ölkələrin əhalisinə nisbətən ərəblərin qüdrəti və hakim vəziyyətdə olduqlarının simvolu olmalı idi. "Zimmilər [vergi] ödəmək təyin edilən gün şəxsən, cizyə almağa məmur edilən əmirin yanına gəlməli idilər. Əmir uca bir taxtın üstündə oturardı. Zimmi verəcəyi vergi məbləğini açıq ovcu içərisində saxladığı halda əmirə yanaşardı, Əmir bu məbləği elə götürərdi ki, əli vergi ödəyən şəxsin ovcunun üstündə [onun üzərində] olardı, zimminin əli isə altda qalardı. Sonra əmir onun peysərinə şillə vurardı, əmirin əlaltılarından biri isə onu kobud hərəkətlə qapıdan qovardı. Camaata, bütün bunlara tamaşa etməyə icazə verərdilər"[2]. Əbu Yusif xəlifə Harun ər-Rəşidə məsləhət görüb deyir ki, "xərac üçün dirhəm verən şəxs heç bir vəchlə döyülə bilməz və onu cəza olaraq ayaq üstə saxlamaq olmaz. Vergi toplayanlar xərac verənləri məcbur edirlər ki, günün altında qalsınlar, onları bərk döyürlər, onların boynundan səhəng asırlar; onları elə bağlayırlar ki, öz dini ayinlərini icra edə bilməsinlər"[3].

Xilafətdə kəndli kütlələrini istismar etmək formaları arasında yardarlıq icarəsi xüsusi yer tuturdu. Torpaq sahibləri torpağı xırda sahələrə bölür və bunları yardarlıq icarə şərtləri - müzaraə, müsqət, qəbalə və i.a. əsasında yardarlara verirdilər. Yardarlara akkar, şərik[4], amil, münasif və i.a. deyirdilər. Torpaq məhsulun 1/6 və 1/7 hissəsinə müqabil icarəyə ötürülürdü.

Kəndlilərin ağır vəziyyəti Harun ər-Rəşid dövründə, xüsusilə inkişaf edən iltizam sisteminin Xilafətdə genişlənməsi nəticəsində

---

[1] Yenə orada, səh. 212-213.

[2] Müqayisə et: V.Girkas. Sitat gətirilən əsəri, səh. 34.

[3] Əbu Yusif, səh. 180.

[4] Ət-Təbəri, III, 1222. Burada Babəkin şərik əkinçi Səhl ibn Sumbat ilə görüşü təsvir olunur.

daha da ağırlaşırdı. Bu sistem Avropa ölkələrindəki benefisiya sistemini xatırladırdı. Lakin Xilafətdəki iltizam sistemi elə eybəcər şəkil almışdı ki, iltizamçılar öz hakimiyyətindən sui-istifadə edərək, heç bir şeylə hesablaşmır və vergi ödəyənlər silkini lap qarət edirdilər. İltizamçıların qanunsuz hərəkətləri o qədər kobud idi ki, Əbu Yusif Haruna müraciət edərək, ona belə məsləhət görür: "Nə Səvadın hər hansı bir hissəsinin [vergisinin], nə də başqa bir vilayətin [vergisini] iltizama vermək lazım deyil. İltizamçı iltizam məbləğindən çox artıq yığmaq üçün buna yalnız rəiyyətlə rəhmsiz rəftar etmək, onları bərk döymək, qızmar günəş altında saxlamaq, boyunlarından daş asmaq, onlara əzab, işgəncə vermək yolu ilə nail ola bilər, buna görə də xərac verənlər, ödəməli olmadıqları şeyləri verdikləri üçün var-yoxdan çıxırlar"[1].

Əbu Yusif xəlifənin diqqətini xüsusilə vergiyığanlara cəlb edir, çünki xəlifə xəzinəsinin dolması bu məmurların bacarıqlı və namuslu olmasından asılı idi. O belə hesab edir ki, xərac yığan "qanunşünas, bilici, mötəbər adamlara məsləhət edən, qüsursuz" olmalıdır, xərac yığmağı düz və etibarlı adamlara tapşırmaq lazımdır. Çox vaxt vergiyığanları bir çox elə adamlar əhatə edir ki vergiverənlər hesabına varlanmağa can atırlar, buna görə Əbu Yusif qeyd edir: "Vergiyığanı və hakimi əhatə edən şəxslər içərisində elə adamlar vardır ki, onun himayəsindən istifadə edir, ya da dostu və tanışıdırlar; bu adamlar doğru danışan və düz olmadıqları halda, hakim onları özünə tabe olan mahallara göndərir və bu yolla [xərac verənlərdən] öz vəzifələrini yerinə yetirməyi tələb edir, Bu adamların bütün fikri ona yönəlmişdir ki, istər xəracdan, istərsə də, təbəələrin əmlakından bir şey qopardıb özləri üçün mənimsəsinlər, həm də eşitdiyimə görə, onlar bu məqsədlə zorakılığa, ədalətsizlik və zülmə əl atırlar. Sonra, hakim və onun ətrafındakılar bir kəndə gedəndə, kənd əhalisindən həmişə tələb edirlər ki, onları yedirib-içirtsinlər,

---

[1] ƏbuYusif, səh. 171.

halbuki nə əhalinin buna gücü çatır, nə də bu, onların borcudur; nəhayət, əhalini buna məcbur edir və ona ziyan verirlər"[1].

Xilafətin əsaslandığı xərac sistemi təkcə xəlifə xəzinəsinin baş gəlir mənbəyi deyil, həmçinin Xilafətdə "feodal münasibətlərinin sonrakı inkişafını təmin edən kanallardan"[2] biri idi.

Misahə xəracından başqa, xəracın digər növləri də var idi; pul və ya məhsulla, yaxud həm pul, həm də məhsulla alınan mühasibə xəracı, əkin məhsulundan məhsulla alınan müqasimə: dövlət ilə şəxsiyyət arasındakı münasibətlə müəyyən edilən xərclərə (məxaricə) görə alınan muqatla sultanın (xəlifənin) torpaqları axırıncı kateqoriyaya daxil idi.

Sonralar xərac sistemindən benefisiyanın Şərq forması - iqta əmələ gəldi ki, bu da Səlcuqilər dövləti dağılan zaman feoda çevrildi. Harun ər-Rəşidin hökmranlığında cizyə ildə bir dəfə kişilərdən alınırdı, həm də bunun üçün əhalidən puldan başqa, daşınan əmlak, məsələn, qoşqu heyvanı, müxalifat və i.a. qəbul olunurdu. Heç kəsin haqqı yox idi ki, zimmiləri cizyədən azad etsin, çünki "nə qədər ki, zimmilər cizyəni öz əlləri ilə verməmişlər, təhqir olunacaqlar"[3], bu isə ərəblərin vergi ödəyən silkə münasibətlərində əsas prinsipi təşkil edirdi.

Əbu Yusif vergi ödəyən silkin vəziyyətini yüngülləşdirmək mənasında, sanki xeyirxah məsləbətlər verməsinə baxmayaraq, xəlifə Haruna təklif edir ki, vergi yığmaq mərasimini vergi ödəyən silk üçün təhqiredici şəklə salsın: "Onlardan [zimmilərdən] can vergisi yığanda onların hamısı yoxlanmayınca, boyunlarından [qurğuşun] damğa asmaq lazımdır"[4]. Bununla bərabər, Əbu Yusif xəlifəyə məsləhət görür ki, zimmiləri əsir alınmaqdan qorusun, onları sıxışdırmaq, onlara ziyan vurmaq və onların əmlakını mənimsəmək

---

[1] Əbu Yusif, səh. 176.

[2] А.Ю.Якубовский. Об испольных арендах в Ираке в VIII в., СВ, т. IV, 1947, стр. 180.

[3] Quran, IX, səh. 29.

[4] ƏbuYusif, səh. 216.

müsəlmanlara qadağan olunsun, habelə Xilafətin bağladığı müqavilələrə görə zimmilər qarşısında öz öhdəsinə götürdüyü şərtlərə riayət etsin, çünki "nə qədər ki, müsəlmanlar yaşayırlar, onların [zimmilərin] hesabına yaşayırlar, biz həlak olanda isə onlar da həlak olacaqlar, bizim uşaqlarımız onların uşaqları hesabına yaşayacaqlar və bu hal əsrlər boyu davam edəcəkdir; nə qədər ki, islam dini yaşayır, onlar da islam dinini qəbul edənlərin qulu olacaqlar"[1].

Təsvir edilən dövrdə Arran əhalisinə (zimmilərə), habelə Azərbaycan kəndlilərinə yarıtəhqirli "uluc" *(əlac)* - qanmaz ləqəbi verilmişdi. Heç bir zimmiyə icazə verilmirdi ki, müsəlmanlar kimi geyinsin və ata minsin.

Beləliklə, IX əsrin hüquqşünası Əbu Yusifin dediklərindən aydındır ki, tədqiq etdiyimiz ölkələrin əkinçi əhalisi ərəblərin istilasına məruz qaldıqdan sonra öz azadlığını tamamilə itirmiş və ərəblərin hakimiyyətindən asılı bir vəziyyətə düşmüşdü; bütün əkinçilər, boyunlarından damğa asılan adamların cərgəsinə düşmüşdülər. İstilaçı ərəblər tutduqları ölkələrin yuxarı feodal təbəqəsi ilə çox tez ümumi dil tapdıqlarına baxmayaraq, həmişə özlərini xüsusi şəraitdə olanlar kimi hesab edirdilər.

Xilafət güclü xərac sistemi üzərində dayanırdı, çünki xəlifənin mülkiyyəti hesab edilən bütün torpaqlar xərac torpaqları idi və Bağdaddakı mərkəzi xərac divanında, habelə əyalətlərin divanlarında[2] qeyd olunurdu, onun gəliri isə xəlifə xəzinəsinə beyt ülmal daxil olurdu. Xəlifələr vergi ödəyən silklərdən verginin alınmasına böyük cidd-cəhd göstərirdilər, buna görə də məmurlar var qüvvə ilə diqqət yetirirdilər ki, kənd təsərrüfatı istehsalçıları vergini verməzdən əvvəl məhsuldan istifadə etməsinlər. Əbu Yusif kitabında xəlifəyə çox maraqlı bir məsləhət vardır: "Ey möminlərin hökmdarı, əmr ver, taxıl yetişən gün onu biçib döysünlər və taxıl biçilib qurtardıqdan sonra onu saxlamayıb döymək üçün lazım olan vaxtı

[1] Yenə orada, səh. 242.

[2] Əl-Kəlkəşəndi, XIV, səh. 134.

gecikdirməsinlər. Taxılı döymək mümkün olanda, onu xırman meydaçasına aparmaq lazımdır və döymək imkanı müəyyən olan kimi taxılı bir gün də saxlamamalı, yoxsa onu əkinçilər, yoldan keçənlər oğurlayar, quşlar və heyvanlar yeyərlər. Belə olarsa, bu, taxılın sahibinə [əkinçiyə] deyil, xəraca ziyan yetirər, çünki mənim eşitdiyimə görə, əkinçilər, taxıl hələ sünbül ikən, taxılın biçilməsi ilə onun [dövlət və əkinçi arasında] bölüşdürülməsinədək keçən bütün müddət ərzində, yemək üçün ondan istifadə edirlər. Taxılı [sünbül halında] tarlalarda və xırmanda saxlamaq xəraca ziyan gətirir. Taxıl xırman meydançasına gətirilib yığılan kimi, onu dərhal döyməyə başlamaq lazımdır ki, taxıl saxlanmasın. Taxıl xırmanda bir, iki, ya də üç ay saxlanılanda, bu həm dövlətə, həm də xərac verənə zərər vurur, bunun nəticəsində isə [ölkənin] tərəqqisində və əkinçilikdə lənglik əmələ gəlir"[1]. Sonra məsləhət görülür ki, xərac yığanlar taxıl döyüləndən sonra onu dərhal ölçüb bölməlidirlər, həm da bölgüdən sonra xəlifə xəzinəsinə daxil olan xərac hissəsi dərhal daşınıb aparılmalıdır, yoxsa taxıl oğurlanar və vergi ödəyənlərlə anlaşılmazlıq əmələ gələr. Xilafətdəki torpaqlar beş əsas kateqoriyaya bölünürdü:

1. Sultan (xəlifə) mülkləri *(diya əs-sultaniyyə)*
2. İqta torpaqları[2]
3. Mülk torpaqları
4. Vəqf torpaqları
5. İcma torpaqları

**1. Sultan torpaqları** əməvilərdən Abbasilərə keçmişdi[3]. Bu torpaqlar alğı yolu ilə, ya da ölən, yaxud vəzifədən kənar edilən məmurların mülklərini müsadirə etmək yolu ilə tədricən artırdı.

---

[1] Əbu Yusif, səh. 178-180.

[2] Iqta haqqında ətraflı məlumat üçün b a x: F.Lökkegaard. Islamic Taxation in the Classic Period, 1950, p. 1.

[3] Kudama, BGA, VI, səh. 241; əl-Çahşiyari, səh. 90.

Çox geniş olub böyük gəlir verən sultan torpaqlarını idarə etmək üçün bir neçə divan yaradılmışdı[1].

**2. İqta torpaqları.** Becərilən torpaqların əksəriyyəti bu kateqoriyaya daxil idi. Əl-Xorəzmi (997-ci ildə vəfat etmişdir) bu kateqoriya haqqında belə deyir: "Sultan [xəlifə] adama torpaq verir və həmin torpaq üzərində nəzarəti ona tapşırır"[2], yəni torpaq iqta sahibinin mülkü olurdu. Lakin sahiblik hüququna həmişə riayət edilmirdi və qeyd olunduğu kimi, iqta geri alınıb, yenidən xüsusi divana verilə bilərdi[3]. Formal olaraq xəlifə təkcə xass torpaqlardan iqta bağışlaya bilməzdi[4], lakin çox vaxt buna riayət edilmirdi[5]. İqta sahibləri hərbi mükəlləfiyyət daşımırdılar, lakin bunun əvəzinə vergi verirdilər[6]. Onlar öz torpaqlarında olan kanal, yol və körpüləri təmir etməyi öhdələrinə götürmüşdülər[7]. İqta torpaqları nəzəri cəhətdən iki iki kateqoriyaya bölünürdü ki, bu da iqta torpağına hansı hüquqa görə sahib olmaqdan asılı idi.

B a ğ ı ş l a n a n i q t a (təmlik) şəxsin tam sahibliyinə çevrilirdi və irs olaraq keçirdi. Bu iqta sahibi üşr verirdi. Bu növ iqta, adətən, becərilməyən torpaqlardan, ya da sahibi ölmüş və vərəsəsi olmayan torpaqlardan verilirdi[8].

İ c a r ə e d i l ə n i q t a (icarə) irsən keçmirdi. Adətən, hərbçilərə verilirdi. Xərac torpaqları da bunların sırasında idi[9].

---

1 İbn Miskəveyh, I, səh. 152.

2 Əl-Xorezmi. Mafatih əl-ülum. Leyden, 1895, səh. 39.

3 Arib, səh. 145.

4 Əl-Mavərdi, səh. 183.

5 İbn Miskəveyh, I, səh. 136.

6 Əl-Kəlkəşəndi, XIII, səh. 139-143.

7 Əl-Yaqut, IV, səh. 849-850; Hilal əs-Sabi. Tuhfat əl-umara bi-tarix əl-vüzara, Beyrut, 1904, səh. 254.

8 Əl-Kəlkəşəndi, XIII, səh. 115-116; əl-Mavərdi, səh. 186-187; İbn əl-Cauzi, səh. 60.

9 Əl-Kəlkəşəndi, XIII, səh. 115-116; əl-Mavərdi, səh. 179.

İqta növləri felən onun sahibinin vəziyyətindən asılı idi; buna əsasən onun aşağıdakı növlərindən bəhs edə bilərik: l) mülki (şəxsi) iqta, 2) xüsusi (xass) iqta, 3) hərbi iqta, 4) xəlifə iqtası.

M ü l k i  i q t a çox geniş yayılmışdı və maaşlarından asılı olaraq məmurlara verilirdi. Məsələn, birisi yüksək bir vəzifəyə təyin olunurdusa, ona iqta verilirdi, lakin o, vəzifədən çıxarılanda, iqta ondan geri alınır və onun yerinə keçən şəxsə verilirdi[1].

X ü s u s i  i q t a  şairlərdən başqa, xüsusi bir xidməti və ya xüsusi istedadı olan şəxslərə verilirdi. Onun sahibləri torpağın tam sahibi olub, onu irs olaraq verə bilərdi. Abbasilər xilafətində bütöv vilayətlərin bağışlandığı müşahidə olunmuşdu. Məsələn, Babək üsyanı darmadağın edildikdən sonra xəlifə Mötəsim belə bir iqta adı ilə Azərbaycan, Arran və Ermənistanı Afşinə vermişdi[2]. Xəlifə Mütəvəkkil 851-ci ildə Məhəmməd ibn Xalid ibn Yəzid ibn Məzyədə belə bir iqta bəxş edərək, Bab əl-Əbvab şəhərini ətraf vilayətləri ilə birlikdə ona vermişdi[3]. Gəncə şəhəri "Xalidiyyə adlanan məşhur malikanələrlə birlikdə" yenə ona bəxş edilmişdi[4].

Herik saxlanan torpaq bu növ iqtaya daxil idi. Torpaq sahibi onu  becərmək üçün kəndlilərə icarəyə verir, onları toxum, kənd təsərrüfatı alətləri və suvarma vasitələri ilə təchiz edirdi. Şəxsən özü hər il xəzinəyə müəyyən məbləğ pul verirdi, əvəzində isə torpağa nəzarət etmək və onu irs olaraq vermək hüququna malik idi. Bu cür iqta sahibləri başqa vergilərdən azad idilər[5].

---

[1] İbn Miskeveyh, I, səh. 33, 155; ət-Tənuhi. Əl-Forəc bəd əş-şiddə, c. I əl-Qahirə, 1904, səh. 137; Əbu Ishaq əs-Sabi. Rəsa-il əs-Sabi, c. I, Lübain, 1898,səh.23.

[2] V.Minorski. Füsul min tarix əl-Bab və Şirvan, səh. 2.

[3] Yenə orada, səh. 3.

[4] Yenə orada, səh. 4; əl-Bəlazuri (səh. 210), onun əsərində "Həsəniyyə" malikalərindən danışılır.

[5] Əl-Kəlkəşəndi, XIII, səh. 131-132, 139-143.

H ə r b i  i q t a başqa torpaq növləri-xass iqta, xəlifə malikanələri və xəzinə torpaqları hesabına verilirdi[1]. Qoşuna vəqf torpaqlarından iqta verilirdi. Hərbi iqta irsən də həmişəlik verilmirdi, bu iqta sahibinin mülkiyyəti deyildi[2].

Hüquqşünas Əbu Yusif iqtanı satın alına bilən, satıla bilən və irs olaraq verilən bir əmlak kimi başa düşür. İqta torpağını irs olaraq və ya pul ilə əldə etmiş olan şəxsdən onu geri almağa heç kəsin ixtiyarı yox idi[3].

Xəlifə Harun ər-Rəşidin dövründə iqta təsisatı əslində yeni qoyulmuşdu və qərarlaşma prosesində idi. Bu təsisat yalnız sonrakı əsrlərdə - X və XIII əsrlər arasında inkişaf edərək tədriclə benefesiyadan irsi lenə keçmişdir[4]. Harunun hökmranlığı dövründə iqta hələ rentanın - verginin müəyyən hissəsini almaq hüququ deyildi. "Mərkəzi hökumət tərəfindən renta - verginin alınması və hakim siniflərin nümayəndələri arasında onun bölüşdürülməsi torpağın (iqta) hərbi və mülki xidmətlərə görə bağışlanması ilə əvəz olmağa başlayır. Kəndlilərin yaşadığı torpaqların bu cür bağışlanması (iqta) hakim siniflərin kəndliləri təhkim etməyə böyük cidd-cəhd göstərmələrinə səbəb olur"[5].

VIII əsrin birinci yarısında iqta sadəcə torpaq sahəsinin xüsusi mülkiyyət üçün bağışlanması demək idi, sonrakı (XII əsr və daha sonra) iqta şəklini Əməvilər və qismən Abbasilər xilafəti (hər halda Harun ər-Rəşidədək) dövrünə şamil etmək əsaslandırılmış hesab edilə bilməz[6].

---

[1] İbn Miskəveyh, II, səh. 97; III, səh. 72-77; İbn əl-Əsir, VIII, səh. 342-343.

[2] Əs-Sabi, səh. 498.

[3] Əbu Yusif, səh. 72.

[4] Cl.Cahen. L'evolution..., p. 25-52.

[5] Е.А.Беляев. Ислам и арабский халифат VII-IX вв., стр. 68.

[6] Azərbaycan tarixi, səh. 111.

Abbasilərin dövründə iqta sahibi "muqta" adlanırdı və "iqtadar" formasını yalnız XI əsrdən başlayaraq işlətmək olar[1]. Y.A.Belyayevin qeyd etdiyi kimi, "iqta sisteminin tətbiqi Abbasilər dövlətinin siyasi cəhətdən dağılması ilə bir zamanda baş vermişdi"[2].

**3. Mülk torpaqları.** Torpaq üzərində müxtəlif növ ayrıca sahib lik var idi. Onlardan biri müxtəlif şəxslərə və icmalara bağışlanan xəlifə iqtası idi[3]. Bu, əl-Mavərdinin "iqta təmlik" adlandırdığı torpaqlardır[4]. Mavat torpaqlarının canlanması, mərkəzi hökumətin həvəsləndirilməsi və köməyi ilə bataqlıqların qurudulması və bu torpaqların əkilməsi həmin torpaq sahiblərinə tam sahiblik hüququ verirdi. Mülk torpaqlarının digər bir mənbəyi budur[5]. Həmin kateqoriyadan olan torpaqların digər bir mənbəyi dövlət torpaqlarının satın alınması idi. Məmurlar və vəsaiti olan digər şəxslər özləri üçün xəlifə mülklərini (dövlət torpaqlarını) əldə edir və bu torpaqların daimi sahibi olaraq ondan nisbətən sabit gəlir götürürdülər[6].

Həmin kateqoriyadan olan torpaqların sahibləri əlavə vergi verməli və öz torpaqlarından keçən kanalları bərpa etmək xərcini öz üzərlərinə götürməli idilər[7]. Mülk kateqoriyası Xilafətdə onun təşkilinin ilk günlərindən mövcud idi. Mülk torpaqlarını alıb-satmaq, özgəninkiləşdirmək və irs olaraq vermək olardı. Bu torpaqların sahibləri hərbi xidmətdə olmurdular.

**4. Vəqf torpaqları.** Bu, torpaq mülkiyyətinin əsas növlərindən biridir. Vəqf dedikdə, təsisatlara təhkim edilən torpaq mülkləri

---

[1] Yenə orada.

[2] Е.А.Беляев. Ислам и арабский халифат VII-IX вв., стр. 68.

[3] C.Zeydan, II, 35 və sonrakılar; T.Weillhausen. Das Arabis che Reich und seine Sturz. Berlin, 1927, p. 267-311; əl-Qasim ibn Salam. Əl-Əmval, əl-Qahirə, 1353 h., səh. 161.

[4] Əl-Mavərdi, səh. 176-177.

[5] İbn Miskəveyh, II, səh. 88, Kudama, səh. 241; əl-Mavərdi, səh. 173.

[6] İbn Miskəveyh, I, səh. 353-354; ət-Tanuhi, I, səh. 93.

[7] Ət-Təbəri, III, səh. 2153; əs-Sabi, səh. 252.

nəzərdə tutulur. Bu torpaqlar müqəddəs yerlər (Məkkə və Mədinə) üçün, qazilər ["din uğrunda mübarizlər"], məscid və qalalar tikmək və başqa ehtiyaclar üçün ayrılırdı[1]. Bu torpaqların içərisində zorla tutulanlar, yəni əvvəlki sahiblərinin əlində saxlanmasından, ya da digər kafırlərə (zimmilərə) verilməsindən asılı olmayaraq, müsəlmanlar arasında bölünməyənlər, habelə dinc yolla əldə edilmiş torpaqlar da var idi. Qanunşünas İbrahim Hələbi bu barədə belə deyir: "Sonrakı qanunşünaslardan bəziləri qət etdilər ki, sülh müqaviləsi əsasında əldə edilən vilayətlərdə, habelə silah gücünə tutulanlarda əhali üçün saxlanan torpaqlar nə desyatin, nə də xərac alınan torpaqlara məxsus deyildir. Bunlar dövlət torpaqları [ərz-i-malikiyyə], ya da xəzinə torpaqları [ərz-i əmiriyyə] adlanır və əhalinin mülkiyyətinə verilməyərək, beyt ül-mal (xəzinə) üçün saxlanmış, sonra qanunsuz icarə yolu ilə icarəyə verilmişdir ki, torpaq sahibləri bunları becərib proporsiyalı xərac [müqasimə] versinlər, bu isə hamıya üşr adı ilə məlumdur. Bu kimi torpaqlar onların sahibinin mülkiyyətini təşkil etmir: onlar nə bu torpaqları sata bilər, nə ala bilər, nə bağışlaya bilə, nə də vəqf edə bilərlər, yalnız bircə Sultan [yəni xəlifə] torpaq sabibinə mülkiyyət hüququ [ille bitəmlik əs-Sultan] verə bilər. Torpaq sahiblərindən biri öləndə, onun oğlu atasının yerini tutur və yuxarıda deyilənlərə əsasən torpaqdan istifadə edir, əks-təqdirdə onun əlində olan torpaq beyt ül-mala qaytarılır. Əgər birinin qızı və ya qardaşı qalarsa və bunlar vəfat etmiş adamın istifadə etdiyi torpağı tələb edərlərsə, bu torpaq qanunsuz icarəyə [biicarə fasidə] verilmiş olur; vergi verilən torpaqdan istifadə edən şəxs, torpağın fərqli olmasından asılı olaraq üç il, ya daha artıq müddət ərzində onu becərməzsə, torpaq ondan alınıb başqasına verilir. Torpaq sahiblərindən biri öz torpağını başqasına vermək istəsə, bu arzusunu yalnız sultanın icazəsi ilə icra edə bilər"[2]. V.Girkas qeyd etdiyi kimi, bu təfərrüat bir daha belə bir

---

[1] İbn əl-Əsir, VIII, səh. 182; əl-Fəxri, səh. 364; əs-Sala, səh 286.

[2] İbrahim Hələbi. Məcmə əl-ənhar. V.Girkasdan sitat gətirilmişdir, səh. 20

faktı təsdiq edir ki, ərəblərin hakimiyyətinə tabe edilən vilayət və şəhərlərin torpaqları vəqfə verilirdi. Vəqf isə "Allahın mülkiyyətidir" və adamlar bu mülkiyyətdən ancaq istifadə edə bilərdilər, lakin onların bunun üzərində heç bir şəxsi hüquqları yox idi. Bir vaxt bütün Azərbaycan vəqf torpağı hesab olunurdu, çünki bu ölkə zorla tutulmuşdu[1]. Sülh müqaviləsi əsasında müsəlmanların əlinə keçən torpaqlar da sonralar daimi vəqf olmuşdu[2].

**5. İcma torpaqları.** Kəndlərdə əhaliyə məxsus torpaqlar, biçənəklər, mal-qara otarılan, yanacaq toplanan yerlər, qəbiristanlıq və i.a. icma torpaqları idi.

Xərac və cizyədən başqa Xilafətdə başqa vergilər də var idi:

X ü m s - zəkatdan, yəni "islamdan əvvəlki vergilərdən gizlədilmiş hesab edilən bütün əmlakdan"[3], mədənlərdən - "qızıl və gümüş mədənlərindən"[4], kafırlərə qarşı vuruşmalarda tutulub qul halına salınan əsirlər də daxil olmaqla qənimətdən, əsir qadın və uşaqlardan, habelə daşınan əmlakdan alınırdı[5].

Z ə k a t v ə ya s ə d ə q ə mal-qaradan alınırdı: Dəvədən - 4-dən 9 başa qədər dəvədən 6 aylıq bir köşə, ya da birillik iki keçi; 10-dan 14 başa qədərdən 2 quzu; 15-dən 19 başa qədərdən 3 qoyun və i.a. alınırdı. İnək və camışdan - 30-dan 39 başa qədərdən 6 aylıq bir qara-mal; 40-dan 50 başa qədərdən 2 baş qaramal və i.a. alınırdı.Qoyundan - 40-dan 120 başa qədərdən bir quzu, ya da 2 keçi; 121-dən 199 başa qədərdən 2 quzu; 200-dən 399 başa qədərdən 3 qoyun və i.a. alınmırdı[6].

---

[1] Əl-Mavərdi, səh. 132.

[2] Yenə orada, səh. 133,

[3] Yenə orada, səh. 126.

[4] Yenə orada, səh. 116.

[5] Yenə orada, səh. 123-124.

[6] Əbu Yusif, səh. 132; əl-Mavərdi, səh. 110-111.

Əkin və meyvədən - təbii suvarılan sahələrdən onda bir, süni suvarma sahələrindən iyirmidə bir alınırdı, bu da məhsul çəkiləndən sonra[1].

Qızıl və gümüşdən - 200 dirhəmdən çox olan məbləğdən və 20 Misqal qızıl və gümüşdən - məbləğin qırxdan biri, ya da onun dəyəri alınırdı[2].

Müsəlman olmayan tacirlərdən alınan vergi iki cür idi: zimmilərdən ildə bir dəfə tacirin əmtəəsinin dəyəri 200 dirhəmdən artıq olardısa, bu dəyərin 1/10-i alınırdı[3]. Xilafətdən kənar ölkələrdən gələn tacirlərdən əmtəələrinin dəyəri 200 dirhəmdən artıq olarsa, bu dəyərin 1/10-i alınırdı[4]. Şirvanda (Bakıda) bütün bunlardan başqa neft mənbələri və duz mədənləri üzərinə vergi qoyulmuşdu. Hələ xəlifə Mənsurun dövründə Azərbaycan hakimi Yəzid ibn Useyd "öz adamlarını Şirvanda neft və duz çıxaranların yanına göndərdi və bu adamlar onlardan vergi aldılar; sonralar o, vergi alınmasını [xüsusi adamlara] tapşırdı" [5]. Şirvanda neft mədənlərinin olduğunu Dərbənddə 150-733-cü illərdə neft anbarlarının tikildiyini təsdiq edir[6].Yəqin Bakı o zaman böyük bir yer idi. X əsrin müəllifi Əbu Dulaf Bakı ətrafına gəlişi haqqında belə yazır: "Mən Mukandan böyük Təbəristan [Xəzər] dənizi sahili ilə ağaclar altında 80 fərsəx yol getdim, nəhayət, Şirvan vilayətlərindən Bakuya adlanan yerinə çatdım. Mən orada bir neft mənbəyi gördüm; bunun gündəlik icarə haqqı min dirhəmə çatır; onun yanında isə gecə-gündüz, ara vermədən yasəmən yağı kimi ağ neft verən başqa bir mənbə var idi;

---

1 Əl-Mavərdi, səb. 112-115.

2 Yenə orada, səh. 115.

3 Yenə orada, səh. 112.

4 Yenə orada.

5 Əl-Bəlazuri, səh. 210.

6 İbn Miskəveyh, II, 153; Dərbəndnamə, səh. 89; Hudud al-Alam, p. 145.

bunun da icarə haqqı birinciyə bərabərdir[1]. Xəzərlərə qarşı vuruşma zamanı ərəblər bu neftdən istifadə edirdilər[2].

Xilafətin şimal sərhədində dayaq məntəqəsi olan Dərbəndin üstünlükləri var idi, xəlifələr həmişə bunu nəzərə alaraq ətraf ərazini və gəlir mənbələrini vəqf adı ilə onun müdafiəçilərinə verirdilər. Məsələn, 777-ci ildə xəlifə əl-Mehdi (775-785) "əmr etdi ki, Dərbəndin ətraf yerlərinin illik xəracı yığılsın və qalanın döyüşçüləri ilə şəhər əhalisi arasında bölüşdürülsün"[3].

873-cü ildə Şirvan hakimi "Dərbənd əhalisinə [əl-Mötəmidin] (870-892) vəqf olaraq verdiyi hər şeyi geri aldı"[4].

883-cü ildə xəlifə əl-Mötəmid yenidən "Şirvanın neft və duz mədənlərinin yarısını vəqf olaraq Dərbənd əhalisinə [döyüşçülərinə] verdi"[5] və nəhayət, 885-ci ildə həmin xəlifənin verdiyi fərmanla Bakının neft və duz mədənləri vəqf olaraq Dərbəndə verildi. "O, Məhəmməd ibn Əmmarı həmin mədənlərin vergitoplayanı təyin etdi. Məhəmməd bu mədənlərin illik gəlirini Dərbənd döyüşçüləri arasında bolüşdürdü"[6].

Dərbənd qarnizonu döyüşçüləri onlara bağışlanmış vəqflərdən gəlir əldə etmək imkanından məhrum olanda, bu hal onların vəziyyətinə çox pis təsir göstərirdi, çünki onların, əlbəttə, hərbi qənimətdən başqa heç bir yaşayış vəsaiti yox idi. 902-ci ildə xəlifə əl-Müktəfa dövründə (902-908) "Dərbənd hakimi təyin edilən Bişutur (?) neft və duz mədənlərinin bütün gəlirini və ətraf kəndlərdən gətirilən ərzağı mənimsəyəndə Dərbənd döyüşçüləri çarəsiz qalıb alver və başqa işlərlə məşğul oldular, onların içərisində rüşvətxorluq və intizamsızlıq başlandı"[7].

---

[1] Əbu Dulafın ikinci məktubu, səh. 36.

[2] Dərbəndnamə, səh. 117.

[3] Dərbəndnamə, səh. 127.

[4] Yenə orada, səh. 131.

[5] Yenə orada, səh. 138 (Dorna görə)

[6] Yenə orada, səh. 136.

[7] Yenə orada, səh. 136-137.

Təəssüf olsun ki, Azərbaycan, Arran və digər vilayətlərdən ayrıca olaraq alınan vergilər haqqında məlumat əldə edilə biləcək sənədlər movcud deyildir. Əməvilərin dövründə yəqin belə sənədlər var idi, lakin bunlar ilk Abbasilər dövründə ehtimal ki, yox olmuşdur. Abbasilərin hakimiyyəti dövründə də eynilə elə idi. Hər halda xəlifə əl-Məmunun (813-833) hakimiyyəti dövrünədək belə sənədlər saxlanmamışdır. Bundan əlavə, Xilafət taxtı üstündə əl-Əmin (809-813) ilə əl-Məmun arasında gedən mübarizə dövründə divan ül-xərac başqa divanxanalarla birlikdə yandırılmış və ayrıca olaraq hər əyalətdən xəlifə xəzinəsinə verilən gəlir hesabatı yazan bütün siyahılar yanğında məhv olmuşdur. Hicri 204 (819-820)-cü il "xəlifənin divanlarında hesabatın mövcud olduğu ilk il" idi[1].

Əl-Məmunun dövründə Azərbaycanın xəracı ildə 4,5 milyon dirhəm idi[2]- Yəqubi bildirir ki, "Azərbaycanın xəracı 4 milyon dirhəmdir, lakin bəzi illər çox, bəzən də az olur"[3].

Yuxarıda gətirilən məlumatdan belə nəticə çıxara bilərik ki, xəlifə xəzinəsinin Azərbajcandan aldığı xərac ildə 4 milyon dirhəm olmuşdur. Muğandan 30 min dirhəm alındığını nəzərə alsaq[4], belə fərz etmək olar ki, Arrandan ildə təqribən 3 milyon alınırdı, 3 vilayətdən birlikdə alınan məbləğ isə ildə təqribən 8 milyon dirhəm idi.

Xəlifələrdən əl-Vasiq (842), Mütəvəkkil (842-861) və sonrakı beş xəlifə (Mötəmid - 870-892-ci illər daxil olmaqla) dövründə yaşayıb divan ül-bəriddə qulluq edən ibn Xordadbeh xəlifə əl-Mötəsimin (833-842) vəziri Fəzl ibn Mərvanın, xəlifə Vasiq dövründə keçmiş Sahib əl-Xəracın adından bu dövr üçün Azərbaycan xəracı haqqında məlumat verir. Bu xərac 2 milyon dirhəmə bərabər idi[5]. Xəlifə Mötəsimin hökmranlığı dövründə və ondan sonra

---

[1] Kudama, BGA. IV, səh 236-247; əl-Yəqubi, VII, səh. 272.

[2] Kudama, BGA, IV, səh. 244.

[3] Əl-Yəqibi, BGA, səh. 172.

[4] Əl-Cahşiyari, səh. 362;A.V.Kremer. Leber bas Budget, p. 6.

[5] İbn Xordadbeh, BGA, VI, səh. 121.

Azərbaycan və digər vilayətlərdən alınan xərac məbləğinin azalmasma səbəb, Xilafətdəki üsyanlar və ayrı-ayrı vilayətlərin ayrılması, habelə hakimlərdə ayrılma təmayülünün güclənməsi idi.

Xilafət xəzinəsinə Azərbaycandan gələn vergi məbləği hicri 296 (908-909)-cı ildən başlayaraq ildə 120 min dinar olmuşdur (l dinar -15 dirhəm)[1].

IX əsrin axırı - X əsrin əvvəllərində Azərbaycan vilayətlərindən gələn vergilər ölkə hakimlərindən Sacilərin, sonra Müsafirlərin[2] xəzinəsinə gedirdi. İbn Havqəlin verdiyi məlumata görə, keçmişdə Yusif ibn Əbu-s-Saca qulluq edən, Mərzban ibn Məhəmməd ibn Müsafirin (941-957) vəziri Əbü-l-Qasim Əli ibn Cəfər Azərbaycana tabe vilayətlərin hakimlərindən aşağıdakı miqdarda vergi alırdı[3].

1. Şirvan hakimi şirvanşah Məhəmməd ibn Əhməd əl-Əzdidən - ildə 1 milyon dirhəm;

2. Əbu Əbd ül-Malik adı ilə məşhur olan Şəki hakimi İşxanikdən - saziş ilə müəyyən məbləğ;

3. İbn Savad adı ilə məşhur olan ər-Rüba (Bərdə?)[4] hakimi Sanxaribdən - 300 min dirhəm, habelə əlavə olaraq hədiyyələr;

4. Curzan (Gürcivan) və Sagiyan hakimi Vaçaqan ibn Musadan - 200 min dirhəm;

5. Vayosdzor (Sünik) hakimi Əbü-1-Qasim al-Vayzuridən - 50 min dirhəm, habelə hədiyyələr;

6. Əhər və Varzukan hakimi Əbü-1-Həyca ibn Rəvvaddan - 50 min dirhəm və hədiyyələr;

---

[1] İbn əl-Əsir, VIII, səh. 42; 304 (916/17)-ci ifdə Azərbaycan Xilafət xəzinəsinə 220 min dinar vermişdir. B a x: Arib, səh. 77; İbn Miskəveyh, 1, səh. 50; İbn əl-Əsir, VIII, səh. 76; İbn Xəldun, III, səh. 369, 372.

[2] Müsafirlər haqqında b ax: Cl.Huart. Les Musafirides de 1'Adharbaijan, p. 228-256; V.Minorsky, Musafirids, in El.

[3] İbn Xəvkal, BGA, VI, səh. 354-355; V.Minorsky. Caucastca, p. 519-520.

[4] Minorsky. Caucasica, p. 522-523.

7. Xayzan (Xaydak?) hakimi Əbü-1-Qasim əl-Cuyzanidən (Xayzani) borc qalıqları ilə birlikdə - 400 min dirhəm;

8. Xaçen hakimi Sanxaribdən - saziş əsasında 50 min dirhəm, habelə hədiyyə və atlar 50 min dirhəm məbləğində.

Azərbaycanın, iki Arranın, Azərbaycan hakimlərinə tabe olan Ermənistan vilayətləri və ətraf ərazilər xəracının ümumi məbləği o zaman 500 min dinar idi[1].

## 6. Ərəblərin Azərbaycanda inzibati siyasəti və idarə sistemi

Bundan əvvəl qeyd edildiyi kimi, ərəb istilasından sonra istər Azərbaycanda, istərsə Arranda idarə aparatı Sasanilərin dövründə olduğu kimi saxlanmışdı[2]. Sasanilərdə və Bizans imperiyasında olduğu kimi dövlət təşkilatına malik olmayan ərəblər Azərbaycan və Arranda mövcud olan idarə qaydalarını çarəsizlikdən qəbul etmişdilər[3].

Ərəblər Mərakeşdən Sinziyanədək geniş bir ərazidə öz hakimiyyətlərini qurduqdan sonra, sayca çox olan bu ölkələri idarə etmək üçün (vilayətlərdə) canişinlik sistemi yaratdılar. Əvvəllər beş belə vilayət var idi. Bunlardan birincisinə - Hicaz, Yaməm, Ərəbistan yarımadasının torpaqları, Suriya, Livan və İordaniya daxil idi, İkinci vilayət Misir idi. Üçüncü vilayət iki İraqdan - Ərəbistan İraqı qədim

---

[1] Xəlifə Harun ər-Rəşidin dövründə dinar 20, ya 22 dirhəmə bərabər idi. Əl-Mütəvəkkilin dövründə dinar 25 dirhəm idi. Kudama (təxminən 283 hicri ili - 896-cı il) dövründə dinar 15 dirhəmə bərabər idi, lakin xəlifə əl-Müqtədirin dövründə məzənnə yenə qalxdı və dinar 20 dirhəmə bərabər oldu.

[2] İbn Xəldun, səh. 203; Е.А.Беляев. Ислам и арабский халифатVII-IX вв., стр. 60-61.

[3] Həsən İbrahim. Sitat gətirilən əsəri, səh. 48.

Babilistan və Assuriya və İran İraqından ibarət idi. Azərbaycan Arran, Gürcüstanın bir hissəsi, Ermənistan, Əlcəzirə vilayəti və Kiçik Asiya ərazisinin bir hissəsi birlikdə dördüncü vilayət idi. Beşinci vilayətə - Şimali Afrika və Əndəlus daxil idi. Birinci dörd "mömin" xəlifənin ["xüləfayi raşideyn"] dövründə Xitafətin inzibati bölgüsü yuxarıdakı şəkildə idi. Əməvilərin dövründə Xilafət, Sasanilərdə olduğu kimi, 9 əyalətə bölünmüşdü: 1) Suriya və Fələstin 2) Kufə (İraq), 3) Bəsrə (Tran, Sicistan, Xorasan, Bəhreyn, Oman və ehtimal Nəcd və Yəmamə ilə birlikdə), 4) Ermənistan, 5) Hicaz, 6) Girman və Hindistanın sərhəd yerləri, 7) Misir, 8) İfrikiyyə (Afrika), 9) Yəmən və Cənubi Ərəbistan[1].

Bir müddət sonra bu 9 vilayət 5 vilayətə endirildi və bunlardan üçüncüsü olan Əlcəzirəyə Azərbaycan, Arran, Ermənistan və Kiçik Asiyanın şərq ərazisinin bir hissəsi daxil idi.

Abbasilərin dövründə Xilafət 83 quradan (əyalətdən) ibarət olan 14 vilayətə bolünürdü; bunlar da daha kiçik inzibati vahid olan nahiyələrə (mahallara) bölünürdü. Nahiyə 12 rustakdan (rayondan) ibarət olub, hər birinə 12 kənd daxil idi[2].

Ərəblərin hücumu ərəfəsində inzibati vahid olan Azərbaycan ərazısi Həmədan, Əzhər, Zəncandan tutmuş Dərbəndədək uzanırdı[3]. Azərbaycanın şimal sərhədinin Sasanilər dövründə Dərbəndədək uzandığı barəsində həmin şəhərin hasarlarındakı pəhləvi yazıları məlumat verir; bu yazılar b.e. 553-cü ildə Azərbaycandakı Sasani mərzbanı Bərzini tərəfindən tərtib edilmişdir[4].

Ərəblərin hücumu zamanı Azərbaycanın şimal hissəsi olan Arran və Sünik Gürcüstanın bir hissəsi ilə birlikdə xəzərlərin əlində

---

[1] İbn Xəldun. Kitab əl-İbar, c. III, əl-Qahirə, 1283, səh. 4, 10, 15, 17, 134-141.

[2] Yaqut əl-Həməvi. Mücəm əl-buldan. c. I, Beyrut, 1900, səh. 37; Məhəmməd Ziya əd-din ər-Reys. Əl-Xərac, fi-d-dövlə əl-İslamiyyə, əl-Qahirə, 1907, səh. 358.

[3] Dərbəndnamə, səh. 25.

[4] Е.А.Пахомов. Пехдлевийские надписи Дербенда, стр. 29.

idi[1]. Azərbaycan və Arran istila edildikdən sonra, bu ölkələrin ərazisi mahiyyətcə dəyişməz qalmışdı, yalnız bu ərazinin inzibati adı dəyişilirdi. Məsələn, ibn əl-Fəqih bildirir: "Azərbaycanın ərazisi Bərdə torpaqlarından Zəncan torpaqlarına qədərdir. Varsan Azərbaycanın son nöqtəsidir. Azərbaycanın hüdudu Araza qədərdir"[2], yəni Bərdə və Zəncan Azərbaycana daxil deyildir. Bəzən Arranı da Azərbaycana daxil edirdilər və o zaman bu "Yuxarı Azərbaycan" [Azərbaycan əl-Ülya] adlanırdı[3]. Lakin ərəblər çox vaxt üç ölkəni – Azərbaycan, Arran və Ermənistanı bir inzibati vahiddə birləşdirərək, bir canişinlik yaradır və bunu bəzən "Erməniyyə", bəzən də "Azərbaycan" adlandırırdılar. Bu halda Azərbaycan böyük ölkə olub, cənubunda Həmədan, şimalında isə Dərbənd yerləşirdi[4].

İstəxri bu məlumatı verir: "Biz Ermənistan, Arran və Azərbaycanı xəritədə birləşdirir və ona bir ölkə kimi baxırıq. Azərbaycanın sərhədləri Tərm və Zəncanın son həddinə çatan dağ silsiləsidir. Sonra bu silsilə Dinəvərin son hüduduna çatır, sonra Hülvan və Şahrazurun o tərəfinədək uzanır, nəhayət, Dəcləyə yaxınlaşır, sonra isə Ermənistan hüdudlarını əhatə edir"[5].

Həmin Azərbaycanın hər tərəfini gəzib onun xəritəsini tərtib edən ibn Havqəl İstəxrinin dediklərini tamamlayaraq, Azərbaycan, Arran və Ermənistanın ümumi xəritəsini yaratmış və bunu "Azərbaycanın xəritəsi" adlandırmışdır[6]. O, Xəzər dənizinin də xəritəsini çəkərək, bütün sahil ərazisini Dərbəndədək Azərbaycan adlandırmışdır[7]. İbn Havqəldə bu sətirləri oxuyuruq: "Qərbə doğru, Rum sərhədlərinə tərəf çevrilib onun şərq hüdudları və islamın ən uzaq hədlərində olan vilayətləri təsvir edək. Yazmağa başladığımız

---

[1] İbn əl-Fəqih, BGA, V, səh. 287; İbn Xordadbeh, səh. VI, 122.

[2] İbn əl-Fəqih, səh. 285.

[3] Əl-Yəqubi, Buldan, səh. 271.

[4] Chronique de Tabari..., p. 494.

[5] Əl-İstəxri, səh. 180-181.

[6] İbn Havqəl, səh. 331,332.

[7] Yenə orada, səh. 387

ilk ölkələr Ermənistan, Arran və Azərbaycandır. Bu ölkələri biz bir vilayət hesab edirik. Bunları əhatə edən yerlər: şərqdən - Cibal və Deyləm, habelə Xəzər dənizinin qərb hissəsi; qərbdən - Armen, Allanlar hüdudu və Cəzirə ərazisinin bir hissəsi; şimaldan - Allanlar və Kəbk dağları; cənubdan - İraq hüdudu və Cəzirənin şərq hissəsidir”[1].

"Hüdud əl-Aləm" müəllifi Azərbaycan, Arran və Ermənistanı bir ölkə kimi qeyd edir[2]. Müqəddəsi bütün bu üç ölkəni vahid adla "İqlim ər-Rəhab" adlandırır[3]. Ərəb istilasından əvvəl Azərbaycanın paytaxtı Ərdəbil idi və Sasani mərzbanının iqamətgahı burada yerləşirdi[4]. Ərəblər paytaxtı X əsrədək vilayətin baş şəhəri olan Marağaya köçürtdülər, bundan sonra isə Yusif ibn Əbu əs-Sac yenidən paytaxtı Ərdəbilə köçürtdü. Ərəblərin hökmranlığı dövründə Azərbaycanın əsas şəhərləri bunlar idi: Marağa, Xunəc, Miyanic (Miyanə), Ərdəbil, Varsan, Sisar Bərzə (Urmiya gölünün cənubunda), Səburxast (Urmiya gölünün 8 fərsəx cənubunda), Cabravan (Urmiya gölünün cənubunda), Təbriz, Mərənd, Xuvey (Xoy), Külsərə (Kültəpə, Marağanın 53 kilometr şərqində), Mukan (Muğan), Bərzənd, Cənzə (Qazaka), Nariz (Urmiya şəhərinin şərqində), Urmiya, Səlmas, Şiz, Sindabaya, Balvankərc, Mayanic (Dinəvər ilə Sisar arasında)[5], Naxçıvan[6].

Arran müəyyən vaxtlarda Azərbaycanın tərkibinə daxil olmuşsa da, onun ərazisinin hüdudlarının dürüst müəyyən edilməsinə ehtiyac vardır. Əl-Müqəddəsi Arran haqqında bu məlumatı verir: "Arrana gəldikdə bu ərazi bütün vilayətin (Azərbaycan vilayətinin -

---

[1] İbn Havqəl, səh. 387.

[2] Hüdud əl-Aləm, vər. 33a.

[3] Əl-Müqəddəsi, səh. 373 və sonrakılar.

[4] Əl-Bəlazuri, səh. 325.

[5] Bu şəhərlər haqqında b a x: İbn Xordadbeh, BGA, VI, səh. 119; İbn əl-Fəqih, BGA, V, səh. 285; İstəxri, BGA, I, səh. 180; İbn Havqəl, səh. 333-335.

[6] Əl-Yaqut, IV, səh. 784: "Naxçıvan Azərbaycan şəhəridir. Lakİn bəziləri deyirlər Arran şəhəridir". Müqayisə et: N.D.Mikluxo-Maklay. Sitat gətirilən əsəri, səh. 201.

*Z.B.)* üçdə birini təşkil edir və dəniz ilə Araz çayı arasında bir yarım Cəzirəyə bənzəyir. Malik [Kür] çayı isə vilayəti uzununa iki yerə bölür. Onun paytaxtı Bərdə, şəhərləri isə bunlardır: Beyləqan, Şəmkir, Cənzə, Baric, Şamaxı, Şirvan, Bakı, Şabran, Bab ül-Əbvab, Lahican, Qəbələ, Şəki, Malazkerd və Tebla"[1]. İbn Havqəl bildirir ki, Arran ərazisi "Bab ül-Əbvab hüdudlarından Tiflis hüdudlarınadək uzanır" [2] . İstəxri yazır: "Arranın sərhədləri Bab ül-Əbvabdan Tiflisədək və Araz çayı yaxınlığında Həciran (Naxçıvan - *Z.B}* adı ilə məşhur olan yerədək uzanır. Arranda Bərdə və Bab ül-Əbvabdan böyük şəhər yoxdur".[3] Yaqut bildirir: "Azərbaycanla Arran arasında Araz adlı çay axır. Bu çayın qərbində və şimalında olan yerlər Arrana aiddir"[4].

"Cami əd-düvəl"də Arran ərazisi haqqında bu məlumat verilir: "Arrana gəldikdə, bu məşhur ölkədir [ki], cənubdan Azərbaycanla, qərbdən Ermənistanla, şərqdən və cənubdan Azərbaycanla, şimaldan isə Kəbk dağları ilə sərhəddir. Onun əsas şəhərləri bunlardır: Naşava şəhəri, buna Naxçıvan da deyilir, beşinci iqlimindədir (onun) uzunluq dairəsi $78^0$, en dairəsi $42^0$-dir; Bab ül-Əbvab, Gəncə, Şəmkir, Beyləqan və Sərir Allan"[5].

Qeyd etdiyimiz kimi, Arranın tərkibinə Arsax, Şəki vilayəti və Sünik[6] daxil idi. Mirzə Camal Cavanşir bildirir: "Qarabağ vilayəti vilayəti Arran ölkəsinin bir hissəsidir: bu ölkəyə Kür və Araz çayları arasında olan vilayət və torpaqlar və bu torpaqlardakı Gəncə, Naxçıvan, Ordubad, Bərdə və Beyləqan şəhərləri daxil idi" [7] . Abbasilər dövründə, xüsusilə Harun ər-Rəşidin hökmranlığı

---

[1] Əl-Müqəddəsi, səh. 374.
[2] Ibn Havqəl, səh. 346.
[3] Əl-İstəxri, səh. 181.
[4] Əl-Yaqut, I, səh. 183
[5] V.Minorsky. Studies İn Caucasian History, p.170(19).
[6] J.Lourent. L'Armenie..., p. 13.
[7] Mirzə Camal Cavanşir. Qarabağ tarixi, səh. 11.

zamanında, həm Azərbaycan, həm də Arran, sərhədləri qəti müəyyən edilmiş vilayətlər idi[1].

Xəlifələr çox geniş bir imperiyaya çevrilən Xilafəti idarə etmək üçün hər bir vilayətin əhalisini, vergi sistemini, ictimai şəraitini, onların vəziyyətini və digər xüsusiyyətlərini ətraflı öyrənməli idilər.

Hər vilayətin başında xəlifənin canişini olan əmir dururdu ki, bu da öz vilayətində qoşunların komandanı idi. O, eyni zamanda vilayətin inzibati idarəsinə başçılıq edirdi. Beləliklə, bütün mülki və hərbi hakimiyyət əmirin əlində idi. Xilafətin tərkibində az-çox azad federasiya əmələ gətirən hər bir vilayət, əmirin rəhbərlik etdiyi və vilayətin beş şəhərində yerləşən divan tərəfindən idarə olunurdu[2]. Əmirin rəhbərliyi altında xüsusi tapşırıqları icra edən məmurlar – amil (mülki hakim, vergi toplanışına baxan) və qazı (məhkəmə idarəsinin rəisi), yəni dini məhkəmə hakimi dururdıı, qazı vəqf işlərinə nəzarət edir və amilin hərəkətlərindən narazı olan şəxslərin işlərini ayırd edirdi.

Xilafətdəki poçt yolları Xilafətin coğrafı şəraiti haqqında ətraflı məlumat tələb edirdi. Xilafətin mərkəzi ilə vilayətlər arasında rabitə yaratmaq üçün bərid adlanan poçt yaradılmışdı. Mənbələrdə göstərilir ki, bərid I Müaviyənin (66 1 -680) hökmranlığı dövründə əmələ gəlmişdi, xəlifə Əbd ül-Malik (685-705) isə bəridin işini yaxşılaşdıran bir sıra tədbir gördü, poçt işində hətta göyərçindən istifadə etməyə başladılar. Əl-Kəlkəşəndinin verdiyi məlumata görə, "yeni düzəldilmiş şeylərdən ən yaxşısı Xilafətin hər yerində yaradılan bərid idi. Bərid göndərmələri [pulu] yaxşı qoruyurdu, xəbərləri tez çatdırırdı və vəziyyəti bərpa edirdi"[3].

---

[1] G.le Strange kitabında III xəritəyə. The Land of Elastern Caphate. Historical Atlsas of the Muslim Peoples, p. 7.

[2] Xilafətin inzibati quruluşu haqqında ətraflı b a x: A.Mez. Die Renaissance des İslams, p. 68-79; F.Lökkegaard. Islamic Taxation, p. 146; əl-Kəlkəşəndi. Sübh əl-əşa, c. X, əl-Qahirə, 1331 h., səh. 274 və başqaları.

[3] Əl-Kəlkəşəndi. XIV, səh. 367-368; Məhəmməd Dıya, səh. 184; Həsən İbrahim Həsən, I, səh. 382-384. Məhəmməd Cəmil Bəyhəm. Qəvafil əl-Uruba, c. I,

Xilafətin müəyyən məntəqələrində poçt stansiyaları və əvəzetmə vasitələri var idi, bunların yardımı ilə qasidlər Xilafətin mərkəzi ilə ucqarları arasında nisbətən tez rabitə yarada bilirdilər. Sonralar xəlifənin və vilayət hakimlərinin əmrləri çox böyük sürətlə göndərilirdi və mərkəzi hakimiyyətin yerlərə gedən rəsmi nümayəndələri xəlifə ilə operativ şəkildə rabitə saxlaya bilirdilər. Stansiyalar bir-birindən bir bərid[1], yəni dörd fərsəx (22, 176 kilometr) məsafədə yerləşirdi, bu da qasidin bir mənzil at sürməsinə imkan verirdi, hər bir stansiyada inzibati məqsədlə məmurlar ştatı var idi. Vilayətlərin paytaxtlarında valilərin yanında poçt direktorları var idi, lakin bunların vəzifəsi bir tək poçt - inzibati işlər deyil, həmçinin Xiilafətin paytaxtına siyasi məlumat göndərmək idi, çünki paytaxtda olan divan ül-bəridin vəzifəsinə canişinlər, qazılar, hərbi rəislər, amillər və başqalarının fəaliyyəti haqqında məlumat toplamaq, ümumiyyətlə, yerlərdəki hakimiyyət orqanlarının fəaliyyətinə göz qoymaq da daxil idi.

A.Müller yazır: "Poçt məntəqələri müdirləri daim yeni cari məlumat ehtiyatından istifadə etmək üçün, aydındır ki, hər yerdə casuslar qoymalı idilər. Beləliklə, fəal işləyən əsil gizli polis əmələ gəlmişdi ki, bu da hər cür digər quruluşlardan daha artıq, müstəbid üsuli-idarə üçün zəruri idi"[2].

Beləliklə, poçt idarəsi rəisləri və bunlara tabe olan poçt məntəqələri rəisləri vilayətlərdə siyasi polis (şurta) vəzifəsini icra edirdilər. Moisey Kalankatukluda Arrandakı xəlifə canişini dəftərxanasınm quruluşu və işi haqqında maraqlı məlumat vardır: "Biz Əmir əl-Möminin[3] məhkəmə [idarəsi] haqqında məlumat əldə etdik: Sağda [girişin sağında] şurta başçısı [sahib əş-şurta] oturur; bu adam cəlladlar başçısından yüksəkdədir, solda qazı və əmir,

---

Beyrut, 1948, səh. 56-57; Məhəmməd Musttafa. Əl-Ədəb əl-ərəbiyyə, c. I, səh. 121.

[1] Poçtun adı da buradan əmələ gəlmişdi.

[2] А.Мюллер. История Ислама, т. II, стр. 151-152; İbn Tiktaqa, səh. 97; Kudama, səh. 184.

[3] Əmir əl-Möminin, xəlifə.

xəzinədar oturur, bunlar mühakimə edir [hökm çıxarır] və bütün ölkədən vergi alırlar. Onlar bu işə (işlərin baxılmasına - *Z.B.)* eyni vaxtda, saat doqquzda başlayır və ertəsi gün qərar çıxarırlar. Onlar əhalinin də işlərinə baxırlar"[1].

Canişinlik mərkəzindən başqa, inzibati və hərbi aparatların vilayət və mahallarda öz şöbələri var idi. Lakin ərəblər vilayətlərdə, mahallarda, şəhər və kəndlərdə olan aparatı öz ərəb kadrları ilə birdən-birə təmin edə bilməzdilər. Buna görə ərəblər yerli məmur və əyanlardan istifadə edirdilər; bunlar isə, qeyd edildiyi kimi, əhalinin aşağı təbəqələrindən fərqli olaraq, əksərən könüllü surətdə islam dinini qəbul etmiş və xəlifəyə qulluq etməyə razı olduqlarını bildirmişdilər. Ərəblər dövlət idarələrinin mürəkkəb iş formalarına əsla hazır deyildilər, buna görə xəlifə Əbd ül-Malikin hökmranlığınadək yerli əhali nümayəndələrinin müxtəlif inzibati vəzifələr tutması qadağan edilməmişdi.

Ərəb dilində yazı işləri, hələ I Ömər tərəfindən təşkil edilən iki divanda - xərac və cund divanlarında - görülürdü, çünki bu divanlara bilavasitə xəlifənin özü nəzarət edirdi[2]. Azərbaycan və Arranda olan divanlara gəldikdə, Azərbaycanda yazı işləri pəhləvi dilində, Arranda isə yunan dilində idi, yəni keçmişdə Sasanilər və Bizansa tabe olan ərazidə inzibati idarə aparatı əvvəlki kimi qalmış və bütün siyahılar həmin dillərdə yazılırdı[3].

Xəlifə Əbd ül-Malik əvvəlcə Suriya divanlarında yazı işləri islahatına başlamışdı, sonralar isə qanun digər vilayətlərə də şamil edildi[4]- İraqla qonşu olan əyalətlərdə yazı işi hicri 81 (b.e. 700-70l)-ci ildə ərəb dilinə keçirildi[5]. Əbd ül-Malik ərəb olmayanları

---

[1] Т.И.Тер-Григорян. "История страны Албанской" məsələsinə dair, səh. 94; З.М.Буниятов. Еще раз о неизданных страницах "История Агван" Моисея Каганкатваци, стр. 4-5

[2] Əl-Cahşiyari, səh. 38

[3] Əl-Bəlazuri, səh. 193, 300.

[4] Əl-Cahşiyari, səh, 40.

[5] Əl-Bəlazuri, 300-301; əl-Mavərdi, səh. 192; İ.Y.Kraçkovski ("Древний арабский документ из Средней Азии" , стр. 94} qeyd edir ki, Orta Asiyada ərəb

divanlardakı vəzifələrdən götürəndə onlara demişdi: "Başqa cür işlərdə özünüzə məşğuliyyət tapın. Allah belə istəmişdir ki, sizin divandakı xidmətinizə son verilsin"[1].

Lakin A.Y.Krımskinin dediyinə görə, Əbd ül-Malikin bu sərəncamı tam ardıcıllıqla "nə onun vaxtında, nə də ondan sonra həyata keçirilə bilmişdi, çünki ərəb müsəlman ziyalısı az idi"[2].

Azərbaycanda və xüsusilə Arranda ərəblərin inzibati siyasətində, Xilafətin şimal sərbədlərində olan əsas şəhər və məntəqələrdə ərəb hərbi qarnizonlarının (rəbatların) təşkili əhəmiyyətli yer tuturdu[3]. Həmin qarnizonları saxlamaq xərcləri, Xilafətin vergi məngənəsi altında son dərəcə əzilən tabe Arran əhalisi üzərində ağır bir yük kimi qalmışdı.

## 7. Ərəblərin dövründə Azərbaycan şəhərləri, Ticarət və ticarət yolları

Mənbələrdə şəhərlər haqqında ciddi məlumatın olmaması üzündən Azərbaycandakı orta əsr feodal şəhərlərinin meydana gəlməsinin səbəb və şərtləri və bunların inkişafı hələlik çox az öyrənilmişdir. Ölkənin iqtisadi sistemində Azərbaycan şəhərlərinin rolu, bunların daxili həyatı, quruluşu, şəhər əhalisinin müxtəlif təbəqələrinin qarşılıqlı münasibətləri və bunlara oxşar bir sıra digər problemlər də kifayət qədər öyrənilməmişdir[4].

Azərbaycan şəhərləri arxeoloji cəhətdən pis öyrənilmişdir. Azərbaycanın orta əsrlərdəki şəhərlərinin necə yerləşdiyi haqqında hələlik əlimizdə bir xəritə yoxdur. Azərbaycan ərazisində qədim

---

dili idarə aparatı üçün h. 124 (742)-ci ildə məcburi olmuşdur. Bu barədə b a x: əl-Cahşiyari, səh. 64-65.

[1] Ibn Xəldun. Müqəddimə, səh. 244.

[2] А.Крымский. История арабов и арабской литературы, т. l, стр. 332; İ.Y.Kraçkovski, Sitat göstərilən əsəri.

[3] Əbd əl-Munim Macid, səh. 231.

[4] Г.М.Ахмедов. Неполивная керамика Азербайджана, стр. 9.

şəhər xərabələrində çox az qazıntı işləri görülmüşdür. Arxeoloqlar göstərirlər ki, Azərbaycanın yazılı mənbələrdən məlum olan şəhərlərinin əksəriyyəti nəinki elmi cəhətdən öyrənilməmişdir, hətta qeydə alınmamış və bunların harada yerləşdiyi müəyyən edilməmişdir[1]. Şərti olaraq qeyd etmək olar ki, ərəblərdən əvvəlki dövrdə olan şəhərlər padşah və knyazların torpaqlarında salınırdı və adətən kənd mahalları – rustaklar bunlara aid edilirdi[2]. Şəhərlər narazı və qaçqın kəndlilərin gedib pənah gətirdiyi yerlər idi və buralarda toplanan əhalinin birlikdə fəaliyyət göstərən vahid kütlə halında birləşməsinə kömək edirdi. Şəhər əhalisinin əsas kütləsini bilavasitə istehsalçıların özləri təşkil edirdi və burada onlar ağır güzəran keçirirdilər.

Şəhərlərdə zadəganlarla bərabər "zadəgan olmayanlar" və "sadə" adamlar yaşayırdılar, lakin həmin kateqoriyadan olanlar arasında varlı adamlar, xüsusilə tacirlər də var idi. Hər peşədən olan sənətkarlar bir küçədə və ya bir məhəllədə yerləşirdilər[3].

Orta əsrlərdəki yazılı mənbələr və qazıntı materialları Azərbaycan və Arranda bir ençə kateqoriyadan şəhər olduğunu müəyyən etməyə imkan verir. Həmin dövrdə daha geniş surətdə ictimai əmək bölgüsü əmələ gəlir, sənətlər kənd təsərrüfatından ayrılır və şəhərlərdə mərkəzləşir. Şəhər kənddən ayrı düşür. Lakin həmin dövrdə Azərbaycan və Arran şəhərlərinin əksəriyyəti hələ mühüm ticarət-sənaye mərkəzi olmamışdı. Mənbələrdə təkcə "böyük" və "məşhur" adlanan şəhərlər ticarət-sənaye mərkəzi idi, bunlar da beynəlxalq tranzit ticarətinin əsas yolları üzərində salınmış şəhərlər olmuşdu. Bərdə, Dərbənd, Çoqa, Beyləqan (Paytakaran) belə şəhərlərdən idi[4]. Həmin şəhərlərdə ruhani və dünyəvi zadəganlar,

---

[1] Е.А.Пахомов. Пайтакаран-Байлакан-Оренкала, стр. 15; Q.M.Əhmədov. Sitat gətirilən əsəri, səh. 7-8.

[2] M.M.Dyakonov. Sitat gətirilən əsəri, səh. 285.

[3] Daha ətraflı məlumat üçün b a x: Н.В.Пигулевская. К вопросу о городах Ирана в раннем средневековье, стр. 74-75

[4] История Агван, стр. 90, 102,104, 105, 135, 240, 245, 255-270.

tacirlər, sələmçilər və əkinçiliklə əlaqəsini kəsmiş sənətkarlar yaşayırdılar. Mənbələrdə göstərilir ki, şəhərlərdə geniş istehlak şeyləri hazırlayan sənətkarlardan başqa "qızıl, gümüş, dəmir filizi və mis çıxarmaqda biliyi olan müxtəlif sənətkarlar da"[1] var idi.

Şəhərlərin ikinci kateqoriyası - əsas ticarət yollarından uzaqda yerləşən qapalı sənətkarlıq və ticarət mərkəzləridir. Şəki, Qəbələ, Amaras, Şamxor, Naxçıvan, Ərdəbil, Girdiman bu kimi şəhərlərdən idi. Həmin şəhərlər eyni zamanda qala idi, çünki burada çoxlu hərbi dəstələr olurdu.

Kənd tipli şəhərlər, yəni əkinçilik xarakterli şəhərlər də var idi; bunlar ictimai-iqtisadi mənada şəhər olmayıb, feodal vilayətlərin inzibati mərkəzi idi. Bunlarda ictimai və əmlak cəhətdən hələ aydın təbəqələşmə yox idi. Bu şəhərlərin əhalisi natural təsərrüfat həyatı keçirirdi və başqa bazarlarla əlaqələri, demək olar ki, yox idi. Bu dövrdə ticarət və mal mübadiləsi tədricən, bunların ardınca pul tədavülü artırdı[2].

Biz qeyd edə bilərik ki, ərəblərin istilası başlananda Azərbaycan və Arranda keçmişdə qala şəhəri olmuş bir sıra məşhur şəhərlər vardı, məsələn: Ərdəbil, Bərdə, Beyləqan, Qəbələ, Şamxor, Dərbənd, Çoqa, Naxçıvan, Şabran, Şamaxı, Qazaka (Şiz) və başqaları. Azərbaycanın (Arranın) bəzi şəhərlərinin əzəmətini və bunların strateji əhəmiyyətini həmin şəhərlər ətrafında çəkilən hasar və bürclərin qalıqları aydın göstərir. Demək olar, bütün hasar və bürclərin yonulmuş iri daşdan hörülmüş, bunların özülü isə bişmiş kvadrat kərpicdən tikilmişdir. Azərbaycanın orta əsr şəhərlərinin quruluşu belə idi ki, qala hasarları və qüllələrin başında həmişə mazğal və bacalar qoyurdular, çünki bunlar xaricdən ediləcək hücumlardan şəhərlərin müdafiəsini gücləndirirdi[3].

---

[1] Yenə orada, səh. 131/104

[2] Sikkə tədavülü haqqında ətraflı məlumat üçün b a x: Е.А.Пахомов. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа, I-IV buraxılış, Bakı, 1926-1957.

[3] Ö.Ş.İsmizadə. Qafqaz Albaniyasının qədim paytaxtı Qəbələ, səh. 60

Aydındır ki, orta əsrlərdə ölkənin siyasi və iqtisadi həyatında əhəmiyyətli rol oynayan Azərbaycan şəhərləri də digər ölkələrin feodal şəhərləri kimi birdən-birə qəflətən meydana gəlmirdi. Bu kimi şəhərlərin əmələ gəlməsinin iqtisadi şəraiti hələ orta əsrlərin əvvəllərində yaradılmışdı, lakin həmin dövrün yaşayış məntəqələrinin heç də hamısı iri feodal şəhəri səviyyəsinə yüksələ bilmirdi. Orta əsrlərin əvvəllərində şəhər təsərrüfatlarının ümumi inkişafı bunların dönüb orta əsr feodal şəhəri olması üçün zəmin yaratdı. Məhz bu nöqteyi-nəzərdən orta əsrlərin əvvəllərinə aid arxeoloji abidələrinin tədqiqi çox əhəmiyyətlidir.

Təəssüf ki, Azərbaycanın arxeoloji xəritəsində müəyyən edilməmiş yerləri göstərən ağ ləkələr hələ çoxdur. Bunun əsas səbəbi Azərbaycandakı orta əsr abidələrinin arxeoloji nöqteyi-nəzərdən qeyri-bərabər surətdə öyrənilməsidir. Ayrı-ayrı təsadüfi tapıntılar hesaba alınmazsa, orta əsrlərin əvvəllərinə aid abidələr son zamanlaradək ciddi və müntəzəm surətdə öyrənilməmiş, bu məqsədlə qazıntı işləri görülməmişdir.

Gürcüstan və Ermənistanda da eyni vəziyyət vardır. Gürcüstanda orta əsrlərin əvvəllərinə aid yalnız qədim qəbiristanlar tədqiq edilmişdir, məskənlər isə hələ öyrənilməmişdir[1]. Əksinə, Ermənistanda bu dövrün qəbiristanları məlum deyildir. Böyük şəhər və yaşayış məntəqəsi olan Ani, Dvin və Qarni qazıntılarında, bəzi memarlıq abidələri nəzərə alınmazsa, orta əsrlərin əvvəllərinə aid abidələr, demək olar, tapılmamışdır[2].

---

[1] Г.А.Ломтатидзе. Археологические раскопки в Мцхета, стр. 92-99.

[2] N.Y.Marr. Ani. Şəhərin kitabda yazılan tarixi və qədim şəhər yerində qazıntılar. M.-Л., 1934; К.Т.Кафадарян. Город Двин и его раскопки. Ереван, 1952; Г.Н.Аракелян, Гарни, I, Результаты раскопок 1949-1950 гг., Ереван, 1951.

Azərbaycanda yalnız Mingəçevir [1] və qismən Beyləqan [2] kompleks şəkildə və müntəzəm öyrənilmişdir. Mingəçevir arxeoloji abidələri, ümumiyyətlə, həm Azərbaycanın orta əsrlərdəki əhalisinin təsərrüfat və mədəni həyatını öyrənmək, həm də xüsusilə Azərbaycanın orta əsr şəhərlərinin tarixini öyrənmək üçün böyük əhəmiyyətə malikdir.

Azərbaycanın tədqiq edilən dövrdəki şəhərlərində inkişaf etmiş sənətkarlıq təsərrüfatı var idi, burada orta əsrlərə xas olan bütün əsas sənət növləri – keramika, dəmirçi, ayaqqabı, dərzi sənətkarları, qab-qaçaq emalı, qızıl və gümüş məmulatı, toxuculuq və i.a. var idi[3]. Məsələn, 1944-cü ildə Qəbələ şəhəri dairəsində görülən qazıntı işlərində bir neçə qəbir və içərisində müxtəlif əşya – həmin yerdə hazırlanmış qızıl və gümüş şeyləri, sikkə, keramika və s. tapılmışdır[4].

Mingəçevirdə bir sərdabə məqbərəsi qazılarkən toxucu dəzgahı hissələri, çəkməçilik ləvazimatı, ipək və yun parça qırıqları, pambıq, yun və ipək saplar, xalı tikələri və s. tapılmışdır[5]. Bunlar Arranda yun və ipək parça istehsalının və xalçaçılığın mövcud olduğunu göstərir[6]. Həm də toxucu yarımfabrikatları Mingəçevirin özündə hazırlanırdı[7].

Mingəçevirin evlərində tapılan müxtəlif quş və heyvan sümükləri şəhər əhalisinin ovla məşğul olduğunu göstərir. Sərdabə və

---

[1] R.M.Vahidov. III-VIII əsrlərdə Mingəçevir, Bakı, 1961; Ö.Ş.İsimizadə. Sitat gətirilən əsəri, səh. 54-74; S.M.Qazıyev. Qəbələ mahalının tarixindən, səh. 75-105.

[2] Azərbaycan (Örənqala) arxeoloji ekspedisiyasının əsərləri, I, 1953-1955, М.-Л., 1959

[3] История Агван, стр. 45, 131, 254/35, 104, 204.

[4] S.M.Qazıyev. Vartaşen və Qutqaşen rayonlarında arxeoloji kəşfiyyat, səh. 146-147.

[5] Q.M.Aslanov. Mingəçevirdə orta əsrlərin əvvəllərinə aid abidələrin tədqiqinə dair, səh. 68-69.

[6] Yenə orada, səh. 68.

[7] R.M.Vahidov. Sitat gətirilən əsəri, səh. 86.

xristian məqbərələrində tapılan müxtəlif silah növləri həmin fikri təsdiq edir[1].

Kür çayında balıqçılığın inkişafını həm mənbələr[2], həm də arxeoloji tapıntılar göstərir. Yaşayış evlərindəki qazıntı nəticəsində tor üçün daş və gildən qayırılmış çoxlu lot tapılmışdır[3]. Əhalinin iqtisadiyyatında balıqçılıq böyük rol oynamışdır.

Qədim Örənqala (Beyləqan) şəhərinin salındığı yerdəki qazıntı şəhərin b.e. V əsrin axırı – VI əsrin əvvəllərində meydana gəldiyi haqqında orta əsr müəlliflərinin verdiyi məlumatı təsdiq etdi[4]. etdi[4]. Şəhər xərabələrinin ölçülməsi göstərdi ki, tədqiq edilən dövrdə şəhər ərazisi 40 kv. kilometrdən artıq və bunun 14 kv. kilometri şəhər hasarları daxilində idi[5]. Bu dövrdə Beyləqan üç hissədən: ətrafına hasar çəkilmiş kvadrat kiçik qala şəhərindən, kvadrat böyük şəhərdən və şimal-qərbdən böyük şəhərə bitişik ərazidən ibarət idi. Q,M.Əhmədov belə hesab edir ki, şəhərin bu hissəsi sənətkarlar mərkəzi olmuşdur ki, həmin yerdə tapılan dulusçu kürələri, çoxlu dulusçuluq alətləri, habelə çağdaş saxsı məmulatı bunu təsdiq edir[6].

Arranın mühüm orta əsr şəhərlərindən biri Çoqa (Çora) idi. Mütəxəssislərin dediyinə görə, bu "indi Dağıstanda məlum olan bu cür abidələrin ən böyüyüdür. Onun sahəsi 100 hektardır"[7]. Qədim şəhər xərabələrinin ətrafında bürc və darvazaları olan qala hasarının qalıqları görünür, onun hündürlüyü 2 m, eni isə 12-15 metrdir. Şəhərin ətrafında enli (20-25 m) və dərin (4-6 m) xəndək var idi və

---

[1] Q.M.Aslanov. Sitat gətirilən əsəri, səh. 66.

[2] История Агван, стр. 5, 131/4; З.М.Буниятов. Еще раз о неизданных страницах "Истории Агван" М.Каганкатваци, стр. 4.

[3] R.M.Vahidov. Sitat gətirilən əsəri, səh. 81-82

[4] А.А.Иессен. Новые данные для истории Азербайджана по работам Оренкалинской экспедиции 1953-1955 гг., стр. 36; Q.M.Əhmədov. Sitat gətirilən əsəri, səh. 34.

[5] Г.М.Ахмедов. Неполивная бытовая керамика Азербайджана IX-XIII вв., стр. 5.

[6] Yenə orada, səh. 6.

[7] В.Г.Котович. Дагестан в III-V вв. н.э., стр. 33.

mühasirə zamanı buraya su buraxılırdı. Çoqa o zaman Arranın ən böyük siyasi və mədəni mərkəzlərindən biri olmuşdur; ölkənin patriarx taxtı da burada idi[1].

Arxeologiya materialları orta əsr Arranın digər böyük şəhəri Dərbənd (Bab ül-Əbvab) haqqında da çox maraqlı məlumat vermişdir. Şəhərin VI əsrdə mövcud olduğu haqqında mənbələrdə verilən məlumatı Dərbəndin qala hasarındakı pəhləvi yazıları təsdiq edir[2].

VI əsrin axırları – VII əsrin əvvəllərində Azərbaycanda və xüsusilə Arranda çoxlu yeni şəhərlər salınır və mövcud şəhərlər möhkəmləndirilir; buna səbəb hər şeydən əvvəl həmin ölkələrdə məhsuldar qüvvələrin daha da artması idi. Şəhərlər ticarət və sənət mərkəzi olur, məhsula tələbat artır, ölkənin təbii sərvətləri daha çox işlədilir ki, bütün bunları Moisey Kalankatuklu təsdiq edir[3]. Azərbaycan və Arran ərəblər tərəfindən işğal edilməzdən əvvəl, habelə ərəblərin hökmranlığı dövründə həmin ölkələrdən keçən ticarət yollarının birinci dərəcəli əhəmiyyəti var idi: bu ticarət yolları bütün Xilafət sistemindəki ticarətdə heç də axırıncı rol oynamırdı. Bu ərazinin ərəblər tərəfindən işğalı və Ön Asiyada çox geniş sahənin Xilafət çərçivəsində birləşdirilməsi ticarətin inkişafı üçün son dərəcə əlverişli şərait yaratdı, tacirlər üçün quru yol ilə və Xəzər dənizi ilə şimala (bulqarlar, slavyanlar) və Avropanın şimal-şərqinə gedən ticarət yollarını açdı. Avropa, Asiya və Afrikanın müxtəlif rayonlarında tapılan çoxlu sikkə dəfinələri əsasında təsəvvür etmək olar ki, Xilafətin hökmranlığı dövründə ticarət nə qədər genişlənmişdi və o zaman məlum olan təqribən bütün ölkələrlə Zaqafqaziya ölkələrinin ticarət əlaqələri nə qədər uzaqlara çatırdı. Dünya ticarətində Bizans və Ermənistanın rəhbər rolu tənəzzülə

---

[1] История Агван, стр. 90, 280/70, 228/

[2] Е.А.Пахомов. Пехлевийские надписи Дербента, стр. 3-22; yenə onun: Dərbəndin pəhləvi yazılarının təfsirinə dair, səh. 15; Г.С.Нюберг. Материалы по истолкованию пехлевийских надписей Дербенда, стр. 29.

[3] История Агван, стр. 5/4.

uğradıqdan sonra qonşu ölkələrlə ticarətdə Xilafətin ticarət balansında Azərbaycan və Arran şəhərlərinin rəhbər vəziyyəti daha da gücləndi. Azərbaycanın paytaxtı Bərdəyə keçirildikdən sonra ticarət mərkəzi olmaq etibarilə Dvinin əhəmiyyəti aşağı düşdü; o zaman Ermənistan şəhərlərinə nisbətən Bərdə, Gəncə, Şamxor, Dərbənd, Ərdəbil, Şabran və digər şəhərlər beynəlxalq ticarət həyatında daha əhəmiyyətli rol oynayırdı[1]. Bunun səbəbi bu idi ki, Xilafətin ticarət əməliyyatı yeni yolla inkişaf edərək, başqa şəhərlərdə mərkəzləşmişdi[2]. Y.A.Manandyan belə hesab edirdi ki, həmin dövrdə Şərqi Gürcüstan və Azərbaycanda ticarətin canlanması xəzərlər və slavyanlarla ticarətin inkişafı ilə əlaqədardır[3]. Ş.A.Mesxia qeyd edir ki, bu zaman beynəlxalq ticarətdə Azərbaycanla birlikdə iqtisadi cəhətdən kifayət qədər inkişaf etmiş Gürcüstan padşahlıq və knyazlıqları da iştirak edirdilər, həm də bunlar digər xalqlarla ticarətdəvasitəçi kimi hərəkət edirdilər[4].

Azərbaycan şəhərləri məhz ərəb hökmranlığı dövründə iqtisadi cəhətdən inkişaf etmişdir. Zaqafqaziyanın bu rayonunda, yeni şəhərlərin meydana gəlməsinin və Bərdənin sürətlə inkişafının səbəbi əsasən bunda idi ki, Şimali Qafqaz, Volqa və Don çayları hövzəsinin xalqları ilə ticarət əlaqələri sürətlə inkişaf etmişdi: bu cəhət isə Azərbaycan və Arranda əmtəə münasibətlərinin inkişafının başlıca amillərindən biri olmuşdu[5].

Azərbaycan və Arran şəhərləri öz zəngin bazarları və yerli sənətkarların cürbəcür məhsulları ilə ticarət əməliyyatında iştirak edərək, Xilafətdə şimal-şərqi Avropa ölkələri arasında ticarət əməliyyatının inkişafına yardım edirdi.

---

[1] Я.А.Манандян. О торговле и городах Армении в связи с мировой торговлей древних времен, стр. 198.

[2] Ш.А.Месхиа. Из истории грузинского феодального города IX-XIII вв., стр. 133-134.

[3] Y.A.Manandyan. Sitat gətirilən əsəri, səh. 198.

[4] Ş.A.Mesxia. Sitat gətirilən əsəri, səh. 134

[5] N.Y.Marr. VII əsr xəzər yeməyinin qədim erməni təsvirində rus "salo" sözünə dair; Е.А.Пахомов. Краткий курс истории Азербайджана, стр. 13.

Bu dövrdə Azərbaycan və Arran şəhərləri Xilafətin böyük məmurlar iqamətgahının yerləşdiyi inzibati mərkəz olub müstəqil həyat keçirirdi. Bu dövrün başlıca ticarət-sənətkarlıq mərkəzi olan şəhərlərində inkişaf etmiş sənətkarlıq təsərrüfatı adamların kənddən axıb gəlməsinə səbəb olurdu. Şəhərlərdə orta əsrlərdə məlum olan bütün sənətlər, məsələn, dulusçuluq, dəmirçilik, çəkməçilik, dabbağlıq, dərzilik var idi, metal qablar, qızıl və gümüş məmulatı, müxtəlif parça və s. hazırlanırdı. Sənətlər Arran şəhərlərində xüsusilə inkişaf etmişdi, çünki mənbələrdə qeyd edildiyi kimi, ərəblər sənətkarlara nifrət edirdilər[1], bu sənətkarlar isə hələ islamdan əvvəlki dövrdə xristianlar və yəhudilərdən ibarət idilər. Ölkə işğal edildikdən sonra "inşaatda, dərzilik, çəkməçilik və digərlərində xristianlar işləyirdilər. Boyaqçılar, dabbağlar, dəlləklər [zəli qoyanlar] yəhudilərdən idi; onlar xristianların iyrəndiyi digər xırda sənətlərlə də məşğul olurdular"[2].

Bu dövrün şəhərlərində yaşayan əhalinin etnik tərkibi çox qarışıq idi. Bu şəhərlərdə yerlilərdən başqa, ərəblər, ermənilər, yəhudilər və digər xalqlar yaşayırdılar[3]. Şəhərlərin ticarət və sənətlə məşğul olan yerli əhalisi çox vaxt xalis ticarət mülahizələrinə görə islam dinini qəbul edirdilər. Arran şəhərlərində başqa dinlərə mane olmamaq halları mövcud idi; odur ki, kilsə ilə yanaşı məscidə rast gəlmək olardı; bunu, demək olar, bütün ərəb müəllifləri qeyd edirlər.

VII əsrin axırları - VIII əsrin əvvəllərində xəlifə Əbd ül-Malikin hökmranlığı dövründə Xilafətdə böyük sikkə islahatı keçirildi, qızıl dinar və gümüş dirhəm Sasani dirhəmi və Bizans miliarisisini sıxışdırıb aradan çıxartdı[4].

---

[1] B a x: İbn Xəldun, səh. 337.

[2] H.Lammens. La Syrie, p. 116-117.

[3] Mənbə və ədəbiyyat haqqında b a x: Ph.Grierson. The Monetary Reform of Abd al-Malik...,p. 241-264.

[4] Е.А.Пахомов. Ганджинский клад 1929 г. и переломный момент арабской торговли в Закавказье, стр. 746.

Demək lazımdır ki, Sasanilər İranı və qismən Bizans imperiyası tərkibinə daxil olan əyalətlərin ərəblər tərəfindən işğalının birinci əlli illiyi ərzində işğalçı ərəblər köhnə çəki və sikkə sistemlərini dəyişdirmədilər, Azərbaycanda, habelə Xilafətin digər şimal vilayətlərində əvvəlki çəki ölçüləri - kafız və mudd, həmçinin pul vahidləri - dinar və dirhəm olduğu kimi qalmışdı[1]. Sasani sikkə sistemi gümüş monometallizmin növlərindən biri idi və buna bir az başqa metallar qatılmışdı. Keçmiş Sasani əyalətlərindən, hətta ərəblərin dövründə üzərində II Xosrovun, yaxud III Yəzdigerdin və atəşgədə təsviri olan dirhəm kəsilirdi. Bir tək sikkənin tarixi dəyişirdi, Qurandan kufi hərflərlə bir ayə yazılır və adətən, ərəb xəlifəsi, ya hakiminin adı əlavə edilirdi.

660-cı ildə I Müaviyə sikkə islahatı keçirməyə təşəbbüs etmiş və hətta gümüş və qızıl sikkə kəsməyə başlamışdı. Lakin əhali bu yeni pulu qəbul etmədi və islahat müvəffəqiyyətsizliyə uğradı[2].

Bəzi ərəb mənbələri Əbd ül-Malikin hökmranlığından əvvəl də Xilafətdə sikkə sistemi islahatı keçirməyə cəhd göstərildiyini qeyd edirlər, lakin mənbələrin əksəriyyəti bu fikirdədir ki, bu islahat yalnız Əbd ül-Malikin və onun vəziri əl-Həccacın işidir[3].

İbn Havqəl təsdiq edir ki, Azərbaycan və Arranda qızıl və gümüş sikkə işlənirdi[4]. Bu zaman burada ərəblərin öz sikkəxanası meydana gəlir, çünki ticarətin yüksəlişi və bununla əlaqədar olaraq şəhərlərin artması bunun meydana gəlməsinə səbəb olmuşdu. Azərbaycan və Arran sikkəxanalarında kəsilən sikkə uzaqlara, şimalda - Rusiya, Almaniya, İsveç, Norveç, Baltik sahillərinə, həmçinin Şərq ölkələrinə gedir, əvəzində həmin ölkələrdən xammal

---

[1] Maqrizi. Traite des mannoies musulmanes, p. 35.

[2] Y.Walker. A.Catalogue of the Arab Byzantine...

[3] H.Sauvaire. Materiaux pour servira l'histoire de la numismatique et de la metrologie musulmanes, p. 476 ff.

[4] İbn Havqəl, səh. 349.

gətirilirdi. Azərbaycan və Arranda pul tədavülünün belə inkişaf etdiyi bir şəraitdə ticarət daha artıq canlanmağa başladı[1].

Arranda sikkəxana Bərdə, Dərbənd və Şamaxıda (Yəzidiyyə) var idi. Ərəblərin dovründə Arranda kəsilən ən qədim pul hicri 89 (707-708)-cu il tarixli dirhəmdir[2]. Lakin o dövrün sikkəxanasının dürüst yerini göstərmək çətindir, çünki bu sikkəxana Bərdədən başqa, Şamxorda, Qəbələ, Beyləqan və Gəncədə də ola bilərdi. Azərbaycan sikkəxanasında kəsilmiş dirhəmlərin üzərində hicri 105 (723-734) və hicri 106 (724-725)-cı ilin tarixi vardır[3]. Bu sikkəxana Ərdəbildə yaxud Marağada ola bilərdi. Dərbənddə kəsilmiş ən qədim pulun üzərində hicri 115 (733-734)-ci ilin tarixi vardır[4]. Əməvilərin sikkəxanalarında pul kəsilməsi hicri 131 (748-749)-ci ildə bitir. Arran ərazisində Abbasilərin ilk sikkələri, hicri 140 (757-758)-cı ildə meydana gəlir[5]. Bıı sikkələr hicri 140-cı Yəzidiyyədə və hicri 142 (759-760)-ci ildə Bərdədə kəsilmiş *fels* adlı sikkə idi[6]. Azərbaycan sikkəxanalarında kəsilən pullara çox vaxt şimal ölkələrində və Rusiyanın Avropa hissəsi dəfınələrində təsadüf edilir[7]. Yerli tacirlər öz əmtəələrini bu ölkələrə aparır, həmin ölkələrin tacirləri isə Azərbaycana və Arrana mal gətirirdilər. Bununla bərabər, bu pulları işlədən vasitəçi tacirlərin mövcud olduğu ehtimalını rədd edə bilmərik.

Əməvilərin dövründə ərəblər tədqiq etdiyimiz ölkələrdə öz ölçü-çəki sistemlərini tətbiq etmişdilər. Bu tədbir 722-ci ildə, əl-Cərrah ibn Abdullah əl-Həkəmi Azərbaycan və Arran canişini

---

[1] Е.А.Пахомов. Монетные клады Азербайджана и Закавказья, стр. 22.

[2] Yenə orada, 43.

[3] Yenə orada, səh. 49.

[4] Yenə orada, 51.

[5] Yenə orada, səh. 59.

[6] Yenə orada, səh. 60; b a x А.А.Быков. Дейсам ибн Ибрахим ал-Курди и его монет, ЭВ, X, 1955.

[7] M.Gozdowski, A.Kmietowicz və b. Wczesnosredni-wieczny skarb srebrny z Mauzz yc pod Zowiszem, p. 1-140.

olduğu zaman həyata keçirilmişdi. O, Bərdəyə gəldikdə, şəhərdəki ölçü və çəki işlərində sui-istifadələr və xəyanət olduğunu ona xəbər verdilər; o, həmin qüsurları aradan qaldırdı və Cərrahiyyə adı ilə məlum olan yeni dürüst ölçü vahidi tətbiq etdi[1].

Tədqiq etdiyimiz dövrdə ticarətin inkişafında Xəzər dənizi əhəmiyyətli rol oynayırdı. Xəzər hövzəsinin cənub hissəsində ticarətə Bağdad, Buxara və Səmərqənd bazarlarının yaxınlığı böyük təkan verirdi, çünki bunların inkişaf etmiş sənətkarlıq mərkəzi olan çoxlu Asiya ölkələri ilə geniş əlaqələri var idi. Xəzər sahilindəki limanlarda (Abaskun və Astrabaddan Dərbəndədək) fəal ticarət dənizçiliyi inkişaf edirdi. Məsələn, Astrabaddan ipək parça ixrac edilir, Dərbənd bazarları isə, demək olar, bütün Xəzər sahillərindən mal gətirən tacirlərin toplanış yeri idi[2].

Xəzər limanlarında yığışan mallar Zaqafqaziyadan su yolu Kür və Rion çayları iləmi Qara dənizə aparılırdı, yoxsa Dərbənddən Qafqaz vasitəsi ilə quru yolla daşınırdı? Alman tarixçisi Heyd bu suala belə cavab verir: "Zənnimizcə, axırıncı yol şübhəli görünür. Bərzəx əhalisinin siyasi və dini cəhətdən Yunan imperiyasına bağlı olan xristian hissəsi ilə Xəzər dənizinin cənub-qərb hissəsinin sahibi olan müsəlmanlar arasında antaqonizm var idi və bu cəhət ticarət əlaqələrinə o qədər də əlverişli şərait yaratmırdı[3]. Bundan əlavə, xristian Gürcüstanına ərəblərin çoxlu basqınları quru yolları o qədər də etibarlı etmirdi. Nəhayət, müxtəlif tayfaların yaşadığı Qafqaz sıldırım və əyri-üyrü cığırları ticarət yolu salmaq üçün heç də münasib deyildi. Beləliklə, Xəzər dənizi sahilində yaşayanlar çətin

---

[1] Əl-Bəlazuri, səh. 206.

[2] A.Şeyxsəidov. Xristianlığın və islamın Dağıstana sirayət etməsi haqqında, səh. 67.

[3] Doğrudan da, D.Q.Kapanadzenin (“Грузинская нумизматика”, Тбилиси, 1953) əsərindən gördüyümüz kimi, Qərbi Gürcüstanda ərəb pulları məlum deyildir. Bunu SSRİ ərazisində sikkə dəfinələrinin topoqrafiyası təsdiq edir. B a x: Р.Р.Фасмер. Завалишинский клад куфических монет VIIl-IX вв., стр. 1-19.

ki, Qafqazın quru yolları ilə ticarətə gedəydilər, çünki Volqa vasitəsilə limana getmək üçün geniş yollar onların üzünə açıq idi"[1].

Azərbaycan tacirləri, habelə, bu ölkədən keçən ərəb tacirləri Volqa ilə yuxarı qalxaraq, şimala doğru bulqarlara tərəf gedirdilər[2]. Bu tacirlər orada öz mallarının $^{1}/_{10}$ dəyəri hesabilə gömrük verir və yaxşı sövdə edirdilər, çünki islam dinini qəbul edən bulqarlar ticarət işlərinə mane olmurdular[3]. Bulqar və burtaslardan Azərbaycan, Arran və bütün Xilafət bazarlarına samur, dələ və tülkü xəzi xəz papaq, ox, balıq yapışqanı, qılınc, zirehli geyim, slavyan qullar mis, mum və s. gəlirdi[4].

Ərəblər bizanslıların Qara dənizdən keçən əsas ticarət yollarını pozaraq, bu yolları şərqə, Xəzərə tərəf keçirmişdilər; bu isə Xəzər ətrafındakı şəhərlərin coşqun inkişafına səbəb olnıuşdu. Ərəblər Xəzər dənizi - Volqa ticarət yolunu nəzarət altına almağa başladılar[5], o zamana qədər isə bu yol Bizansın əlində idi. Ərəblərin hərbi siyasəti də böyük cənub-şimal ticarət yolunun cinahını qorumağa yönəldilmişdi, ərəblər şimalda Tiflisdən Dərbəndədək geniş ərazini öz əllərində tutduqlarına görə onların bu siyasəti müvəffəqiyyətli idi. Ərəblər Bizansən dayağı olan xəzərləri məğlub etmişdilər və artıq onlar yeni ticarət magistralı üçün ciddi bir təhlükə təşkil etmirdilər. Xəzər dənizində bütün limanlar ərəblərin əlində idi və ibn Havqəlin dediyinə görə bu limanlara "tez-tez bir limandan başqasına gedən tacir gəmiləri gəlirdi"[6].

---

[1] Xəzərdən Qafqaz bərzəxi ilə Qara dənizə ticarət yolu haqqında Z.İ.Yampolskinin məqaləsinə bax.

[2] Ət-Tənuhi. Nişvar, səh. 282-284.

[3] İbn Rusta, səh. 140-141.

[4] Əl-Müqəddəsi, səh. 324-325; П.Савельев. Торговля волжских булгар. ЖМНП, 1886, № 8; А.П.Ковалевский. Книга Ахмеда ибн Фадлана и его путешествия на Волгу в 921-922 гг. Харьков, 1956.

[5] Б.Н.Заходер. Из истории волжско-каспийских связей древней Руси. СВ, 1955, №3, стр. 108-118.

[6] İbn Havqəl. BGA, II, səh. 386-398.

Sonralar, X əsrdə Xilafətin qüdrəti tənəzzülə uğradıqda rusların gəmiləri Xəzər hövzəsinə soxulmağa başladı; dənizdə cəsarətli reydlər keçirən bu gəmilər hətta Arranın paytaxtı Bərdəyə də gəlib çatırdı (943-944)[1].

Xilafətin ruslarla ticarəti haqqında olduqca çox məlumat vardır. İbn Xordadbeh göstərir ki, rus tacirləri Volqa ilə aşağı enərək, Xəzər dənizinin cənub sahillərinə gəlir və oradan öz mallarını dəvələrə yükləyib Bağdada gedirdilər. Orada ruslar kafir hesab edildiklərinə görə öz mallarına gömrük verməkdən əlavə bir də cizyə verirdilər[2]. Ruslar Novqoroddan dələ dərisi, xəz və qul gətirirdilər[3]. Xilafətdən gələn tacirlər Xəzər hövzəsi ilə bilavasitə Kiyevlə ticarət edirdilər[4]. Baltik dənizi sahillərindən Xilafətə kəhrəba aparılırdı[5].

Pskov ətrafında, Volqa hövzəsində Yaroslavl, Vladimir və Kazanda, Dnepr sahillərində, Vitebskdə və Baltik dənizi sahillərində tapılan sikkə dəfinələri Xilafətin Rus dövləti ilə geniş ticarət əlaqələri saxladığını göstərir[6].

Arrandan, o zaman məşhur olan toxunma mallar aparılırdı. Bu mallar Dərbənd yolu ilə müxtəlif ölkələrə gedirdi, çünki bu şəhər toxucu müəssisələrinin məhsulu üçün bölüşdürücü məntəqə idi[7].
Arran Xilafətin bütün bazarlarında çox tələb olunan boyaq və zəfəran ixrac edən bir ölkə kimi də məşhur idi. Arran ixracatının xüsusi maddəsini qızıl boyaq təşkil edirdi. "Bab ül-Əbvabdan Tiflisədək bütün Ran ölkəsində yerdə boyaq bitir və burada onu külli miqdarda yığırlar. Bu məhsul su yolu ilə Xəzərdən Cürcana, oradan da karvanla Hindistana göndərilir. Bu məhsul öz keyfiyyətinə görə

---

[1] D.S.Margoliouth. The Russian Seisure..., p. 82-95; А.Ю.Якубовский. Ибн Мискавейх о походе руссов на Берда’а/

[2] İbn Xordadbeh, səh. 154.

[3] İbn Rusa, səh. 145.

[4] İbn Havqəl, səh. 392, 397; əl-İstəxri, səh. 225-226.

[5] Əl-Mərvəzi, səh. 16-17; əl-Məsudi, II, səh. 15-18.

[6] Р.Р.Фасмер. Завалишинский клад, стр. 10-19

[7] А.Мюллер. История ислама, т. II, стр. 161.

bütün digər boyaqlardan üstündü[1]. Arrandan nərə balığı kürüsü də ixrac edirdilər[2].

Yuxarıda qeyd edildiyi kimi, Arran və Xilafət tarixində çox böyük rol oynayan Bərdə Xilafətin bu rayonunda ən əhəmiyyətli bir şəhər idi. Bartold göstərmişdir ki, Bərdə ərəblərin Zaqafqaziyadakı əməliyyatı və bütün ticarət yollarının mərkəzi və kəsişdiyi yer, şimal ilə tranzit ticarətinin mərkəzi idi[3]. M.Kalankatukluya görə bu şəhər Sasani şahı Perozun (Pərvizin) (459-488) əmrinə əsasən padşah Vaçe tərəfindən salınmışdır[4]. Bəlazuri bildirir: "Kavad... Arranda bütün ölkənin [baş şəhəri] Bərdə şəhərini saldı"[5]. Həmdullah əl-Qəzvini yazır ki, Bərdəni Makedoniyalı İskəndər salmışdır, sonralar isə şəhəri Sasani Kavad (Qubad) abadlaşdırmışdır[6]. Mirxond Bərdənin əsasının əsasının qoyulmasını Kavadın (Qubadın) şahlığı dövrünə, yəni V əsrə aid edir[7]. Bu axırıncı tarix M.Kalankatuklunun verdiyi belə bir məlumatla təsdiq olunur ki, padşah Vaçaqanın hökmranlığı dövründə (başlanğıcı 487-488-ci ildir) onun çağırdığı Aquen dini yığıncağında Partav arxiyepskopu Şupxakişo və Partav (Bərdə) keşişi Mate iştirak edirdilər[8].

İranla Bizans arasında gedən müharibələr zamanı Bərdə 628-ci ildə Bizansın müttəfiqi olan xəzərlər tərəfindən dağıdılmışdı. Şəhər yalnız birinci Əməvi xəlifəsi Müaviyə dövründə (661-680) Arran hakimi Əbd ül-Əziz ibn Hatəm tərəfindən bərpa edildi; o, "Bərdəni bərpa etdi, başqalarının dediyinə görə isə şəhəri tikdirdi və ətrafında möhkəm xəndək qazdırdı, çünki ondan əvvəl şəhər

---

[1] Əl-İdrisi. Nüzhət əl-Muştaq, Leninqrad Dövlət kitabxanası, № 176, vər. 101 b.

[2] Əl-Məsudi, I, səh.438.

[3] В.В.Бартольд. Историко-географический обзор Ирана, стр. 151.

[4] История Агван, стр. 32, 141, 143/25, 113, 115.

[5] Əl-Bəlazuri, səh. 193.

[6] The Geographical Part of the Nuzhat al-Qulub, p. 91.

[7] Mirhond. Rövzat əs-səfa, c. I, Bombey, 1271 h, səh. 233.

[8] История Агван, стр. 65, 66/50.

tamamilə dağıdılmışdı". Bəziləri belə güman edirlər ki, Bərdəni Əbd ül-Malik ibn Mərvanın xəlifəliyi zamanı Məhəmməd ibn Maraği təsis etmişdir. Vaqidi bildirir ki, "Əbd ül-Malik Bərdə şəhərini Hatəm ibn ən-Nöman əl-Bəxilinin və ya onun oğlunun köməyi ilə inşa (bərpa-Z.S.)etmişdir"[1].

Cəlaləddin əs-Suyuti təsdiq edir ki, Bərdə "hicri 85 (704)-ci ildə Əbd ül-Əziz ibn Hatəm tərəfindən təsis (bərpa - *Z.B.)* edilmişdi"[2].

Bərdənin ərəblər tərəfindən salındığı barədə əlbəttə, danışıq ola bilməz, çünki hələ Sasanilər dövründə tarixçi şəhəri "böyük" adlandırmışdı və bu şəhər Arranın paytaxtı idi[3]. Ərəblər Arranı işğal etməzdən əvvəl, İran mərzbanlarının [4] və 552-553-cü illərdə katolikosların Çoqadan köçürülmüş patriarx taxtının iqamətgahı Bərdədə idi. Ərəblər ölkəni işğal etdikdən sonra knyaz taxtı ilə birlikdə xəlifə canişinlərinin də iqamətgahı Bərdədə idi.

Əməvilərin hökmranlığı dövründə ərəblər Arranın daxili işlərinə demək olar ki, qarışmayıb, ölkədən bac almaqla kifayətləndikləri halda, 752-ci ildə Abbasilərin dövründə "Ağvan knyazlarının" əlindən alınan Bərdə Arran vilayətinin paytaxtı oldu və bu zamandan şəhər ərəblərin tam nəzarəti altına keçdi. Xəlifə Mənsurun hökmranlığı dövründə canişin Yəzid ibn Useyd olanda, Bərdənin öz sikkəxanası var idi və burada "Bərdə" möhürü ilə pul kəsilirdi[5]. Lakin M.Kalankatuklu bildirir ki, hələ 160 (712)-cı ildə canişin Əbd ül-Əziz ibn Hatəm əl-Bəxili Bərdədə qalmışdı[6] və bu əhvalat xəlifə II Validin (705-715) hökmranlığı dövründə baş vermişdi. Buna görə belə güman etmək olar ki, ərəb sikkəxanası

---

[1] Əl-Bəlazuri, səh. 205; əz-Zəhabi, səh. 43.

[2] History of the Caliphs..., p. 321.

[3] История Агван, стр. 6, 32, 90, 135, 240; К.Гандзакеци. история, стр. 101.

[4] История Агван, стр. 121/96.

[5] Е.А.Пахомов. Монеты Азербайджана, стр. 60.

[6] История Агван, стр. 260/208.

Bərdədə çoxdan var idi, çünki "Arran" möhürü ilə hicri 89 (707-708)-cu il tarixli sikkələr vardır[1].

Sasanilər dövründəki Bərdənin əzəməti haqqında M.Kalankatuklunun verdiyi yazılı məlumat istisna olmaqla, əlimizdə bu şəhərin həyatı barəsində başqa təfsilat yoxdur, çünki hələ 1934-cü ildə Y.A.Paxomov qeyd etmişdi ki, "ərəblərdən əvvəlki Partavdan hələlik sikkə puldan başqa beç bir şey tapılmamışdır. Ərəblərin dövründəki şəhərdən yalnız, torpağın altında qalan binaların bünövrəsi..., qurumuş suvarma kanalları, bir neçə on il bundan əvvəl bəzi yerlərdə küçələrin istiqamətini göstərə bilən qeyri-müəyyən təpələr, qab-qacaq qırıntıları, sikkə pul və i.a. qalmışdır"[2].

Xristian ruhanilərinin köməyi ilə Arranda öz təşəbbüslərini həyata keçirən ərəblər bu yardımdan istifadə etmək zərurətinin aradan qalxdığını görəndən sonra katolikosluq Bərdədən uzaqlaşdırıldı və katolikos Ovanesin dövründə (797- 822) patriarx taxtı Berdakura köçürüldü[3].

Bütün ərəb tarixçiləri Bərdənin əhəmiyyəti və əzəmətini qeyd edirlər. "Bərdə şəhəri Arranın paytaxtı və bu ölkənin mərkəzidir. Bərdə qədim zamanlardan böyük şəhər olmuşdur; onun uzunluğu təqribən bir fərsəx, eni isə fərsəxdən bir qədər az idi. Əkin və meyyələri bol, ağac və suları çox olan sağlam, çiçəklənən bir şəhərdir. Iraqla Təbəristan arasında Rey və İsfahandan sonra, öz mövqeyinə görə, öz əkinləri, bazarları, karvansaraları, malları və ticarətinə görə ondan daha böyük, daha artıq çiçəklənən, daha gözəl bir şəhər yoxdur. Bərdədən çoxlu ipək ixrac edilir. Baramaqurdunu tut ağacı ilə bəsləyirlər. Onun [ipəyin] çoxu buradan Fars və Xuzistana göndərilir. Bərdənin [məşhur] darvazalarından biri "Kürdlər darvazası"dır, onun yanında sahəsi bir fərsəx olub "el-

---

[1] Е.А.Пахомов. Монеты Азербайджана, стр. 43; müqayisə et: В.М.Сысоев. Берда'а, стр. 56.

[2] Е.А.Пахомов. Башни и мавзолеи в Барде, стр. 82.

[3] История Агван, стр. 282/230; К.Гандзакеци. История, стр. 102. Bərdənin tarixi haqqında daha ətraflı məlumat üçün b a x : Л.П.Ташчьян. Средневековая Барда в период расцвета, стр. 52-61.

Kurkiy bazarı"[1] adlı bir bazar vardır. Hər bazar günü bütün ölkələrdən gələn camaat bazara yığılır və alver edirlər. Bərdə came məscidində bu diyarın beyt ül-malı vardır; bu beyt ül-mal Əməvilərin Misirdəki beyt ül-mallarının eynidir"[2].

Bərdədə hazırlanıb buradan ixrac edilən mallar, habelə bu yerin kənd təsərrüfatı məhsulları haqqında İstəxrinin verdiyi məlumat maraqlıdır: "[Bərdədən] bir fərsəxdən az uzaqlıqda əl-Əndərab adlı bir yer vardır ki, bu da Qarna, Lasub və Yəqtan arasında yerləşir və sahəsi bir günlük yoldan artıqdır. Bu yerin bağ və bostanları boldur. Burada hər cür meyvə yetişir, bunlardan əl-bunduq [fındıq] Səmərqənddəkindən yaxşıdır. Oradakı əş-şahibbəllüt [şabalıd] Suriyadakından gözəldir. Onlarda ər-ruqal [zoğal] adlı bir meyvə vardır ki, əl-ğubeyrə [zeytuna] oxşayır. Onun içərisində çəyirdəyi vardır. Bu meyvə yetişəndə şirindir, lakin kalı acıdır. Əş-şahibəllut qozun yarısı boydadır, dadı əl-bunduq və ər-rutəb [təzə xurma] kimidir. Bərdədə Labusdan gətirilən əla keyfiyyətli ət-tin [əncir] vardır. [Bərdədən] çoxlu barama [əl-əbrişəm] aparılır, baramaqurdunu isə orada geniş tut ağaclıqlarında bəsləyirlər. Buradan Fars və Xuzistana çoxlu ipək ixrac edirlər.

Bərdənin üçdə bir fərsəxliyində əl-Kurr (Kür) çayı [axır]. Əl-Kurr çayında isə əs-surmahi balığı vardır ki, duza qoyulmuş halda müxtəlif ölkələrə göndərilir. Əl-Kurr çayından habelə əz-zərəkan və əl-əşubə adlı balıq tutulur. Bu diyarda həmin balıqların hər ikisi digər balıqlardan üstün hesab edilir. Bərdədən həmçinin qoşqu heyvanı və boyaq ixrac edilir"[3].

Ərəb müəlliflərinin məlumatına görə[4], Azərbaycanın ən böyük şəhərlərindən biri Ərdəbil idi; bu şəhər demək olar həmişə

---

[1] Yunanca bazar, bazar günü deməkdir.

[2] İbn Havqəl, BGA, II, səh. 337-339; əl-İstəxri, BGA, I, səh. 182-184; əl-Müqəddəsi, BGA, III, səh. 379; "Bərdə bu vilayətin Bağdadıdır"; Hüdud əl-Aləm, səh. 113.

[3] İstəxri, səh. 182, 183, 184, 218; müqayisə et: Ibn Havqəl, səh. 388.

[4] İstəxri, səh. 181; ibn Havqəl, səh. 335; Hüdud əl-Aləm, səh. 142. 154

ölkə hökmdarlarının iqamətgahı olmuşdur. IX əsrin axırlarında şəhərin sahəsi üçdə iki fərsəx idi. Onun ətrafına hasar çəkilmişdi, üç darvazası var idi. Şəhər gözəl idi və ərzaq qiymətlərinin ucuzluğu ilə şöhrət qazanmışdı. Ərdəbildə və onun ətraf mahalında 50 çörək bir dirhəm, batman yarım (1,4 kq) ətin qiyməti də bir dirhəm idi. Bal, ərinmiş yağ, qoz, kişmiş və bütün qida maddələri o qədər ucuz idi ki, bunları az qala müftə verirdilər. Ərdəbilin yaxınlığında güclü istehkamları olan böyük Kursara qalası vardı. Geniş vilayətlər və çiçəklənən kəndlər bu qalanınkı idi. Hər ay müəyyən vaxtda (hər yeni ay çıxanda) burada böyük bir bazar açılırdı. Əslində bu, bazarlar kompleksi idi, çünki Kursara bazarı orta əsrlərə məxsus ən böyük yarmarka idi. İbn Havqəl özü burada olmuş və bazarı çox gözəl təsvir etmişdir: "Mən bu bazara [yarmarkaya] çoxdan bələdəm və hələ gənc ikən orada olmuşam. Buraya müxtəlif ölkələrin camaatı toplanır. Onlar buraya mal, satlıq şey, parça, mücrü [səqət], əl-bərbixar [?], ətriyyat, keçə, qul, sərrac məmulatı, sərrac alətləri ilə çox hazırlanmış yəhər, qılınc, kisə, bəzək şeyləri, silah asmaq üçün Marağa gönündən hazırlanmış kəmər gətirirdilər. Orada İraqdan gətirilmiş latun, saf qızıl və gümüşdən qayırılmış məmulat, at, qatır, uzunqulaq, qaramal və davar var idi. Əgər biri desəydi ki, bu torpaq və vilayət vəqf torpaqlarından genişdir və burada olan şeylərin hamısı onun çöllərində, dağlarında, hüdudunda külli miqdardadır, sadaladığım və nəzərdə tutduğum müxtəlif şeylərdən daha çoxdur; hər halda mən bunu ayrıca yoxlayıb təsdiq etmədən inanmazdım, hərçənd vəqf torpaqları Araratadək üç fərsəx uzanır.

Yarmarkaya gələnlərin arasında Azərbaycan tacirləri və torpaq sahiblərinin başçısı Əbu Əhməd ibn Əbd ür-Rəhman əş-Şizi əl-Marağí də var idi. Onun katibi Əbü-1-fəth ibn Mehdi ona dedi: "Əbu İshaq əl-Macardani öz mal-qarasını satıb oraya getdi və [ona tapşırılmış] mal-qaramızı bizə qaytarmadı". [Əbu Əhməd] soruşdu: "O nə qədər satdı?" Katib cavab verdi: "Yüz min baş". Mən Əbu Əhməd-dən xahiş etdim bunu bir neçə dəfə təkrar və təsdiq etsin. O dedi: "Sən başa düşdünmü? Əbu Əhməd bazar olmayan bu yerdən bir milyon qoyunla çıxıb getdi". Mən ondan xahiş etdim, bu sözləri

bir də təkrar etsin. O dedi: "Bəli! Şueyb də eyni miqdarda [qoyunla]"[1].

Arranın başqa böyük şəhəri Gəncə idi. Bu şəhərin meydana gəlməsi barəsində çoxlu fıkir irəli sürülür. İ.M.Cəfərzadə belə hesab edir ki, Gəncə "həmin yerdə, özünün inkişaf etmiş mədəniyyəti olan qədim yaşayış məntəqəsindən" əmələ gəlmişdir[2]. Gəncənin əmələ gəlməsi barəsində orta əsr müəlliflərinin verdiyi məlumatı və tədqiqatçıların mülahizələrini bildirməyi zəruri hesab edirik. Hələ XVIII əsrdə V.Bezmenov rəvayət əsasında belə bir fikir irəli sürmüşdü ki, Gəncə Makedoniyalı İskəndər tərəfindən salınmışdır[3]. Başqa bir müəllif belə hesab edir ki, şəhər eramızdan əvvəl II əsrlə eramızın IV əsri arasındakı dövrdə əmələ gəlmişdir [4]. Y.A.Hagemeyster belə güman edirdi ki, Gəncə Bərdədən və Beyləqandan qədimdir[5]. İ.Şopen də eyni məzmunda fikir irəli sürmüşdür. "Bərdədən yaxın məsafədə başqa bir şəhər, yəni Gəncə inkişaf edirdi ki, onun da başına növbə ilə eyni hadisələr gəlirdi. Onların mənşəyi, gərək ki, bir-birinin eynidir"[6]. Mənbələrə baxılsa, Gəncənin əmələ gəlməsinin ən qədim tarixini XV əsr müəllifı Mirxond yazmışdır: şəhəri şah Kavad [Qubad] salmışdır[7]. Qəzvini Gəncənin əsasının qoyulmasını hicri 39-cu ilə (659-660) aid edir[8]. M.Kalankatukluda belə məlumat vardır: "Sonrakı qoşa illər keçəndən sonra (yəni, erm. 287-ci il +2 + 2 = erm. 291 -ci il - eramızın 842/3-cü ili] rəhmsiz və qəddar Xazr Patqos gəldi; o həmin ildə öldürüldü.

---

[1] İbn Havqəl, səh. 351-352.

[2] İ.M.Cəfərzadə. Qədim Gəncənin tarixi arxeoloji oçerki, səh. 102.

[3] В.Безменов. Материалы для древней географии Закавказья по персидскому сочинению "Зинет-уль-таджлис", т. I, 1822-1823, стр. 135.

[4] Русские города", стр. 37.

[5] Ю.А.Гагемейстер. Новые очерки Закавказья, стр. 87.

[6] И.Шопен. Новые заметки на древние истории Кавказа и его обитателей, стр. 486.

[7] Mirxond, səh. 233,

[8] Həmdulla Qəzvini, səh. 91; V.V.Bartold (Ganja, El) belə zənn edir ki, hicri 39, yəqin hicri 239-cu ilin qısaldılmışıdır.

Onun oğlu [Məhəmməd] ölkəmizə gəlib onu qılıncdan keçirərək əsir apardı, bir çox kilsəni yandırdıqdan sonra Bağdada getdi. Yenidən şahın fərmanı və xəzinəsi ilə oraya gəldi və Arşakaşen vilayətində Dandzak şəhərini tikib qurtardı” [1].

Nəhayət, "Dərbəndnamə"də belə məlumat vardır ki, Gəncə VII əsrin axırı - VIII əsrin əwəllərində var idi[2]. Lakin bunu heç bir ərəb müəllifı təsdiq etmir.

Gəncənin nə zaman əmələ gəldiyi haqqında fıkir yürütmək üçün bir cəhət daha vardır ki, bu da hicri 94 (712-713)-cü ildə Gəncədə kəsilmiş dirhəmdir. Lakin Y.A.Paxomov belə güman edir ki, "gələcək şəhərin yerində hələ VIII əsrin əvvəllərində eyni adda salınmış bir yaşayış məntəqəsi var idi; ola bilər canişin qoşunları yolüstü burada qalmışlar və onlarla müvəqqəti səfər sikkəxanası var imiş"[3].

Münəccimbaşının əsərinə daxil olan "Şərvan və əl-Babın tarixi"ndə Gəncənin tikilməsi barəsində belə məlumat vardır: "245 (859)-ci ildə [Məhəmməd ibn Xalid ibn Yəzid ibn Məzyəd] Arran vilayətində Gəncə şəhərini tikdirdi. Bu şəhərin salınmasına səbəb bu idi ki, o, Cubant (Xunan?) yaxınlığında üç təpə olan yerdə qaldığı zaman, üç gecə dalbadal [yuxu görür ki]; ortadakı təpədə xəzinə (gənc) vardır və ucadan bir səs ona deyir: "Təpəyə qalx və atını orada saxla, sənin atın dırnağı ilə yeri döyəcləyəndə, əmr et, bu yeri qazsınlar və orada nə varsa çıxart, tapdığınla şəhər sal və adını qoy Gəncə ("Xəzinə"), O belə də etdi və üç qazan tapdı, biri ağzınadək dinarla, ikisi dirhəmlə dolu idi. Həmin pulla Gəncə şəhərini saldı və Bağdada qayıdaraq xəlifəyə xəzinə və şəhər haqqında məlumat verdi. Xəlifə belə dedi: "Məni bu şəhər əsla maraqlandırmır, sən mənə nağd pulu gətir". Məhəmməd ona pul [vermək] boyun oldu ki, əvəzində

---

[1] История Агван, стр. 270/218. erm. 291 (300.4. 842-29,4. 843)-ci il. Xazr (Xald) Patqos Xalid İbn Yəzid ibn Məzyad; V.Minorsky. A Hisfory of Sharvan and Darband, p. 57.

[2] Dərbəndnamə, səh. 513.

[3] Е.А.Пахомов. Монеты Азербайджана, стр. 46.

xəlifə ona və onun varislərinə şəhəri və indiyədək "xalidiyyə" adlanan məşhur malikanələri bağışlasın. Xəlifə bunu təsdiq etdi, Məhəmməd də Gəncəyə qayıtdı"[1].

J.A.Manandyan şəhərin salınması tarixi üçün 844-cü ili göstərir[2].

Beləliklə, biz Gəncənin əmələ gəlməsi haqqında müxtəlif tarixlərlə qarşılaşırıq [3]. Lakin şəhərin tarixi ilə məşğul olan müəlliflərdən heç biri onun əmələ gəlməsinin dürüst tarixini göstərə bilməmişdir. İ.M.Cəfərzadə belə hesab edir ki, Gəncə Sasani Kavad (Qubad) tərəfindən tikilməmiş, VII əsrdə (hicri 39-cu ildə) ərəblər tərəfindən salınmamış və "IX əsrdə Abbasilər sülaləsindən olan Bağdad xəlifəsinin fərmanı ilə" [4] inşa edilməmişdir, əksinə, bu tarixlərdən çox əvvəl mövcud olmuşdur.

Nə deyilirsə deyilsin, əhəmiyyətli ticarət şəhəri olan Gəncə yalnız 944-cü ildə Bərdə şəhərinin ruslar tərəfindən darmadağın edilməsi ilə əlaqədar olaraq Bərdənin əhəmiyyəti düşdükdən sonra məşhur olmuşdur.

Dərbənd şəhəri Xilafətlə şimal ölkələri arasında mal mübadiləsində böyük rol oynayırdı. Xəlifələr Dərbəndin strateji və ticarət nöqteyi-nəzərindən xüsusi əhəmiyyətini nəzərə alaraq burada azad şəhərə oxşar bir idarə orqanı qurmuşdular; bu orqana əmirlər, yaxud rəislər şurası başçılıq edirdi. Hələ 736-cı ildə Əsəd ibn Zafirin başçılığı ilə xəlifə Hişam tərəfindən Dərbəndə göndərilən 400 əmir şəhərin bu cür idarə orqanının əsasını qoydu. Şəhərin başçısı (rəislərin rəisi) öz işində nizamnamə və ya hərəkət dəstur ül-əməli ilə məhdud edilmişdi. Şəhərin bu cür xüsusi vəziyyəti bir də ondan irəli gəlirdi ki, Dərbənd qarnizonu ilə sərhəd qalalarındakı qarnizonlar xəzinədən maaş almayıb, yerli idarənin hesabına dolanırdı. Buna

---

[1] V.Minorsky. A History of Sharvan and Darband, p. 3-4

[2] Я.А.Манандян. О торговле и городах Армении в связи с мировой торговлей древных времен, Ереван, 1954, стр. 198.

[3] М.М.Альтман. О времени возникновения Гянджи как города, стр. 81-85.

[4] İ.M.Cəfərzade. Sitat gətirilən əsəri, səh. 102.

görə də bir sıra vilayətlər, Abşeronun neft və duz mədənlərinin gəliri xəlifələrin sərəncamı ilə vəqf olaraq sərhəd qoşunlarına verilmişdi. Dərbəndin rəislər rəisinə əmr edilirdi ki, şəhərin mühafızəsinə, qayda-qanuna və təmizliyinə nəzarət etsin. "Əgər hakim əhalidən xərac, üşr və paltar vergisi alarsa, ya da Dərbəndin qazılarını hər hansı bir mükəlləfiyyət daşımağa məcbur edərsə, hakim vəzifəsindən kənar ediləcəkdir. Əgər Dərbənd hakimi, qalanı müdafiə etməyə qüdrəti olmazsa, əgər o, qədim məlum olmayan bir zülmlə əhalini sıxışdırarsa, vəzifədən çıxarılmalı və başqa hakim təyin edilməlidir. Əgər Dərbəndin hakimi ölərsə, ya da əhaliyə zülm edərsə, bu şəhərə ləyaqətli hakim gəlincəyədək rəislər onun yerinə müavin təyin etməlidirlər. Əgər Dərbənd hakimi müəyyən adamları müharibəyə göndərərsə, xəlifə Hişamın Əsəd ibn Zafirlə birlikdə Dərbəndə göndərdiyi 400 nəfərdən birini [onlarla bərabər] göndərməlidir və bu zaman digər qoşunlar şəhəri müdafiə etməlidirlər"[1].

"Dərbəndnamə"yə görə, hətta Harun ər-Rəşidin özü şəhərdə olmuşdur; o həm döyüşçülərin, həm də şəhərin rifahı qeydinə qalaraq, "əmr etdi ki, Rubas çayından bir neçə kanal çəkilsin, nəticədə su şəhərin ətrafına gəldi. O, bağ və bostanlar saldı, dəyirmanlar tikdirdi və bunların hamısını Dərbəndə vəqf etdi"[2].

Deмək lazımdır ki, Dərbəndin hakim dairələri Xilafətin təkcə hərbi-strateji mənafeyini qorumaq deyil, həmçinin ticarət mənafeyini də qoruyurdular, 739-cu ildə Məsləmə ibn Əbd ül-Malik sərəncam vermişdi ki, "Xəzər tacirləri ticarət üçün Dərbəndə gəlsələr, şəhərdən bir fərsəx aralı dayanmalı və orada alver etməlidirlər. Əgər Dərbənd əhalisindən biri Xəzər ölkələrinə gedib ticarət etmək istəsə, ya öz malının dəyərinin onda birini ödəməli, ya da ticarəti buraxmalıdır"[3]. Şəhərə gələn Xəzər elçilərinin gözlərini bağlayırdılar ki, şəhərin istehkam sistemindən bir şey başa düşə bilməsinlər. "Kafirlərdən heç

---

[1] Dərbəndnamə, səh. 109; müqayisə et: В.В.Бартольд. Место прикаспийских областей, стр. 27.

[2] Dərbəndnamə, səh. 128.

[3] Yenə orada, səh. 92-110.

kəs yanında müşayiətçi olmadan qalaya girməməlidir. Kafirlərdən olan elçi qalaya gözü bağlı gətirilməli və eyni qaydada çıxarılmalıdır ki, qalada heç bir şey, nə onun hasarlarını, nə də darvazalarını görməsin"[1].

Ticarət məqsədi ilə Xilafət ərazisinə, bu halda isə Dərbəndə gələn yadellilərdən gömrük rüsumu alınırdı. Bu rüsumlar hələ xəlifə Ömər ibn əl-Xəttabın hökmranlığı dovründə qoyulmuşdu; o, belə sərəncam vermişdi: "Xarici [hərbi] tacirlər bizim torpaqlara gələndə, onlardan on faiz alın, çünki digər ölkələrdə (dar ül-hərb) müsəlmanlardan da eynilə o qədər alırlar. Zimmi tacirlərdən [mallarının dəyərindən] beşdə bir, müsəlman tacirlərdən ümumi dəyəri 200 dirhəm olanda beş dirhəm, sonrakı hər 40 dirhəmdən bir dirhəm alın”[2]. Gətirilən əmtəə, habelə qul, heyvan və hər cür əşya üzərinə qoyulan bu rüsumlar xəlifə xəzinəsinə çox böyük gəlir verirdi. İbn Havqəlin verdiyi məlumata görə, gömrük rüsumları ildə 100 min dirhəmdən 1 milyon dirhəmədək gəlir verirdi[3].

VIII-IX əsrlərdə genişlənən ticarət xəzinəyə böyük gəlir və mənfəət verirdi. Lakin bu ticarətə çox pul qoyulması, bəzən də qısamüddətli, ya da uzunmüddətli borc verilməsi tələb olunurdu ki, bu da sələmçiliyin inkişafına kömək edirdi. M.Kalankatuklu göstərir ki, Arranda faizlə pul borc verən adamlar olmuşdur[4].

Şimala ticarət yolu Xilafətin paytaxtı Bağdaddan başlanıb, Zəncan və Ərdəbildən keçərək, Zaqafqaziya vasitəsi ilə xəzərlərə, bulqarlara, burtaslara tərəf gedirdi. Ərdəbil mərkəzi qovşaq nöqtəsi idi və Cənubi Azərbaycanda məsafə buradan başlanaraq ölçülürdü, Şimali Azərbaycanda isə belə bir nöqtə Bərdə idi[5].

---

[1] Yenə orada, səh. 110.

[2] Yəhya ibn Adəm. Kitab əl-Xərac, əl-Qahirə, səh. 173.

[3] İbn Havqəl, səh. 104.

[4] История Агван, стр. 249/199; Müqayisə et: А.Якубовский. Ирак на грани VIII-IX вв., стр. 43.

[5] Eyni zamanda biz münasib hesab edirik ki, ərəb mənbələrində məsafənin ölçülməsi haqqında N.Karaulovun yazdığını burada qeyd edək. Məsafənin dürüst olmamasının səbəbi budur ki, bunları "minik heyvanlarının yerişi ilə ölçürdülər, ərəblər düzənlikdə yaşadıqlarına görə Qafqazın dağ yerlərinə səfər

Aşağıda Azərbaycanın digər ölkələrlə əlaqələrini göstərən ticarət yolları haqqında coğrafıyaşünasların məlumatını veririk.

**Bərdədən Ərdəbilə ticarət yolu.** *İstəxri* (BGA, I, 192) deyir: Bərdədən Yunana 7 fərsəx, Yunandan Beyləqana [1] 7 fərsəx, Beyləqandan Varsana 7 fərsəx, Varsandan Bəlhəbə 7 fərsəx, Bəlhəbdən Bərzəndə 7 fərsəx, Bərzənddən Ərdəbilə 15 fərsəxdir. *İbn Havqəl* (BGA, II, 531) bildirir: Bərdədən Muyan kəndinə 7 fərsəx, Muyandan Beyləqan şəhərinə 7 fərsəx, Beyləqandan (bu xoşagələn şəhərin zəngin bulaqları, bağları, meşələri və çaylarında çoxlu dəyirman vardır) Varsana (bu şəhər Beyləqandan böyük və genişdir, çoxlu əhalisi, bazarları və müxtəlif malları vardır; böyük şəhərlərdə əhaliyə xidmət yerləri və mehmanxana kimi hər şey burada vardır; şəhərin ətrafına hasar çəkilmişdir; onun öz bazarı olan qəsəbəsi də var) 7 fərsəx, Varsandan Bəlhəbə 7 fərsəx (Bəlhəb əhalisi çox olan bir kənddir, burada poçt stansiyası və müsafirlərin dayanması üçün mehmanxana vardır), Bəlhəbdən Bərzəndə, öz vəziyyətinə görə Beyləqana yaxın olan şəhər, 7 fərsəx, Bərzənddən Ərdəbilə 15 fərsəxdir; bu yolun (hər iki tərəfində) kəndlər və stansiyalar vardır.

*Müqəddəsi* (BGA, III, 381) bildirir: Bərdədən Yunana, ya Bərzəndə, ya Cənzəyə, ya Kalkatusa bir mənzil yol vardı. Yunandan Beyləqana 1 mənzil, sonra Varsana 1 mənzil, sonra Bəlhəbə 1 mənzil, sonra Bərzəndə 1 mənzil, sonra Ərdəbilə 2 mənzil yoldur.

*İbn Xodadbeh* (BGA, VI, səh. 121-122) büdirir: Ərdəbildən Xuşşa 8 fərsəx, oradan Bərzəndə 6 fərsəxdir; Bərzənd dağıdılmışdı, onu Afşin bərpa edib məskunlaşdırdı; Bərzənddən Sadaraspa - Afşinin qurduğu səngərlərin birinci xətti burada idi 2 fərsəx, oradan, səngərlərin ikinci xəttinin olduğu Zəhrkaşa 2 fərsəx, oradan səngərlərin üçüncü xəttinin olduğu Rud ər-Ruda 2 fərsəx, sonra

---

etməyə nisbətlə öz məsafələrini daha sürətlə gedirdilər, Qafqaz dağlarında isəməsafə, həqiqətdə olduğundan daha uzun görünə bilərdi". Н.Караулов. Примечания к СМОМПК, вып. 29, səh. 68, qeyd 68.

[1] Beylaqanın yeri məsələsi Y.A.Paxomov tərəfindən "Paytakaran-Baylakan-Orenkala" adlı məqalədə ətraflı nəzərdən keçirilir.

Babəkin şəhəri Bəzzə 1 fərsəx, Bərzənddən Balasacan çöllərinə və Azərbaycanın son nöqtəsi olan Varsana 12 fərsəx; Varsandan Bərdəyə 8 mənzil, Darmana 3 fərsəx, sonra Beyləqana 9 fərsəx, oradan da Bərdəyə 14 fərsəxdir. Bərdədən Bəzzəyə 30 fərsəxdir.

*Kudama* (BGA, VI, 213) bildirir: Ərdəbildən Xan Babəkə 8 fərsəx; Xan Babəkdən Bərzəndə 6 fərsəx; Bərzənddən Bəlhəbə 12 fərsəxdir; kim Varsandan Bərdəyə gəlirsə, Varsandan Kudama 3 fərsəx, sonra Beyləqana 7 fərsəx, sonra Yunana 3 (7) fərsəx, sonra Bərdəyə 3 (7) fərsəx yol vardır.

*İdrisi* (Coğrafiya, II, 323) bildirir: Bərdədən Bubana 21 mil; sonra Varsana 21 mil; sonra Beyləqana 36 mil yoldur. Beyləqandan Nəcaba 21 mil; sonra Bərzəndə 21 mil, sonra Ərdəbilə 45 mildir. Cəmi 163 (ya da yaxşısı 135) mildir.

**Bərdədən Tiflisə ticarət yolu.** *İstəxri* (səh. 193) bildirir: Bərdədən Cənzə şəhərinə 9 fərsəx, Cənzədən Şəmkirə 10 mənzil, Şəmkirdən Xunana 21 fərsəx, Xunandan ibn Qandaman qalasına 10 fərsəx, Qaladan Tiflisə 12 fərsəxdir.

*İbn Havqəl* (səh. 350) bildirir: Bərdədən Cənzəyə 9 fərsəx, Cənzədən Şamkura 10 fərsəx, Şamkurdan Xunana 21 fərsəx, Xunandan ibn Qandaman qalasına 10 fərsəx, Qaladan Tiflisə 12 fərsəxdir.

*Müqəddəsi* (səh. 382) bildirir: Bərdədən Cənzəyə 1 mənzil, Cənzədən Şamkura 1 mənzil, sonra Xunana 3 mənzil, sonra ibn Qandaman qalasına 1 mənzil, sonra Tiflisə 2 mənzil yol vardır.

*İbn Xordadbeh* (səh. 122) bildirir: Bərdədən Tiflisə 10 mənzil yoldur.

*Kudama* (səh. 227) bildirir: Bərdədən Mütəvəkkilliyyə [Şamxor (indiki Şəmkir)] şəhərinə 6 mənzil, Mütəvəkkilliyyə şəhərindən Tiflisə 10 mənzil yoldur.

*İdrisi* (səh. 323-324) bildirir: Bərdədən Cənzəyə 27 mil, sonra Şamkura 30 mildir. Şamkurdan Xunana 63 mil, sonra ibn Qandaman qalasına 30 mildir. Qaladan Tiflisə 36 mil, cəmi 186 mildir.

**Bərdədən Bab ül-Əbvaba ticarət yolu.** *İstəxri* (səh. 192-193) bildirir: Bərdədən Bərdicə 18 fərsəx, Bərzəndən Kür bərəsinə

və Şamaxıya 14 fərsəx, Şamaxıdan Şərvana 3 gün, Şərvandan Laicana 2 gün, Laicandan Samur körpüsünə 12 fərsəx, Samur körpüsündən Bab ül-Əbvaba 20 fərsəxdir. *İbn Havqəl* (səh. 350) bildirir: Bərdədən Kür kənarında böyük Bardic şəhərinə 18 fərsəx, Bardicdən Kürü keçərək Şamaxıya 14 fərsəx, Şamaxıdan Şərvana 3 gün, Şərvandan Laicana 2 gün, Laicandan Samur körpüsünə 12 fərsəx, Samur körpüsündən Bab ül-Əbvaba 20 fərsəxdir. Cəmi təqribən 90 fərsəxdir. *Müqəddəsi* (səh. 381-382) bildirir: Bərdədən Bərzəncə 1 mənzil, Bərzəncdən Şamaxıya 2 mənzil, sonra Şərvana 3 mənzil, sonra Laicana 2 mənzil, sonra Samur körpüsünə 2 mənzil, sonra da Bab ül-Əbvaba 3 mənzil yoldur.

*Kudama* (səh. 227) bildirir: Bərdədən Bab-ül-Əbvaba 15 mənzildir.

*İdrisi* (səh, 321-322) bildirir: Bərdədən Barduca 54 mil, Barducdan Şamaxıya 42 mil, Şamaxıdan Şərvana 3 mənzil, Şərvandan Laicana 2 mənzil, Laicandan Samur körpüsünə 36 mil, sonra da Bab ül-Əbvaba 60 mildir. Cəmi 300 mil yoldur.

**Bərdədən Dəbilə ticarət yolu.** *İstəxri* (səh. 193) bildirir: Bərdədən Kalkatusa 9 fərsəx, Kalkatusdan Matrisə 13 fərsəx, Matrisdən Davmisə 12 fərsəx, Davmisdən Kil Kuya 16 fərsəx, Kil Kuydan Sisacana 16 fərsəx, Sisacandan Dəbilə 16 fərsəxdir.

*Müqəddəsi* (səh. 382) bildirir: Bərdədən Kalkatusa 1 mənzil, Kalkatusdan Mayrisə 2 mənzil, sonra Dumisə 2 mənzil, sonra Kilvaya 2 mənzil, sonra da Dəbilə.

*İbn Xordadbeh* (səh. 122) bildirir: Bərdədən Dəbilə 7 mənzil yol vardır.

*Kudama* (səh. 227) bildirir: Bərdədən Dəbilə 7 mənzildir.

*İdrisi* (səh. 324) bildirir: Bərdədən Kalkatusa 27 mil, oradan Mayrisə 39 mil, oradan Kaylakavsara (məsafə göstərilməmişdir), oradan Sisacana 48 mil, sonra da Dəbilə 48 mildir. Cəmi 162 mildir.

**Ərdəbildən Marağaya ticarət yolu.** *İstəxri* (səh. 194) bildirir: Ərdəbildən Mayanicə 20 fərsəx, Mayanicdən Xunəcə 7

fərsəx, Xunəcdən Kulsara 3 fərsəx, Kulsaradan Marağaya 10 fərsəxdir.

**Ərdəbildən Amidə ticarət yolu.** *İstəxri (*səh. 194) bildirir: Ərdəbildən Marağaya 40 fərsəx, Marağadan Deh Xarrakana 2 mənzil, Deh Xarrakandan Urmiyaya 2 mənzil, Urmiyadan Səlmasa 2 mənzil, Səlmasdan Təbrizə 2 mənzil, oradan Mərəndə 2 mənzil, Mərənddən Səlmasa 1 mənzil, Səlmasdan Xuveyə 7 fərsəx, Xuveydən Bergeriyə 30 fərsəx, Bergeridən Ərcişə 1 gün, Ərcişdən Xilata 3 gün, Xilatdan Bidlisə 1 gün, Bidlisdən Mayafariqinə 3 gün, Mayafariqindən Amidə 2 günlük yoldur.

*Ibn Havqəl* (səh. 363) bildirir: Ərdəbildən Marağaya təqribən 40 fərsəx, Marağadan Urmiyaya təqribən 30 fərsəx, Urmiyadan Səlmasa 2 mənzil, Səlmasdan Xuveyə 9 fərsəx, Xuveydən Bergeriyə 30 fərsəx, Bergeridən Ərcişə 2 mənzil, Ərcişdən Xilata 3 gün, Xilatdan Bidlisə 3 gün, Bidlisdən Arzan yolu ilə Mayafariqinə 4 gün, Mayafariqindən Amidə 2 günlük yoldur.

*Müqdddəsi* (səh. 383-384) bildirir: Ərdəbildən Mayanicə 2 mənzil, Mayanicdən Xunəcə 1 mənzil, Xunəcdən Kulsara 1 mənzil, sonra Marağaya 1 mənzil, Marağadan Xarrakana, ya da Urmiyaya 2 mənzil, sonra Səlmasa bir o qədər, sonra Xuveyə 1 mənzil, sonra Bergeriyə 5 mənzil, sonra Ərcişə 2 mənzil, sonra Axlata, ya da Bidlisə (hərəsinə) 3 mənzil, Bidlisdən Amidə Mayafariqinə (hərəsinə) 4 mənzil yoldur.

*İdrisi* (səh. 326-327) bildirir: Ərdəbildən Kulsara 84 mil.

Marağadan Urmiyaya 72 mil, Urmiyadan Səlmasa 48 mil, Səlmasdan Xuveyə 27 mil, Xuveydən Bergeriyə 90 mil, oradan Ərcişə 45 mil, oradan Xilata 75 mil, ya da 3 mənzil, Xilatdan Bidlisə 75 mil, oradan Arzana 75 mil, Arzandan Mayafariqinə 112 mil, yaxud 4 mənzil, oradan Amidə 2 mil yoldur.

**Marağadan Dəbilə ticarət yolu.** *İstəxri* (səh. 194) bildirir: Marağadan Urmiyaya 30 fərsəx, Urmiyadan Səlmasa 14 fərsəx Səlmasdan Xuveyə 7 fərsəx, Xuveydən Naxçıvana 3 gün, Naxçıvandan Dəbilə 4 mənzil yoldur.

*İbn Havqəl* (səh. 353) bildirir: Marağadan Urmiya-Səlmas yolu ilə Xuveyə 53 fərsəx, Xuveydən Naxçıvana 5 gün, Naxçıvandan Dəbilə 4 mənzil yoldur.

*Müqəddəsi* (səh. 383) bildirir: Marağadan Urmiyaya 1 mənzil Urmiyadan Səlmasa 1 mənzil, Səlmasdan Xuveyə 2 mənzil, Xuveydən Naxçıvana 3 gün, Naxçıvandan Dəbilə 4 mənzil yol vardır.

*İdrisi* (səh. 328) bildirir: Marağadan Xuveyə 159 mil, Xuveydən Naşavadan Dəbilə 4 mənzil yoldur. Cəmi 305 mildir.

**"Tülkü kitabı"nda**[1] **göstərilən ticarət yolları.** Dvindən Berdkunka 60 mil, Partava 140 mil, oradan Xəzər dənizinə 90 mil.Dvindən Naxçıvana 70 mil, sonra Qandzak-Şaxastana 120 mil.Naxçıvandan Ərdəbilə 200 mil, oradan Vardanakertə 70 mil, oradan Paytakarana (Beyləqana) 60 mil, oradan Xəzər dənizinə 50 mil.

**Ananisi Şirakatsinin**[2] **yollar haqqında məlumatı.** Dvindən Koxba 50 mil, oradan Kotagexeviyə 120 mil, oradan Tpxiko (Tbilisiyə) 140 mil, oradan Unarakertə 70 mil, oradan Partava 100 mil.

**Xəzər dənizi yolları.** *İstəxri* (səh. 226-227) bildirir: Abeskundan sağ sahilboyu Xəzər ölkəsinə təqribən - 300 fərsəx, sol sahilboyu ilə də o qədər yoldur.

Tabasarandan Bab ül-Əbvaba bir həftə, Səməndərdən Bab ül-Əbvaba 4 gün, Sərir padşahlığı ilə Bab ül-Əbvab arasında 3 gün.

*İbn Havqəl* (səh.393) bildirir: Abeskundan Xəzər ölkəsinə 300 fərsəx, Təbəristandan Bab ül-Əbvaba bir həftə, İtildən Səməndərə 8 gün, Səməndərdən Bab ül-Əbvaba 4 gün yoldur.

---

[1] Y.A.Manandyan X əsr erməni əlyazmasının orta əsr itinerarisi.

[2] А.Абрамян. Научные труды армянского ученого VII в. Анании Ширакаци, стр. 355.

Sərir padşahlığı ilə Bab ül-Əbvab arasında 3 gün yoldur. İtildən Burtaslar hüdudunun başlanğıcına 20 gün, bu hüdudların başlanğıcından onun son hüdudlarına təqribən 15 gün, Burtaslar (ökəsindən) peçeneqlərə 10 gün, İtildən peçeneqlərə bir ay, İtildən Bulqar çöllərinə təqribən bir ay, su yolu ilə isə iki ay, Bulqardan Rum hüdudlarının başlanğıcına təqribən 10 gün, Bulqardan Kuyabaya təqribən 20 mənzil yoldur. Peçeneqlərdən başqırdlara 10 gün və başqırdlardan Bulqara 25 mənzildir.

*İdrisi* (səh. 337) bildirir: İtildən Səməndərə 8 mənzil, Səməndərdən Bab ül-Əbvaba 4 mənzildir.

Təbəristandan Bab-ül-Əbvaba, müvafıq külək olarsa, 7 mənzil; külək olmazsa 9 mənzil yoldur.

## 8. VIII-IX əsrlərdə Azərbaycanda etnogenez problemi

İslamın başlanğıc dövründə hər hansı ərəb tayfasının Azərbaycana köçməsi haqqında ərəb tarixçilərinin heç birində məlumata rast gəlmədik. Bu cəhət bizə əsas verir iddia edək ki, həmin dövrdə istilaçılar üçün yeni olan ölkələrdə onların vəziyyəti möhkəm olmadığına görə məskunlaşdırma məsələsindən, yəni bu ölkələrə əhali köçürdüb yerləşdirmək haqqında danışıq ola bilməzdi. Ərəblər yeni ölkələrdə yalnız iri şəhərləri və qovşaq məntəqələri işğal edərək, bunlarda rabitə yollarını qorumaq üçün kiçik qarnizonlar[1] saxlayırdılar, qoşunun əsas hissəsi isə ölkənin içərilərinə doğru irəliləyirdi ki, onu tamamilə ərəblərin əlinə keçirsin.

---

[1] Ət-Təbəri, IV, 22, 251.

Ərəb qoşunlarında hər birləşmə hərbi səfər və müharibələrdə dörd il ərzində iştirak edirdi, bundan sonra ordu toplandığı doğma yerinə qayıdır, onun əvəzində isə sonrakı dörd il üçün yeni ordu göndərilirdi. Təbərinin verdiyi məlumata görə ərəblərdə bu qayda, yeni ölkələri istila etməyin başlanğıc dövründə var idi. "Kufə qoşunlarının hərbi səfər etdiyi vilayətlər Rey və Azərbaycan idi. Bu iki diyarda Kufə əhalisindən on min qoşun var idi: altı mini Azərbaycanda, dörd mini isə Reydə. Bu zaman Kufədə qırx min qoşun var idi. Bunlardan hər iki diyara edilən səfərlərdə yalnız on min qoşun iştirak edirdi, beləliklə, hər bir əsgər hərbi səfərdə dörd ildə bir dəfə iştirak edirdi"[1].

İstila edilmiş ölkələrə ərəblərin köçməsi və bu ölkələrdə məskən salması yalnız həmin ölkələr tamamilə işğal ediləndən və yeni ələ keçirilmiş ərazidə ərəb hakimiyyəti möhkəmləndikən sonra başlandı.

Azərbaycana ilk dəfə köçmək haqqında Bəlazuri məlumat verir: "Valid ibn Uqbə Azərbaycana gələndə əl-Əşəs ibn Qeys də onunla idi. Valid Azərbaycanı tərk edərkən əl-Əşəsi Azərbaycanın hakimi təyin etdi. Lakin [Azərbaycan] müqaviləni pozdu (üsyan etdi – Z.B.) və [əl-Əşəs] Validdən kömək istədi, o da Kufə əhalisindən düzəldilən böyük bir ordunu onun üçün göndərdi. Əl-Əşəs ibn Qeys [üsyançıları] bağdan-bağa təqib edərək [Azərbaycanı] Xuzeyfə və Uqbə ibn Ferqədin bağladıqları müqavilə şərtləri əsasında itaətə gətirdi, sonra təqadüd (əta) alan və divan [hesabında] sayılan ərəbləri oraya köçürdü və onlara əmr etdi ki, əhalini islama dəvət etsinlər"[2].

Əməvi xəlifələri ilk ərəb müstəmləkələrinə Azərbaycanda torpaq verib onları oturaq həyat tərzinə keçirməklə, eyni zamanda iki məqsədə nail olurdular: birincisi, xəzinəni təqaüd vermək xərclərindən azad edir və ikincisi, yeni tutulmuş vilayətlərdə ərəblərin hakimiyyətini gücləndirirdilər. Lakin əvvəllər köçənlər

---

[1] Ət-Təbəri, V, 45.

[2] Əl-Bəlazuri, 328.

yalnız ayrı-ayrı şəxslərdən ibarət olduğu halda, tez bir zamanda bütöv tayfalar yeni torpaqlara köçməyə başladılar.

Bəlazuri bildirir: "Ərəblər Azərbaycanı tutduqdan sonra iki mahaldan [Kufə və Bəsrədən] və Suriyadan ərəb tayfaları oraya getdilər və onlardan hər biri bacardığı qədər [torpaq] tutdu. Bəziləri isə ərəb olmayanların [əcəmlərin] torpağını satın alırdılar. Bundan əlavə, kəndləri qorumağı onlara həvalə etdilər, beləliklə də, həmin kəndlərin əhalisi onların qulluqçusu oldu"[1].

Bu xəbəri verən müəllif hansı tayfanın birinci olaraq Azərbaycana köçdüyü və hansı tayfanın harada məskən saldığı haqqında məlumat vermir. Aydındır ki, Azərbaycana köçən ilk tayfalar müəyyən bir qrupa mənsub olmayıb, şimal, orta Ərəbistan və cənub tayfalarından, yəni qeysilər, nizarilər və qəhtanilərdən ibarət idi. Yəqubinin dediyinə görə, Abbasilər hakimiyyət başına keçməzdən əvvəl, Azərbaycana yalnız şimal tayfalarından Rabiə və Mudar nizariləri köçürdülər[2]. Həmin əl-Əşəs Azərbaycan hakimi olanda, “təqaüd alan ərəblərdən müəyyən qədərini Ərdəbilə köçürdü"[3].

Ərəb tayfalarını Arrana köçürmək məsələsində isə vəziyyət başqa cür oldu. Bu ölkə ərazisinə soxulan ərəb orduları burada xristianlara (əhl əl-kitab) rast gəldilər; ərəblərin bunlarla münasibətləri isə tamamilə başqa cür qurulurdu. Bundan əlavə, ərəblər Arranı istila edirkən, ölkəni öz nəzarəti altında saxlayıb qüdrətli düşmən olan xəzərlərlə qarşılaşdılar.

Yüz ildən artıq davam edən ərəb-xəzər müharibələri ərəbləri məcbur etdi ki, xristian bir ölkədə öz ağalığını möhkəmlətmək üçün istehkamlı məntəqə və şəhərlərə ciddi diqqət yetirsinlər. Ərəblər Arranın strateji cəhətdən mühüm olan bütün məntəqələrində qarnizonları olan möhkəmləndirilmiş hərbi məskənlər (rəbatlar)

---

[1] Əl-Bəlazuri, 329.
[2] Əl-Yəqubi, 111,515.
[3] Əl-Bəlazuri, 329.

yaratmağa başladılar. Bu qarnizonları saxlayıb dolandırmaq yerli əhalinin boynunda ağır bir yük idi.

Rəbatlarda başlıca olaraq, xəlifədən maaş almayan və "mütatəviyyə" adlanan qoşun toplanırdı. Həmin yerlərdə bütöv tayfalar məskən salıb yerli əhalinin ən yaxşı yerlərini tutur və qəbilə ağsaqqallarını məcbur edirdilər ki, istehkamlı yerləri onların ixtiyarına versinlər. Həmin adamların qadın və uşaqlarını girov götürürdülər ki, onların əleyhinə çıxmasınlar[1].

Arran əhalisinin torpaqlarını tutan ərəblərin bu torpaqları öz əsgərlərinə verdiklərini ərəb tarixçiləri də təsdiq edirlər. Bəlazuri bildirir ki, ərəblər Dərbəndi aldıqdan sonra dərhal, Xilafətin şimal hüdudlarında bu şəhərin açar kimi əhəmiyyətli mövqe təşkil etdiyinə diqqət verdilər. Buna görə ərəblər Dərbənddə Xilafət torpaqlarını xəzərlərin hücumundan qorumağa qadir olan çox güclü qarnizon saxlayırdılar. Bunun üçün "Məsləmə [ibn Əbd ül-Malik] Bab ül-Əbvab şəhərinə Suriya əhalisindən iyirmi dörd min əsgər köçürdü və onlara müəyyən maaş (əta) təyin etdi"[2].

Ərəblər Bərdə, Beyləqan, Qəbələ və digər Arran şəhərləri ətrafındakı torpaqları da eyni qayda ilə tutmuşdular. Bundan əlavə, ərəblər Arranda Kasal (Qazax)[3] kimi yeni istehkamlı şəhərlər və şimal sərhədləri boyunca məntəqələr qururdular[4]. Bütün bu yerlərdə ərəb qarnizonları rəbatların ətrafındakı kəndlərin hesabına yaşayırdı, çünki ərəb əsgərlərinin yerli əhalinin mənzillərində qalması həmin əhalinin istismarından başqa bir şey deyildi[5]. Vaxtilə V.V.Bartold bu cəhəti düzgün qeyd etmişdir: "Ərəblərin istila edilmiş ölkələrə

---

1 История Агван, стр. 144/115.

2 Əl-Bəlazuri, 207; müqayisə et: В.В.Бартольд. Место прикаспийских областей в истории мусульманского мира, Баку, 1924, стр. 27; Л.Е.Куббель. О некоторых чертах военной системы халифата Омаййадов (661-750 гг.), стр. 121.

3 V.Minorsky, Kasal (Kazah), p. 120-123.

4 Cl. Cahen. Mouvements populaires et autonomisme urbain dans L'Asie Musulmane du Moyen Age, III, Arabica, t. VI, 1953, p. 250.

5 Əl-Bəlazuri, 436.

mühacirəti, əvvələn, xəlifə canişinlərinin yaşadığı hərbi ordugahlar qurmaq, ikincisi bədəvi qəbilələrin müəyyən ərazisini tutması şəklində ifadə olunurdu. Ordugahlar tez bir zamanda şəhər həyatının mərkəzi, başlıca olaraq ümumi müsəlman mədəniyyəti tipinin yarandığı bir yer olurdu"[1].

Beləliklə, rəbatların vəzifəsi müəyyən rayonda Xilafət hakimiyyətini möhkəmləndirmək, sərhədləri qorumaq, yerli əhalinin baş verə biləcək çıxışlarını yatırtmaq və vergi toplanmasını təmin etmək idi. Rəbat komandirləri eyni zamanda həmin yaşayış məntəqəsində yerli hakimiyyət nümayəndəsi (amil) vəzifəsini icra edirdilər. Rəbatların şəxsi heyəti yerli əhalinin hesabına mənzillə təmin olunmalı idi, yəni əhalinin bir hissəsi zorla öz mənzillərindən çıxarılırdı. Sonralar rəbat döyüşçüləri qulluq yerinə öz ailələri ilə birlikdə köçməyə başladılar; yerli əhali bunları da saxlayıb yedirməli idi[2].

Hərçənd Bəlazuri qeyd edir ki, ərəb kolonistlərinin yerli əhalidən aldıqları torpaqları, orada məskun olmuş ərəb döyüşçülərinin mülkiyyəti hesab etmək olmaz[3] . Lakin F.Lokkeqor belə hesab edir ki, ərəblərə "bəraət verən" bu fikir yerli əhali torpaqlarının əllərindən alınıb özgəninkiləşdirilməsinə qarşı "gecikmiş protestdən" başqa bir şey deyildir[4].

Əməvilər sülaləsinin süqutundan (750-ci il) sonra axırıncı Əməvi xəlifələrinin yüksək tutub arxalandıqları şimal tayfalarının imtiyazları tez yoxa çıxmağa başladı. Abbasilər cənubdakı ərəb tayfalarına arxalanaraq şimal tayfalarını tədriclə Azərbaycan və Arrandakı məskənlərindən çıxarmağa başladılar. Artıq Azərbaycanın birinci Abbasi hakimi Yəzid ibn Xatəm ül-Mükəlləbi yəmənliləri Azərbaycana köçürməyə başladı. "O, ər-Rəval ibn əl-Müsənna əl-Əzdini Təbrizdən Bəzzədək uzanan torpaqlara, Mürr ibn Əli ət-Taini Narizə...əl-Həmədanini isə Mayanicə köçürdü. Yəmən tayfalarını

---

[1] В.В.Бартольд. Мусульманский мир, стр. 30.

[2] Əl-Bəlazuri, səh.421.

[3] Yenə orada, səh. 222

[4] E.Lökkegaard. Islamic Taxation in the Classic Period, p. 33-34.

[Azərbaycanda] elə yerləşdirdi ki, burada nizarilərdən heç kəs qalmadı"[1].

Arranda məskən salmış şimal tayfaları yeni sülalə nümayəndələrini düşməncəsinə qarşıladılar. Köçürülənlərin əksəriyyəti Əməvilərin tərəfdarı olduğuna görə Abbasi hakimiyyət nümayəndələrini tanımaqdan imtina etdilər, tayfaların bir hissəsi isə üsyan qaldıraraq, şəhərlərdə və istehkam məntəqələrində mövqe tutdu və Məhəmməd ibn Sulun başçılıq etdiyi Abbasi qoşunlarına silahlı müqavimət göstərdi.

Bu zaman, axırıncı Əməvi xəlifəsi II Mərvan tərəfindən (744-750-ci illər) təyin edilmiş ölkə hakimi İshaq ibn Müslim əl-Ukaylinin köməkçisi Müsafır ibn Qıseyr Arranə tutmuşdu. "Məhəmməd ibn Sul Müsafırlə vuruşdu, nəhayət, onu öldürüb ölkəni tutdu. Bundan sonra o, Beyləqan əhalisini əl-Kilab [kelbit tayfasının dayaq məntəqəsi - *Z.B.]* qalasına atdı, onlar da o zaman Vard ibn Səfvan əsl idarə etdiyi şəhəri təslim etdilər. Onlar [Beyləqan əhalisi] çoxlu süluk və onların tay-tuşlarını öz qalalarında topladılar. Məhəmməd ibn Sul onlara qarşı Salehkindini göndərdi, o da qaladakıları mühasirə edib çox qırdı"[2].

Bərdə, Qəbələ, Dərbənd və Arranın bir çox digər məntəqələrində də Abbasi nümayəndələrinə eyni dərəcədə müqavimət göstərilmişdi[3]. Məsələn, Bəlazuri yazır ki, suriyalılardan ibarət Dərbənd qarnizonu "hazırda (IX əsrin axırı - *Z.B.)* heç bir [yeni təyin olunan] hakimin, əsgərlərə paylamalı olduğu pulu olmazsa, şəhərə girməsinə yol vermir[4].

Bu təfsilat göstərir ki, hətta xəlifə Mütəvəkkildən (846-861) sonra da Dərbəndi və ətrafdakı istehkamları, Əməvilər dövründə buraya köçmüş suriyalı nəsilləri idarə etdiyini, Bəlazuridən 70 il sonra İstəxri də təsdiq etmişdir: "Bab ül-Əbvab dağlarında hələ

---

[1] Əl-Yəqubi, II, 446.

[2] Əl-Yəqubi, II, səh. 429.

[3] Yenə orada, səh. 515, 519, 540.

[4] Əl-Bəlazuri, səh. 207.

Xosrovların tikdirdiyi istehkamlı qalalar vardır. Orada yaşayan adamlara (qoşunlara) tapşırılmışdır ki, xəzərlərin islam torpaqlarına keçə biləcək yolları qorusunlar. Belə qalalar on dörddür, burada Mosul, Diyar Rəbi və Suriyadan olan adamlar yaşayır, bunlar [qalalar] da həmin tayfaların [adı ilə] məşhurdur. (Burada) dil (ərəb dili) nəsildən-nəslə keçir. Onların (qala əhalisinin) üzərində heç bir rəis yoxdur..."[1].

Görünür, Abbasilər suriyalıları möhkəm Dərbənd istchkamlarından sıxışdırıb çıxara bilmədikləri üçün bu vəziyyətə dözdülər və həmin tayfaları özbaşına buraxdılar. Çox keçmədən Dərbənd rayonundakı ərəb tayfaları bu vəziyyətdən istifadə edərək Xilafətdən ayrılıb, müstəqil Sülamilər əmirliyini yaratdılar və bu əmirlik lap monqol istilasınadək davam etdi[2].

Əməvilərə tərəfdar tayfaları Abbasilərə sədaqətli tayfalarla zorakılıqla əvəz etmək qaydaları Harun ər-Rəşidin (786-809) hökmranlığından başlayaraq dəyişildi. Harun ər-Rəşid, yəqin bir tək sülalə mənafeyini deyil, digər mənafeyini də rəhbər tutaraq, tayfaların yerdəyişməsi və köçürülməsi məsələləri ilə məşğul olmağı özünün təyin etdiyi Azərbaycan və Arran canişinlərinə həvalə etdi. Canişinlər isə şəxsi mənafelərini və mənsub olduqları tayfaların mənafeyini nəzərə alaraq, habelə digər tayfalardan asılı olmayan rahatca qulluğu, vəzifə daşımalı olduqları ölkədə üstün olan siyasi və strateji səbəbləri hesaba alaraq, təyin olunduqları yerə adətən öz tayfa nümayəndələrinin müşayiəti ilə gəlirdilər. Lakin bu tayfanın hansı qrupa mənsub olduğu məsələsinə, fikrimizcə, nə Harun ər-Rəşid, nə də onun xələfləri fikir vermirdilər. Budur, Yəqubi bu cür təyinlərdən biri barəsində belə məlumat verir: "Xuzeyfə ibn Hazimin yerinə [Harun] ər-Rəşid Yusif ibn Rəşid əs-Sulamini (Arran hakimi) təyin etdi, onun da hökmranlığı dövründə nizarilərin sayı xeyli artdı, halbuki bundan əvvəl burada yəmənlilər çox idi. Ondan sonra ər-Rəşid Yəzid ibn Məzyəd ibn Zeyd əş-Şeybanini təyin etdi, o da hər

[1] Əl-İstəxri, səh. 192.

[2] В.В.Бартольд. место прикаспийских областей…, стр. 27.

yerdən rəbiiləri köçürtdü, odur ki, indi onlar (Arranda ərəblərin) əksəriyyətini təşkil edirdilər. Ondan [Yəziddən] sonra Zeyd ibn Xəttab əl-Ədəvi nəslindən olan Əbd ül-Kabir ibn Əbd ül-Həmid hakim təyin edildi, o da oraya [Arrana] Diyar Modar əhalisindən ibarət bir dəstə ilə getdi"[1].

Burada qeyd edək ki, Arranda rəbiilər demək olar, həmişə çox olub. Bərdə, Şamaxı və Şərvanda məskən salırdılar. Yeri gəlmişkən, misal olaraq göstərək ki, vaxtilə (İraqdakı) Xillidən Azərbaycan Respublikasının indiki rayon mərkəzi Xilliyə gəlmiş rəbiilər məskən salmışdılar. İraq Xillisində rəbiilərin müstəqil əmirliyi var idi, onların həmqəbilələri isə Arran Şərvanında, demək olar, eyni vaxtda ilk müstəqil Şirvanşahlar sülaləsini yaratmışlar.Tez bir zamanda istər Azərbaycanda, istərsə Arranda məskən salanların, demək olar, hamısı həm şimaldakı, həm də cənubdakı ərəb tayfaları idi. Bu tayfalar həmişə bir-biri ilə düşmənçilik etdiklərinə görə, aradan çox keçmədən onların köhnə ədavəti burada da yenidən başlandı. Ancaq Azərbaycan və Arranda bu ədavət, daha yaxşı torpaq və biçənəklər üstündə bərk qızışdı. Bu vəziyyət xəlifələri və mərkəzi hakimiyyəti əsla narahat etmirdi, çünki onlar, hələ müxtəlif konfederasiyadan olan tayfalar bir yana qalsın, hətta qohum tayfaları birləşdirmək deyil, əksinə, parçalamaq üçün daha artıq səy və maraq göstərirdilər. IX əsrin birinci yarısının axırlarından başlayaraq, Xilafətin bu iki zəngin ucqarında feodallaşma xeyli sürətləndi ki, bu da mütəğəllib[2] adlanan böyük bir sinfin meydana gəlməsinə səbəb oldu. Bu zaman tayfalar arasındakı ədavət böyüyüb əsil silahlı toqquşmalara çevrilir, çünki mütəğəlliblər Xilafətdən tamamilə ayrılmağa can atmağa başlamışdılar. Tayfalar arasındakı bu toqquşmalar xəlifə Harun ər-Rəşidin dövründə kəsildi, çünki o Azərbaycan və Arranın idarə olunmasını Yəzid ibn Məzyəd Şeybaninin əlində birləşdirdi. Yəzid hər iki əyalətdə canişin olandan sonra "camaat sakitləşdi, o da ölkədə

---

[1] Əl-Yəqubi, II, 515.

[2] Mütəğəllib haqqında b a x П.К.Жузе. Мутагаллибы в Закавказье в IX-X вв. Gürcüstan və Qafqaz tarixinə dair materiallar. III buraxılış, Tbilisi, 1937.

qayda-qanun yaradıb nizariləri yəmənlilərlə bərabərləşdirdi"[1], çünki göründüyü kimi burada yəmənlilər nizarilərə nisbətən daha böyük ixtiyara malik idilər. Şimal tayfaları ilə cənub tayfalarının vəziyyətini bərabərləşdirmək üçün Yəzidin məhz nə kimi tədbirlər gördüyü barəsində Yəqubi məlumat vermirsə də, biz ehtimal edə bilərik ki, cənub və şimal tayfalarına eyni dərəcədə yararlı torpaq verilməsi görülən tədbirlər sırasına daxil idi.

Ərəblərin şimal və cənub tayfaları arasında sonralar yeni toqquşma və vuruşmalar baş verdiyini bilmirik, çünki deyəsən, heç bir orta əsr müəllifi bu barədə məlumat vermir.

Harun ər-Rəşidin dövründə Azərbaycan və Arrana köç axını kəskin surətdə azaldı. Yəqubi bildirir ki, bircə dəfə ərəblər əvvəlcə əl-Cəzirəyə, sonra da, ola bilər, şimala - Arrana köçmüşlər. Xəlifə Məmun (809-813) Yəzid əş-Şeybaninin oğlu Xalidi Arran hakimi vəzifəsinə təyin etdikdə, o, "İraq həbsxanalarında olan öz həmqəbilələrinin (rəbiilərin) hamısını azad edərək, özü ilə əl-Cəzirəyə apardı və burada ona qoşulan çoxlu rəbiilərlə birlikdə öz yoluna davam etdi"[2].

Fikrimizcə, bu qrup Arrana köçüb Bərdə rayonunda məskən salan ərəblərin son qrupu idi, o zaman Bərdə rəbii əmirləri məzyədilərin iqamətgahı idi, çünki Harun ər-Rəşidin dövründə başlanıb Məmunun hökmranlığı dövründə ən yüksək nöqtəyə çatmış xürrəmilər üsyanı, habelə bütün Ərəbistan yarımadasının və bir çox digər torpaqların Xilafətdən ayrılması ərəblərin Zaqafqaziyaya mühacirətinə təsir göstərmiş və tamamilə dayandırmışdı.

Göstərdiyimiz kimi, rəbatlar hərbi-strateji və iqtisadi cəhətdən ən mühüm yollar, xüsusilə başlıca ticarət yolları üstündə salınan şəhərlərdə, qala və məntəqələrdə yerləşirdi. Bu məntəqələr dönüb köçmüş ərəb icmalarının məskəni olmuşdur.

Vaxtilə ərəblərin məskən saldıqları yaşayış məntəqələrinin adında indiyədək "ərəb" sözü qalmışdır. Həmin kəndlərin əhalisi indi

---

[1] Əl-Yəqubi, II, səh. 519.

[2] Əl-Yəqubi, II, səh. 566.

də özünü "ərəb" adlandırır və bunlar antropoloji cəhətdən başqalarından aydın fərqlənirlər. Bunların dəvəçilik peşəsi səhra əhalisindən daha doğrusu, Ərəbistan yarımadası əhalisindən qalmadır. Həmin kəndlərdə yaşayanların dediyinə görə, keçən əsrin ortalarınadək onların bir hissəsi korlanmış ərəb dilində danışırdı[1]. Bu kəndlər Xilafətin məhz şimal sərhədləri boyunca, əsas orta əsr ticarət yolları üzərində yerləşirdi.

Şərqdən qərbə doğru həmin kəndlər Azərbaycan Respublikasının aşağıdakı rayonlarındadır [2] : Quba - Ərəbli, Ərəbkeymuraz, Ərəbdəhnə, Ərəbhacı; Şamaxı - Ərəblər, Ərəbuşağı, Ərəbqədim [3] , Ərəbşamlı, Ərəbşahverdi; Kürdəmir - Ərəbqiyaslı, Ərəbçəltikçi, Ərəbsarvan; Göyçay - Ərəbcərbirli, Ərəbxana, Ərəbmehdibəy, Ərəbşahverdi; Salyan - Ərəbbəbirxan, Ərəbqardaşxan; Lənkəran – Ərəb; Ağdaş - Ərəb, Ərəbkukel, Ərəbbəsrə, Ərəbocaq, Ərəbşəkil, Ərəbşeyx; Laçın - Ərəb, Ərəbli; Gədəbəy - Ərəbli və bir çox başqaları.

Biz, ancaq ayrıca ərəb adı daşıyan kəndləri bir-bir sadaladıq. Ətraflı toponomik tədqiqat işi görülərsə, belə kəndlərin sayı, şübhəsiz, artar[4].

---

[1] M.H.Vəliyev (Baharlı). Azərbaycan əhalisi - etnoqrafik sərvətlər "muze-yidir", səh. 401-402.

[2] Dağıstan Respublikasında da orta əsrlərdə ərəb sərhəd hissələri yerləşmiş çoxlu yaşayış məntəqələri vardır; lakin biz Dağıstan Respublikasından danışmırıq, çünki bu məsələ ayrıca tədqiq edilməlidir.

[3] F.A.Deminski ("Bəzi məlumat...") qeyd edir ki, Ərəb - qədim Qafqazda ərəbadını daşıyan bütün məskun yerlər içərisində ən qədim və əhalisi ən çox olan kənddir. Hələ 1894-cü ildə orada 236 ev var idi. Əhalisi köçəri həyat keçirirdi və "hökumətingördüyü bütün tədbirlərə baxmayaraq, onları oturaq hala keçirmək baş tutmadı"; habelə b a x: Н.К.Зейдлиц. Этнографический очерк Бакинской губернии, стр. 51-52, 65-66; А.Ф.Ляйстер и Г.Ф.Чурсин. География Закавказья, стр. 326.

[4] A.N.Genkonun ("Арабский язык и кавказоведение") bu məsələ barəsindəki müşahidələri maraqlıdır, həmin məsələ haqqında göstərilən əvvəlki əsas ədəbiyyata da burada baxmaq lazımdır.

VII-IX əsrlər ərzində ərəb tayfalarının Azərbaycanda məskən salması və Azərbaycan əhalisi içərisində bunların izləri məsələsi, hələ P.KJuze qeyd etdiyi kimi, "yalnız alim antropoloqların, dilçilərin, maddi mədəniyyət və xalq təsərrüfatı tarixini yaxşı bilənlərin birgə səyi ilə" elmi surətdə həll oluna bilər[1].

Gördüyümüz kimi, ərəb mühacirləri Müğan, Şirvan və Arranda geniş ərazi tutmuşdular. Ərəblər həm qədim Bərdə - Beyləqan, Dərbənd və Şamaxı şəhərlərində, həm də yeni salınmış Kasal və Mütəvəkkiliyyədə yaşayırdılar[2]. Səbəb nədir ki, külli miqdarda ərəbin Azərbaycan və Arranda olması və burada ərəb dilinin geniş yayılması Azərbaycan əhalisinin ərəbləşməsi ilə nəticələnmədi? Yəqin, əsasən ərəblərin və Arran əhalisinin müxtəlif dində olması buna mane oldu. İşğalçıların dili Azərbaycanda, həm də bütün Zaqafqaziyada (Dağıstan daxil olmaqla) müxtəlif millətləri bir-birinə bağlayan beynəlxalq bir dil olmuşdu. Yerli dillərlə - fars, arran (alban), gürcü və erməni dilləri ilə yanaşı ərəb dilində də danışırdılar. İstəxri qeyd edir ki, "Azərbaycan, Ermənistan və Arranın dili fars və ərəb dilləri idi, lakin Dvin və onun ətrafındakı əhali ermənicə, Bərdə ətrafında isə albanca danışırdılar"[3].

Ola bilsin, Arran əhalisinin bir hissəsi (albanlar) çox tez ərəbləşməyə məruz qalıb ərəblərlə qaynayıb-qarışmış, sonralar isə səlcuq türkləri gəldikdən sonra ərəblərlə birlikdə türkləşməyə məruz qalmışlar. Arranın dağ rayonlarında yaşayan albanların digər bir hissəsi isə erməniləşməyə məruz qalmışlar.

Fikrimizcə, deyilənlərin hamısı belə bir faktı izah edə bilər ki, vaxtilə Göycə gölündən Dərbəndədək böyük bir ərazidə yaşayıb, öz kilsəsi, padşahları, knyazları, özünəməxsus mədəniyyəti olan albanlar kimi böyük bir xalqdan, indi Azərbaycan Respublikasının şimal-qərbində yaşayan və bilavasitə albanların nəsli olan bir neçə

---

[1] П.К.Жузе. Арабские племена в Закавказье, стр. 17 (dərc edilməmişdir)

[2] Ш.А.Месхиа. Из истории грузинского феодального города, стр. 34.

[3] Əl-İstəxri, səh. 192.

min udin istisna olmaqla, demək olar ki, heç bir iz qalmamışdır. İstilaçı ərəblər və yerli Arran knyazları tədriclə yaxınlaşmışlar və nəhayət, bu knyazlar o dərəcədə ərəbləşmişlər ki, xalis ərəb, müsəlman adları daşımağa başlamışlar, ərəb dili və mədəniyyətini qəbul etmişlər, belə ki, bu və ya digər feodalın hansı millətə və ya dinə mənsub olduğunu müəyyən etmək çətin olmuşdur[1]. İstilaçı ərəblərdən asılı vəziyyətə düşmüş digər xalqların tarixində də eyni mənzərəni görmək olar. Lakin Azərbaycan və Arranın yerli əhalisi ilə ərəblər arasında tədricən əmələ gəlmiş siyasi və mədəni yaxınlaşma, məsələn İspaniyada baş verdiyi kimi, mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlığa keçmədi. Ərəblərlə Azərbaycan və Arran əhalisi arasında başlanan yaxınlaşma prosesi əvvəlcə səlcuqların, sonra da monqolların hücumu ilə çox tez dayandırılmışdır.

Azərbaycandakı ərəblər, ərəb mədəniyyəti mərkəzləri ilə əlaqəni "itirdikdən sonra, tədriclə ana dili və adətlərini unutmağa başlayıb, yerli türk əhalinin dilində danışmağa keçdilər, onlarla qaynayıb-qarışaraq, onların həyat tərzini, geyim, yemək, məskən və sairəni qəbul etdilər. Bunların hamısına onların ümumi din olan islam dininin etdiyi kömək az olmadı.

Ərəblər yerli əhali ilə o dərəcə qarışdılar ki, indi Azərbaycanda ərəb dilində danışan heç bir yaşayış məntəqəsi qalmamışdır[2].

Azərbaycan və Arranda məskən salmış istilaçı ərəblərin nə vaxtdan ana dilində danışmağı tərk etdikləri sualına cavab vermək çox çətindir, çünki köçmüş ərəblərin öz dillərini mühafizə edib saxlamaları "həmin vilayətdəki ərəb ünsürünün ümumi sayından asılı idi"[3]. P.KJuze belə güman edir ki, burada həmin proses tezi XV əsrdə

---

[1] П.К.Жузе. Мутагаллибы в Закавказье в IX-X вв., стр. 207.

[2] F.A.Deminski. Sitat gətirilən əsəri, səh. 15. Eyni vaziyyət Cənubi İspaniyada müşahidə olunur: burada əhali vaxtliə əsasən ərəb dilində danışardı, lakin indi yerli əhali bu dili bilmir.

[3] В.В.Бартольд. Мусульманский мир, стр. 30.

baş vermişdir; həm də bu məsələdə P.K.Juze Orta Asiya və Əfqanıstanla müqayisə edir, çünki həmin yerlərdə ərəblərin bir hissəsi bu günədək ana dilində danışırlar[1].

Azərbaycan əhalisinin türkləşməsi məsələsi, illər boyu davam etmiş bu prosesin başlanğıcının aydınlaşdırılması çox mürəkkəbdir və bu məsələ indiyədək həll edilməmişdir. Bəzi tədqiqatçıların etdiyi kimi, türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək, səhv olardı[2]. Türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək də səhvdir, çünki onda, yerli böyük və çox yığcamı türk tayfa təşəkküllərinin varlığına göz yumulur.

Türkləşmə prosesi yalnız türk aborigenlərin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI-XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan millətini əmələ gətirən türkdilli Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi.

İndiki Azərbaycan ərazisində türk tayfa təşəkküllərinin varlığını Orta əsr mənbələrinin bilavasitə və dolayısı yol ilə verdiyi məlumat əsasında aydınlaşdırmaq olar. 576-cı ildə külli miqdarda sabir hunları Gəncə (Sakaşen) sahəsinə köçürülmüşdü[3], beləliklə də, Kür və Araz çayları arasındakı yerlərdə hunlar ölkəsi əmələ gəlmişdi [4]. Ərəb müəllifləri bu hun başçılarını "tarxan" adlandırırdılar[5].

---

[1] П.К.Жузе. Арабские племена в Закавказье, стр. 17. Orta Asiyada yaşayan ərəblər haqqında b a x  Г.В.Церетели. Арабские диалекты Средней Азии. 1956.

[2] V.Minorsky. Caucasica, IV, p,504; yenə onun: Iran..., p. 187; Faruk Sümer. Azərbaycan' in türklesmesi tarihine ümumi bir bakış, s.429-447.

[3] Византийские историки, стр. 411-412.

[4] Gürcü salnaməsi "Kür çayının axarı ilə dörd şəhərdə vo bunların ətrafında qəddar hun-türk tayfalarının" yaşadığını qeyd edir, səh. 1, 5; müqayisə et: Л.М.Меликсет-Бек. К истории появления гуннов в‘Восточном Закавказье, стр. 710-711; М.А.Арта-монов. Очерки…, səh. 54.

[5] Əl-Bəlazuri, səh.209; Ət-Təbəri, III, 1179, 1192.

Hələ V əsrdə indiki Azərbaycan ərazisində məskən salan çox böyük türk tayfa təşəkküllərindən biri Muğanda yerləşmiş hunlar olmuşdur ki, müasirləri olan tarixçilər onları türk adlandırır[1]. Rəvayətə görə, bu hunlar Muğanın cənubunda Ağhun (ərəbcə Balasaqun) şəhərini salmışlar[2].

Ermənidilli mənbələrdə hunları xaylantürklər adlandırırlar[3]. IV əsrin ikinci yarısındakı hadisələri qeyd edən Favstos Buzand da Zaqafqaziya zonasında hunların və digər türklərin mövcud olduğunu bildirir: "O zaman Maskut padşahı Sanesan bərk qəzəblənərək, öz qohumu erməni padşahı Xosrova ədavət bəslədi və qoşunların hamısını - hunları, paxları, tavasparları, xeçmatakları, ijmaxları, qotları, qluarları, quqarları, şiçbləri, gilbləri, balasiçləri, yegersvanları və saysız-hesabsız digər müxtəlif köçəri tayfaları, itaətində olan külli miqdarda qoşunları topladı, öz sərhədi olan böyük Kür çayını keçərək erməni ölkəsinə sel kimi basqın etdi... Onlar hücum etdilər və bütün erməni ölkəsini boğdular, dağıtdılar və hər yerə doluşdular, ölkəni tamamilə viran etdilər və kiçik Satal şəhərinədək Atrpatakan hüdudundakı Qandzakadək bütün Ölkəyə yayıldılar"[4].

Azərbaycan və onunla qonşu vilayətlər ərazisində türk tayfa təşəkküllərinin mövcud olduğunun bir sübutu da odur ki, bu tayfalar xəzər basqınları zamanından burada yerləşmişdilər. Məlum olduğu kimi, Xəzər xaqanlığı tərkibində türkdilli tayfalar böyük yer tuturdular, xəzərlərin özləri də, yəqin ayrıca bir türk qrupuna mənsub idilər[5] [orta əsr ərəb tarixçilərinin, demək olar ki, hamısı çox vaxt xəzərləri türk adlandırır]. Sasani padşahı Qubadın hökmranlığının

---

[1] Феофилакт Симокатта. История, səh. 36, 77, 102, 160: "O [I Qubad] bizim tariximizin dəfələrlə türk adlandırdığı hunların yanına getdi".

[2] Y.Marquart. Eransahr..., s. 119.

[3] Yenə orada, səh. 96.

[4] Ф.Бузанд. История Армении, стр. 15; Л.М.Меликсет-Век. Sitat gətirilən əsəri, səh. 712.

[5] V.Minorsky. A History of Sharvan and Darband, p. 17.

son illərinədək Şimali Azərbaycan xəzərlərin əlində olduğu və onların içərisində türklər böyük yer tutduğu üçün[1] ərəblər çox vaxt bu ölkələri Azərbaycanla birlikdə "Xəzərlər ölkəsi" adlandırırdılar[2]. İbn Əsam əl-Kufı bildirir ki, Araz vadisində Beyləqan və Varsan[3] zonasında türk dili yayılmışdı[4].

Orta əsr müəlliflərinin Varsan haqqında verdiyi məlumat xüsusilə qiymətlidir.[5]

Erməni mənbələrində, müxtəlif lüğətlərdə, qədim tarixlərdə “varsan" sözü (varsak, varsaz) müxtəlif şəkildə izah edilir. Mənbələrdə "varsak" sözü yer adını, türk tayfasını və bu tayfaya aid əşyanın adını bildirir.

"Şəms əl-lüğət" müəllifı "varsan" sözünü izah edərkən qeyd edir ki, Cəbəli[6] deyir: "Sən Varsana çoxlu ordu və böyük qoşun çəkdin"[7].

"Fərhəng-i Cahangiri" də eyni izahatı verir: "Varsaz yer adıdır[8]."Bürhan-i qati" lüğətinin müəllifı "varsaz" sözünü "yer adı, yer və vilayət adı" kimi izah edir[9].

Gördüyümüz kimi, bütün bu mənbələr "varsaz" sözünün mənasını ölkə, vilayət və yer adı kimi müəyyən edir. Bəs bu hansı ölkə vilayət və yerdir? Fikrimizcə, mənbələrdən təsadüf edilən

---

1 Əl-Bəlazuri, səh. 194; əl-Yəqubi, I, səh. 203; İbn Fəqih, səh. 287; İbn Xordadbeh, səh. 222.

2 Əl-Bəlazuri, səh. 194; ət-Təbəri, 1, səh. 884

3 İbn A'san al-Kufi. Kitab al-Futuh. Topkapı nushasi, № 2953, II, vər. 1856.

4 Əl-İstəxri, səh. 185.

5 Mirəli Seyidov. "Varsan" sözü haqqında, səh. 175-185.

6 C ə b ə l i - XI əsrdə yaşamış şair.

7 Şəms əl-lüğət, c. II, Füzuli ad. Əlyazmaları İnst.-nun fondu, inv. № 9284, səh. 437.

8 Fərhəng-i Cahangiri. Füzuli ad. Əlyazmaları İnst-nun fondu, inv. № 92/2058, səh. 227.

9 Burhan-i-qati. Füzuli ad. Əlyazmaları İnst.-nun fondu, inv. 1349, səh. 269.

“varsan” sözü bizim "varsaz"la əlaqədardır. Şəmsəddin Saminin lüğətində deyilir ki, “Varsan” – bütün Azərbaycana və ya onun bir hissəsinə verilən addır [1]. Bu izahat ərəb müəlliflərinin Varsan haqqındakı məlumatı əsasında verilir[2].

Beləliklə, mənbələrin verdiyi məlumata əsasən, Varsan ölkəsinin adı həm "Varsaz", həm də "Varsak" şəklində oxunurdu.

"Varsak" sözünün ikinci mənasına gəldikdə, qeyd etmək lazımdır ki, mənbələrdə bu söz tayfa və qəbilə mənasında da işlədilmişdir. V.V.Radlov "Varsak" sözünü izah edərkən, onun digər mənalarından başqa, qeyd edir ki, bu söz "tatar" (türk) tayfalarından birinin adını "bildirirdi"[3].

“Türkcə-fransızca lüğət”'in müəllifi D.Kelekyan "Varsak" sözünü "tatar tayfası" adlandırır[4].

Sonrakı dövlət təşəkkülləri - Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər və sairə tarixinin tədqiqatçıları da eyni fikri irəli sürürlər[5].

Türk (xəzər) ünsürlərinin sürətlə yayılmasından və İrana tabe olan torpaqları tuta biləcəklərindən narahat olan I Xosrov Ənuşi-rəvan Azərbaycanı və Cənubi Qafqazı xəzərlərin əlindən aldı, Sasanilər imperiyasının sərhədlərini Dərbəndədək uzatdı, bu ölkələrdə türklərin təsirini azaltmaq üçün dərhal burada etibarlı İran qarnizonları yerləşdirməyə başladı[6], siyasici tayfasını[7] buraya, soqdi soqdi tayfasını[8] isə Tiflis rayonuna köçürdü.

---

[1] Şəmsəddin Sami. Qamus əl-Əlam, c. VI, İstanbul, 1312 h, səh. 4683.

[2] İbn əl-Fəqih, səh. 284, 286; əl-Yaqut. "Varsan" sözü.

[3] В.В.Радлов. Опыт словаря тюрских наречий. т. IV, стр. 1961.

[4] Diran Kelekian. Dictionnaire turk-francaus, p. 1299.

[5] Hasan-bek Rumlu. Ahsan at-tawarikh, X, p. 486; Don Juan of Persia. A Shiah catholic, p. 45-46; Münəccimbaşı, Səhaif əl-əxbar, c, III, səh. 182.

[6] Əl-İstəxri, səh. 185.

[7] Əl-Bəlazuri, səh. 195; İbn əl-Fəqih, səh. 288; İbn Xordadbeh, səh. 123; Kudama, səh. 259.

[8] Əl-Bəlazuri, səh. 195.

Bundan başqa, qeyd etdiyimiz kimi, xəzərlərin Arrana və Azərbaycana basqınları, Arranda onların uzun illər boyu davam edən ağalığı bir daha təsdiq edir ki, ərəblərin hücumundan hələ çox əvvəl burada çoxlu türkdilli ünsürlər var idi.

Beləliklə, Azərbaycan və Arranın türkləşməsi prosesi, ərəblər siyasi səhnəyə çıxmazdan çox əvvəl, hələ Sasanilər imperiyası daxilində başlamışdı. Ərəblərin Azərbaycanı istila edib burada məskən salmaları əvvəllərdə bu prosesi dayandırdı, lakin az sonra ərəblərlə türklərin assimilyasiyasının başlanması bu prosesi sürətləndirdi; həm də o dərəcədə ki, cəmi yüz ildən sonra bu proses çox geniş vüsət aldı. Gördüyümüz kimi, ərəblər Azərbaycanı və Arranı istila edərkən bu ərazidə türk tayfalarına rast gəlmişdilər. Ərəb mənbəyində ərəblərin istilasından əvvəl Azərbaycanda türklərin yaşadığı haqqında məlumata rast gəldik. Rəvayətə görə, Əməvi xəlifəsi Müaviyə bir dəfə qədim tarixə bələd olan yəmənli Abid ibn Şariyəyə belə sual verir: "Türklər və Azərbaycan nə deməkdir?" Abid cavab verir: "Azərbaycan - qədimdən türklərin yaşadığı ölkədir"[1]. Bu rəvayəti şübhə altına almaq olardı, lakin 1126-cı ildə farsca tərtib edilmiş imzasız bir əsərdə də həmin rəvayətə rast gəlirik; Burada belə deyilir: "Azərbaycan qədimdən türklərin əlində olan bir ölkədir". Bu imzasız əsər müəllifi, Himyari padşahlarından biri olan Raiş haqqında məlumat verərkən deyir ki, bu ölkə türklərin əlindədir[2].

Türklərin Azərbaycana köçməsi ərəblərin dövründə də kəsilmirdi. Məsələn, (artıq müsəlman olan) türk əmirlərindən biri Mübarək ət-Türki Qəzvində bir qala tikdirib ona öz adını qoymuşdur[3].

---

[1] İbn Hişam. Kitab ət-Tican. Heydərabad, səh. 8, 402, 436. Togan A, Zeki Validi. Ümumi türk tarihine giriş, səh. 166; Kirzioglu M.Fahrettin. Dede-Korkut Oguznameleri, səh. 27.

[2] Mücməl ət--təvarx və-l-qisəs, səh. 154.

[3] Ibn əI-Fəqih, 252.

Azərbaycanda ərəblərin yerli türklərlə Əməvilər dövründə başlanan assimilyasiyası Abbasilər xilafətində daha da gücləndi[1].

[1] P.K.Juze. Divan lüğət ət-türki (Thesaurus linguarum turkorum), səh. 78.

# IV FƏSİL

# IX ƏSRİN İKİNCİ YARISINDA AZƏRBAYCAN ƏRAZİSİNDƏ AYRI-AYRI MÜSTƏQİL DÖVLƏTLƏRİN VƏ MÜLKLƏRİN YARANMASI

## 1. Şəki və Arran hakimi Səhl ibn Sumbat haqqında

Səhl ibn Sumbat haqqında bir neçə tədqiqat[1] olduğuna baxmayaraq, belə güman edirik ki. Arran vilayətlərindən biri olan Şəkinin, sonralar isə bütün Arranın orta əsr hakimi haqqındakı məlumatı bir qədər tamamlamaq lazımdır.

IX əsrin ikinci yarısında Arran ərazisində ərəblərdən asılı olan bir sıra knyazlıqlar var idi[2]. Sünik, K.tiş, Varsan, Beyləqan, Qəbələ və Şəki knyazlıqları. Bu knyazlıqların hökmdarları Vasak, Stepannos Ablasad, İsa ibn İstifanus (erm. Yesai Əbu Musa), Varaz-Trdat III (Mehr nəslindən olan alban knyazları sülaləsinin axırıncı nümayəndəsi), Atrnersex və başqaları Babəklə bu və ya başqa şəkildə əlaqə saxlayır və özlərinə əlverişli olanda Xilafətə qarşı Babəkə tərəfdar çıxır, özlərinin şəxsi mənafeyinə toxunanda isə ona xəyanət edirdilər. Bu knyazlardan biri Səhl ibn Sumbat idi. Moisey Kalankatuklu onu "Mərd və gözəl knyaz Səhl və Sunbatean - Eranşahik"[3] adlandırıb deyir ki, o "erməni erasının 270 (822)-ci ilində" öz güclü qardaşları və ordusu ilə, Bərdədən gələn və Amaras

---

[1] А.Е.Крымский. Страницы из истории Северного или Кавказского Азербайджана, стр. 369-384; V.Minorsky. Caucasica, IV, p. 504-514; S.Y.F.Dowsett. A.Neglected Passage, pp. 460, 462-463.

[2] V.Minorsky. Studies in Caucasian History, p. 67-74.

[3] История Агван, стр. 266/214.

vilayətini viran edən ərəblərə hücum etdi, "onları yıxdı, pərakəndə etdi və əsirləri sanki aslanın ağzından xilas etdi"[1].

Lakin fıkrimizcə, Səhl ibn Sumbat bundan əvvəl də Xilafətin əleyhinə çıxırdı. Dərbənd "tarixində" verilən məlumata görə 205 (820)-ci ildə, xəlifə Məmun tərəfından Azərbaycan, Arran və Ermənistan hakimi vəzifəsinə təyin edilən Xalid ibn Yəzid ibn Məzyəd öz iqamətgahı Bərdəyə gedərkən, yolda Şəki əhalisinin üsyanını yatırmalı olmuşdu. Mənbə bildirir: "Xalid onlarla vuruşmağa girişdi və onların Xalidə gecə vaxtı hücum etdiklərinə baxmayaraq, qalib gəldi və onlardan çoxunu öldürdü. [Onlar aman istədilər] o da onlara verdi, əvəzində onlar öhdələrinə gotürdülər ki, ildə ona 500 min dirhəm versinlər. Sonra onlardan girov götürüb, onları buraxıb getdi"[2]. Beləliklə, biz, Səhl ibn Sumbatın fəaliyyətinə 820-ci ildə rast gəlirik, hərçənd ki, mənbədə onun adı iki il sonra çəkilir."Ağvan tarixi"nin rusca nəşrinə daxil olmamış bir parçada, indiyədək Səhl ibn Sumbat haqqında mövcud olan bütün rəyləri dəyişdirən tamamilə yeni məlumata rast gəlirik. Bu parçada belə deyilir: "Erməni erasının 286 (1.05. 837 - 30.04. 838)-cı ilində qəflətən Bağdaddan 20 000 atlı çıxıb Alban ölkəsinə hücum etdi. Bunun ardınca Zarmirxakan padşah nəslindən olan Səhl Smbatean böyük şəhid Georgeni[3] köməyə çağırıb gözünü ona zillədi və qartal aciz quşların üzərinə şığıdığı kimi, onlara hücum etdi, Onları qırıb çöllərə saldı və qaçmağa məcbur etdi"[4].

Bu parça aydın göstərir ki, Səhl Alban padşah nəsli Zarmirx nəslindən idi və mehrani Vardan Zarmirx xanədanından 60 nəfəri

---

[1] Yenə orada.

[2] V.Minorski. Füsul min tarlx əl-Bab və Şirvan, səh. 2.

[3] Qoşunun hamisi.

[4] T.İ.Ter-Qriqoryan. Moisey Kalankatuklunun "Истраны Албанской" kitabının məlum olmayan səhifələri, vər. 18; Ter-Qriqoryan 12 min atlı olduğunu göstərir.

nahara dəvət edərək, onlara "zəhərli çörək" verib hamısını məhv edəndə[1] diri saxladığı yeganə nümayəndə idi.

Yuxarıda göstərilənlər bizi vadar edir ki, Səhl ibn Sumbatın erməni və Baqratuni [2] xanədanına mənsub olduğu haqqında M.Çamçyan, V-Abaza, A.Qren, Q.Daqbaşean və başqa tədqiqatçılar tərəfindən irəli sürülən fərziyyəni rədd edək. Məsələn, onlardan birincisi özünün "Ermənistan tarixi"ndə yazır ki, erməni tarixinin 269 (840)-cu ilində Babək Ermənistanı tutmaq üçün səfərə başladı, çünki Ermənistanı öz torpağına qatmaq istəyirdi. Ararat dağı yanında Babəklə Sumbat Baqratuni arasında uzun sürən qanlı vuruşma oldu, bu vuruşmadan sonra Babəkin tərəfdarları qaçmağa üz qoydular. Babək özü geri çəkilərkən general Sumbatın oğlu Səhl tərəfindən tutuldu[3]. V.A.Abaza Səhlin adını dolaşıq salıb başqa adla əvəz etmişdir. "Xəlifələr Baqratuni nəslinin sədaqətinə inanırdılar və Zaal [!] Baqratuni, Xilafətə qarşı üsyan edib Ermənistanda kömək axtaran Babanı (Babəki – *Z.S.* ) Bağdada göndərəndə, buna qəti yəqinlik hasil etdilər"[4].

A.N.Qren də təqribən eyni fikirdədir: "835-ci ildə Babək adlı birisi öz vətənini ərəblərdən azad etmək fikrinə düşüb güclü üsyan qaldıranda, ermənilər xəlifənin sərkərdəsi Afşinə kömək edib, hətta xaini ona təslim etdilər, lakin nəticədə bunun əvəzində sərkərdədən pislik gördülər. Yenə Baqratilərdən biri olan Səhlin bu hərəkəti ərəblərin həmin xanədana qarşı rəğbətinə səbəb oldu"[5].

Buna görə də Ç.Dovsett haqlı olaraq deyir ki, Səhlin Baqratuni xanədanına mənsub olduğu haqqındakı fərziyyə və ehtimalları həmin faktlara əsasən rədd etmək lazımdır[6].

---

[1] История Агван, стр. 136/108.

[2] В.В.Бартольд. Место прикаспийских областей, стр. 35.

[3] M.Chamich. History of Armenia, p. 401; M.J.Saint-Martin. Memoires historiques et geographiques sur l'Armenie, p. 348; G.Weil. Geschichte der Chalifen, II, p. 301.

[4] Б.А.Абаза. История Армении, стр. 70

[5] А.Н.Грен. Династия Багратидов в Армении, стр. 60,

[6] C.J.F.Dowsett, p. 462.

Səhl ibn Sumbatın Taronda olduğu və Zarmirx xanədanına mənsub olmadığı haqqındakı ehtimal da dürüst deyildir[1].

Səhl ibn Sumbat hələ Babəklə əlaqəni kəsməzdən əvvəl strateji cəhətdən mühüm olan Şəki vilayətinə [2] malik olduqda separatist meyillərini büruzə verirdi. 835-ci ildə Afşin Məhəmməd ibn Süleyman əl-Əzdi əs-Səmərqəndini Arran hakimi vəzifəsinə təyin edəndə, Babəkin köməyinə arxalanan Səhl Xilafətə qarşı mübarizədə Babəkin çətinlik çəkməsindən və Zaqafqaziyanın bu vilayətinə Xilafətin o qədər də fikir vermədiyindən istifadə edərək, üsyan qaldırdı və Arranı tutdu. Məhəmməd ibn Süleyman "onun vilayətinə daxil olan zaman, Səhl gecə vaxtı ona hücum edərək qaçmağa vadar etdi[3]. Gördüyümüz kimi, Səhl hələ özü müttəfiqi Babək məğlub edilməzdən əvvəl qüdrət sahibi olmuş, Arranın böyük hissəsini əlinə keçirmişdi[4] hərçənd ki, Dovsett qeyd etdiyi kimi, bu faktı "837-ci ildə xəlife bilə-bilə etinasız buraxmışdı"[5].

Səhlin mülkü Şəkinin yerini müəyyənləşdirərkən tədqiqatçılar səhv buraxmışdılar. A.Y.Krımski belə güman edir ki, "çayın (Kür çayının - *Z.B.)* o tayında, yəni sağ sahilindəki bəzi knyaz sülalələri ilə Səhlin, bəlkə də, çox qədimdən qohumluq (daha doğrasu - qudalıq) əlaqələri var idi"[6]. Lakin biz müəyyən etmişik ki, Səhl Kür çayının sağ sahilindəki, daha doğrusu, Arazın sol sahilindəki ərazi ilə "qohumluq (ya da qudalıq)" əlaqəsində deyil, bilavasitə əlaqədə olmuşdur; bu cəhət mənbələrin verdiyi məlumat ilə, habelə həmin rayon yerində keçirilən yoxlama ilə də təsdiq olunur.

Dinəvərinin verdiyi məlumata görə, "o zaman (837-ci ildə) Araz boyunca uzanan torpaqlara Səhl ibn Sumbat malik idi"[7]. Təbəri

---

[1] V.Minorsky. Caucasica, IV, p. 506, 508-509.

[2] Şəki vilayəti haqqında b a x: Z.M.Bünyadov. Şəki qalasının yeri haqqında yeni məlumat, səh. 869-872.

[3] Əl-Bəlazuri, səh. 211; əl-Yəqubi, II, səh. 579; müqayisə et: A.Y.Krımski. Sitat gətirilən əsəri, səh. 374.

[4] J.Marguart. Osteuropäishe und Ostasiatische streifrüge, p. 461.

[5] C.J.F.Dowsett, p. 463.

[6] A.Y.Krımski. Sitat gətirilən əsəri, səh. 373.

[7] Əd-Dinəvəri, səh. 400.

qeyd edir ki, Babək Bəzzin süqutundan sonra, yəqin öz son arvadı - Sünik knyazı Vasakın[1] qızı İbnət əl-Kalandaniyyənin təkidi ilə Bizansa qaçmaq qərarına gəlmişdi. Onun yolu Səhlin mülkü Şəkidən keçirdi, sonra Sünikdən keçib Bizansa getməli idi. Babək ərzaq cəhətdən korluq çəkdiyi üçün "ibn Sumbat dağlarında" gizləndiyi yerdən çıxanda, Səhlin sərhəd mühafızləri onu görür və dərhal Babəki gördükləri yerə gəlirlər[2]. Babəkin qardaşı Abdulla ehtiyat (Babəkilər sülaləsinin bir nümayəndəsini saxlamaq) üçün K.tiş qalasına göndərilmişdi; bu qala Beyləqan hökmdarı Isa ibn İstifanusun (erm. Yesai əbu Musanın) mülkü idi. Məsudinin verdiyi məlumata görə, Araz ibn İstifanusun mülkü ilə "Babək-Bəzzayn ölkəsi" arasında sərhəd idi[3].

Beləliklə, Babək Bazarçay-Əkərəçay məcrasında tutulmuşdu; Azərbaycandan Ermənistana gedən yolun üstündə bir "dərə" olan bu yer Səhl ilə İsa ibn İstifanusun torpaqları arasında sərhəd idi.

Şəki qalasının xərabələri, Bazarçayın sol sahilində eyni adlı indi mövcud olan böyük bir kəndin yaxınlığında, Darvazatəpə dağının üstündədir; bu da çayın vadisinə enməyin qabağını tutan bu dağ Naxçıvandan Biçənək aşırımı vasitəsi ilə Arranın içərilərinə gedən yeganə yolu bağlayır. Qalanın xərabələrini yoxlayarkən qala divarlarının qalıqlarını gördük. Bazarçayın boyunca bir sıra orta əsr qala xərabələri vardır ki, bunları hələ yoxlamaq lazımdır. Bu möhkəm qalalardan biri (dəniz səthindən təxminən 1,5 kilometr yüksəkdə) Urud dağı üstündəki qaladır. Dağın üstündə tikinti, o cümlədən məskən qalıqları durur. Şəki qalası kimi, bu qala da çay vadisinin qabağını tutaraq, yola və ətraf yerlərə hakim olan çox güclü bir istehkam məntəqəsi idi. Tapılan materiallar, habelə bu xərabələrin yanındakı qəbirlər arxeoloq R.M.Vahidovun fıkrincə VII-IX əsrlərə aiddir.

---

[1] История Агван, сир. 267/214; Histoire de la Sionie, p. 96.
[2] Ət-Təbəri, III, səh. 1221.
[3] Əl-Məsudi, II, səh. 75.

V.F.Minorski də belə hesab edir ki, Səhl Babəki Kür çayından cənubda, yəni Babək müvəffəqiyyət qazandığı illərdə onunla bilavasitə əlaqə saxlaya bildiyi yerlərdə tutub əsir etmişdi. Lakin həm V.F.Minorski[1], həm də onun müəllimi A.J.Krımski belə güman edirlər ki, IX əsrdə Səhl, Araz çayı sahillərindən Baş Qafqaz silsiləsinin ətəklərinədək, yəni hazırda Azərbaycan Respublikasının Nuxa və yerli əhalinin Şəki adlandırdığı şəhərədək uzanan yerlərdə böyük bir əraziyə malik ola bilərdi. V.F.Minorski I960-cı il fevralın 4-də müəllifə yazdığı məktubda qeyd etmişdi ki, bütün tədqiqatçılar iki Şəkinin olduğunu nəzərdən qaçırmışlar və "görünür iki Şəki ərəb mənbələrində qarışdırılmışdır". Eyni faktı Ç.Dovsett də (1960-cı il martın 11-də müəllifə yazdığı məktubunda) təsdiq edir)[2].

Bu cəhətə Y.A.Paxomov da diqqət verərək, Azərbaycan və Arran yaşayış məntəqələri üçün orta əsr coğrafiyaşünaslarının göstərdiyi koordinat cədvəllərini tutuşdurub tapmışdır ki, "yalnız Şəki üçün aydın fərq vardır; odur ki, Şəkini çox vaxt güman etdikləri kimi Nuxada deyil, başqa yerdə axtarmalı idilər"[3].

Gördüyümüz kimi, Səhl ibn Sumbat bu qədər böyük bir əraziyə malik ola bilməzdi. Hərçənd "Ağvan tarixi"ndə deyilir ki, Səhl xəlifə Mötəsimə göstərdiyi xidmətə görə "Ermənistan, Gürcüstan və Albaniya üzərində ali hakimlik aldı və bunları hökmdar və padşah kimi idarə etdi"[4], lakin bu məlumata inanmaq olmaz.

Afşin Səhlin Babəki ələ verməyə hazır olduğunu yəqin etdikdə (onların arasında olan ittifaq münasibətlərinə baxmayaraq, Səhl onu ələ verdi), Məsudinin verdiyi məlumata görə, xəlifə Səhlə fəxri xələt, patrik tacı verdi və onu xəracdan azad etdi[5]. Vardan

[1] V.Minorsky. Caucasica, IV, p. 506, n. 5.

[2] X əsr imzasız müəllifin verdiyi məlumata görə, Şəki Ermənistanda uzunluğu təqribən 70 fərsəx olan bir vilayətdir (Hudud, p. 144). V.F.Minorski "Hüdud"a verdiyi şərhində (səh. 398) yazır ki, "Şəkinin uzunluğu çox artıq göstərilmişdir".

[3] Е.А.Пахомов. Пайтакаран-Байлакан-Оренкала, стр. 31.

[4] T.İ.Ter-Qriqoryan. Sitat gətirilən əsəri, səh. 18; CJ.F.Dowsett, p. 460.

[5] Əl-Məsudi, VII, səh. 126.

bildirir ki, Səhl öz xidmətinə görə "min dəfə min kşir gümüş, bir də yüz min aldı"[1]. Təbəri qeyd edir ki, Səhlin aldığı bir milyon dirhəm və yuxarıdakı peşkəş və xələtlərdən başqa, onun oğlu Müaviyəyə Babəkin qardaşı Abdullanı tutub gətirdiyi üçün yüz min dirhəm verilmişdir[2].

Ərəblər Səhlin Arranı bir qədər müstəqil idarə etmək ixtiyarı olduğunu qəbul etsələr də, Tovma Arsruninin verdiyi məlumata görə, o, yalnız "Şəkinin hökmdarı" qalırdı[3]. Bir neçə ildən sonra, 853/4-cü ildə isə Səhl Xilafətə göstərdiyi xidmətlərə baxmayaraq, Buğa əl-Kəbir tərəfindən tutuldu. Onunla birlikdə, Xaçen hökmdarı knyaz Atrnersex, K.tiş və Beyləqan hökmdarı knyaz Yesai Əbu Musa da tutuldu[4]. Buğa əl-Kəbir Səhli və Arranın digər knyazlarını Samarraya apardı. Mənbələr onların sonrakı müqəddəratı haqqında sükut edir. "Ağvan tarixi"ndə qeyd edilir ki, başqa knyazlarla Samarraya aparılanlardan təkcə knyaz Atrnersex "çox illərdən” sonra vətənə qayıtdı[5].

Xilafət Arran, Gürcüstan və Ermənistan knyazlarına qarşı həbs və cəza tədbirlərinə əl atmasına baxmayaraq, Arran üzərində öz hakimiyyətini uzun müddət saxlaya bilmədi. M.Kalankatuklunun verdiyi məlumata görə 866-cı ildə "Mömin knyaz Xamam Arran padşahı oldu və Aşot Baqratuni erməni padşahlığını bərpa etdiyi

---

[1] Vardan, səh. 101.

[2] Ət-Təbəri, III, səh. 1272; müqayisə et: V.Minorsky. Caucasıca, IV, p. 150, n. 2.

[3] Histoire des Ardrrouni, p. 153; nıüqayisə et: A.E.Krımski. Sitat gətirilən əsəri, səh. 373; V.Minorsky, Caucasica, IV, p. 510; C.Y.F.Dowsett, p. 363.

[4] История Агван, стр. 278/226; ət-Təbəri, III, soh. 1416, göstərir ki, Səhlin əvəzinə onun oğlu, Müaviyə ibn Səhl ibn Sumbat aparılmışdır. Müqayisə et: İbn əl-Əsir, VII, səh. 24; "История Агван" (səh. 271-272/219-220). Buğanın apardığı knyazların adlarını göstəmir. B a x: П.К.Жузе. Мутагаллибы в Закавказье в IX-X вв., стр. 181.

[5] История Агван, стр. 278/226: "Birdən Ərəblər ölkəsindən azad olmuş Artnersex gəlir və az sonra dincliklə öz ömrünü başa vurur".

kimi, o da dağıdılmış Alban padşahlığını bərpa etdi. Bu eyni zamanda oldu”[1].

Mənbələrdə Xamam "Şərqin böyük knyazı (mets işxan)"[2] və "Albaniya padşahı (t'aqavor)" [3] adlandırılır. Xamamı Arranda padşahlıq etmiş Aranşahik [4] xanədanı nümayəndələrinə mənsub etmək mümkün olsa da, onu Səhl ibn Sumbatın nəvəsi güman edən A.Krımskinin bu nəticəsi ilə razı deyilik" [5]. Mənbələr Xamam haqqında çox az məlumat verir və A.J.Krımskinin öz tədqiqatında iddia etdiyinə əsla uyğun deyildir[6].

Xamamın fəaliyyətindən bizə yalnız bu məlumdur ki, o, erməni katolikosu II Georqu pul verməklə xilas etmiş, Məhəmməd Afşin ibn Əbu-s-Sacdan geri almışdır[7].

## 2. Beyləqan hökmdarı Yesai Əbu Musa (İsa ibn İstifanus) haqqında

---

[1] История Агван, стр. 273-274/221-222; müqayisə et: A.Y.Krımski. Sitat gətirilən əsəri, səh. 374-375.

[2] İohann Katolikos, səh. 158.

[3] Asogik, III, səh. 110; Kirakos Qandzaketski, səh. 43.

[4] History of the Caucasian Albanians, p 221, n. 6.

[5] A.Y.Krımski. Sitat gətirilən əsəri, səh. 374-375.

[6] Knyaz Xamam haqqında M.Brosse deyir: "Nous ne connaisons ni son origine ni sa descendance, ni ia duree de sa bynastie" (Histoire de la Siounie, p.173). Lakin A.Y.Krımski, mənbə materialına diqqətlə yanaşmayaraq, bu qeydi nəzərə almamışdır.

[7] История Агван, стр. 273/221. R.M.Vahidov Azərbaycan Respublikasının Ağdam rayonunun Sofulu kəndi yaxınlığında Kavurqala xərabələrini qazanda knyaz Xamamın qardaşları qəbrinin üstündəki daşda aşağıdakı yazını oxumuşdur: "Bu, knyaz Xamamın qardaşları cənab Filipe və cənab Sunbatın... qəbridir; onlar cavan yaşlarında (həyatdan) məhrum olmuşlar". Bax: История Агван, səh. 274/222.

"Ağvan tarixi"ndə qeyd edilmişdir ki, təqribən 830/1-ci ildə pavlikianlar Bercor vilayətinə və Arsax əyalətindəki Ureas, Kamakaş, Xakari və Tapat kəndlərinə basqın etmişdilər, lakin knyaz Stepannos Ablasad onları Babəkin köməyi ilə məğlub etdi. Erm. tarixinin 279 (830-831)-cu ilində pavlikian başçıları Davon və Şapux knyaz Ablasadı öldürdülər və yenidən üsyan edən pavlikianlar Qoroz qalasında möhkəmləndilər və "Ağvan tarixi"nin verdiyi məlumata görə, 12 il ərzində Arranın aşağıdakı vilayətlərini əllərində saxladılar: Yuxarı Vaykunik Bercor, Sisakan [və Kotak], [Mivs] Xaband, Amaras, Pazkank, Mxank [1] və Tri [2]. "Bundan sonra Ablasadın yaxın adamları onun qatillərini tutub əzabla öldürdülər və Ablasadın bacısı oğlu olub, dinclik sevən və Əbu Musa adlanan Yesai həmin vilayətləri tutdu [və] hamısına hökmranlıq etdi"[3].

Erm. tarixinin 289 (840-841)-cu ilində pavlikianlar yenidən üsyan qaldırdılar və mənbəyin verdiyi məlumata görə, Sisan Cor və Amaras mahallarını talayıb viran etdilər. Əbu Musa adlanan Yesai də onlara qarşı qalxaraq darmadağın etdi"[4]. Gördüyümüz kimi, bu zaman güclü və nüfuzlu knyaz olan Yesainin əhəmiyyəti yüksəldi. Babəkin üsyanı yatırıldıqdan bir neçə il sonra (851/2-ci ildə) xəlifə Mütəvvəkilin hökmranlığında, demək olar, bütün Zaqafqaziyada Xilafətə qarşı yeni güclü üsyan qalxdı. Mütəvəkkil üsyançılara qarşı Buğa əl-Kəbirin sərkərdəliyi altında böyük cəza ordusu göndərdi. Xəlifə əmr verdi ki, cəza dəstələri üsyan edənlərdən heç kəsə rəhm etməsinlər, "belində qılınc gəzdirən, silah daşıyan hər kəsi, üsyanda iştirak edənlərin" hamısını məhv etsinlər. Yalnız məşhur adamlardan

---

[1] Hamı Arsaxda. B a x: N.Hübschmann. Die Altarmenische Ortsnamen, s. 351-352.

[2] Utidə. Yenə orada, səh. 352

[3] История Агван, стр. 268/215; müqayisə et: C.J.F.Dowsett, pp. 463-465. Çıxarış 5-də. Ç.Dovsett Yesainin Loran tərəfindən göstərilən genealogiyasının (şəcərəsinin) düzgün olmadığını qeyd edir.

[4] T.İ.Ter-Qriqoryan. Sitat gətirilən əsəri, səh. 18; C.J.F.Dowsett, p. 461.

biri Məhəmmədin dinini qəbul etsə, onun yanına gətirsinlər" [1]. Xəlifənin göndərdiyi Buğa "ermənilərі, albanları və onların patriklərini yoxlayırdı"[2].

Buğa əl-Kəbirin ordularından biri sanarlara qarşı müvəffəqiyyətsiz müharibədən sonra[3] üsyan etmiş knyaz Yesai Əbu Musanı əzmək üçün göndərildi, o zaman "Arranın böyük hissəsinə[4] malik olan knyaz Yesai bundan xəbər tutanda "Beyləqan [vilayətindən] olub Beyləqanın 10 fərsəxliyində, Bərdədən isə 15 fərsəx aralı K.tiş qalasında" müdafiə mövqeyi tutdu[5], dərəni tutub, qalaya gedən yolu ərəblərin üzünə bağlamağı öz dəstələrinə əmr edərək dedi: "Biz sanarlardan pis olmayacağıq, çünki istehkamlarımız onlarınkından güclü və yüksəkdir"[6].

K.tiş qalası doğrudan da əlçatmaz qala idi. Onun təpəsi buludlar içində idi, dağın sərt və sıldırım yamacları meşə ilə örtülmüşdü. Qalaya çətin keçilən dar bir cığır gedirdi. Bu çığırdan başqa, qalanın şimal tərəfində qayalarda yeraltı yol qazılmışdı[7].

T.Arsruninin dediyinə görə, qalaya yaxınlaşan Buğa əl-Kəbir "hay-küy qaldırır və bəhanə axtarırdı ki, öz acı zəhərini Alban knyazının üstünə töksün"; o, Yesai Əbu Musanı təslim və xəlifəyə tabe olmağa çağırdı. Lakin Yesai Buğa əl-Kəbirə belə cavab verdi: "Ölkələr hökmdarlarında belə bir qayda olmalıdır ki, onlar ölkəyə öz təbəələrinə himayət göstərmək üçün yoxsullara edilən zülmü ləğv etmək, onların vəziyyətini yaxşılaşdırmaq üçün gəlsinlər, nəinki ölkəni quldurcasına soysunlar, qılınc və əsarətlə onu insan yaşamaz

---

[1] İohann Katolikos, səh. 67.

[2] Füsul, səh. 3.

[3] Əl-Yəqubi, II, səh. 598-599

[4] Arsruni, səh. 445.

[5] Ət-Təbəri, III, səh. 1416; İbn Miskəveyh. VII, səh. 548; İbn əl-Əsir, VII, səh. 24.K.Tiş qalasının xərabələri Dağlıq Qarabağın Xocavənd rayonunun Tuğ dağındadır.

[6] Arsruni, səh. 145.

[7] K.tiş qalasının təsviri T.Ter-Qriqoryanındır. IX əsrdə ərəb işğalçılarına qarşı Arsaxın mübarizəsi, səh. 15.

bir səhraya çevirsinlər. Əgər sən padşahın [xəlifənin] sarayından dinclik düzəldən bir rəis kimi gəlmişsənsə, onda ölkəni var-yoxdan çıxarıb iğtişaşa səbəb olmaq deyil, onun qurulub tikilməsinə kömək etməliydin. İndi, sənə məlum olsun ki, nə qədər gücüm var və canım sağdır, səninlə vuruşacağam, öz qüdrətim və Allahın qüdrəti ilə müqavimət göstərəcəyəm. Səni sülhlə və dostcasına deyil, yalnız silahla, ox və qılıncla, gözəl seçmə atlara minmiş qəhrəman mərd döyüşçülərimlə qarşılayacağam. Əgər özünü və qoşununu xilas etmək istəyirsənsə, mənim torpağımdan çıx get. Əgər qəzəbdən coşaraq, sümüklərini bizim çöllərdə qoymaq istəyir və ölkənin vəhşi heyvanlarına və göydəki quşlara yem olmaq könlündən keçirsə, - özün bil, mən sənin qanına bais olmuram,.."[1]

Yesai Əbu Musanın məktubunu alan Buğa əl-Kəbir bərk qəzəbləndi. Lakin məktub barəsində xəlifəyə məlumat verib, sərəncam gözləməyə başladı.

Demək lazımdır ki, knyaz Yesai Əbu Musanın separatizmi, IX əsrin axırları - X əsrin əvvəllərində Xilafətin şəraitilə əlaqədar idi. Knyazların və "mütəğəllib" deyilənlərin separatizmi o dərəcəyə çatmışdı ki, Xilafət heç də hər zaman silahlı qüvvə ilə onların öhdəsindən gələ bilmirdi və çox vaxt güzəştə gedirdi, Zaqafqaziyada xəlifə hakimiyyətinin bu cür sabit olmayan vəziyyətini yaxşı duyan Bəlazuri bunu belə qeyd edir: "Patriklər öz ölkələrində yaşamaqda və hər biri öz vilayətini qorumaqda idi. Bir məmur [amil] canişinin yanından onların [patriklərin] yanına gələndə, ondan yan keçməyə çalışırdılar. Onlar görəndə ki, bu adamı şirnikdirib yola gətirmək olmur, çünki ciddi adamları və kifayət qədər hərbi qüvvəsi vardır, ona xərac verir və itaət edirdilər. Əgər bu məmurda göstərilən güc və qüvvə yox idisə, onu zəif hesab edir və ona etinasız yanaşırdılar"[2].

Sonralar burada mərkəzi hakimiyyətin nüfuzu daha da zəiflədi; o qədər ki, xəlifə Mötəsimin dövründə ölkənin hakimi Həsən ibn Əli əl-Bazgisi (833/4-835/6-cı illər) "patrikləri və ölkənin

---

[1] Arsruni, səh. 145-146.

[2] Əl-Bəlazuri, səh. 210-211

azad adamlarını başlı-başına buraxdı və onlarla o qədər yumşaq rəftar etdi ki, onlar sultana [xəlifəyə] etinasız yanaşmağa, özlərindən aşağıda duran təbəələrə [rəiyyətə] qarşı isə çox sərt davranmağa başladılar"[1], bundan sonra ölkəni idarə edənlər "elə adamlar idi ki, onun maliklərilə yumşaq rəftar edir və yalnız lap az xərac almaqla kifayətlənirdilər"[2].

Buna görə də knyaz Yesai Əbu Musanın Buğa əl-Kəbirə qarşı belə münasibəti təəccüblü deyildi. Bundan əlavə, knyaz özünü mühasirə edən ərəblərə birinci olaraq hücum etdi və onları məğlubiyyətə uğratdı. Buğa əl-Kəbir qalanı hər tərəfdən mühasirə edib istehkamlar düzəltdi, ağır şey atan maşınlar qurdu və hücuma başladı. Onda mühasirədə olanlar yenidən ərəblərin üstünə atıldılar və onları qaçmağa məcbur etdilər. Arsruninin dediyinə görə, Buğa əl-Kəbir məyus oldu və uğradığı məğlubiyyət ona ağır gəldiyi üçün özünə gələ bilmədi. "O öz çadırında qapanıb qaldı; var-gəl edərək, bir çarə axtarır, rahat olmurdu. Gözlərindən yuxu çəkilmişdi, on gün ərzində heç kəs onun yanına girmədi, çünki rüsvay olduğundan öz mənzilində qapanıb qalmışdı. Bundan əlavə, dağlıların hücumundan ürəyinə qorxu düşmüşdü; buna görə də böyük bir döyüşçü dəstəsi qılınclarını sıyırıb, çadır ətrafında dayanaraq onu qoruyurdu”[3].

Az sonra xəlifə Mütəvvəkkildən belə bir sərəncam gəldi: "Ümidini itirmə, ruhdan düşmə, Alban knyazı sənə tabe olmayınca, onunla müharibəni dayandırma". Ruhlanıb qəzəblənən Buğa əl-Kəbir bütün qoşuna əmr etdi ki, döyüşə girsinlər. Budur, hay-küy qalxdı; şeypur, nağara və cənglər, çoxlu qoşunun silah, qılınc və bütün hərbi ləvazimatı hərəkətə gələrək, elə bir səs qaldırdı ki, az qala dağ yerindən tərpənib dağılacaqdı. Buğa əl-Kəbir öz qoşununu dağın zirvəsinədək apardı, qoşunun çoxlu bayrağı və hər bayrağın altında gözəl ata minmiş min nəfər var idi; belə ki, bütün yer üzündə və heç bir ölkədə istər qoşun (çoxluğu), istərsə silah (bolluğu) cəhətdən belə

---

[1] Yenə orada.
[2] Yenə orada.
[3] Arsruni, səh. 147.

dəhşətli mənzərə görmək olmazdı. Onlardan qorxunc gurultu və partlayış qalxdı, silahlar göz qamaşdırırdı; bunların hamısı ərəb qoşununun daşıdığı silah, hərbi ləvazimat və sursatdan qalxırdı. Qoşun dərhal dəstələrlə bir-birinin ardınca hücuma başladı və onları bu vəziyyətdə görən hər kəs böyük dəhşətə düşdü[1].

Çoxlu ərəb qoşunu[2] qalaya yaxınlaşan kimi, mühasirədə olanlar yenidən ərəblərin üstünə atıldılar və onları böyük tələfatla geri çəkilməyə məcbur etdilər.

Buğa əl-Kəbir ilə Yesai Əbu Musa arasındakı hərbi əməliyyat təqribən bir il davam etdi və bu müddət ərzində Buğa əl-Kəbir 28 dəfə K.tiş qalasına hücum etdi və hər dəfə geriyə atıldı, Nəhayət, Buğa əl-Kəbir barışıq istədi. Barışıq bu şərtlə bağlandı ki, həm Buğa əl-Kəbir, həm də Yesai öz elçiləri vasitəsilə xəlifə Mütəvəkkilə uzun sürən bu vuruşmanın nəticəsi barəsində xəbər versinlər. "Budur, hər iki tərəf oturub ehtiyatla qorunurdu; onlar bir-birinə söz vermişdilər ki, göndərdikləri elçilər padşahın [xəlifənin] yanından qayıtmayınca vuruşmasınlar"[3].

Qayıdan elçilər xəlifənin fərmanını Buğa əl-Kəbirə və Yesai Əbu Musaya verdilər. Xəlifə, ərəb qoşununa vurduğu zərbəyə görə knyaz Yesaiyə "əfv" bəxş edirdi. Mütəvəkkil knyaza bəxşiş olaraq qiymətli paltarlar, bəzəkli dəbilqə və qılınc göndərdi və təklif etdi ki, sülh və ittifaq bağlamaq üçün Samarraya gəlsin. Buğa əl-Kəbirə isə tapşırdı ki, knyazı ləyaqətlə qəbul etsin və Xilafət paytaxtına müşayiət etmək üçün ona fəxri silahlı dəstə versin. "Alban sərkərdəsi padşahın kağızını oxuyan kimi dağdan enib Buğa əl-Kəbirin yanına gəldi. O, sərkərdənin qərargahına hələ çatmamışdı ki, onu qarşılamaq üçün gözəl atlara minmiş silahlı dəstələr ona tərəf getdilər. Knyaz ərəblərin ordugahına girincəyədək qabaqdan və arxadan zəngin bəzənmiş gözəl atlar gedir, müğənnilər və onu mədh edən çoxlu

---

[1] Yenə orada, səh. 147-148.

[2] Arsruninin məlumatına görə (səh. 148), Buğa əl-Kəbirin 200 min qoşunu var idi.

[3] Arsruni, səh. 149.

[musiqi çalanlar] musiqi alətləri ilə müşayiət edirdilər. Buğa əl-Kəbir hirsindən onunla heç danışmır, onun törətdiyi işləri üzə vurmur və özünü kədərli göstərmirdi. Əksinə, Buğa əl-Kəbir knyazı padşah [xəlifə] əmr etdiyi kimi, onu iltifat və mehribanlıqla, təntənə və hədiyyələrlə qəbul etdi. Bir neçə gün keçəndən sonra əmr etdi ki, knyazı padşahın yanına müşayiət etsinlər. Öz fıtri igidliyindən ruhlanan Əbu Musa qorxu bilmədən cəsarətlə getdi..."[1]

Belə məlum oldu ki, bu, knyaz Əbu Musaya qarşı xəlifə və Buğa əl-Kəbirin hiyləgərliklə qurduqları tələ idi. Onlar Əbu Musanı və Arranın digər knyazlarını aldada bilmiş və onları xəlifə vədlərinə inandırmışdılar. Buğa əl-Kəbir üsyan etmiş bütün knyazları aldadıb öz yanına gətirdən kimi onları tutub zəncirləyir, xəlifənin yanına göndərirdi. Yuxarıda qeyd edildiyi kimi, Buğa əl-Kəbirin tutub əsir apardığı knyazlar bunlardır: İsa ibn İstifanus, Əbu əl-Abas əl-Vasi (?) adlanan Sumbat ibn Aşot, Arran patriki Müaviyə ibn Səhl ibn Sumbat və Adar-Nerse ibn İshaq əl-Xaşini ("Xaçəndən" - əl-Xaçini)[2], yəni Bəlazurinin verdiyi məlumata görə, Buğa əl-Kəbir Zaqafqaziyadan gedərkən Arran, Ermənistanın dağlıq vilayətləri və Sünikdə (Sisacanda) Xilafətə itaət etməyən istər xristian, istərsə də digər knyazların hamısını tutub özü ilə apardı[3].

## 3. Şirvanşahlar - Məzyədilər dövləti

---

[1] Yenə orada, səh. 149-150.

[2] Ət-Təbəri, III, səh. 1416; İbn Miskəveyh, VII, səh. 548; İbn əl-Əsir, VII, səh. 24; müqayisə et: V.Minorsky. Caucasica, IV, p.514

[3] Əl-Bəlazuri, səh. 212; Vardan ("Всеобщая история", стр. 103), Buğa əl-Kəbirin hərəkətini təsvir edərək yazır: "Buğa əl-Kəbir Sünik knyazlarından Vasakı,qardaşı Aşot ilə, Xaçen mahalında böyük knyaz Atrnersexi, Girdirnan knyazı Ketritçi,Uti əyalətində isə Stepan Kliani, - onun nəsli Sevko-Ordik adını öz əcdadından almışdır – və Axovan knyazı İsaini tutub, hamısını əmirin yanına göndərdi"; müqayisə et:V.Minorsky. A History of Shirvan and Darband, p. 13.

Azərbaycan və xüsusilə Arran (Şirvan) tarixində ərəb Rəbiə tayfasının Şeyban qəbiləsi nümayəndələri böyük yer tutur; bunlar əvvəlcə mərkəzi Bərdədə olan yarımmüstəqil əmirlik, sonralar isə XI əsrədək yaşamış müstəqil Şirvanşahlar dövlətini yaratmağa müvəffəq olmuşlar.

VIII əsrin 70-ci illərində Şeyban qəbiləsinin başçısı Məan ibn Zaidin vəfatından sonra, Məanın öz uşaqları olduğu halda, onun qardaşı oğlu Yəzid ibn Məzyəd qəbilə başçısı oldu. Məanın arvadı ondan soruşanda ki, "Nə üçün sən öz qardaşın oğlu Yəzidi birinci yerə irəli çəkir, öz uşaqlarını isə kənar edirsən, halbuki uşaqlarını irəli çəksəydin, onlar da birinci yeri tuta bilərdilər?" Məan buna belə cavab verdi: "Yəzid mənə yaxındır və mənim üçün oğul yerindədir. Doğrudur, mənim oğullarım mənim üçün daha əzizdirlər, lakin mən qardaşım oğlunda gördüyüm istedadı öz oğullarımda görmürəm. O istəsə, mümkün olmayan şey mümkün olar, düşmən isə dost olar"[1].

Məan haqlı idi; onun qardaşı oğlu Azərbaycan, xüsusilə Şirvan tarixinə aid sonrakı hadisələrdə görkəmli rol oynadı. Təqribən 1100-cü ildə Dərbənddə tərtib edilən "Tarix" kitabının müəllifi bildirir ki, Yəzid ibn Məzyəd ibn Zaid ibn Abdulla ibn Zaid ibn Matar ibn Şüreyk ibn əs-Səlt, adı Əmr ibn Qeys ibn Şuraxbil ibn Xumam ibn Murra ibn Zuhl ibn Şeyban əş-Şeybani olan şəxs "adlı-sanlı əmir və məşhur igidlərdən biri idi"[2].

Xəlifə Harun ər-Rəşid taxta çıxan zaman Yəzid ibn Məzyəd Zaqafqaziya vilayətlərinin hakimi idi, hərçənd ki, mənbələr onun bu vəzifəyə təyin olunma tarixini göstərmir. Yəqin onu xəlifə Hadi (785-786) təyin etmişdi, çünki xəlifə öz atası Mehdinin vəsiyyətini pozaraq, qardaşı Harunu deyil, öz oğlunu özünə xələf təyin etdikdə, Yəzid ibn Məzyəd onun tərəfini saxlamış və digər sərkərdələrilə birlikdə Harunu vəliəhd adından məhrum edərək, Cəfərə beyət

[1] İbn Xallikan, II, səh. 423-424.

[2] Füsul, səh. I.

etmişdi[1]. Harun ər-Rəşid taxta çıxandan bir il bir neçə aydan sonra (788-ci ildə) Yəzid ibn Məzyədi Ermənistandan geri çağırdı və onun yerinə öz qardaşı Ubeydullah ibn Mehdini təyin etdi [2]. Sikkələrə görə, xəlifə Hadi Yəzidi ilk dəfə 786-cı ildə Ermənistan hakimi təyin etmiş və Yəzid 788/9-cu ilədək bu vəzifədə qalmışdı[3].

Gevondun verdiyi məlumata gorə, Ubeydullah "ölkəmizə özbaşına iş görən, hiyləgər və Allahdan qorxmayan hakimlər təyin edirdi: əvvəlcə Məzyəd oğlu Yəzidi, bir müddət keçəndən sonra isə Əbd ül-Kəbiri (ibn Əbd ül-Həmid əI-Ədəvini)"[4].

Harun ər-Rəşid Yəzidə inanmasa da onun xidməti olmadan keçinə bilmirdi, odur ki, ikinci dəfə onu Azərbaycan, Arran və Ermənistan hakimi təyin etdi, çünki Xilafətin həmin vilayətlərində baş verən iğtişaşların öhdəsindən yalnız Yəzid gələ bilirdi. Yəzid ikinci dəfə təyin olunduqdan sonra "hər tərəfdən Rəbiiləri oraya köçürdü və hazırda (786-dan 788-ci ilədək - *Z.B.)* onlar orada [ərəb əhalisinin] əsas hissəsini təşkil edirlər. Yəzid ölkəni elə möhkəm idarə edirdi ki, heç kəs tərpənməyə qadir deyildi"[5].

788/9-dan 792/3-cü ilədək Yəzid yenidən iş başında deyildir; 792/3-cü ildə isə Harun ər-Rəşid onu üçüncü dəfə həmin vilayətlərin hakimi təyin etdi, çünki bu yerlərdə Xilafətə qarşı yenidən üsyan qaldırmışdılar. Bu dəfə yerli əhalidən başqa, ərəb feodalları da üsyanda iştirak edirdilər. Harun tərəfindən bu vilayətlərə hakim təyin edilən əl-Fəzl ibn Yəhya ibn-Xalid əI-Bərməki "Bab ül-Əbvab ölkəsinə gələn kimi Xamzin qalasına hücum etmiş, lakin qala əhalisi

---

[1] Ət-Təbəri, III, səh. 634; müqayisə et:Weil. Geschichte der Chalifen, p. 100, 103-104, 126, 147, 158.

[2] Əl-Təbəri, III, səh. 636; İbn əl-Əsir, VI, səh. 42-43.

[3] Е.А.Пахомов. Монеты Азербайджана (dərc edilməmiş), vər. 168-169.

[4] Gevond, səh. 115.

[5] Əl-Yəqubi, II, səh. 515; Y.A.Paxomov (vər. 169) belə güman edir ki, bu onun birinci hökmranlığı idi. Y.Zambar belə hesab edir ki, Yəzidin bu hökmranlığı 171(787-788)-ci ildə başlanmışdır, lakin sikkələr (Y.A.Paxomov, yenə orada) 170 (786-787)-ci il tarixini göstərir.

onu qaçmağa məcbur etmişdi; o isə heç bir şeyin qeydinə qalmadan o qədər qaçmışdı ki, nəhayət gedib İraqa çıxmış, ölkədə isə öz yerinə Ömər ibn Əyyub əl-Kənanini canişin qoymuşdu. Əl-Fəzl İraqa gələn kimi, Əbu əs-Sabahı Arminiyaya xərac yığan, Səid ibn Məhəmməd əl-Harranini isə ordu komandanı göndərdi. Əbu əs-Sabah [oraya] çatan kimi, Bərdə əhalisi üsyan qaldıraraq, onu öldürdülər. Sonra Arminiya üsyan etdi, burada Əbu Müslim şərit çıxış etdi[1]. Bunun ardınca əl-Fəzl Xalid ibn Yəzid ibn Useyd əs-Sulamini hakim təyin etdi və ona kömək üçün Əbd ül-Malik ibn Xalid əl-Xəraşinin sərkərdəliyi altında 5 min nəfərlik bir dəstə göndərdi. Ruyanda onlar Əbu Müslimlə vuruşdular və Əbu Müslim onları qaçmağa məcbur etdi, özü isə Kilab qalasına yürüş edib oranı aldı. Ər-Rəşid bundan sonra əl-Abbas ibn Cərir ibn Yəzid ibn Abdullah əl-Bəcəlini Arminiyaya hakim təyin etdi. O, Bərdəyə gələn kimi beyləqanlılar ona qarşı üsyan qaldırdılar, lakin o, beyləqanlılara qarşı Bərdə yaxınlığında möhkəmləndi. Əbu Müslimin əleyhinə [xəlifə] altı min nəfərə [döyüşçüyə] başçılıq edən Mədan əl-Xumsini göndərdi. Onlar üz-üzə gəldilər və aralarında gedən vuruşmada Mədan əl-Xumsi öldürüldü. Əbu Müslim isə Dəbilə tərəf hərəkət etdi və dörd ay

[1] Ə b u  M ü s l i m- xəlifələrdən Hadi və Harun ər-Rəşidin hökmranlığı dövründə dəfələrlə üsyan qaldırmış məşhur xaricidir. Bəzi Dağıstan xalqlarının müsəlmanlaşdırılması prosesi Əbu Müslimin adı ilə bağlıdır. Hətta "Əbu Müslimin tarixi" əlyazmalarının siyahıları da vardır (A.R.Şeyxsəidov. X-XV əsrlərdə Cənubi Dağıstanda islamın yayılması, səh. 137). KumuxdaXyumizit məscidində belə bir yazı vardır: “162 (778)-ci ildə mömin Əbu Müslimin (Allah ona rəhmət eləsin) buyuruğu ilə bu məscid Allah xatirinə tikilmişdir" (M.S.Seyidov. Dağıstan Respublikasının Lak rayonlarında bəzi maddi mədəniyyət abidələri, səh. 122). Bu Əbu Müslimin, Əməvilər sülaləsini devirməkdə fəal xadimlərdən biri olan Əbu Müslimlə heç bir münasibəti yoxdur. Lakin V.N.Xanıkov (N.Khanikoff. Memoire sur les inscriptions musulmanes du Caucas, p. 85) və M.S.Seyidov ("Dağıstanda Əbu Müslimin islam dinini yayması haqqında”, səh 42-51) deyəndə ki, Əbu Müslim Dağıstanda olmamışdır, haqlı deyildilər. Bu sözlər, bizim Əbu Müslimə deyil, yalnız Abbasilərin tərəfdarı olan Əbu Müslimə aiddir. Bu barədə b a x : A.R.Şeyxsəidov. Sitat gətirilən əsəri, səh. 147-148.

ərzində onu mühasirədə saxladı. Bundan sonra Beyləqana getdi və orada yerləşdi"[1].

Gördüyümüz kimi, bu vilayətlərdə üsyanlar yatırılmamışdı və baş verə biləcək daha böyük qarışıqlıqlardan çəkinən Harun ər-Rəşid yenidən Yəzid ibn Məzyədi yanına gətirmişdi. Xəlifə Yəzidi çağırıb ona on min qoşun verdi və əmr etdi ki, üsyan etmiş vilayətlərə qarşı hərəkət etsin. Orada Yəhya əl-Xəraşi 12 minlik bir ordu ilə ona qoşuldu. Yəzid ibn Məzyəd üsyançılara divan tutdu, lakin az sonra yenə işdən kənarda qaldı.

Xəlifə dördüncü dəfə 183 (799)-cü ildə Yəzidi Arminiya hakimi təyin edərək, "Azərbaycan, Şirvan və Bab ül-Əbvab hökmranlığını ona tapşırdı"[2]. Dərbənd "Tarix"i bildirir ki, bu iş aşağıdakı hadisədən sonra oldu, o, xaricilərdən əl-Vəlid ibn Tarif əş-Şeybaniyə qarşı edilən qalibiyyətli [müharibədə] böyük xidmət və gözəl səy göstərir və Vəlidi 178 (794)-ci ildə öldürür. Bu Vəlid mütəəsib xarici idi, Haruna qarşı çıxaraq, üsyan elan etmişdi. Əl-Cəzirə vilayətində onun tərəfdarlarının sayı artmış və o, vilayəti tutmuşdu. [Bir dəfə o, Harunun qoşunlarını əzdikdən sonra] onun təkəbbürü və pis əməlləri artdı; nəhayət, Harun Yəzid ibn Məzyədi qoşunla onun üstünə göndərdi. Yəzid onun [Vəlidin] üstünə getdi, onların arasında bir-birinin ardınca şiddətli vuruşmalar oldu. Sonra onlar təkbətək vuruşdular. Yəzid ona qalib gəldi və onun ayağını kəsdi. Sonra Yəzid 178-ci ildə deyildiyinə görə, 179 (795)-cu ildə əl-Cəzirə ərazinin əl-Həc adlı yerdə onun başını kəsdi. O, Harunun yanında ləyaqətinə görə yüksəldi. Harun da onu, yuxarıda qeyd etdiyimiz kimi, 183 (799)-cü ildə həmin vilayətlərin hakimi təyin etdi"[3].

Yəzid ibn Məzyədin əl-Vəlid üzərində qələbəsi, Harun ər-Rəşidin ona olan münasibətini dəyişdirdi; o, Yəzidi özünə

---

[1] Əl-Yəqubi, II, səh. 515-516.

[2] Füsul, səh. 1; əl-Yəqubi, II, səh. 51; R.Fasmer (səh. 177) yanlış olaraq bu təyinin 186 (802)-cı ildə olduğunu qeyd edir. Yəzid 185 (801)-ci ildə ölmüşdür.

[3] Füsul, səh. 2; ət-Təbəri, III, səh. 638.

yaxınlaşdırdı və ona hörmət göstərməyə başladı. Yəzidin şöhrəti bütün Xilafətə yayıldı və şair Müslim ibn əl-Vəlid onun şərəfinə mədhiyyə yazdı:

Əgər Yəzidlə onun ilkin igidlikləri olmasaydı,
Mürtəd Vəlid hələ çox yaşayardı!
Lakin xəlifə, bədən və başları ikiyə bölən
Bənu Matardan birisinin qılıncını çıxartdı.
O, (Yəzid) Xilafət və islamı qorudu.
Onları elə möhkəmlətdi, necə ki, aslan
Qoruyur balalarının yuvasını hər an
(Yəzid) bir ölümdür ki, Harun (ər-Rəşid) ən çətin anlarda
Düşmənlərinin üstünə onu göndərir,
Vəlidi öldürmüş bənu Matardan elə bir qəhrəman ki,
Ağır günlərdə təhlükə ona ancaq cürət artırır.
Xilafətdən söhbət gedəndə, sən, ey Yəzid,
Olursan onun dayağı,
Abbasilər də - onun hökmdarları[1].

"Onun (Yəzidin - *Z.B.)* gəlməsi ilə xalq sakitləşdi və ölkədə qayda-qanun yarandı. O, nizariləri yəmənlilərlə bərabərləşdirdi, padşahların (müluk) və patriklərin oğulları ilə məktublaşıb onlara böyük ümidlər verdi. Ölkə də sakitləşdi"[2].

Yəzid ibn Məzyəd ömrünün axırınadək Azərbaycanda (Bərdədə) qaldı, 185 (801)-ci ildə öldü və Bərdədə basdırıldı[3].

Beləliklə, Şirvanın birinci rəsmi məliki (padşahı), eyni zamanda Azərbaycan, Ermənistan, Arran və Dərbənd hakimi Yəzid ibn Məzyəd əş-Şeybani olmuşdur. Lakin bundan xeyli əvvəl "Şirvan

---

[1] İbn Xallikan, II, səh. 420-421.
[2] Ət-Təbəri, III, səh. 648; əl-Yəqubi, II, səh. 517.
[3] Ət-Təbəri, III, səh. 650; İbn əl-Əsir, IV, səh. 60; İbn Xallikan, II, səh. 427

məliki [padşahı]"[1] Şamax ibn Şüca adlanırdı; o, xəlifə canişini Səid ibn Səlmin hökmranlığı zamanı mərkəzi hakimiyyətin itaətindən çıxmışdı[2].

Yəzid ibn Məzyədin ölümündən sonra üç oğlu qalmışdı: Əsəd, Xalid və Məhəmməd.[3] Lakin sikkələrə görə fikir yeridilərsə, Yəzid hələ sağlığında Arranı idarə etməyi öz qardaşı Əhməd ibn Məzyədə və oğlu Əsəd ibn Yəzidə tapşırmışdı. Y.A.Paxomovun verdiyi məlumata görə, Əhməd cəmi bir ilə yaxın hökmranlıq etdi (800-cü ildə); bundan sonra Arran hakimiyyəti Əsədə keçir[4], həm də "atası öləndən sonra bir tək Arranda deyil, habelə Arminiyada və Dəbildə Əsədin adı ilə sikkə kəsilirdi"[5]. Atası öləndən sonra Əsəd Harun ər-Rəşid tərəfindən Yəzidin vəzifəsinə təyin edilmişdi, lakin Əsədin bıı vəzifədə nə qədər qaldığı dürüst müəyyən edilməmişdir. Hər halda, Əsədin adı ilə kəsilən axırıncı sikkə 802-ci il tarixli dirhəmdir[6]. Yenə həmin ildə Yəzidin digər oğlu Məhəmmədin adı ilə bir neçə sikkə vardır ki, "sonrakı 187 (802/3)-ci ildə bunlar arasında kəsilmədən davam edir"[7].

Lakin Məhəmməd ibn Yəzidin fəaliyyəti Azərbaycandan kənarda - Mosulda və Tarsusda xəlifə Harun ər-Rəşidin öldüyü 809-cu ilə qədər davam etmişdi[8]. Xəlifə Əminin dövründə Əsəd ibn Yəzid Azərbaycanın ilk canişini təyin edilir. Bu, Əsədin ikinci hökmranlığıdır ki, 194 (809)-cü ildə kəsilən dirhəm pullar da həmin vaxta aiddir[9]. Lakin bir il sonra (196-cı ildə) Əsəd, xəlifə taxtına çıxmaq istəyən Məmunun əleyhinə çıxmaqdan imtina etdiyi üçün,

---

[1] V.Minorsky. A History of Sharvan and Darband, p. 22.

[2] Əl-Bəlazuri, səh. 210; əl-Yəqubi, II, səh. 518

[3] Füsul Əsəd haqqında heç bir şey demir.

[4] Y.A.Paxomov. Sitat gətirilən əsəri, vər.190.

[5] Yenə orada, vər.192.

[6] Ət-Təbəri, III, səh. 648; İbn əl-Əsir, VI, səh. 60; Y.A.Paxomov. Sitat gətirilən əsəri, vər.195.

[7] Əl-Bəlazuri, səh. 210; Y.A.Paxomov. Sitat gətirilən əsəri, vər.195.

[8] Füsul, səh. 2.

[9] Y.A.Paxomov. Sitat gətirilən əsəri, vər.220.

hakim vəzifəsindən çıxarılır və hətta həbs edilir. Bundan sonra Əmin öz saray adamlarına müraciət edib onlardan soruşur: "Əsədin ailəsində elə bir adam yoxdurmu onu əvəz etsin? Mən heç istəmirəm onları [məzyədiləri] öz əleyhimə qaldırım, çünki onlar keçmişdə [bizim xanədana] sədaqətlə xidmət edib, sadiq olmuşlar"[1]. Xəlifəyə məzyədilərdən Əsədin əmisi Əhmədi nişan verdilər. Əmin ona əmr etdi ki, ordunun komandanlığını öz öhdəsinə gotürüb Məmuna qarşı çıxsm. Təqribən hamısı rəbiilərdən ibarət olan 12 minlik ordu Hülvana çatanda dağıldı, Məmun isə müqavimət görmədən Bağdada girdi, öz qardaşını öldürüb 813-cü ildə özünü xəlifə elan etdi.

Bundan sonra mənbələrdə nə Əsəd, nə də onun əmisi Əhməd barəsində heç bir şey deyilmir. Məmun, xəlifə sarayının köhnə ənənəsinə görə, məzyədilər xanədanı nümayəndələrinə etimad göstərirdi, lakin 820-ci ilədək onlar heç bir inzibati vəzifə tutmurdular. Məmun 205 (820)-ci ildə Xalid ibn Yəzid ibn Məzyəd-əş-Şeybanini Azərbaycan, Arran və Ermənistan hakimi təyin etdi və o, təyin olunduğu yerə getdi[2]. Lakin bu məlumat numizmatik materiallarda təsdiq olunmur, çünki Xalidin adı üstündə olan sikkələr yalnız 212 (827)-ci ildə buraxılır[3].

Xalid ibn Yəzidin bu vəzifəyə təyin olunmasından əvvəl aşağıdakı hadisələr baş vermişdi. Xilafətdə baş verən qarışıqlıqdan, yəni iki qardaşın - Əmin və Məmunun taxt üstündə mübarizəsindən istifadə edərək, Azərbaycan, Arran və Gürcüstanda Xilafətə qarşı yenidən üsyan qaldırılır. Bu zaman (202/817-ci ildə) həmin vilayətlərin hakimi Əbd ül-Əla ibn Əhməd əs-Sülami idi; özü də "işgüzar deyildi və hərbi işlərdən beç bir şey başa düşmürdü". O, sanarların köməyi ilə mütəğəllib Məhəmməd ibn Əttab tərəfindən məğlub edildi[4]. Məzyəd elə bu zaman Məmunun yadına düşmüşdü.

---

1 Ət-Təbəri, III, səh. 836.

2 Kartlis Sxovreba, səh. 253; "Ərəb Xəlil (Xalid) İzid (Yəzid) oğlu gəldi, Ermənistan Kartli və Xeretini tutdu".

3 Y.A.Paxomov. Sitat gətirilən əsəri, vər. 252

4 Əl-Yəqubi, II, səh.541-542.

Xalid hələ Bərdəyə gedərkən Səhl ibn Sumbatın vilayəti Şəkidə itaətdən çıxan əhalinin üsyanını yatırmalı oldu. Xalid Kasala (Qazağa) gəlib Məhəmməd ibn Əttabla vuruşmaq üçün hazırlaşmağa başladı, lakin o, Xalidin yanına gəlib ondan aman istədi. "Xalid də ona aman verib soruşdu: "Sanarlar sənə tabe olurlarmı?" "Yox, -deyə Məhəmməd cavab verdi, - onlar mənə tabe olmurlar". Onda Xalid onların üstünə getdi. Curzanda onlarla bərk vuruşub, qaçmağa məcbur etdi və onların mal-qarasını tutdu. Sonra Xalid onlara sülh bağlamağı təklif etdi, onlar da sülh bağlayıb 3 min madyan at və 20 min qoyun verməyi öhdələrinə götürdülər"[1]. Lakin bir müddət sonra ona qarşı "gürcülər üsyan qaldırdılar, Xalid bir müddət də onların üstünə getdi və orada sanarlarla vuruşdu. Onlara qalib gəldi və onlardan çox adam qırdı. Sonra onların içərisindən bir qədər girov adam götürdü və onları dara çəkdi[2].

Gürcü və erməni mənbələrindən məlum olduğu kimi, Məhəmməd ibn Əttab gürcü knyazları ilə onların yarımmüstəqil təbəələri olan sanarlar və mtiullarla birlikdə Xilafətə qarşı çıxırdı. "Kartlis Sxovreba" həmin hadisələr haqqında belə deyir: "Bu zaman, Aşot hərbi səfərə gedəndə, Tevdos onun köməyinə gəldi, Abxaziyapad padşahı Qriqol, onun kürəkəni və Kaxetiya mtavarı II Leonun oğlu Kaxetiyadan çıxış etdilər, burada mtiullar, sanarlar və Tiflis əmiri [Məhəmməd ibn Əttab] onun müttəfiqi idilər... Bundan sonra, Ərəbistandan gəlib Somxetiyanı, Kartlisi və Heretisi tutan İzidin oğlu [Xalid] Aşot Kuropalata qarşı müharibəyə başladı, ona müqavimət göstərməyə qadir olmayan Aşot Yunanıstana [Bizansa] qaçdı, anasını, arvadını, həddi-büluğa çatmamış iki oğlunu - böyük oğlu Adarnası və kiçik oğlu Baqratı da özü ilə birlikdə apardı. Onun

---

[1] Yenə orada,II,səh.542-543.

[2] Yenə orada

[Aşotun] dəstəsi, arvad və uşaq ilə birlikdə bir az xidmətçidən ibarət idi. Bu Aşot 826-cı ildə öldürüldü"[1].

Lakin Xalid ibn Yəzid Xilafət xeyrinə böyük fəaliyyət göstərdiyinə baxmayaraq, 217 (832/3)-ci ildə Məmun tərəfindən geri çağırıldı, çünki canişin Xalidin adı ilə axırıncı sikkə həmin ildə kəsilmişdi[2]. Belə fəal canişini dəyişdirməyə Məmunu nə vadar etdiyi aydın deyildir, lakin görünür Xalid Zaqafqaziya feodalları ilə, Xilafətin mənafeyinə zərər vuran əlaqəyə girişmişdi. Bəlazurinin verdiyi məlumat bu hadisələri müəyyən qədər aydınlaşdırır. O yazır ki, Xalid "onlardan [knyazlardan] hədiyyələr alıb, onları özünə yaxınlaşdırdı ("Özü ilə qarışdırdı" xəllətuhum bi-nəfsihi) və bununla onları korladı və Xaliddən sonra Məmunun təyin etdiyi hakimlərə qarşı cəsarətli etdi"[3].

Beləliklə, Xalid ibn Yəzidin birinci canişinliyi altı il davam etdi[4]. Xalidin ikinci canişinliyi xəlifə Mötəsimin dövründə oldu; o zaman 839/40-cı ildə Zaqafqaziya vilayətlərini yenidən üsyan bürümüşdü və bu vilayətlər, demək olar, Xilafətdən ayrılmışdı. "Bu xəbər (Xalidin hakim vəzifəsinə təyini xəbəri - Z.B.) Ermənistana çatanda, sülalələrə mənsub olanların hamısı onun qarşısında böyük vahiməyə düşərək, öz qalalarında qapanıb qaldılar və ona qarşı üsyana qalxdılar"[5]. Gürcü mənbəyində bildirilir: "Ərəb Xəlil [Xalid] ikinci dəfə gəldi, qardabanlılar onunla vuruşdular və onlardan [ərəblərdən] çoxu qırıldı"[6]. Yəqin Xalidin məğlubiyyəti xəlifənin narazılığına səbəb olmuşdu, çünki dərhal bundan sonra Mötəsim onu

---

[1] Histoire de la Georgie, p.261; müqayisə et: J.Marguart. Streifzüge, p. 409-410.

[2] Y.A.Paxomov. Sitat gətirilən əsəri, vər. 257-258

[3] Əl-Bəlazuri, səh. 211.

[4] M.J.St-Martin. Memoires historiques et geographiques sur l'Armenie, I, p. 417, on yeddi il.

[5] Əl-Yəqubi, II, səh. 578.

[6] Kartlis Sxovreba, səh. 254.

geri çağırdı və Xalid "227 (842)-ci il içərisində Mötəsimin vəfatınadək işdən kənarda qalırdı"[1].

Xəlifə əl-Vasiq (842-847) taxta çıxan kimi "Xalid ibn Yəzidi çağırıb Azərbaycan və Arrana hakira təyin etdi, qoşunu yedirtmək üçün ona 500 min dinar, əlavə xərclər üçün bir milyon dirhəm və bütün zəruri təchizatı olan 12 min süvari verdi"[2].

Azərbaycan, Arran və Gürcüstanda işlər yenidən çox pisləşdi, çünki "ərəblərin, patriklər və mütəğəlliblərin bir hissəsi hərəkətə gəlmişdi. Dağların və Bab ül-Əbvabın padşahları qonşu vilayətləri tutub sultanın [xəlifənin] hakimiyyətini zəiflətmişdilər"[3]. Böyük bir orduya başçılıq edən Xalid üsyançılarla vuruşmağa getdi. Müxtəlif erməni knyazları və "təxminən 20 min döyüşçüdən ibarət nizami erməni qoşunu" ona qoşuldu[4]. Xalid, Xilafətdən ayrılan Tiflis hökmdarı İshaq ibn İsmayıla təklif etdi ki, təslim olmaq üçün onun yanına gəlib aman istəsin, lakin İshaq bundan boyun qaçırdı. Onda Xalid ordunu İshaqa qarşı göndərdi və Gürcüstana girib Cavaxetiyə çatdı. Lakin o öz qələbəsini görə bilmədi, çünki xəstələnib öldü. Xalidi Dəbilə aparıb orada basdırdılar. Dərbənd "Tarixi"nin verdiyi məlumata görə bu hadisə "230 [844]-cu ildə, bəzilərinin dediyinə görə isə, 228 [842]-ci ildə"[5] baş vermişdir. Y.A.Paxomovun verdiyi məlumata görə, təəssüf ki, Zaqafqaziyada xəlifə Vasiqin hökmranlığı

---

[1] Füsul,səh.2.

[2] Yenə orada, səh. 2.

[3] Əl-Yəqubi, II, səh. 587.

[4] Füsul, səh. 3.

[5] Əl-Yəqubi, II, səh. 587. Stepannos Taronatsi (Asogik, səh. 134-135) Tiflis üzərinə bir hərbi səfər üçün erm. 290 (30.04.841-29.04.842)-cı il tarixini göstərir və deyir ki, Xalid Cavaxda Xosapir kəndində ölmüşdür (öldürülmüşdür!); İbn Xallikan (IV, səh. 230-231) qeyd edir ki, Xalid TİflisƏ gedərkən yolda xəstələnmiş və 230 (844,5)-cu ildə Dəbildə ölmüşdür. Gürcü mənbəyi "Ağvan tarixi"nin (səh. 270) verdiyi bu məlumatı təsdiq edir ki, Xəlil öldürülmüşdür: "Xəlil (Xalid) üçüncü dəfə qayıtmış (842/3-cü ildə) və Cavaxetidə öldürülmüşdür" (b a x: Kartlis Sxovreba, səh. 255; Füsul, səh. 3); V.Minorsky. A History of Sharvan and Darband, p. 57; C.J.F.Dowestt, p. 457.

zamanı sikkəsi hələ tapılmamışdır[1] və Xalid ibn Yəzidin üçüncü hökmranlığını təsdiq edən numizmatika əlimizdə yoxdur.

Xalid öləndən sonra, onun oğlu Əli ibn Xalid ordu komandanlığını öz öhdəsinə aldı. Lakin az sonra ordu dağıldı, onda xəlifə əl-Vasiq Xalidin ölümündən sonra "ölkədə vəziyyətin əvvəlkindən daha pis olduğunu"[2] görüb təşvişə düşdü və Xalidin ikinci oğlu Cəzirə hakimi Məhəmmədi yanına çağırdı, ona əmr etdi ki, atasının yerini tutsun və İshaq ibn İsmayıla qarşı müharibəni davam etdirsin[3]. Məhəmməd ibn Xalid 230 (844/5)-cu ildə Azərbaycan, Arran və Ermənistanı idarə etməyə başladı.

Məhərmnəd atasının qoşununu öz ətrafına toplayıb, İshaqın üstünə getdi. Yəqubinin verdiyi məlumata görə, Məhəmməd "sanarlarla və İshaqla o vaxtadək müharibə etdi ki, axırda onu [ölkədən] qovdu və onları [sanarları] qaçmağa vadar etdi[4], bundan sonra ölkəni möhkəm idarə etməyə başladı". Lakin deyəsən, Yəqubinin bu məlumatı dürüst deyildir, çünki digər mənbələrdə bildirilir ki, Məhəmməd Gürcüstana (Kartli) girən zaman İshaq ibn İsmayıl öz müttəfiqləri və sanarlarla, ya da gürcü rəvayətinə görə, - kaxetlilərlə[5] onun qabağını kəsməyə getdi və Rexə çatdı"[6], Məhəmməd isə öz qoşunları ilə Uplis-Sixeni tutdu[7]. Rexdo, bərk vuruşmadan sonra Məhəmməd məğlub edildi və Bərdəyə çəkildi[8].

Həmin ildə Məhəmməd ibn Xalid Buğa əl-Kəbir tərəfindən Hakim vəzifəsindən götürüldüyünə görə 237 (851)-ci ilədək işdə deyildi; bu zaman xəlifə Mütəvəkkil Zaqafqaziya mütəğəlliblərini sakitləşdirmək üçün Buğa-əl-Kəbiri göndərir, o da ermənilər və

---

[1] Y.A.Paxomov. Sitat gətirilən əsəri, vər. 273.
[2] Əl-Yəqubi, II, səh. 527.
[3] Yenə orada.
[4] Əl-Yəqubi, II, səh. 588.
[5] J.Marguart. Streifzüge, p. 410.
[6] Ksaninin qərbində Rexuli çayı kənarında
[7] Kürün sol sahilində, Didi-Mexvi ilə Ksani çayları arasında.
[8] Füsul,səh.3.

onların patrikləri arasında qırğını artırır"[1]. Məhəmməd ibn Xalid və Buğa əl-Kəbir ilə birlikdə idi. Uzun sürən vuruşmalardan sonra, Tiflis hakimi İshaq ibn İsmayıl məğlub və edam edildi"[2]. Gürcü mənbəyi bu hadisə haqqında belə məlumat verir: "Baqratın padşahlığında 851 [826-878]-ci ildə Bağdad xəlifəsi öz sərkərdəsi Buğanı Gürcüstana göndərdi. Buğa Ermənistanı talayıb viran etdi və sonra gəlib ərəblərə qarşı üsyan edən Tiflisi mühasirə etdi. Tiflis əmiri Saakı [İshaqı] öldürdü, şəhəri dağıdıb yandırdı və ətrafındakı yerləri talayıb viran etdi. Abxaziya padşahı Tevdose onun əleyhinə çıxdı"[3]. Sonra Buğa-əl-Kəbir sanarların üstünə getdi, lakin onlar Buğa-əl-Kəbiri məğlub edib, qaçmağa məcbur etdilər. Əvvəlcə Buğa-əl-Kəbirə təslim olmuş mütəğəlliblər həmin hadisədən istifadə edərək, ondan üz döndərib qaçdılar, "Rum, Xəzər və Səqləblərin hökmdarları ilə məktublaşıb, böyük bir qoşun topladılar; Buğa-əl-Kəbir bu barədə Mütəvəkkilə məlumat verdi, o da Məhəmməd ibn Xalid ibn Yəzid ibn Məzyəd-əş-Şeybanini ölkəni idarə etməyə çağırdı. EIə ki, [o] gəldi, qiyamçılar sakitləşdilər, o da onlara bir daha aman verdi"[4].

Xəlifə Mütəvəkkil 851-ci ildə Bab ül-Əbvab şəhərini vilayətləri ilə birlikdə iqta olaraq Məhəmməd ibn Xalidə verdi[5], Məhəmməd və mütəğəlliblərlə müharibə qurtarandan sonra buraya gəldi. Buradan da o, əl-Babın qonşuluğunda yaşayan "kafirlərə basqınlar etməyə başladı, nəhayət, Buğa əl-Kəbirin köməyi ilə 242 (856)-cı ildə Azərbaycan, Ermənistan və Arran hakimi [vəzifəsində] bərpa edildi"[6].

---

[1] Yenə orada.

[2] История Агван, стр. 272/219.

[3] М.Джанашвили. Известия грузинских летописей и историков, стр. 28, 29; С.Баратов. История Грузии, стр. 13-14.

[4] Əl-Yəqubi, II, səh. 598-599; Kartlis Sxovreba, səh. 255.

[5] Füsul, səh.3.

[6] Məhəmməd Rəfiyə isnad verilən əsərdə deyilir ki, ərəblər Qumuxu viran viran edib, avar torpaqlarına soxuldular. "Nusal adlanan avar padşahı Bayar ibn Suraka" öz ailəsi və yaxın adamları ilə birlikdə Tuşetidə sığınacaq tapdı. Ərəblər

Sonra Dərbənd “Tarix”i bildirir ki, Məhəmməd 245 (859)-ci ildo Gəncə şəhərini saldı, halbuki "Ağvan tarixi" şəhərin salınması üçün başqa bir tarixi göstərir. Xəzr Patqos öldürüləndən sonra onun oğlu Məhəmməd Arrana gəldi və "ölkəmizi qılınc və əsarətlə tutub bir çox kilsə yandırdı, sonra Bağdada getdi. Oradan padşah fərmanı və xəzinə ilə qayıtdı. Arşakaşen vilayəlində Qandzak şəhərini saldı [erm. 295-ci ilində b.e. 846/7-ci il]"[1].

Sonralar Məhəmməd ibn Xalid ölkəni daha idarə etməyib Gəncədə yaşadı. Əl-Müstəinin xəlifəliyi dövründə (862-866) Məhəmməd Bizans sərhədində Xilafət qoşunlarının komandanı və yəqin Cəzirə hakimi idi.

Lakin Şirvanşahlar sülaləsinin əsasını qoymaq xidməti Xalidin o biri oğlu, Şirvan hakimi Heysəm ibn Xalid ibn Məzyəd əş-Şeybaninindir.

861-ci ildə xəlifə Mütəvəkkil öldürüldükdən sonra, Xilafət paytaxtında türklərin fəaliyyəti ilə əlaqədər olaraq, Xilafətdə iğtişaş başlandı; bundan istifadə edən Heysəm Şirvanın müstəqilliyini elan edib, mərkəzi hakimiyyətlə əlaqəni tamamilə kəsdi [2]. O, məzyədilərdən birinci adamdır ki, şirvanşah deyə məşhıır olmuşdıı. Onun vəfat ili məlum deyildir.

Onun yerini tutan oğlu Məhəmməd ibn Heysəm atası kimi qonşu vilayətlərə basqınları davam etdirirdi. Xalidin üçüncü oğlu - Yəzid ibn Xalid qardaşı Heysəm ibn Xalid ilə eyni zamanda özünü Layzanşah elan etdi, çünki Layzan vilayəti onun əlində idi[3]. O, 917-ci ildə öləndən sonra oğlu Əbu Tahir Yəzid ibn Məhəmməd onun yerinə keçdi və Şirvandakı qarışıqlıqdan istifadə edərək oraya hücum etdi və bir nəfər istisna olmaqla, Heysəm ibn Xalid ailəsi

---

onun iqamətgahı Xunzakı dağıtdılar və bütün silahdaşlarını öldürüb məhv etdilər. В а х: "Очерки истории Дагестана", стр. 56.

[1] История Агван, стр. 270/218; müqayisə et: CJ.F.Dowsett. Passage, p. 462.

[2] Füsul, səh. 4.

[3] Füsul, səh. 5; müqayisə et: M.X.Şərifli. Şirvanın Lizan padşahlığı ilə birləşməsi.

nümayəndələrinin hamısını qırdı. Şirvanı tutub, özünü şirvanşah elan etdi[1].

## 4. Sacilər dövləti.

Abbasilər Xilafəti tarixində IX əsrin axırı X əsrin əvvəlləri Xilafətin ucqarlarında yerli hökmdar və canişinlər separatizminin güclənməsi ilə əlamətdardır. Çoxlu mütəğəlliblərin hərəkatı güclənir və onlardan hər biri mərkəzi hakimiyyətin çətinlikləri və zəifləməsindən istifadə edərək, ayrılmağa, özü üçün yarımmüstəqil və ya müstəqil hakimlik yaratmağa cəhd edirdi. Əvvəlcə bu hökmdar və ya canişinlər öz vilayətlərində yığılıb xəlifənin xəzinəsinə göndərilən vergilərin məbləğini azaltmağa başlayır, sonralar isə beyt ül-mala pul göndərilməsini tamamilə dayandırırdılar. Əgər belə bir mütəğəllibə daha zəif qonşusunun torpaqlarını özününkünə qatmağa, güclü qoşun təşkil etməyə və onun üstünə göndərilən nizami xəlifə ordularını məğlub etməyə nail olurdusa, xəlifələr onların öz vilayətlərində ağalıq etməyə tam ixtiyarı olduğunu qəbul edirdilər, yalnız bir şərtlə ki, onlar xütbə oxunanda xəlifənin adını çəkməyi öz öhdələrinə götürsünlər.

Sacilər dövləti, IX əsrin axırıncı rübündə Xilafətdən ayrılmaq nəticəsində Azərbaycan ərazisində əmələ gəlmiş feodal dövləti idi. M.X.Şərifli qeyd edir ki, bu dövlətin tarixi son vaxtlaradək ətraflı öyrənilmirdi[2]. Doğrudan da, bu dövlətin meydana gəlməsi, tərəqqisi və süqutu tarixi tədqiqatçıların diqqətindən qaçmışdır[3]. Mərhum

---

[1] Yenə orada. - "Dərbəndnamə"də (səh. 138) deyilir ki, özünü şirvanşah elan edən Məhəmməd ibn Yəzid idi, onun oğlu Əbu Tahir deyildi.

[2] M.X.Şərifli. Sacilər dövləti, səh. 20 (sonralar M.X.Şərıfli).

[3] Yeganə böyük tədqiqat M.Defremerinin yüz ildən çox əvvəl çıxmış əsəridir. Bu əsərin müəilifi, sonralar məlum olmuş mənbələrdən istifadə edə bilməzdi, buna görə də həmin tədqiqat bizim hazırkı bilik səviyyəmizə uyğun ola

professor P.K Juze qeyd etdiyi kimi, Sacilər "IX əsrin ikinci yarısında meydana gəlib Azərbaycan və Ermənistana bir neçə bacarıqlı hökmdar verən türk sülaləsindən" idilər [1] . Sacilər familiyasının nümayəndəsi olan Əbu-s-Sac Divdad ibn Yusif ibn Divdast Usruşanda dağlıq Cankakat kəndindəndir, bir mənbədə verilən məlumata görə, o, "adlı-sanlı türk sərkərdələrindən olub[2] eyni adlı sülalənin banisi idi; bu sülalə Xilafət qarşısındakı xidmətlərinə gorə Xilafətin çox böyük əyaləti olan Azərbaycanı bir mülk kimi almışdı"[3].

İlk dəfə Təbəri 222 (837)-ci ildə Babəkə qarşı müharibədə Əbu-s-Sacın iştirakı ilə əlaqədar olaraq onun haqqında məlumat verir. Əbu-s-Sac könüllülər dəstəsinin başçısı olaraq, Babəki tutmaq və Bərzəndə Afşin Heydər ibn Kavusun yanına aparmaqda fəal iştirak etmişdir[4]. 224 (839)-cu ildə Afşin Azərbaycanda üsyan qaldırmış Minkicavr əl-Fərqaniyə qarşı Əbu-s-Sacı böyük bir ordunun başında gondərmişdi[5]. Yenə həmin ildə xəlifə Mötəsim onu, Xilafətə qarşı üsyan qaldırmış Təbəristan hakimi Məzyərin üstünə göndərir[6]. Hicri 242 və 244-cü ildə xəlifə Mütəvəkkil Əbu-Sacı Məkkə yolunun rəisi təyin edərək, Cəfər ibn Dinarı bu vəzifədən

---

bilməz (b a x: M.Defremery. Sur la famille des Sadjides, IX, p. 409-446). Gibb və Hyuarın "İslam ensiklopediyası"nda çıxan məqalələri yalnız məlumat xarakterindədir. B a x H.A.R.Gibb. Abn al-Sadi, p. 145; Cl. Huart. Sadjides, p. 45-50. M.X.Şəriflinin Azərbaycan dilində çıxan əsəri (səh. 20-68) bu dövlətin tarixini işıqlandırırsa da, hər halda M.X.Şərifli də bır sıra maraqlı mənbə və ədəbiyyatdan istifadə etməmişdir. Halbuki bu mənbələrsiz Sacilər məsələsi tam şəkildə aydınlaşa bilməz.

[1] П.К.Жузе. Мазядиды-Шейбаниды, стр. 48.

[2] Cəmaləddin əl-Əzdi, səh. 34.

[3] Əl-İstəxri, səh. 292; İbn Havqəl, II, 343, 384; əl-Yaqut, IV, səh. 403; E.A.Пахомов. Краткий курс истории Азербайджана, стр. 15; N.Nemətov. Sitat gətirilən əsəri, səh. 151; M.X.Şərifli, səh. 24.

[4] Ət-Təbəri, III, 1222, 1228; İbn əl-Əsir, VI, 334.

[5] Əl-Yəqubi, II, 583; Z.M.Bünyadov. "Mingəçevir" adı haqqında, səh. 179-180.

[6] Ət-Təbəri, III, 1276; İbn əl-Əsir, VI, 352.

çıxarır. Bu, çox yüksək vəzifə idi, çünki bu vəzifə yalnız xəlifə sarayına, xüsusilə yaxın şəxslərə verilirdi və onun böyük gəliri vardı[1]. Əbu-s-Sac 251 (865)-ci ilədək bıı vəzifədə qaldı. Həmin ildə xəlifə taxtına çıxmaq iddiasında olan əl-Müstəin (862-866) ilə əl-Mötəzz arasında baş verən ixtilafda Əbu-s-Sac əl Mötəzzin tərəfini saxladı və 251-ci ildə Cərcəraya məntəqəsində Bəikbak və digər əmirlərin başçılığı altında əl-Müstəin tərəfdarlarının hərbi dəstələrini üç dəfə məğlub etdi[2]. Sonra 252 (856)-ci ildə Əbu-s-Sac Kufə və onun ətrafının canişini təyin olunur[3] və yenidən Məkkə yolunun rəisi vəzifəsinə qayıdır[4].

Xəlifə əl-Mötəzz 254 (868)-cü ildə Əbu-s-Sacı Hələb, Kinnisirin, Diyar Modar və ucqar sərhədlərə hakim təyin edir[5]. Əbu-s-Sac 256 (870)-cı ilədək bu vəzifədə qaldı, sonra xəlifə əl-Mötəmid ona əmr etdi ki, Ermənistanda üsyan qaldırmış Əhməd ibn İsa ibn Şeyxə qarşı müharibəyə getsin[6]. Əbu-s-Sac 261 (874)-ci ilədək ibn Şeyx və digər mütəğəlliblərə qarşı vuruşmalarda iştirak etmişdir. Sonra xəlifə onu daha məsul olan Əhvaz hakimi vəzifəsinə keçirdi və burada üsyan qaldırmış zinclərlə mübarizə etməyi ona tapşırdı[7]. Əbu-Əbu-s-Sacın qoşunları əd-Dulab məntəqəsi yanında zinclər tərəfindən məğlub edildi. Bundan sonra o, Əskər Mükrəmə çəkildi, zinclər də Əhvazı tutdular. Əbu-s-Sac canişin vəzifəsindən kənar

---

[1] Ət-Təbəri, III, səh. 1236; İbn əl-Əsir, VII, səh. 55, 100.

[2] Ət-Təbəri III, səh. 1616; 1620, 1624; İbn əl-Əsir, VII, səh. 100-101, 104

[3] Ət-Təbəri, III, səh. 1656-1657, 1682; İbn əl-Əsir, VII, səh. 113.

[4] Ət-Təbəri, III, səh. 1685; İbn əl-Əsir, VII, səh. 118. "Bu ildə Əbu-s-Sac Xorasan yoluna qayıdır".

[5] Ət-Təbəri, III, səh. 1697; əl-Yəqubi, II, səh. 619; İbn əl-Əsir, VII, səh. 167; Kamaladdin Umar b. Ahmad b. Al-Adim. Zubdat al-Halab min tarikhi Halab, p. 27.

[6] Zubdat al-Halabmin tarikhi Halab, p. 27.

[7] Ət-Təbəri, III, səh. 1888-1889; İbn əl-Əsir, VII, səh. 190; İbn Kəsir, XI, səh. 39

edildi və ömrünün axırınadək ancaq zinclərə qarşı müharibədə iştirak etdi, 266 (879)-cı ildə Cündi Səburda öldü[1].

Əbu-s-Sac öləndən sonra iki oğlu: Məhəmməd və Yusif onun varisi oldular.

Əbıı Übeydullah Məhəmməd ibn Əbu-s-Sac, atası ölən ildə xəlifə əl-Mötəmid tərəfındən Məkkə və Mədinə hakimi və Məkkə yolunun rəisi təyin edilmişdi[2].

Hicri 269-cu ilin cumada II (16.12.882-14.01.883) Məhəmməd ibn Əbu-s-Sac anbar canişini, Fərat və Rəhbiyyə yollarının rəisi təyin olunur[3]. Məhəmməd bu vəzifədə özünü çox mahir hakim və sərkərdə kimi göstərib xəlifənin diqqətini cəlb etdi. Məhəmmədin keçirdiyi əhəmiyyətli hərbi əməliyyatlardan biri, onun 273 (886-887)-cü ildə Suriya canişini İshaq ibn Kundac üzərindəki qələbəsi idi. Məhəmməd bu zaman Mosul hakimi, Kinnisirin və digər şəhərlərin canişini idi. O, rütbəsinə görə böyük idi, lakin İshaq onu tanımaqdan boyun qaçırdı və ona tabe olmadı. Onda Məhəmməd Misir hakimi Xumaraveyh ibn Əhməd ibn Tulundan kömək istədi. Məhəmməd Xumaraveyhin hakimiyyətini tanıdı, öz oğlu Divdadı ona girov göndərdi və Misir qoşunlarının köməyilə bir neçə vuruşmada ibn Kundacın qoşunlarını darmadağın etdi. Həmin ildə Məhəmməd Mosul rayonunda üsyan edən xariciləri də əzdi[4].

Məhəmməd Misir qoşunlarının köməyi ilə Cəzirə və Mosulu əlinə kcçirdi və sonrakı 274-cü hicri ilində öz himayəçisi və müttəfıqi Xumaraveyhin əleyhinə çıxdı. Lakin məğlub edilərək, qaçmağa üz qoydu. Eyni əhvalat 275 (888-889)-ci ildə də təkrar olundu. İshaq ibn Kundac bu vəziyyətdən istifadə edərək

---

[1] Ət-Təbəri, III, səh. 1937; İbn əl-Əsir, VII, səh. 231; Cəmaləddin əl-Əzdi, səh. 34. "Cundi Sabur".

[2] Ət-Təbəri, III, səh, 1937; İbn əl-Əsir, VII, səh. 231; İbn Kəsir, XI, səh. 39

[3] Ət-Təbəri, III, səh. 2039; İbn əl-Əsir, VII, səh. 278; müqayisə et: Nemətov, Sitat gətirilən əsəri, səh. 151-152.

[4] Ət-Təbəri, III, səh. 2112; İbn əl-Əsir, VII, səh. 295-297; İbn Kəsir, XI, sah. 51.

Məhəmmədin əleyhinə çıxış etdi. Məhəmməd öz qoşununun az olmasına baxmayaraq ibn Kundacı məğlub etdi və bununla da xəlifənin tərifinə layiq görüldü.

276 (889-890)-cı ildə Məhəmməd Cibal hakimı təyin cdildi[1] və həmin ildə ilk dəfə olaraq Azərbaycanın hakimi oldu [2]. Məhəmməd bu ölkəyə gələndən sonra Marağa hökmdarı Abdullah ibn Hüseyn əl-Həmədani onun əleyhinə qalxdı, lakin məğlub olaraq Marağaya çəkilib gizləndi; Məhəmməd yalnız uzun mühasirədən sonra şəhəri ala bildi[3].

278 (892)-ci ildə Məhəmməd Xilafətə yenidən böyük xidmət göstərdi: xəlifə əl Mötəmidin ölümü nəticəsində Bağdadda baş verən qarışıqlıq və iğtişaş zamanında, Məhəmməd ibn Əbu-s-Sac taxtın canişini əleyhinə üsyan qaldıran qoşun və bədəviləri yatırtdı. Yeni xəlifə əl-Mutədid (892-902) ona Azərbaycana qayıtmağa icazə verdi. Xəlifə 285 (898)-ci ildə Məhəmmədi Azərbaycan, Ermənistan və digər dağlıq ölkələrin canişini təyin etdi və fəxri paltarla təltif etdi[4]. Məhəmməd 286 (899)-cı ildə Bağdada gəldi, itaətsizlik göstərib Xilafətdən ayrılmayacağının təminatı olaraq, öz oğlu Əbü-l-Müsafiri öz yanında girov gətirdi[5].

Məhəmməd canişinliyə başlayanda, erməni padşahı 1 Aşot Baqratuni (866-890) öldü və oğlu I Sumbat xəlifə əl-Mutədidə elçi göndərib, taxta çıxdığını bildirdi və xahiş etdi ki, onun padşah adını təsdiq etsin. Mənbələrdə bildirilir ki, xəlifə I Sumbatı Ermənistan padşahı hüququnda təsdiq etdi və ona Məhəmməd ibn Əbu-s-Sac ilə

---

[1] İbn əl-Əsir, VII, səh. 299, 301: İbn Kəsir, XI, səh. 53; M.Defremery, IX, p. 422-428.

[2] Ət-Təbəri, VII; Ibn Xəldun, III, səh. 333.

[3] Ət-Təbərinin məlumatına görə (III, səh. 2137) Məhəmməd şəhəri 280 (893-894)-ci ildə almışdır. İbn Xəldun (III, səh. 333) Marağanın alınması üçün 278 (891-892)-ci ili göstərir. N.X.Şərifli, səh. 42; M.Defremery, p. 428; H.Thopdschian. Politische und Kirschengeschiste Armeniens unter Aschot I und Sumbat I, VIII, 1905, p. 168.

[4] Ət-Təbəri, II, səh. 2185; İbn əl-Əsir, VII, səh. 339; İbn Təqriberdi, II, səh. 123; Cəmaləddin əl-Əzdi, səh. 34.

[5] Ət-Təbəri, II, səh. 2186; İbn əl-Əsir, VII, səh. 340; M.X.Şərifli, səh. 36.

padşah tacı və fəxri paltar göndərdi. Yerazqavors qəsəbəsində Afşin təntənə ilə I Sumbatın başına tac qoydu[1].

Afşini I Sumbatın tacqoyma mərasiminə göndərməkdə xəlifə əl-Mötədidin məqsədi Bizans sərhədində mühüm bir vilayət olan Ermənistanı Xilafətə yaxınlaşdırmaq və erməni zadəganlarına Bizans sarayının təsirini azaltmaq idi. Mənbələrdən göründüyü kimi, imperator Müdrik Levin (866-911) şəxsində, Bizans ərəblərə qarşı etdiyi mübarizədə Ermənistana ənənəvi mübarizə obyekti kimi baxırdı və Lev I Sumbatla yazışmada, I Sumbatı köhnə ənənə ilə "sevimli oğlu" adlandırır və onun dostu və müttəfiqi olduğuna təminat verirdi[2]. 893-cü ildə 1 Sumbat Müdrik Levin sarayına elçi göndərən zaman, xəlifə bundan dərhal xəbərdar oldu və I Sumbata qarşı dərhal hərbi əməliyyata başlamasını Məhəmməd Afşinə əmr etdi. Məbəmməd qoşunu toplayıb Ermənistan sərhədinə yaxınlaşdı, lakin I Sumbat vuruşmağa cürət etmədi və Məhəmmədə barışıq təklif etdi, bu təklif qəbul olundu və hər iki ordu əvvəlki yerlərinə qayıtdı[3].

I Sumbatın Ermənistandan şimala doğru öz ərazisini genişləndirmək üçün böyük fəaliyyət göstərməsi Məhəmmədi yenidən onun əleyhinə çıxmağa vadar etdi. Buna əsas olaraq qeyd edilir ki, Ermənistanın güclənib tamamilə Xilafətin nüfuzu altından çıxa biləcəyindən ehtiyat edilir. 893/4-cü ildə Məhəmməd böyük qoşun topladı, tez Naxçıvandan keçdi və Dvin hasarlarına gəlib çıxdı. I Sumbat öz qoşununu Araqas dağı yaxınlığında topladı. Ermənilər katolikos II Georqu (876-897) barışıq təklifi ilə Afşinin yanına göndərdilər: Afşin I Sumbatı ona təslim vermək şərtini irəli sürdii, lakin bu təklif rədd olundu. Onda Afşin II Georqun əl-qolunu

---

[1] İohann Katolikos, səh. 132; Stepannos Orbelian, səh. 108; Asogik, səh. 110; M.Defremery, p. 428-430; А.Грен. Династия Багратидов в Армении, стр. 75-76; A.Qren. Məhəmməd Afşin Əbu-s-Sacı Afşin Heydər ibn Kavusla qarışdırır.

[2] İohann Katolikos, səh. 144-145; Asogik, səh. 110; A.Qren. Sitat gətirilən əsəri, səh. 77.

[3] İohann Katolikos, səh. 146; A.Qren. Sitat gətirilən əsəri, səh. 77, M.Çamçan, II, səh. 17-18; M.Defremery, p. 430-43 1 .

zəncirlədi və vuruşmaya atıldı, lakin Vjan qalası yanında məğlub oldu[1]. Afşin I Sumbata sülh təklif etdi və bu təklif qəbul olıındu. Katolikos II Georqdan başqa bütün erməni əsirləri qaytarıldı. Afşin I Sumbata ikinci dəfə padşahlıq tacı göndərərək onun müstəqilliyini tanıdı[2]. Bir müddət sonra Albaniya padşahı Qriqori Xamam Afşinə pul verib katolikos II Georqu xilas etdi[3].

896-cı ildə I Sumbat, yəqin öz ordusunun gücünü göstərmək və eyni zamanda ona düşmən olan Arsruni nəslini zəiflətmək üçün öz qoşununu Karin vilayətini tutmağa göndərdi; o zaman isə həmin vilayət Suriya hakimi Əhməd ibn Tulunun işğalında idi. Lakin ibn Tulun I Sumbatın 100 minlik qoşununu məğlub etdi[4].

I Sumbatın qaçması, Ermənistanda vahimə başlanması və naxararlar arasında çəkişmənin yenidən qalxması Məhəmməd Afşinə yenidən Ermənistana basqın etməyə imkan verdi. Afşin Qarsda I Sumbatın arvadını və başqa qohumlarını, habelə I Sumbatla birlikdə qaçan erməni naxararları ailələrindən çoxunu əsir etdi. Bütün Ermənistanı tutub, var-yoxdan çıxaran Afşin öz qoşunlarını Gürcüstanın üstünə yeritdi, çünki buranın kuropalatı II Artnersex (881-926) I Sumbatın vassalı hesab olunurdu. I Sumbat Afşinin hakimiyyətini danışıqsız qəbul etdi, Afşin isə oğlu Divdadı (ermənicə Tevtad) burada canişin qoyub ölkəni tərk etdi"[5].

---

[1] История Агван, стр. 373/221; Katolikos II Georq "dəmir buxovlarda Partava aparıldı". İohann Katolikos, səh. 154-155; A.Qren. Sitat gətirilən əsəri, səh. 78-79; С.Баратов. История Грузии, стр, 19; M.Çamçan, II, səh. 19; M.Defremery, p- 437-439.

[2] İohann Katolikos, səh. 154-155; Asogik, səh. 110.

[3] История Агван, 273/221; İohann Katolikos, səh. 157-158. Asogik, səh. 110; Kirakos Qandzaketsi, səh. 47; A.Qren. Sitat gətirilən əsəri, səh. 79; А.Крымский. Шеки, стр. 376; M.Çamçan, II, səh. 19; M.Defremery, p. 439.

[4] Arsruni,səh. 190-191; İohann Katolikos, səh. 162: "60 min”. B a x: A.Qren. Sitat gətirilən əsəri, səh. 79-80; С.Баратов. История Грузии, стр. 19; M.Çamçan, II, səh. 21-23

[5] İohann Katolikos, səh. 173-174; M.Defremcry, p. 442.

Gürcüstana basqın edən Afşin Tiflisi və digər şəhərləri talayıb viran etdi, lakin az sonra Ermənistana qayıtmalı oldu, çünki I Sumbat onun getməsindən istifadə edərək, Ani və Dvini tutmuş və Divdadı ona bac verməyə məcbur etmişdi [1]. Lakin Afşin yolda vəba xəstəliyinə tutulub öldü. Mənbələrdən belə məlumat verilir ki, "288 (901 )-ci ildə Azərbaycanda vəba başlandı. O qədər adam öldü ki, ölülərə kəfən tapmaq mümkün olmadığı üçün paltara və keçəyə bürüyürdülər. Onları basdırmırdılar vo onlar yollarda atılıb qalırdı. Sonra vəba Məhəmməd ibn Əbu-s-Sacın yaxın adamlarını tutdu, onun adamları və xidmətçilərindən çoxu öldü, Bundan sonra "Afşin" adlanan ibn Əbu-s-Sac özü mart ayında Azərbaycanın Bərdə şəhərində öldü"[2].

Məhəmməd Afşinin Azərbaycanda kəsdirdiyi 285 (898) və 287 (900)-ci il tarixli dirhəm sikkələr məlumdur[3]. İbn Əbu-s-Sacın ikinci oğlu Əbü-1-Qasim Yusif 271 (884-885)-ci ildə Məkkə hakimi idi. Həcc zamanı o, Mədinə hakimi və Məkkə yolu rəisi Əhməd ibn Məhəmməd ət-Tainin dəstəsinin qoruduğu zəvvarlara hücum etmişdi. Məkkə darvazaları yanındakı vuruşmada Yusif məğlub edilib əli-qolu zəncirli halda Bağdada göndərilmişdi[4]. Sonrakı illərdə Yusifin nə iş gördüyü barədə mənbələrdə bir söz deyilmir. Yalnız 280 (893-894)-ci ildə Təbəri belə məlumat verir ki, Yusif ibn Əbu-s-Sac Mosul yolunda xaricilərə hücum edərək onların bir hissəsini qırmışdı[5]. 282 (895-896)-ci ildə xəlifə əl-Mutədid Yusifi xaricilərə qarşı mübarizə üçün əs-Samaraya Fəth əl-Kəlanisinin köməyinə göndərmişdi, lakin

---

[1] İohann Katolikos, səh. 174-175; A.Qren. Sitat gətirilən əsəri, səh. 82.

[2] İohann Katolikos, səh 180; ət-Təbəri, III, səh. 2202-2203; əz-Zəhabi, II, səh. 80; İbn əl-Əsir, VII, səh. 351; İbn Xəldun, III, səh. 369; İbn Təqriberdi, II, səh. 129; Cəmaləddin əl-Əzdi, səh. 34-35; M.X.Şərifli, səh. 37-38; M.Defremery, p.444-445; Studies,p. 118.

[3] Р.Р.Фасмер. О монетах Саджидав, стр. 26; A.Markov. Müsəlman sikkələrinin inventar kataloqu, səh. 303.

[4] Ət-Təbəri, III, səh. 2107; İbn əl-Əsir, VII, səh. 222.

[5] Ət-Təbəri, III, səh. 2138; İbn əl-Əsir (VII, səh. 322) hadisəni Yusifin qardaşı Məhəmmədlə əlaqələndirir.

Yusif oraya gedərkən özünə tabe olanlarla birlikdə şimala tərəf getdi və Marağaya, öz qardaşı Məhəmməd Afşinin yanına gəldi[1]. 901-ci ildə Məhəmməd Afşinin ölümünədək Yusif Azərbaycanda qaldı, lakin iş başında olmadı.

Məhəmməd öləndən sonra onun qoşunları məclis qurdular və oğlu Divdadı özlərinə başçı seçdilər. Yusif onları tərk etdi, lakin qısa müddətə. Bir və ya iki ay sonra, Yusif 901-ci ilin avqustunda öz tərəfdarlarını toplayıb, qardaşı oğlunun qoşununa hücum etdi. Divdadın tərəfdarları qaçdılar və o, tək qaldı. Qoşun Yusifə itaət etdi o da xəlifənin Azərbaycan hakimi və canişini yerini tutdu[2]. Yusif Divdada təklif etdi ki, onun yanında qalsın, lakin Divdad bu təklifi rədd etdi və Bağdada, xəlifənin yanına qulluq etməyə getdi. Bu zaman Yusif ibn Əbu-s-Sac Xilafətdən ayrılmaq üçün birinci ciddi təşəbbüs göstərir. Xəlifə əl-Müktəfı (902-908) təklikdə Yusifın öhdəsindən gələ bilmədiyinə görə I Sumbata məktub yazaraq təklif etdi ki, qoşunla Yusifın üstünə getsin. 1 Sumbat qoşununu yeritdi, lakin bu barədə Yusifin özünə xəbər verməyi qət etdi. Yusif I Sumbatın bu hərəkətlərində ittifaqa xəyanət gördü və 907-ci ildə öz qoşununu I Sumbatın üstünə yeritdi[3]. 1 Sumbatdan narazı olan Kuropalat II Atrnersex, Vaspurakan knyazı Haciq Arsruni və 1 Sumbatın qardaşı oğlu Şapux Baqratuni Yusifə qoşuldular.

Lakin xəlifə əl-Müktəfinin ölümü Yusif haqqındakı planını həyata keçirməyə mane oldu. Xilafət taxtına çıxan əl-Müqtədir (908-932/296/908) Yusif ibn Əbu-s-Sacı Marağa hakimi və Azərbaycan canişini vəzifəsinə təyin etdi[4].

---

[1] Ət-Təbəri, III, səh. 2138; İbn əl-Əsir, VII, səh. 329; M.X.Şərifli, səh. 38; M.Defremery, p. 432-435.

[2] Ət-Təbəri, III, səh. 2203, 2205; İbn əl-Əsir, VII, səh. 315-352; Cəmaləddin əl-Əzdi, səh. 35; M.X.Şərifli, səh. 38. M.Defremery, p. 445.

[3] Stepannos Orbelian, səh. 113; Asogik, səh. 1 12; A.Qren. Sitat gətirilən əsəri, səh. 84.

[4] Ət-Təbəri, III, səh. 2280, 2284; Ərib, səh. 1 9, 3 1 ; İbn Təqriberdi, II, səh. 171; Cəmaləddin əl-Əzdi, səh. 35; İbn əl-Əsir (VIII, səh. 42) əlavə edir ki, o, həmçinin Ermənistan canişini təyin edilmiş və ona əmr edilmişdir ki, hər il xilafət xəzinəsinə 120 min dinar versin. Xəlifə Yusifin elçisi Əli İbn Dulayla ən-Nəsranini

Yusif Azərbaycan və Ermənistan canişini olan zaman 1 Sumbat, onun hakimiyyətini tanımaq istəməyərək, xəlifəyə məktub yazıb xahiş etdi ki, Ermənistanı Yusifın canişinliyindən azad etsin, əvəzində isə Ermənistanın Xilafətə tam itaət edəcəyini vəd etdi. Yusif bundan xəbərdar olan kimi, qoşunlarını dövrə yolla (Bərdə-Tiflis-Taşir-Şirak yolu ilə) yeritdi və erməni qoşunlarının müqavimətinə baxmayaraq, Dvinə çatdı. Mənbələrin verdiyi məlumatdan göründüyü kimi, az sonra barışıq oldu və Yusif Marağaya qayıtdı[1].

Sonrakı ildə Yusif, erməni knyazları arasındakı ədavətdən istifadə edərək, yenidən Ermənistana basqın etdi. Naxçıvanda Hagiq Asruninin qoşunları ona qoşuldu; hər vasitə ilə Arsrunini I Sumbata qarşı qaldıran Yusif ona padşahlıq tacı təqdim etmişdi[2].

I Sumbat əmələ gəlmiş vəziyyətin gərginliyini azaltmaq, Ermənistanda asayişi bərpa etmək, narazı knyazları sakitləşdirmək və Yusifin hücumunu dayandırmaq məqsədilə katolikos İohannı hədiyyələrlə Yusifin yanına göndərdi ki, onun ürəyini ələ alsın, hərbi əməliyyatı dayandırmasını ondan xahiş etsin. Yusif bilirdi ki, katolikos Ermənistanda olmayan zaman orada hərc-mərclik başlanacaqdır, odur ki, katolikosu öz ordugahında saxladı və hücumu davam etdirdi[3]. Yusifə müqavimət göstərən Sünik qoşunları tez məğlub edildi və az sonra knyaz Sufan itaət etmək üçün Yusifın yanına gəldi[4].

---

çox mərhəmətlə qəbul etdi, ona fəxri paltarlar bağışladı və geri göndərərək Yusif üçün hədiyyələr və canişin təyin olunması barədə fərman verdi. Həmçinin b a x : İbn Miskəveyh, I, səh. 16/17-18; müqayisə et: M.X.Şərifli, səh. 39.

[1] İohann Katolikos, səh. 181-182; Asogİk, səh. 111; A.Qren. Sitat gətirilən əsəri, Səh. 83; M.X.Şərifli, səh. 38-39; M.Defremery, p. 445-446.

[2] İohann Katolikos, səh. 199-200, 203; Arsruni, səh. 227-228; Asogik, səh. 112; Stepannos Orbelian, səh. 113-114; A.Qren. Sitat gətirilən əsəri, səh. 86-87; M.Defre-mery, X, p. 398.

[3] İohann Katolikos, soh. 203-205; Asogik, soh. 1 12; Stepannos Orbelian, səh. 114; A.Qren. Sitat getirilən əsəri, səh. 87; M.Defremery, p. 398-399.

[4] İohann Katolikos, səh. 203-204; A.Qren. Sitat gətirilən əsəri, səh. 87; M.Defremery, p. 399.

Araz sahilində ordugah quran Yusif I Sumbata bir qasid (çapar) göndərib, bac istədi. I Sumbat Ermənistanda bütün vergiləri beşqat artırmalı oldu ki, Yusifın tələb etdiyi 60 min dinar pulu versin. Lakin bu, Yusifın qurduğu kələkdi, çünki o, ermənilərə qarşı hücumu davam etdirirdi. Dzeknavatçor qəsəbəsində erməni qoşunları qaçmağa üz qoydular[1]. I Sumbat özü Şiraka qaçdı.

Yusif I Sumbatın qaçdığını öyrənən kimi Şirakı talayıb viran etdi, oradan da Dvini gedib tutdu. Yusif I Sumbatı təqib edərkən Gürcüstana girib, Cəfər ibn Əlinin idarə etdiyi Tiflisi tutdıı. Yusif Gürcüstanı (Kartli) talayıb viran etdikdən sonra qoşunlarını Kaxetiyaya yeritdi, hər yeri oda verib qılıncdan keçirtdi. Yusifin qoşunları Kürün sol sahili ilə ilə irəliləyərək, Çavaxetini və Samsxeni tutdu, bu vilayətlərin şəhər və kəndlərini taladı, istehkam və qalaları dağıtdı[2].

Samsxedo, Cakissxali çayının sol sahilində yerləşən və çoxlu əyan və zadəganların toplandığı Kveli qalası Yusifin qoşunlarına şiddətli müqavimət göstərdi. Mühasirə olunanlar içərisində Kveli monastırının baş rahibi Mixail (Qobron) da var idi. Qala üstündə qızışıb 26 gün davam edən vuruşmada "hər iki tərəfdən atılan çoxlu ox və nizələrdən günəşin üzü tutulurdu. Sonralar ox və nizələr yüzlərlə dəvəyə yüklənmişdi"[3]. Qalada mühasirədə qalmış gürcülər şiddətli müqavimət göstərdilər və yalnız sursat cəhətdən çətinlik çəkdiklərinə görə Yusif qalanı tuta bildi.

26 gün mühasirədən sonra qala alındı və onun qarnizonu yalnız barışıq şərtləri əsasında silahı yerə qoydu. Lakin Yusifın qoşunları silahı təslim edən gürcüləri qırdılar. Qobron başda olmaqla 133 nəfər öldürülmədi. Onların hamısına təklif etdilər ki,

---

[1] İohann Katolikos, səh. 205; Asogik, səh. 112; A.Qren. Sitat gətirilən əsəri, səh. 87; M.Çamçan, II, səh. 33-35; M.Defremery, p. 400.

[2] М.Сабинин. Полное жизнеописание святых грузинской церкви, стр. 57-58; A.Qren. Sitat gətirilən əsəri, səh. 87.

[3] М.Сабинин. Полное жизнеописание святых грузинской церкви, II hissə, səh. 58

xristianlıqdan əl çəkib islam dinini qəbul etsinlər, lakin əsirlər imtina etdiklərinə görə, edam edildilər. Sonralar Qobron başda olmaqla 133 nəfərin hamısı gürcü kilsəsinin müqəddəsləri sırasına daxil edildi[1].

Yusifın Ermənistanda olmamasından istifadə edən padşah I Sumbat ölkəyə qayıtdı və Yerazqavork qalasına girib möhkəmləndi. Burada o, bir az qoşun yığdı və Gürcüstandan qayıdan Yusifə qarşı göndərdi. Niq mahalındakı vuruşmada erməni qoşunu məğlub edildi. I Sumbatın oğlu Muşeq əsir düşdü və az sonra ona zəhər verdilər[2].

Müttəfıqsiz və təbəəsiz qalan 1 Sumbat Yeraxsadzor vilayətində Kapuyt qalasına girib orada qaldı[3]. Ölkəsini Yusifin qoşunları tərəfindən talanmış və dağılmış halda görən I Sumbat çarəsiz qalıb belə qət etdi: Ermənistanın bundan sonra da talanmasmı dayandırmaq üçün könüllü surətdə Yusifə təslim oldu[4].

913-cü ildə Yusifın qoşunları 1 Sumbatın son dayağı olan Yerencak qalasını alıb, orada padşahın ailəsini və bütün zadəgan ailələrini tutdu, çoxlu cavahirat və xəzinə ələ keçirdi[5], Ermənistan Yusif ibn Əbu-s-Sac tərəfındən tamamilə itaət altına alındı. 914-cü ildə Yusif, I Sumbatı Dvində dar ağacından asdı[6], I Sumbatın qardaşı oğlu və öz müttəfıqi Aşotu Ermənistan hakimi təyin etdi.

---

[1] M.Sabinin, səh. 59; Kartlis Sxovreba, səh. 195-196; İohann Katolikos, səh.247-248; Asogik, səh. 113-114,

[2] История Агван, стр. 275/223; İohann Katolikos, səh. 217; Asogik, səh. 112; Stepannos Orbelian, səh. 116; Arsruni, səh. 228; A.Qren. Sitat gətirilən əsəri, səh. 87-88; M.Sabinin. Sitat gətirilən əsəri, II hissə, səh. 59; С.Баратов. история Грузии, III, стр. 19-22.

[3] İohann Katolikos, səh. 226; Asogik, səh. 113; M.Defremery, p. 401.

[4] İohann Katolikos, səh. 227-228.

[5] История Агван, стр, 275/223; İohann Katolikos, səh. 230-231; Asogik, səh. 113; Stepannos Orbelian, səh, 116; A.Qren. Sitat gətirilen əsəri, səh. 88; С.Баратов. История Грузии, III, səh. 19-22; M.Defremery, p. 401.

[6] İohann Katolikos, səh. 231-235; Asogik, səh. 113; S.Anili, səh. 435; K.Qandzaketsi, səh. 47; Конст. Багрянородный. Об управлении государством, стр. 25; A.Qren. Sitat gətirilən əsəri, səh. 88; С.Баратов. Sitat gətirilən əsəri, səh. 22; M.Şərifli, səh. 53; V.Minorsky. Caucasia, IV, p. 515-518.

Yusif Əbu-s-Sacın Ermənistanı itaət altına alması ibn Havqəlin verdiyi bu məlumatla təsdiq olunur. "Dəbil vilayəti keçmişdə, bütün ermənilərin padşahı I Sumbat ibn Aşota baxırdı. Əbü-1-Qasim Yusif ibn Əbu-s-Sac bütün erməni knyazlarını çıxardıb ölkədən qovdu və müqavilələr əsasında onlardan cizyə almağa başladı, onlar hələ Əməvilərin dövründə həmin müqavilələrə əsasən vergi ödəyirdilər[1].

Beləliklə, 915-ci il üçün Yusif Azərbaycan və Ermənistanda öz hakimiyyətini möhkəmlətdi. Sacilər dovləti qərbdə Ani və Dvin şəhərlərindən, şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan, şimalda Dərbənd şəhərinədək uzanan çox boyük ərazi tutmuş bir dövlət oldu[2]. Hilal əs-Sabinin məlumatına görə, Yusif ibn Əbu-s-Sacın hökmranlığı zamanında Dərbənd hasarının sualtı hissəsi uçmuşdu. Vəzir ibn əl-Furata yaxın olan adamlardan biri - Əbu əl-Həsən ibn Həmdun ona demişdi: "Mən Yusif ibn Divdad ilə Bab ül-Əbvab mahalında idim, bu, xəzərlərlə iranlıların torpağı arasında Ənuşirəvanın tikdirdiyi bir səddir. Hasarın uzunluğu bir günlük piyada yoldur. Divar yelpik [mirvəh] şəklində dənizə tərəf gedir, onun uzunluğu 600 dirsəkdir [450 m]. Bu hasar Xəzər gəmilərinin gəlib keçməsinə mane olur. Darvazalar dəmirdən, hasar isə yonulmuş daşdan [qayırılmışdı]. Hər daşda iki deşik var, buraya iki dəmir tir salınmış və yerinə qurğuşun əridilib tökülmüşdü. Dənizdə olan mirvəh də həmin qaydada qayırılmışdır. Belə oldu ki, bu mirvəh uçdu və Yusif ibn Divdada onu bərpa etmək lazım gəldiyini xəbər verdilər. O, mühəndisləri və təcrübəli ustaları topladı. Onlar bildirdilər ki, mirvəhi bərpa etmək üçün 60 min dinar lazımdır.

[Yusif] vəzir Əbü-l-Həsən ibn əl-Furata bu barədə yazdı və bərpa işləri üçün ayırdığı pulu ləngitdiyi üçün üzr istədi. İbn əl-Furat ona belə yazdı: "Mirvəhin vəziyyəti haqqında yazdığı məktubdan [onun bərpası üçün] nə qədər pul xərcləmək lazım olduğunu başa

---

[1] İbn Havqəl, II, səh. 343, 350; M.Şərifli, səh. 53.

[2] В.В.Бартольд. Место прикаспийских областей в истории мусульманского мира. Баку, 1924, стр. 35.

düşdüm. Biz tarixlərdə oxuduq ki, Ənuşirəvan bu tikinti üçün ehtiyat edərək, baş verə biləcək hadisə üçün kifayət qədər vəsait ayırmışdı. Şəhərin ağsaqqallarını və qoca adamlarını yığ və onlardan soruş, bu hadisəyədək mirvəh dağılmışdımı, əgər desələr dağılmışdı, deməli, orada [ehtiyat] alətlər olmalıdır. Əgər dağılmamışdırsa, sən onlardan həmin alətləri tələb et və onları taparsan. Mənə yaz görüm nə iş görmüsən". Məktub Yusifə çatanda, o, qocaları yığıb, bu barədə onlardan soruşdu, lakin bir adam tapılmadı ki, bu hadisəyədək mirvehin uçduğunu bilsin və ya xatırlasın. [Yusif] onlardan alətləri və bunların yerini soruşdu, lakin bir nəfərdən başqa heç kəs bunu bilmədi; o adam dedi: "Mən bu barədə danışan qocalardan eşitmişəm. Onlar deyirlər ki, [alətlər] mirvəhin yaxınlığında gizlədilmişdir". Alətləri axtarmağa başladılar, tapıb çıxartdılar. Alətlər hasarı bərpa etmək üçün zəruri olduğu (tam) şəkildə var idi. Həm də o qədər pul sərf etmək lazım deyildi, bircə inşaatçılara əmək haqqı veriləcəkdi"[1].

Gətirilən bu parça Sacilərin öz torpaqlarının şimal sərhədlərinin təhlükəsizliyinə necə diqqət verdiyini göstərir, xüsusilə ona görə ki, Yusifin hökmranlığı zamanı ruslar[2] sacilərin və qonşu vilayətlərin torpaqlarına hücum etmişdilər.

Məsudinin verdiyi məlumata görə, 300 (912-913)-cü ildən Sonra ruslar Volqa yolu ilə Xəzər dənizinə gəldilər və Corcan sahillərində Abeskuna çatdılar, sonra da Təbəristana keçdilər. Bütün Xəzər sahili boyunca, gələnlərdən qorxub vahiməyə düşdülər, çünki onları indiyədək heç kəs görməmişdi. Azərbaycan, Arran, Beyləqan, Bərdə və sair şəhərlərin, Deyləm, Cibal və Təbəristan əhalisi öz evlərini buraxıb qaçırdı, çünki heç bir zaman düşmən dənizdən onlara hücum etməmişdi. Məsudi deyir: "Bu, Əbu-s-Sacın dövründə

---

[1] The Historycal Remains of Hilal as-Sabi, frist part of his Kitab al-Wuzara, London, 1904, p. 217-218; müqayisə et: M.X.Şərifli, səh. 54.

[2] Mənbələrdə hər cür feodal drujinaları qarətkar adlandırıldığı kimi, rus və varyaq feodal drujinaları da haqsız ümumiləşdirilmə əsasında "ruslar" adlandırılmışdır.

idi" [1]. Sonra yenə o bildirir ki, ruslar gəmilərlə Xəzərin cənub sahillərinə çatıb, öz dəstələrini Corcan, Abşeron (Bilad ən-neft) sahillərinə və Ərdəbilə üçgünlük yol olan bir yerdə Azərbaycan sahilinə çıxartdılar. Ruslar gilanlılarla, deyləmlilərlə və ibn Əbu-s-Sacın sərkərdələrindən birinin komandanlığı altındakı ordu ilə vuruşdular. Onlar Şirvan dövlətində Bakı adı ilə məşhur olan neft sahillərindən bir neçə kilometr aralı adalarda gizlənirdilər. Həmin günlərdə Şirvan hökmdarı Əli ibn Heysəm idi. Camaat [vuruşmaya] hazırlaşdı, qayıqlara və tacir gəmilərinə minib, həmin adalara getdi. Ruslar onların üstünə atıldılar və minlərlə müsəlman öldürüldü və suda boğuldu. Ruslar aylarla bu dənizdə qalıb, ticarətə və dənizlə hər hansı bir səfərə mane oldular. Ruslar kifayət qədər qarət etdikdən sonra daha adalarda qalmaqdan bezdikləri üçün Xəzər [Volqa] çayının ağzına tərəf yola düşdülər[2].

Rusların Azərbaycana ilk səfəri 301 (913-cü ilin axırı)-ci ilin əvvəllərində olmuşdur, bu da Sacilərin hakimiyyəti altında Azərbaycanın müstəqil vəziyyətinin başlanğıc dövrünə təsadüf edir.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanın və qonşu vilayətlərin müstəqil hakimi olan, Yusif ibn Əbu-s-Sacın vəziyyəti o qədər möhkəmləndi ki, tez bir zamanda o, xəlifə xəzinəsinə bac verməyi dayandırmağı və tamamilə Xilafətdən çıxmağı qərara aldı. İbn əl-Furatın (908-912) ilk vəziyyəti ərzində ibn Əbu-s-Sac xəlifənin Azərbaycan və Ermənistanda canişini vəzifəsindən başqa, islam, müharibə, təhlükəsizlik, xərac və dövlət malikanələri işləri valisi vəzifəsində idi, yəni tam hakim idi və 17 il ərzində müntəzəm olaraq xəzinəyə ildə 120 min dinar verirdi[3]. 299 (912)-cu ildə ibn əl-Furat vəzir vəzifəsindən çıxarılıb, onun yerini Əbu Məhəmməd əl-Xaqani (912-913), sonra isə Əli ibn İsa (913-197) tutanda Yusif ibn

---

[1] Əl-Məsudi, I, səh. 275; А.П.Ковалевский. Книга Ахмеда ибн Фадлана, стр. 16

[2] Əl-Məsudi. II, səh. 20-22; M.X.Şərifli, səh. 44; M-Defremery, p. 402-404.

[3] İbn Miskəveyh, I, səh. 44-45; İbn əl-Əsir, VIII, səh. 73.

Əbu-s-Sac xəlifə sarayındakı mübarizədən istifadə edərək, 299-cu ildə bac verməyi dayandırdı. Onda çox böyük sərvət toplandı, qüdrəti artdı, bunlar da Yusifı mərkəzi hakimiyyətdən tamamilə ayrılmağa, sonradan isə Xilafətə qarşı hərbi əməliyyata sövq etdi[1].

304 (916-917)-cü ildə Əbu-s-Sac vəzir Əli ibn İsanın həbs edildiyini xəbər alan kimi, belə bir şayiə buraxdı ki, xəlifə əl-Müqtədir Yusifin Rey, Qəzvin, Əbhər və Zəncanda hərbi işlər amili vəzifəsinə təyin edilməsi barəsində fərman vermişdir və vəzir Əli ibn İsa bu fərmanı xəlifənin bayrağı ilə birlikdə ona vermişdir[2].

Xorasan hakimi Nəsr ibn Əhməd ibn İsmayil əs-Səmaninin adından Rey və onun mahalına Məhəmməd ibn Əli Səluk adlı bir nəfər malik idi; bu adam Xilafətdən ayrılaraq xəlifədən özünün tanınmasını tələb etmişdi. Vəzir Əli ibn Tsadan həmin təyinatı alan Yusif həmin şəhərlərə qoşun göndərib bunları tutdu və Səluku qovdu[3] və şəhərlərin alınması haqqında paytaxta xəbər verdi. Əli ibn İsanın yerinə keçən ibn əl-Furat Yusifə xəlifə adından bayraq və təbrik, həmçinin bu şəhərlərin amili vəzifəsinə təyinat göndərdi. Lakin Yusif cavab verdi ki, Əli ibn İsanın ona göndərdiyi bayraq və fərmanın köməyi ilə Allah ona mütəğəllib Səluk üzərində qələbə bəxş etmişdir. Xəlifə əl-Müqtədir Yusifə qəzəbləndi və Əli ibn İsa Yusifə heç bir bayraq göndərmədiyini bildirəndə özbaşına bu şəhəri tutmuş Yusifə qarşı 305 (917-918)-ci ildə Xaqan əl-Müflihinin başçılığı ilə 20 minlik ordu göndərdi, habelə Məhəmməd ibn Sürur (Məsrur) əl-BəIxinin, Sima əl-Xəzərinin və Nihrir əs-Səğirin komandanlığı altındakı orduları ona verdi. Yusifin 7 minlik ordusu

---

[1] İbn Miskəvceyh, I, səh. 45; İbn əl-Əsir, VIII, səh. 73-84.

[2] İbn Miskəveyh, I, səh. 45; İbn əl-Əsir, VIII, səh, 74; İbn Xəldun. III, səh. 369; Arsruni, III, səh. 230; Asogik, səh. 115; M.X.Şərifli, səh. 45; M.Defremery, p. 407; D.Sourdel. Le vizirat Abbaside..., p. 409.

[3] İbn Miskəveyh, I, səh. 45; Ərib, səh. 51: “Əhməd ibn Səluk adı ilə məşhurdur”, Onu qardaşı ilə dolaşıq salır; İbn Xəldun. III, səh. 369 "Həmid ibn Səluk və Əhməd ibn Əli ibn Səluk"; Ibn əl-Əsir, VIII, səh. 58; "Əbu-1-Abbas Səluk, səh. 74; “Məhəmməd ibn Əli Səluk". B a x: M.X.Şərifli, səh. 45; M.Defremery, p. 407-408, n.2.

xəlifənin qoşunlarına hücum edərək onları məğlub etdi. Yusif təntənə ilə çoxlu əsirlə Reyə qayıtdı[1].

Xəlifə qoşunlarının məğlub olması xəbəri Bağdada çatanda xəlifə əl-Müqtədir Yusifə qarşı Munisin komandanlığı ilə yeni bir ordu göndərdi. Munis Xaqan əl-Müflihinin dağılışmış döyüşçülərini topladı, digər sərkərdələr də ona qoşuldular. Munis Reyə yaxınlaşanda öz xidmətçisi Nafızi Yusifin yanına göndərib təklif etdi ki, Reyi xəlifə qoşunlarına təslim etsin. Yusif razı olduğunu bildirdi, özü də xəlifənin ünvanına bir neçə məktub göndərərək, itaətini ifadə edib, Rey mahalında dövlət malikanələri üzərində nəzarətin ona tapşırılmasını xahiş etdi. Əvəzində ildə xəzinəyə 700 min dinar verməsini təklif etdi. Xəlifə Yusifin xahişini rədd edib, Vasif əl-Bektimurini Rey və mahala vali təyin etdi. Onda Yusif tələb etdi ki, Rey və digər şəhərləri tutmazdan əvvəl onun idarə edib malik olduğu vilayətlər, yəni Azərbaycan və Ermənistan yenə də onda qalsın[2].

Vəzir ibn əl-Furatın meyli bu idi ki, Yusifın əvvəlki mülkü yenə də onun əlində qalsın, lakin bu şərtlə ki, Yusif Azərbaycan və Ermənistandan yığılan vergilərin hamısını xəzinəyə versin. Lakin xəlifənin hacibi Nəsr və ibn əl-Xavəri buna etiraz edirdilər. Onlar Yusifın danışıqsız təslim olmasını tələb etdilər və dedilər ki, Yusif "gərək əvvəl paytaxta gəlsin və sultan xalısına ayar bassın"; onlar vəzir ibn al-Furatı Yusiflə gizli əlaqə saxlamaqda müqəssir etdilər. Xəlifə dedi ki, ya müharibəni davam etdirmək lazımdır, ya da Yusif Bağdada gətirilməlidir. Munisə əmr edildi ki, Sac ilə mübaribəni davam etdirsin.

Yusif öz həyatı üçün təhlükə olduğunu duyub, özü Sərabda xəlifə qoşunlarına birinci həmlə etdi, Munis məğlub edildi və yalnız 300 atlı ilə özünü xilas edib Zəncana çəkildi. Sima əl-Xəzəri

---

[1] İbn Miskəveyh, I, səh. 45-46; İbn əl-Əsir, VIII, səh. 74-75, Ərib, səh. 67; İbn Xəldun, III, səh. 369; Cəmaləddin əl-Əzdi, səh. 35; N.Nemətov. Sitat gətirilən əsəri, səh. 152; M.X.Şərifli, səh. 45-46.

[2] İbn Miskəveyh, I, səh. 46-47; İbn əl-Əsir, VIII, səh. 75; İbn Xəldun, III, səh. 369, Cəmaləddin əl-Əzdi, səh 35-36; M.X.Şərifli, səh 46; M.Defremery, p. 411-412.

öldürüldü, o biri sərkərdə Hilal ibn əl-Bədr Yusif tərəfindən əsir edilərək digər əsirlərlə birlikdə Azərbaycanın paytaxtı Ərdəbilə gətirildi[1].

Munis sonrakı 307 (919)-ciilədək Zəncanda qalıb, yeni qoşun yığırdı ki, Yusiflə müharibəni davam etdirsin. Yusif xəlifəyə məktublar yazıb barışıq bağlanmasını xahiş edirdi, lakin Munis xəlifə adından onun bütün xahişlərini rədd edir və Yusifə təslim olmağı və müqəssir olduğunu bildirmək üçün Bağdada gəlməyi təklif edirdi[2].

307-ci il səfərin 14-də (919-cu il iyulun 16-da) Ərdəbil yaxınlığında Munis ilə Yusif Əbu-s-Sac qoşunları arasında axırıncı vuruşma oldu. Yusifın qoşunları geri çəkildi, özü isə əsir düşdü.

307-ci ilin rəbiülaxir ayında (919-cu ilin sentyabrında) Yusif ibn Əbu-s-Sac dəvənin üstündə əş-Şəmmasiyə darvazasından təntənəli surətdə Bağdada gətirildi. Xəlifə əmr etdi onu zindana salsınlar[3]. Munis sacilərin keçmiş torpaqlarına yeni hakimlər təyin etdi. Rey, Dunbavənd, Qəzvin, Əbhər və Zəncan mahallarına Əli ibn Vaxsudan vali təyin olundu. Səlukun qardaşı Əhməd ibn Əli İsfəhan, Qum, Kaşan və Savə valisi oldu.

Lakin Munis Azərbaycanı tərk edən kimi Yusifın qulamı (nökəri) Sübük öz ağasının bütün qoşununu toplayaraq, ölkəni ələ keçirdi. Munis Məhəmməd ibn Abdullah əl-Farikinin komandanlığı ilə Sübükə qarşı ordu göndərdi və eyni zamanda, onu Azərbaycan hakimi təyin etdi.

---

[1] İbn Miskəveyh, I, səh. 47; İbn əl-Əsir, VIII, səh. 75; Ərib, səh. 70-71; İbn Xəldun, III, səh. 369; Cəmaləddin əl-Əzdi, səh. 36-37; M.X.Şərifli, səh. 46; M.Defremery, p. 413.

[2] Ərib, səh. 77; İbn Miskəveyh, I, səh. 47; B a x yenə orada: "Kitab əl-uyun"da 306-cı il hadisəsinə edilən isnada; İbn əl-Əsir, VIII, səh. 75-76. Cəmaləddin əl-Əzdi, səh. 41; Ibn Xəldun, III, səh. 369; M.X.Şərifli, səh. 74; M.Defemery, p. 412-413.

[3] Ərib, səh. 77; İbn Miskəveyh, I, səh. 48-50; İbn əl-Əsir, VIII, səh. 76. İbn əl-Əsirə görə bu hadisə 304 (916-917)-cü ildə baş verir. İbn Xəldun, III, səh. 369; Cəmaləddin əl-Əzdi, səh. 37-38; İohann Katolikos, səh. 319; A.Qren, Sitat gətirilən əsəri, səh. 93-94; M.X.Şərifli, səh. 47.

Lap birinci vuruşmada Sübükün qoşunu əl-Farikinin qoşununu məğlub etdi və Sübük ölkənin qeyri-məhdud sahibi oldu. O, xəlifəyə məktub yazıb, Azərbaycanın iqta olaraq ona verilməsini tələb etdi[1]. Munis Yusifin köməyi ilə Sübükü təslim olmaq üçün dilə tutmağa təşəbbüs etdi. Bu məqsədlə Yusifı məcbur etdi ki, Sübükə məktub yazıb təslim olmağa gəlməsini ona əmr etsin. Sübük belə cavab verdi ki, nə qədər ki, xəlifənin Yusif haqqında nə kimi tədbir görəcəyini dürüst bilmir, təslim olmayacaqdır. Yalnız Yusifın müqəddaratı onun öz xeyrinə həll olunan zaman təslim olacaqdır. Xəlifə əl-Müqtədir məcbur oldu ki, Sübükü Azərbaycanın hakimi təyin etsin, bu şərtlə ki, ildə xəzinəyə 220 min dinar versin. Xəlifə ona fəxri paltar və təyini haqqında fərman göndərdi[2]. Lakin Sübük Azərbaycan və Ermənistanda öz mövqeyini o qədər möhkəmlətdi ki, xəzinəyə pul göndərmədi. Erməni padşahı I Sumbat öldükdən sonra onun böyük oğlu II Aşot (914-928) Bizansa qaçmışdı. Orada qoşun toplayandan sonra Ermənistana qayıtdı və Yusif əsir olduğu zaman, uzun daxili vuruşmalardan sonra Ermənistanı tamamilə əlinə keçirib, özünü şahənşah elan etdi[3].

Öz ağasının siyasətini davam etdirən Sübük II Aşotu öz yanına, Dvinə dəvət etdi və onu Ermənistan padşahı Sübükü tanımaqla onun şəxsində özünə müttəfiq qazandı [4]. Sübükün Xilafətdən asılı olmadan yeritdiyi siyasət saray dairələrini, Azərbaycanın, onun ardınca isə Qafqaz və Kiçik Asiyadakı qonşu vilayətlərin Xilafətdən tamamilə ayrılacağından təşvişə düşməyə

---

[1] İbn Miskəveyh, I, səh. 50; İbn əl-Əsir, VIII, səh. 76; İbn Xəldun, III, səh. 369; Cəmaləddin əl-Əzdi səh. 38; M.X.Şərifli, səh. 48-49; M.Defremery, p. 410, 423.

[2] İbn Miskəveyh, I, səh. 50; İbn əl-Əsir, VIII, səh. 76; İbn Xəldun, III, səh. 369, 372; İohann Katolikos, səh. 319-320; Stepannos Orbelian, səh. 120; A.Qren. Sitat gətirilən əsəri, səh. 14; M.X.Şərifli, səh. 48-49; M.Defremery, pp. 423

[3] İohann Katolikos, səh. 237, 319; Asogik, səh. 116; A. Qren. Sitat gətirilən əsəri, səh. 91-94; M.X.Şərifli, səh. 48-49; M.Defremery, p. 404-407.

[4] İohann Katolikos, səh. 319-320; Asogik, səh.116.

vadar etdi. Buna görə də 310 (922)-cu ilə xəlifə Munisin xahişi ilə Yusifı zindandan azad etdi və ona bahalı paltar və hədiyyələr bağışlayaraq, yenidən Azərbaycan və Ermənistan canişini, Rey, Qəzvin, Əbhər və Zəncan valisi təyin etdi, bu şərtlə ki, ildə xəzinəyə 500 min dinar versin[1].

Katolikos İohann Yusifin zindandan azad edilməsini xəlifədən xahiş edərək Munisin Yusifə çox maraqlı xasiyyətnamə verdiyini qeyd edir: "Monos amirapet [xəlifə] ilə məşvərət edəndə əsir etdiyi Azərbaycan, İran, Ermənistan, İberiya və Albaniya ostikanı Yusifı çox möhkəm müdafıə edirdi; amirapetdən xahiş edirdi ki, Ostikanı həbsxanadan azad edərək əvvəlki vəzifəsinə qaytarsın, çünki o, fəal, ağıllı, mərd bir adamdır və ona tabe olmayanlar üçün zəhmlidir. O sizin nəsihətinizdən təcrübə əldə etdi ki, bir daha qüsur buraxmasın, boyun qaçırmasın və ikinci dəfə üsyan qaldırmasın, onun sayəsindədir ki, idarə etdiyi dövlət üzərində düşmənin hücum və basqınları kəsilmişdir"[2].

Yusif ibn Əbu-s-Sac öz yaxın adamları ilə Ərdəbilə çatanda əmirin özü orada olmadığı zaman ölkəni ləyaqətlə idarə edən sadiq qulamı və silahdaşı Sübükün ölüm xəbərini eşitdi[3].

311 (924)-ci ildə Yusif Reyə hücum etdi. Əhməd ibn Əlinin qoşunlarını məğlub edərək Əhmədin özünü öldürdü, başını Bağdada göndərdi, 924-cü ilin martında Yusif Reyi, 313 (925)-cü ildə isə Həmədanı tutdu[4].

Sacilər dövlətinin güclənməsi Xilafətin saray dairələrini çox narahat edirdi. Xəlifə əl-Müqtədir Yusifı Azərbaycan və qonşu dövlətlərin hakimi vəzifəsindən götürməyə cürət etmirdi və buna qüdrəti çatmırdı, odur ki, Yusifin şəxsi düşməni olan vəzir Əhməd

---

[1] İbn Miskəveyh, I, səh. 82-83; İbn əl-Əsir, VIII, səh. 99-100; İbn Xəldun, III, səh. 372.

[2] İohann Katolikos, səh. 382-383; A.Qren. Sitat gətirilən əsəri, səh. 95.

[3] İbn Miskəveyh, I, səh. 83; İbn əl-Əsir, VIII, səh. 100; İbn Xəldun, III, səh. 372; Cəmaləddin əl-Əzdi, səh. 38; M.X.Şərifli, səh. 50.

[4] İbn əl-Əsir, VIII, səh. 105-106; İbn Xəldun, III, səh. 372; Cəmaləddin əl-Əzdi, səh. 38; M.X.Şərifli, səh. 51; M.Defremery, p. 425-426.

ibn Übeydullah əl-Xəsibinin sözü ilə 314 (926)-cü ildə Yusifı əl-Məşriqin (Bizansla həmsərhəd olan ərazisinin) hakimi təyin edərək, üsyan qaldırmış qərmətilərə qarşı müharibəyə getməsini ona əmr etdi[1]. Əl-Xəsibi xəlifənin adından Yusifə məktub yazaraq, ona paytaxta gəlməyi təklif etdikdə, Yusif Xəlifəyə belə cavab verdi: "Mən [Xilafətin] elə sərhədlərindəyəm ki, Bizans sərhədlərindən daha təhlükəlidir, mən Yəcuc və Məcuc hasarından daha möhkəm [Dərbənd] hasarı ilə üz-üzə durmuşam. Əgər mən bunlara fikir verməsəm, qərmətilərdən daha ciddi bir təhlükə buradan çıxar və bu təhlükə bütün vilayətlərdə imperiyanın dağılmasına səbəb ola bilər"[2]. Xəlifə ikinci dəfə Yusifı Bağdada çağırdı; o gəldi və az sonra qərmətilərə qarşı müharibəyə göndərildi.

Yusifin qoşunu Vasitə gəldi və o, burada üsyançılara qarşı hərbi əməliyyata başladı. Yusif 315 (927)-ci ildə Kufəyə yaxınlaşan zaman Tahir Süleyman ibn əl-Həsən əl-Cənnabinin komandanlığı altındakı qərmətilər qoşunu ona qarşı hərəkət etdi. 315-ci ilin şəvvalında (927-ci ilin dekabrında) düşmənlər əl-Xəndək məntəqəsində qarşılaşdılar. Yusifin təqribən 40 min atlı və piyadası, qərmətilərin isə təxminən 4 min qoşunu var idi[3]. Gündüz vuruşmasından sonra yorğun düşmənlər əvvəlki mövqelərinə çəkiləndə, qərmətilər gecənin qaranlığından istifadə edərək, yenidən Yusifın qoşununa hücum etdilər. Qaçaqaç başlandı. Yusifin özü yaralanıb əsir alındı və Əbu Tahirin yanına gətirildi[4].

Yusifın məğlubiyyəti xəbəri Bağdada çatanda orada vahiməyə düşdülər. Munis 40 minə yaxın qoşun topladı və Bağdaddan iki fərsəx aralı Zab çayında onun qoşunu qərmətilərin

---

[1] İbn Miskəveyh, I, səh. 147; Ərib, səh. 182; İbn əl-Əsir, VIII, səh. 118; İbn Xəldun, III, səh. 372, 377; Cəmaləddin əl-Əzdi, səh. 38; "315 (827)-ci ildə". M.X.Şərifli, səh. 56; M.Defremery, p. 426.

[2] Ət-Tənühi. Nişvar, səh. 456.

[3] Əl-Məsudi. Tənbih, səh. 382; Cəmaləddin əl-Əzdi, səh. 38-39.

[4] İbn Miskəveyh, I, səh. 174-175; Ərib, səh. 131-132; İbn əl-Əsir, VIII, səh 124-125; İbn Xəldun, III. səh. 377-378; Cəmaləddin əl-Əzdi, səh. 39; M.X.Şərifli, səh. 56-57; M.Defremery, p. 427-428.

qoşunları ilə qarşılaşdı. Qərmətilər geri çəkildilər. Munis isə onların dalınca bir dəstə göndərib göstəriş verdi ki, Yusifı xilas etsinlər. Əbu Tahir Munisin fıkrini tez başa düşdü və əmr etdi ki, Yusif ibn Əbu-s-Sacı öldürsünlər. Cəmaləddin əl-Əzdinin məlumatına görə, Yusif Azərbaycanı və qonşu ölkələri, həbs edildiyi dövr çıxılmaqla, 27 il idarə etdi və 65 yaşında öldürüldü[1].

Yusif ibn Əbu-s-Sac Əshab əs-Saciyə adlı qeyri-nizami atlı hissələrinin banisi idi; bu hissələr xəlifə taxtı üstündə gedən daxili vuruşmalarda böyük rol oynamışdı[2].

Rusiyanın Dövlət Ermitajında, 906-925-ci illərdə Bərdə, Marağa və Ərdəbildə Yusif ibn Əbu-s-Sacın adı ilə kəsilmiş sikkələr vardır[3].

Yusif ibn Əbu-s-Sacın ölümündən sonra xəlifə əl-Müqtədir 315 (928)-ci ildə Yusifin qardaşı oğlu Əbü-l-Müsafır əl-Fəth ibn Məhəmmədi Azərbaycan hakimi təyin etdi[4]. O, təxminən il yarım ölkəni idarə etdi. 317-ci ilin şəbanında (929-cu ilin sentyabrında) onu Ərdəbildə Baldu adlı öz qulamı zəhərlədi[5]. Lakin başqa bir mənbədə deyilir ki, 317-ci ildə "Azərbaycanda Əbü-l-Müsafirə qarşı onun tərəfdarları üsyan qaldırdılar. O, əl-Marağada gizləndi, lakin üsyançılar onu çox mühasirədə saxlayıb axırda öldürdülər. Onlar Müflixin sərkərdələrindən birini özlərinə başçı etdilər"[6]. Əbü-l-

---

[1] İbn Miskəveyh, I, səh, 178; Ərib, səh. 133; İbn əl-Əsir, VIII, səh. 126-128. Xəldun, III, səh. 378; Cəmaləddin əl-Əzdi, səh. 39; M.X.Şərifli, səb. 57; M.Defremery, p. 429-435.

[2] Bu barədə b a x : İbn Miskəveyh, I, səh. 261-264, 286 və sonrakı səhifələr.

[3] А.Марков. Инвентарный каталог мусульманских монет Императорского Эрмитажа. СПб., 1986, səh. 303; Б.Тизенгаузен. Монеты восточного халифата, стр. 240; S.Lane-Poole. The Coins of the Eastera khaleefeuts in British Museum, p. 130, 145.

[4] Cəmaləddin əl-Əzdi, səh. 39; С.Лен-Пуль. Мусульманские династии, səh. 103; M.X.Şərifli, səh. 58; M.Defremery, p. 436.

[5] Cəmaləddin əl-Əzdi, səh 39-40; M.Defremery, p. 436.

[6] Ərib, səh. 145.

Müsafirdən sonra, onun Əbü-1-Fərəc adlı bir oğlu qalmışdı ki, sonralar Abbasilərin görkəmli sərkərdəsi oldu [1] . Sonralar Azərbaycanın hakimləri Sacilər familiyasının nümayəndələri deyil, onların qulamları: Vasif, Müflix, Baldu, Dəysam ibn İbrahim və başqaları idi[2].

Sacilərin hökmranlığı dövründə bütün Azərbaycan torpaqları vahid bir dövlətdə birləşdirilmişdi: bu dövlət Yusif ibn Əbu-s-Sacın hökmranlığında mərkəzi hakimiyyətdən asılı olmayan bir dövlət idi.

---

[1] Cəmaləddin əl-Əzdi, səh 40; M.Defremery, p. 436.

[2] M.X.Şərifli, səh. 59.

# V FƏSİL

# AZƏRBAYCAN XALQ KÜTLƏLƏRİNİN XİLAFƏTƏ QARŞI HƏRƏKATI

## 1. Arranda sosial hərəkat

VII əsrdə meydana gəlib pavlikian hərəkatı adı ilə məşhur olan geniş antifeodal hərəkat orta əsrlərin çox uzun sürən və ən kütləvi bidətçi hərəkatlarından biri idi. Bu hərəkat, indiyədək məlum olduğu kimi, bir tək Bizans imperiyası və Ermənistan tarixində deyil, həmçinin Albaniya tarixində də iz buraxmışdır ki, indiyədək bu barədə yalnız ötəri danışılmışdır.

İndiyədək heç bir tədqiqatçı deməmişdir ki, pavlikian hərəkatının meydana gəlməsi Albaniya ilə əlaqədardır. Yalnız Q.M.Bartikyan qeyd etmişdir ki, çox qədimdə pavlikianların adı "ən uzaq (? - *Z.B*) Qafqaz Albaniyasında da" çəkilirdi[1].

Y.E.Lipşis [2], St.T.Melik-Baxşyan [3], A.Q.İohannisyan [4], F.Konnibir[5] və digərləri belə zənn edirlər ki, pavlikian hərəkatı VI

---

[1] Г.М Бартикян. Источники для изучения истории павликианского движения, стр.33

[2] Е.А. Липшиц. Павликианского движения, стр. 51; Y.E.Lipşis (Bizans cəmiyyəti tarixinin xülasələri səh.134) belə hesab edir ki, pavlikian hərəkatı 787-850-ci illərdə meydana gəlmişdir.

[3] Ст. Т. Мелик Бахшян. Павликианского движения в Армении, стр. 156.

[4] Л.Г. Иоханнисян. Очерки истории армиянской освободительной мыссли, стр. 351

[5] E.C. Conybeare.The Key of Turth. A. Manual of the Paulician Chnr of Armenia. Oxford, 1898.

əsrdə törəmişdi, lakin Q.Bartikyan Matenadaranda olan iki sənəd əsasında sübut edir ki, bu hərəkat VII əsrdə meydana gəlmişdir[1]. Bu əlyazmalarında aşkara çıxarılmışdır ki, ən qədim bir mənbədə: 706-707-ci illərdəki Partav (Alban) kilsə yığıncağının qətnaməsində pavlikianların adı çəkilir. Qətnamənin tam mətni belədir[2]:

"Müqəddəs Qriqoridən başlayaraq, sıra ilə otuz birinci katolikos olan erməni katolikosu İlya zamanında çağırılmış Alban kilsə yığıncağının qaydaları və qətnamələri.

Keşiş Mixail Albaniya patriarxı taxtına çıxan zamanlarda özünün aşağıdakı həmtaxtları ilə: Kapalak yepiskopu İohannes, Amara yepiskopu Saak, Xoşi yepiskopu Yelizar, Meskoqman yepiskopu İzrael, Mesirank yepiskopu Zaxari və Girdiman yepiskopu İohakim[3] ilə ölkəmizin abadlığı və dinimizin pravoslavlığı haqqında danışıb razılaşmışdır.

Beləliklə, mən, Şeroy - apoipat patriki[4], Girdiman hökmdarı və Alban knyazı, Varaz-Qriqor patriki və Alban sparapeti, Babi Şaxrperozyan, Varaz-Kurdakyan nəslindan Yunsataxyan nəslindən Rostom, Varaz-Yohanyan nəslindən Vahan, Karoyan nəslindən Sumbat, Qankaryan nəslindən Maxmat, Rahatyan nəslindən Qriqor, Hamgitan nəslindən Patrik, Varokyan nəslindən Arevko, Mərdanşahyan nəslindən Şeroy, Tamdikyan nəslindən İpat Vartiş erməni tarixinin 88-ci ilində[5] bu qərara gəldik:

Siz Xalkedon bidəti və ya Mayraqom barəsində və ya pavlikianlar barəsində və ya qohum ilə kəbin kəsmək[6] və ya

---

[1] Q.M.Bartikyan. Sitat gətirilən əsəri səh. 33.

[2] Sənədi qrabar dilindən rus dilinə Q.M. Bartikyan tərcümə etmişdir

[3] Həmin adlar haqqında b a x: История Агван, стр. 243/194.

[4] Yenə orada, səh. 246-247/197-198.

[5] Q.M.Bartikyan (səh.32-33) müvafiq hesablamalar yolu ilə sübut edir ki, sənəddə erməni tarixinin göstərilməsi yalnışdır. Hicri 88-ci il, yəni b.e. 706-707-ci il-Partav yığıncağının çağrıldığı il olmalıdır.

[6] Qohum ilə evlənmək nəzərdə tutulur. Bu barədə b a x: История Агван, стр.225-256.

ümumiyyətlə, hər bir məsələ haqqında hər hansı bir tədbir görəndə heç kəsin ixtiyarı yoxdur ki, sizin əmrinizə tabe olmasın. Əgər bir beləsi çıxarsa, qoy Allahın qəzəbinə rast gəlsin, siz də (onu) öz iradənizlə mühakimə etməyə vəkilsiniz və knyazlardan heç birinin haqqı yoxdıır ki, bu işə qarışsın; siz qəbul etdiyiniz qərarların üstündə möhkəm dayanın.

Mən, apoipat patriki, Girdiman hökmdarı və Albaniya knyazı Şeroy bütün öz azatlarım ilə bu yazının üstünə öz möhürümü basdım"[1].

VII əsrin axırı - VIII əsrin əvvəllərində ərəblər Albaniyada öz hakimiyyətlərini hələ qurmamış olsalar da, Albaniya üzərinə böyük bac qoymuşdular. Yerli feodallar, bu bacı verməklə əlaqədar olaraq öz zərərlərini ödəmək üçün əhalidən yığılan vergi yükünü daha da ağırlaşdırmağa başlayanda ölkədə xalq həyəcana gəldi ki, bu da, adətən olduğu kimi nəticədə bidət hərəkatı xarakterini aldı. Bu hərəkatdan biri pavlikian hərəkatı idi.

Girdiman yepiskopu Nersesin (Bakur) Albaniya knyazı I Varaz-Trdatın arvadı Sparma ilə sazişə gəlib, erməni kilsəsindən ayrıldığını xəbər alan kimi erməni katolikosunun ciddi təşvişə düşməsinin səbəbi bu idi ki, müxtəlif bidətlər tez yayıla bilərdi. Erməni katolikosu İlya bu barədə xəlifə Əbd ül-Malikə (685-705) xəbər verdi və onun köməyi ilə Alban kilsəsini qriqoryanlaşdırmağa başlamağa müvəffəq oldu. Nerses əzabla öldürüldü. Sparma zindana salındı[2].

Lakin fikrimizcə, katolikos İlya pavlikian bidətini Albaniyanın yalnız hakim yuxarı təbəqələri arasında yatırmağa müvəffəq olmuşdur. Geniş əhali təbəqələri arasında isə pavlikian bidəti böyük antifeodal hərəkat xarakteri aldı və Alban

---

[1] Matenadaranın əlyazması №3062, səh. 251-252 və №29-66, səh. 120a; Самуэл Анеци. Изборник выдержек из книг истривеков, стр. 286,

[2] Bu barədə ətraflı məlumat üçün b a x: История Агван, стр.38/29-30; Asogik, II, səh.2; Arsenii Katolikoz. Gürcüstan və Ermənistan arasında təfriqə; Ф. Жордания. Хроника, стр.321.

vilayətlərindən Girdiman və xüsusilə Balasakan bu cəhətdən ayrıca yer tutdular.

Movses Xorenski bu iki vilayət əhalisinin həyəcan və narazılığını qeyd etmişdir; o yazır ki, "Baxasakan ölkələrində" bir "yalançı nəzəriyyə" çox yayılmışdı və Girdiman vadisində də "həmin bidətin ardıcılları"[1] var idi. Bunu Moisey Kalankatuklu da təsdiq edir[2].

Erməni katolikosu İlyanın xələfi katolikos Odzunlu İohann (717-728) "pavlikianlara qarşı" xüsusi məktub yazmışdır və bu məktub pavlikianları pisləmiş Dvin kilsə yığıncağının "32 qaydasının" əsasını təşkil etmişdir:

"Pavlikianlar adlanan murdar msxne təriqətçilərinə öz evində yataq yeri vermək, yaxud onlara qoşulmaq, onlarla oturub-durmaq, söhbət etmək olmaz, əksinə, onlardan tamamilə uzaqlaşmaq, iyrənmək və onlara nifrət etmək lazımdır, çünki onlar şeytan balası və əbədi atəşin közərtiləridir; əgər birisi onlara qoşulub onları sevərsə və onlarla dostluq edərsə, belələrinə işgəncə və ağır cəza vermək lazımdır, həm də o qədər ki, onların etiqadları sağlam olsun və möhkəmlənsin. Əgər onlar yenidən belə əməl tutsalar, əmr edirik, belələrini vəba xəstəliyinə tutulanlar kimi, xristian kilsəsi üzvlərindən ayırıb atsınlar"[3].

St.T.Melik-Baxşyan, habelə bir sıra digər ermənişünaslar belə zənn edirlər ki, Dvin yığıncağının qətnaməsində adları çəkilən pavlikianlardan "sonralar təhlükəli bir qüvvə" kimi bəhs edilmir[4]. Lakin Gevondun "Tarix"ində bu kimi fikirləri rədd edən məlumat vardır. Gevond "günahkar oğullar”dan[5] danışır. Q.Bartikyan belə hesab edir ki, bunlar ancaq pavlikianlar ola bilər[6]. Görünür,

---

1 М.Хоренский. История Армения, стр. 218.

2 История Авган, стр. 69,72, 90.

3 Книга армянских канонов, стр.148-149; Ст. Т. Мелик Бахшян. Павликианского движения в Армении, стр.183-184

4 Ст. Т. Мелик-Бахшян. Sitat gətirilən əsəri, səh. 184-185.

5 Gevont, səh. 86.

6 M. Bartikyan sitat gətirilən əsəri, səh. 41-51.

pavlikianlar 768-ci ildə Partav kilsə yığıncağının qətnamələrində adı çəkilən bidətçilərdən ibarətdir; həmin qətnamədə belə deyilir: "Qoy kilsələrdə maneəsiz olaraq vardapetlər (müəllimlər) təyin olunsunlar ki, Allahın idrak təliminə maneçilik göstərilməsin və kilsələri pozan təfriqətçi bidət onlara sirayət etməsin"[1].

Ərəb müəlliflərinin verdiyi məlumatda elə hadisələrə və insanlar fəaliyyətinə təsadüf edirik ki, bunlar pavlikianların fəaliyyətinə çox oxşayır. VIII-IX əsrlərdə Beyləqan əyalətinin əhalisi ərəblərə möhkəm itaətsizlik gostərirdilər: fikrimizcə, bu hal Albaniyada bidətçilərin, xüsusilə pavlikianların böyük fəaliyyətinin nəticəsi idi. Məsələn, Bəlazuri bildirir ki, xəlifə Əbü-l-Abbasın (750-754) hökmranlığı zamanı Beyləqan əhalisi üsyan qaldırıb Gilab qalasına girmişdi; onların başçısı Kabad ibn Asəf əl-Beyləqani idi[2]. Yəqubi də bu hadisədən bəhs edir, lakin əlavə edir ki, "Gilab qalasına çoxlu avara toplanmışdı" və bunların başçısı Vard ibn Səfvan əs-Sami idi[3]. Yəqubi "avaralar" deyəndə, Gevondun "günahkar oğullar" adını verdiyi adamlara oxşar insanları nəzərdə tuturdu.

Daha sonra Yəqubi bildirir ki, xəlifə Harun ər-Rəşidin (786-809) dövründə Beyləqan əhalisi, Bərdəyə gəlmiş xəlifə canişinin əleyhinə yenidən üsyan qaldırdılar[4].

"Ağvan tarixi"nin K.Patkanov tərəfindən edilmiş tərcüməsinə daxil olmayan bir neçə səhifəsində aşağıdakı məlumat vardır:"Həmin günlərdə (841/2-ci ildə - *Z.B.)* balakanasik beyləqanlılar (? - *Z.B.)* gəldilər və Sisan Dzor və Amaras mahallarını talayıb viran etdilər, Əbu Musa adlanan Yesai onlara qarşı qalxdı və onları [tamamilə] əzdi[5].

---

[1] Matenadaran əlyazması № 6409, səh. 94 b (Q.Bartikyanın tərcüməsi).

[2] Əl-Bəlazuri, səh. 209.

[3] Əl-Yəqubi, II, səh. 429.

[4] Əl-Bəlazuri, səh. 519; müqayisə et: Р.К.Жузе. Мазядиты-щейбаниты, л., 19,

[5] T.İ.Ter-Qriqoryan. "Moisey Kalankatuklunun Albaniya ölkəsinin tarixi" məsələsinə dair. v. 35; yəni onun nəşr edilməmiş səhifələr...vər. 19; M.M. Altman. Bir şəhəri olaraq Gəncənin meydana gəlməsi haqqında, səh. 83; Z. M. Büyadov. Bir də nəşr edilməmiş səhifələr haqqında, səh. 6; C. J. F. Dowsett, 461.

M.M.Altman yazır ki, "naməlum" balakanlıların "basqını haqqında digər mənbələrdə məlumat yoxdur"[1]. Sonrakı tədqiqatlar bu nəticənin düzgün olmadığını göstərdi. Belə ki, mənbələrdən biz bilirik ki, Ərəb xilafətinə qarşı xürrəmilərin azadlıq hərəkatının rəhbəri Babək Alban knyazı Səhl ibn Sumbat və Ablasadın və Vasakın qoşunları ilə Balasakan vilayətindən keçərək birləşməyə gedərkən vilayət əhalisi arasında həddən artıq töycü yığdıqları üçün, balasakanlılar 827/8-ci ildə Babəkə qarşı üsyan qaldırdılar. Bu üsyan müvəffəqiyyətsiz oldu. M.Kalankatuklu bildirir ki, 830/1-ci ildən bir az əvvəl balasakanlılar Bercor mahalına və Arsax (Qarabağ - *Z.B.*) əyalətinin Ureas, Karnakaş, Xakari və Tapat kəndlərinə hücum etdilər, lakin Babəkin köməyi ilə Stepannos Ablasad tərəfindən darmadağın edildilər"[2].

830/1 -ci ildə Ablasad öldürüldükdən sonra balasakanlılar yenidən üsyan qaldırıb Qorozu[3] tutdular və orada öz mövqelərini möhkəmlətdilər. M.Kalankatuklunun dediyinə görə, balasakanlılar bu dəfə Albaniyanın aşağıdakı vilayətlərini 12 il ərzində əllərində saxlamışlar: Verin Vaykunik, Bercor, Sisakan (və Kotak), Mive (Xaband), Amaras, Pazkank, Mxank və Triqavar.

Yalnız 12 il keçəndən sonra, təqribən 841/2-ci ildə "Ablasadın adamları onun qatilini tutub işgəncə ilə öldürdülər. Ablasadın qardaşı oğlu, Əbu Musa adlanan Yesai dinclik sevən bir kişi idi; o bu vilayətləri ələ keçirdi və hamıya hökmranlıq etdi. Yenə həmin ildə[4] Baban (Babək - *Z.B.)* İrandan Araz çayını keçərək, Amaras vilayətində düşərgə saldı"[5].

---

[1] M. M. Altman. Sitat gətirilən əsəri, səh. 83.

[2] История Авган, стр. 268/215.

[3] Deux Historiens Armeniens, P. 334: “Qoroz vilayəti-Paytakar adlanan Partav düzünə yaxındır”. V.Minorski (Caucasica, IV, P. 513). Belə hesab edir ki, Qoroz indiki, Şuşa rayonu yaxınlığında idi.

[4] Burada tarixdə ixtilaf vardır, bu barədə b a x: C.J.F.Dowsett, p. 464. Gərək “12 ay ərzində” olsun.

[5] История Авган, стр.268/215.

Lakin Qoroz qalası yanaşılmaz olduğundan, Babək onu ala bilmədi, buna görə də mühasirədə olanlara "sülhdən danışmağa" başladı. Balasakanlıları təslim olmaq üçün dilə tuta bilməyən Babək Bəzzə qayıtdı və sərkərdələrdən Rostomu öz yerində qoyub əmr etdi ki, "qala ilə vuruşmasın, əksinə, onları (balasakanlıları - *Z.B*) xoşluqla itaətə cəlb etsin". Lakin Rostom Babəkin əmrini yerinə yetirməyib Qoroz qalasına hücum etdi, onda "qalanın mərdləri [əhalisi] İran ordusunu (yəni Babəkin ordusunu - *Z.B.)* böyük məğlubiyyətə düçar etdilər"[1].

Şübhəsiz, "Ağvan tarixi"nin nəşr edilməmiş parçasında adı çəkilən və 840/1-ci ildə Yesai Əbu Musa tərəfindən darmadağın edilən balakanasik ilə 830/1-ci ildə üsyan qaldıran balasakanlılar - eyni adamlardır. Bunda heç bir şübhə ola bilməz və biz yalnız bir məsələni aydınlaşdırmalıyıq: bəs bu balakanasik kimlərdir?

B.F.Minorski yazırki, balakanasik adını Beyləqan adı ilə əlaqələndirmək imkanı onu çox həvəsləndirir, lakin o, Paytakaran (erm. əyalət adı) ilə Beyləqan arasında filoloji eyniyyət olduğuna tamamilə yəqinlik hasil etməmişdir[2]. Lakin daha sonrakı mənbə ilə tanış olduqda B.F.Minorskinin şübhələri aradan qalxır. Stepannos Orbelian bildirir ki, "Balasakan vilayətinin əhalisi Babana tabe olmaqdan boyun qaçırtdılar, buna görə də o, albanlı Ablasadın köməyi ilə vilayəti rəhmsizcəsinə talayıb viran etdi, hətta qadın və məsum uşaqları qırdı"[3]. Hərçənd B.F.Minorski belə hesab edir ki, Orbelian bu məsələdə səhv buraxa bilər, lakin buna baxmayaraq, o inkar etmir ki, Balasakan ilə Beyləqanın yeri bir-biri ilə düz gəlir[4]. Deyilənlərə bunu da əlavə etmək olar ki, "Ermənistan coğrafiyasında, Paytakaran, Muğan çölündəki Balasacan olan yerdə göstərilmişdir"[5].

---

[1] Yenə orada, səh.268-269/215.
[2] V.Minorski, Caucasica, p.513.
[3] Historie de la Siounie, p. 93-97.
[4] V.Minorski, Caucasica, p.513.
[5] Армянская география VII века, стр.41.

Beləliklə, balasakanlılar və ya balasakacik (beyləqanlılar) Beyləqan və ya Paytakaran əhalisi idi[1]. Babəkin Ablasad, Səhl və Yesai Əbu Musa ilə ittifaq bağlamış olmasına baxmayaraq, bu vilayətin əhalisi Babək əleyhinə üsyan qaldırdı, çünki Babək, öz fəaliyyətinin məhz bu dövründə, xürrəmilərin Xilafətdən qoparıb ayırdıqları çox geniş ərazi üzərində təsirli nəzarət həyata keçirmək iqtidarında deyildi[2].

Həmin balasakanlılar və ya beyləqanlılar - pavlikian ola bilərdilər; çünki onlar IX əsrin ortalarınadək elə ciddi bir qüvvə idilər ki, istər Babəkin müttəfiqləri olan yerli knyazlar, istərsə Xilafət onlarla hesablaşmalı olurdular.

Sonralar, ehtimal ki, pavlikianların hamısı və ya bir hissəsi qırılıb tükənmək və ya müsəlmanlaşdırılmaq təhlükəsinin təsiri altında Beyləqandan Bizansa köçə bilərdi, az hissəsi isə islam dinini qəbul edərək, assimilyasiyaya məruz qalmışdı. Bunu aşağıdakı fakt təsdiq edir: de Quye Kudamanın əsərlərini nəşr edərkən, ona məlum olmayan bir dini təriqətin adına rast gəlmiş və onun transkripsiyasını naylakani və ya naykalani şəklində vermişdi[3]. Lakin le Strenc bu təriqətin adını baylakani[4] şəklində oxumağı təklif etdi, Quye də dərhal bununla razılaşdı. Məlum oldu ki, bu təriqət pavlikianlar təriqəti idi və Kudamanın əsərində onların adı "baylakani", yəni beyləqanlılar şəklində idi[5]. Bundan əlavə, Məsudi müxtəlif xristian kilsələrindən danışarkən "baylaqani" (əlbəyaliqə) də olduğunu qeyd

---

[1] З.И.Ямполский. К изучению древнего пути, стр. 179.

[2] C.J.F.Dowsett, p. 465.

[3] Kudama, BGA, VI, səh. 254; Qövm yusammuna əl-Bayaliqa (fransız tərcüməsi, səh. 195). "Une peuple de appelee. Ces Nicolaius (?)".Çıxarışda Quye belə qeyd edir: " La lecon du texte nest pas certaine" B a x: İbn əl-Fəquh, BGA, vər.77

[4] G.le Strange. Al-Abrik…, p. 736.

[5] Melik-Baxşyan bu faktı qeyd edərkən yanlış olaraq belə hesab edir ki, "baylakani" sözünün bu cür oxunuşunu A.A.Vasilyev təklif etmiş və onun düzəlişini də de Quye etmişdir. (St.T. Melik-Baxşyan. Sitat gətirilən əsəri, səh. 157). Lakin göstərdiyimiz kimi, bu düzəlişi Le Strenc təklif etmişdir. A.Vasilyev də öz qeydində ona əsaslanır. (A.A.Васильев. Политические отнощение Византии и арабов, стр. 183)

edir və göstərir ki, bunların hətta Abrik qalası adlı öz paytaxtları var idi[1]. Başqa bir əsərdə yenə də Məsudi belə məlumat verir: baylakani (bəyaliqə) təriqəti və onun təlimindən danışaq. Bu təriqət xristianlarla atəşpərəstlər arasında orta bir yer tutur. Hazırda onlar köçmüşlər və yunan milləti içərisində yaşayırlar"[2].

Bizansda yerli hakimiyyət orqanları tərəfindən sıxışdırılan pavlikianlar ərəb qoşunlarının işğal etdiyi əraziyə keçdilər və yalnız pavlikian qalaları tutulduqdan və Melitenanın ərəb əmiri Ömər ibn Abdullah üzərində qələbə çalındıqdan sonra pavlikianların bir hissəsi bizanslılar tərəfindən Frakiya və Konstantinopola köçürüldülər[3]

Beləliklə, Albaniyada Girdiman və Beyləqanı (Balasakan, Paytakaran) pavlikianların vətəni hesab etmək lazımdır. Yəqin, bu vilayətlər uzun zaman, həm yerli feodallara, həm də yadelli basqınlara qarşı qüdrətli xalq hərəkatının mərkəzi olmuşdur.

## 2. "Xürrəm" termini haqqında

Azərbaycanda və qonşu ölkələrdə Abbasilər xilafətinin ağalığına qarşı xalqın geniş azadlıq hərəkatı olan xürrəmilər hərəkatının meydana gəlməsinin dəqiq tarixi indiyədək müəyyən edilməmişdir. Təbəri Azərbaycanda xürrəmilər hərəkatının b.e. 778/9-cu ilində

---

[1] Əl-Məsudi, BGA, VIII səh. 151, 183; Əş-Şəhrəstani “Kalə Abrik allati kanat mədinə əl-bayalika” (Səh. 173) onları “əl-bavliya” dalandırır; müqayisə et: G.Gestange. The Lands, p. 119.

[2] Əl-Məsudi, Muruc, VII, səh. 74-75.

[3] Bizansdakı pavlikianlar haqqında təfsilat üçün b a x: К.Н.Юзбащян. К истории павликианского движения в Византии в в.; Е.Э. Липшиц. Очерки истории Византийского общества и культуры, стр.132-170.

başladığını göstərir[1]. Bu hərəkatı dürüst xarakterizə etmək üçün "Xürrəm" və ya "Xürrəmdin" terminini təsdiq etmək lazımdır.

"Xürrəm" adının mənşəyi haqqında mənbələrdə üç rəvayət vardır. Bunlardan ən qədimi IX-X əsrlər müəlliflərinin söylədiyi rəvayətdir; onların dediyinə görə, bu söz Ərdəbilin yaxınlığında olan Xürrəm yaşayış məntəqəsinin adından götürülmüşdür. Bu ənənəni Məsudi[2], Yaqut[3] və Sadıq əl-İsfahani[4] davam etdirmişlər. Onlara istinad edən A.Müller "xürrəm" termininin belə izahını düzgün hesab etmişdir[5]- F.Hitti[6], D.Marqolius[7], S.Nəfisi[8], Van Floten[9] də eyni fikrə fikrə tərəfdar çıxırlar.

Digər mənbə və tarixçilərin ənənəvi təsəvvürləri buna qarşı çıxmasaydı, "xürrəm" termini mənşəyinin bu cür təfsirində ağlabatmayan heç bir şey olmazdı.

Başqa bir rəvayətə görə, kef çəkən və əyyaşlıq edən adamlara "xürrəm" deyilirdi. Bu halda "xürrəm" sözü "şən", "şad", "şəhvətpərəst" və i.a. mənasında başa düşülürdü. Bu ənənəyə biz Səmanidə təsadüf edirik: "Xürrəm-xe - üstündə zəmmə, re - üstündə fəhə və təşdid, axırıa da mim. Onarın dini bundan ibarətdir ki, onlar istədikləri və ya arzu etdikləri hər işi görürlər. Onlara bu adı ona görə vermişlər ki, onlar qadağan (haram) nə olduğunu bilmirlər və şərabı, qadınlarla yaşamağı və faydalı olub nəşə verən hər şeyi xeyirli (halal) hesab edirlər"[10].

Orta əsrlərin müəllifləri məzdəkilərə və onların xələfləri olan (aşağıya b a x) xürrəmilərə isnad verdikləri "arvadların ümumiliyi" fikrini ifrat əyyaşlığın ifadəsi hesab edirdilər. Mütəhhər əl-

---

[1] Ət-Təbəri, III, səh. 493; müqayisə et: Səid Nəfisi. Babək Xürrəmidin, səh. 19.

[2] Əl-Məsudi, VI, səh. 86.

[3] Əl-Yaqut, V, səh.362.

[4] The Geographical work of Sadik İsfahani, p.23.

[5] А.Мюллер. История ислама, т. II,стр.196

[6] Hitti F.Tarix əl-Ərəb, c. II, Beyrut, 1958, səh. 400.

[7] D.S.Margoliough. Khurramiya, p.257.

[8] Əl-Nəfisi, səh. 47.

[9] Q.Van-Floten, səh. 47.

[10] Əs-Səmani, səh. 72.

Müqəddəsi deyir ki, onların (xürrəmilərin) içərisində biz elələrini tapdıq ki, onlar qadınlarm ümumiliyinə yalnız öz razılığı ilə yol verirdilər və onlar ruha zövq verən hər şeydən istifadə edirdilər, ancaq bu şərtlə ki, bundan heç kəsə ziyan toxunmasın"[1]. Əbu Müzəffər İsfəraini yazır: "On birinci qrupu xürrəmilər təşkil edir, onlar da iki təriqətə bölünürlər; biri islamın meydana gəlməsindən əvvəl var idi və məzdəkilər adlanırdı. Onlar öz aralarında yaxın qohumla evlənməyə yol verirdilər. Deyirlər ki, əmlak və qadın məsələsində onların hamısı şərikdilər. Ənuşirəvan öz şahlığı dövründə onları məhv etmişdir.

Xürrəmilərin ikinci təriqəti isə islam dövlətində meydana gəlmişdir. Bunlar "babəkilər və məzyərilərdir. Bu təriqəti müxəmmirə və babəkiyyə adlandırırlar, yəni Babək əl-Xürrəmi adlı bir adamın ardıcılları, Azərbaycanda meydana gələn bu adamın (Babəkin) ardıcıllarının sayı artırdı. Onların hamısı yaxın qohumla evlənməyə yol verirlər". Sonra İsfəraini deyir: "Hər iki cinsdən olan babəkilər ilin bir gecəsində o dağın başında toplanırlar, musiqi və şərabla hər cür pis əməl tuturlar. Sonra işığı və odu söndürürlər və onlardan hər biri püşk ilə ona düşən qadınlardan birinin yanına gedir"[2].

Əbü-1-Fərəc ibn əl-Cövzi xürrəmilər haqqında belə yazır: "Xürrəm xarici (ərəb dili üçün - *Z.B*) bir sözdür. Bu söz insanın diqqətini cəlb edən xoş və maraqlı şeyləri göstərmək üçün işlənir. Bu sözün mənası: insanın hər hansı zövq və şəhvətə uyması, habelə cəmiyyətdə hər cür rəftar normalarına etinasızlıq göstərməsi və dini qanunların yox edilməsi deməkdir. Məzdəkiləri bu adla çağırırdılar. Məzdəkilər maq (atəşpərəst - *Z.B*) olub, Qubadın dövründə meydana gəlmişdilər, qadınla yaxınlığa və qadağan edilən hər işə yol verildiyi əqidəsində idilər. Xürrəmilərin gördüyü işlər də eynilə məzdəkilərdə olduğu kimi idi"[3].

---

[1] Mütəhhər əl-Müqəddəsi, əl-Bədv ət-tarix. Paris, 1899, səh. 133.
[2] Əbu Müzəffər əl-İsfəraini. Ət-Təbsir fi-d-din, əl-Qahirə,1940, səh. 62.
[3] İbn əl-Cövzi, səh. 87.

İbn əl-Əsir belə yazır: "Onların (xürrəmilərin- *Z.B.*) kişiləri öz anaları, bacıları və qızları ilə arvad kimi yaxınlıq edirlər, buna görə də onlara xürrəm adı vermişlər"[1].

"Xürrəm" sözünə "əyyaş" və i.a. mənası verilən izahatı ərəb müəlliflərindən götürən ilk avropalı tədqiqatçı alman alimi Q.Flügel idi[2]; onun vasitəsilə bu izahat, Babək və xürrəmilərdən bəhs edən, demək olar, bütün tədqiqatlara keçmişdir. Q.Flügel yazır: "Əl-xürrəmiyyə" - əvvəlcədən fars sözü olub xürrəm "şən", "aydın" deməkdir (xürrəmi - şənlik, aydınlıq; burada, əlbəttə, sırtıq, sərbəst kimi başa düşülür, bunların mənası həmin adları daşıyanlara aid edilir). Onun ərəbləşdirilməsi daha münasib oldu, çünki sözün yazılışı ərəblər üçün onun tərəfdarlarının təliminin yaramazlığı demək idi ki, bu da "fihrist" sözlərində belə ifadə olunur: "həm də onlarda (xürrəmilərdə- *Z.B.)* arvadlar ümumidir. Odur ki, adamlar onlardan (kişilərdən - *Z.B.)* beç birinə başqasının arvadı ilə yaxın olmağı qadağan etmirlər"[3].

A.Müller sözün belə başa düşülməsi əleyhinə çıxıb deyir ki, “Flügelin heç bir izahat vermədən - fars sözü churram üçün ("şən") deməsi özünü göstərmək istəyən bir məktəbli cavabından başqa bir şey deyildir. Yalnız "şənlik" termini "sırtıq" və "həyasız" sözlərinin ünsürü kimi əsas ton olaraq ən yeni jarqonda "kef əhli kompaniyası" mənasında da qəbul edilə bilər[4]. Lakin A.Müller Q.Flügelin fikrini rədd etməklə bərabər, xürrəmilərdə arvadların ümumiliyi haqqında bəzi ərəb müəlliflərin verdiyi məlumata inanır və bu ümumiliyi bərabərçilik kommunizminin başlıca təlimi hesab edir[5].

Xürrəmilərə bu cür baxış tərəfdarları alimlər arasında da tapılır. Erməni tarixçisi Leo belə deyir: "Elmdə qədim və ya ibtidai kommunizm adlanan mülkiyyət forması bu icmalarda (xürrəmi icmalarında *-Z.B.)* həyata keçirilmişdi və bunun başlıca

---

[1] İbn əl-Əsir,VI, səh. 231.

[2] G. Flügel, Babek, SeineAbbstammunq und Erstes Auftreten, 1869, p.351; müqayisə et: G.Weil. Geschishte der Chalifen, II, Manntheim, 1848, p. 234.

[3] Fihrist, I, səh.342.

[4] А.Мюллер. История ислама, II,стр.196

[5] Yenə orada, səh.195.

əlamətlərindən biri qadınların ümumiləşdirilməsi idi" [1] . V.Myur Xilafət haqqında yazdığı əsaslı əsərində deyir ki, Babəkin qəribə bir dini var idi; bu din yaxın qohumla evlənməyi, ruhun köçüb getdiyi fikrini (tənasüx) və Şərq mistikasının digər prinsiplərini təbliğ edirdi. V.Myur deyir ki, "xürrəmiyyə" və ya "şəhvətpərəstlər" termini də buradandır [2] . Vellhauzen də belə hesab edir ki, "xürrəmizm - əxlaqsızlıqdır"[3].

Amerika alimi E.Rayt, Mütəhhər əl-Müqəddəsiyə istinad edərək qeyd edir ki, xürrəmilər cinsi əlaqələrdə pisə-yaxşıya baxmırlar, ancaq qadınların icazəsi ilə. "Məhz bu cəhət, yəni, "cinsi əlaqədə pisə-yaxşıya baxmamaq" xürrəmiləri tənqid edənlər arasında istehza və nifrət vasitəsi olmuşdur"[4]. Van Floten deyir ki, "xürrəm" termininin "şəhvətpərəst" kimi tərcümə edilməsi buna səbəb olmuşdur ki, xürrəmilərdən qeyri-müəyyən yeni bir din tərəfdarları kimi bəhs edirlər və onları elə göstərirlər ki, guya onlar şəhvətpərəstlik dinindən başqa heç bir din bilmirmişlər[5]

Xürrəmilərin qadınları ümumiləşdirdiyi fıkrində olan tədqiqatçıların nöqteyi-nəzərinə Y.A.Manandyan da şərikdir; o deyir ki, "üsyançılar (xürrəmilər- *Z.B.)* əmlakın və arvadların ümumi olmasını tələb edirdilər"[6].

Ərəb xilafətinin ictimai-iqtisadi tarixinə dair böyük bir əsərin müəllifi olan Misir tarixçisi Həsən İbrahim Həsən xəlifələrin və onların ətrafındakıların mənəvi saflığı və təmizliyini göstərmək, onları tarix qarşısında təmizə çıxarmaq arzusu ilə Xilafətin bütün düşmənlərini, o cümlədən Babək və xürrəmiləri ləkələyən tədqiqatçılardan biridir[7].

---

[1] Лео. История Армении т.II, стр. 37

[2] V.Myur. səh. 504.

[3] J.Wellhausen. The Arab Kingdom and its Fall, Calcutta, 1927, p. 16.

[4] E.M. Wright. Babak of Badhdh and al-Afshin during the years the years 816-841, v. 38, № 1-2, 1948, p. 49. (sonralar – E.Pajm).

[5] Q.Van-Floten, səh. 49.

[6] Я.А. Манандан. Народное восстание в Армении против Арабского владичества, стр. 49. Q.X.Sadiqinin mühakimələri onun eynidir.

[7] Həsən İbrahim Həsən. Sitat gətirilən əsəri, səh. 95-98.

"Xürrəm" terminini əxlaqsızlıqla əlaqələndirən ənənədə feodal və burjua müəlliflərinin elmi və siyasi məhdudluğu və sinfi qərəzkarlığı nəzərə çarpır. İyirmi ildən artıq bir müddət ərzində Xilafətə qarşı mərdliklə çox çətin azadlıq mübarizəsi edən xürrəmiləri kefcil qara camaat, "kef içində pozğun həyat sürən"[1] adamlar hesab etmək olmaz. Bu barədə hələ A.MüIler demişdi və təəssüf ki, onun bu sözlərinə lazımi diqqət verilməmişdi. Sərxoşluğa, pozğunluğa və əxlaqsızlığa yol verən hər bir azadlıq hərəkatı əvvəlcədən tezliklə pozulmağa məhkum olardı.

Bundan əlavə, yuxarıda qeyd edilmişdir ki, İsfərainin verdiyi məlumata görə, xürrəmilərdə "arvadların ümumiliyi" cəmi "ilin bir gecəsində" olurdu.

Həqiqətdə bu məsələyə elmi nöqteyi-nəzərdən baxılması bu cəhəti qeyd etməyi tələb edir ki, ibtidai qrup nikahının dini qalıqları rəsmi dini, etnik və hüquq normaları pərdəsi altında və bu pərdəyə baxmayaraq, bütün ölkələrin xalqlarında müşahidə olunmuşdur[2].

Antik dövr müəllifi bildirdiyi kimi, hələ qədimdə Qafqaz dağlarında köhnə adətə görə ildə bir dəfə qrup halında cinsi əlaqələr olurdu[3]. Ola bilər xalq arasında bu ənənəvi dini hadisə məzdəkilər, sonra isə xürrəmilər hərəkatının gedişində rəsmi dinlərin (məzdəki və sonra islam) örtüyü altından çıxmışdır və buna görə də XI əsr müəllifinə "ilin bir gecəsində" baş verən bir hadisə şəklində gəlib çatmışdır ki, bu da əsla "arvadların ümumiliyi" ola bilməz.

Məzdəkilər və xürrəmilər hərəkatı hakim siniflərə, xürrəmilər hərəkatı isə əlavə olaraq Xilafətə qarşı yönəldilmişdi[4], məzdəkilər və və xürrəmilər "əmlakı şərik olanlar" kimi məşhur idilər. Buna görə də həmin siniflərin mənafeyini ifadə edən müəlliflər (feodal və

---

[1] М.Томара.Бабек, М., 1936.стр.7.

[2] F.Engels. Ailə, xüsusi mülkiyyət və dövlətin mənşəyi, səh. 26-85.

[3] Страбон. География. Книга XI, ч.5.(Son məlumatı mənə Z.İ.Yampolski göstərmişdir).

[4] Н.В.Пигулевская.Маздакитское движение;T.H.Nöldeke.Geschichteder Perser und Araber, p. 455-467; Siyasətnamə. XI əsrin vəziri Nizam ül-Mülkün idarəetmə haqqında kitabı, səh.205; П.К.Жузе. Папак и папакизм, Изв.Бакинск. гос.ун-та, №1, Баку, 1921.

burjua xüsusi mülkiyyətini müdafiə edənlər) məzdəkilərə və xürrəmilərə pozğun həyat dərsi və "arvadların ümumiliyi" kimi fikirlər isnad verirdilər. Halbuki faktlar göstərir ki, nə məzdəkilərdə, nə də xürrəmilərdə bunların heç biri olmamışdır.

Bir halda ki, bu belədir, "xürrəm" termininin mənşəyini "pozğunluq" və i.a. anlayışı ilə əlaqələndirməyə heç bir əsas yoxdur[1].

İngilis alimi C.Sell xürrəmilərin ideologiyası və dini haqqında qəti bir fikri irəli sürməyib deyir: "Hicri 201 (816/17)-ci ildə Babək özünü peyğəmbər elan etdi: onun "hürrəmi" və "xürrəm dini" adlanması ona görədir ki, Azərbaycanda Xürrəm adlı yerdən çıxmışdır, ya da ona görədir ki, xürrəm sözü ilə ifadə edilən şən bir din təsis etmişdir. Mən onun nə kimi bir ehkam təbliğ etdiyini tapmamışam, lakin deyirlər ki, o, sonralar Asiyada məlum olan dinlərin heç birini bilmirdi"[2].

Nəhayət, "xürrəm" termininin mənşəyi haqqında irəli sürülən üçüncü ənənəvi rəvayət bu termini Məzdəkin arvadının adı ilə əlaqədar edir. Bu təsəvvür anonim "Mücməl ət-təvarix va-l-qisas" vardır. Nizam ül-Mülk də bu təsəvvürü belə əks etdirmişdir: "Məzdəkin arvadı və Fadənin qızı Xürrəmə iki adamla Mədaindən qaçıb Rey mahalına gəlmişdi və orada adamları öz ərinin dini təliminə dəvət edirdi; müxtəlif camaat bu dinə daxil oldu və adamlar onları xürrəmdinli adlandırdılar"[3]. XII əsrin anonim müəllifi qeyd etmişdir ki, xürrəmilərin əsası I Qubadın (448-511) vaxtında doğrusu isə "Möbedan Möbed Məzdək ibn Bamdadın vaxtında" [4] qoyulmuşdur. Yenə həmin müəllif belə güman edir ki, I Xosrov Ənuşirəvan məzdəkiləri qırandan sonra Məzdəkin arvadı Reyin şimal-qərb rayonunda (Azərbaycanda - *Z.B.)* gizlənərək cəzadan xilas olub xalqı məzdək dininə dəvət edirdi. "Bundan sonra onları

---

[1] Buna görə də, çox təəssüf ki, həmin terminin mənşəyinin bu cür anlayışı "Azərbaycan tarixi" kimi bir əsərə daxil olmuşdur (c. I, səh. 317).

[2] G.Sall. The Koran; Commonly Called the əl-Koran of Muhammad, London, 1857, p. 130.

[3] Siyasətnamə, səh. 205.

[4] M ö b e d a n M ö b e d – zərdüştlərin bacısı.

(Məzdəkin ardıcıllarını - *Z.B.)* xürrəmdinlilər və ya xürrəmi (yəni xürrəmi dininin tərəfdarları - *Z.B.)* adlandırmağa başladılar"[1].

"Xürrəm" termininin izahındakı müxtəliflik və sübutsuzluq göstərir ki, bu məsələnin həlli qəti ola bilməzdi. Məsələni elmi surətdə həll etmək üçün çıxış nöqtəsi olaraq aşağıdakı ehtimalı irəli sürmək istərdik. X-XIII əsrlərin mənbələrində dəfələrlə bildirilir ki, məzdəkilər və xürrəmilər atəşpərəst olmuşlar. Mütəhhər əl-Müqəddəsi bunu belə deyir: "Xürrəmilər maqların bir gözüdür"[2]. Səmaninin dediyinə görə: "Onlar (xürrəmilər - *Z.B.)* Qubadın dövründə meydana gələn məzdəkilərə oxşayırlar. Buna görə Qubadın oğlu Ənuşirəvan onları qırmışdır. Onlara məzdəki adı verdikləri mənada bunları da xürrəmi adlandırmışlar[3]. Əbu Mənsur Bağdadi bildirir ki, "xürrəmilər məzdəkilərin yolu ilə gedirdilər"[4]. Əbü-l Fərəc ibn əl-Cövzi qeyd edir (yuxarıya bax) ki, "məzdəkilər maq (atəşpərəst - *Z.B.)* idilər". İbn əl-Əsir belə yazır: "Onlar (xürrəmilər - *Z.B.)* maqlar (atəşpərəstlər - *Z.B.)* dini icma qruplarından biridir[5], yaxud Nəfisinin [6] sözü ilə desək, onlar yeni məzdəkilər və ya islamdan sonrakı məzdəkilər idi.

Məzdəkilərlə xürrəmilərin ideologiyası atəşpərəstlik (zərdüştilik, mazdeizm) ideologiyasının əlaqələri kimi mürəkkəb və müstəqil məsələyə burada toxunmadan "xürrəm" termininin "od" anlayışı əsasında təhlilini təklif edirik. Fars və erməni dillərində "xür" sözünün mənası belədir: farsca - "xür", "xvar", "xarena" - "günəş", “od”[7]; ermənicə[1] - görünməyən, maddi olmayan od. Lakin

---

[1] Mücməl ət-təvarix va-l-qisas, səh. 133.
[2] Mütəhhər əl-Müqəddəsi, səh. 133.
[3] Səmani, səh. 72.
[4] Əbu Mənsur əl-Bağdadi. Əl-Fərq beyn əl-Firəq, əl-Qahirə, 1948, səh. 762.
[5] İbn əl-Əsir, VI, səh.235.
[6] S.Nəfisi. Sitat gətirilən əsəri, səh. 20.
[7] Müqayisə et: Н.Нематов. Усрушана в древности и ранние средневековье, 1957, стр. 65; Н.М.Оранский. Введение в Иранскую филологию, стр. 57; "Xürrəm" termininin mənşəyi haqqında bir miilahizə də vardır ki, bunu professor P.F.Minorski müəllifə demişdir; o güman edir ki, "xürrəm" - qədim fars diündən gələn - huram, yəni "mərami yaxşı (yerinə yetirilən)

buna diqqət vermədilər, halbuki xürrəmilərin qonşuları və qismən iştirakçıları olan iranlılar və ermənilər "xürrəm" - "xürrəmilər" termininin meydana gəlməsinin mənbəyi ola bilərdilər, xüsusilə ona görə ki, yuxarıda deyildiyi kimi, "xürrəm" sozü ərəb dilinin lüğət tərkibinə daxil olmayan bir söz hesab edilirdi[2].

## 3. Cavidan. Babək və xürrəmilərin fəallaşması. Bəzz qalası

Məlum olduğu kimi, Azərbaycanda xürrəmilərin üsyanı öz başlanğıc mərhələsində Cavidan ibn Səhl və ya ibn Sührak[3] adı ilə bağlı idi. İbn ən-Nədimin qismən sitat gətirdiyi Baqid ibn Əmr ət-Təmiminin itirilmiş "Babəkin tarixi" əsərində xürrəmilər hərəkatının meydana gəlməsindən bəhs edilən çox maraqlı və mötəbər sayıla biləcək təfərrüat vardır, hərçənd ki, bütünlükdə "Babəkin tarixi" əsəri-hadisə və şəxsləri təhrif edən mövqedən yazılmışdır, xürrəmilərə və Babəkə pis meyil və niyyətlər isnad verir, habelə

---

şəxs" deməkdir; lakin yeni fars dilində "xubramin". Yusifov "huram" sözünü "yaxşı qayda, rahathq" deyə tərcümə edir.

[1] Н.О.Эмин. Очерк религии и верований языческих армян, стр. 27, 51.

[2] "История Агван"da (səh. 193/150) qeyd edilir ki, hunlar;n (massagetlərin) “k’uar” allahı varmış və ona at qurban verirmişlər. B a x : Strabon, XI, səh. 86: "Onlar (massagetlər) yalmz günəşi allah bilir və ona at qurban verirlər". Pəhləvicə "Xvar" günəşdir". B a x : T.Halasi Kun. Türk dili ve tarihi hakkında araştırmalar, Ankara, 1950.səh. 49.

[3] Ət-Təbəri (III, səh, 1015) və İbn əl-Əsir (VI, səh. 121) "Səhl" formasını çaq,ərəb və fars dillərində "x" və "h” səsləri "q" ilə göstərilir. B a x : Əl-Məsudi, Muruc(VII, səh. 62) "Şahrak", Fihristdə "Sihrak" variantı verilir"

Xilafət düşmənlərindən bəhs edildikdə tamamilə yanlış məlumat verir.

Babəkin tarixi"nə görə, Cavidan Ərdəbil mahalında yaşayırdı, onun böyük qoyun sürüləri var idi və o, qoyunları Zəncan bazarında satırdı. Yağ gəzdirib satan Abdullah adlı[1] bir şəxs Mədaindən köçüb bu yerlərə, daha doğrusu, Meymad rustakının Bilalabad kəndinə gəlmişdi. O, yağını satarkən bir kənddən digərinə gedərdi, nəhayət, kəndlərdən birində özünə Bərumənd adlı birgözlü məşuqə tapır ki, o da yerli hakim ibn ər-Rəvvadın qulluqçusu idi. Bir ildən sonra Abdullah ölür, Bərumənd isə oğlu Babək ilə Səraba köçür. Burada Babək əvvəlcə çobanlıq edir, sonra isə Təbrizə gedib, şəhər hakimi Məhəmməd ibn ər-Rəvvad əl-Əzdinin yanında qulluq etməyə başlayır. Bundan sonra o, anasının yanına qayıdır.

Bir dəfə Cavidan Zəncanda bir qədər mal-qara satıb öz yerinə, Bəzzə qayıdanda hava pis olduğuna görə təsadüfən Babəkin anasının evində qalır. Görür ki, onun müxtəlif tapşırığını yerinə yetirən Babək çox bacarıqlı və zirək oğlandır. O, Cavidanın xoşuna gəlir, bu da gənc Babəkin gələcək müqəddəratını həll edir. Cavidan Babəkin anasına təklif edir ki, oğlunu ona qulluq etməyə versin, bunun müqabilində Cavidan onun anasına hər ay müəyyən məbləğ pul ödəsin. Bərumənd razılaşır, Babək də Bəzzə gedib, Cavidanın malikanəsini idarə etməyə başlayır. Az sonra Cavidan öz daimi rəqibi Əbu İmranla vuruşmada ölümcül yaralanır və üç gündən sonra ölür. Cavidanın Babəkə gözü düşən cavan arvadı, ərinin ölümündən sonra tez Babəklə danışır ki, Cavidanın tərəfdarlarına rəhbərliyi öz öhdəsinə götürsün. Arvad onları ölən rəhbərin yanına toplayıb deyir ki, onların ağası Cavidan ölümqabağı ona aşağıdakı vəsiyyəti etmişdir: "Mən bu gecə öləcəyəm. Mənim ruhum bədənimdən çıxıb

---

[1] Fihristdə belədir. Ət-Təbəridə (III, səh. 1232) "Matr" yazılmışdır. Mənbələr Babəkin atasının adını dolaşıq salır, çünki sonrakı hadisələrdən göründüyü kimi Babəkin Abdullah adlı qardaşı var idi.

Babəkin bədəninə keçəcək və onun ruhu ilə birləşəcəkdir... Mən onu öz yerimə öz ardıcıllarıma rəhbər təyin edirəm"[1].

Cavidanın tərəfdarları onun dul arvadının sözünə inanıb, şərtlərini danışıqsız qəbul etdilər, bundan sonra isə Babəkin icma rəhbərliyini qəbul etməsi mərasimi başlandı. Arvad əmr etdi bir inək gətirdilər, onu kəsdilər, dərisini soyub yerə sərdilər. Sonra dərinin ortasında bir şərab qədəhi qoyuldu, arvad da onun içərisinə çörək doğradı. Bu hazırlıq görüldükdən sonra, arvad Cavidanın hər bir tərəfdarını adı ilə çağırmağa başladı və ona əmr etdi ki, dərinin üstünə çıxsın, qədəhdən bir tikə çörək götürüb yesin və onun ardınca bu sözləri təkrar etsin: "Mən Cavidanın ruhuna inandığım kimi, sənə də inanıram, ey Babəkin ruhu!" Bundan sonra hər biri Babəkin əlindən tutub öpür və ona baş əyirdi. Sonra kef məclisi quruldu, bu ziyafətdə dul arvad Babəki öz yanında oturtdu və ona bir budaq reyhan verdi, bu isə kəbin mərasiminin simvolu idi. Mənbələrin məlumatına görə, bu əhvalat hicri 201 (b.e. 816)-ci ildə olmuşdur[2].

Babəkin başçılıq etdiyi vaxtdan, yəni 816/7-ci ildən etibarən xürrəmilər hərəkatından bəhs etməzdən əvvəl, bu cəhəti qeyd etməliyik ki, xürrəmilər hələ xəlifə Mehdinin (775-785) hökmranlığı dövründə Xilafəti ciddi surətdə narahat etməyə başlamışdılar. Nizam ül-Mülkün verdiyi məlumata görə, "hicri 162 [778]-ci ildə Mehdinin xəlifəliyi zamanında sorxələm" [3] adlandırılan Qorqan batiniləri

---

[1] B.M.Tirmizi yanlış olaraq belə hesab edir ki, "Cavidan ibn Şahrak əl-Xürrəmi Babəkin ardıcıllarından biri imiş". B.M.Tirmizi. Zoroastrians and their fire femples in Iran and adjoining countries from the 9-th to the 14-th centuries as gleaned from Arabic geografical Works, c. XXIII, № 4b 1950, p. 273; İbn Təqriberdi. Ən-Nucmi əz-zahirə, səh. 577.

[2] Ət-Təbəri, III, səh. 1015, əl-Məsudi. Muruc, VII, səh. 130; İbn əl-Əsir, VI, səh. 121. P.K.Juze bu hadisəni yanlış şərh edərək deyir ki, "Cavidan xürrəmilərə rəhbərliyi və İran xalqını ona düşmən olan feodallar və Abbasilərdən azad etmək üçün başladığı işi davam etdirməyi təntənəli surətdə öz istedadlı şagirdi Papaka və ya Babəkə həvalə etdi" (П.К.Жузе. папак и папакизм, стр. 209-210.).

[3] Mənbələrdə ərəbcə "mühəmmirə" (Ət-Təbəri, III, səh. 493 və sonrakılar; əd-Dinəvəri, səh. 382; İbn Cövzi, V, səh. 144) və farsca "Sorxələm" (Siyasətnamə, səh. 224; Həmdulla Qəzvini, səh. 320) terminlərinin işlədilməsi diqqəti cəlb edir,

xürrəmdinlilərlə birləşmişdilər. Onlar deyirdilər: "Əbu Müslim sağdır! Padşahlığı ələ keçirək!" Onlar öz başçıları Əbu əl-Qərranın, onun oğlunun rəhbərliyi ilə Reyə hərəkət etdilər. Mehdi müxtəlif vilayətlərə və Təbəristan hakimi Əmr ibn əl-Əlaya belə məktub göndərdi: "Birləşin, onlarla vuruşmağa çıxın". Onlar vuruşmağa çıxdılar və o dəstə dağılıb qaçdı"[1].

Bir neçə ildən sonra xəlifə Harun ər-Rəşidin hökmranlığında xürrəmilər yenidən üsyan qaldırdılar. "192 [807/18]-ci ildə Azərbaycanda xürrəmilərin hərəkatı başlandı[2]. Harun ər-Rəşid Abdullah ibn Malikin başçılığı ilə onlara qarşı 10 min atlı göndərdi[3]. O, xürrəmilərdən çoxunu qırdı, kişi və qadınları əsir alıb, Karmasinə, Harun ər-Rəşidə göndərdi, o da əmr etdi, kişi əsirləri qırsınlar, qalanlarını isə satsınlar"[4].

Bundan sonra xürrəmilər Xilafətə qarşı mübarizədə öz fəaliyyətlərini bir müddət zəiflətdilər. Onların rəhbərləri olan Cavidan və Əbu İmran öz şəxsi mübahisələrini həll etməklə məşğul olduqlarından ardıcıllarını bu mübarizədən yayındırdılar. Babək

---

Birincisi, "qırmızı geymiş", ikincisi, "qırmızı bayraqlı" deməkdir. Fikrimizcə, xürrəmilər tarixdə Ilk dəfə olaraq yadelli zülmkarlara qarşı mübarizədə bir simvol kimi qırmızı rəng və bayraqdan istifadə etmişlər. Müqayisə et: А.Ю.Якубовский. Восстание Муканны, стр. 41;Əbu Dulaf: [Bəzzeyndə] "xürrəmilər" adı ilə məşhur olanlar qırmızı bayraqlar qaldırmışdılar (Əbu Dulafın ikinci məktubu, səh. 37). Əbu Tammamın "Divan"ında da bu barədə deyilmişdir. Əbu Səid Məhəmməd ibn Yusif ət-Taiyə həsr etdiyi qəsidəsində Əbu Tammam deyir ki, xürrəmilər öz qələbələrini qeyd edərkən qırmızı bayraqlar asırdılar. Divan Əbu Tammam bi-şərh əl-xətib ət-Təbrizi, c. II, əl-Qahirə, 1957, səh. 41.

[1] Siyasətnamə, səh. 224.

[2] Siyasətnamə (səh. 224) bildirir ki,".. üsyan habelə İsfahanı, Tərmidaini, Kapulu, Fabiki və digər kənd yerlərini bürüdü. Rey, Həmədan, Dəstə və Girədən çox adaın camaata qoşuldu".

[3] Siyasətnamə, səh. 224; "Abdullah ibn Mübarək 20 min atlı ilə".

[4] Ət-Təbəri, III, səh. 732; əz-Zəhəbi, səh. 93; İbn əl-Əsir, VI, səh. 74; Siyasətnamə, səh. 224; "Əbu Dulaf İcli və Abdullah ibn Mübarək qəflətən hücum etdilər, çox adam öldürdülər, onların uşaqlarını Bağdada aparıb satdılar".

xürrəmilərə rəhbərliyi qəbul etdikdən sonra onların mübarizəsi tamamilə Xilafətə qarşı çevrildi.

Bəzi mənbələrin verdiyi məlumata görə, Babək guya bir vaxt islamı qəbul edibmiş və onun müsəlman adı Həsən imiş[1]. Babəkin islama müəyyən münasibətini göstərən bu yeganə məlumat nəzərə alınmazsa, bütün digər mənbələr təsdiq edir ki, Babək ərəblərə və onların dininə nifrət bəsləyirdi, bütün ömrü boyu Xilafətə qarşı mübarizə edirdi və Azərbaycanda islamdan əvvəl mövcud olan qaydaqanunları bərpa etməyə çalışırdı. Birincisi, o özünün müsəlman olmayan Babək (Papak) adını bərpa etdi, ikincisi Allahın insan surətində görünəci (hülul) nəzəriyyəsini elan etdi; üçüncüsü, ruhun bir cisimdən başqa bir cismə köçdüyünə (tənasüx əl-ərvah) inanırdı və dördüncüsü, bu əqidədə idi ki, imamın qeyb olan ruhu çox sonralar qayıdacaqdır (ricət)[2].

Xürrəmilər icmasını, yəqin, hüquq qaydaları məsələlərini həll edən bir növ imamlar, elçilər və ya mələklər (firiştələr) idarə edirdilər; bunlar bir icmadan digərinə gedərək, ilham təbliğ edir və icma üzvlərini öyrədirdilər. Xürrəmilərin dini - işıq və zülmətin simvolu olan iki böyük mənəvi qüvvəyə, yəni xeyir və şərə inama əsaslanırdı. Azərbaycanın kəndli kütlələri, müəyyən dərəcədə zərdüştilik və məzdəkiliklə əlaqədar olan islamdan əvvəlki etiqadlarında idilər. Bu kəndli kütlələrindən ərəblərə və islama xoş münasibət gözləmək bir də ona görə olmazdı ki, islam əhalinin şüurunda ərəblərin hökmranlığının ideoloji ifadəsi idi, kənd təsərrüfatı məhsullarının təqribən yarısını Azərbaycan kəndlilərinin əlindən almaq üçün ərəblərin qoyduğu vergi (xərac) sistemi isə güclü müqavimətə rast gəlir və ərəblərə qarşı onları daha artıq qəzəbləndirirdi[3].

---

[1] Ət-Təbəri, III, səh. 1015; Məsudi. Muruc, VII, səh. 130.

[2] Əş-Şəhrəstani, səh. 132.

[3] А.Мюллер. история ислама т II.стр.18

Xürrəmilərin əksəriyyəti Azərbaycanın və qonşu vilayətlərin kəndlilərindən ibarət idi[1]. Cavidanın rəhbərlik etdiyi xürrəmilər 816-cı ilədək Xilafəti yalnız hərdənbir narahat edirdilərsə, Cavidanın ölümündən sonra Xilafət üçün dəhşətli bir qüvvə oldular. Babək Xilafətə qarşı üsyan qaldırmaq vaxtını yaxşı seçdi. O, Əmin və Məmun qardaşlarının Xilafət taxtı üstündəki daxili mübarizələrindən istifadə etdi, çünki bu zaman ərəblərin yuxarı təbəqələrinin diqqəti Bağdaddan uzaqdakı şimal vilayətlərindən yayınmışdı.Dinəvərinin verdiyi məlumata görə, "Babək (Xilafətdə) arası kəsilməyən qarışıqlıq və çətinliklər dövründə püxtələşmişdi"[2]. O, "Azərbaycan vilayətinin Bəzzeyn dağında meydana çıxdı. Orada onun tərəfdarlarının sayı artdı"[3]. Demək olar eyni məlumatı Vardan da verir: "Bu günlərdə [817-ci ildə] Bağdaddan (yəni Bəzzdən) əsli iranlı[4] olan Bab[ək] adlı bir adam gəldi; bu adam İsmayıl övladını [ərəbləri] ağır məğlubiyyətə uğradır, çoxlarını əsir aparırdı..."[5]. Əbu Dulaf qeyd edir ki, Bəzzdə "əl-xürrəmiyyə adı ilə məşhur olan əl-mühəmmirə bayraqları təntənəli surətdə təqdis edildi. Babək buradan çıxmışdır"[6]. "Əl-xürrəmiyyə və əl-babəkiyyənin mənşəyi Babək əl-xürrəmidir; o, Mötəsimin vaxtında meydana gəlmişdir, onları ona görə əl-mühəmmirə adlandırdılar ki, Abbasilər öz bayraqlarını qara rəngə boyadıqları kimi onlar da qırmızı [rəngə] boyayırdılar"[7].

Orta əsr mənbələrində bildirildiyi kimi, əvvəlcə Cavidanın, sonra isə iyirmi ildən artıq Babəkin başçılıq etdiyi xürrəmilərin

---

[1] Bağdadi, səh. 252; müqayisə et: Е.А.Беляев. Мусульманское сектанство, стр. 21; З.И.Ямпольский. Восстание Бабека, стр. 14.

[2] Əd-Dinəvəri,səh.397.

[3] Əl-Bağdadi, səh. 251; əl-Məsudi. Tənbeh, səh. 352

[4] Bütün erməni tarixçiləri Babəki iranlı adlandırırlar.

[5] Vardan, səh. 101; Ş.Lebo Babək üsyanının başlanma tarixini yanlış olaraq 831-ci il göstərir.

[6] Abu Dulaf. Mis'ar ibn Muhalhil's travels in Iran, p. 6.

[7] İbn Kəsir, səh. 62.

Azərbaycandakı mərkəzi və ya paytaxtı qala şəhəri olan Bəzz idi[1]. Ət-Təbəri deyir ki, Bəzz "Babəkin vilayəti və şəhəri idi"[2]. Əl-Məsudi yazır ki, Babək "Azərbaycan ölkəsində olan Bəzzeyn dağlarında"[3] üsyan qaldırmışdı. Onun əsərində deyilir ki, "Babəkin ölkəsi Bəzzeyn - Azərbaycan, Arran və Beyləqandadır", Bəzzeyndə Arranda, "Babəkin ölkəsində" olan dağdır[4]. Yaquta görə "Bəzz - Azərbaycanla Arran arasında bir vilayətdir"[5]. Biruni yazır ki, "Bəzz Babək əl-Xürrəminin ölkəsidir"[6] və i.a.

Gördüyümüz kimi, mənbələrdə Bəzz (Bəzzeyn) haqqında müxtəlif məlumat verilir - həmin ad ölkə, vilayət, şəhər, kənd və iki yaşayış məntəqəsinə, həmçinin dağ, iki dağ, dağlıq yer və sairəyə verilir. Bir məsələ aydındır: həmin adda bir yer, daha doğrusu, qala şəhəri mövcud olmuşdur və biz onun yerini müəyyən etməyə çalışırıq, çünki Bəzzin bu yerin harasında yerləşdiyi haqqında çox müxtəlif fikirlər vardır.

Demək olar, bütün tədqiqatçılar Bəzzin Ərdəbil rayonunda bir yerdə olduğunu söyləyirlər. N.Karaulov öz xəritəsində iki Bəzz olduğunu göstərir və belə güman edir ki, "bu iki Bəzzdən biri, bütün ehtimala görə, indiki Rus-İran sərhədində, Əliabad kəndinin yerində olmuşdur, biri də, şübhəsiz, Alvadı adlanır[7]. V.Myur deyir ki, Bəzz Ərdəbilin arxasında idi[8], bunun harada olduğu isə məlum deyildir. M.Tomara da onun kimi fikir irəli sürərək, Bəzzi Ərdəbil ilə Arran

---

[1] Təkcə İbn Nədim belə hesab edir ki, Babəkin vətəni Bəzz deyil, Bilalabaddır (Fihrist, I, səh. 343); E.Rayt (Sitat gətirilən əsəri, səh. 46, qeyd 9) belə zənn edir ki, Bəzz (Bəzzeyn) Bilalabad adının ikinci hissəsindən əmələ gəlmişdir.

[2] Ət-Təbəri, III, səh. 1171; Əbu Dulaf (səh. 37): "Oradan [Bəzzdən] Babək çıxış etmişdir".

[3] Əl-Məsudi, BGA, VIII, səh. 353.

[4] Əl-Məsudi, II, səh. 235, 247.

[5] ƏI-Yaqut, I, səh, 529.

[6] Əl-Biruni, səh. 36.

[7] Н.Караулов. Примечание к СМОМПК, вып. 29, стр 61.

[8] V.Myur, səh. 514.

arasında göstərir [1]. Əsərlərin birində Bəzzin Talış ölkəsində [2] yerləşdiyi, digərində isə Bəzzin Savalan dağının şimal yamacında[3] olduğu bildirilir, lakin həmin məcmuəyə əlavə edilən xəritədə Bəzz Ərdəbilin cənubunda yerləşir. "Böyük Sovet Ensiklopediyası"ndakı xəritədə Bəzz təqribən Ərdəbilin 100 kilometr cənub-qərbində [4], T.İ.Ter-Qriqoryanın xəritəsində Salyanın cənub-şərqində [5] yerləşir. S.Nəfisi öz xəritəsində Bəzzi Bəlhəbin yaxınlığında, Muğanın şərqində və Xəzərin qərb sahilində yerləşirdi[6]. Z.İ.Yampolski də eyni eyni fikirdədir[7].

Fikrimizcə, tədqiqatçıların göstərdiyi yerlərdən heç biri Bəzzin həqiqətdə olduğu yerə uyğun deyildir. Bu ehtimalı təsdiq etmək üçün orta əsrlərdə Bərdə-Ərdəbil yolundakı əsas yaşayış məntəqələri arasındakı məsafəni birinci növbədə öyrənmək lazımdır. Əl-Müqəddəsi[8] və ibn Havqəlin[9] cədvəlləri həmin ticarət yolundakı şəhərlər arasındakı məsafənin eyni olduğunu göstərir. Hər iki müəllifdə Bərzənddən Ərdəbilədək məsafə 2 mənzil və ya 14-15 fərsəx idi. Yolun bu hissəsi bizi hər şeydən çox maraqlandırır, çünki Afşinin komandası altındakı ərəb orduları ilə Babək qoşunları arasında əsas hərbi əməliyyat məhz burada, həmin Bərdə-Ərdəbil yolunda olurdu. İbn Xordadbeh[10] Ərdəbil-Bəzzənd yolundakı yaşayış məntəqələri arasında, habelə Bəzzin üstünə hücum edərkən Afşinin dayandığı ara məntəqələrin məsafəsi haqqında bizə çox mühüm

---

[1] М.Томара. Бабек, стр. 30.

[2] IX-XIII əsrlərdə SSRİ tarixinin xülasələri, səh. 646.

[3] Azərbaycan tarixi, c. I, səh. 118.

[4] БСЭ, т. I, стр. 441.

[5] Azərbaycan Respublikası MEA-nın Tarix İnstitutunun arxivi, inv. № 832.

[6] S.Nəfisi. Sitat gətirilən əsəri, səh. 28-29, 36.

[7] З.И.Ямпольский. Восстание Бабека, стр. 28.

[8] Əl-Müqəddəsi, III, səh. 378.

[9] İbn Havqəl, II, səh. 251.

[10] İbn Xordadbeh, VI, səh. 121.

cədvəl vermişdir. O deyir: "Ərdəbil ilə Babəkin anadan Bəzz şəhəri arasındakı məsafələr belədir:

Ərdəbildən Xuşşa - 8 fərsəx
Xuşşdan Bərzəndə - 6 fərsəx
Bərzənddən Sadaraspa[1] - 2 fərsəx
Sadaraspdan Zəhrkəşə[2] - 2 fərsəx
Zəhrkəşdən Davalruda[3] - 2 fərsəx
Davalruddan Babəkin Bəzz şəhərinə - fərsəx".

Deməli, Ərdəbildən Bəzzə təqribən 21 fərsəx, yəni, təxminən 145-147 kilometr yol var idi: Afşin Bərzənddən hücuma başladı, buradan da Bəzzə 7 fərsəx - təqribən 50 kilometrdir. Lakin ərəb qoşunları Bərzənddən hansı istiqamətdə hücum edirdi? Bəzzi Ərdəbilin şimal-şərqində, cənubunda və hətta cənub-qərbində yerləşdirən tədqiqatçıların demək olar, hamısının nöqteyi-nəzəri bizə aydındır. Lakin bunlar mənbələrdə Bəzz haqqında verilən aşağıdakı məlumata əsla uyğun gəlmir. Mənbələrdə deyilir ki, "Araz, Azərbaycan ilə Arran arasında bir vilayət olan Bəzzin sərhədi boyu axır" [4], "ər-Ras çayı, Azərbaycan, Arran və Beyləqan arasında yerləşən Bəzzeynə, Babək ölkəsinə tərəf axır".

İbn Havqəl deyir ki, Arran vilayətinin şərq sərhədi, Varsan şəhərinin yerləşdiyi ər-Ras çayının aşağı axarından başlanır[5]. Məlum Məlum olduğu kimi, Arranın Azərbaycan ilə sərhədi Araz boyu uzanırdı. Deməli, Bəzz Varsanın qərbində və əlbəttə, indiki Ordubadın şərqində, bu iki nöqtənin arasındakı orta bir yerdə, şimaldan Araz çayı, şərqdən Qarasy çayı, cənubdan Əhər və qərbdən Hacılarçay ilə əhatə olımmuş bir ərazidə, yəni dağ vilayəti

---

[1] Sambur çayı sahilindəki Sadaraspda ərəb qoşunlarının birinci istehkamlar xətti var idi.

[2] Qarasu çayındakı Zəhrkəşdə ərəb qoşunlarının ikinci istehkamlar xətti var idi.

[3] Salançaydakı Davalrudda (Ət-Təbəri: "Kəlanrudda") ərəb istehkamlarının üçüncü, axırıncı xətti var idi.

[4] Əl-Yaqut, I, səh. 529.

[5] İbn Havqəl, II, səh. 237.

Qaradağda idi. Burada, Qırxsu-Peyvançay hövzəsində, hündürlüyü 2 kilometr və daha yüksək olan böyük dağlıq sabə vardır (Dairbaşı, Saqram, Suracartəpə, Qabaqtəpə, Sal və digər dağlar). Bu dağların başında bir çox xarabalar, o cümlədən bir neçə dağılmış qala vardır. Biz bu fikirdəyik ki, bu xərabələrdən hansı isə biri vaxtilə Bəzz imiş. Bunda heç bir şübhə ola bilməz, çünki Həştadsər dağı da daxil olmaqla bütün əlavə təfərrüat bunu göstərir ki, istər Bəzz, istərsə "Babək ölkəsi" olan Bəzzeyn məhz Ərdəbilin şimal-qərbində idi. E.Rayt belə güman edir ki, Bəzz "Ərdəbilin 90 mil [145 kilometr] şimal-qərbində Pul-e Xudafərin adlanan yeni körpünün və kiçik şəhərin yaxınlığında olmalıdır"[1].

Beləliklə, biz, qala şəhəri Bəzzin bu yerdə harada olduğu barəsindəki mühakiməmizdə tək deyilik. Həmin variant ilə razı olan V.F.Minorski yazır ki, Bəzz dağlıq yer olan Qaracadaqda idi[2].

Əl-Məsudi Bəzzin olduğu yeri daha dürüst müəyyən etmişdir: "Araz, Azərbaycanda Babək əl-Xürrəminin vətəni Bəzzeyn ölkəsi ilə Arran ölkəsinin bir hissəsi olan Əbu Musa dağı arasından axır"[3]. N.Karaulov həmin Əbu Musa dağından bəhs edərkən yazır ki, "müəllifin hansı dağı belə adlandırdığını demək çətindir"[4], lakin Əbu Musa məhz Beyləqan (Arran vilayəti) hökmdarıdır ki, erməni müəllifləri onu knyaz Yesai Əbu Musa[5], ərəb mənbələri isə Əbu Musa ibn Yusif ibn uxt İstifanus adlandırırlar[6].

Əbu Musa dağı adlanan yer, yəqin ki, indiki Füzuli rayonunun Xələfli kəndi yaxınlığında Arazın Muğan düzünə çıxan

---

[1] Sitat gətirilən əsəri, səh. 46, qeyd 9.

[2] V.Minorsky. Caucasica, IV, p. 505.

[3] Əl-Məsudi, II, səh. 75.

[4] N.Karaulov. Sitat gətirilən əsəri, səh, 77, qeyd 132.

[5] Histoire des Ardzroui, p. 145-150; Т.И.Тер-Григорян. К вопросу об “Истории страны Албанской…”, стр. 35; yenə onun nəşr edilməmiş səhifələr, səh. 19; М.М.Альтман. О времени возникновения Гянджи, стр. 83; C.J.F.Dowsett, p. 161.

[6] Ət-Təbəri, III, səh. 1228; İbn əl-Əsirdə belədir (VI, səh. 336): "İsa ibn Yunis ibn İstifanus”.

yerdə, onun sol sahilindəki Diridağdır. Bu yer - Arazın Muğana çıxdığı yerdir.

Orta əsr müəllifləri bildirirlər ki, Afşinlə Babək arasındakı bütün müharibələr Həştadsər dağı, Darvaz, Rud ər-Rud tərəflərində və Bəzzin özündə gedirdi. Salannayın başlanğıcı olan Həştadsər dağı yaxınlığında, 835/6-cı ildə Babək ilə Böyük Buğa (Buğa əl-Kəbir) arasında böyük vuruşma olmuşdur. Həmin dağın ətəyində eyni adlı kənddə Buğa əl-Kəbir mühasirə olunub darmadağın edildi.

Babəkin sərkərdələrindən biri olan Tərxan ondan xahiş etdi ki, 836-cı ilin qışını öz kəndində keçirməyə ona icazə versin. Babək Tarxanı buraxdı, o da Həştadsər yaxınlığındakı öz kəndinə getdi[1].

Təbəri bildirir ki, ərəb sərkərdələri üç tərəfdən: Afşin Bərzənddən, Əbu Səid Xuşşdan və Böyük Buğa Həştadsərdən hərəkət edib Darvazda[2] birləşdilər. Babək ilə döyüşə girdilər.

837-ci ilin yazında Afşin Bərzənddən hərəkət edib, qoşunu Bəzzin yanından axan Kəlanrud çayına tərəf yeritdi [3] və onun sahilində səngərə girməyə əmr etdi. Burada Afşin eşitdi ki, Babəkin başqa bir sərkərdəsi Adin öz ailəsini Rud ər-Rud kəndi üzərində yüksələn dağa köçürmüşdür; məlum olduğu kimi bu yerdən Bərzəndə 6 fərsəx və Bəzzə bir fərsəx yoldur. Afşinin əsgərləri səngərlərdən eyni adlı çayın sahilinə[4] yalnız bir gecədə çatdılar. Çaya Çaya çatan kimi Afşin əmr etdi ki, burada yeni və dördüncü səngər xətti qazılsın.

---

[1] Ət-Təbəri, III, səh. 1193-1194.

[2] Ət-Təbəri, II. səh. 1187; əl-İmrani Əbu Tammamın şeirleri əsasında belə güman edir ki, Darvaz Azərbaycan sərhədlərində bir yerdir. ƏI-Yaqut, IV, səh. 320.

[3] Əl-Yaqut. IV, səh. 297. Ehtimal, o zaman Qırxsu-Peyvançay bu adla məşhur idi.

[4] Ət-Təbəri, III, səh. 1195, 1203. Ehtimal Lekənçaydır.

## 4. Xürrəmilərin üsyanı və onun inkişafı

Babək Bəzzdə xürrəmilər icmasının rəhbərliyini qəbul edən zaman, onun tərəfdarlarının sayı nisbətən çox deyildi. Bir mənbədə bildirilir ki, Babək onlara qılınc və xəncər payladı və əmr etdi ki, öz kəndlərinə gedib çıxış üçün onun xəbərdarlıq işarəsini gözləsinlər[1]. Xəbərdarlıq işarəsi veriləndə, Babəkin ardıcılları kəndlərdə ərəblərin və onların ətrafındakı adamların üstünə atıldılar və hamısını qırdılar. Bundan sonra Babək öz adamlarını Bəzzdən uzaq mahallara göndərdi, orada da bütün ərəblər və onların yerli əhalidən olan tərəfdarları məhv edildi. İbn ən-Nədim yazır ki, Babəkdən əvvəl "xürrəmilərin dini etiqadında qətl, əzab və müharibə yox idi, xürrəmilər bütün bunların nə olduğunu bilmirdilər" [2] . Babək xürrəmilərə başçılıq edərək, onun tərəfdarlarının sayı artan kimi, üsyançıların qarşısında duran məqsədlərə uyğun olaraq, icmanın quruluşunda böyük dəyişiklik əmələ gəldi. Azərbaycan və Arranın hər tərəfindən ərəblərdən narazı olan kəndlilər kütlə halında Babəkin yanına gəlməyə başladılar, "onun qoşun dəstələrinin sayı o qədər artmışdı ki, piyada hesaba alınmadan təkcə atlılar 20 min nəfər idi"[3]. Babək öz qoşununda möhkəm intizam yaratmalı oldu və onu başlıca məqsədə - Azərbaycanda, sonra da digər vilayətlərdə ərəb hakimiyyətini məhv etməyə tabe etdi.

Əbu Hənifə Dinəvəri Babəkin rəhbərliyi ilə xürrəmilər üsyanının başlanması haqqında belə məlumat verir: "Babək [Xilafətdə] baş verən fasiləsiz qarışıqlıq və çətinliklər dövründə meydana çıxdı [4] . O öz işinə Bəzzdə onu əhatə edən adamları öldürməklə başladı, öz dövrəsindəki yer və kəndləri dağıtdı ki, ölkəni ələ keçirsin, [ərəblər tərəfindən] həm özünün, həm də ona

---

[1] Mütəhhər əl-Müqəddəsi, səh. 115.

[2] Əl-Fihrist, səh.480.

[3] Mütəhhər əl-Müqəddəsi, səh. 115-116; İbn əl-İbri. Əl-Müxtəsər ət-tarix əd-düvəl, əl-Qahirə, 1353 h., səh. 240.

[4] Harun ər-Rəşidin iki oğlu Əmin və Məmun arasında xilafət taxtı üstündəki daxili müharibələr nəzərdə tutulur.

yaxınlaşma yollarnıın təqib olunmasını çətinləşdirsin. Onun qüdrəti doğrudan da artdı və hərəkatı böyük vüsət aldı"[1].

Babək xürrəmilər qarşısında ərəbləri qovmaq, islam dinini məhv etmək[2] vəzifəsini qoyduqdan sonra öz ardıcıllarına elan etdi ki, bu vəzifəni yerinə yetirməyi Cavidan ona vəsiyyət etmişdir; guya Cavidan demişdir: "Babək sizin üçün elə yüksəkliyə çatacaqdır ki, ona qədər heç kəs buna çatmamış, ondan sonra da çatmayacaqdır. O, [Babək] torpaqları ələ keçirəcək və zalımı məhv edəcəkdir. Həqarət çəkənlər ona hörmət edəcək və əsilzadə olmayanlar onu yüksəldəcəklər"[3].

Azərbaycan ərəblərdən azad edildikdən sonra üsyan digər vilayətlərə sirayət etdi. Bu vilayətlərin əhalisi üsyan etmiş xürrəmilərin nə kimi qələbələr qazandığını görürdü. Babəkin təbliğatçıları və agentləri isə öz işlərini çox yaxşı bilirdilər və xüsusilə dağlıq vilayətlərdə böyük müvəffəqiyyət qazanırdılar. Məsudi bildirir ki, "Babək əl-Xürrəminin işi ər-Ran ölkəsindəki Beyləqanda yayılmışdır və həmin ölkədə onun qoşunu çoxalmışdır. O öz qoşunlarını o şəhərlərə tərəf göndərmiş və onları hər tərəfə yola salmışdır"[4]. Üsyan habelə Ermənistan, Xorasan və s. vilayətlərə sirayət etdi[5]. Az sonra Cibal, Həmədan, İsfahan, Masabzan və digər şəhərlərin əhalisi üsyançıların tərəfinə keçdi. Onların əhalisi

---

[1] Əd-Dinəvəri, səh. 397.

[2] İbn Cövzi, V, səh. 1 10; əI-Məqrizi, 1, səh. 190-191 və s. Bunu, tədqiq edilən dövrdə Xilafət tarixinin bütün tədqiqatçıları etiraf edirlər. Lakin ərəb tarixçisi Bəndəli Cövzi islamda ideoloji hərəkat adlı əsərində nədənsə belə qət etmişdir ki, "onların (xürrəmilərin - *Z.B.)* məqsədi islama müqavimət göstərmək və onu məhv etmək deyilldi. Əcəmlər ölkəsində daha əvvəlki üsyanların çoxunda olduğu kimi, burada da məqsəd istilaçı bir millət olan ərəblərə müqavimət göstərmək idi. Bu hərəkat o zamanlar Abbasilər dövlətində yaşayan bütün xalqların və hətta ərəb millətinin aşağı təbəqələrinin iqtisadi qaydalar uğrunda etdiyi müharibə idi. Belə bəyanatın birtərəfli olduğu aydın görünür, odur ki, biz də bu bəyanatın müəllifi ilə mübahisəyə girişməyəcəyik. B a x: Bəndəli Cövzi. Min tarix əl-hərəkat əl-fikriyyə fı-l-İslam, əl-Qüds, 1938, səh. 68.

[3] Əl-Fihrist, səh. 482.

[4] Əl-Məsudi. Muruc, səh. 123.

[5] Əl-Məsudi. Tənbeh, səh. 306.

"Həmədan vilayətində toplanır və silahlanırdı" [1]. Məsudinin məlumatına görə, Babək "onun işi adamların ürəyində çox yer tutan vaxt"[2] Taif ibn Əlini Xorasan şəhərlərinin başçısı təyin etdi. Sonra üsyan Təbəristan və Corcanı bürüdü, burada, "mühəmmirə dinini qəbul etmiş" [3] Məzyərin ardıcılları olan məzyəriyyə təriqəti iş görürdü. Deyləm əyaləti əhalisinin çox hissəsi xürrəmilərə qoşuldu[4]. Bağdadinin məlumatına görə, təkcə Azərbaycanda və Deyləmdə Babək tərəfdarlarının ümumi sayı 300 min nəfər idi[5].

Həmçinin "dağlıq vilayətlərin kürdləri"[6] və bir sıra maliklər Babəkin müttəfiqi oldular, bunlardan biri olan Məhəmməd ibn əl-Bəis Təbrizdəki və Şahi adasındakı (Urmiya gölü) qalalarını hərbi səfər və vuruşmalar zamanı Babəkin ixtiyarına verdi[7]. Xilafətin bəzi görkəmli xadimləri (hakimləri) və əmirləri də özlərinə tabe olanlarla birlikdə ərəblərə qarşı üsyanlarda iştirak etdilər. Bunların arasında Təbəristan hakimi Məzyər də var idi; Babək onunla yazışır və hər vasitə ilə onu şirnikləndirirdi. Həmçinin Mingicavr əl-Fərqani də Babək tərəfdarlarının köməyindən faydalanırdı[8]. Afşini Babəkə kömək etməkdə təqsirləndirirdilər, ərəblər onu Babəklə əlbir hesab edirdilər[9]. Mərənd məliki İsma əl-Kürdi və bununla birlikdə bəzi kürd əmirləri siyasi mülahizələrə görə Babəkə qoşuldular [10]. Xilafətdən ayrılmış Ermənistan hakimi Xatim ibn Xarsama Babəklə yazışırdı. Bir mənbənin verdiyi məlumata görə, o, "Babək və xürrəmilərlə yazışmağa girişdi, onları inandırırdı ki, burada [Arranda] müsəlmanların öhdəsindən asanlıqla gəlmək olar. Bu,

---

[1] İbn əl-İbri, səh. 241.

[2] Əl-Məsudi. Tənbeh, səh. 306.

[3] Əl-Bağdadi, səh. 252.

[4] Yenə orada, səh. 263.

[5] Yenə orada, səh. 268.

[6] Yenə orada, səh. 266.

[7] Ət-Təbəri, III, səh. 1171; əl-Bəlazuri, səh. 331; əl-Yaqut, V. səh. 822.

[8] Əl-Yəqubi, III, səh. 201.

[9] Əl-Bağdadi, səh. 368; İbn Cövzi, V, səh. 111.

[10] Əl-Yəqubi, II, səh. 577.

Babək və xürrəmilərin hərəkatına səbəb oldu. Babək də Azərbaycan vilayətində qələbələr qazandı"[1].

Xürrəmilər üsyanının bürüdüyü bütün vilayətlərdə Babək öz ardıcıllarına əmr edirdi ki, "[ərəblərin] mülk və malikanələrinə hücum etsinlər və onların əmlakını ələ keçirsinlər"[2].

Üsyançıların böyük müvəffəqiyyətləri və Xilafətin geniş ərazisini tutmaları xəlifə Məmunu məcbur etdi ki, qarşıda duran təhlükəyə ciddi fikir versin. 819-cu ilədək xəlifə qoşunlarının xürrəmilərlə böyük vuruşmaları olmayıb, iş yalnız yerli toqquşmalarla məhdud olurdusa, 819-cu ildə xəlifə Yəhya ibn Müaz ibn Müslimin başçılığı ilə Babəkə qarşı ilk nizami ordu göndərdi. Baş verən vuruşmada tərəflərdən heç biri məğlub edilmədi[3]. Sonrakı vuruşmalarda da gah bu, gah da müqabil tərəf müvəffəqiyyət qazanırdı[4].

820-ci ildə Məmun Yəhya ibn Müazı ordu başçısı vəzifəsindən götürdü və İsa ibn Məhəmməd ibn Əbu Xalidi Ermənistan və Azərbaycana hakim və ordu başçısı təyin edərək, ona əmr etdi ki, qoşunları öz hesabına silahlandırsın və ərzaqla təchiz etsin. O, Babəklə müharibə üçün [ordu] toplayaraq 821/2-ci ildə [bir] dərə ilə hərəkət etdi; burada Babək onun qabağına çıxdı və onu qaçmağa vadar etdi. İsa da dalına baxmadan hey qaçırdı, nəhayət, zarafatçı bir əsgər onu səsləyib dedi: "Ey Əbu Musa, hara belə?" O, cavabındında dedi: "Onlarla [xürrəmilərlə] müharibədə bizim işimiz gətirmir, biz [ancaq] müsəlmanları qorxuda bilərik"[5].

Xürrəmilərin qələbəsi Məmunu məcbur etdi ki, yeni ordu başçısını təyin etsin. 823/4-cü ildə Züreyq ibn Əli ibn Sədəqə əl - Əzdi ordu başçısı oldu. Ona kömək olaraq Əhməd ibn Cüneyd əl-Əskafinin başçılığı ilə qoşun dəstələri göndərildi, lakin Babək əl-

---

1 Yenə orada, səh. 563.

2 Ət-Təbəri, III, səh. 1173-1174.

3 Ət-Təbəri, III, səh. 1039; İbn əl-Əsir, VI, səh. 130; İbn Təqriberdi, I; səh. 458.

4 Əl-Yəqubi, II, səh. 563.

5 Əl-Yəqubi, II, səh. 564; ət-Təbəri, III, səh. 1041; Ibn Miskəveyh, VII, səh. 450; İbn əl-Əsir, VI, səh. 140; İbn Təqriberdi, I, səh. 590-591.

Əskafini əsir aldı. Züreyq isə xürrəmilərə heç bir şey edə bilmədi[1]. Məmun Züreyqi qoşun komandanlığından kənar etdi və onun yerinə Məhəmməd ibn Hümeyd əl-Tusini təyin etdi. O isə xürrəmilərlə müharibəyə girişməzdən əvvəl, Züreyqi əzməli oldu, çünki o, xəlifənin qərarından narazı olub üsyan etmişdi. Məhəmməd ibn Hümeyd Züreyqi və "təhlükəli ola biləcək" adamların hamısını sakitləşdirdikdən sonra, Babəklə müharibəyə ciddi surətdə hazırlaşmağa başladı[2]. Məhəmməd 827-ci ildə onunla müharibəyə girişdi və iki il ərzində davam edən vuruşmalarda[3] müvəffəqiyyət həmişə onun tərəfində idi. Nəhayət, 829-cu il iyunun 3-də Həştadsər dağında ərəblərlə xürrəmilər arasında əsas vuruşma olmuşdur. Ərəblərin vəzifəsi xürrəmilərin qalası Bəzzi ələ keçirmək idi. Ət-Tusi öz ordusunun mərkəzinə Məhəmməd ibn Yusif ibn Əbd ər-Rəhman ət-Taini başçı təyin etdi, ordunun sağ cinahında isə Abbas ibn Əbd ül-Cəbbar ət-Təktinini qoydu. Lakin Babək ət-Tusinin qoşunları üçün pusqu düzəltdi, qanlı vuruşmadan sonra ərəblər məğlub edilib qaçmağa başladılar. Məhəmməd ət-Tusinin özü öldürüldü.[4] Vardan məhz Məhəmməd ət-Tusi ilə Babək arasındakı vuruşmanı nəzərdə tutaraq deyir ki, "bir vuruşmada o [Babək] 30 minə qədər İsmayıl övladını [ərəbləri] qırdı"[5].

"Ağvan tarixi"nin rusca tərcüməsində deyilir: "İki ildən sonra [829-cu ildə] Baban [Babək] Tavusini dağıtdı və 150 min [adamı] qovdu"[6]. Ç.Dovsett "Ağvan tarixi"nin bir sıra əlyazmasında tapmışdır ki, Tavusin (Tosin) Tosi şəklində oxunmalıdır, yəni burada Tavusin adlı bir yaşayış məntəqəsinin Babək tərəfindən

---

[1] Əl-Yəqubi, II, səh. 564; Ət-Təbəri, III, səh. 1072, 1233; İbn əl-Əsir, VI, səh. 143.

[2] Əl-Yəqubi, II, səh. 565; İbn Təqriberdi, I, səh. 628.

[3] Ət-Təbəri, III, səh. 1099; İbn əl-Əsir, VI, səh. 150; Siyasətnamə, səh. 225. "Məhəmməd İbn Həmid ət-Tai". Yenə burada deyilir ki, altı vuruşma olmuşdur.

[4] Əl-Yəqubi, II, səh. 565; ət-Təbəri, III, səh. 1101; İbn Miskəveyh, VII, səh. 463, Siyasətnamə, səh. 225; İbn Xallikan, I, səh. 365, qeyd 6.

[5] Vardan, səh. 101.

[6] История Агван, стр. 268, 215.

dağıdılmasından deyil, Məhəmməd ət-Tusi və onun 150 minlik ordusunun xürrəmilər tərəfindən darmadağın edilməsindən bəhs edilir[1].

Xəlifə Məmun Məhəmməd ət-Tusinin həlak olmasından çox qəmgin olmuşdu, çünki o, çox bacarıqlı sərkərdə idi. Az sonra ərəb qoşunlarının komandanı İbrahim ibn əl-Leys ibn əl-Fəzl oldu[2], onu da Babək sonrakı [829/30] ildə məğlub etdi"[3].

Ərəb qoşunları bir də darmadağın ediləndən sonra, xəlifə Məmun qətiyyətli Abdullah ibn Tahiri ordu başçısı təyin etdi[4], lakin o, Babəklə vuruşmalı olmadı, çünki qardaşı öləndən sonra irsi olaraq Xorasan hakimi vəzifəsini tutmalı idi[5].

Həmin 829/30-cu ildə Məmun Azərbaycan, Cibal və İsfahana Əli ibn Hişamı hakim təyin edərək, onu xürrəmilərə qarşı vuruşmağa göndərdi. Lakin ibn Hişam əyalətlərdə özbaşınalıq etməyə və xalqı sıxışdırmağa başladığına görə xəlifə onu sakitləşdirmək üçün Yəmən hakimi Uceyf ibn Ənbası göndərdi. Bunu xəbər alan Əli ibn Hişam Uceyfə hücum edib onu öldürmək və Babəkin tərəfinə qaçmaq istədi, lakin tutuldu və 830/1-ci üdə Bağdadda edam edildi[6].

Dinəvəri bildirir ki, bu zaman "Babəkin işi böyük vüsət aldı və adamlar (ərəblər - 2.5.) ondan qorxmağa başladılar. Onunla vuruşurdular, lakin ona qalib gələ bilmədilər. Babək onları dağıdır və onların sərkərdələrini öldürürdü"[7]. Xürrəmilərin Xilafət qoşunlarını

---

[1] V.Minorsky. Caucasica, IV. p. 509, n.4.

[2] Ət-Təbəri, III, 1072; İbn əl-Əsir (VI, səh. 143,176) İbrahimi Züreyqden sonra və Məhəmməd ət-Tusidən əvvəl göstərir.

[3] История Агван, 268/215.K.Patkanovun tərcüməsində: "Get oğlu İbrahim" oxunmalıdır: “Let oğlu İbrahim”, yəni İbrahim ibn əl-Leys.

[4] E. Rayt (Sitat getirilən əsəri, səh. 50) bu hadisə üçün yanlış olaraq 822-823-cü il tarixini göstərir.

[5] Ət-Təbəri, III, səh. 1102, əl-Yəqubi, II, səh. 565; İbn əl-Əsir, VI, səh. 152.

[6] Ət-Təbəri, III, səh. 1105, 1107-1109; İbn əl-Əsir (VI, səh. 155) hadisənin tarixini yanlış göstərir.

[7] Əd-Dinəvəri, səh. 397; Ibn əl-Ibri, səh. 240.

qibtə ediləcək bir ardıcıllıqla darmadağın etməsi Abbasilər dövlətinin hakim dairələrini çaşqınlığa saldı.

Xristian dininin məşhur müdafiəçisi Yəqub ibn İshaq əl-Kindi o zaman xəlifə Məmunun sarayında idi, müsəlman ilahiyyatçıları onu Bağdada dəvət etmişdilər ki, islam dininin xristialıqdan üstün olduğunu ona isbat etsinlər. İlahiyyatçılar əl-Kindiyə deyirdilər ki, ərəblərin bütün qələbə və istilaları bunu göstərir ki, Allah kafirlərlə müharibə məsələlərində islam ehkamlarını bəyənir. Lakin Babəkin xəlifə ordularını bir çox məğlubiyyətə düçar etməsi, xristianlığı müdafiə etmək işində əl-Kindinin əlində bir növ əsas oldu. Əl-Kindi ərəblərin ilk müharibələrindəki qarət və talanları xürrəmilərin Xilafət ordularına qarşı müharibəsi ilə müqayisə edərək dedi: "Bu müharibə bizim ağamız və hökmdarımız Əmir əl-Möminin üçün çox təhlükə və narahatlıqlar doğurmuşdur"[1].

Əl-Kindi Bağdad ilahiyyatçılarına dedi ki, əgər Allahın qələbələri bəyəndiyi sübutu doğrudursa, onda ən inandırıcı budur ki, Allah Babəkə kömək edir, çünki Babək Abbasi xəlifələrinin ona qarşı göndərdiyi bütün ordular üzərində qələbə çalır. Əl-Kindi deyirdi: "İndi özün mühakimə et, [Məhəmməd] peyğəmbərin qarət və qənimətlərə nə marağı var idi? Nə səbəbə o, yollardakı quldurluğa bənzər basqın və hücumları dayandırmadı? Mənə de gorüm, sənin ağanla [Məhəmmədinlə], üsyanı bizim ağamız Əmir əI-Möminini bu qədər kədərləndirən və bəşəriyyətə böyük fəlakət gətirən Babək əl-Xürrəmi arasında nə fərq vardır? Mən yaxşı bilirəm ki, sən buna cavab verə bilməzsən"[2].

Məlum olduğu kimi, Arranda əhalisi xristian olan Sünik, Şəki, Beyləqan, Arsax və digər vilayətlər ərazisində xürrəmilərin hərəkətləri bir qədər fərqli idi. Görünür, bu vilayətlərə Xürrəmi qoşunu təqribən 820-ci ildə, yəni ərəb canişinləri və vergiyığanların sıxışdırdığı yerli maliklər kömək üçün Babəkə müraciət etməyə məcbur olandan sonra gəlmişdi. Bu zaman, Arrana köçüb burada

---

[1] The Apology of al-Kindy written at the Court of Mamun in defense of christianity against Islam. London, 1887, p. 25.

[2] Yenə orada, səh. 47

möhkəm məskən salan bir çox ərəb feodalları Xilafət taxtı üstündə gedən daxili müharibədən və Xilafətin paytaxtından ucqarlara gedən yolları geniş əməliyyat nəticəsində kəsmiş olan xürrəmi üsyanının olduqca böyük müvəffəqiyyətlərindən istifadə edərək, ayrılma meyilləri göstərməyə başlamışdılar. Xilafətdən ayrılıb mərkəzi hakimiyyətin sərəncamlarına etina etməyən bu feodallar Arran vilayətlərində özbaşınalıq etməyə və özlərinə tabe olan tayfa dəstələri vasitəsi ilə qonşu xristian knyazlıqlara basqınlar edirdilər.

Belə mütəğəlliblər sırasında Səvada ibn Əbd ül-Həmid əl-Cəhhafi də var idi[1]. Tarixçinin verdiyi məlumata görə, "həmin [821/2] ildə dağıdıcı tacik [ərəb] Səvada, Ermənistanda Avaranşan [“qarətçi”] adı ilə məşhur olan bu adam basqınlar edərək bütün ölkəni qarət etdi, qayıdıb Sünikə getdi və Squk vilayətindəki Şalatu kəndi-qalasında möhkəmləndi. Sünik nəslinin böyüyü hökmdar Vasak Babanı yanma çağırdı, "o da gəlib [Səvadanı] əzdi, qaçqın saldı"[2].Vasak həmin il öldü. Babək onun qızı ilə evləndi və həmin ildən Sünik xürrəmilərin hakimiyyəti altına keçdi. Babəkin qoşunu Sünikdən sonra Beyləqan, Arsax və Uti vilayətlərini tutdu[3].

Qeyd etdiyimiz kimi, beyləqanlılar və ya pavlikianlar Babəkin hökmdarlığına tabe olmadılar, ya da ola bilər, öz üzərlərinə qoyulan bacın ağırlığına tab gətirməyib, 826-cı ildə Babəkin əleyhinə üsyan qaldırdılar. Albaniya knyazı Stepannos Ablasad Babəki Azərbaycandan çağırdı, o da Beyləqan vilayətinə girib üsyanı yatırtdı[4]. Babəkin qoşunu 827-ci ildə Geqarkuni (Qərbi Sünik) vilayətini tutdu. Həm də 15 min adam qırdı[5]. Lakin beyləqanlılar 830-cu ildən bir az əvvəl, yenidən üsyan qaldırıb, Bercor vilayətinə

---

[1] Əl-Yəqubi II, səh. 564-566. Səvad haqqında b a x: İohann Katolikos, səh. 64-65.

[2] История Агван, стр.267/214; müq. et: A.İoannisyan. Sitat gət. əsəri, стр.358.

[3] Əl-Məsudi. Muruc, səh. 123.

[4] История Агван, стр. 267/214-215.

[5] Yenə orada, səh. 267/214; Всеобщая история Вардана Великого, стр.101.

hücum etdilər. Ureas, Karnakaş, Xakari və Tapat kəndlərini tutdular. Stepannos Ablasad təkrar Babəkə müraciət edib kömək istədi, xürrəmilər də gəlib üsyançıları darmadağın etdilər. 830/1-ci ildə beyləqanlıların rəhbərləri olan Davon və Şapux Babəkin müttəfiqi knyaz Ablasadı öldürdülər. Beyləqanlılar üçüncü dəfə üsyan qaldırdılar və bir mənbədə göstərildiyinə görə, Qoroz qalasında möhkəmləndilər[1].Üsyançılar Arranın aşağıdakı vilayətlərini bir il ərzində öz əllərində saxladılar: Yuxarı Vaykunik, Bercor, Sisakan (və Kotak), (Mivs) Xaband, Amaras, Pazkank, Arsaxda Mxank və Utidə Tri vilayət[2].

Öldürülən Ablasadın yerinə onun bacısı oğlu Yesai Əbu Musa Beyləqan vilayətinin hökmdarı oldu[3]. O, Babəkin qoşunlarını köməyə çağırdı və onların yardımı ilə "həmin vilayətləri ələ keçirdi və hamıya hökmranlıq etdi"[4]. Yesai Əbu Musanın adamları knyaz Ablasadın qatilləri Davon və Şapuxu yaxalayıb əzabla öldürdülər.

Mənbədən göründüyünə görə, Qoroz qalası üsyan etmiş beyləqanlıların əlində qalmışdı. Babəkin ordusu bu qalanı almaq üçün Arazdan keçib Amaras vilayətində düşərgə saldı. Qalanın alınmaz olduğunu və üsyançıların qətiyyətini görən Babək, üsyanı yatırtmaq üçün əvvəlcə işlətdiyi fürsətdən fərqli olaraq, üsyançıları təslim olmaq üçün dilə tutmağa başladı. "O, sülhdən danışmağa başlayıb çalışırdı ki, onları öz hakimiyyətinə tabe etsin. Bir çoxları

---

[1] Yəqin, indiki Qorisdir (Gorus). T.Arsruni (III, səh. 70, 186) Qorozun, "uca bir yer olduğunu (Barjrawandak teil) qeyd edib deyir (səh. 187) ki, Qoroz "K.tiş dağına yaxın" yerdədir. K.tiş və Qoroz Azərbaycan Respublikasında, Dağlıq Qarabağın Xocavənd rayonundadır.

[2] История Агван, стр. 268, 215.

[3] Ərəbcə "İsa ibn uxt İstifanus", yəni "İstifanusun (Stepannos Ablasadın) bacısı oğlu İsa". Bu qohumluğun aydın olmasına baxmayaraq, Q.Kurdian (Papak e Sahl ibn Sumbat, səh. 34) deyir: "Bu "uxt" adının mənşəyi və mənası nə deməkdir? Təəssüf ki,mən heç bir qeyd əlavə edə bilmirəm". Knyazın adını başa düşməyən və yəqin ərəb dilini bilməyən Q.Kurdian belə güman edir ki, ərəbcə "Uxt ("bacı") Uxtanes adının bir hissəsidir ki, onun kitabında bu ad "Uxt Anes-Yeanus" şəklini almışdır.

[4] История Агван, стр. 268/215,

bir müddət üçün tövbə edib ona tabe oldular, lakin sonradan aldadılmış olduğunu görərək yenidən qiyam qaldırdılar"[1].

Babək şəhərin təslim olmasına müvəffəq olmadığından öz paytaxtına qayıtdı, qalanın yanında isə öz sərkərdələrindən Rostomu qoyub "ona əmr etdi ki, qaladakılarla vuruşmasın, onları xoşluqla itaətə cəlb etsin. Lakin Rostom Babəkin tapşırığına fikir verməyib, qalada möhkəm yer tutanlarla müharibə etməyə başladı. O zaman qalanın kişiləri İsanın gücünə pənah gətirərək, xaç və müqəddəslərin qurumuş sümüklərini qabaqlarında tutaraq Babəkin ordusunu məğlubiyyətə uğratdılar"[2].

Görünür, Babək Arran vilayətlərində qan tökülməsini davam etdirmək istəmirdi, çünki o öz arxasını təmin etmək fıkrində idi. Məhz buna görə o "sülhdən danışmağa başlamışdı". Yəqin məhz bu zaman Səhl ibn Sumbat və Yesai Əbu Musa ilə Babək arasında əlaqə pozuldu. Nəticədə Babək Arran vilayətlərində öz keçmiş müttəfıqləri içərisindəki dayağını və atlı qoşununun istifadə etdiyi gözəl qışlaqları itirdi. S.T.Yeremyan öz məqalələrindən birində yazır ki, zadəganların Babəkə qarşı münasibətinin dəyişilməsində başlıca rolu "Sünik və Arsax kəndlilərinin narazılığı oynamışdır, çünki onlar Babəki ərzaqla və birinci növbədə taxıl ilə təchiz etməli idilər. Kəndlilərin ehtiyatı qurtaranda, Babək taxılı feodallardan zorla aldı. Ermənilərdən və erməniləşmiş albanlardan ibarət iri zadəganlar Babəkin hərəkətlərindən qəzəblənərək ona qarşı üsyan qaldırdılar... Babəkin arxasında gedən bu mübarizələr nəticəsində onun qüvvəsi zəiflədi ki, bu da 837-ci ildə ərəblərin onu qəti məğlub etməsinə imkan verdi"[3].

Sünik və Arsaxın Babəki taxılla təchiz edən baza olduğu haqqında S.T.Yeremyanın verdiyi məlumatın mənbələrdə təsdiq olunmadığı məsələsinə toxunulmamışdır. Qeyd etməliyik ki, erməni knyazları arasında Babəkin müttəfiqi yox idi. Onun müttəfıqləri

---

[1] Yenə orada.

[2] Yenə orada, səh. 268-269/215-216.

[3] С.Т.Еремян. Борьба армянского народа против арабского халифата, стр. 490.

ancaq Sünik, Arsax, Şəki, Beyləqan və digər vilayətlərin hakimləri olan Alban knyazları idi. A.M.Utmazyan doğru olaraq göstərir ki, bu knyazlar "Babəkin hərəkatında öz sinfi mənafeləri üçün ictimai təhlükə görüb Babəklə əlaqəni kəsir, "günahkar Babəkə" daha tabe olmur, onun "qanunlarını və əmrlərini" yerinə yetirmirlər"[1].

Bir tərəfdən xürrəmilər üsyanının müvəffəqiyyətləri, digər tərəfdən Xilafətin özündə Məmunun qarşılaşdığı daimi daxili çəkişmələr onunla nəticələnmişdi ki, Abbasilər Xilafəti öz varlığı üçün təhlükəli zaman keçirirdi. Cəzirədə Nəsr ibn Şəbsin, Suriyada ərəb tayfalarının, Misirdə Abdullah əs-Surinin (820-826), Misirdə 829-cu ildə yəmənilər və qeysilərin üsyanları, habelə Bizans ilə daimi müharibələr xəlifə Məmundan ağır xərc və böyük ordu tələb edirdi. Məmun bütün iyirmi illik hökmranlığı ərzində Xilafətdə yalnız çoxlu üsyanları yatırmalı olmuşdu. O, üsyanların öhdəsindən gələ bilmiş olsa da, öz hökmranlığının axırlarında çox böyük bir ərazi tutan xürrəmilərə qarşı heç bir iş görə bilmədi. Məmun ölən ildə xürrəmilərin üsyanı daha böyük bir qüvvə ilə qızışdı. Nizam ül-Mülkün verdiyi məlumata görə, üsyan İsfahan, Fars vilayətlərini və bütün Kuhistanı bürüdü. Məmunun Bizans ilə müharibəyə başı qarışmasından istifadə edən üsyançılar "bir gecə vaxt təyin etdilər. Hazırlaşıb bütün mahal və vilayətlərdə üsyan qaldırdılar. Şəhərləri taladılar. Farsda çoxlu müsəlman qırdılar, arvad və uşaqları əsir apardılar. İsfahanda onların başçısı Əli ibn Məzdəkan adlı birisi idi. O şəhər darvazasında iyirmi min nəfərlik silahlı qüvvəni gözdən keçirtdi və qardaşı ilə birlikdə Kuha getdi. Əli Kuhu tutdu, qarət etdi, əlinə keçən müsəlmanı öldürdü... Qayıtdıqdan sonra o, Babəklə birləşmək üçün Azərbaycana getdi. Hər tərəfdən xürrəmidinlilər Babəkin yanına gedirdilər"[2].

Xəlifə Məmun 833-cü il avqustun 7-də öldü, öz qardaşı Mötəsimi (Əbu İshaq Məhəmməd ibn Harun ər-Rəşidi) taxta vəliəhd

---

[1] А.М.Утмазян. Сюник в IX-X вв., стр. 4; A.İohannisyan. Sitat gətirilən əsəri, səh. 359-360.

[2] Siyasətnamə, səh. 225.

təyin edərək, ona vəsiyyətnamə qoydu. Bu vəsiyyətnamənin başlıca maddəsi xürrəmilərə qarşı müharibəyə başlıca diqqət vermək sərəncamı idi: "Xürrəmilərə gəlincə, onlara qarşı müharibəyə qətiyyətli və rəhmsiz bir adam göndər, ona səbrlə pul, silah, atlı və piyada qoşunla kömək et. Əgər onların vaxtı (xürrəmilərlə müharibə- *Z.B.)* uzun çəksə, sən özün öz tərəfdarların və yaxın adamların ilə onların üstünə get"[1]. 833-cü il avqustun 10-da Mötəsim xəlifə elan edildi[2].

## 5. Üsyanın son dövrü. Bəzzin süqutu

Yeni xəlifə taxta çıxan kimi birinci növbədə öz sələfinin vəsiyyətinə əməl etməyi qərara aldı. O, xürrəmilərə qarşı müharibəyə ciddi hazırlıq görməyə başladı, zira, görürdü ki, Azərbaycanın və digər əyalətlərin xalq kütlələrinin bu təhlükəli hərəkatı qarşısında daha da zəiflik göstərilsə, Xilafətin öz varlığı üçün ciddi nəticələr doğura bilər. O, bu iş üçün heç bir şeyi əsirgəmədi. Buna görə xürrəmilərə qarşı onun qoşunlarının ilk hücumu müvəffəqiyyətlə nəticələndi.

Ət-Təbərinin verdiyi məlumata görə, 833-cü ildə "Cibalda, Həmədan, İsfahan, Masabzan və Mehricanqazaq şəhərlərində olan çoxlu əhali xürrəmilərin dinini qəbul etdi. Onlar toplandılar və Həmədan tərəfdə düşərgə qurdular. Mötəsim onlara qarşı qoşun göndərdi; onun göndərdiyi axırıncı ordu İshaq ibn İbrahim ibn Müsəbin komandası altında idi ki, onu da (Mötəsim), həmin ilin şəvvalında [oktyabrın 20-si - noyabrın 17-si] Cibala hakim təyin etmişdi. O, zilqədə [ayında] [noyabrın 18-i - dekabrın 17-si] onlara getdi. Onunn [xürrəmilər] üzərində çaldığı qələbə haqqındakı

---

[1] Ət-Təbəri, III, 1163; İbn əl-Əsir, VI, səh. 158.

[2]Ət-Təbəri, III, səh. 1164.

məlumat [Bağdadda] tərviyə günündə[1] [833-cü il dekabrın 25-i] oxundu. O, Həmədan rayonunda [onlardan] 60 min adam qırdı, qalanları Rum ərazisinə qaçdılar[2].

M.Siriyets, məğlub edilən xürrəmilərin qalan hissəsinin Bizans ərazisinə qaçdığı haqqında belə deyir: "Həmin [833] ildə Babək tərəfdarlarının böyük bir hissəsi iranlıların (ərəblərin - *Z.B.}* müharibəsindən cana gələrək baş komandan Nəsr ilə birlikdə Rum padşahı Feofili axtarmağa getdi və xristianlığı qəbul etdi"[3]. İbn əl-İbri həmin variantı daha qısa şəkildə verir; "onun [Babəkin] sərkərdəsi Nəsr öz həmqəbilələrindən bir çoxu ilə Feofilin yanına qaçdılar və xristian oldular[4].

Həmədan vuruşmasından sonra Bizansa gedən xürrəmilərin taleyi haqqında müxtəlif məlumat vardır. Bizans tarixçilərinin istinad etdikləri orta əsr yunan müəllifləri bildirirlər ki, qaçıb Bizansa sığınan xürrəmilər qrupu 14 min nəfərdən ibarət idi və onlara əsli iranlı olan Feofob adlı birisi başçılıq edirdi. İmperator Feofil onları femlerdə yerləşdirib turma adlanan ayrı-ayrı dəstələrə böldü; həmin dəstələr Ərəb xilafətinin qoşunlarına qarşı hərbi əməliyyatda fəal iştirak edirdilər[5].

---

[1] Həmin gün zəvvarlar Məkkədən Minaya gedirlər.

[2] Ət-Təbəri, III, səh. 1165. O biri səhifədə isə ət-Təbəri deyir ki, İshaq ibn İbrahim bu vuruşmada 100 minə yaxın adam qırdı, qadın və uşaqlar bu besaba daxil deyildir. Habelə b a x: İbn əl-İbri, səh. 241; İbn əl-Əsir, VI, səh. 311-312; M.Siriyets (səh. 529) bu vuruşma üçün iki il sonrakı tarixi göstərir (835-ci il) və deyir ki, İshaq "onlardan beş minə yaxın öldürdü"; Nizam əl-Mülk (səh. 225-226) bildirir ki, İshaq 100 min xürrəmini məhv etdi. M.Tomara (Бабек, стр. 110) deyir: "50 min". Əl-Məkin, səh. 141.

[3] M.Siriyets, səh. 531.

[4] İbn əl-İbri, səh. 155.

[5] Xürrəmilərin Bizans tərəfində ərəblərə qarşı müharibələrdə iştirakı haqqında b a x: Ф.Успенский. Очерки по истории Византийской образованности. Спб., 1892, səh. 59; А.Васильев. Византия и арабы при императоре Феофиле, стр. 385-386; yenə onun: Византия и арабы. Политические отношения Византии и арабов за вермя Аморийской династии,

Belə rəvayət vardır ki, guya Babək özü Bizansa keçmişdi, bir ehtimala görə iki Babək olmuşdur: onlardan biri 7 min nəfər tərəfdarı ilə Bizansa (Sinopa) getmiş, digəri isə Xilafətlə mübarizəni davam etdirmişdir. Bunu M.Siriyets [1] və bir sıra tədqiqatçılar (Ş.Lebo, Q.Vayl, N.Emin, Q.Finley və digərləri) deyirlər[2]. Lakin bütün bu rəvayətlər əsassızdır, çünki irəlidə görəcəyik ki, Babək ömrünün axırınadək Bizans ərazisinə gedə bilmədi.

Feofobun keçmiş adı, yəni xristianlığı qəbul etməzdən əvvəlki adı haqqında da bir neçə fikir vardır. Ət-Təbəri deyir ki, onu Barsis deyə çağırırdılar[3]. M.Siriyets və ibn İbri yazırlar ki, onun adı Nəsr (Nasir) imiş[4]. Erməni tarixçisi M.Ayranvansi Nəsrin xristianlığı qəbul etməsi faktını qeyd edərkən tarixi dolaşıq salır və Babəki bu əhvalata daxil edir: "Erməni tarixinin 290 [b.e. 841]-ci ildə Nəsr və Babək xristian oldular"[5].

Biz xürrəmilərlə Bizans imperatoru Feofil arasındakı əlaqələri nəzərdən keçirmişik. Qeyd etdiyimiz kimi[6], bu əlaqələrin möhkəm zəmini var idi və illərdən bəri davam edirdi, yoxsa Xilafət 837-ci ildə xürrəmilərin üsyanını darmadağın etdikdən sonra Babəkin Bizansa qaçmasını başqa cür izah etmək olmaz.

Xəlifə Mötəsim Həmədan yaxınlığındakı ilk müvəffəqiyyətdən sonra başa düşdü ki, qüvvələri parçalamaq və xürrəmilərlə hərdənbir vuruşmaq müharibənin gedişinə təsir göstərməyəcəkdir. Mötəsim görürdü ki, onun qardaşı və sələflərinin xürrəmilərlə etdiyi müharibə taktikası kökündən yanlış idi və

---

Спб., 1900.стр. 82, 84, 126; А.Мюллер. История ислама, т. II, стр. 109; Bəndəli Cövzi, səh. 60.

[1] M.Siriyets, səh. 509.

[2] H.Emin. "Böyük Vardanın ümumi tarixi"nin 384-cü qeydi, səh. 129; Г.Финлей. История Византийской империи, стр. 137

[3] Ət-Təbəri, III, səh. 1225.

[4] M.Siriyets, səh. 531 ; İbn əl-İbri, səh. 1 55.

[5] Ayrivan vardapeti keşiş Mlexitarın tərtib etdiyi xronoqrafık tarix, səh-. 402

[6] Z.M.Bünyadov. Babək və Bizans, səh. 613-616.

Xilafətin bir neçə ordusu üçün fəlakətli olmuşdu. Babək kimi təhlükəli düşmənə qarşı Xilafətin bütün qüvvələrini toplamaq üçün Kiçik Asiyada Bizansla daimi müharibə meydanında hərbi əməliyyatı dayandırmaq lazım idi.

Bizans-Ərəb sərhədində dördillik (833-837) sakitlik Mötəsimə imkan verdi ki, əvvəllər Bizansla müharibədə olan qoşunları da Babəkə qarşı göndərsin.

Mötəsim öz sələfindən fərqli olaraq Babəklə müharibənin strateji cəhətinə ciddi diqqət yetirdi. O, düşmənin qüvvəsi və gücünü bildiyindən uzun sürən müharibəyə hazırlaşdı və hər şeyi: qoşunun tərkibini və görkəmli sərkərdələri seçməkdən, köməkçi hissələrlə təmin etməkdən tutmuş Xilafətin bütün maliyyə, ərzaq və yem ehtiyatlarını səfərbər edincəyədək hər şeyi müharibə ehtiyaclarına tabe etdi.

Mötəsim xürrəmilərin üzərinə ümumi hücuma başlamazdan əvvəl əmirlərdən Əbu Səid Məhəmmədi gələcək vuruşma rayonuna göndərib ona əmr etdi ki, "Zəncanla Ərdəbil arasında Babəkin dağıtdığı istehkam məntəqələrini bərpa etsin və [Zəncan-Ərdəbil] yolunda qarnizonlar qoysun ki, heç kəs Ərdəbilin təchizi üçün təhlükə törətməsin"[1].

Qoşun qərargahı ilə Xilafətin paytaxtı Samarra arasındakı rabitə sisteminə böyük diqqət verilmişdi. Yollar pis olduğuna görə qasidlər məlumatı gec gətirirdilər, buna görə də xəlifə əmr etdi ki, Ərdəbildən paytaxta gedən yolun hər fərsəxində məlumat gətirməyə hazır olan bir atlı qoysunlar. Xəlifə bu məqsəd üçün əmr etdi ki, onun özünün Hulvan keçidi yaxınlığındakı Marc at ilxısında xüsusi çapar atlarından istifadə etsinlər [2]. Təpələrdə qarovulxanalar düzəldildi; bu qarovulxanalar bir-birini yaxşı görürdü və məlumat gətirən atlıların hərəkəti haqqında bir-birinə səslə xəbər verirdilər.

---

[1] Ət-Təbəri, III, səh. 1171; İbn əl-Əsir, VI, səh. 164. Ərdəbil - xürrəmilərə qarşı əməliyyat keçirən xəlifə ordularının qərargahı idi. Əl-Uyun və-l-hədaiq bi-əxbar əd-həqaiq, səh. 10.

[2] Ət-Təbəri, III, səh. 1229; İbn Xordadbeh, VI, səh. 19; müqayisə et: Q. le Strenç.Sitat gətirilən əsəri, səh. 192.

Beləliklə, Ərdəbildəki (Bərzənddəki) baş komandan qərargahından göndərilən məlumat Samarraya dörd günə gəlib çatırdı ki, bu da o zaman üçün çox tez hesab olunurdu. Buna görə də xəlifə xürrəmilərə qarşı hərbi əməliyyat rayonunda baş verən hadisələrdən həmişə xəbərdar idi. Bu müharibədə, xilafət tarixində ilk dəfə olaraq məlumat göndərmək üçün poçt göyərçinlərindən istifadə olunmuşdu.[1]

Xəlifə Mötəsim Misirdə Bizans qoşunları ilə vuruşmada öz hərbi məharətini göstərən istedadlı sərkərdə Afşin Heydər ibn Kavusu[2] 835-ci il iyunun 3-də xürrəmilərə qarşı müharibə edən bütün qoşunların baş komandanı təyin etdi.

Xəlifə bu müharibə üçün vəsait əsirgəmirdi. Afşin ata minəndə yəni xürrəmilərlə vuruşmağa girəndə - gündə 10 min dirhəm, hərbi əməliyyat olmayanda isə 5 min dirhəm pul alırdı[3]. Əz-Zəhəbi bildirir ki, təkcə 837-ci ildə Mötəsim Babək ilə müharibəyə bir milyon dirhəm xərcləmişdi[4]. Afşinin ordusu arası kəsilmədən ərzaq, sursat və silahla təchiz olunurdu.

Afşin Ərdəbil qərargahına gələn kimi Əbu Səid Məhəmmədə əmr etdi ki, xürrəmilərin dağıtdığı qalaları bərpa etməyi sürətləndirsin. Qalalar bərpa edilib möhkəmləndikdən sonra Afşinin əmrilə bunların ətrafında xəndəklər qazıldı. O öz qərargahını xürrəmilərin istehkamlarına yaxın olan Bərzəndə köçürdü. Bərzənd ilə Ərdəbil arasındakı qalalar da bərpa edilib möhkəmləndirildi. Paytaxtdan Ərdəbil yolu ilə Bərzəndə gedən ərzaq və silah karvanlarının yanınca xüsusi mühafizə bölmələri gedirdi ki, bu da xürrəmilərin karvanlara qəflətən hücum etməsi təhlükəsini aradan qaldırmalı idi[5].

---

[1] Əbd əl-Əziz əd-Duri. Əl-Əsr əl-Abbasiy əl-əvvəl, səh. 237.

[2] Əz-Zəhəbi, səh. 384.

[3] Ət-Təbəri, III, səh. 1232-1233; əl-Müqəddəsi. Kitab əl-bəd, səh. 117; İbn əl-Əsir, VI, səh. 176.

[4] Əz-Zəhəbi, səh. 384.

[5] Ət-Təbəri, III, səh. 1173-1174, İbn əl-Əsir, IV, səh. 164.

Afşin casus məlumatı toplamağa xüsusi diqqət verirdi. Afşin öz casuslarından başqa Babəkin casuslarını da öz tərəfinə çəkməyə cəhd edərək, xürrəmilərin yeri, istehkamları və manevrləri haqqındakı məlumat üçün onlara daha artıq pul verirdi[1].

Babəkin öz doğma yerlərində əməliyyat keçirib bu yerlərə yaxşı bələd olan qoşunları, qalaları möhkəmləndirməklə məşğul olan ərəb istehkamlarına tez-tez hücum edirdilər. Əbu Səid Məhəmmədin qoşununa qarşı Müaviyənin başçılığı altında bir xürrəmi dəstəsi göndərilmişdi. O, ərəblərin bir neçə istehkam məntəqəsinə basqın edib əsir tutaraq öz istehkamına qayıtdı. Əbu Səid öz qoşununu topladı və Müaviyənin dəstəsini təqib edərək, Sindabay yerində ona çatdı. Vuruşmada ərəblər Müaviyənin dəstəsini məğlub etdilər. Əsir alınan xürrəmilərin başları kəsilib paytaxta göndərildi.

Tarixçilər deyirlər ki, bu vuruşma Xilafətin nizami qoşunları ilə müharibədə xürrəmilərin uğradığı ilk məğlubiyyəti idi[2].

Bu zaman Babəkin yerli hökmdarlar sırasından olan müttəfiqləri ondan ayrılmağa başladılar. Üsyan qaldırmış xalqın zəhmli qüvvəsindən dəhşətə düşüb, öz torpaqlarının bütöv qala bilməyəcəyindən qorxan və Xilafətin gördüyü tədbirlər nəticəsində Babəkin darmadağın ediləcəyini duyan yerli hökmdarlar öz müttəfiqinə qarşı xain çıxdılar. Babəkə xəyanət edənlər arasında Təbriz və Şahi qalası hökmdarı Məhəmməd ibn əl-Bəis də var idi, halbuki bu adam Babəkin sərkərdələrindən İsma əl-Kurdinin qızını alıb onunla hətta qohum olmuşdu. İbn əl-Bəis, xəlifə qarşısında özünə bəraət qazandırmaq üçün "Mötəsimə [məktub] yazıb ona öz sədaqətini bildirir və onu əmin edirdi ki, Babəkə və onun tərəfdarlarına qarşı lazımi tədbirlər görəcəkdir"[3].

Bir dəfə İsmanın dəstəsi adətən olduğu kimi ibn əl-Bəisin mülkündə gecələməyə qalmışdı. İbn əl-Bəis həm İsmanın özünü,

---

[1] Ət-Təbəri, III, səh. 1174; İbn əl-Əsir, VI, səh. 164; əl-Uyun və-l-hədaiq bi-əxbar əl-həqaiq, səh. 38-39.

[2] Ət-Təbəri, III, səh. 1171, İbn əl-Əsir, VI, səh. 164.

[3] Əl-Yəqubi, 11, səh. 577..

həm də onun döyüşçülərini içirtdi və sərxoş olub özlərini bilmədikləri halda əl-qolu bağlı Şahi adasına apardı, Orada ibn əl-Bəis bütün xürrəmiləri qırdı, İsmanı isə Samarraya xəlifənin yanına göndərdi. İşgəncəyə məruz qalan İsma, xürrəmilərin vətəni Bəzzeyn ölkəsi haqqında, onun yolları, dağ keçidləri və zəif yerləri barəsində bildiyini xəlifəyə söylədi, yəni xəlifə ərəblərin xürrəmilərə qarşı müvəffəqiyyətli müharibəsinə kömək edə biləcək çox mühüm məlumatı İsmadan ala bildi[1].

Sonralar xəlifə Mütəvəkkilin hökmranlığı dövründə ibn əl-Bəis Xilafətdən yenidən ayrıldı, lakin axırda 850-ci ildə öz ömrünü zindanda başa vurdu[2].

Beləliklə, Babək ikinci məğlubiyyətə uğradı. O, öz sərkərdələrindən birindən məhrum oldu. İsmanın xürrəmilər barəsində xəlifəyə verdiyi məlumat isə Babəkin hərəkətlərini xeyli çətinləşdirdi.

835-ci il Afşin Bəzz yaxınlığmda yeni istehkamlar tikdirdi. Ərəblərlə xürrəmilər arasında kəşfıyyat xarakterli vuruşmalar gedirdi. Bəzən bu, bəzən də o biri tərəf müvəffəqiyyət qazanırdı[3]. Bu yerə yaxşı bələd olan xürrəmilər ərəb qoşunlarının təchizat yollarını tutur, ərzaq və silah karvanlarını ələ keçirməklə ərəbləri çətin vəziyyətdə qoyurdular, çünki "karvanda olanların hamısını məhv edirdilər". Nəticədə Afşinin qoşunları daim aclıq və susuzluqdan əzab çəkirdi, "cismən və ruhən məğlub olurdu"[4]. Həmin ildə xürrəmilər Arşak yaşayış məntəqəsi yaxınlığında ərəblərlə vuruşmada yeni bir məğlubiyyətə uğradılar. Babəkin kəşfiyyatçıları paytaxtdan Ərdəbilə pul gətirən böyük bir karvanı güdmüşdülər. Lakin Babəkin adamları arasında bir nəfər xain varmış; bu xain Afşinə bildirir ki, Babəkin karvan haqqında xəbəri var. Afşin pusqu

---

[1] Ət-Təbəri , III, səh. 1171-1172; əl-Yəqubi, II, səh. 577; Ibn əl-Əsir.VI, səh. 164.

[2] Əl-Bəlazuri, səh. 330; əl-Yəqubi, II, səh. 594; İbn əl-Əsir. VI, səh,191; VII, səh.17.

[3] Əl-Müqəddəsi. Kitab əl-bəd, səh. 117; İbn əl-İbri, səh. 241.

[4] Ət-Təbəri, III, səh. 1179; İbn əl-Əsir, VI, səh. 165.

qurur, Qəflətən yaxalanan xürrəmilər məğlub olurlar. Adətən olduğu kimi, bu dəfə də vuruşan xürrəmilər arasında olan Babək birtəhər özünü xilas edir. Mənbələrin verdiyi məlumata görə, bu vuruşmada xürrəmilər min nəfərdən artıq tələfat verdilər[1]. Lakin bir neçə gündən sonra Babəkin sərkərdələrindən Tarxan (və ya Adin) yenidən ərəblərin karvanına hücum edib mühafizələrini qırır və bütün yükü ələ keçirib ərəbləri çətin vəziyyətə salır[2]. Afşin məcbur olur ki, ərzaq göndərilməsini Məhəmməd ibn əl-Bəisdən xahiş etsin. Xürrəmilər yeni karvanı da ələ keçirirlər. Onda Afşin kömək üçün Şirvan hakiminə müraciət edir[3]; o, ərzaq karvanı göndərməklə "[ərəb] qoşunlarının imdadına çatır"[4].

836-cı ildə Həştadsər dağı yaxınlığında xürrəmilərlə Buğa əl-Kəbirin başçılığı altındakı ərəb ordusu arasında vuruşma olmuşdu. Təkəbbürlü Buğa, Afşinin əmrinə etina etməyərək, şəxsən xürrəmilərlə vuruşmaq qərarına gəlmiş və bunun cəzasını görmüşdü. Əvvəlcə Babək Buğanın min nəfərlik ərzaqdaşıyan dəstəsini məhv etdi, əsir aldığı ərəblərdən ikisini seçdi və baş vermiş əhvalatı Afşinə söyləməyə göndərdi[5].

Buna baxmayaraq, Buğa öz ordusunu xürrəmilərə qarşı hərəkətə gətirdi; xürrəmilər isə ərəbləri izləyirdilər; dağ cığırlarından keçib gücdən düşən ərəblər təpələrdən birinə qalxmağa başlayanda xürrəmilər hücum edib onları mühasirəyə saldılar və ərəbləri onlar üçün əlverişli olmayan şəraitdə vuruşmağa məcbur etdilər. Buğanın ordusu məğlub edildi, bir neçə sərkərdə öldürüldü. Buğanın özü isə qaçdı. Xürrəmilər bütün ərəb ordugahını, pul və silahları ələ

---

[1] Ət-Təbəri, III, səh. 1174; əl-Məkin (səh. 141) və Tarix əs-Salihin müəllifi (vər. 56) bildirir ki, ərəblər "bu vuruşmada Babəkin tərəfdarlarından çox qırdılar. Deyirlər ki, onlar 100 min nəfərdən çox idilər".

[2] Ət-Təbəri, III, səh. 1178-1179.

[3] Yenə orada, III, səh. 1179; "Siravana".

[4] İbn əl-Əsir, VI. səh. 165.

[5] Ət-Təbəri, III, səh. 1187-1188; İbn əl-Əsir, VI, səh. 167.

keçirtdilər[1]. Bu məğlubiyyətdən sonra Afşin öz qoşunlarını Bərzəndə çəkdi.

836-cı ilin qışında xürrəmilər öz sərkərdələrindən Tarxanı da itirdilər. Bu igid türk ərəbləri lap təngə gətirirdi. Afşin tez başa düşmüşdü ki, Tarxan xürrəmilər ordusunun başında qalarsa, ərəblər onlara qarşı müharibədə çox çətinlik çəkəcəklər. Odur ki, Tarxanın hərəkətini daim izləyir və onu sıradan çıxartmaq üçün fürsət axtarırdı. Nəhayət, buna müvəffəq oldu. Tarxan adətən qış aylarını Həştadsər dağı yaxınlığında öz kəndində keçirirdi. Afşin casuslardan öyrənəndə ki, Tarxan Babəkdən icazə alıb kiçik bir dəstə ilə öz mülkünə yola düşmüşdür, türk olan bir casusunu onun ardınca göndərdi. Casus gecə vaxtı Tarxana hücum edib onu öldürdü və başını kəsib Afşinə göndərdi. Tarxanın ölümü Babək və xürrəmilər üçün böyük bir zərbə oldu. Xürrəmilərin belə igid sərkərdəsinin ölümündən sonra ərəblər daha cəsarətli hərəkət etməyə, xürrəmilər isə dalbadal məğlubiyyətə uğramağa başladılar[2].

Ərəb xilafətinə qarşı illər boyu davam edən mübarizədə xürrəmilərin müvəffəqiyyət qazandığı axırıncı il - 837-ci il gəlib çatdı.

Həmin ildə Afşin xəlifədən böyük bir qüvvə aldı; köməkçi qüvvələrə böyük türk sərkərdələrindən Cəfər ibn Dinar əl-Xəyyat və İtax başçılıq edirdilər. Xəlifə onlarla Afşinə qoşunun maaşı və təchizatı üçün 30 milyon dirhəm pul da göndərmişdi[3].

Köməkçi qüvvənin gəlmiş olmasına baxmayaraq, Afşin xürrəmilərlə müharibə taktikasını bütünlüklə dəyişdirdi. Müharibənin müvəffəqiyyətinə hələ də inanmayan xəlifə Mötəsim, Afşinə bir-birinə zidd müxtəlif sərəncamlar verirdi. Afşin də bu sərəncamları elə yerinə yetirirdi ki, az sonra ərəb qoşunları arasında sərkərdəyə qarşı narazılıq başlandı. Doğrudan da, xürrəmilərin qalası Bəzzdən

---

[1] Ət-Təbəri, III, səh. 1 188-1 193; İbn əl-Əsir, VI, səh. 167-168; Tarix əs-Salihi, vər. 56

[2] Ət-Təbəri, III, səh. 1193-1194. İbn el-Əsir, VI, səh. 168; müqayisə et: M.Şemseddin Günaltay. Abbas ogullari imperatorlugunun.., s. 1199-200.

[3] Ət-Təbəri, III, səh. 1195, İbn əl-Əsir, VI, səh. 169.

ərəbləri ayıran son dörd fərsəx (təxminən 30 kilometr) yolu ərəblər bir ilə keçmişdilər. Afşin əsgərlərin narazılığına baxmayaraq, verdiyi sərəncamlarında daim xəlifəyə istinad edirdi və xürrəmilərlə vuruşa girməyə icazə vermirdi. Yalnız xüsusi dəstələr istehkamlar tikir, və Bəzzə tərəf yol çəkməklə məşğul idi, çünki yolun olmaması ərəb qoşunlarının ərzaq, su və s. ilə təchiz edilməsini daim təhlükə qarşısında qoyurdu. Çox vaxt ərəblər bircə qurudulmuş çörəklə dolanırdılar. Bunu bilən Babək bir dəfə Afşinə bir adamla bir yük tərəvəz göndərdi. Afşin Babəkin bu hədiyyəsini məmnuniyyətlə qəbul etdi və onun göndərdiyi adama icazə verdi ki, ərəb düşərgəsindəki istehkamları baxıb görsün. Xürrəm ətraflı baxdından sonra, Afşin onu geriyə buraxdı və xahiş etdi ki, "qardaşı" Babəkə onun salamını yetirsin[1].

Afşinin Babəkə bu cür münasibəti qoşunda və xüsusilə sərkərdələrdə şübhə doğurmaya bilməzdi. Buna görə islamın düşməninə qarşı müharibədə Afşinin hərəkətləri çox tez-tez, xüsusilə Cəfər əl-Xəyyat tərəfindən kəskin surətdə tənqid olunurdu[2].

Sonralar qeyd ediləcəyi kimi, Afşin Babəklə mübaribənin axırıncı ilində Təbəristan hakimi Məzyərlə olduğu kimi gizli danışıqlar aparırdı və məqsədi Xilafət hakimiyyətini məhv etmək idi. Lakin Afşinin Babəklə birlikdə qəsd düzəltməkdə iştirakı yalnız Məzyərin və Afşinin özünün mühakiməsində aşkara çıxdı. Belə bir qəsdin mövcud olduğunu ərəb mənbələri də təsdiq edir. Əbu Mənsur əl-Bağdadi bildirir ki, Afşin "Babək ilə gizli qəsd düzəltmişdi". Mötəsim Afşini Babəkə qarşı müharibəyə göndərəndə "belə düşünürdü ki, o müsəlmanlara səmimi münasibət bəsləyir. Gizlində isə o [Afşin] Babəklə əlbir idi və ona qarşı müharibəni uzadırdı və müsəlman qoşunlarında çatışmazlıq olduğunu ona hiss etdirirdi, o da [Babək də] düşmən qoşununun çoxunu məhv edirdi"[3]. Yalnız xürrəmilərlə müharibə qurtardıqdan sonra "xəlifə, Afşinin

---

[1] Ət-Təbəri, III, səh. 1201.

[2] Yenə orada, III, səh. 1207, 1209-1210.

[3] Əl-Bağdadi. Kitab əl-fərq, səh. 251, 268, 269; İbn İsfəndiyar, səh. 155.

satqınlığını və Babəklə müharibə zamanı onun müsəlmanlara xəyanət etdiyini öyrəndi"[1].

Lakin Xilafətə qarşı əlbir əməliyyat keçirmək barəsində Afşin, Babək və Məzyər arasında gedən gizli danışıq və yazışmalar bir nəticə vermədi, odur ki, Afşin də özünü tamamilə ifşa etməmək üçün Bəzzə hücum etmək əmrini verməyə məcbur oldu.

Cəfər əl-Xəyyat, Əbu Səid və Buxaraxudatın sərkərdəliyi altındakı türk qoşunları və könüllülər qalanı mühasirə etdilər. Şəhər üçün uzun sürən vuruşma başlandı, bu zaman xürrəmilər qaladan çıxıb ərəbləri hiss ediləcək tələfat verməyə məcbur edirdilər. Ərəblər mancanaqları Bəzzin hasarlarına yaxınlaşdırdılar, işçi korpusu isə hasarları sökərək daşları çıxarmağa başladı.

Xürrəmilərin bütün qəhrəmanlığı və igidliyinə baxmayaraq, ərəblərin üstün qüvvələrinin mühasirəsinə qalanın davam gətirə bilməyəcəyi Babəkə aydın olanda, o, Afşinlə şəxsi danışığa girdi. Bu danışıqlar zamanı Afşin "Babəkə aman təklif etdi, lakin o bir gün də gözləməyi xahiş edəndə Afşin elə dedi: "Sən istəyirsən öz şəhərini möhkəmlədəsən. Əgər amanda qalmaq istəyirsənsə, çayı keç" lakin o uzaqlaşdı"[2].

Babəkin amanı qəbul etməkdən boyun qaçırmasına baxmayaraq, Afşin bir müddətdən sonra onun yanına adam göndərib xahiş etdi ki, barışıq haqqında danışıqlar üçün onun yanına etibarlı bir adam göndərsin. Babəkin elçisinə o dedi: "Babəkə (bunları) söylə: hər başlanğıcın bir axırı var. İnsanın başı soğan gövdəsi deyil ki, yenidən cücərə bilsin. Mənim adamlarımın çoxu qırılmışdır, on nəfərdən biri də qalmamışdır. Sənin vəziyyətin də yəqin belədir. Gəl sülh bağlayaq. Sənin əlində olan mülk səndə qalsın, sən burada qal, mən qayıdıb gedim, xəlifədən sənin üçün bir mülk daha alıb fərman göndərim"[3].

---

[1] Əl-Yəqubi, II, səh. 578.

[2] Əl-Yəqubi, II, səh. 578.

[3] Siyasətnamə, səh. 226.

Babək Afşinin təklifini ikinci dəfə rədd etdi, lakin bir neçə gündən sonra, türk qoşunları şəhərə girən zaman, Babək özü Afşinlə danışıq üçün görüşməyi xahiş etdi. Görüşəndə Afşinə dedi:

- Mən Əmir əl-Mömինindən aman istəyirəm!

Afşin cavab verdi:

- Mən sənə təklif etmişdim və sən nə vaxt istəsən, sənə aman veriləcəkdir.

O cavab verdi:

- Mən indi istəyirəm, bu şərtlə ki, mənə bir az vaxt verəsən, öz ailəmi yığım və səfər üçün lazım olan şeyləri hazırlayım.

Afşin ona müraciətlə:

- Allaha and olsun! Mən dəfələrlə sənə məsləhət görmüşəm, lakin sən mənim məsləhətlərimi qəbul etməmisən. Mən bir daha sənə məsləhət görürəm - sənin bu gün aman istəmək saatın sabahkından daha münasibdir.

Babək dedi:

- Ey əmir, qəbul edirəm. Mənim etmək istədiyim elə budur"[1].

Lakin Afşin qabaqcadan danışıldığı kimi Babəkdən tələb etdi ki, onun yanına girov adamlar göndərsin, ancaq bundan bir şey çıxmadı, çünki girov üçün müəyyən edilmiş şəxslər vuruşmada idilər və onları çağırıb göndərmək mümkün deyildi.

Babək yenə qalaya getdi, orada isə, tarixçinin dediyinə görə, "elə vuruşma gedirdi ki, bunun mislini heç kəs görməmişdi"[2].

Afşin şəhərə neftsatanlar dəstəsini gətirdi və bunların köməyi ilə şəhər 837-ci il avqustun 26-da ərəb qoşunu tərəfindən alındı[3]. Afşin əmr etdi ki, şəhərin qalalarını dağıtsınlar və şəhəri üç gün ərzində yandırsınlar. "Bircə ev, bircə qala salamat qalmadı - o, hər birini yandırdı və ya dağıtdı"[4]. Babəkin oğulları və onların ailə

---

[1] Ət-Təbəri, III, səh. 1217-1218; əd-Dinəvəri, səh. 399; İbn əl-Əsir, VI, səh. 172-173; G.Marteau et H.Vezer. Miniatures persans, plate XLVII. Burada Babəklə Afşinin danışıqları verilmişdir.

[2] Əd-Dinəvəri, səh. 400.

[3] Ət-Təbəri, III, səh. 1197.

[4] Yenə orada, III, səh. 1219.

üzvləri şəhərdə tutuldular[1]. Nizam əl-Mülkün verdiyi məlumata görə, Bəzz alınarkən 80 mindən artıq xürrəmi öldürülmüşdü[2].

## 6. Babəkin son günləri

Ərəblər Bəzzi aldıqdan sonra Babək tacir paltarı geyib Araz çayından keçərək Arran tərəfə qaçdı[3]. Afşin Babəkin qaçdığını bilən kimi Azərbaycan, Arran, Beyləqan və Ermənistan hökmdarlarına xəbər verdi ki, "Babək bir neçə adamla qaçmış[4] və dərəyə çatmışdır, oradan isə Ermənistan tərəfə yollanmışdır və sizin yanınızdan ötüb keçəcəkdir"[5]. Onlara əmr etdi ki, bütün şübhəli adamları tutub saxlasınlar.

Babək Bizans ərazisinə gedib çatmağı düşünürdü, çünki Bizans imperatoru ilə çox yazışırdı.

Ərəb mənbələrində Babəkin Feofil ilə necə əlaqə saxladığı və Bizansın xürrəmilərə necə təsirli kömək göstərdiyi barəsində məlumat verilir. Ət-Təbəri 837-838-ci illərin hadisələrini şərh edərkən bildirir: "Həmin ildə bizanslıların hakimi Feofil Mixail oğlu Zibatra əhalisinə hücum edərək onları əsir aldı və onların şəhərini talan etdi. Sonra o, sürətlə müsəlman qalalarından keçdi, müsəlman qadınlarını [bəziləri deyirlər ki, onların sayı min nəfərdən çox idi] əsir aldı və əlinə keçən müsəlmanlara işgəncə verdi; o, əsirlərin gözlərini qızmar dəmirlə yandırır, qulaq və burunlarını kəsirdi[6].

---

[1] Yenə orada, III, səh. 1218; əz-Zəhəbi, səh. 384; B a x bu əsirlər barəsində Yaqut İrşad, I, səh. 361-364; Siyasətnamə, səh. 228.

[2] Siyasətnamə, səh. 227.

[3] Əd-Dinəvəri, səh. 400; əl-Yəqubi, II, səh. 578; əl-Məsudi. Muruc, VII, səh.124; əl-Bağdadi, səh. 117; İbn əl-İbri, səh. 241.

[4] Əl-Məsudi. Tənbeh, səh. 125; M.Siriyets (səh. 533): "Doqquz nəfər öz adamları ilə"; İbn əl-İbri (səh. 155): "400 nəfər öz adamları ilə".

[5] Ət-Təbəri, III, səh. 1219; əl-Məsudi. Tənbeh, səh. 124-125; Z.M.Bünyadov.Qala şəhəri Bəzzin yerini müəyyənləşdirmək haqqında, səh. 20-21.

[6] Ət-Təbəri, III, səh. 1234; İbn əl-Əsir, VI, səh. 339.

Feofilin Xilafət ərazisinə hücumu Bəzzdə mühasirə olunmuş Babək tam çarəsiz vəziyyətdə olduğu barəsində Feofilə məktub yazandan sonra başlamışdı, çünki Babəkin məktubundan sonra ərəblər Bəzzi darmadağın etmişdilər. Ət-Təbəri Bizans qoşunlarının qəflətən hücumunun səbəbini belə də izah edir: "O [Babək], ölümə yaxın olanda, öz gücsüzlüyünü, habelə öz qoşununun gücsüzlüyünü yəqin edəndə, Bizans padşahı Georgi oğlu, Mixail oğlu Feofilə yazıb bildirdi ki, ərəblərin padşahı bütün ordularını, hətta öz dərzisi və aşpazı daxil olmaqla [1] bütün döyüşçülərini onun əleyhinə göndərmişdir, belə ki, onun qapısında (Bizans sərhədində - *Z.B.*) daha heç kəs qalmamışdır. Buna görə "əgər sən [onun ərazisinə] soxulmaq istəsən, bil ki, heç kəs sənin yolunu tutmayacaq və sənə mane olmayacaqdır". O [Babək], Feofilə məktub göndərərkən belə ümid edirdi ki, bu məktub Bizans padşahını ciddi əməliyyata başlamağa vadar edəcək və bunun nəticəsində o, [özünün] bəzi fəlakətlərindən xilas olacaqdır, çünki Mötəsim onun müqabilində duran qoşunlardan bir hissəsini geri çağırıb bizanslıların padşahına qarşı göndərməyə məcbur olacaqdır, beləliklə də onun başı onunla [Babəklə] deyil, bizanslılarla qarışacaqdır"[2].

Deyilənlərdən göründüyü kimi, Təbəri Feofilin Babəkə kömək üçün etdiyi hücum tarixini hicri 223 (b.e. 838)-cü il göstərir. Halbuki Babək hicri 222 (836-837)-ci ildə edam edilmişdir; belə ki, tarixlərin düz gəlmədiyi göz qabağındadır[3].

Babək Feofilin Xilafətə qarşı hücuma keçməsini sürətləndirmək üçün hətta yalan vədlər verməkdən çəkinməmişdi. O, imperatora belə yazırdı: "Mən həqiqətdə xristian oğluyam və gizlicə

---

[1] Cəfər ibn Dinar əl-Xəyyat - "xəyyat" dərzi deməkdir. İtah ət-Təbbax - “təbbax” aşpaz deməkdir. Onların hər ikisi xilafət ordularının sərkərdələri idi.

[2] Ət-Təbəri, III, səh. 1231, 1235; İbn əl-Əsir, VI, səh. 339; müqayisə et: A.Vasilyev. Sitat gətirilən əsəri, səh. 114; S.Nəfisi. Sitat gətirilən əsəri, səh. 94.

[3] İ.Buri belə hesab edir ki, hücıım 837-ci ildə olmuşdur; Ş.Lebo belə güman edir ki, Zibatraya 480-ci ildə hücum edilmişdir; P.KJuze isə deyir ki, bizanslılar 830-cu ildə Abbasi ordusuna zərbə endirmişlər. B a x: İ.B.Bury. History of the Eastern Roman Empire, p. 260; Ch. le Beau. History du Bas Empire, p. 486; p. 260. П.К.Жузе. Папак и папакизм, стр. 7-8.

xristianlığa sitayiş edirəm. Mən bütün tərəfdarlarımı məcbur edəcəyərəm ki, xristianlığı qəbul etsinlər. Lakin onlara demək olmaz ki, "Bu saat bu dini qəbul edin!", çünki mən bilirəm, onlar rədd edərlər. Mənim indiki dinim onların xoşuna gəlir, çünki bu din onları islam dinindən ayırır. Mən onlara [ərəblərə] qələbə çalandan sonra onların hamısı, hətta xəlifə də mənim dinimi qəbul edəcək və göstərəcəyim yol ilə gedəcəklər. Məhz o zaman mən onları xristianlığa dəvət edəcəyəm, onlar da xristian olacaqlar"[1].

Necə olsa da, Feofil 100 min nəfərlik ordu ilə ərəblərin üstünə getdi. Ət-Təbəri bildirir ki, o, Zibatranın üstünə həmin Mühəmmirə ilə birlikdə getmişdi ki, onlar Cibalda üsyan edəndə və İshaq ibn İbrahim ibn Müsəb onlarla vuruşanda bunların bir hissəsi bizanslıların yanına qaçmışdı (onların rəisi Barsis idi). Bizans padşahı onlara təqaüd təyin edib onları evləndirdi, özünə əsgər etdi və özünün ən mühüm işləri üçün onlardan istifadə etdi"[2].

Zibatra və digər ərəb şəhərlərinin başına nələr gəldiyi barəsində yuxarıda deyilmişdir. Yalnız bunu qeyd etməliyik ki, Babəklə Bizans imperatoru Feofil arasında yazışma var idi. Feofil, gec də olsa, Babəkə qoşunla[3] kömək etdi və bu qoşunun içərisində xürrəmi hissələri də var idi; ola bilər, imperator üsyanın müvəffəqiyyətlə nəticələnəcəyi və Xilafət üzərində qələbə əldə ediləcəyi halda, Babəkin tərəfdarları içərisində dəyişiklik əmələ gələcəyi ümidində idi. Afşin Babəki tutmaq üçün bütün yollara dəstələr göndərdi, lakin Babəkin izinə düşməyin qızğın çağında, birdən Xilafət paytaxtından xəlifənin qızıl möhürü ilə bir məktub gəldi, Mötəsim Babəkə aman bəxş edirdi, Afşin bu əhvalatdan lap çaşıb qaldı[4]. O, Babəkin əsir edilən böyük oğlunu yanına çağırıb dedi: "Mən bunu Əmir əl-Mömünindən heç gözləmirdim və onun

---

[1] Chronique de Tabari, IV, p. 532; müqayisə et: L.Vasilyev. Sitat gətirilən əsəri, səh. 114; S.Nəfisi. Sitat gətirilən əsəri, səh. 94.

[2] Ət-Təbəri, III,səh. 1235; İbn əl-Əsir, VI, səh. 310-312.

[3] Əbu Səid əl-Qərdizi. Zeyn əl-əxbar. Tehran, 1333, səh. 50.

[4] Ət-Təbəri, III, səh. 1220

[Babəkin] indiki vəziyyətində aman haqqında ona şəxsən özüm bir şey yazmaq fikrində deyiləm"[1]. Lakin Babəkin oğlu atasına xəlifənin məktubunıı aparıb verməkdən imtina etdi. Əsir düşmüş iki xürrəmi göndərildi. Onlar xəlifənin məktubundan əlavə, Babəkin oğlunun məktubunu da apardılar; bu məktubda o, atasından xahiş edirdi ki, xəlifənin verdiyi amanı qəbul edib həyatını saxlasın. Oğlunun məktubunu oxuyan kimi, Babək bərk qəzəbləndi, qasidlərdən birini öldürdü və xəlifənin məktubunu açmadan ikinci qasidə belə dedi: "Get, o fahişə oğlundan soruş, bunu nə məqsədlə mənə yazmışdır?" Bundan sonra Babək öz oğluna belə cavab yazdı: "Əgər sən mənim ardımca gəlsəydin, öz sülalənin varisi olardın və vərəsəlik sənə keçərdi, bir neçə gün bundan əvvələdək sən mənim oğlum sayılırdın. Lakin indi sənin fahişə ananın əxlaqsızlığı mənə aydın oldu! Ola bilər mən bu gündən sonra az yaşayım, lakin mənim üstümdə padşah [məlik] adı vardır və harada olsam, ya da mənim barəmdə harada nə desələr, mən padşah olaraq qalıram. Sən isə elə bir cinsdən əmələ gəlmişsən ki, ondan bir nəfər ləyaqətli [adam] çıxmamışdır və mən [ucadan hamıya] deyirəm ki, sən mənim oğlum deyilsən, çünki qırx gün alçaq kölə kimi ömür sürməkdənsə, bir gün rəhbər kimi yaşamaq yaxşıdır"[2].

Belə bir rədd cavabı Afşinin, əlbəttə, xoşuna gəldi, çünki, Babəklə danışıqlarından xəlifənin xəbəri olduğu haqqında şübhələnməyə başladı. O, Babəki və onun yoldaşlarını axtarmağı davam etdirmək haqqında sərəncam verdi.

Babək, azuqəsi qurtaranadək "Azərbaycandan Ermənistana gedən" dərədə gizlənirdi. Babəklə birlikdə onun iki qardaşı -

---

[1] Yenə orada.

[2] Ət-Təbəri, III, səh. 1220-1221; İbn əl-Əsir, VI, səh. 334. Məktuba və son hadisələrə əsasən demək olar ki, Babək 20 il ərzində, doğrudan da böyük bir vilayətin hökmdarı olmuşdur. Onun "məlik" titulu var idi və bir növ, babəkilər sülaləsinin banisi idi. Əs-Suyuti (səh. 351) bildirir ki, "837-ci ildə Mötəsim Azərbaycan padşahını (məli-kini) əsir almışdır". Ət-Təbəri (lll, səh. 1233) deyir ki, "Babəkin on yeddi oğlu, iyirmi üç qızı və gəlini Afşinin əlinə keçmişdi". Bax: İbn əl-Əsir, VI, səh. 176.

Müaviyə və Abdullah, anası, İbnət əl-Kələndaniyyə adlı sonuncu arvadı və bir neçə xidmətçi onun yanında idi[1]. Yəqin ki, İbnət əl-Kələndaniyyə Sünik knyazı Vasakın qızı idi və Babək Vasaka ərəblərə qarşı kömək edəndən sonra onun qızı ilə evlənmişdi, Babək 828-ci ildə ərəbləri darmadağın etdikdən sonra "onun [Vasakın] qızı ilə evləndi və öz hakimiyyətini bu vilayətə [Sünikə] də şamil etdi[2]. Babəkin məhz bu arvadı onu dilə tutmuşdu ki, Bizansa qaçmaq üçün yolu onun vətənindən salsın.

Babək və onunla gedənlər heç şübhələnmirdilər ki, onları təqib edib güdürlər; yolda dincəlmək üçün bir yerdə dayandıqları zaman Afşinin göndərdiyi dəstə gözətçilərin işarəsi ilə onlara hücum etdi. Babək, Abdullah və xidmətçilərdən biri qaçıb aradan çıxdılar. Müaviyə, Babəkin arvadı, anası və qalan xidmətçilər isə ələ keçdilər. Babək ilə qardaşı gizlicə çox yol getdilər, nəhayət, aclıq onları vadar etdi ki, açıq yola çıxsınlar. Bir əkinçini görəndə ərzaq əldə etmək üçün xidmətçini onun yanına göndərdilər.

Bu yerdən bir az aralı sərhəd qarovulxanası var idi və həmin vilayətin (Şəkinin) hökmdarı knyaz Səhl ibn Sumbatın mühafizə dəstəsi burada keşik çəkirdi. Buraya gələn Səhl vaxtilə ümumi mənafeyi bir olan Babəki tanıdı. Babəkin Bizansa getdiyini öyrənən Səhl onu öz qalasına dəvət edərək dedi: "Bu sənin öz evindir və mən sənin nökərin. Bu qışı burada qal, sonra nə edəcəyini qət edərsən"[3] Ac və yorğun olan Babək Səhlin sözlərinə inandı və onun təklifi ilə razılaşıb dedi: "Mənim və qardaşımın bir yerdə qalmağımız yaxşı deyildir, çünki birisi ikimizdən birinin izinə düşərsə, o birisi sağ qalar. Mən sənin yanında qalaram, qardaşım Abdullah ibn

---

[1] Ət-Təbəri, III, səh. 1221-1222; Tarix əs-Salihi, vər. 56.

[2] Histoire de la Siounie, p. 95-96; müqayisə et: V.Minorsky. Caucasica, V, p. 504; yenə onun: Studies in Caucasian History, p. 69.

[3] Ət-Təbəri, III, səh. 1223; əl-Məsudi. Muruc, VII, səh. 125; İbn əl-Əsir; VI, səh. 335.

İstifanusun yanına gedər, çünki nələr ola biləcəyini bilmirik, bizim isə sülaləmizi davam etdirə biləcək xəlifimiz yoxdur[1].

Səhl Afşinə xəbər verdi ki, Babək onun yanındadır; bir neçə gündən sonra isə, Səhlin düzəltdiyi ovda Babək tutuldu; Səhl ona görə belə etmişdi ki, Babəkin tutulmasında ondan şübhələnməsinlər[2].

Az sonra Afşinin tələbinə görə ibn İstifanus Babəkin qardaşı Abdullahı da təslim etdi[3]. Səhl ibn Sumbat "öz səyinə görə saraydan [xəlifə sarayından] böyük mükafat aldı: Ermənistan, İberiya və Albaniya üzərində ali hakimiyyət ona verildi, o da bütün bu yerlərə padşah kimi hökmranlıq etdi[4].

Afşin Babəkin və onun qardaşının əsir alındığını Mötəsimə xəbər verdi, xəlifə onların paytaxta gətirilməsi üçün əmr verdi. Afşin İraqa qayıtmağa hazırlaşarkən Babəkə dedi: "Mən səninlə [İraqa] yola düşmək niyyətindəyəm, buna görə Azərbaycan torpağında

---

[1] Ət-Təbəri, III, səh. 1223-1224.

[2] M.Siriyets (səh. 533) və İbn əl-İbri (səh. 155) yanlış olaraq belə hesab edirlər ki, Babəki İsa İbn İstifanus tutmuşdur. Əl-Məsudi (Muruc, VII, səh. 125-126) ət-Təbəridən fərqli olaraq hadisəni başqa cür izah edİr. O deyir ki, nahar zamanı Səbl Babəklə bir sürfə başında oturduğundan Babək qəzəbləndiyi üçün Səhl onun əl-qolunu zəncirlə bağladı. Əd-Dinəvəri (səh. 400), əl-Yəqubi (II, səh. 578) və İbn əl-İbri (səh. 241-242) bildirirlər ki, Səhl Babəki əsir etdi. M.Dasxuranski də eyni sözləri deyir (C.J.F.Dowsett, p. 459,460). Vardan (səh. 101) bildirir ki, Səhl "qiyamçı Babanı tutdu". “Siyasətnamə”yə görə (səh. 227) Babəki Afşin tutmuşdur.

[3] Ət-Təbəri, III, səh. 1228.

[4] История Агван (C.J.F.Dowset, p. 460). Vardan (səh. 101) deyir ki, Babəki tutmaq üçün Səhl "Afşindən bəxşiş olaraq min kşir gümüş və bir daha yüz min aldı". Əl-Məsudi (Muruc, VII, səh. 125) bildirir ki, Afşin "Səhlin mövqeyini yüksəyə qaldırdı, ona [qiymətli hədiyyələr verərək], əyninə fəxri paltar geydirdi və başına tac qoydu, qoşunu onun qarşısından keçirdi, xəracı da ondan götürdü". Əl-Müqəddəsi (Kitab əl-bəd, səh. 117-118) yazır ki, "Səhl ibn Sumbata iki milyon dirhəm gətirdilər və onun |özünə icazə verdilər ki, vilayətinə hakimlər təyin etsin". Ət-Təbəri (III, səh. 1232) bildirir: "Afşin əmr etdi Əmir əl-Möminin adından [Səhlin oğlu] Müaviyəyə yüz min dirhəm, Səhlin özünə bir milyon dirhəm, habelə zərlə toxunmuş qiymətli kəmər və patrik tacı versinlər, beləliklə, Səhl patrik oldu".

istədiyin şeyə axırıncı dəfə baxa bilərsən". Babək belə cavab verdi: "Mən öz şəhərimə baxmaq istərdim"[1].

837-ci il sentyabrın 15-də Babək dağıdılmış və yandırılmış Bəzzə baxdıqdan sonra Bərzəndə Afşinin yanına gətirildi. Babək və onun qardaşı 838-ci il yanvarın 4-də Samarraya gətirildilər[2].

Məsudinin dediyinə görə, xəlifə Babəkin əsir alındığını xəbər alan kimi "onu sevinc bürüdü və o öz sevincini açıq bildirdi. Qələbə [Babək üzərində qələbə] haqqında ölkənin hər yerinə xəbər göndərildi"[3].

Babək müxtəsər dindiriləndən sonra şaqqalandı, onun başı, əhalini qorxutmaq üçün Xorasana göndərildi, bədəni isə Samarrada asıldı[4].

Bir çox orta əsr mənbələrində Babəkin edam zamanı göstərdiyi mətanət və mərdliyindən bəhs olunur. Məsələn, ət-Tənuhi bildirir: "Mətanət və mənəvi qüvvəyə dair qəribə hekayələr arasında aşağıdakı da vardır: Babək əl-Xürrəmini Mötəsimin yanına gətirəndə, onun qardaşı [tərəfdarı] əl-Məzyər ona dedi: "Ey Babək! Sən heç kəsin görə bilmədiyi bir iş görmüsən. İndi də heç kəsin dözə bilmədiyinə sən dözməlisən!" Babək ona belə dedi: "Sən mənim dözümümü görərsən". Elə ki, onu Mötəsimin yanına gətirdilər. Mötəsim əmr etdi Babəkin əllərini və ayaqlarını onun gözünün

---

[1] Ət-Təbəri, III. Səh. 1228.

[2] Yenə orada, III, səh. 1229.

[3] Əl-Məsudi. Muruc, VII, səh. 126.

[4] Ət-Təbəri, III, səh. 1231; əl-Məkin, səh. 141-142; İbn Təqriberdi, səh. 659; əl-Məsudi (Muruc, VII, səh. 129-130) Babəkin edamı haqqında başqa bir rəvayəti söyləyir. Ət-Tənuhidə (Nişvar, səh. 75) Babəkin mətanəti haqqında maraqlı məlumat vardır. Edam zamanı Babəkin göstərdiyi mənəvi mətanət, Hindistanda üsyan etmiş sikxlərin başçısı Benda üçün nümunə olmuşdur. Onun edamı haqqında b a x: Mirza Gholam Kbosein Khan. The Siyar-ul-Mutakharin. A History of the Mahomedan in India during the last century, v. 1, London, 1832. p. 119-120; həmçinin b a x: əd-Dinəvəri, səh. 400; əl-Müqəddəsi-Kitab əl-bəd, səh. 118; al-Bağdadi, səh. 268; İbn əl-Ibri, səh. 242; Siyasətnamə, səh. 227; M.Siriyets, səh. 533; Vardan, səh. 101; İbn Kəsir (XIV, səh. 265) deyir ki, Babək 838-ci il martın 14-də edam edilmişdir.

qabağında kəssinlər. [Cəllad] da Babəklə məşğul oldu. Əvvəlcə onun sağ [əlini] kəsdi, qan axanda, Babək bütün üzünü elə qana boyadı ki, üzündə zərrə qədər təmiz yer qalmadı. Mötəsim dedi: "Ondan soruşun nə səbəbə belə etdi?" Babəkdən soruşdular, o da belə cavab verdi: "Xəlifəyə [belə] deyin: "Sən əmr etdin məni şaqqalasınlar, mənim edamım üçün sən vicdanınla cavab verəcəksən. Lakin buna şübhə ola bilməz ki, məndən axan qanı dayandırmağa sənin hökmün çatmaz və nə qədər ki, başım kəsilməmişdir, bu qan axacaqdır. Mən qorxuram ki, bütün qanım axıb qurtarsın və üzümün rəngi qaçıb solğunlaşsın, adamlar da belə düşünsün ki, guya mən elə əvvəldən ölümdən qorxmuşammış. Məhz buna görə mən belə etdim, yoxsa qanımın axdığı üçün etmədim. Mən üzümü qana boyadım ki, üzümün rəngi qaçmış kimi görünməsin". Onda Mötəsim dedi: "Əgər onun gördüyü və bağışlanmasına imkan verməyən işlər olmasaydı, bu faydalı adamı saxlamaq düzgün olardı", odur ki, o, [cəllada] əmr etdi edamı davam etdirsin. Onun əl-qolunu kəsdikdən sonra başını kəsdilər. Sonra Babəkin əllərini, ayaqlarını və başını onun qarnına soxdular və üstünə neft töküb yandırdılar. Qardaşı ilə də belə etdilər. Lakin onlardan heç biri nə qışqırdı, nə də zərrə qədər ah-nalə etdi"[1].

İbn Təqriberdi deyir ki, "Babək öz zəmanəsinin qəhrəmanı və Xilafəti dəhşətə gətirən bir igid idi"[2].

Əl-Müqəddəsinin məlumatına görə, Babəkin üzərində çalınan qələbə islam [dövlətində] ən böyük qələbə idi, onun əsir alındığı gün isə müsəlmanların bayram günü idi"[3]. Bunu təsdiq etmək üçün Nizam ül-Mülkün dediyini də misal gətirmək olar: "Mötəsimin üç qələbəsi olmuşdu, hamısı da islamın şöhrəti idi: birincisi, Rura üzərindəki qələbə, ikincisi, Babək üzərindəki qələbə, üçüncüsü, Təbəristanlı Məzyər Gəbr üzərindəki qələbə. Bu üç qələbədən lap biri baş tutmasaydı, islam məhv olardı"[4]. Bu, doğrudan da belədir,

---

[1] Ət-Tənuhi, Nişvar, səh. 75.

[2] İbn Təqriberdi, I, səh. 657-658.

[3] Mütəhhər əl-Müqəddəsi, səh. 118.

[4] Siyasətnamə, səh. 227-228; müqayisə et: əd-Dinəvəri, səh. 396; əl-Məsudi (Muruc, VII, səh. 130) deyir ki, "az qalmışdı Babək bütöv bir dövləti

çünki iyirmi ildən artıq müddət ərzində xürrəmilər Babəkin rəhbərliyi ilə çoxlu Abbasi qoşununu məhv etdilər. Orta əsr mənbələrinin məlumatına görə, bu dövr ərzində xürrəmilər 225500 nəfər əsgər və çoxlu ərəb sərkərdəsini məhv etmişlər[1].

Gördüyümüz kimi, Azərbaycan xürrəmiləri üzərindəki qələbə Xilafət üçün asan bir iş olmadı. Bunun üçün əsasən öz yüksək döyüş keyfiyyətlərinə görə ərəblərdən fərqlənən türk hərbi birləşmələri səfərbərliyə alınmışdı. Bundan əlavə, Babəkin üsyanını yatırmaqda "Xilafət qoşunları ilə birlikdə erməni naxararları da öz qoşunları ilə iştirak edirdilər"[2].

Babəkin rəhbərliyi ilə xürrəmilərin üsyanı Azərbaycan tarixində ən parlaq səhifələrdən biridir. M.Kazımbəyin sözlərinə görə, Abbasilər xilafətində xalq üsyanlarının müvəffəqiyyətləri "qısamüddətli və keçici olsa da, heyrətli idi"[3]; Babəkin üsyanı müvəffəqiyyətsizliyə uğramasına baxmayaraq, Xilafətin şimal vilayətlərində yaşamış xalqların şüurunda dərin iz buraxdı. Babəkin ardıcılları IX əsrin axırınadək Xilafətdə baş verən bütün yeni üsyanların özəyi oldular. Xürrəmilərdən bir çoxları X əsrdə ismaililərin təbliğatına uydular və təsadüfi deyildir ki, İranın şimal-şərq və şimal-qərb, Xəzər dənizi sahili və Kuhistan rayonları sonralar xürrəmilərin ardıcılları olan batinilərin dayağı oldu[4].

---

[islam] dinini məhv etsin və bu dini başqası ilə əvəz etsin"; müqayisə et; Nüman Sabit, əl-Cundiyyə, səh. 267-268.

[1] Ət-Təbəri, III, səh. 1233; əl-Müqəddəsi, səh. 115; İbn əl-İbri, səh. 241; əl-Məsudi (Tənbeh, VIII, səh. 353) yazır ki, xürrəmilərin öldürdükləri ərəb əsgərlərinin sayı "500 minə çatır, lakin deyirlər bundan artıqdır; çünki sayı-hesabı yoxdur". Münəccimbaşı. Səhaif əl-Əxbar, səh. 130; "253100 nəfər".

[2] Y.A.Manandyan. Sitat gətirilən əsəri, səh. 21. Xürrəmilərə qarşı müharibədə ərəblərin tərəfində "bütün erməni qoşunlarından" istifadə edildiyi haqqında b a x: V.A.Abaza, Sitat gətirilən əsəri, c. I, səh. 401; B.Miyr, səh. 527.

[3] Мирза Казем-бек. Баб и бабиды, стр. 152.

[4] G.N.Sadigni. Le Mouvements religieux iraniens, p. 229-280; B.Spuler. Iran in fruhis la mis hen Zeit, s. 200-204; E.Bosworth. The Rise of the Karamiyyah in Khurasan, p. 5.

## 7. Xilafətdə sonrakı siyasi hadisələrə xürrəmilər üsyanının təsiri

Xürrəmilər üsyanının darmadağın edilməsi, Babəkin və. onun tərəfdarlarının dəhşətli surətdə edamı heç də o demək deyildi ki, Azərbaycanda və Xilafətin digər vilayətlərində xalq kütlələrinin hərəkatı yatırılmışdı. Babək üsyanının alovları yenicə söndürülmüşdü ki, 838/9-cu ildə Təbəristanda Karinlər sülaləsindən olan son əmir Məzyərin, ya da Mahyədigə ibn Karin [1] ibn Vanda-Hürmüzün rəhbərliyi ilə üsyan başlandı [2]. Onu Şəhriyar son Şirveyh Təbəristandan qovdu, o da xəlifə Məmuna pənah apardı; xəlifə onu müsəlman edib Məhəmməd adlandırdı. 210-cu ildə Şəhriyar öldü, Məmun Məzyəri Təbəristan, Ruyan və Dunbavənd hakimi təyin edərək, ona ispahbaz ləqəbi verdi[3].

Təbəriyə görə [4], Məzyər Xorasanda hakim sülalə olan Tahirilərin (809-837) nümayəndələrinə nifrət edirdi və xəlifənin əmrinə görə öz torpaqlarından alınan xəracı onlara vermirdi. Mötəsim ona əmr etdi ki, xərac məbləğini Abdullah ibn Tahirə[5] versin, Məzyər isə buna belə cavab verdi: Mən xəracı Abdullah ibn Tahirə verməyəm. Mən onu Əmir əl-Mömininə verərəm"[6]. Məzyərin göndərdiyi pul Həmədana çatanda, Mötəsim pulu Xorasana – Abdullaha göndərməyi əmr etdi.

Afşin xəlifə ilə danışarkən bir neçə dəfə eşitmişdi ki, o Xorasandakı Tahiriləri işdən götürmək istəyir. Afşin Babək üzərində qələbə çalandan sonra, Xilafətdə yüksək rütbəyə çatdı və Xorasan canişini vəzifəsini ələ keçirməyə cəhd etməyə başladı. Məzyər ilə

---

[1] Nemətov. Sitat gətirilən əsəri, səh. 65, 143; "Karun".

[2] Əl-Bəlazuri, seh. 347.

[3] V.Minorsky. Mazjar, EI, III, p. 435-437.

[4] Ət-Təbəri, III, səh. 1268.

[5] Xəlifədən asılı olmayan Xorasan hakimi. B a x : Chronique de Tabari, IV, P- 27,44, 48.

[6] Ət-Təbəri, III, səh. 1268.

Tahirilər arasındakı münasibətlərin normal olmadığını eşidən kimi onların qovulmasını sürətləndirmək qərarına gəldi. Gizlicə Məzyərə məktublar yazıb onu xəlifəyə itaətsizlik göstərməyə təhrik edərək, ona yardım göstərəcəyini vəd etdi. Məzyər bac verməyi dayandırdı. Abdullah ibn Tahir Məzyərin hərəkətləri barəsində xəlifəyə yazdı və bununla Mötəsimdə Məzyərə qarşı qəzəb oyatdı[1].

Məzyər üsyan qaldırıb Afşini sevindirdi. Xəlifə Abdullah ibn Tahirə əmr etdi ki, Məzyərlə müharibəyə başlasın. Afşin isə öz tərəfindən Məzyərə yazdı ki, Abdullaha qarşı müharibəyə girişsin və xəlifənin ona kömək edəcəyini vəd etdi. Məzyər Afşinlə yazışmağa başladı; Afşin Məzyərin müvəffəqiyyət qazanacağına şübhə etmirdi.

Məzyər kəndlilərə əmr etdi ki, öz feodallarına qarşı üsyan qaldırıb onların malikanələrini yandırsınlar. O, Babəklə yazışır və Xilafətə qarşı onun hərəkətlərini bəyənirdi[2]. Məsudi bildirir ki. Məzyər "Afşinə etiraf etdi ki, o, hər ikisini birləşdirən dini etiqad xatirinə, canlandırmaq istədikləri dualizm və atəşpərəstlik dini xatirinə onu (Babəki - *Z.B.)* üsyana təhrik edirdi"[3].

Mənbələrdə bildirilir ki, Məzyər ərəblərin hakimiyyətinə və onlara bağlı olan ictimai quruluşa qarşı üsyan qaldıran xürrəmilərdən idi və islam dinini zahirdə qəbul etmişdi, çünki Bəlazurinin dediyinə görə, o, "allahsız və xain" idi[4]. İbn İsfəndiyar bildirir ki, Məzyər Məzdəki, Babəki və islamı məhv etmək istəyən digər atəşpərəstləri tərifləyib göylərə qaldırırdı[5]. Əl-Bağdadi deyir ki, Məzyər mühəmmirə təriqətindən olan xürrəmi idi[6]. Həmdullah Qəzvini yazır ki, Məzyərin ardıcılları, "qırmızı paltar geyir və açıqca Babəkin ehkamlarını qəbul edirdilər"[7].

---

[1] Muhammad b. al-Hasan b. Isfandiyar. History of Tabaristan..., p. 152.
[2] Ət-Təbəri. III, səh. 1269.
[3] Əl-Məsudi, IV, səh. 16.
[4] Əl-Bəlazuri, səh. 347.
[5] V.Minorsky. Mazjar, EI, III, p. 436.
[6] Əl-Bağdadi, əl-Fərq, səh. 252.
[7] H.Qəzvini. Tarix-i qozide, I, səh. 320.

Üsyandan sonra, Məzyər əmr etdirdi ki, iri mülkədarların torpağı tutulub kəndlilərə paylansın[1] - bu isə xürrəmilərə xas olan əmlak bölgüsü idi. Məzyər iri torpaq sahiblərinin torpağını əllərindən alıb kəndlilərə verməklə siyasi məqsəddən əlavə iqtisadi məqsəd də güdürdü. O bilirdi ki, torpaq sahiblərinin böyük hissəsi ərəblərdən və mövliyadan ibarət idi[2]; "onların hamısı ərəblər və Abbasilərin ardıcılları [müsəvvədə] ilə əlbir idi"[3]. Buıa görə Sari[4] şəhərində Məzyərin nümayəndəsi olan Əbu Saleh Sərxəstan kəndlilərə əmr etmişdi ki, girov saxlanılan torpaq sahiblərindən 260 nəfəri qırsınlar. Kəndlilər də onları xəndəyə atıb qırdılar[5].

Məzyər kəndliləri Xilafət malikanələrində xəlifə məmurlarını məhv etməyə çağırır və onlara deyirdi: "Mən onun [xəlifənin] malikanələrində Xilafət məmurlarının evlərini sizə verirəm... buna görə həbsxanalara gedin və birincisi, bütün malikanə sahiblərini öldürün, sonra mənzillərdən sizə verdiklərimi özünüz üçün götürün"[6].

Məzyərin bu hərəkətləri göstərir ki, onun üsyanı ərəb hökmranlığını devirməyə yönəldilən siyasi hərəkat idi. Məzyər də xürrəmi babəkilərin irəli sürdükləri şüarları irəli sürürdü və həmin şüarlar aşağı siniflərə mənsub külli miqdarda adamı onun ətrafında birləşdirib Xilafətə qarşı mübarizəyə qaldırdı.

Xəlifə Mötəsim Məzyərin qaldırdığı üsyanın bütün təhlükəsini yalnız Abdullah ibn Tahir Afşinin Məzyərə və Məzyərin Afşinə yazdığı məktubları ələ keçirəndən sonra başa düşdü[7].

---

[1] Əl-Uyun və-l-hədaiq bi əxbar əl-həğaiq, 1849, səh. 50.

[2] V.Minorsky. Sitat gətirilən əsəri.

[3] Ət-Təbəri, III, səh. 1278. . .

[4] Təbəristanda, Amolun şərqində şəhər adıdır. Bu şəhər Tahirilərin dövründə hakimlərin iqamətgahı idi. Əl-Yaqut, III, səh. 10. Mäqayisə et: Q. le Strenç. Sitat gətirilən əsəri, səh. 37-75.

[5] Ət-Təbəri, III, səh. 1278.

[6] Yenə orada, səh. 1278-1279.

[7] Ət-Təbəri, III, səh. 1296, 1298; əl-Uyun və-l-hədaiq, səh. 59-60.

Məzyər 840-cı ilin avqustunda öz adamlarının satqınlığı üzündən ovda Abdullah ibn Tahir tərəfindən tutuldu. Samarraya gətirildi və burada xəlifə onu istintaq etdi, Lakin ət-Təbərinin dediyinə görə, xəlifə yazışma məsələsini ondan soraşanda, Məzyər heç bir şeyi boynuna almadı. 840-cı il sentyabrın 24-də onu Afşin ilə üzləşdirdilər, bu zaman Məzyər etiraf etdi ki, Afşin onu Xilafətə qarşı üsyana təhrik edirdi[1]. Mötəsim əmr etdi, Məzyəri döyə-döyə öldürsünlər. Ona 450 çubuq vurduqdan sonra Məzyər öldü və Babəkin meyiti yanında dara çəkildi[2].

Az sonra, Xilafət ordularının ali baş sərkərdəsi Afşin Heydər ibn Kavusun özü Xilafətin varlığı üçün eyni dərəcədə təhlükə təşkil etməyə başladı. Lakin izləmək lazımdır ki, bu məşhur sərkərdə tədriclə xəlifə Mötəsimin etimadını necə itirirdi.

Müəyyən etdiyimiz kimi, xəlifənin Afşinə qarşı etimadının qırılmasına səbəb olan ilk hadisə onun Məzyərlə yazışması, Karinlər xanədanının islam dinini zahirdə qəbul edən bu nümayəndəsi ilə əlbir olması idi.

Sonra Afşinin qohumu Mingicavr[3] əl-Fərqaninin (ya da əl-Usruşananın) qaldırdığı üsyan onun nüfuzunun düşməsinə səbəb oldu. Babəkin edamından sonra xəlifə Mötəsim Afşinə böyük lütfkarlıq göstərməkdən əlavə, onu Azərbaycanın hakimi təyin etmişdi [4] . Afşin Babəki Samarraya aparanda Mingicavrı

---

[1] Ət-Təbəri, III, səh. 1303, 1311-1312; İbn Miskəveyh, VII, səh. 516; Ibn əl-Əsir, VI, səh. 362-363. .

[2] Ət-Təbəri, III, səh. 1298; əz-Zəhəbi, səh. 105; əl-Uyun və-l-hədaiq bi əxbar əl-həğaiq, səh. 59-60; Mucməl ət-təvarix və-l-qisas, səh. 357-358.

[3] N.Nemətov. Usruşana..., əsəri, səh. 65, 142; "Mankaxur". Lakin "Mingicavr" oxunması deyəsən, daha doğrudur. P.K.Juze bir yerdə "Mankcur" deyir (b a x: əl-Yəqubi. Tarix. Bakı, 1927, səh. 17 və başqa bir yerdə Mankeçaur"); İbn əl Əsirin "Tarix əl-Kamil əsərindən Azərbaycan tarixinə dair materiallar, səh. 58-59; Z.V.Toğan bu adı "Menkecur" kimi oxuyur (A.Zeki Valiqi Togan. Ümumi Turk Tarihine giris, s. 168); E.Marin-"Munkacur"(b a x: Ət-Tabari's. TheReign of al-Mutasin,p. 108-110,112,121)'

[4] Ət-Təbəri, III, səh. 1301; İbn əl-Ədsir, VI, səh. 186.

Azərbaycanda öz yerinə qoydu, o isə "həmin ildə (838-839) Azərbaycanda üsyan qaldırdı" [1] . Təbərinin rəvayətinə görə, Mingicavr Babəkin kəndlərindən birində, onun bir evində böyük xəzinə tapıb mənimsəmiş, bu barədə nə Afşinə, nə də xəlifəyə xəbər verməmişdi[2]. Lakin Azərbaycan poçt idarəsi rəisi Abdullah ibn Əbd ər-Rəhman bu tapıntıdan xəbər tutub xəlifəyə məlumat vermişdi. Mingicavr xəlifədən aldığı sorğuya cavab olaraq poçt idarəsi rəisinin yalan məlumat verdiyini bildirdi. Mingicavr ilə poçt rəisi arasında didişmə başlandı və Mingicavr öz düşmənini öldürmək qərarına gəldi. Abdullah isə Ərdəbil əhalisinə müraciət edib kömək istədi, əhali də onu müdafiə etdi. Bu əhvalat Mingicavrın Ərdəbilə hücum etməsi üçün bir bəhanə oldu. Xəlifə Afşinə əmr etdi ki, Mingicavrı Azərbaycan hakimi vəzifəsindən kənar edib həbs etsin. Afşinin göndərdiyi sərkərdə[3] Mingicavrı təqib etməyə başladı. Mingicavr isə keçmişdə Babəkə məxsus alınmaz qalalardan birini bərpa edib möhkəmlətdi, lakin bir aydan sonra qoşun Mingicavrın əleyhinə üsyan qaldırıb onu həbs etdi və ərəb sərkərdəsinə təhvil verdi, o da 839/40-cı ildə Mingicavrı Samarraya apardı. Xəlifə Mingicavrı zindana saldı. Təbərinin rəvayəti belədir[4].

Yəqubinin rəvayəti bir az başqa şəkildədir. "Vərsanda (838/9-cu ildə) Məhəmməd ibn Übeydullah əl-Vərsani üsyan etmişdi. Afşin ona qarşı Mingicavrı göndərdi, o isə 20 minlik qoşunun əmiri olub Azərbaycanda Afşini əvəz edirdi" [5] . Lakin xəlifə əl-Vərsaninin təqsirindən keçib, onu bağışladı, ona aman verdi və qoşunların hücumunu dayandırmağı əmr etdi. Mingicavr isə xəlifəyə tabe olmayıb "orada [Azərbaycanda xəlifədən] ayrıldı və Babəkin

---

[1] Ət-Təbəri, III, səh. 1301, İbn əl-Əsir, VI, səh. 186-187.

[2] M.Siriyets (III, səh. 101) bildirir ki, Mingicavr bu böyük sərvəti yollarda quldurluqla məşğul olaraq yığmışdı. O, pusqu qurub tacirləri soyur, sonra da öldürürdü.

[3] İbn Kəsir (əl-Bidaya, c. XIV, səh. 290) burada Afşinin adını çəkmir və deyir ki, Mötəsim Buğanı Mingicavra qarşı göndərmişdi. Ət-Təbəri (III, səh. 1302) əlavə edir ki, bu sərkərdə Buğa əl-Kəbir idi.

[4] Ət-Təbəri, III, səh. 1301-1302; İbn əl-Əsir, VI, səh. 186-187.

[5] Əl-Yəqubi, II, səh. 580.

tərəfdarlarını başına yığıb Vərsanın üstünə getdi (orada) Məhəmməd ibn Übeydullah əl-Vərsanini və sultana [xəlifəyə] sədaqətli olan bir neçə şəxsi öldürdü" [1]. Xəlifə qəzəblənərək Afşinə əmr etdi ki, Mingicavrı onun yanına gətirsin. Afşin ona qarşı Əbu əs-Sacın başçılığı ilə böyük ordu göndərdi, Lakin xəlifə xəbər aldı ki, Mingicavr Afşinin öz tapşırığı ilə xəlifənin iradəsi əleyhinə çıxmışdır və Afşin Əbu əs-Sacı heç də ona görə göndərməmişdir ki, Mingicavrın ordusunu darmadağın edib, onun özünü əsir etsin, əksinə, onun xəlifəyə qarşı üsyan qaldırmış ordusuna kömək göstərib onu gücləndirsin. Xəlifə Afşinin xəyanətini öyrənəndən sonra Mingicavrın üsyanını yatırtmaq üçün Buğa əl-Kəbiri göndərdi. Ağır vuruşmalardan sonra 840/1-ci ildə Mingicavr təslim oldu və Samarraya aparıldı[2].

Sonralar, Məzyərin mühakiməsində xəlifə Mötəsim öz şübhələrinin doğru olduğunu yəqin etdi, zira bildi ki, Afşin Xilafətə xəyanət etməyi çoxdan qət etmişdi. Mingicavrı üsyana təhrik edir və bu barədə öz həmfikri Məzyərə yazılı surətdə xəbər verirdi[3].

Ət-Təbəri bildirir ki, "əl-Afşin də onun [Mingicavrın] işi üstündə [xəlifə tərəfindən] şübhə altına alındı"[4].

Afşinin tənəzzülü və mühakiməsini təsvir etməzdən əvvəl, onun kökü Xilafətin hərbi başçısı dərəcəsinə necə yüksəldiyi barəsində qısa məlumat verməк lazımdır[5]. V.V.Bartoldun dediyinə görə, ərəblərin (Orta Asiyada - *Z.B.)* son böyük hərbi əməliyyatı,

---

[1] Yenə orada, səh. 583.

[2] Yenə orada, səh. 584.

[3] Ət-Təbəri, III, səh. 1305; İbn əl-Əsir, VI, səh. 189; M.Siriyets (səh. 102) bildirir ki, Mingicavr Afşinin bütün gizli niyyətlərini xəlifəyə açıb dedi.

[4] Ət-Təbəri, III, səh. 1302; İbn əl-Əsir, VI, səh. 359-360.

[5] Usruşana və onun hakimləri haqqında təfsilat üçün b a x: N.Nemətov. Sitat gətirilən əsəri, səh. 127 və s. "Afşin" titulu barəsində b a x: В.И.Абаев. "Среднеазиатский политический термин Афшин", стр. 112-116; V. V.Bartold. Afshin, EI, I, p- 228-229.

hicri 208 (miladi 822/23)-ci ildə Usruşanaya edilən səfər idi"[1]. O zaman Usruşana hakimi Afşin Kavus idi, onun Heydər, Fəzl, Xaş və Rəşid adlı dörd oğlu var idi. Ailə ixtilafı üzündən Heydər Bağdada xəlifə Məmunun yanına qaçmalı oldu, o da Kavusun köməyi ilə Usruşananı istila etməyə müvəffəq oldu və 822-ci ildən onu Xifafətin tərkibinə daxil etdi[2]. Heydər ibn Kavusun özü həmin ildə xəlifənin qulluğuna girdi və islam dinini qəbul etdi, lakin aşağıda görəcəyimiz kimi, ancaq zahirdə belə etmişdi. Onun hərbi sərkərdə olaraq birinci ciddi hərəkatı 831-ci ildəki səfəridir ki, bu zaman Misirdə Adus əl-Fəxrinin üsyanını yatırtmışdı[3].

835-ci il iyunun 3-də Mötəsim Heydər ibn Kavusu Cibal əyalətinə hakim təyin etdi və Xilafət qoşunlarının baş komandanlığını ona tapşırıb Babəkə qarşı müharibəyə göndərdi[4]. Babəkə qələbə çalandan sonra 838-ci ildə, Heydər ibn Kavus 30 minlik ordunun başında xəlifə qoşunlarının qabağında gedərək, imperator Feofilin sərkərdəliyi altındakı Bizans ordusunun əsas qüvvələrinə hücum etdi, onları məğlub edərək qaçmağa vadar etdi. Onun iştirakı ilə 838-ci il iyulun 22-də Amorium şəhəri alındı. Ət-Təbəri Feofil ilə müharibədə Afşinin döyüş şücaətini mədh edən şair Hüseyn ibn əz-Zəhhak əl-Bəxilinin qəsidəsini verir:

Allahın hamisilə[5] Əbu Həsənin[6] qüdrəti
İrəm sütunlarından[7] daha möhkəm oldu.
Kavus oğlanlarının[1], İran hökmdarına

---

[1] В.В.Бартольд. Несколько слов об арийской культуре в Средней Азии, стр. 9.

[2] Usruşananın ərəblər tərəfindən alınması haqqında b a x: əl-Bəlazuri, səh. 340-341; ət-Təbəri, III, səh. 1066; İbn əl-Əsir, VI, səh. 271.

[3] Ət-Təbəri, III, səh. 1107; İbn əl-Əsir, səh. 296-297.

[4] Ət-Təbəri, III, səh. 1171.

[5] Xəlifə Mötəsim nəzərdə tutulur.

[6] Həsənin atası; Afşin oğlunu belə çağırırdı.

[7] Dağ adıdır.

Onun yaratdığı şöhrət hamıdan üstün oldu.
Əl-Mötəsimin əlində əl-Afşin
Allahın qüdrətilə sıyrılmış qılınc idi.
Əl-Bəzzdə, o, İrəmdəki heykəllərə[2] bənzəyənlərdən başqa
Heç bir şeyin qalmasına imkan vermədi.
Gözlərindən peşmanlıq duyulan Babəki o,
Girov bir əsir kimi oraya gətirdi.
Sonra Feofilə vurduğu gözə nizə.
Hər iki ordusunu iki yerə parçaladı,
Feofil özü də qaçmağa üz qoydu.
Onların çoxu qırıldı, salamat qalanlar isə,
Sanki şişə çəkilmiş ət[3] oldu.

Xəlifədən sonra birinci şəxsiyyət olan Heydər ibn Kavus, təbii olaraq, digər sərkərdələr də, xüsusilə, Afşinə tabe olan ərəb Uceyf ibn Ənbasda həsəd doğururdu; Uceyf isə xəlifə Mötəsimin qardaşı oğlu Abbas ibn Məmunla, sərkərdələrdən Əmr ibn Əbrah əl-Fərqani və Məhəmməd Kutahla, habelə Haris-əs-Səmərqəndi adlı birisi ilə xəlifəni və Afşini öldürmək məqsədilə qəsd düzəltmişdilər. Lakin qəsdin üstü açıldı. Xəlifə Abbası Afşinə verdi, o da Abbası ac saxlayıb öldürdü. Əmr əl-Fərqanini döyə-döyə öldürdülər. Uceyf ibn Ənbas zindanda öldü. Xəlifə öz qardaşının bütün arvad və uşaqlarını məhv etdi[4]. Afşinin nüfuzu daha da artdı, lakin iki ildən sonra onun tənəzzülü başlandı.

---

[1] Afşinin nəsli

[2] Quranda olan bir əhvalata istinad edilir.

[3] Ət-Təbəri, III, səh. 1256; 1, 2, 4 və 6-cı şeirlər əl-Məsudidə (Tənbih. BGA, VIII, səh. 170) verilmişdir, 3 şeir İbn Xordadbehdə (BGA, VI, səh, 121) verilmişdir.

[4] Bu qəsd haqqında təfsilat üçün b a x: ət-Təbəri, III, səh. 1256-1267.

839/40-cı ildə Afşin xəlifənin şəxsi ordusunun başçısı vəzifəsindən kənar edildi[1], 840-cı il sentyabrın 7-də isə xəlifənin əmri ilə həbs edildi.

Afşinin həbs edilməsinin səbəbi bu idi. Afşin Azərbaycan, Arran və Ermənistanda xəlifənin canişini olaraq topladığı sərvət və qiymətli əşyanı, habelə Babəklə müharibə zamanı ələ keçirdiyi hər şeyi Xilafət ərazisində saxlamayıb, mötəbər adamları gizlicə Usruşanaya göndərirdi. Sərvət dolu karvanlar Təbəristan yolu ilə göndərilirdi. Afşinlə şəxsi qərəzi olan Abdullah ibn Tahir isə bu barədə xəlifəyə məlumat verirdi. Mötəsim, Abdullah ibn Tahirə əmr etdi ki, ətraflı kəşfiyyatla məşğul olub Afşinin gizli işlərinin üstünü açsın.

Bir gün Afşin həmişəki kimi, bir dəstə öz adamını min dinar va ya daha artıq pulla Usruşanaya göndərdi. Onlar pulu öz qurşaqlarına tikmişdilər. Nişabur yaxınlığında Abdullah ibn Tahir onları tutdu. O, adamların üstünü axtarıb pulu tapandan sonra maraqlandı ki, bu qədər böyük məbləğ haradan onların əlinə keçmişdir. Onlar cavab verdilər ki, pul Afşinindir. Abdullah aldığı pulu öz qoşununa payladı və bu xüsusda xəlifəyə və Afşinə xəbər verdi. Afşinə yazdı ki, tutulan adamların sözünə inanmır. Abdullahın hərəkətindən qəzəblənən Afşin ona cavab verdi ki, "onun pulu ilə Əmir əl-Möminin pulu eyni şeydir və xahiş etdi ki, adamları buraxsın ta onlar Usruşanaya gedə bilsinlər. Abdullah ibn Tahir onları azad etdi, onlar da çıxıb getdilər"[2]. Bu hadisə Afşin ilə Abdullah ibn Tahir arasındakı ədavəti daha da dərinləşdirdi; odur ki, Abdullah gizlicə Afşinin işlərinə daha diqqətlə göz qoymağa başladı.

Xəlifənin şübhəsini doğuran Afşin xəlifənin soyuq yanaşdığını görürdü, lakin özünün nə edəcəyini bilmirdi. O, Xilafətdən qaçmağı qərara aldı. Öz sarayında, sal içində çay və dənizdən keçmək üçün dəri tuluqlar hazırladı. Afşin istəyirdi xəlifə

---

[1] Ət-Təbəri, III, səh. 1303.

[2] Ət-Təbəri, III, səh. 1303-1305; İbn əl-İbri, səh. 242; əl-Uyun, səh. 62-63.

və onun sərkərdələrinin başları qarışdığı bir gündə Mosula qaçsın, tuluqla Zab çayını keçib Azərbaycana çatsın, oradan da dəniz yolu ilə xəzərlərin yanına getsin. Bu planı həyata keçirmək çox çətin oldu. Onda Afşin bu qərara gəldi ki, xəlifəni və sərkərdələri kef məclisinə dəvət edib, onları zəhərləsin, sonra da qaçsın. O, xəzərlərin ölkəsindən dairəvi yolla türklərin ölkəsindən keçib Usruşanaya çatmaq fikrində idi.

Lakin Afşinin niyyəti baş tutmadı, çünki sərkərdələrdən biri Vacin[1] əl-Usruşani onun planını bəyənmədi. Afşin onu tutub yox etmək qərarına gələndə, Vacin atın üstünə sıçrayıb düz xəlifənin sarayına çapdı. İtah onu xəlifənin yanına buraxmadı, çünki xəlifə yatmışdı. Vacin görüş üçün təkid etməyə başladısa, yalnız səhər xəlifə tərəfindən qəbul olundu və Afşinin bütün sirlərini açıb ona dedi. Xəlifə Afşini çağırtdırdı və əmr etdi ki, onu Cövsək iqamətgahında içəri Ləl ("Mirvari") həbsxanasına salsınlar; sonralar bu yer "Afşinin həbsxanası" adlanmağa başladı[2].

Afşinin işini dərindən öyrənən xəlifə gördü ki, Afşinin oğlu Həsənin bütün işdən xəbəri var və atası ilə əlbirdir, yəni o da Xilafət üçün böyük təhlükə təşkil edir. Buna görə, Abdullah ibn Tahirə əmr etdi ki, Həsəni hiylə ilə çağırıb həbs etsin. Abdullah xəlifənin tapşırığını yerinə yetirməyi Buxara hakimi Nuh ibn Əsədə əmr etdi. Abdullah Həsənə yazdı ki, o Nuhun yerinə vilayətin hakimi təyin olunur. Həsən kiçik bir mühafizə dəstəsi ilə Səmərqəndə gələn kimi, Nuh onu həbs edib zəncirlədi və Abdullah ibn Tahirin yanına, Abdullah da onu xəlifə Mötəsimin yanına göndərdi.

Afşin Xilafətə və islama xəyanətdə ittiham edildi və məhkəmə quruldu. Ət-Təbəri Harun ibn İsa ibn Mənsurun[3] dilindən belə xəbər verir ki, məhkəmə xəlifənin sarayında oldu, hakimlər bunlar idi: Əhməd ibn Əbu Duad, İshaq ibn İbrahim, ibn Müsəb və Məhəmməd ibn Əbd ül-Malik əz-Zəyyat. Məhkəməyə yalnız yüksək

---

[1] İbn əl-Əsir, VI, səh. 364. "Avacan".
[2] Əl-Yəqubi, III, səh. 203; ət-Təbəri, III, səh. 1307; əl-Uyun, səh. 63-64
[3] Xəlifə Mənsurun nəvəsi.

rütbəli hərbi və mülki adamlar gəlmişdilər. Baş ittihamçı Məhəmməd əz-Zəyyat idi. Şahidlər arasında Məzyər, atəşpərəstlərin baş ruhanisi mubad[1], Soqd[2] padşahlarından Mərzban ibn Tarkaş[3] və iki soqdlu var idi.

İttihamçı birinci olaraq iki soqdlunu dindirdi: onların əynində cırıq paltar var idi; o soruşdu ki, nə səbəbə görə onlar bu sifətə düşmüşlər. Soqdlular öz kürəklərini göstərdilər; onların kürəklərində qamçı izləri var idi. Bundan sonra Məhəmməd Afşindən soruşdu: "Sən bu iki nəfəri tanıyırsan?" O cavab verdi: "Bəli! Onlardan biri müəzzin, o biri isə imamdır. Onlar Usruşanada məscid tikdirmişdilər. Mən əmr etdim, onlardan hər birinə min qamçı vursunlar, çünki mənimlə Soqd padşahları arasında bağlanan sazişə görə, bütün adamlar öz dinlərinə sitayiş etməkdə davam etməlidirlər. Bu iki nəfər bir məbədə hücum edib, onların [usruşanalıların] bütlərini tulladılar və məbədi döndərib məscid etdilər. Buna görə mən əmr etdim ki, onların hər birinə min qamçı vursunlar, çünki onlar günah iş görmüşlər, adamların öz ibadət yerlərinə getməsinə mane olmuşlar"[4].

Sonra ittihamçı soruşdu: "Üzərində qızıl, brilyant və qiymətli parça ilə işlənib içərisi Allaha qarşı küfrlə dolu olan bu kitab səndə haradandır?" Afşin cavab verdi: "Bu kitab atamdan mənə irs qalmışdır. Bu kitabda iranlıların ən hikmətli sözləri toplanmışdır. Küfr haqqında sizin qeydinizə gəldikdə, deməliyəm ki, mən kitabdakı hikmətli sözlərdən həzz alıram, qalanlarını isə rədd edirəm. Bu kitab bəzəkli şəkildə mənə gəlib çatmışdır və mən onun naxışlarını məhv etməyi lüzum görməyib onu olduğu kimi, sənin evindəki "Kəlilə və Dimnə" və "Məzdəkin kitabı" kimi saxladım. Mən güman etmirəm ki, bu islama qarşı günah bir iş tutmaqdır"[5].

---

[1] M u b a d - Məhabad sözünün ərəbləşmiş şəklidir.

[2] Amu-Dərya ilə Sır-Dərya arasında olan vilayətdir.

[3] Ət-Təbəri, III, səh. 1308-1309; İbn əl-Əsir, VI, səh. 365. "Barkaş"; müqayisə et. B.B.Бартольд. Туркестан, стр. 97. "Mərzban ibn Türkeş".

[4] Ət-Təbəri, III, səh.1308-1309; müqayisə et: E.Rayt. Sitat gətirilən əsəri, I, səh. 57.

[5] Ət-Təbəri, III, səh. 1309.

Ondan sonra mubad dindirildi. O, ifadəsində dedi ki, Afşin boğulan heyvanların[1] ətini yeyirdi, onu da təhrik edirdi ki, bu cür ət yesin və iddia edir ki, bu cür ət, bıçaqla kəsilən heyvanın ətindən daha zərif və dadlıdır. O dedi ki, Afşin hər çərşənbə günü bir qoyun öldürürdü, qoyunu qılıncla iki yerə bölür, sonra onun ətini yeyərdi. Bir dəfə Afşin mubada belə dedi: "Doğrudan da mən bu xalqın (ərəblərin - *Z.B.)* üzündən məcburam nifrət etdiyim hər işi görüm, hətta zeytun yağı yeyim, dəvəyə minim və səndəl ayaqqabı geyim. Lakin mənim bir tüküm də əskik olmamışdır!" O, bunu nəzərdə tuturdu ki, heç üz-başını qırxdırmırdı və sünnət edilməmişdi[2].

Afşin ittihamçıya etirazını bildirdi: "Burada həmin sözləri danışan adam barəsində mənə söylə görüm - o öz dininə etiqad bəsləyirmi?" Mənfi cavab verildi, çünki mubad islamı çox gec; xəlifə Mütəvəkkil dövründə qəbul etmişdi. Onda Afşin mubada müraciətlə soruşdu: "Mənim evimlə sənin evin arasında bir qapı və ya səs eşidilə bilən bir pəncərə var idimi ki, sən mənim barəmdə də məlumat alasan?” O, mənfi cavab verdi. O zaman Afşin dedi: "Məgər mən sənə icazə vermirdim yanıma gələsən, sənə öz sirlərimi demirdimmi, İran haqqında, ona və onun xalqına rəğbətim haqqında sənə danışmırdımmı?” Mubad müsbət cavab verdikdən sonra Afşin sözünü davam etdirdi: “Belə olduqda, sən həm öz dininə (zərdüştiliyə - *Z.B.)* sadiq deyilsən, həm də içdiyin anda, çünki sənə gizlicə söylədiyim sirləri açmısan"[3].

Üçüncü olaraq Mərzban ibn Tarkaş dindirildi. Afşin bildirdi ki, bu adamı tanımır. Mərzban ucadan dedi: "Ey yalançı! Nə vaxtadək sən boyun qaçırıb özünü bilməməzliyə qoyacaqsan? Sənin ölkənin adamları sənə necə yazırlar?" Afşin cavab verdi ki, onlar onun atasına və babasına necə müraciət edirdilərsə, mənə elə müraciət edib yazırlar; lakin necə yazdıqlarını izah etmədi. Onda Mərzban dedi: "Onlar sənə Usruşana dilində filan cür və filan söz

---

[1] Yəhudilərdə olduğu kimi, müsəlmanlarda da bıçaqla kəsilməyən heyvanın ətini yemək haram sayılır.

[2] Ət-Təbəri, III, səh. 1310.

[3] Ət-Təbəri, III, səh. 1310.

yazmırdılarmı?" Afşin bunu inkar etmədi. Onda Mərzban soruşdu: "Ərəb dilində bu belə demək deyildirmi - allahlar allahına, onun bəndəsi filankəs oğlundan?" Afşin bunu da inkar etmədi[1]. Bu zaman vəzir Məhəmməd ibn Əbd ül-Malik sözə qarışdı və soruşdu: "Necə ola bilər müsəlmanlar onlara belə danışmağa icazə versinlər və sən (Afşin) o Firon kimi hərəkət etmisən ki, o öz xalqına demişdi: "Mən sizin ən böyük allahınızam!"[2] Afşin buna belə cavab verdi ki, öz xalqı onun babasına və atasına, islam dinini qəbul etməzdən əvvəl onun özünə də belə müraciət edirdilər, o da özünü xalqdan alçaq tutmaq istəmirdi ki, birdən xalq onun itaətindən çıxmasın. İshaq ibn İbrahim Afşinə dedi: "Necə sən bizə Allahın adına and içə bilərdin, biz də sənin andına inanırdıq. Halbuki sən fironluq (allahlıq - *Z.B.)* iddiasındasan?" Afşin ona belə cavab verdi: "Əli ibn Hişam[3] əleyhinə Ucayfın dediklərini indi sən mənim əleyhimə deyirsən, Qorx ki, sabah eyni sözləri başqası sənin əleyhinə deyəcəkdir"[4].

Axırıncı olaraq Məzyər dindirildi. Hakimlər Afşindən soruşdular: "Sən onunla yazışırdınmı?" O, mənfi cavab verdi. Məzyər isə belə ifadə verdi: "Bəli! Onun qardaşı Xaş mənim qardaşım Kuhyara yazırdı: "Həqiqətdə bu Ağ dinə[5] məndən, səndən və Babəkdən başqa heç kəs kömək etmir. Babəkə gəldikdə, o öz axmaqlığı üzündən özünü həlak etdi. Mən ölümü ondan uzaqlaşdırmaq istəyirdim, lakin o öz axmaqlığından özündən başqa hər hansı bir rəhbərliyi qəbul etməkdən imtina etdi, buna görə də öz ölümünü qarşıladı. Lakin əgər sən üsyan qaldırsan [müsəlmanlar] sənə qarşı ancaq məni göndərəcəklər. Mənim atlılarım və cəsur igid adamlarım var, əgər məni sənin üstünə göndərsələr, onda ərəblərdən,

---

[1] Ət-Təbəri, III, səh. 1310-1311; İbn əl-Əsir, VI, səh. 366.

[2] Quran, 79, 24.

[3] Məmunun görkəmli sərkərdəsi, Cibal, İsfahan və Azərbaycan hakimi idi. 830/1-ci ildə Məmun onu Yəmən hakimi Ucayf ibn Ənbasın köməyi ilə öldürmüşdür. B a x: ət-Təbəri, III, səh. 1105, 1107-1109.

[4] Ət-Təbəri, III, səh, 1311; Tha'alibi. Lataif. Leiden, 1867, p. 85-86.

[5] E.Braun (A Literary History of Persia, p. 334) qeyd edilir ki, ya Zərdüşt dini, ya da Məzdək təlimi nəzərdə tutulur.

məğriblilərdən[1] və türklərdən, bunların üçündən başqa heç kəs tapılmaz ki, bizimlə müharibə edə bilsin. Ərəblər it kimi həyat sürürlər, mən bu itə bir parça sümük ataram, sonra da başını toppuzla əzərəm. Onlar, yəni məğriblilər milçəkdirlər, onlar da baş yeyirlər (mətndə belə yazılmışdır - *Z.B.)* İblis balalarına (türklərə - *Z.B.)* gəldikdə isə az vaxt lazımdır ki, onların oxları qurtarsın, sonra atlılar onları mühasirəyə alar və hamısını qırar. Bundan sonra [darmadağından sonra] din iranlıların dövründə olduğu şəkildə bərpa olunacaqdır"[2].

İbn İsfəndiyarda biz, Məzyərin Abdullah ibn Tahirə verdiyi ifadənin başqa rəvayətinə rast gəlirik: "Bil ki, mən, Afşin Heydər ibn Kavus və Babək bir-birimizlə uzun müddət danışıq aparmış və bu nəticəyə gəlmişik ki, imperiyanı ərəblərdən alaq və Xosrovun dövründə olduğu şəkildə bərpa edib saxlayaq. Dünən filan yerdə Afşinin qasidi yanıma gəlib qulağıma bir söz dedi". "Bəs nə dedi?" - deyə Abdullah ibn Tahir soruşdu. "O, əməliyyat haqqında Afşinin məktubunu gətirdi ki, filan gün, filan saat, o, Mötəsimi, onun oğulları Harun əl-Vasiq ilə Cəfər əl-Mütəvəkkili öldürəcəkdir"[3]. Afşin dedi ki, burada Məzyərin öz qardaşı və mənim qardaşım haqqında dediklərinin ona dəxli yoxdur, əgər o, belə bir şey yazmış olsaydı, Məzyəri öz tərəfinə çəkmək, sonra onu hökumətə təslim etmək, beləliklə də, xəlifənin daha çox etimadını qazanmaq məqsədilə edərdi.

Sonra ibn Əbu Duad Afşindən soruşdu ki, nə üçün o,özünə sünnət etdirməmişdir, halbuki islam bunu mütləq tələb edir. Afşin özünü təmizə çıxartmaq üçün dedi ki, burada onun fikrincə islam

---

[1] Məğribililəri Afşin Mötəsimin qoşunu üçün toplamışdı. Əvvəllər tərkibində bədəvi misirlilər var idi, lakin sonralar zənciləri və bərbərləri bu qoşun üçün yığırdılar. B a x: A.V.Kremer. The Orient under the Chaliphs, p. 341.

[2] Ət-Təbəri, III, səh. 1321-1312; əl-Məsudi. Muruc, VII, səh. 137-138; İbn əlƏsir, VI, səh. 351-352, 358-359; İbn Miskəveyh, VII, səh. 522; müqayisə et: N.Nemətov. Sitat gətirilən əsəri, səh. 146; E.Rayt. Sitat gətirilən əsəri, səh. 38, № 2, səh. 195-196; A.A.Vasilyev. Sitat gətirilən əsəri, səh. 96.

[3] İbn İsfəndiyar, səh. 155. '

dininin hökmündən kənara çıxmaq halı yoxdur. O, sadəcə bədəninin bir hissəsi kəsilərsə, öləcəyindən qorxduğu üçün sünnət etdirməmişdir.

İstintaq qurtardı və Əbu Duad Buğa-əl-Kəbirə əmr etdi ki, Afşini həbs etsin. Lakin xəlifə Afşini dərhal edam etməkdə qorxurdu, çünki islama və Xilafətə xəyanət etməkdə məhkəmədə ona verilən ittihamların sübut olunduğuna baxmayaraq, Afşinin orduda böyük nüfuzu var idi, bundan əlavə, istər paytaxtda, istərsə Xilafətin ucqar yerlərində onun tərəfdarları çox idi.

Afşin xəlifədən xahiş etdi ki, özünün etimad etdiyi bir şəxsi onun yanına həbsxanaya göndərsin; o ümid edirdi ki, bu şəxsin köməyilə xəlifənin qəzəbini azaltsın. Bu şəxs Həmdun ibn İsmayıl idi. Afşin ondan bunları xahiş etdi: "Əmir əl-Mömininə [mənim dilimdən] belə de: Sən mənə yaxşı baxırdın, sən mənə şan-şövkət verdin, lakin adamlar məni alçaldırdılar. Sonra mənim barəmdə deyilənlərlə sən razılaşdın, lakin sən bunları nə öz ağlınla, nə də öz dərrakənlə yoxlamadın, çünki özünə sual vermədin ki, bu necə belə ola bilərdi, bir öyrənmədin ki, mənim haqqımda sənə deyilənlər doğru ola bilərmi. Sənə dedilər ki, mən Mingicavr ilə qəsd düzəltmişəm üsyan qaldırım, sən də bu sözlərə inandın, sənə dedilər ki, Mingicavra qarşı göndərdiyim sərkərdəyə mən guya belə demişəm: "Onunla müharibə etmə, ancaq özünü elə göstər ki, müharibə üçün onun üstünə gedirsən və əgər sən bizlərdən biri ilə təmasda olsan, ondan uzaqlaş". Sən adamsan və bilirsən ki, müharibə, döyüşçülər və təlim görmüş qoşun nə deməkdir. Məgər ola bilərmi ki, ordu sərkərdəsi əsgərə desin onlar həmin [üsyan etmiş] adamları görəndə, bunu belə, onu elə etməlidirlər? Ordu başçısı vuruşmaya mane olarsa, buna heç bir döyüşçü dözməz. Lakin sən düşmənlərin sözü ilə buna inandın. Mən sənin yanında heç nəyəm - yalnız sənin kölələrinin arasında bir köləyəm, sənin vəzifəyə qoyduğun adamam, Lakin, ey Əmir əl-Möminin, mən elə adama bənzəyirəm ki, bir buzovu bəsləyib kökəltmiş və böyütmüşdür, onun vəziyyəti gözəlləşmişdir. Bu adamın da dostları həmin buzovun ətini yeməyə həsrət çəkir və ona təklif edirlər ki, buzovu bizim üçün kəs. Lakin bu adam razılaşmır. Sonra onlar bir gün bu adama dedilər:

"Vay sənin halına! Sən nə səbəbə bu aslanı bəsləyirsən? Bu yırtıcı heyvandır və böyüyəcəkdir, aslan böyüyəndə isə, öz taylarının yanına qayıdacaqdır". Bu adam onlara belə cavab verdi: "Vay sizin halınıza! Bu, aslan deyil, buzovdur". Lakin onlar cavab verdilər: "Bu aslandır! Bu barədə kimdən istəyirsən soruş", onlar isə bu adamı tanıyanların hamısını qabaqcadan öyrətmişdilər ki, ona desinlər: bu - aslandır. Odur ki, bu adam camaatdan soruşmağa başlayanda, hər biri deyirdi: "Bu aslandır! Bu aslandır!" Bundan sonra həmin adam buzovu kəsdi. Budur, indi mən məhz həmin buzovam və necə ola bilər ki, mən dönüb aslan olum? Allah, ey Allah! Öz bədbəxtliyimdə mən sənə müraciət edirəm! Sən (Mötəsim - *Z.B.)* mənim haqqımda mərhəmətli olmusan, sən mənə şan-şöhrət vermisən, sən mənim ağam, mənim sahibimsən. Mən Allaha yalvarıram, sənin ürəyini mənə qarşı yumşaltsın[1].

Lakin bu müraciət xəlifənin ürəyini yumşaltmadı. Əksinə, xəlifə əmr etdi, Afşinin ərzaq payını azaldıb ona gündə təkcə çörək versinlər, buna görə Afşin çox keçmədən acından öldü[2].

Afşin 841-ci ilin may-iyun ayında öldükdən sonra onun cəsədi İtahın evinə köçürüldü, sonra çarmıxa çəkildi. Bundan sonra meyiti yandırıb, külünü Dəcləyə atdılar.

Afşinin sarayında axtarış ediləndə "üzərində ağacdan yonulmuş insan surəti olan dua dəftərçəsi tapdılar; onun üstündə çoxlu bəzək və qiymətli cavahirat var idi, onun qulaqlarından qızıldan naxışı və iki ağ daşı olan sırğa asılmışdı, Adamlardan biri daşlardan birini götürdü; o güman edirdi ki, bu çox bahalı bir cəvahirdir. Bu əhvalat gecə vaxtı olmuşdu, səhər açılanda bu adam qızıl bəzəyi çıxartdı və gördü ki, bu daş xabarun [ilbiz] adlanan balıqqulağına oxşayır, Onun evindən çox qəribə heykəlciklər və digər şeylər götürüldü... Orada, onun özünün hazırladığı ağac sallar tapıldı... Evində başqa bir büt, kitabları arasında "Zarava" adlı

---

[1] Ət-Təbəri, III, səh. 1315-1316.

[2] Əl-Bağdadi (Kitab əl-Fərq, səh. 251) deyir ki, Afşin edam edilmişdir.

kahinlər kitabı və çoxlu dini kitablar tapdılar; o, həmin kitablar əsasında öz Allahına sitayiş və ibadət edirdi"[1].

Abbasilər xilafətinin görkəmli şəxsiyyətlərindən biri olan Afşinin yüksəliş yolu belə başa çatdı. A.J.Yakubovski Afşinə verdiyi xasiyyətnamədə belə yazır: "O, zahirdə xəlifəyə inam və sədaqətlə qulluq edərək, Ərəb xilafətinə qarşı yönəldilən çox böyük xalq hərəkatını yatırırdı, xüsusilə Azərbaycanda Babək hərəkatını darmadağın etdi, gizlində isə Usruşanada üsyan hazırlayaraq, öz əcdadının taxtını özünə qaytarmaq niyyətində idi"[2].

Lakin gördüyümüz kimi, Afşin heç də Babəkin tez darmadağın edilməsini istəmirdi, bütün müharibə ərzində bir neçə dəfə onunla görüşmüşdü və bu görüşlərdə Xilafəti özü ilə Babək və Məzyər arasında bolüşdürməyi Babəklə razılaşdırmağa cəhd edirdi, bu şərtlə ki, xəlifə ordularını darmadağın etmək onlara müyəssər olsun. Lakin onlar razılaşa bilmədikdə, Afşin digər sərkərdələrin təzyiqi altında, Babəkə qarşı onsuz da çox uzanan müharibəni qurtarmağa məcbur oldu.

A.J.Krımskinin Afşinə verdiyi xasiyyətnamə maraqlıdır: "Məmunun mötəzili qardaşı Mötəsimin dövründə (833-842) iranlı Afşin (841-ci il də həlak olmuşdur) hamının qüdrətli istəklisi idi; o, zərdüştilərə qarşı dini düşmənçilik təzahüründə çox canfəşanlıq göstərən müsəlmanları cəzalandırmaqdan çəkinmirdi, özü müsəlmanlığı qəbul etmiş olsa da sünnətsiz qalmışdı. Sünnətsiz nıüsəlman isə - xaçaçuran edilməmiş xristiana bənzəyir; rasionalist - mötəzili olan o zamankı baş qazı bu barədə tam ciddiyyətlə demişdi: "Bütün islam sünnətdən ibarətdir!" Doğrudur, bu dözülməz sözləri qazı Afşinə ancaq o zaman demişdi ki, yüksək rütbəyə çatmış bu qüdrətli adam daha gözdən düşmüşdü və onun əleyhinə qurulan

---

[1] Ət-Təbəri, III, səh. 1318; İbn el-Əsir, VI, səh. 369.

[2] А.Ю.Якубовский. Итоги работ Согдийского-таджикской археологической экспедиции в 1946-1947 гг., стр. 26.

məhkəmə hər cür bəhanə axtarırdı ki, ona edam cəzası elan (841) etsin[1].

Hər halda biz bu faktı qeyd edə bilərik ki, Afşin ürəkdən xürrəmilərə meyil göstərirdi, çünki onun sarayında tapılan müxtəlif bütlər Afşinin atəşpərəstliyə - zərdüştiliyə, yəni xürrəmilərin sitayiş etdikləri dinə tərəfdar olduğunu təsdiq edir.

Xürrəmilər və Babək təliminin göstərdiyi təsirin izi çox sonralar- XV əsrdə də qalmışdı.

Ağqoyunlu dövlətinin varlığının son dövründə, Səfəvilər sülaləsi banilərindən biri olan Şeyx Heydərin üsyanı olmuşdu. Tarixçi Fəzlullah ibn Ruzbehxan bu üsyan haqqında belə məlumat verir:"Həmin 893[1488]-cü ilin hadisələrindən miskin şeytanın, yəni ərdəbilli Şeyx Heydərin üsyanını göstərmək olar; o qalxmaq istəyirdi, lakin məğlub edildi... O, vaxtının çox hissəsini öz əməliyyatı üçün qılınc və nizə hazırlamağa sərf etdi. Rum, Talış və Qaradağdan (IX əsrdə xürrəmilər hərəkatının vətəni - *Z.B.)* çoxlu adam onun yanına toplandı və deyirlər ki, onlar şeyxi özlərinə allah [məbud] hesab edir, dua və ümumi namaza fikir verməyib, ona qiblə kimi baxırdılar... Şeyx onların arasında ibahat etiqadını (yəni qadağan edilib haram sayılan əmələ icazə verilməsini - *Z.B.)* və Babəkin dini qayda-qanunlarını təbliğ edirdi[2]".

Gördüyümüz kimi, Abbasilər xilafətində və sonralar, demək olar ki, bütün xalq hərəkatları dini ideoloji pərdə altında keçmişdir. F.Engels qeyd etmişdi ki, “feodalizmə qarşı dini müxalifət bütün orta əsrlərdə davam etmişdir. Zamanın şəraitindən asılı olaraq bu müxalifət gah mistika şəklində, gah açıq bidət şəklində, gah da silahlı üsyan şəklində özünü göstərir"[3]. Lakin xalq üsyanlarının demək olar, daim dindən ibarət olan bu pərdəsi, sinfi mübarizə forması olmaq

---

[1] Е.Крымский. История Персии, ее литературы и дервишской теософии. М., 1914, стр. 159. B a x: Mücməl ət-təvariix və-l-qisəs, səh. 358.

[2] V.Minorsky. Persia un AD 1478-1490. An abridged translation of Fadlullah b.Ruzbihan Khunji's "Tarikh-i Alam-arayi Amini" London, 1957, p. 61, 67; O.A.Əfəndiyev. Azərbaycan Səfəvi dövlətinin əmələ gəlməsi, səh. 73.

[3] К.Маркс и Ф.Энгельс. Сочинения, т. VIII, стр. 128-129.

etibarilə bu üsyanların xarakterini dəyişdirmirdi. F.Engelsin dediyi kimi, xalq hərəkatlarının dini rəng almasına səbəb "nə insan qəlbinin xassələridir, nə də onun dini tələbatıdır, buna səbəb bütün orta əsrlərin əvvəlki tarixidir ki, orada ideologiyanın yalnız bir forması: din və ilahiyyat mövcud idi"[1].

Buna görə biz, Abbasilər xilafətindəki çoxlu üsyanların timsalında gördük ki, din bu üsyanlar üçün daim bir pərdə olmuşdur, onun arxasında isə həmin üsyanların əsil siyasi, iqtisadi və ictimai məqsədləri gizlənirdi. Babəkin rəhbərliyi ilə xürrəmilərin hərəkatını, ondan əvvəlki və sonrakı bir çox üsyanları yalnız dini hesab etsək, bunları düzgün başa düşmək olmaz, çünki bunlar Abbasi xilafətindəki sinfi ziddiyyətlərin inkişaf etməsinin təsiri altında meydana gəlmişdir, bu ziddiyyətlər isə yerli feodalların zülmünün güclənməsi, habelə "Abbasilər hakimiyyət başına gəldikdən sonra vergi mənqənəsinin artan təzyiqi"[2] nəticəsində kəskinləşmişdi.

---

[1] Yenə orada, c. XIV, səh. 656.

[2] Е.А.Беляев. Мусульманское сектанство, стр. 37.

# ƏLAVƏLƏR

## ƏLAVƏ I

### ƏBU CƏFƏR MƏHƏMMƏD İBN CƏRİR ƏT-TƏBƏRİNİN "TARİX ƏR-RÜSUL VƏ-L-MÜLUK" ƏSƏRİNDƏN

Həmin [192/808] ildə Azərbaycanda xürrəmilərin hərəkatı başlandı. Xəlifə Harun [ər-Rəşid] Abdulla ibn Malikin başçılığı ilə onlara qarşı on min süvari göndərdi. O, çoxlu əsir tutub onları Qərməsinə[1] Harunun yanına gətirdi, Harun da əmr etdi onların bir hissəsini qırsınlar, qalanını isə satsınlar (III, 732).

Həmin [201/816/7] ildə Babək[2] əl-Xürrəmi cavidanilərlə hərəkətə gəldi; bunlar əl-Bəzz[3] şəhərinin hökmdarı Cavidan ibn Səhlin ardıcılları idilər. O [Babək] deyirdi ki, Cavidanın ruhu onun cisminə daxil olmuşdur, buna görə də o, dağıtmağa və hücum etməyə başladı.{1039-41}* Həmin [204/819] ildə Yəhya ibn Müaz Babək ilə vuruşdu, lakin onlardan heç biri qalib gəlmədi.

Həmin [205/820] ildə xəlifə Məmun, ibn Məhəmməd ibn Əbu Xalidi Ermənistan və Azərbaycana hakim təyin etdi ki, Babəkə qarşı müharibə etsin.

Həmin [206/821] ildə Babək ibn Məhəmməd ibn Əbu Xalidi məğlub etdi.

{1072} Həmin [209/824] ildə Məmun Züreyqə ibn Əli ibn Sədəqi Ermənistan və Azərbaycana təyin edərək, ona tapşırdı ki, Babək ilə müharibə etsin. Məmun ona kömək olaraq Əhməd ibn əl-Cüneyd, ibn Fərzənd əl-Əskafini göndərdi. Bir müddətdən sonra... o,

---

[1] Həmədanın 30 fərsəxindəki Dinəvər vilayətində. B a x: Yaqut, səh. 438.

[2] Babəkin mənşəyi haqqında b a x: Fihrist, səh. 242-244.

[3] Z.M.Bünyadov. Qala şəhəri Bəzzin yeri haqqında, səh. 17-22.

*{}-də verilən rəqəmlər əsərin səhifə nömrəsini göstərir.

xürrəmilərin üstünə getdi, Babək isə onu əsir aldı. Onda Məmun İbrahim ibn əl-Leys ibn əl-Fəzli Azərbaycana hakim təyin etdi.

[Məmunun Mötəsimə vəsiyyətindən]"...Xürrəmilərə qarşı bacarıqlı, qətiyyətli və mətanətli bir adam göndər, ona pul, silah, atlı və piyada qoşun ver. Xürrəmilərlə mübarizə uzanarsa, sən özün öz köməkçilərin və dostların ilə birlikdə onların üstünə hücum et".

{1164} Həmin [218] ildə, cümə axşamı rəcəbi[1] 19-da [833-cü il avqustun 10-da][2] Əbu İshaq Məhəmməd ibn Harun ər-Rəşid ibn Məhəmməd əl-Mehdi ibn Abdullah əl-Mənsur [əl-Mötəsim] xəlifə oldu.

{1165} Rəvayətə görə, həmin ildə əl-Cibalda[3], Həmədan[4], İsfahan[5], Masabazan[6] və Mehricanqazak[7] şəhərlərində bir çox adam xürrəmilərin dinini qəbul etmişdi. Onlar bir yerə toplanıb Həmədan ətrafında düşərgə saldılar. Əl-Mötəsim onların üstünə qoşun göndərdi və göndərdiyi axırıncı ordunun sərkərdəsi İshaq ibn İbrahim ibn Müsəb[8] idi ki, Mötəsim onu həmin ilin şəvvalında [oktyabr-noyabr] əl-Cibalın hakimi təyin etdi. Müsəb zilqədə [noyabr-dekabr] ayında onlara tərəf getdi və qələbə haqqında onun göndərdiyi məlumat Tərviyə günündə[9] [833-cü il dekabrın 25-də]

---

[1] Yeddinci ay.

[2] Hicri 218-ci il, 833-cü il yanvarın 27-də başlanmış və 834-cü il yanvarın 15-də bitmişdir.

[3] Qədim Midiya. B a x: G. le Strange. The Lands of Eastern Caliphate. Cambridge, 1930, p. 185-231.

[4] İran yaylasında. Həmədan əl-Cibalın paytaxtlarından biridir, onun əhalisi öz cəhaləti ilə məşhur imiş. B a x: İbn Xalliqan, 1, səh. 102, qeyd 6.

[5] Əl-Cibalın başlıca şəhərlərindən biridir (əl-Yaqut. Mücəm, I, səh. 292-298 ).

[6] Ərəb İraqının sərhədində (əl-Yaqut, IV, səh. 393, 698).

[7] Ərəb İraqının sərhədində (əl-Yaqut, IV, səh. 393, 698).

[8] Bağdad hakimi. 235-ci (849/50) ildə ölmüşdür. (İbn Xalliqan, III, səh. 498, qeyd 11).

[9] Tərviyə günü zilhiccənin (on ikinci ayın) 8-nə düşür. Bu gündə zəvvarlar Məkkədən Minaya gedirlər.

[Bağdadda] oxundu. O, Həmədan ətrafında altmış min adam qırdı, qalanları isə Bizans ərazisinə qaçdılar.

## 220 (835)-ci il[1]. Bu ilin hadisələri

{1170} Həmin il Mötəsim, Afşin Heydər[2] ibn Kavusu {1171} {1171} əl-Cibalın hakimi təyin etdi və onu Babəkə qarşı müharibəyə göndərdi. Bu II Cümad (3 iyun) cümə axşamı oldu. O, Bağdad yaxınlığındakı Müsəllada[3] düşərgə saldı, sonra Bərzəndə[4] yola düşdü.

## Babək və onun üsyanı haqqında deyilənlər

Deyildiyinə görə, Babəkin [ilk] hərəkatı 201 [816/7]-ci ildə olmuşdur, onun mahalı və şəhəri əl-Bəzz idi. [Həmin vaxtadək] o, Sultanın[5] bir neçə ordusunu geriyə çəkilib qaçmağa məcbur etmiş, çoxlu sərkərdələrini öldürmüşdü, Xilafət Mötəsimə keçəndə, o, Əbu Səid Məhəmməd ibn əl-Yusifi Ərdəbilə göndərib, ona əmr etdi ki, Zəncanla Ərdəbil arasında Babəkin dağıtdığı istehkamları bərpa etsin və Ərdəbilin təchizatına heç kəsin qorxu törətməməsi üçün yolboyu qarnizonlar yerləşdirsin. Həmin məqsəd üçün Əbu Səid özü getdi və Babəkin dağıtdığı istehkamları bərpa etdi. Sonralar Babək öz çıxış hərəkətlərindən birində Müaviyə adlı bir sərkərdəsinin başçılığı ilə

---

[1] Hicri 220-ci il, 835-ci il yanvarın 5-də başlanmış və 836-cı il dekabrın 26-da bitmişdir.

[2] Mötəsimin sərkərdələrindən biridir; 835-ci ildə Ermənistanın və 837/8-ci ildə Sindin hakimi olmuşdur. E. de Zambaur. Manuel de Genealogie et de chronologie pour l' histoire de Islam, Hanovre, 1927, p. 178, 279.

[3] Müəyyən hallarda böyük bayramlarda namaz qılınan yer (ya da dini mərasim icra olunan yer). EI, III, səh. 746.

[4] Azərbaycanın şimal-qərbində, Ərdəbildən təqribən 14 fərsəx şimaldadır. EI, I, səh. 688.

[5] Xəlifənin

Əbu Səidə qarşı qoşun dəstəsi göndərdi: həmin dəstə yaxın vilayətlərə hücumdan sonra öz düşərgəsinə qayıtdı. Əbu Səid Məhəmməd ibn Yusif bu barədə xəbər tutan kimi öz adamlarını toplayıb Müaviyənin üstünə getdi[1]. O, yolların birində Müaviyəyə çatdı, onun silahdaşlarının bir hissəsini qırdı, bir qədərini də əsir aldı, habelə Müaviyənin [öz hücumu zamanı] əsir aldığı adamları da xilas etdi. Bu, Babək ardıcıllarının ilk məğlubiyyəti idi. Əbu Səid öldürülənlərin başlarını və əsirləri Mötəsimə göndərdi. Babəkin ikinci məğlubiyyətinə Məhəmməd ibn əl-Bəis səbəb oldu.

Məhəmməd ibn əl-Bəis Azərbaycan əyalətində əlçatmaz Şahi[2] qalasında idi. Onun {1172} əl-Vəcnə ibn ər-Rəvvaddan aldığı bu qala təqribən iki fərsəxdən görünürdü. Onun Azərbaycanda Tibriz[3] adlı başqa bir qalası da var idi, lakin Şahi daha yaxşı müdafiə olunmuşdu. İbn əl-Bəis Babək ilə ittifaqda idi. Babəkin dəstələri bu tərəflərdən keçəndə, onun yanında qalardılar, çünki adət belə idi. Bir dəfə Babək İsma[4] adh sepəhbüdlərindən[5] birini göndərmişdi; o da dəstəsi ilə birlikdə ibn əl-Bəisin yanında qalmışdı. İbn əl-Bəis, adətə görə, onun üçün aşağıya qoyun, xörək və başqa yeməli şeylər yollayıb İsmaya xəbər göndərdi ki, öz yaxın adamları və sərkərdələri ilə birlikdə yuxarıya onun yanına gəlsinlər. Buna görə İsma onun yanına qalxdı, o da ibn əl-Bəis onları o qədər yedirib-içirtdi ki, lap

---

[1] Əbu Tammam Müaviyənin hücum etdiyi yerin adını göstərir: Sindabaya - Azərbaycanın məşhur bazarı[19] Azərbaycandakı Urmiya gölündə Şahi adasındakı dağda böyük qala var idi (G. le Strange. Sitat gətirilən əsəri, səh. 161).

[2] Azərbaycandakı Urmiya gölündə Şahi adasındakı dağda böyük qala var idi (G. le Strange. Sitat gətirilən əsəri, səh. 161).

[3] Gölün şərq sahilinin 10 fərxəsliyində, Şahi adası yaxınlığında. G. le Strange Sitat gətirilən əsəri, səh. 161-163; əl-Yaqut, I, səh. 822.

[4] Əl-Yəqubi (II, səh. 557): "Mərənd hakimi İsma əl-Kurdi"; müqayisə et: əl-Yaqut, IV, səh. 503.

[5] "Hərbi qubernator", "komandan" mənasında olan fars sözüdür. Təbəristan knyazlarına verilən addır. EI, II, səh. 552.

sərxoş oldular, bundan sonra ibn əl-Bəis İsmanın üstünə atılıb, onu əsir aldı, yanındakı adamları da qırdı. Sonra ona [İsmaya] əmr etdi ki, öz ardıcıllarını bir-bir adbaad çağırsın və yuxarıya dəvət etsin; çağırılan şəxs yuxarıya [qalaya] qalxanda Məhəmməd ibn əl-Bəisin əmri ilə onun boynunu qılıncla vururdular. Bir qədər belə davam etdikdən sonra qalanları işi duyub qaçdılar. Bundan sonra Məhəmməd ibn əl-Bəis İsmanı Mötəsimin yanına göndərdi. Əl-Bəis Əbu Məhəmməd olub, ibn ər-Rəvvadın nökərlərindən [təhkimlilərindən] biri idi. Mötəsim İsmanı dindirib Babəkin ölkəsi haqqında sorğu-sual etdi, o da Mötəsimə bu ölkənin yolları barəsində və bu yerlərdən necə müharibə edilə biləcəyi haqqında danışdı. Isma əl-Vasiğin[1] [xilafəti] günlərinədək əsir qaldı.

Afşin Bərzəndə gəlib, orada düşərgə saldı və Bərzəndlə Ərdəbil arasındakı qalaları bərpa etdi. O, Məhəmməd ibn Yusifi Xuş[2] adlanan yerə göndərdi və orada xəndəklər qazdırdı. O, əlcəzirəli[3] sərkərdə {1173} əl-Xeysəm əl-Qənavini Arşak[4] adlı kəndə göndərdi; o da həmin yerdəki qalanı bərpa etdi və ətrafında xəndəklər qazdırdı. O, habelə Əbna[5] sərkərdələrindən biri əl-Veyx əl-Avarı Ərdəbil yaxınlığındakı Hisn ən-Nəhr adlı qalaya göndərdi. Səyahətçilər və karvanlar öz mühafizləri ilə Ərdəbildən Hisn ən-Nəhrə gedirdilər. Orada da Hisn ən-Nəhrin sərkərdəsi onları əl-Xeysəm əl-Qənavinin özünədək müşayiət edirdi, əl-Xeysəm əl-Qənavi isə onun məntəqəsinə gələnlərlə yola düşüb, onları Hisn ən-Nəhrin postlarına təhvil verirdi, həmin komandan da Ərdəbildən gələnləri əl-Xeysəmin məntəqəsinədək müşayiət edirdi. Beləliklə, Hisn ən-Nəhrin

---

[1] Ə b u  C ə f ə r  H a r u n  ə l – V a s i q - xəlifə Mötəsimin oğlu və vəliəhdidir.

[2] Yaqut, I, səh. 209; "Nişapur əyalətində bir şəhər". Nəsrin dediyinə görə, bu şəhər Azərbaycandadır. İbn Xordadbeh (IV, səh. 121): Ərdəbildən 8 mil aralı.

[3] Yuxarı Mesopotamiya. Dəclə İlə Fərat arasındakı ölkənin şimal hissəsi. G. le. Strange. Sitat gətirilən əsəri, səh. 86-114.

[4] Muğanda Azərbaycan əyaləti, Yaqut. I, səh. 208.

[5] Ə b n a - Abbasilər dövründə taxt-tac varisləri ardıcılları nəslinin oğlanları

sərkərdəsi yolun orta hissəsində qalırdı və özü ilə gedənləri əl-Xeysəmə təhvil verməli idi. Bu qayda ilə onlar qarşılıqlı olaraq bir-birini müşayiət edirdilər, iki dəstədən biri təyin olunan yerə birinci olaraq gələndə, o biri dəstə gəlib çatanadək oradan getmirdi. Onlardan hər biri o birisinə tərəf gedənləri Ərdəbilədək, digərlərini isə Afşinin ordugahınadək müşayiət edib qoruyurdu. Beləliklə, əl-Xeysəm əl-Qənavi özü ilə gedənləri Əbu Səidin adamlarına çatanadək müşayiət edirdi, bunlar da irəliləyib, yolun yarısında öz adamları ilə gözləyirdilər, Əbu Səidlə onun adamları özləri ilə gedənləri əl-Xeysəmə təhvil verir, o da özünün müşayiət etdiyi adamları Əbu Səidə ötürürdü. Sonra Əbu Səid və onun yoldaşları karvanı Xuşa çatdırırdılar, əl-Xeysəmlə onun yoldaşları isə mühafizə etdikləri adamlarla Arşaka qayıdır (1174}, gəldikləri yerə isə o biri gün çatıb, onları Alaveyx əl-Avara və onun adamlarına təhvil verirdilər, həmin adamlar da onları lazımi yerə aparırdılar. Əbu Səid və onunla olan şəxslər Xuşa, sonra Afşinin ordugahına yola düşürdülər; burada onları Afşinin karvanı qarşılayır və onunla gələnləri qəbul edərək, Afşinin ordugahına göndərirdilər. Bu tədbir daim görülürdü.

Əbu Səidin yanına və ya onun qarnizonlarının birinə casus gələndə, onlar bu casusu Afşinin yanına göndərərdilər; Afşin isə adətən casusları nə döyər, nə də öldürərdi, əksinə onlarla son dərəcə mərhəmətlə rəftar edərdi. Afşin onlarla xoş rəftar edirdi və Babəkin onlara nə qədər [pul] verdiyini soruşurdu, özü həmin məbləği ikiqat artırıb: "Bizim casusumuz ol" deyirdi.

Həmin il Babək ilə Afşin arasında Arşakda toqquşma oldu və burada Afşin Babəkin tərəfdarlarından çox adam, - deyildiyinə görə mindən artıq adam qırdı. Babək Mukana qaçdı və orada, əl-Bəzz adlanan öz şəhərinə getdi.

## Babək ilə Afşin arasındakı bu toqquşmanın səbəbi

Deyildiyinə görə, buna səbəb o idi ki, Mötəsim Buğa əl-Kəbiri[1] pul ilə Afşinin yanına göndərmişdi ki, bu pulu orduya paylasın və xərclərə sərf etsin. Buğa bu pulla Ərdəbilə gələndə Babək ilə onun tərəfdarları bu barədə xəbər tutub onu Afşinin yanına çatmazdan əvvəl, güdməyə hazırlaşdılar. Casus Saleh Afşinin yanına gəlib söylədi ki, Buğa əl-Kəbir pul gətirmişdir, lakin Babək ilə onun adamları pusqu qurmuşlar ki, o sizin yanınıza gələ bilməsin. Başqaları isə deyirlər ki, Saleh {1175} Əbu Səidin yanına gəlmişdi və Salehi Afşinin yanına o göndərmişdi.

Babək müxtəlif yerlərdə pusqu qurmuşdu. Buna baxmayaraq, Afşin Əbu Səidə yazıb əmr etdi ki, Babək haqqındakı xəbərlərin doğru olub-olmadığını bilmək üçün hiylə qursun; odur ki, Əbu Səid bir dəstə öz adamları ilə başqa paltar geyib, yola düşdülər və çox getdikdən sonra Salehin nişan verdiyi yerlərdə işıq və tonqal gördülər. O biri tərəfdən Afşin Buğaya əmr etdi ki, yeni sərəncam alınanadək Ərdəbildə qalsın. Əbu Səid yazıb Afşinə bildirdi ki, Salehin verdiyi məlumat doğrudur, onda Afşin Salehə verdiyi vədi yerinə yetirdi və ona çoxlu mərhəmət göstərdi. Sonra o, Buğaya yazdı ki, yük daşıyan bir neçə dəvə alıb, pulu dəvələrə yüklətsin, yükləri bərkitsin və karvan düzəldib Ərdəbildən çıxsın və özünü elə göstərsin ki, guya Bərzəndə tərəf yola düşür. Lakin Məsləhə ən-Nəhrə[2] çatandan, ya da iki fərsəx gedəndən sonra karvanı orada o qədər saxlasın ki, pulun yanında gedənlər gəlib Bərzəndə çatsınlar, karvan gedəndən sonra isə pul ilə Ərdəbilə qayıtsın.

Buğa belə də etdi, karvan yola düşüb, ən-Nəhrə çatdı. Bunun ardınca Babəkin casusları onun [Babəkin] yanına gedib, xəbər verdilər ki, pul göndərilmişdir və onlar pulun ən-Nəhrə gətirildiyini

---

[1] Buğa əs-Səğirdən (Kiçik Buğadan) fərqli olaraq, Buğa əl-Kəbir (Böyük Buğa) bir neçə xəlifə dövründə görkəmli sərkərdə idi. 868-ci ildə edam edilmişdir. Buğa (öküz) adı onun əslində türk mənşəli olduğunu göstərir.

[2] Bu Hins ən-Nəhrdir.

öz gözləri ilə görmüşlər. Həqiqətdə isə Buğa pulu götürüb Ərdəbilə qayıtmışdı.

Afşin Buğa ilə şərtləşdiyi günün axşamı Bərzənddən çıxdı, gün batanda Xuşa gəlib çatdı. Orada Afşin Əbu Səidin xəndəklərindən kənarda yerləşdi. Səhər açılanda, o, təbil vurmadan və bayraqları açıb nümayiş etdirmədən sakit hərəkətə keçdi. Əmr etdi ki, bayraqlar bükülüb yığılsın, adamlar səssiz və cəld irəliləsinlər.

Həmin gün {1176} ən-Nəhrdən əl-Xeysəm əl-Qənaviyə tərəf getməli olan karvan yola düşdü; Afşin də Xuşdan əl-Xeysəmin məntəqəsinə tərəf yola düşdü ki, yolda ona rast gəlsin, lakin əl-Xeysəmin bu barədə xəbəri yox idi, buna görə də o özü və karvanda onunla gedənlər təcili ən-Nəhrə tərəf getdilər. Babək öz atlı və piyadalarını sıraya düzüb ən-Nəhr yoluna tərəf getdi; o, belə güman edirdi ki, yüklənmiş pul onun əlinə keçəcəkdir. Ən-Nəhr qarovulxanasının rəisi, əl-Xeysəmlə gedənlərin çağırışı ilə onları müdafiə etməyə getdi, lakin Babəkin atlıları ona hücum edib, pulun onlarda olduğuna şübhə etmirdilər. Ən-Nəhr qarovulxanasının rəisi döyüşə girdi, lakin Babəkin qoşunları onu, habelə döyüşçüləri və müşayiət edənləri öldürdülər, sonra onların bütün azuqələri və digər bu kimi şeylərini ələ keçirib, belə güman etdilər ki, xəzinə əllərindən çıxmışdır. Bundan sonra onu [Alaveyxin] rütbəsini bildirən nişanları, habelə ən-Nəhrin adamlarının paltarlarını onların şəxsi silah[1], bayraq və qaftanlarını[2] ələ keçirib geydilər, onlar paltarlarını ona görə dəyişdirdilər ki, əl-Xeysəm əl-Qənavini və onunla gedən adamları tutsunlar. Lakin Afşinin getdiyindən xəbərləri olmadığına görə özlərini ən-Nəhr qarnizonu kimi qələmə verdilər. Onlar gəlib çatanda ən-Nəhr qarnizonu rəisinin nişanlarının adətən olduğu məntəqəni tapmadılar, buna görə onlar müxtəlif məntəqələrdə gözlədilər. Əl-Xeysəm gəlib, adətən qaldığı yerdə gözləməyə başladı, ancaq orada

---

[1] M ı z a r a q –qısa silah, nizə. B a x: R.Dozy. Sitat gətirilən əsəri, səh. 177-180; A.Mez. The Renaissance of Islam, p. 84, 89.

[2] Dizə qədər geyilən qollu və ya qolsuz paltar, kaftan. B a x: R.Dozy. Sitat gətirilən əsəri, səh. 162-168.

gördükləri onun narahatlığına səbəb oldu, Odur ki, öz əmisi oğlunun dalınca adam göndərib, ona belə dedi: "Get bu murdarın yanına, ona söylə: "Səni orada saxlayan nədir?" Əl-Xeysəmin əmisi oğlu getdi, lakin bu adamlara lap yaxınlaşandan sonra onları [heç]tanımadıqda, əl-Xeysəmin yanına qayıdıb, dedi: "Mən doğrudan da bu adamları tanımıram".

Əl-Xeysəm ona belə dedi: "Görüm, Allah sənin üzünü qara etsin, sən nə qorxaq imişsən?" Sonra əl-Xeysəm {1177} beş atlı göndərdi, onlar Babəkin yanına çatıb dayananda, xürrəmilərdən iki nəfər çıxıb onları qarşıladı, atlılar onları [Alaveyxin adamları] hesab etmədilər, lakin həmin iki nəfərə özlərini elə göstərdilər ki, guya onları doğrudan da ərəb karvanının adamları hesab edirlər. Sonra atlılar əl-Xeysəmin yanına çaparaq belə dedilər: "Həqiqətən bu kafir Babək Alaveyxi və onun adamlarını öldürüb, onların bayraqları və geyimlərini ələ keçirmişdir".

Əl-Xeysəm bunu eşidən kimi, geriyə dönüb, öz yanına gələn karvana çatdı və onlara əmr etdi ki, tez çaparaq qayıtsınlar, yoxsa ələ keçəcəklər. Əl-Xeysəm və onun adamları onlarla getməyib, yavaş-yavaş hərəkət etməyə başladılar. Bəzən qısa müddət üçün dayanıb, xürrəmilərin diqqətini karvandan yayındırmağa çalışırdılar; onlar karvanın arxa dəstəsi kimi hərəkət edirdilər; ta o zamana qədər ki, karvan gəlib əl-Xeysem öz adamlarına dedi: "Sizlərdən kim çaparaq əmirin [Afşinin] və Əbu Səidin yanına gedib, baş verən əhvalatı onların hər ikisinə söyləyə bilsə, ona 10 min dirhəm pul və atı taqətdən düşərsə, ona yeni at verəcəyəm". Sonra o öz adamlarını iti gedən atla göndərdi; onlar çaparaq getdilər, əl-Xeysəm isə qalada qaldı.

Babək və onun yanında olanlar gəlib əl-Xeysəmin qalası yanında dayandılar. Babək üçün hündür bir yerdə taxt qoydular və o, qala ilə üzbəüz oturub əl-Xeysəmə məktub yazdı, qasidlə göndərdi: "Qaladan çıxıb get, yoxsa onu dağıdacağam". Əl-Xeysəm isə rədd cavabı verdi və onunla vuruşmaya girişdi. Qalada əl-Xeysəmlə birlikdə 600 piyada və 400 atlı qoşun var idi, bundan başqa, onun çox möhkəm xəndəkləri olduğuna görə özü hücuma keçdi. Sonra

Babək öz adamlarının ortasında oturdu, içmək üçün onların qabağına şərab qoyulmuşdu, vuruşma başlananda, Babək adətən belə edərdi.

İki atlı [əl-Xeysəmin qasidləri] Arşaka bir fərsəxdən az qalmış bir məsafədə Afşini gördülər; Afşin atlıları uzaqdan görcək, özünün dəstəsinin komandanına dedi: "Çox iti çapan iki atlı görürəm {1178}. Vurun təbilləri, açın bayraqları, onların qabağına çaparaq gedin". Onun adamları bu əmri yerinə yetirdilər. Onlar öz addımlarının sürətini artırdılar, o dedi: "Hər ikisinə ucadan deyin: "Sizə köməyə! Sizə köməyə!" Adamlar da atlara minib dördayaq çapdılar və hələ oturan Babəkə tez çatdılar. O, macal tapıb dərhal ata minə bilmədi. Ona at çapdırıb piyadalar gəlib çatınca, vuruşma başlandı. Babəkin piyadalarından biri də canını salamat qurtarmadı, özü isə bir neçə adamla canını xilas edib qaçdı və Mukana çatdı, burada onun silahdaşları ondan ayrıldılar. Afşin burada qalıb, gecəni keçirdi, sonra da öz ordugahı Bərzəndə qayıtdı.

Babək bir neçə gün Mukanda qalıb sonra da əl-Bəzzə adam göndərdi, gecə ikən onun yanına qoşun gəldi ki, içərisində piyada qoşun da var idi; o həmin qoşunla birlikdə Mukandan əl-Bəzzə keçdi.

Afşin Bərzənddə qalıb, oranı möhkəmləndirməkdə davam edirdi. Bir neçə gündən sonra Xuşdan Bərzəndə gedən bir karvan onun [Babəkin] yanından keçirdi; bu karvanda Əbu Səidin adamlarından Saleh Abkəş [sudaşıyan] adlı bir nəfər var idi. Babəkin sepəhbüdü karvana hücum edərək, oradakıları və Salehin yanında gedənləri öldürdü. Saleh canını qurtara bilənlərlə birlikdə, yavaşca aradan sovuşub qaçdı, lakin karvanda olanların hamısı qırıldı, onların əmlakı qarət edildi. Bu hadisə Afşin ordusunun sudan korluq çəkməsinə səbəb oldu, çünki Abkəşin əlindən tutub aldıqları karvan ərzaq daşıyırdı. Bundan sonra Afşin Marağa[1] qarnizonu rəisinə məktub yazıb, əmr etdi ki, ərzaq götürüb {1179} təcili onun yanına gətirsin, çünki adamları susuzluqdan və aclıqdan korluq çəkirlər.

[1] Azərbaycanda, Urmiya gölünün şərqində məhsulu bol olan bir yerdir ("Marağa" - "otlaq" deməkdir). Babək ölkəni ələ keçirəndən sonra camaat Marağaya gedib şəhəri bağladı və Babakə qulluq etməkdən boyun qaçırdı. Yaqut, IV, səh. 476-478; G. le Strange. Sitat gətirilən əsəri, səh. 164.

Marağa qarnizonu rəisi ona böyük bir karvan göndərdi. Karvanda təqribən min baş yük heyvanı - uzunqulaq və başqa bu kimi heyvanlar var idi ki ərzaq daşıyırdı; onu qoruyan silahlı dəstə də karvanla gedirdi. Lakin Babəkin bəzi qoşun hissələri Tarxanın və ya Adilin komandanlığı ilə karvana hücum edib, onunla gedənlərin hamısını məhv etdi. Afşinin adamlarına cismən və ruhən zərbə endirilmişdi; buna görə Afşin qarnizon rəisi əs-Siravana [əmr edib] yazdı ki, ona azuqə çatdırsın, buna görə o, çoxlu ərzaq göndərib, həmin ildə [Afşinin] adamlarının köməyinə çatdı.

Buğa Afşinə pul və ərzaq çatdırdı.

## {1186} 221 (835/836)-ci il[1]. Bu ilin hadisələri

Həmin ildə Həştadsər[2] ətrafında Babək ilə Buğa əl-Kəbir arasında vuruşma oldu; bu vuruşmada Buğa qaçmağa üz qoydu, ordusu isə darmadağın edildi. Yenə həmin ildə Afşin Babək ilə vuruşdu və onu qaçmağa məcbur etdi.

## {1187} Vuruşma və onun səbəbləri haqqında deyilənlər

Deyirlər ki, Buğa əl-Kəbir əvvəlcə söylədiyimiz kimi pul ilə gəlmiş, Mötəsim də həm Afşinin qoşunu üçün maaş, həm də Afşinin öz xərci və bu yaxınlarda onu qüvvətləndirməyə göndərilən piyada qoşun xərci üçün pul göndərmişdi. Afşin öz qoşununa pul payladı və Novruzdan [Yeni ildən] sonra yeni hücum əməliyyatına hazırlaşmağa

---

[1] Hicri 221-ci il 835-ci il dekabrın 26-da başlanmış, 836-cı il dekabrın 14-də bitmişdir.

[2] "80 zirvə" mənasında olan fars sözüdür. B a x: P.Schwarz. Iran in Mittelalter nash den Arahischen geographen, p. 970; EI, I, p. 547; "Həştadsər Marağa dağlarında"

başladı. O, Buğaya əmr etdi Həştadsərin arxasına keçib Məhəmməd ibn Hümeyd Xəndəyində [1] dayansın və onu dərinləşdirib möhkəmləndirsin. Buğa tələsib irəli getdi, ta o qədər ki, Məhəmməd ibn Hümeyd Xəndəyinə gəlib çatdı. Sonra Afşin Babəki axtarmaq üçün Xuşdan çıxdı və onlar Dərvaz[2] adlı yerdə görüşdülər. Afşin burada xəndək açdı və ətrafına hasar çəkdi, sonra o və Əbu Səid özləri ilə gələn fədailərlə[3] həmin xəndəkdə yerləşdilər; bu xəndək Bəzzdən 6 mil aralı idi.

Buğa[4] öz hazırlığını başa çatdırdı. O özü ilə müxtəlif ərzaq götürdü, lakin bunlar Afşinin ona yazıb əmr etdiyi ərzaq deyildi. O, Həştadsərin arxasından keçib, Bəzz kəndinə çatdı və burada bir gün qaldı. Sonra o, 100 nəfəri yem toplamağa göndərdi. Lakin Babəkin qoşun birləşmələrindən biri hücum edib yem toplayanları məhv etdi, vuruşanları qırdı, əlinə keçənləri əsir etdi. Onlar bir neçə əsiri ayırıb, onların içərisində Afşinlə əlaqəsi olan iki nəfəri seçdilər və bunlara dedilər: "Gedin Afşinin yanına {1188}, öz yoldaşlarınızın başına gələnləri ona söyləyin". Həmin iki nəfər getdi, dağlıların başçısı[5] onları görüb, işarə verdi. Ordugahda olanlar dərhal qışqırıq qopartdılar: "Silah başına! Silah başına!" və ata minib əl-Bəzzə tərəf çapdılar. Bu iki nəfər çılpaq onları gördülər, qabaqdakı dəstə komandiri onları Afşinin yanına apardı; onlar Afşinə öz vəziyyətlərini söylədilər; Afşin isə belə dedi: "Buğa əmr etdiyimiz

---

[1] "Məhəmməd ibn Hümeyd Xəndəyi". O, xəlifə Məmunun sərkərdələrindən biri idi. Babək onu məğlub etdi; o, 829/830-cu ildə öldürülmüşdür; İbn Xallikan, I, səh. 355, qeyd 6.

[2] Azərbaycanın sərhədinə. Yaqut, səh. 320.

[3] M ü t ə l ə v v i y ə - xəzinə təminatında olmayan qoşun, Bu qoşunda olanlar nizami xidmətdə deyildilər və istədikləri vaxt ordunu tərk edə bilərdilər. Əbu Səidin ordusu fədailərdən ibarət idi, Cambridge Medieval History. Cambridge, 1936, p. 284-285.

[4] Ərəb tarixçiləri Buğanı həmişə görkəmli bir sərkərdə hesab edirlər, lakin faktlar bunu təsdiq etmir, Mötəsimin və Vaqisin hökmranlığı dövründə Buğa dəfələrlə məğlub edilmişdir.

[5] K u h b a n i y y a - dağ yolları bələdçiləri. EI, I, səh, 547.

kimi hərəkət etmədi." Darmadağın edilmiş Buğa təcili olaraq Məhəmməd ibn Hümeyd Xəndəyinə qayıtdı və Afşinə yazdığı məktubunda özünün başına gələn əhvalatı onun üçün təsvir edərək, ondan yeni qüvvə göndərməsini xahiş etdi, qoşunun darmadağın edilməsini izah etdi. Afşin öz qardaşı əl-Fəzl ibn Kavusu, Əbməd ibn əl-Xəlil ibn Hişamı ibn Couşəni, Cənah əl-Əvar əs-Sukkarini və polis başçısı əl-Həsən ibn Səhli[1] göndərdi, o, habelə iki qardaşdan birini - qohum əl-Fəzl ibn Səhli[2] də göndərdi. Onlar Həştadsərin yanından keçdilər və onun [Buğanın] ordugahında olanlar onların gəlməsindən sevindilər. Bundan sonra Afşin Buğaya yazıb bildirdi ki, o, təyin etdiyi gündə Babəkə qarşı hücum səfərinə başlayacaqdır; ona da əmr etdi, həmin gündə hərbi səfərə çıxsın, ta Babəkə iki tərəfdən hücum edilsin.

Buna uyğun olaraq, təyin edilmiş gündə Afşin Darvazı tərk edib Babəkə qarşı səfərə başladı. Buğa isə Məhəmməd ibn Hümeyd Xəndəyindən hərəkət edərək, Həştadsərə qalxdı və Məhəmməd ibn Hümeyd Xəndəyindən bir ox meydanı aralı bir yerdə dayandı. Lakin soyuq külək qalxdı və bərk yağış başladı, adamlar nə bərk soyuğa, nə də küləyə dözə bilmədiyindən Buğa öz ordugahına qayıtdı.

Buğa öz ordugahına qayıdandan sonra, səhər {1189} Afşin hücuma keçdi və Babəki mühasirəyə alıb, onun ordugahını və çadırını habelə orada Babəklə olan qadını tutdu. Sonra Babəkin ordugahında qaldı. Səhər Buğa yenidən hazırlıq görüb Həştadsərə qalxdı, lakin gördü ki, onunla üzbəüz Həştadsərdə yerləşən qoşun, Babəkə tərəf qayıtmışdır. Onda Buğa ordugah olan yerə getdi. Orada o, qarət edilmiş şeylərin qalıqlarını və müxtəlif xırım-xırda gördü. Sonra o Həştadsərdən enib əl-Bəzzə tərəf getdi. Yolda o, yatmış bir

---

[1] O, islamı qəbul etmişdi, maliyyə idarəsinin başçısı və Məmunun dövründə bir sıra vilayətin hakimi idi; Məmun öz qızını ona vermişdi. 849/850-ci ildə ölmüşdür, EI, II, səh. 276; İbn Xallikan, 1, səb. 268-281; 408-409. Əl-Fəzl ibn Səblin qardaşıdır.

[2] Məmunun vəziri. Xəlifənin dövründə yüksək nüfuza malik idi, lakin onun əmri ilə 817/818 və ya 818/819-cu ildə öldürülmüşdü. B a x: İbn Xallikan, II, səh. 472-475.

kişi və oğlana rast gəldi, onun qabaqcıl dəstəsinin sərkərdəsi Davud Siyah [Qara] onları tutub hər ikisini dindirdi; onlar belə dedilər: Babək qaçan axşam Babəkin qasidləri gəlib, əmr etdilər ki, onunla əl-Bəzzdə görüşsünlər. Kişi və oğlan içib məst oldular, onları yuxu basdı və bundan sonra nə olduğunu bilmirlər. Axşam namazı vaxtında onlar əsir düşmüşdülər. Sonra Buğa Davud Siyaha qasid göndərib belə xəbər verdi: "Biz indi, yaxşı bələd olduğumuz, yəni bir dəfə olduğumuz yerin ortasındayıq. İndi axşamdır, piyada qoşun da yorulmuşdur. Buna görə kifayət qədər möhkəm və əlçatmaz olan bir dağ axtar tap ki, adamlarımız orada sığınsın və biz bu gecə onları orada yerləşdirə bilək". Davud Siyah əlverişli yer axtarmağa başladı. O, dağlardan birisinə qalxıb çox uca zirvəsinə yüksəlməyə çalışdı. Sonra o, Afşinin işarəsini və onun ordugahının yaxında olduğunu görüb dedi: "Səhər açılanadək burada qalarıq, sonra səhər açılan zaman Allahın köməyi ilə bu kafirin üstünə düşərik"

Lakin o gecə hava buludlandı, soyuq oldu, yağış və çoxlu qar yağdı, buna görə səhər açılanda hava bərk soyuq olub hər yeri dəhşətli qar örtdüyündən heç kəs dağdan enə bilmədi ki, özü üçün və ya heyvanlardan ötrü su gətirsin. Hava dumanlı və qaranlıq olduğuna görə adamlara elə gəlirdi ki hələ gecədir. Üçüncü gün adamlar Buğaya belə dedilər: "Özümüzlə gətirdiyimiz ərzaq qurtarmışdır {1190}. Soyuq da bizi kəsdi, biz necə olursa olsun aşağıya enməliyik - ya geri qayıtmalı, ya da irəliləyib kafirin [Babəkin] üstünə getməliyik".

Dumanlı günlər keçirdi, Babək də gecələr Afşinin müdafiə xəttini yarıb onu təngə gətirirdi, odur ki, Afşini çəkilib öz ordugahına getməyə məcbur etdi.

Bundan sonra Buğa əvvəlki kimi əl-Bəzzi axtarmaq üçün əmr etdi təbillər vurulsun, sonra aşağıya enib düzəngaha çatdı. Burada o gördü ki, səma saf və buludsuzdur, yuxarıda dağın başından başqa hər tərəfdə yer qurudur və keçmək olar; buna görə Buğa öz adamlarını hər iki cinahda və qabaqda döyüş sırasına düzdü və əl-Bəzz istiqamətində hərəkət etdi; o, Afşinin öz ordugahında olduğuna şübhə etmirdi. Tələsik irəliləyirdi, nəhayət, əl-Bəzzin olduğu dağın yamaclarına çatdı, onun olduğu yer ilə dağın üstündə əl-Bəzz

evlərinin arasında ancaq dağ yamacı vardı və uzunluğu təqribən yarım mil olardı. Onun qabaq dəstəsindəki adamların arasında ibn əl-Bəis adamlarından bir gənc var idi ki, onun da əl-Bəzzdə qohumları yaşayırdı. Babəkin kəşfiyyatçıları onlara rast gəldilər, gənc oğlan onlardan birini tanıyıb dedi: "Bəs belə!" O adam oğlandan soruşdu: "Bu adamlar kimdir?" Onda gənc oğlan özünü tanıtdırmaq üçün özü ilə olan qohumlarının adını həmin adama dedi. Sonra həmin adam belə dedi: "Bir az yaxın gəl, çünki səninlə danışmaq istəyirəm. Oğlan yaxınlaşandan sonra həmin adam ona dedi: "Qayıt, öz ağana de ki, geri qayıtsın, çünki biz gecə Afşinin üstünə düşəcəyik, qoy o çəkilib öz xəndəyinə getsin, sizin üçün isə iki ordu hazırlamışıq. Buna görə tez qayıdın, bəlkə canınızı qurtara biləsiniz".

Cavan oğlan qayıdıb, bütün əhvalatı ibn əl-Bəisə danışdı və həmin adamın adını dedi. İbn əl-Bəis həmin adamı tanıdı və bu barədə Buğaya məlumat verdi. Buğa öz adamlarını dayandırıb, onlarla məsləhətləşdi; onlardan biri belə dedi: "Bu, yalan və hiylədir. Bu, düz deyil!". Onda dağlılardan biri dedi: "Bu dağın zirvəsinə mən yaxşı bələdəm. Kim bu dağın başına çıxsa {1191} Afşinin ordugahını görə bilər". O zaman Buğa əl-Fəzl ibn Kavus və bir dəstə cəld adamlarla birlikdə, Afşinin dayanmış olduğu yerin yuxarısına qalxdılar, lakin Afşinin ordugahını görməyib yəqin etdilər ki, o getmişdir. Yenidən bir-birilə məsləhətləşib bu qərara gəldilər ki, işıq ikən adamlar qayıtmalıdır; onlar yola düşdülər. Onda Buğa Davud Siyaha [qabaq dəstə başçısına] əmr etdi qayıtsın, o da əmri tez yerinə yetirdi, birbaşa Həştadsərə gedən düz yolla getmədi. Çünki dərə və dağ cığırlarından ehtiyat edirdi, Bunun əvəzinə o, birinci dəfə getdiyi yolla gedib, Həştadsərin ətrafına dolandı, çünki bu yolda, bircə yer istisna edilməklə, dərə yox idi. O, döyüşçü dəstələri ilə birlikdə gedirdi və piyada qoşuna məlumat göndərirdi, piyada qoşun isə yolda nizə və silahını atmışdı [ki, daha tez yeriyə bilsin], onları böyük qorxu və dəhşət basmışdı.

Buğa və əl-Fəzl ibn Kavus bir neçə sərkərdələrlə qoşunun dalında gedirdi. Babəkin kəşfiyyatçıları göründülər, onlar [ərəblər] dağdan enəndən sonra Babəkin kəşfiyyatçıları dağa qalxırdılar ki, onlara göz qoysunlar, buna görə bəzən onları görür, bəzən də onlar

gözdən itirdilər, lakin onların izi ilə getməkdə idilər. Kəşfiyyatçılar təqribən on atlıdan ibarət idi; onlar günorta və axşam namazı arasındakı vaxtadək getdilər. Sonra Buğa atdan düşdü ki, dəstəmaz alıb namaz qılsın, Babəkin kəşfiyyatçıları onların dalınca dağdan enib, açıq yerə çıxdılar. Buğa namaz qılanda onları gördü, onlar Buğanı görəndə dayandılar. Buğa qorxdu, zira belə düşünürdü ki, kəşfiyyatçılar o biri tərəfdən onun dəstələrinə hücum edə bilərlər. Digərləri isə dağ və dərələrdə onların arxasına keçərlər. O, yanındakılarla məsləhətləşib, belə dedi: "Mən isə əmin deyiləm ki, onlar istəyirlər bizi yola tərəf çəksinlər və (1192) dərələrdən çıxan yolları bizimkilərin üzünə bağlamaq üçün öz adamlarını irəliyə göndərsinlər".

Əl-FəzI ibn Kavus ona dedi: "Onlar gündüz vuruşmurlar. Onlar həvəslə gecə vuruşurlar, buna görə gərək kimsə gecə bizim adamların qeydinə qalsın. Davud Siyaha [əmr] göndər hərəkəti sürətləndirsin və dayanmasın. Əgər gecə düşənədək o, dərədən keçib çıxmasa, biz burada gözləyəcəyik, çünki onlar nə qədər ki, öz yollarında bizi görürlər, uzağa getməyəcəklər, biz isə onları saxlarıq və qaranlıq düşənədək bəzən onları dəf edərik. Sonra qaranlıq düşəndə, onlar bizim yerimizi bilməyəcəklər, bizim adamlar da bir-birinin ardınca özünə yol açıb gedəcəklər. Dərənin yolu bizim üzümüzə bağlanarsa, Həştadsər yolu və ya başqa yol ilə özümüzü xilas etməliyik".

Lakin başqaları Buğaya belə məsləhət gördülər: "Ordunun sırası uzanmışdır, nə irəlidə gedənlərin, nə də geridə qalanları bir yerə yığmaq mümkün deyildir. Adamlar öz silahlarını yolda atmışlar, pul və silah isə hələ də yanında adamı olmayan qatırlara yüklənmişdir, buna görə biz əmin deyilik, birisi onların qabağını kəsib, pul və əsirləri ələ keçirməsin". Onlar, yanlarında əsir saxladıqları ibn Cavidanı nəzərdə tuturdular, çünki onu, Babəkin yanında əsir qalan katib Əbd ür-Rəhman ibn Həbib ilə dəyişmək istəyirdilər.

Pul, silah və əsirləri Buğanın yadına salanda o öz adamları ilə dayanıb, düşərgə salmaq qərarına gəldi. Davud Siyaha adam göndərib, belə dedi: "Keçilməz dağ görən kimi düşərgə sal".

Bundan sonra Davud Siyah hər tərəfi sıldırım qonşu dağa getdi. Lakin bu dağ sıldırımlı olduğu üçün adamların burada dincini almasından ötrü yer yox idi. Lakin o burada düşərgə saldı və dağın yamacında, heç bir tərəfdən yanaşmaq mümkün olmayan divara oxşayan bir yerdə çadır qurdu. Sonra Buğa gəlib, adamlara tapşırdı burada dayansınlar, çünki onlar çox yorulub taqətdən düşmüşdülor, onların azuqəsi də qurtarmışdı. Onlar gecəni silaha sarılmış halda keçirib, dağa qalxan yerdə qarovullar qoydular. Lakin düşmən müxtəlif istiqamətdən onların üstünə hücuma keçdi və dağa dırmaşmağa başlayaraq, {1193} nəhayət, Buğanın çadırına çatdı. Burada onlar [Buğanın] qoşununu mühasirəyə alıb vuruşmağa başladılar, Buğa piyada qaçıb canını qurtardı, əl-Fəzl ibn Kavus yaralandı, Cənah əs-Sükkari, habelə ibn Couşən və əl-Fəzl ibn Səhlin qohumları olan iki qardaşdan biri öldü. Buğaya gəlincə, o doğrudan da düşərgəni piyada tərk etdi, sonra at tapıb mindi və yolda ibn əl-Bəisə rast gəldi; o da Həştadsərin zirvəsinə qalxmaqda Buğaya kömək etdi; buradan onlar Məhəmməd ibn Hümeyd düşərgəsinə enə bilərdilər, onlar enib gecəyarısı bu düşərgəyə çatdılar. Xürrəmilər, pul, düşərgə və silah ələ keçirdilər, habelə əsir olan ibn Cavidanı götürdülər, lakin onlar qoşunu [ərəb qoşununu] təqib etmədilər; bu qoşun iki dəstəyə bölünərək, qaça-qaça gözdən itdi və nəhayət, Məhəmməd ibn Hümeyd Xəndəyində olan Buğaya gəlib çatdılar.

Buğa burada 15 gün qaldı, nəhayət, Afşindən məktub gəldi; o, Buğaya əmr etdi ki, Marağaya qayıtsın və ona göndərilmiş köməkçi qüvvələri qaytarsın. Buğa Marağaya yola düşdü, əl-Fəzl ibn Kavus, habelə onunla gəlmiş Afşin qoşununun hamısı Afşinin yanına qayıtdı. Sonra Afşin qoşunu bölüb, bu ilin qış mənzillərində saxladı, qoşun da burada gələn ilin yazınadək qaldı.

Həmin ildə Babəkin sərkərdəsi Tarxan öldürüldü.

## Bunun səbəbləri

Deyirlər ki, həmin Tarxan Babəkin ətrafındakı adamların arasında çox nüfuzlu olub, onun sərkərdələrindən biri idi. Bu ilin qışı

başlananda o, Babəkdən icazə istədi ki, qışı Marağa yaxınlığındakı kəndində keçirsin. O zamanlar Afşin onu izləyirdi {1119} və Babəkin yanındakı yüksək mövqeyinə görə, çox istəyirdi onu tutsun. Babək ona [Tarxana] icazə verdi, o da Həştadsərin yaxınlığındakı öz kəndinə getdi ki, qışı orada keçirsin. [Bundan xəbər tutan] Afşin Marağada yaşayan türk-movla İshaq ibn İbrahim ibn Müsəbə məktub yazıb, əmr etdi ki, gecə həmin kəndə (məktubda təsvir etdiyi kəndə) getsin və Tarxanı ya öldürsün, ya da tutub onun yanına əsir göndərsin. Buna görə həmin türk Tarxanın dalınca getdi və gecəyarısı qəflətən ona hücum edib öldürdü. Sonra onun başını kəsib, Afşinə göndərdi.

## 222 (836-837)-ci il[1]. Bu ilin hadisələri

Həmin ildə Mötəsim Cəfər ibn Dinar əl-Xəyyatı[2] (1195} köməkçi qüvvə ilə Afşinə göndərdi. Sonra o, Cəfərin ardınca göndərdiyi İtah[3] ilə qoşuna maaş vermək və digər xərclər üçün 30 milyon dirhəm pul yolladı.

Yenə həmin ildə Afşinin sərkərdələri ilə Babəkin Adin adlı sərkərdəsi arasında vuruşma oldu.

## Bu vuruşmanın təsviri və səbəbləri

---

[1] Hicri 222-ci il, 836-cı il dekabrın 14-də başlanmış və 837-ci il dekabrın 3-də bitmişdir.

[2] Mötəsimin sərkərdələrindən biridir. 838/839-cu ildə Yəmən hakimi olmuş, 839/840-cı ildə işdən çıxarılmış və 845/846-cı ildə yenidən təyin olunmuşdur.

[3] İ t a h - qul aşpaz idi və 814/815-ci ildə Mötəsimə bağışlanmışdı. Mötəsimin böyük sərkərdələrindən biri olub, Samarrada saray mühafızlərinin başçısı rütbəsinə çatdı. Mötəsimin ölüm hökmü çıxardığı adamları öz evində öldürərdi. Xəlifə Mütəvəkkilin əmri ilə 849/850-ci ildə öldürüldü. Ət-Təbəri, III, səh. 1387; İbn Xallikan, I, səh, 599.

Deyildiyinə görə, 221 (835/836)-ci ilin qışı qurtarıb, 222 (837)-ci ilin yazı başlananda Mötəsim Afşinə yuxarıda deyilən köməkçi qüvvəni və pul göndərdi, bunların hamısı Afşin Bərzənddə olanda gəlib çatdı. İtah özü ilə gətirdiyi pul və piyada qoşunu Afşinə verəndən sonra qayıtdı. Cəfər əl-Xəyyat isə bir müddət Afşinin yanında qaldi. Vaxt gəlib çatanda [və havalar yaxşılaşanda] Afşin səfərə çıxdı və Kəlanrud[1] adlı yerə gəlib, burada səngər tutdu. Sonra o, Əbu Səidə məktub yazdı; Əbu Səid isə Bərzənddən çıxıb Kəlanrud (bu da farsca böyük çay deməkdir) kəndinin yaxınlığında Afşin ilə üzbəüz olan yerə gəldi; hər ikisinin arasındakı məsafə təqribən 5 mil idi. Əbu Səid səngərlərdə yerləşib beş gün Kəlanrudda qaldı. Sonra o öz xəbərçilərindən məlumat aldı ki, Babəkin Adin adlı komandirlərindən biri Afşin ilə üzbəüz yerdə düşərgə salmışdır və öz ailəsini Rud ər-Rudun[2] üstündəki dağa köçürüb, belə demişdir: "Mən yəhudilərdən [müsəlmanlar nəzərdə tutulur] gizlənməyəcəyəm və öz ailəmi də onlardan gizlətməyəcəyəm". Bu əhvalatın səbəbi o idi ki, Babək ona belə demişdi: "Öz ailəni gizlət, onu qalada saxla", o isə belə cavab vermişdi: "Mən yəhudilərdən gizlənəcəyəm! Allaha and olsun, mən heç bir zaman ailəmi qalaya aparmayacağam". Sonra o öz ailəsini həmin (1196) dağa apardı.

Afşin Əbu Səidin iki komandiri olan Zəfər ibn əl-Əla əs-Sədini və əl-Hüseyn ibn Xalid əl-Mədainini bir dəstə atlı və dağlı ilə göndərdi, Onlar gecə Kəlanruddan çıxıb getdilər və nəhayət elə bir dar dərəyə düşdülər ki, bir nəfər atlı güclə keçə bilirdi. Adamların çoxu öz atlarını yedəkləyib bir-birinin ardınca gedirdilər, çünki o [Afşin], onlara əmr etmişdi səhər açılanadək Rud ər-Ruda çatsınlar. Dağlılar sıraya düzülüb, piyada gedirdilər, çünki atlılar oradan keçə bilmirdilər. Onlar dağa dırmaşıb [əmr edildiyi kimi] səhər açılanadək Rud ər-Ruda çatdılar. Bundan sonra o [Zəfər] özü ilə gedən atlılara əmr etdi, yaxınlaşıb atdan düşsünlər və öz paltarlarını çıxartsınlar,

---

[1] Azərbaycanda Bəzzin yaxınlığında axan çaydır. Yaqut, IV, səh. 297.

[2] Barzənddən təqribən 6 fərsəx və Bəzzdən bir fərsəx aralı. İbn Xordadbeh,BGA,VI,səh. 121.

buna görə onların hamısı atdan düşüb çayı keçdilər, dağlılar da onlarla birlikdə çayı keçib dağa qalxdılar. Onlar Adinin ailəsini və bəzi oğlanlarını tutub, onlarla birlikdə geri qayıtdılar.

Ailəsinin tutulduğu haqqında Adinə xəbər çatdı, Afşin də ehtiyat edirdi ki, piyadalar qayıdarkən dərəyə girəndə, onların yolunu kəsə bilərlər. Buna görə o, dağlılara əmr etmişdi ki, özləri ilə bayraq götürüb ən uca dağların zirvəsinə çıxsınlar və elə bir yerdə dursunlar ki, Zəfər ibn əl-Əla və onun adamları onları görə bilsinlər və əgər ehtiyat edilə biləcək adam görsələr, bayraqları açıb dalğalandırsınlar. Buna görə dağlılar gecəni dağların başında keçirtdilər.

İbn əl-Əla və əl-Hüseyn ibn Xalid Adinin ailə üzvlərini tutub qayıdanda və dərə tərəfə gedən dar yola düşəndə Adinin piyada qoşunu dağın yamaclarından düşüb onlarla vuruşmağa başladı və dar yola keçməyə [imkan] vermədi. Hər iki tərəfdən çoxlu adam qırıldı {1197}, lakin onlar bir neçə qadını xilas etdilər.

Afşinin yerləşdirdiyi dağlılar onları gördülər; Adin iki dəstə göndərmişdi ki, dərəni onların üzünə bağlasınlar. Dağlılar bayraqlarla işarə verəndə, Afşin Müzəffər ibn Heydəri bir eskadron[1] atlı ilə göndərdi, atlılar çaparaq getdilər. O, Müzəffərin ardınca Əbu Səidi göndərdi, bunların ardınca isə Buxaraxudatı[2] yolladı. Sonra onların hamısı görüşdü. Adinin, dərənin üstündə olan piyadaları onları görəndə, dağdan enib öz dəstələrinə qoşuldular. Zəfər ibn əl-Əla, əl-Hüseyn ibn Xalid və onların adamları qaçdılar. Birinci vuruşmada ölənlərdən başqa, kimsə öldürülmədi. Onlar birlikdə Afşinin ordugahına gəldilər, tutduqları qadınları da gətirdilər.

---

[1] H.Frays (N.Fries. Das Heereswesen der Araber zur Zeit der Omajjaden nach Tabari Gescholdet, 1921, s. 42) ərəb leksikoqraflarınıı araşdırdıqdan sonra bu nəticəyə gəlmişdir ki, kurdus - tərkibində 30-dan 200-dək atlı olan eskadrondur.

[2] Mötəsimin gorkəmli sərkərdəsi olub, hələ Məmuna qulluq etmişdi. O, Transoksaniyada qoşun sərkərdəsi idi; Chronique de Tabari, IV, p. 535. Onun adı bizə məlum deyildir, biz ancaq onu bilirik ki, onun ləqəbi "B u x a r a x u d a t" - "Buxara hakimi"dir. Buxaraxudatlar haqqında b a x: İbn Xordadbeh, BGA, VI, səh. 40; B.B.Бартольд. Туркестан эпоху монгольского наществия, ч. II, 1990.

Həmin ildə Babəkin şəhəri əl-Bəzz alındı. Müsəlmanlar bu şəhərə girib 222-ci il, cümə günü ramazan ayının 20-də [837-ci il avqustun 26-da][1] onu dağıtdılar.

## Bu xüsusdakı məlumat, şəhər necə alındı və bunun səbəbləri

Deyildiyinə görə, Afşin Kəlanrudu tərk edib əl-Bəzzin üstünə hərəkət etmək qərarına gələndə, əvvəllər dayandığı yerlərə tərəf yavaş-yavaş irəliləməyə başladı, lakin birinci səfər zamanı getdiyi yollarla getmədi. O, 4 fərsəx irəlilədi və Rud ər-Ruda enən dərənin yanında düşərgə saldı. Səngər qazdırmadı, ancaq tikanlı kolluqlar arasında düşərgə saldı (?). Mötəsim ona yazmışdı ki, adamlarını eskadronlara bölsün {1198} və adamlar öz atlarına minib, həm gündüz, həm də gecə qarovul çəksinlər. Adamlardan bəziləri düşərgədə qalmadı, bəziləri isə düşərgədən bir fərsəx aralı gecə və gündüz at üstündə qarovul çəkməlidirlər ki, gecə hücumu təhlükəsiz olmasın. Ona görə belə edilmişdi ki, arzu edilməyən bir hadisə baş verəndə, onlar [atlılar] döyüşə hazır olsunlar, piyada isə düşərgədə qalsın.

Lakin adamlar [bu tədbirlərin] dözülməzliyinə qarşı etiraz etməyə başlayıb, belə dedilər: "Biz nə vaxtadək bu dərədə qalacağıq, halbuki düzənlikdə olmalıyıq. Bizimlə düşmən arasında 4 fərsəx məsafə vardır, amma biz elə hərəkət edirik, sanki düşmən qabağımızdadır. Biz yanımızdan keçən camaatdan və casuslardan xəcalət çəkirik. Bizimlə düşmən arasında 4 fərsəx yol vardır, amma özümüzü elə aparırıq, sanki qorxudan titrəyirik. Bizə başçılıq et, ya qələbə qazanacayıq, ya məğlub olacağıq".

Afşin cavab verib dedi: "Allaha and olsun ki, mən gözəl bilirəm sizin dedikləriniz həqiqətdir. Lakin Əmir əI-Möminin mənə əmr etmişdir belə edim və buna çarə yoxdur!"

---

[1] 837-ci il avqustun 26-sı bazar günü idi.

Bundan bir az sonra Mötəsimdən gələn məktubda sərəncam verilmişdi ki, onlar olduqları yerdə qalsınlar və lazım olduğu qədər burada olsunlar. Beləliklə, onlar bir neçə gün həmin yerdə qaldılar, sonra o öz adamları ilə aşağı enməyə başlayıb, nəhayət Rud ər-Ruda gəldi, oradan da irəliləməyə başladı və keçən il Babəkin hücumuna məruz qaldığı və yarğanların olduğu yerə gəlib çatdı. O buranı diqqətlə yoxladı, burada bir eskadron xürrəmi atlısı olduğunu aşkar etdi, lakin onlar hücuma keçmədilər, o da onlara hücum etmədi.

Sonra [onun ordusundan olan] yadellilərdən biri dedi: "Sizə nə olub? Siz gəlib əvvəlki yerdə məkan tutdunuz. Məgər siz xəcalət çəkirsiniz?" Lakin Afşin əmr etdi ki, onlara [xürrəmilərə] hücum etməsinlər və heç kəs özünü onlara göstərməsin. Onlar burada təqribən günortayadək qaldılar, sonra öz düşərgələrinə qayıtdılar. Burada o, iki gün gözlədi, sonra yenidən, birinci dəfəkindən sayca daha çox adamla dağın yamacından {1199} aşağı endi. O, Əbu Səidə təlimat verdi ki, olduğu yerdən çıxıb, bir qədər adamla birinci dəfə olduqları yerə getsin, lakin onları [xürrəmiləri] hürkütməsin və onlara hücum etməsin.

Afşin Rud ər-Rudda qaldı. O, dağlılara əmr etdi ki, təbii istehkamları olan dağların zirvələrinə çıxıb, bu yerləri onlara göstərsinlər, sonra dağların başında piyada qoşunun möhkəmlənməsi üçün yer seçsinlər. Buna uyğun olaraq, dağlılar onun üçün üç dağ seçdilər ki, bunların üstündə [keçmiş] istehkamların, xərabələri də var idi, Afşin bu yerlərə bələd idi, o, Əbu Səidin dalınca adam göndərdi, o da həmin gün onun yanına gəldi. İki gündən sonra o öz ordugahından Rud ər-Ruda endi və özü ilə fəhlə dəstəsi[1] gətirdi, bunlar da su doldurulan dəri tuluqlar və suxarı[2] gətirmişdilər. Onlar Rud ər-Ruda gəlib çatan zaman, o, Əbü Səidin dalınca adam

---

[1] K i l d a r i y y ə - "İstehkam xətti arxasındakı fəhlələr". Çox vaxt mülki mühəndislər" mənasındadır, EI, I, səh. 547. Mətndə belə deyilir: "Özü ilə fəhlə olan kildariyyə gətirdi".

[2] K ə k - "qurudulmuş Misir çörəyidir ki, bir il ərzində qalır və Ərəbistan yarımadasına ixrac edilirdi" (E.Lane. Arabic-English Lexicon, p. 3001; sonralar- Leyn).

göndərib, ona əmr etdi ki, yenidən qabaqda olsun və birinci gün ona verdiyi təlimata əməl etsin. O, habelə fəhlə dəstəsinə əmr etdi daş daşıyıb, o üç dağa gedən yolları elə bərkitsinlər ki, lap dönüb istehkamlara oxşasın. O, əlavə əmrlər verdi və hər bir yolda daşların arxasında lap yuxarıya qədər xəndəklər qazıldı, onlar hər bir dağa yalnız bir [açıq] yol saxladılar. Sonra o, Əbu Səidə əmr etdi qayıtsın, o da buna əməl etdi, özü isə öz ordugahına qayıtdı.

İnandığım adamlardan biri söylədi ki, ayın səkkizinci günündə. qalalar tamamilə möhkəmləndikdə, o, piyada qoşuna suxarı və səvik[1], atlılara isə azuqə və arpa verdi. Sonra o, mühafizə üçün məsul olan adamlardan mühafizəçilər qoydu, qalanlarını isə aşağıya göndərdi. O, piyada qoşuna əmr etdi həmin {1200} dağların zirvəsinə çıxsın və ehtiyac hiss etdikləri hər şeyi özləri ilə aparsınlar, qoşun belə də etdi. O yaxınlıqda yerləşdi və Əbu Səidi, keçən dəfə qaldığı yerə göndərdi. O bir də sərəncam verdi ki, adamlar aşağıya düşəndə özləri ilə silah aparsınlar, atlılar isə özləri ilə yəhər götürməsinlər, O, xəndək üçün yer seçdi və fəhlələrə əmr etdi ki, qazmağa başlasınlar, adamlara da tapşırdı onlara göz qoysunlar. Sonra o və atlılar dayanıb, ağacların altında kölgədə gözləməyə başladılar, atları isə otlamağa buraxdılar. O, axşam namazını qılandan sonra fəhlələrə əmr etdi piyada qoşunla onun möhkəmlətdiyi dağ zirvələrinə qalxsınlar, piyada qoşuna da əmr etdi ki, yatmayıb növbə çəksinlər və fəhlələrə yatmağa imkan versinlər. Sonra belə sərəncam verdi ki, gün batan kimi atlılar atları yəhərləyib minsinlər; sonra da bunları eskadronlara bölüb elə düzdü ki, eskadronların arasındakı məsafə bir ox meydandan artıq olmasın. Bütün eskadronlara belə xəbərdarlıq etdi: "Heç bir zaman bir-birinizə diqqət verməyin: hər biriniz digərini qoruyun. Hay-küy eşidəndə heç

---

[1] S ə v i k - "qatı, qidalı bir mayedir ki, su və ya yağla qarışdırılır, buna görə onu yemirlər, əksinə, yeməyi onunla ötürürlər" (Leyn, səh. 1472). Səfər zamanı qoşuna belə içməli maye verirdilər. Islamic Culture. 1930, IV, p. 182.

bir şeyə fikir verməyin. Hər bir eskadron ancaq özünə yaxın olanı qorusun, əgər belə etməsə, ələ keçəcəkdir[1].

Eskadronlar sübhədək döyüşə hazır vəziyyətdə gözləyirdi, piyada qoşun isə dağların başında qarovul çəkirdi. Afşin piyada qoşuna əmr etdi ki, gecə birini görsələr, fikir verməsinlər, çünki zərurət üzündən hər bir qrup onun üçün təyin edilən mövqedə dayanmalı və öz dağı ilə xəndəyini qorumalıdır. Buna görə heç kəs daha başqa birisinə fikir verməməlidir, budur ki, onlar sübhədək həmin vəziyyətdə qaldılar. Atlılarla piyada qoşuna o əmr etdi {1201} ki, gecə [yuxusu] üçün [öz aralarında] sazişə girsinlər; sonra o onların mövqelərini nəzərdən keçirdi. Onlar on gün ərzində xəndək qazdılar, onuncu gün o bu xəndəyə girdi. Sonra o bu xəndəkləri qoşun üçün ayrı-ayrı sahələrə böldü, sərkərdələrə əmr etdi ki, öz sursatı və öz adamlarının sursatı üçün adam göndərsinlər ki, vuruşmada [düşmən qarşısında] üstün olsunlar.

Onun yanına Babəkdən qasid gəlib, özü ilə təzə xiyar ["kittə"], yemiş və başqa tərəvəz gətirdi və belə izah etdi ki, bizə xəbər çatdığına görə, indi Afşin çətin günlər keçirir, çünki o və onun adamları ancaq suxarı və səvik işlədirlər, buna görə də Babək nəcib bir hərəkət edərək, bu hədiyyələri göndərmişdir.

Afşin qasidə belə cavab verdi: "Mən bilirəm qardaşım belə etməklə nəyi nəzərdə tutur. Onun istədiyi şey odur ki, orduya nəzər salsın, mən, əlbəttə, onun bu möhkəm diqqətini məmnuniyyətlə qəbul edirəm! Mən onun güclü arzusunu yerinə yetirərəm, çünki mənim çətin günlər keçirdiyimi söyləməkdə o haqlıdır. Qasidə isə belə dedi: "Sən isə heç qorxma. Yuxarıya qalxıb, bizim hər şeyimizə baxa bilərsən. Burada [qarşımızda] olanları gördün, indi bax gör, arxamızda nələr var". Sonra o əmr etdi ki, qasidə at verib onu dağa aparsınlar, oradakı xəndəkləri, habelə Kəlanrud xəndəyini və Bərzənddəkini görə bilsin. O da bütün üç xəndəyi gördü və bunları yaxşı nəzərdən keçirtdi. Ondan heç bir şeyi gizlətmədilər ki, ta

---

[1] Mətnin bu yeri aydın deyildir, ona görə də ruscadan hərfi tərcümə edilmişdir.

ağasına hamısını söyləyə bilsin. Bu əmrlərə axıradək əməl olundu, nəhayət, o gəlib Bərzəndə çatdı, sonra Afşinin yanına qayıtdı. Afşin də onu buraxıb dedi: "Get, Babəkə mənim salamımı yetir!"

Bəzi xürrəmilər [Afşinin] ordusuna ərzaq aparanları təngə gətirdilər. Bir və ya iki dəfə belə edildi, lakin bundan sonra xürrəmilərin üç eskadronu qışqıra-qışqıra gəlib Afşinin xəndəyinin divarına yaxınlaşdı. Afşin əmr etdi ki, heç kəs [onlarla] danışmasın; bu hal iki-üç gecə təkrar olundu. Onlar [müsəlmanlar] divarın dalında at çapmağa başladılar və bu hərəkəti (1202), o qədər tez-tez təkrar etdilər ki, nəhayət onlar [xürrəmilər] bu [hay-küyə] alışdılar. Afşin 4 eskadron atlı və piyada qoşun [piyadalar ox atanlardan ibarət idi] hazırladı və onları dərədə gizlətdi, hələlik isə öz müşahidəçiləri vasitəsilə onlara göz qoyurdu. Xürrəmilər həmişə gəldikləri vaxtda aşağıya enib, adətən olduğu kimi hay-küy qoparıb, qışqıranda, atlılar və piyadalar planla onlara hücum etdi və yollarını kəsdi. Bunun ardınca Afşin onların üstünə 2 dəstə piyada qoşun göndərdi, xürrəmilər isə dağ keçidlərinin tutulduğunu başa düşüb, səpələndilər və süvarilər tək-tək dağlara keçməyə başladılar. Sonra həmin dağlara qalxdılar. Onlar getdilər və bir də əvvəlki kimi hərəkət etmədilər. Afşinin adamları səhər namazı vaxtınadək onları təqib edib Rud ər-Rud xəndəyinə qayıtdılar, lakin xürrəmilərdən bir nəfərini də ələ keçirmədilər.

Deyirlər ki, Afşin həftədə bir dəfə, gecə təbil vurdurardı və dəstələrini neft məşəlləri və çıraqlarla xəndəklərdən bayıra çıxardardı. Hər bir adam bayıra çıxanda, sağ və ya sol cinahda olmasına baxmayaraq öz eskadronunu tanıyırdı və sırada öz yerini tııturdu. Afşin adəti üzrə 12 iri qara bayrağı qatırlara yükləyib gəzdirirdi. O [bunun üçün] qəsdən atdan istifadə etmirdi, çünki bayraqlar açılıb dalğalana bilərdi. Buna görə bayraqları 12 qatıra yüklədirdi. O, habelə 21 böyük təbil və 500-ə yaxın kiçik bayraq saxlayırdı. Onun adamları – hər bir bölmədə öz yerini bilirdi və əvvəlki gecədən növbətçilik çəkən bu adamlar öz yerlərində qalırdılar, ta o zamana qədər ki Afşin sübh öz çadırından çıxıb ata minir və baş çəkirdi, əzançı da onun qabağında dayanıb namaza çağırırdı, onlar namaz qılırdılar. Qoşun həmin qayda ilə axşam

namazını da qılırdı. Bundan sonra Afşin əmr edirdi təbil vursunlar, özü isə tələsmədən irəliləyirdi. Hərəkət etmək və dayanmaq üçün onun siqnalları təbilin vurulması və dayandırılması idi. Buna görə belə edilirdi ki, adamlar çox idi və dağlarda, keçidlərdə döyüş nizamı ilə hərəkət edirdilər[1]. Onlar hər dəfə dağa gedib, ona dırmaşırdılar, sonra vadiyə enib yollarını davam etdirirdilər. Dağ keçilməz olub, onlar bu dağa dırmanmaq və ya enmək iqtidarında olmayanda, geri qayıdırdılar və yenidən öz mövqelərinə və dayanacaqlarına gedirdilər. Hərəkət siqnalı - təbil vurmaq idi və o [Afşin], onları dayandırmaq istəyəndə, təbil vurdurmağı saxlayırdı, adamlar da - hər kəs dağın və ya dərənin hansı yerini istəyirdisə - dayanıb dururdu. Afşin tələsmədən hərəkət edirdi, dağlılar gəlib ona bir məlumat verəndə, o bir müddət dayanırdı, belə ki, Rud ər-Rud ilə əl-Bəzz arasındakı 6 fərsəx yolu sübh ilə günorta arasında keçirdi. O, keçən vuruşmanın baş verdiyi qayalara getmək istəyəndə, Buxaraxudatı min atlı və altı yüz nəfər piyada qoşun ilə dağın zirvəsinin arxasında saxlardı ki, yolları qorusun və bağlasın, ta bir nəfər də olsun xürrəmi oradan çıxıb qurtara bilməsin. Babək, yanından ordu keçdiyini öyrənən öz ordularından [piyada ordularından] birini, zirvəsində Buxaraxudatın olduğu dağın ətəyinə göndərirdi və xürrəmilər onların yollarını kəsmək istəyənlərdən gizlənirdilər. {1204} Afşin Buxaraxudatı orada saxlayırdı ki, bu dağ yolunu qorusun, halbuki Babək də öz əsgərlərini göndərirdi ki, Afşinin yolunu kəssin. Buxaraxudata tapşırılmışdı, o vaxtadək orada qalsın ki, Afşin əl-Bəzzin qayalarına qalxsın. Afşin Buxaraxudata əmr etdi ki, onunla əl-Bəzzin arasında xəndəyə oxşayan dərənin başında dayansın; Əbu Səid Məhəmməd ibn Yusifə əmr etmişdi ki, bir eskadron qoşun ilə həmin dərədən keçsin; Cəfər əl-Xəyyata əmr edilmişdi ki, o da bir

[1] Əbu Tammam (Divan, səh. 107) bildirir ki, ərəb qoşununun hücumu uğurlu olanda, qasidlər (Abbasilərin rəngi olan) qara bayraqlar açırdılar, hücum uğursuz olanda (Xürrəmilərin rəngi olan) qırmızı bayraqlar açılırdı. Ərəb ordularının hərəkət marşlarının təsviri üçün bax: A. von Kremer. The Orient under the Caliphs, p. 328-335; Ph. Hitti. History of the Arabs, p. 426-429.

eskadron adamla gözləsin[1], Əhməd ibn Xəlilə əmr edilmişdi ki, başqa bir eskadronla gözləsin[2], belə ki, dərənin bu hissəsində 3 eskadronu əl-Bəzz tikintilərinin ətrafına çatdırdı. Babək Adinin sərkərdəliyi ilə dəstələr göndərirdi; bunlar əl-Bəzzdən kənarda həmin üç eskadrona qarşı duran təpənin üstündə dayandılar ki, Afşinin heç bir dəstəsinə şəhərin darvazalarına yaxınlaşmağa imkan verməsin.

Afşin, əl-Bəzzin darvazalarına tərəf getmək niyyətində idi, odur ki, öz qoşununa əmr etdi ki, [dərəni] keçib dayansınlar və xürrəmiləri tək buraxsınlar. Babək Afşin qoşunlarının xəndəklərdən çıxıb ona tərəf hərəkət etdiyini öyrənəndə, öz adamlarını pusquda qoyub, öz yanında çox az miqdar [adam] saxladı. Afşin bunu bildi, lakin onların harada gizləndiyini bilmirdi. Sonra ona bildirdilər ki, xürrəmilər [qalanı] tərk etmişlər və Babəkin yanında çox az adam qalmışdır.

Afşin öz mövqelərinin üstünə qalxanda, onun üçün dəri süfrə[3] salırdılar, süfrənin üstünə onun oturması üçün kürsü[4] qoyurdular və o, Babəkin qala darvazalarının yuxarısındakı təpənin başında otururdu. Dərənin bu tərəfində onun yanında olan atlı eskadronları gözləyirdilər, o da onlara əmr edirdi ki, atdan düşsünlər, o biri tərəfdə Əbu Səid və Cəfər əl-Xəyyat və onun adamları ilə olanlar da atdan düşürdülər, lakin Əhməd ibn əl-Xəlilin [adamları] atdan düşmürdülər, çünki o, düşmənə yaxın idi. Onun adamları atın üstündə olurdular. Sonra Afşin öz piyadalarından olan dağlıları göndərib, onlara əmr edirdi ki, dərəni yoxlasınlar, çünki o, istəyirdi gizli pusqu yerlərini tapıb, onların üstünü açsın.

---

[1] İbn əl-Əsir, VI, səh. 328; "Keçsin". Belə oxumaq daha doğrudur

[2] B a x: bundan əvvəlki qeydə

[3] N a t - stolu örtmək üçün salınan dəri süfrədir ki, oyun üçün və edam zamanı baş kəsmək üçün də istifadə olunurdu: Q.Leyn, səh. 3034; İbn Xallikan, IV, səh. 203.

[4] Kürsü (Quatremere. Rashid ad-Din, Historie de Mongols de la Perse, Paris, 1836, I, p. 99). Qəbul ziyarəti zamanı hökmdarın, sultanın və ya onun nümayəndəsinin oturduğu taxt. Q.Leyn, səh. 2605; "Şah və ya alim adam üçün taxt, kreslo, yer, oturacaq, qüdrət simvolu".

Axtarış üçün bu kimi yoxlamalar [hər gün] günortayadək keçirilirdi, xürrəmilər isə bu vaxt Babəklə oturub nəbid[1] içir, tütək [zurna][2] çalır və təbil vururdular. Afşin günorta namazından sonra aşağıya enib Rud ər-Ruddakı xəndəyinə gedərdi. Birinci olaraq, Əbu Səid aşağıya enirdi, onun ardınca Əhməd ibn Xəlil və axırıncı Cəfər ibn Dinar enirdi. Sonra Afşin yenidən geri qayıdırdı və onun bu gəlib-getməsi Babəki qəzəbləndirirdi, belə ki, onlar qayıtmağa başlayanda xürrəmilər öz təbillərini vurur və istehza üçün şeypur çalırdılar. Buxaraxudata gəlincə, o, yerləşdiyi dağ yolunu tərk etməzdi və yalnız adamların hamısı onun yanından keçəndən sonra onların ardınca qayıdırdı. Bir dəfə, xürrəmilər bu yeknəsəqlikdən və onları güdənləri axtarmalarından yoruldular, odur ki, Afşin öz adəti üzrə qayıdanda bir-birinin ardınca eskadronlar qayıdarkən, dərəni Əbu Səid keçdi, sonra Əhməd ibn əl-Xəlil, habelə Cəfər əl-Xəyyatın bəzi adamları keçdilər. Xürrəmilər öz xəndəklərinin qapılarını açdılar və on atlı çıxıb {1206} Cəfər əl-Xəyyatın həmin yerdə qalan adamlarına hücum etdilər. Qoşun içərisindən fəryad qopdu, Cəfər öz təşəbbüsü ilə qayıtdı və bir eskadronu ilə həmin atlılara hücum etdi, onları geriyə, əl-Bəzzin darvazalarına qovdu. Lakin düşərgədə hay-küy davam edirdi. Afşin qayıtdı, lakin Cəfər və onun adamları o biri tərəfdə vuruşmaqda idilər, onun çoxlu adamları bayıra çıxdılar ki, ona qoşulsunlar. Sonra Babək çoxlu atlı ilə irəli çıxdı. Heç bir tərəfdə - nə Afşinin, nə də Babəkin adamları arasında piyada qoşun yox idi. Vuruşma başlandı, hər iki tərəfdə tələfat var idi. Sonra Afşin geri qayıtdı, onun qarşısında dəri süfrə döşəndi, üzərində kürsü qoyuldu, o da adəti üzrə oturdu. Lakin o, Cəfərə bərk qəzəblənmişdi və belə dedi: "O, qoşunumuzun qayda-qanununu və mənim planlarımı pozmuşdur".

---

[1] Çox vaxt adamı tez məst etmək üçün içilən palma şərabı. EI, III, səh. 803-804.

[2] R.Dozy. Supplements aux dictionnaires Arabes, I, p. 650, 831 - "surnaya".

Hay-küy daha da artmağa başladı. Əbu Dulafın [1] eskadronunda Bəsrədən və digər yerlərdən gəlmiş bir neçə fədai var idi; onlar Cəfərin vuruşduğunu görəndə, Afşinin əmri olmadan aşağıya enmişdilər və dərənin o biri tərəfinə keçib o qədər getmişdilər ki, axırda əl-Bəzzin ətrafına çatmışdılar. Onlar orada ona [Cəfərə] qoşulub, onun ardınca getmişdilər və hamılıqla yuxarıya qalxaraq, az qala əl-Bəzzə soxulacaq idilər. Bundan sonra Cəfər Afşinə məlumat göndərib belə xahiş etmişdi: "Mənə beş yüz nəfər oxatan göndər, çünki mən ümid edirəm ki, Allahın köməyi ilə əl-Bəzzə girəm. Mən sənin yanında, özün gördüyün bu eskadrondan başqa, çoxlu digər [düşmən] görmürəm". O, Adinin eskadronunu nəzərdə tuturdu.

Afşin belə cavab verdi: "Sən mənim planımı pozmusan. Çalış, onlardan yavaş-yavaş ayrıl {1207}, öz adamlarını mühafizə et və qayıt”.

Fədailər əI-Bəzzə yaxınlaşanda, onların arasında hay-küy başlandı, buna görə Babəkin pusquya göndərdiyi adamlar vuruşmanın qızışmış olduğunu güman edərək, cəld üzə çıxdılar; onların bir hissəsi Buxaraxudat əsgərlərinin arxasında gizlənmişdilər, pusquda olan digərləri isə Afşinin üstündə oturduğu təpənin yanından sıçradılar. Xürrəmilər hər tərəfdən axışdılar, onların yuxarısında duran adamlar isə xürrəmilərdən heç birinin qabağını kəsmədilər; burada Afşin belə dedi: "Şükür olsun Allaha ki, bu yerlərin [pusquların] üstünü bizim üçün açdı!".

Sonra Cəfər öz adamları və fədailərlə qayıtdı və Afşinin yanına gedib, belə dedi: "Mənim ağam! Əmir əl-Möminin məni müharibəyə göndərmişdir, bunu da sən gördün. O məni göndərməmişdir ki, burada oturub gözləyim. Sən mənim üçün çox məsul olan bir anda mənə mane oldun - əl-Bəzzə girmək və onun

---

[1] Əl-Qasim ibn İsa əl-İcli. - Əbu Dulaf adı ilə məşhurdur. Təəssübkeş ələvidir. Onun paxıllığını edən Afşin onu bir vaxt həbs etmişdi, lakin o, ölümdən xilas edildi və 839/840-cı ilədək yaşadı. Bax: EI, II, səh. 796-797.

[Babəkin] olduğu yerə soxulmaq üçün yalnız beş yüz piyada qoşuna ehtiyacım var idi, çünki mən qarşımda kim olduğunu bilirdim".

Afşin ona belə cavab verdi: "Sən təkcə öz qarşında durana baxma, bir gör sənin arxanda kim vardır, [onlar] Buxaraxudata və onun adamlarına qarşı necə hücuma keçmişlər".

Sonra əl-Fəzl ibn Kavus Cəfər əl-Xəyyata belə dedi: "Əgər iş səndən asılı olsaydı, üzərində dayandığın bu yerə qalxa bilməzdin, sən isə deyirsən: "Burada mən belə edərəm, orada - elə".

Cəfər dedi; "Bu, müharibədir! Biz buranın hər yerində dayanıb gözləyirik ki, kim gələ bilər".

Əl-Fəzl cavab verib dedi: "Əgər bura əmirin şurası olmasaydı, mən dərhal sənin [dərsini] verərdim". Lakin Afşin onların hər ikisini intizama çağırdı, onlar da [mübahisəni] kəsdilər.

Sonra Afşin Əbu Dulafa əmr etdi ki, fədailəri divarlardan geri çağırsın, buna görə Əbu Dulaf onlara qışqırdı: "Qayıdın!" {1208} Lakin onlardan biri əlində daşla yaxınlaşıb dedi: "Doğrudanmı sən indi bizi geri çağırırsan? Mən bu daşı divardan çıxartmışam!" O isə ona belə cavab verdi: "Dərhal qayıt, çünki qayıdandan sonra başa düşərsən kim sənin yolunu tutmuşdur". Bununla o, arxadan Buxaraxudatın üzərinə hücum edən əsgərləri nəzərdə tuturdu.

Sonra Afşin Cəfərin yanında Əbu Səidə belə dedi: "Allah, həm sənin öz xatirinə, həm də Əmir əl-Möminin xatirinə sənə əcr versin! Həqiqətdə, mən heç zaman bilmirdim ki, qoşun işində və onu idarə etməkdə sən bu qədər məlumatlısan. Öz başını qırxa bilən hər bir yaşlı adam deyə bilməz ki, əlverişli olmayan yerdə vuruşmaqdansa, əlverişli yerdə dayanmaq yaxşıdır. Əgər sənin cığırının yuxarısında olanlar qalxıb dağın altında pusquda qalanlara işarə versəydilər, onda sən bilən, köynəklərinin altında cəsur ürəkdən başqa bir şeyi olmayan fədailərin vəziyyəti necə olardı, kim yenidən onları toplaya bilərdi? Şükür Allaha ki, onları xilas etdi! İndi burada o vaxtadək gözlə və tərpənmə ki, [onlardan] bir nəfər də burada qalmasın!"

Afşin qayıtdı və onun qoyduğu qaydaya görə, qayıtmağa hazırlaşanda, o, aşağıya - eskadronlara, öz atlı və piyada qoşununa təlimat göndərirdi, onlar gedirdilər, ancaq axırıncı eskadron o qədər

gözləyirdi ki, onunla [Afşinlə] onların [eskadronların] arasında bir ox meydanı məsafə qalsın. O özündən irəlidə olan hər hansı eskadronun getdiyini və yolun onun üçün açıq olduğunu yəqin etməyincə, nə dağ yoluna, nə də dərəyə yaxın düşməzdi. Sonra o öz atlı və piyada qoşunu ilə birlikdə axırıncı eskadronla enirdi və öz yoluna davam edirdi. O, hərbi eskadrona təlimat verirdi ki, qayıdarkən hansının ardınca getməlidir. Buna görə onlardan heç biri qabaqda gedəni ötməyə və ya arxadan gələni buraxmağa çalışmırdı, belə ki, eskadronlar qayda ilə keçərdilər.

Nəhayət, onların hamısı keçirdi və {1209} Buxaraxudat istisna olmaqla, heç biri başqasını qabağa buraxmırdı, o həmin gün eyni qayda ilə qayıdırdı. Əbu Səid axırıncı qayıdırdı, qoşunlar isə Buxaraxudatın dayanacağı yanından keçəndə [düşmən tərəfindən], onlar üçün hazırlanmış pusqu yerlərini görürdülər. Sonra Buxaraxudatın qoruduğu yeri ələ keçirmək istəyən yerlilər dağılıb, öz mövqelərinə qayıtdılar.

Afşin bir neçə gün Rud ər-Ruddakı xəndəyində qaldı və fədailər yem, azuqə və pul azlığından ona şikayət etdilər. Afşin onlara belə cavab verdi: "Sizin içərinizdən kim dözümlüdürsə, qoy dözsün. Kim dözümsüzdürsə, - yol açıqdır, qoy qayıdıb getsin. Əmir əl-Möminin ordusu mənimlədir və kim ondan maaş alırsa, istidə və soyuqda mənimlə qalmalıdır, çünki mən qar düşənədək bu yeri tərk etmək fikrində deyiləm".

Fədailər [öz aralarında] danışa-danışa getdilər: "Əgər Afşin Cəfərə və [təkcə] bizə imkan versəydi, biz əl-Bəzzi alardıq, lakin o ancaq gündən-günə təxirə salır". Fədailərin bu sözləri, hətta bundan artığı gəlib Afşinin qulağına çatdı. Bəzən onlar ona kəskin sözlə hücum edərək deyirdilər ki, o, istəmir vuruşmaya başlasın, o ancaq istəyir bu işi yubatsın. Nəhayət, onlardan biri dedi ki, Rəsulallahı [Məhəmmədi, Səlləllah AIIahi!] yuxuda görmüşdür; peyğəmbər ona belə demişdi: "Afşinə söylə: "Əgər sən bu adamla [Babəklə] vuruşsan və bu işdə səy göstərsən - yaxşı olar! Əgər bacarmırsansa, mən dağlara əmr edərəm sənin üstünə daş yağdırsın!", Adamlar da bir-birinə açıq deyirdilər ki, o adam [yuxu görən] [yuxarıdan] vəhy almışdır. Bu əhvalat Afşinin qulağına çatanda, fədailərin başçılarını

çağırıb, onlara belə dedi: "Mən istəyirəm siz bu adamı mənə göstərəsiniz, çünki adamlar özlərinə əlverişli olan şeyi yuxuda görürlər". Onlar dərhal bir qrup başqa adamla birlikdə həmin adamı Afşinin yanına gətirdilər: Afşin də bu adama iltifatla salam verib, yaxın gəlməsini xahiş edəndən sonra dedi: "Öz {1210} əhvalatını mənə söylə. Utanıb pərt olma, ancaq öz yuxunu söylə".

Bu adam dedi: "Mən filanı və filanı gördüm".

Afşin belə dedi: "Allah bu adamların nə istədiyini hamıdan əvvəl bilir. Əgər Allah-taala dağlara əmr edib, birisinin üstünə daş yağdırmaq istəsə, bu kafirin [Babəkin] üstünə yağdırar və bizi bu əziyyətdən xilas edər. Necə ola bilər ki, Allah bizi daşa bassın, çünki belə olarsa, kafirin vəziyyəti asanlaşar. Əgər Allah birisini daşa basmaq istəsə, onu daşa basar, çünki onda mənim onunla vuruşmağıma ehtiyac qalmaz. Mən bilirəm ki, böyük, qüdrətli və hər şeyi görən Allah mənim qəlbimdəkiləri və ey bədbəxtlər, sizə nələr arzu etdiyimi görür!"

Müsəlman fədai ucadan dedi: "Ey əmir! Əgər bizə şəhid olmaq nəsib olarsa, şübhəsiz, sən bizi bundan məhrum etməzsən. Biz səy edir, yalnız Allahdan əcr axtarır[1] və onun surətini görmək istəyirik. Nə qədər ki, biz sənin icazənlə hərəkət etməliyik, buna görə bizə icazə ver, təklikdə başlayaq və bəlkə, Allah bizə qələbə bəxş edər". Afşin cavabında dedi: "Həqiqətən, indi mən başa düşürəm ki, sizin səyiniz tez bir zamanda həyata keçəcəkdir, mən inanıram ki, Allah bu səyinizi bəyənir və Allahın rizası olarsa, bu səy qələbə ilə qurtaracaqdır. Sizin mənəvi halınız, çox gözəldir, digər adamların da mənəviyyatı belədir - Allah isə hamıdan yaxşı bilir. Mənim fikrim belə deyildi, lakin indi sizin sözlərinizi eşidəndən sonra fikrim dəyişilmişdir. Mən əminəm ki, Allah bu işi bəyənər və biz qalib gələcəyik. Siz Allahın əmrilə qət edin, hansı günü bəyənirsiz, həmin gün onların üstünə gedə bilək. Qüvvət və qüdrət yalnız Allahdadır!"

Adamlar Afşinin yanından şən çıxdılar və yoldaşlarına xoş xəbər çatdırdılar, getmək istəyənlər qaldılar, uzaqda olmayanlar,

---

[1] Quran, IV, 133.

habelə bir neçə gün yol gedənlər isə qayıtdılar. O [Afşin], bu əhvalatdan xəbər tutdu və qoşun üçün gün təyin edərək əsgərlərə - atlı və piyadaya, habelə bütün adamlara hazırlaşmaq əmri verdi; belə etməklə o göstərirdi ki (1211), şübhəsiz, vuruşmaq istəyir. O, hərəkətə başlayaraq, pul və ərzaq daşıdı; düşərgədə heç bir qatır qalmadı ki, üstündə yaralıları daşımaq üçün xərək olmasın. O özü isə həkim, suxarı, səvik, başqa bu kimi əşya və ehtiyac hiss etdiyi hər şeyi götürdü. Adamları yavaş-yavaş aparıb əl-Bəzzə çatdırdı[1], öz mövqelərinin arxasında, dağ yolunun yuxarısında Buxaraxudatı [daldakı qüvvə kimi] saxladı. Sonra dəri süfrəni salıb, onun üçün oturmağa kürsü qoydular; o da həmişə etdiyi kimi, kürsünün üstündə əyləşdi.

O, Əbu Dulafa belə dedi: "Fədailərə söylə, qoy onlar özlərinə daha əlverişli olan yeri tutub, orada qalsınlar. Cəfərə o, belə dedi: “Bütün ordu, o cümlədən atıcılar, neftatanlar sənin ixtiyarındadır, əgər piyada qoşuna ehtiyacın vardırsa, mən göndərim. Budur, sənə nə lazımdır və nə istəyirsənsə, götür və Allah amanında get. Hansı yeri seçirsənsə, oraya get".

Cəfər belə cavab verdi: "Mən əvvəlki olduğum yerə getmək istəyirəm". Afşin dedi: "Oraya get". Sonra o, Əbu Səidi çağırıb ona belə dedi: "Sən və sənin bütün adamların mənimlə qalın. Belə ki, sizlərdən heç kəs buradan getməsin". Sonra da Əhməd ibn əl-Xəlilin dalınca adam göndərib ona belə dedi: "Sən və sənin adamların burada gözləsin. Qoy Cəfər və onun bütün adamları o taya keçsin, əgər ona [bir də] piyada qoşun, ya da atlılar lazım olarsa, bunları göndərməklə ona kömək edək". Bundan sonra o, Əbu Dulafı öz fədailəri ilə aşağıya, dərəyə göndərdi, onlar da keçən dəfə qalxdıqları yerdən əI-Bəzzin divarlarına qalxdılar. Onlar əvvəlki günlərdə etdikləri kimi, divarlara tərəf qalxdılar.

Cəfər hücuma başladı və bu hücum ona imkan verdi, birinci dəfə olduğu kimi {1212}, əl-Bəzzin darvazalarına çatsın. O burada dayandı və kafirlər [babəkilər] lap bir saat onun qabağını saxladılar.

---

[1] Əl-Yəqubiyə görə (II, səh. 578) bu hadisə cümə axşamı ramazanın 9-da, yəni 837-ci il avqustun 15-də olmuşdur

Onda Afşin öz adamlarından biri ilə bir bədrə[1] dinar göndərib belə dedi: "Cəfərin adamlarının yanına get, bil kim vuruşmada birinci olmuşdur, sonra ona bir ovuc pul ver". O öz adamlarından başqa birisinə bir kisə pul verib dedi: "Get fədailərin yanına, bu pulları, bu boyunbağı və qolbağı özünlə apar və Əbu Dulafa söylə ki, o, hər bir fədaini, habelə özünü yaxşı göstərənləri təltif etsin". Sonra o öz şərab küpələri rəisini[2] çağırıb belə dedi: "Get onlarla vuruşanların lap içərisinə, elə get ki, mən səni öz gözlərimlə görüm. Özünlə səvik və su apar, çünki adamlar susuzluqdan yanır və qayıtmaq istəyirlər". O, Cəfərin adamlarına da su və səvik çatdırdı. Sonra o, fəhlə korpusu rəisinin dalınca adam göndərib ona dedi: "Vuruşmanın mərkəzində əlində təbərzinlə iş görən hər bir fədaiyə məndən əlli dirhəm çatmalıdır", buna görə ona bir kisə dirhəm verdi. Cəfərin adamlarına da belə dirhəm payladı. Sonra onlara əllərində təbərzin fəhlə korpusunu göndərdi. Cəfərə də içərisində boyunbağı və qolbağı olan bir sandıq göndərib belə tapşırdı: "Bunları öz adamlarından kimə istəyirsən ver, hələ məndən onlara veriləcək şeylər, onların maaşını artırmaq və Əmir əl-Mömininə verilmək [üçün siyahıya] adlarını qeyd etmək barəsində mənim adımdan sənin verdiyin vədlər bunlara üstəlikdir”.

Darvaza ağzında gedən vuruşma uzandı, sonra isə xürrəmilər darvazanı açıb, Cəfərin adamlarına hücum etdilər {1213} və onları darvazadan geriyə oturtdular. Fədailərə digər tərəfdən hücum etdilər. Onların iki bayrağını ələ keçirib, adamları divardan kənara atdılar, onları daşla elə zədələyib yaraladılar ki, daha onlar vuruşmaya yaramayıb dayandılar. Onda Cəfər öz adamlarına müraciətlə onları ürəkləndirdi, buna görə onlardan təqribən yüz nəfəri irəliyə atılıb, qalxanlarını qabağa verib özlərini qorudular; hər iki tərəf dayandı, vuruşmadan çəkindi, onlardan heç biri qabağa, o birisinin üstünə getmirdi. Camaat günorta namazına başlayanadək onlar bu

[1] B ə d r ə - “içərisində müəyyən məbləğ pul, adətən 10 min dirhəm olan pul kisəsi”. B a x: Leyn, səh. 167; İbn Xailikan, IV, səh. 334.

[2] S a h i b ə ş – ş ə r a b - ixtiyarında şərab, meyvə və ətriyyat olan adam.

vəziyyətdə qaldılar. Afşin ər-radələr [mancanaq] [1] göndərdi, bunlardan biri Cəfərin yanındakı darvazanın ağzında, o birisi isə dərənin yanında fədailərə yaxın yerdə quruldu.

Cəfərin yanındakı mancanaq haqqında: mancanaq gətirildikdən sonra Cəfər onu öz adamları ilə xürrəmilər arasındakı ərazidə lap bir saat qorudu, onun adamları ciddi səydən sonra bu daşatan mancanağı kənara çəkdilər və düşərgəyə apardılar. Adamlar[2] hələ də vuruşmadan çəkinirdi, buna baxmayaraq, divarın üstündə və darvazanın ağzında olanlarla, öz qalxanları altında olanlar arasında o tərəf-bu tərəfə ox və daş atılırdı. Sonra onlar bir-biri ilə vuruşdular.

Afşin bunu görəndə [öz] adamlarına qarşı düşməni ruhlandırmaq istəmədi. O, qabaqcadan hazırladığı piyada qoşunu göndərdi; bu qoşun da fədailərlə yanaşı öz mövqeyini tutdu. O, Cəfərə bir qədər piyada qoşunla bir atlı göndərdi, lakin Cəfər belə cavab verdi: "Mən adam cəhətdən korluq çəkmirəm. Məndə lazımi qədər adam var, lakin elə bir yer görmürəm ki, onlar döyüşə girə bilsinlər. Burada ancaq bir-iki adamın hərəkət edə bilməsi üçün yer var. Onlar həmin yerdə qaldılar {1214}, vuruşma da kəsildi". Bundan sonra Afşin adam göndərib, ona belə dedi: "Allah rizasına, qayıt", Cəfər də qayıtdı. Afşin, üstündə xərək olan qatırları göndərdi, yaralıları, habelə daşdan zədələnib ayağı ilə gedə bilməyənləri xərəklərə qoydular. O, adamlara qayıtmaq əmri verdi, onlar da Rud ər-Ruddakı xəndəklərinə qayıtdılar. Adamlar isə bu il də qələbə qazanmaq ümidini itirdilər, çoxlu fədai çıxıb getdi.

İki həftə keçəndən sonra inandığım adamlardan biri dedi: Afşin hazırlıq görmüşdür, gecəyarısı, təqribən min nəfərə çatan piyada atıcı çağırıb, hər birinə bir su tuluğu və suxarı, bəzilərinə isə qara bayraq və başqa şeylər vcrmişdir. Günbatana yaxın onları bələdçilərlə qabağa göndərdi. Onlar bütün gecəni yolu olmayan, çətin və görmədikləri dağlarda yol getmişlər, nəhayət, Adinin,

---

[1] Ə r – r a d ə - "mancanaq", daşatan hərbi silahdır. B a x: Leyn, səh. 1998; Ph. Nitty, p. 226; Quatremere, p. 384.

[2] Bu yuxarıda göstərilən 100 nəfər könüllüdür.

üzərində yerləşdiyi təpənin arxasına çatmışlar. Bu, uca bir dağ idi, Afşin onlara əmr etmişdi ki, öz yerlərini heç kəsə bildirməsinlər, yalnız səhər namazını qılandan sonra onun [Afşinin] işarəsini və toqquşmanı görəndə, - ancaq bu vaxt [onlara verilən] bayraqları nizələrə sancıb, təbil vursunlar və dağdan enərkən xürrəmiyə ox və daş atsınlar. Əgər onlar [onun] işarələrini görməsələr, onun təlimatını almayınca hərəkət etməsinlər. Onlar dan yeri ağaranda dağın başına çatdılar. Dərədə dəri tuluqları su ilə doldurub dağın başına qalxdılar. Sonra bir dəfə gecə Afşin adam göndərib komandirlərə xəbər verdi ki, silahlarını hazırlasınlar, çünki o, dan yeri ağaranda hücuma keçmək fikrindədir. O bu zaman, gecə ikən türk Bəşiri və onunla fərqanəlilərin[1] komandirlərini göndərib, onlara əmr etdi ki, gedib təpənin ayağında dərənin aşağı hissəsində, su götürülən yerə çatsınlar; bu yer Adinin yerləşdiyi dağdan alçaqdır, çünki o [Afşin] öyrənmişdir ki, qoşunlar gedəndə kafirlər həmin dağın altında gizlənmişdilər. Bəşir və fərqanəlilər [Afşinin] bildiyi yerə, yəni xürrəmilərin öz qoşunlarını pusquda saxladığı yerə getdilər. Onlar gecə hərəkət edirdilər, buna görə, düşərgədə olan adamların çoxu bunu bilmirdi. Sonra o [Bəşir], sərkərdələrə xəbər göndərdi ki, silahla hücum etməyə hazırlaşsınlar, çünki əmir [Afşin] səhər tezdən hərəkət edəcəkdir.

Səhər tezdən Afşin doğrudan da irəliyə gedib, əvvəllər etdiyi kimi, özü ilə qoşun, neftatanlar, neftatan maşınlar və məşəllər götürdü. O, səhər namazını qılandan sonra əmr etdi təbil vursunlar və gedib, həmişə dayandığı yerə çatdı. Adətən olduğu kimi dəri süfrə döşəndi və üstünə oturmaq üçün kürsü qoyuldu.

Bu zaman Buxaraxudat dağın başında gözləyirdi; o hər gün burada idi, lakin bu xüsusi gündə Əbu Səid, Cəfər əl-Xəyyat və Əhməd ibn əl-Xəlil ilə birlikdə qabaqda hərəkət edirdi Adamlara qoşunun belə düzülüşü qeyri-adi görünürdü; o [Afşin] bu qoşuna əmr etdi. Adinin olduğu təpəyə yaxınlaşıb onu mühasirəyə alsınlar.

[1] Mötəsim öz qoşununu Fərqanədə yaşayan türklərdən yığırdı. B a x: G. le Strange Sitat gətirilən əsəri, p. 477-480; EI, II, səh. 61-66; Yaqut, III, səh. 878-890.

halbuki əvvəllər belə etməyi onlara qadağan edirdi. Adamlar, yuxarıda adlarını çəkdiyim dörd sərkərdə ilə gedirdilər; ta o zamana qədər ki, təpəni mühasirə etdilər. Cəfər əl-Xəyyat əl-Bəzzə girən yerə yaxın idi, Əbu Səid onun yanında idi. Buxaraxudat Əbu Səidin yanında idi. Əhməd ibn Xəlil ibn Hişam isə Buxaraxudatdan sonra dayanmışdı. Beləliklə, onlar birgə gəlib, təpəni dövrəyə aldılar. Dərənin aşağı hissəsində böyük səs-küy var idi {1216}. Adinin durduğu təpənin altında olan pusquçular türk Bəşirə və fərqanəlilərə hücum etdilər və onların bir-birilə vuruşmaları bir müddət davam etdi. Toqquşma artıb qarışıqlıq əmələ gəldi. Adamlar onların fəryadını düşərgədə eşitdilər və həyəcanlanmağa başladılar, lakin Afşin əmr etdi ki, onlar [carçılar] car çəkib: "Ey camaat! Bu türk Bəşir və fərqanəlilərdir. Mən onları qabağa göndərmişəm ki, pusquda olanları axtarıb tapsınlar, buna görə əbəs yerə həyəcana düşməyin".

İrəlidə olan piyada atıcılar bunu eşidəndə, dağın başına qalxaraq, Afşin əmr etdiyi kimi, işarələr qoydular, Qoşun gördü ki, onlardan bir fərsəx aralı olan dağın başından qara bayraqlar enir: onlar isə üzərində Adinin olduğu dağdan olan yerdən enməyə başladılar, çünki işarələrə əsasən onlar üz-üzə gəlmək üçün enməyə başlamalı idi. Adinin düşərgəsindəki adamlar onları görən kimi, Adin xürrəmilərin bir hissəsini onların üstünə göndərdi, adamlar isə onları görəndə bərk qorxdular. Sonra Afşin onlara xəbər göndərib dedi ki, bu bizim piyada qoşunumuzdur. Onlar, Adini mühasirə etməyə kömək edəcək, Cəfər əl-Xəyyat əl-Bazzayat və onun adamları Adinə və onun adamlarına hücum etdilər, çünki bunlar üz-üzə dayanmışdılar, lakin Adin onlara həmlə edib, onları məcbur etdi ki, geriyə dönüb dərəyə getsinlər. Sonra Əbu Səidin yaxın adamlarından bir nəfər, adı Müaz ibn Məhəmməd və ya Məhəmməd ibn Müaz olan bu adam - başqaları ilə birlikdə onlarla vuruşmağa başladı, lakin birdən atlarının ayaqları altında çalalar açıldı; atların ayaqları oraya girirdi və Əbu Səidin atlıları bir-bir yerə yıxılırdılar {1217}. Bu hadisə baş verəndə, Afşin fəhlə briqadasına əmr etdi, onların evlərindən daşları söküb, bu çalaları doldursunlar; buna əməl olundu, bundan sonra adamlar bir də hücuma keçdilər. Adin dağın başında, içərisinə daş yığılan arabalar hazırladı, qoşun onun üstünə hücuma

gedəndə, arabaları onların üstünə buraxdırdı, qoşun isə aralanıb kənara çəkildiyinə görə arabalar aşağıya yuvarlandı. Sonra adamlar hər tərəfdən hücuma keçdilər. Babək öz adamlarının mühasirə olunduğunu görəndə Afşinə yaxın olan əl-Bəzz darvazasından bu qalanı tərk etdi; bu darvaza ilə Afşinin dıırduğu təpə arasında bir mil məsafə var idi, Babək bir dəstə öz tərəfdarı ilə yaxınlaşıb Afşini soruşdu: Əbu Dulafa tabe olanlardan biri sual etdi: "Kimsən?" Onlar cavab verdilər: "Babəkdir. Afşini axtarır". Əbu Dulaf bu barədə Afşinə xəbər göndərdi, o da dərhal Babəki tanıyan bir adam göndərdi; bu adam ona baxıb qayıtdı və Afşinə dedi: "Bəli, o doğrudan da Babəkdir. O zaman Afşin miniklə ona tərəf gedib elə bir yerdə dayandı ki, onunla və yoldaşları ilə danışa bilsin. Adin olan məntəqədə vuruşma uzandı və Babək Afşinə belə dedi: "Mən, Əmir əl-Mömінindən aman istəyirəm".

Afşin ona cavab verdi: "Mən sənə aman təklif etmişdim, arzu etdiyin vaxtda, sən onu ala bilərsən"[1].

Babək cavab verib dedi: "Mən onu indi istəyirəm, bu şərtlə ki, öz ailəmi toplamaq və səfərə lazımi şeyləri hazırlamaq üçün mənə bir az vaxt verəsən".

Afşin ona xitabən dedi: "Allaha and olsun. Mən dəfələrlə sənə məsləhət etdim, lakin sən isə mənim məsləhətlərimi qəbul etmədin. Mən bir daha sənə məsiəhət edirəm - sənin bu gün aman istəməyin sabahkından daha münasibdir".

Babək dedi: "Ey əmir. mən qəbul edirəm. - Mənim deyəcəyim budur". {1218} Onda Afşin ona dedi: "Bundan əvvəl sənə dediyim girov saxlanan adamları göndər".

Babək cavabında dedi: "Yaxşı, lakin filankəs və filankəs o təpədədirlər [orada vuruşma davam edir] buna görə öz adamlarına əmr et, dayandırsınlar".

---

[1] Bu əhvalat və bundan sonrakılar göstərir ki, Afşin ilə Babək arasında əlaqə var idi, ət-Təbəri isə bunun üstündən sükutla keçir, halbuki Afşinin mühakiməsindən ortalıga çıxan məktub bu əlaqəni göstərir.

İnandığım adamlardan biri mənə dedi ki, Afşinin elçisi adamları gətirməyə getmişdi, ona dedilər ki, fərqanəlilərin bayraqları əl-Bəzzdədir və qalaların üzərində qaldırılmışdır, buna görə o, atı çaparaq qabağa getdi və adamlara qışqırırdı [onun ardınca gəlsinlər]. Sonra o, şəhərə girdi, onlar da eyni işi gördülər və işarələri götürüb Babəkin qalalarına qalxdılar. Lakin Babək öz qalalarında 600 nəfərə yaxın adamı pusquda saxlamışdı, qoşun da onların yanından keçdi. Onlar işarələri götürüb, qalalara qalxdılar, əl-Bəzzin küçə və meydanları adamla dolu idi. Sonra haman pusqudakılar qalaların darvazalarını açdılar, piyada qoşun çıxıb ərəblərin qoşunu ilə vuruşmağa başladı. Bu arada Babək şəhərdən çıxdı və Həştadsərin yaxınlığında olan dərəyə çatdı.

Afşin öz sərkərdələri ilə birlikdə qalaların darvazaları ağzında vuruşurdu, çünki xürrəmilər möhkəm vuruşurdular. Sonra o, neftatanları çağırdı, onlar düşmənin üzərinə neft səpir və yuxarıda olan hər şeyi yandırırdılar, adamlar qalaları dağıdır və hər birini [xürrəmi əsgərləri] öldürürdülər. Afşin Babəkin oğullarını və onun əl-Bəzzdə olan ailə üzvlərini [1] tutdu. Nəhayət, axşam oldu, o, adamlara qayıtmaq əmri verdi, onlar da yerinə yetirdilər. Xürrəmilərdən sağ qalan adamlar [əvvəlki kimi] öz evlərində qalırdılar. Afşin Rud ər-Rud xəndəklərinə qayıtdı.

Deyirlər ki, Babək və onunla birlikdə dərəyə gedənlər Afşinin öz xəndəklərinə qayıtdığı xəbərini alanda əl-Bəzzə qayıtdılar. Onlar istədiyi və apara bildiyi qədər ərzaq, habelə öz şəxsi şeylərini götürüb və Həştadsərə yaxın olan dərəyə endilər. O biri gün səhər Afşin yenidən səfərə başlayıb və əl-Bəzzə girdi. O, şəhərdə qaldı, əmr etdi ki, onun qalalarını dağıtsınlar {1219} və şəhərin ətrafını yoxlamaq üçün piyada qoşun göndərdi. Lakin onlar əhalidən bir nəfər də görmədilər. Sonra o həmin yerə fəhlə briqadası göndərib, qalaları dağıtdı və yandırdı; bu iş üç gün davam etdi və nəhayət,

---

[1] Əl-Yəqubi II, səh. 579: "Bəzzdə 7600 əsir alınmışdı". Yaqut (İrşad, II, səh. 368-369), Mötəsim və onun hərəmxanasındakı qadınlardan rəvayət edərək göstərir ki, buradakı qadınlardan biri Babəkin qızı idi.

Babəkin bütün qiymətli şeyləri və qalaları məhv edildi. Bir ev, bir qala da salamat qalmadı, o, hər birini yandırdı və ya dağıtdırdı. Bundan sonra o qayıtdı və xəbər aldı ki, Babək bəzi tərəfdarları ilə birlikdə qaçmışdır, buna görə Ermənistanın padşahları və knyazlarına belə məktub yazdı: "Babək bir neçə adamla qaçmış, dərəyə çatmışdır, oradan isə Ermənistana tərəf getmişdir; sizin yanınızdan keçəcəkdir. O hər birinə əmr etdi ki, öz [şəxsi] sahəsini güdsün, yollardan keçən hər bir adamı saxlayıb onların şəxsiyyətini müəyyən etsin. Afşinin yanına casuslar gəlib, ona Babəkin gizləndiyi dərə haqqında məlumat verdilər. Sıx ağaclar və kollarla örtülmüş bu dərə bir tərəfi Ermənistana, digər tərəfi isə Azərbaycana uzanmışdı, buna görə atlı qoşun buradan keçə bilməzdi, habelə burada gizlənəni tapmaq mümkün deyildi, çünki bu dərə sıx meşə və bataqlıq idi. Doğrudan da bura lap əsil batlaq idi [buna görə belə də adlanırdı]. Bu dərənin adı "Batlaq" [qayda] idi. Afşin [mümkün olan] hər yerə adam göndərdi, bilsin həmin bataqlığa enə bilmək üçün yol vardırmı, yaxud həmin bataqlıqdan çıxmaqdan ötrü Babəkin bu yoldan getməyə imkanı vardırmı. Sonra o həmin sahələrdəki hər bir yola və yerə 400-dən 500-dək dəstələr qoydu, yol göstərmək üçün də dağlılardan bunlara adam qoşdu. O, əmr etmişdi ki, gecələr yollar qorunsun ki, buradan heç kəs keçməsin. Bu dəstələrin hər bir əsgərinə öz düşərgəsindən azuqə göndərdi; bu dəstələrin sayı on beş idi.

Vəziyyət belə davam etdi {1220}, nəhayət Əmir əl-Möminin Mötəsimdən qızıl möhürlü məktub gəldi; bu məktubda Babəkə aman verilirdi. Bunun ardınca Afşin Babəkə ona pənah gətirmiş tərəfdarlarının dalınca adam göndərdi, onların arasında Babəkin böyük oğlu da var idi. Afşin onun oğluna və digər tutulanlara belə dedi: "Mən bunu Əmir əl-Möminindən gözləmirdim, onun indiki vəziyyətində mən ona aman verildiyi haqqında yazmaq istəmirəm. İndi sizdən kim bunu aparıb ona verə bilər?"[1]. Lakin onlardan heç

---

[1] Bu abzas bir qədər dolaşıqdır, deyəsən, bu cəhət nəzərdə tutulur ki, Afşin Babəkin qaçmasına namünasib şəkildə yol verdiyi bir vaxtda, xəlifədən

biri bunu yerinə yetirməyə cürət etmədi, onlardan biri isə belə dedi: "Ya əmir! Bizlərdən heç kəs onunla üz-üzə durub, bunu ona verməyə razı olmaz".

Afşin üzünü ona çevirib dedi: "Ey bədbəxt! O, şübhəsiz, bundan sevinəcəkdir". O biri isə belə cavab verdi: "Allah əmirdən razı olsun! Biz bunu səndən yaxşı bilirik".

Bunu eşidən Afşin belə dedi: "Sizin başqa çarəniz yoxdur. Siz tamamilə mənə tabesiniz və şübhəsiz, bu məktubu ona aparmalısınız". Onda iki nəfər qalxıb belə dedi: "Sən bizə söz ver ki. ailəmizi təmin edəcəksən", Afşin də onlara söz verdi; onlar məktubu götürərək bataqlıqda dolaşıb axtarmağa başladılar, nəhayət, ona [Babəkə] rast gəldilər. Babəkin oğlu [da] onlarla məktub göndərib, öz atasına yeni vəziyyəti bildirir və ondan xahiş edir ki, aman almaq üçün qayıtsın, çünki belə etmək daha təhlükəsizdir və daha yaxşı çıxış yoludur. İki nəfər oğlunun məktubunu ona çatdırdı. Oxuyandan sonra onlardan soruşdu: "Siz nə etmisiniz?" Onlar cavab verdilər: "Bizim arvad və uşaqlarımız bu gecə əsir alındı; biz sənin harada olduğunu bilmirdik ki, sənin yanına qayıdaq. Biz elə bir yerdə idik ki, bizi tutacaqlarını bilirdik, buna görə aman istədik".

Babək məktubu verən adama belə dedi: "Mən bu haqda [adam haqqında] heç bir şey bilmirəm. Sən isə ey fahişə oğlu! Sən nə cürət edib, fahişə oğlunun əmri ilə mənim yanıma gəlmisən?!" Babək onu tutub başını kəsdi və məktubu [Mötəsimin məktubunu] açılmamış halda onun döşünə bərk bağladı, çünki o, məktubun möhürünü heç açmamışdı. Sonra o biri adama belə dedi: "Get, o {1221} fahişə oğlundan [öz oğlunu nəzərdə tutur] soruş, nə məqsədlə o bunu mənə yazmışdır?" Habelə ona bu cür məktub yazdı: "Əgər sən mənim dalımca gəlsəydin, öz sülalənin varisi olardın, çünki irsilik sənə keçərdi, neçə gün bundan əvvələdək sən doğrudan da mənim oğlum hesab olunurdun. İndi isə ey fahişə oğlu, sənin fahişə ananın əxlaqsızlığı mənə aydın oldu! Ola bilər bu gündən sonra mən

---

qəflətən ona aman gəlməsindən çaşmışdı. Zotanbar (N.Zotenberg, p. 540) qeyd edir ki, Afşin bu münasibətdə xoş bir heyrətdə idi.

çox yaşamayım, lakin şah [məlik] adı üstümdə qalır, hər hansı yerdə olsam, ya hər hansı yerdə haqqımda danışsalar, şah olaraq qalıram. Lakin sən elə bir cinsdənsən ki, ondan bir nəfər də olsa ləyaqətli adam çıxmamışdır, buna görə də [ucadan] deyirəm, sən mənim oğlum deyilsən, çünki bircə gün rəhbər kimi yaşamaq, qırx il zillətlə qul olmaqdan yaxşıdır". Sonra o, gizləndiyi yeri tərk etdi, üç adam ayırdı ki, elçini müəyyən yerə aparsın; sonra həmin adamlar onun yanına qayıtdılar. Babək ərzağı qurtarıncayadək, həmin bataqlıqda qaldı. Sonra o, yaxındakı yola çıxdı; bu yolu isə əsgərlər qoruyurdu. Bu yer suyu olmayan dağın üstü idi, qoşun da burada dayanmırdı, çünki su bu yerdən uzaq idi, buna görə, istər-istəməz, qoşun buranı tərk edib, su olan yerə getdi. Buna baxmayaraq, dəstələr yolu güdmək üçün iki nəfər dağlı və iki atlı saxladılar; yol ilə dəstələrin olduğu yer arasında təqribən bir mil yarım məsafə var idi. Hər gün iki atlı və iki nəfər dağlı yola göz qoyurdular; bir dəfə günorta vaxtı onlar yola baş çəkəndə Babək və onun yoldaşları öz yerlərindən çıxdılar. Lakin onlar heç kəsi - nə iki atlını, nə də iki nəfər dağlını görmədilər, buna görə belə güman etdilər ki, orada dəstələr yoxdur. Buna görə Babək öz iki qardaşı - Abdullah və Müaviyə, öz anası, qadınlarından biri olan İbnat əl-Kalandaniyyə ilə yola çıxdılar və {1222} Ermənistana tərəf getdilər.

İki atlı və iki nəfər dağlı onları gördülər və [bu barədə] Əbu Sacın sərkərdəliyi altında olan dəstələrə xəbər verməyə adam göndərdilər: "Biz, yaxından keçən atlılar gördük, lakin onların kim olduğunu bilmirik". Sonra bir neçə nəfər atlarını çapıb onları təqib etməyə başladılar, nəhayət, uzaqdan gördülər ki, onlar bulaq başında oturub yemək yeyirlər. Lakin onlar adamları görəndə, kafir [Babək] vaxtı itirmədi - o və onunla olanlar atlara sıçrayıb, aradan çıxa bildilər. Müaviyə, Babəkin anası və yanındakı arvadı ələ keçdilər. Onlarla birlikdə Babəkin nökərləri [də] tutuldular. Əbu Sac Müaviyəni və iki qadını geriyə, düşərgəyə göndərdi, Babək isə yoluna davam edib irəlilədi, nəhayət, Ermənistan dağlarına çatıb, orada ehtiyatla hərəkət etməyə başladı. Onun ərzağa bərk ehtiyacı var idi, lakin bütün erməni knyazları [patrikləri] öz yaxınlığındakı torpaqları və ucqarlarını diqqətlə qoruyurdular, Öz qarnizonlarına

əmr etmişdilər ki, gördükləri adamları əvvəlcə saxlayıb şəxsiyyətini ayırd etməyincə, içərilərə keçməyə qoymasınlar, buna görə qarnizon komandirlərinin hamısı sayıq idilər.

Babək aclıq çəkirdi. O, hündür bir yerdə ikən birdən dərələrin birində öz fəddanını[1] şumlayan bir əkinçi gördü. O öz nökərinə dedi: "Özünlə dinar və dirhəm götürüb, aşağıya bu əkinçinin yanına düş, onda çörək olarsa, çörəyi alıb ona pul ver". Əkinçinin yoldaşı [şəriki] var idi, bu zaman o hara isə getmişdi, nökər aşağıya düşüb əkinçinin yanına çatanda, onun yoldaşı uzaqdan yaxınlaşan nökəri görüb yadellidən qorxuya düşdü, gözləyib baxmağa başladı ki, yoldaşı nə edəcəkdir. Nökər əkinçiyə tərəf nə isə uzatdı o da yaxınlaşıb, gətirdiyi çörəyi nökərə verdi, lakin uzaqdan bunları görən yoldaşı belə düşündü: "Yəqin bu yadelli çörəyi ondan zorla alır, çünki əvəzində nökərin ona nə verdiyini bilmirdi. O, təcili surətdə qarnizona gedib, onlara dedi ki, onların yanına qılınclı və silahlı olan bir adam gəldi, onun dərədə olan yoldaşından zorla çörək aldı. Qarnizonun komandiri bundan sonra atını minib getdi; bu əhvalat ibn Sunbatın dağlarında baş verdiyi üçün, o, {1223} Səhl ibn Sumbata xəbər göndərdi, o da bir neçə adamla təcili olaraq oraya getdi. O, əkinçinin yanına çatanda, nökər hələ orada idi, ondan soruşdu: “Bu nə məsələdir?" Əkinçi dedi: "Bu adam mənim yanımdan keçirdi, məndən çörək istədi, mən də ona verdim".

İbn Sumbat nökərdən soruşdu: "Sənin ağan haradadır?" O da cavab verdi: "Orada", başı ilə də haman səmti göstərdi. İbn Sumbat nökəri qabağına salıb Babəkin yanına çatdı; o, [dağdan] enmişdi; Babəkin üzünə baxan kimi onu tanıdı və atdan düşüb, ona yaxınlaşdı, əlini öpdü. Sonra o belə dedi: "Heyhat, ey mənim ağam! Haraya gedirsən?”

Babək belə cavab verdi: "Mən istəyirəm Rum torpaqlarına [ya da adını dediyi yerlərə] gedim".

---

[1] Orta əsrlərdəki fəddan 5883,5 kv. Metrə bərabərdir. B a x; EI, II, səh. 36.

İbn Sumbat cavabında dedi: "Sən elə bir yer və elə bir adam tapa bilməzsən ki, məndən artıq səni başa düşsün və onun yanında qalmaq üçün məndən daha ləyaqətli olsun[1]. Sən mənim vəziyyətimə bələdsən. Mənimlə hakimiyyət [xəlifə] arasında heç bir əlaqə yoxdur, sən də hökumətə yaxın olan bir adamın yanına gedə bilməzsən. Sən mənim işlərimi bilir, ölkəmi və burada olan bütün patrikləri tanıyırsan. Doğrudan da onlar sənə yaxın olan adamlardır və onlardan sənin oğlanların vardır". O bu sözlərlə onu nəzərdə tuturdu ki, əvvəllər Babək patriklərdən birinin gözəl qızı və ya bacısı olduğunu biləndə, onun dalınca adam göndərib istədir, patrik onun istəklisini ona göndərəndə, hər iş yaxşı gedirdi, yox, əgər patrik verməsəydi, o, gecə onun üstünə hücum edib, qadını aparardı, patrikin bütün əmlakı və hər şeyini əlinə keçirər, bunları zorla öz torpağına aparardı[2].

İbn Sumbat ona dedi: "Gəl mənimlə gedək bizim qalaya, axı bu sənin evindir mən sənin qulun. Bu qış burada qal, sonra isə nə edəcəyin sənə aydın olar".

Məhrumiyyətlər və yorğunluq Babəki əldən salmşdı, odur ki, Səhl ibn Sumbatın sözünə inanıb ona belə dedi: "Yaxşı olmaz ki, mən və qardaşım bir yerdə qalaq, çünki birisi bizlərdən birinin izinə düşərsə o birisi salamat qalıb yaşayacaqdır. Mən özüm səninlə qalacağam, qardaşım Abdullah isə ibn İstifanusun yanına gedəcəkdir, çünki biz nə olacağını bilmirik {1224} və sonradan bizim sülaləni davam etdirə biləcək varisimiz yoxdur".

"Sənin çoxlu oğlanların vardır", - deyə ibn Sumbat ona müraciət etdi. Lakin Babək cavab verdi ki, onların arasında bir nəfər də münasib olanı yoxdur, buna görə qardaşını inandığı ibn İstifanusun qalasına göndərməyi qərara almışdır. Bundan sonra o, ibn

---

[1] Mixail Siriyets (Xronika, III, səh. 90) səhv olaraq bu hadisələri İsa ibn İstifanusa istinad verib, Səhlin adını çəkmir; müqayisə et: A. Васильев. Византия и арабы, стр.118, р.2.

[2] Magdisi. Livre de creation, trad, par G.Huart, v. 23, p. 115. "Babək, Səhli əsir tutmuşdu və onun gözü qarşısında anasını, arvadını və bacısını zorlamışdı".

Sumbatla onun qalasına getdi, səhər isə Abdullah ibn İstifanusun qalasına yola düşdü.

İbn Sumbat, Afşinə yazdı ki, Babək onun qalasındadır[1], o da belə cavab verdi: "Əgər bu doğrudursa, Əmir əl-Möminin [Allah ona qüvvət versin] və mənim yanımda sənə olan etimadı artırar". O yazdı ki, o, [ibn Sumbat] yaxşı mükafat alacaqdır, sonra o, inandığı yaxın adamlarından birinə Babəkin əlamətlərini təsvir etdi. O, ibn Sumbata yazıb izah etdi ki, öz yaxın adamlarından birini onun yanına göndərin, Babəki görüb tanısın və bu barədə ona məlumat versin.

İbn Sumbat, Babəkdə şübhə oyatmaq istəmədiyindən gələn adama belə dedi: "Sən onu başqa vaxtda yox, yalnız yemək zamanı görə bilərsən. O mənimlə yemək yeyir, səhər yeməyinə çağırdığımızı görəndə, yanımızdakı aşpazlara məxsus paltar geyərsən ki, bizim adamlardan sayılasan. Sonra bizim yanımıza bir bəhanə ilə gəl ki, guya sən yemək gətirirsən, ya da bir şey aparırsan, o, yeməklə bərk məşğul olanda, istədiyin qədər onu öyrənə bilərsən, sonra da qayıt, bu barədə öz ağana məlumat apar".

Həmin adam səhər yeməyi zamanı eləcə də hərəkət etdi, Babək isə başını qaldırıb ona baxdı, onu tanımadığına görə soruşdu; "Bu adam kimdir?" ibn Sumbat belə cavab verdi: "Bu adam Xorasandandır {1225}, o, xaçpərəstdir və çoxdan bizdədir". Bununla o, usruşanlıya başa saldı ki, nə demək istəyir. Sonra Babək bu adamdan soruşdu: "Nə vaxtdan buradasan?" O cavab verdi: “Filan ildən”. Babək soruşdu: "Necə oldu ki, burada qaldın?" O adam cavabında dedi: "Mən burada evlənmişəm". Babək dedi: "Sən doğru deyirsən. Bir adamdan birisi soruşanda ki, haralısan, cavab verdi: "Arvadım doğulduğu yerdən".

Həmin adam qayıdıb, Afşinə məlumat verdi və Babəkdə müşahidə etdiklərinin hamısını ona təsvir etdi. Bundan sonra Afşin Əbu Səidi və Buzbaranı məktubla ibn Sumbatın yanına göndərdi. O,

---

[1] Əl-Məsudinin mətni (Kitab-i muruc əz-zəhəb, VII, səh. 125-126) bu yerdə ət-Təbərinin mətnindən fərqlidir. O deyir ki, Səhl Babək üçün nahar gətirir, lakin Səhlin oturub onunla nahar etməsindən Babəkin acığı lutdu. onda Səhl onun əl-qolunu bağladı. B a x: M.Сириец. Хроника, III, стр. 90.

əmr etdi ki, onlar göstərilən yola çatanda, məktubu yerli adamlardan birisi ilə ibn Sumbata göndərməlidirlər, bir də əmr etdi ki, ibn Sumbat onlara nə təlimat verərsə, onun sözündən çıxmasınlar. Onlar onun buyruğuna əməl etdilər, ibn Sumbat onlara yazdı ki, onun göstərdiyi və hər ikisinə təsvir etdiyi yerdə qalıb onun elçisini gözləsinlər. Onlar onun təsvir etdiyi yerdə gözləyirdilər, o da onlara ərzaq və lazımi şeylər göndərdi ki, Babək ova gedərkən onların yanından keçən vaxtadək dolansınlar.

İbn Sumbat ona dedi: "Buranın dərəsində təmiz hava vardır, sən isə qala divarları içində qalırsan. Buna görə gəl qaladan çıxaq, mənim şahin və quzğunumu və lazım olan hər şeyi özümüzlə götürək, həm də səhər yeməyinədək ovda vaxt keçirərik".

Babək cavab verib dedi: "Sən deyən olsun". İbn Sumbat hər şeyi hazırladı ki, səhər onlar birlikdə qaladan çıxsınlar. O nə qərara gəldiyini Əbu Səidə və Buzbaraya yazdı və onlara təlimat verdi ki, biri dağın bir tərəfindən, o biri isə o biri tərəfindən onu qoşunla necə qarşılasın {1226}. İbn Sumbat onlara əmr etdi, sübh namazı vaxtı gizlicə hərəkət etsinlər, sonra isə onun elçisi onların yanına gələndə, onlar dərə ilə yuxarıya qalxsınlar və onları [Səhl ilə Babəki] görəndə aşağıya enib tutsunlar. Ertəsi gün ibn Sumbat ilə Babək qaladan çıxanda, ibn Sumbat bir qasidi Əbu Səidin, digərini isə Buzbaranın yanına göndərib, hər bir qasidə belə dedi: "Sən filan yerə get, sən də filan yerə. Sonra bizdən yuxarı qalxın və hər ikimizi görəndə, qışqırın; "Onlar buradadır! Tutun onları!" O istəyirdi [bu yolla] Babəki çaşbaş salsın ki, Babək belə desin: "Bu atlılar çaparaq, bizə tərəf gəlir və bizi tutmaq istəyirlər". Ona görə o, belə edirdi ki, Babəki öz qalasında onlara [ərəblərə] ələ vermək istəmirdi[1].

Hər iki qasid Əbu Səidin və Buzbaranın yanına gəlib, onlarla birlikdə yola düşdülər [minib gəldilər], nəhayət, Babəklə ibn Sumbatın olduğu yerin üstünə çatdılar. Onlar aşağıya baxıb Babəki gördülər, sonra da öz adamları ilə, biri bir tərəfdən, o biriləri isə digər

---

[1] Gördüyümüz kimi, Səhl eyni vaxtda iki tərəfə qulluq edirdi.

tərəfdən aşağıya endilər, hər ikisini və onların quzğunlarını tutdular. Babək ağ paltar geymişdi, başında ağ sarıq, ayağında qısa çəkmə var idi və əlinin üstündə quzğun oturmuşdu. Əsgərlərin onu mühasirə etdiyini görəndə, dayanıb onlara baxdı, əsgərlər isə dedilər: "Düş atdan!"

Babək soruşdu: "Siz kimsiniz?" Onlardan biri cavab verdi:"Mən Əbu Səidəm". O biri isə dedi: "Mən Buzbarayam".

"Yaxşı", - deyə Babək cavab verdi və dizini büküb, atdan düşdü. İbn Sumbat ona baxırdı, Babək başını qaldırdı və onun üzünə baxıb belə dedi: "Olmaya sən məni yəhudilərə [yəni ərəblərə] cüzi bir pula satıbsan? Əgər sən pul istəyirdinsə, məndən istəyə idin, mən sənə onlardan çox pul verərdim".

Əbu Səid ona dedi: "Ata min, get". O da cavab verdi: "Yaxşı".

Onlar Babəki Afşinin yanına apardılar və ordugaha yaxınlaşanda, Afşin Bərzəndə {1227} gedib, orada çadır qurdu və öz adamlarına əmr etdi ki, iki cərgəyə düzülsünlər. Onlar Babək ilə gələndə Afşin böyük çadırda oturmuş və əmr etmişdi ki, iki cərgə arasından keçə biləcək heç bir özgə adamı buraxmasınlar, çünki Babəkin öldürdüyü adamların dostlarından birinin, yaxud başına gələn bəla gətirdiyi adamların onu öldürəcəyindən ehtiyat edirdi. Afşinin yanına çoxlu qadın və cavan adam gəlib dedilər ki, Babək onları əsir almışdır, onlar isə azad adamlardır - ya ərəb, ya da İran dehqanıdırlar. Afşin onların barəsində sərəncam verdi və onlara hər tərəfi böyük bağlı bir yer verdilər ki, burada yaşaya bilsinlər və hamıya çörək verdi. Sonra onlara təlimat verdi ki, harada olmasından asılı olmayaraq öz yaxın qohumlarına məktub yazsınlar. Əgər biri gəlib, qadını, oğlanı və qızı tanısa və iki nəfər şahid təsdiq etsə ki, bunları tanımışdır, ya da onlar onun yaşadığı evin, qohumlarının yaşadığı evin qadınlarıdır, onda onları azad edib qohumlarına verəcəkdir. Kişilər gəlib çox adam apardılar, lakin bir çoxları orada qalıb öz yaxın adamlarının gəlməsini gözləyirdilər.

Həmin gün Afşin öz adamlarına əmr etdi cərgəyə düzülsünlər və onunla Babək arasında yarım mil məsafə olsun; sonra Babəki həmin geyim, sarıq və çəkmə ilə piyada iki cərgə arasından keçib

Afşinin yanına apardılar. Afşin ona baxandan sonra dedi: "Onu aşağı düşərgəyə aparın", onlar da Babəklə birlikdə aşağıya getdilər. Lakin hər tərəfi çəpərlənmiş yerdə olan qadınlar və gənclər onu görəndə üzlərini şilləməyə başladılar və elə fəryad və şivən qopardılar ki, səsləri asimana ucaldı.

Afşin onlara dedi: "Dünən axşam siz fəryad edirdiniz ki, o sizi əsir etmişdir, bu gün isə onun üçün ağlayırsınız. Allah sizə lənət etsin!" Onlar isə belə dedilər: "O bizə yaxşı baxırdı".

Bundan sonra Afşin sərəncam verdi {1228} və Babək bir evə salındı, onu qorumağı da özünün bəzi adamlarına tapşırdı.

Babək ibn Sumbatın yanında olan vaxt onun qardaşı Abdullah, İsa ibn Yusif ibn İstifanusun yanına [qalasına] getmişdi. Afşin Babəki tutub öz ordugahına gətirdikdən və mühafizə altında saxladıqdan sonra ona Abdullahın yeri, onun ibn İstifanusun yanında qaldığı haqqında məlumat verdilər. O, dərhal ibn İstifanusa yazdı ki, Abdullahı onun yanına göndərsin, o da buna əməl etdi. O, Afşinin əlinə keçəndən sonra onu həbs edib qardaşı olan evə saldılar və Afşin öz adamlarını onları qorumağa göndərdi. O, Babəki və qardaşını tutduğu haqqında Mötəsimə məktub yazdı, Mötəsim də cavabında ona əmr etdi ki, hər ikisini onun yanına gətirsin. O, İraqa qayıtmağa hazırlaşanda Babəki çağırdıb ona belə dedi: "Səninlə birlikdə getmək niyyətində olduğumdan, Azərbaycan torpağında nə arzun vardır, bundan axırıncı dəfə istifadə et".

Babək belə cavab verdi: "Mən öz şəhərimə baxmaq istərdim". Bundan sonra Afşin aylı bir gecədə, öz adamlarını onunla əl-Bəzzə göndərdi, Babək şəhərin ətrafını gəzdi, ölənləri və evləri səhərədək nəzərdən keçirdi, sonra Afşinin yanına qayıtdı. Afşin onu qorumağı öz adamlarından birinə tapşırmışdı, lakin Babək xahiş etdi ki, onu bu adamın əlindən qurtarsın; Afşin soruşdu: "Sən nə səbəbə onun əlindən qurtarmaq istəyirsən?" Babək belə cavab verdi: "O gələndə, əlindən qoxumuş ət iyi gəlir. Sonra o mənim başım tərəfdə yatır, onun nəfəsindən iyrənirəm". Afşin də bu adamı götürdü.

Babək şəvvalın 10-da[1] [837-ci il sentyabrın 15-də] Buzbara və Divdadın [Əbu Sacın] yanında Bərzəndə, Afşinin yanına gəldi.

## {1229} 223 (837/838)-cü il[2]. Bu ilin hadisələri

Afşinin Babək və onun qardaşı ilə birlikdə Mötəsimin yanına gəlməsi haqqında deyirlər ki, o, Samarraya cümə axşamı səfər ayının 3-də [838-ci il yanvarın 4-də] gecə gəlmişdir və Afşin Bərzəndi tərk edib. Samarraya çatan vaxtadək Mötəsim hər gün ona at və fəxri paltar göndərirdi. Habelə deyirlər ki, Mötəsim Babəkin işindən narahat olduğuna, ona dair yeni xəbərlər gəldiyinə, habelə yağan qardan yollar pis vəziyyətdə olduğuna və digər səbəblərə görə, Samarradan Əkəbə Xulvanadək [3] [yol boyunda] çapar atları saxlayırdı. Hər bir fərsəxin başlanğıcında çapar atı və xüsusi təchizatı olan atlı var idi ki, Azərbaycanla Xulvan arasında bütün yol boyu mənzillərində yeni xəbərləri birindən digərinə çatdırmaq üçün at çapırdı. Onlar əl-Marcda[4] yəhərli at hazırlayır və bunları bir-iki gün minəndən sonra digərləri ilə, əl-Marc komandirlərinin nökərlərinin mindiyi atlarla dəyişdirirdilər. Hər bir atlı fərsəxin başlanğıcında hazır dururdu. O, [Mötəsim] dağların başında gecə-gündüz gözətçilər qoyub, onlara əmr etmişdi ki, yeni məlumat alanda qışqırsınlar; qışqıran adamın yaxınlığında olan başqa bir adam qışqırığı eşidəndə

---

[1] Əl-Məsudi (Tənbih, VIII, səh. 353) qeyd edir ki, bəziləri Babəkin ramazanda,

digərləri isə şəvvalda əsir alındığını söyləyirlər.

[2] Hicri 223 (837)-cü il dekabrın 3-də başlanıb 838-ci il noyabrın 23-də bitmişdir.

[3] Xorasanla İsfahan əyalətləri arasında Nişapur əyalətinin dağ hissəsindəki Xulvan keçidi. Yaqut, III, 191.

[4] Marc əl-Qala: Yəqubinin dediyinə görə, burada xəlifənin at ilxısı var idi. Bu da Xulvan keçidi yaxınlığında gözəl otlağı olan bir düzənlikdə yerləşmişdi. B a x: ibn Xordadbeh. BGA, VI, səh. 19; müqayisə et: G. le Srange. Sitat gətirilən əsəri, səh. 192.

hazırlaşırdı: onun qışqıran yoldaşı o vaxtadək onu qarşılamağa getməzdi ki, o birisi onu yolda qarşılasın və burada poçt kisəsini ondan alsın. Beləliklə, Afşinin ordugahında poçt kisəsi Samarraya dörd günə və ya daha az müddətə göndərilirdi.

Afşin Kanatir Xüzeyfəyə çatanda onu Mötəsimin oğlu qarşıladı. Sonra o, Mötəsimin yanına qayıtdı və Babək ilə Samarraya gəlib çatanda, Babəki özünün əl-Mətirədəki[1] qəsrində yerləşdirdi {1230}, gecəyarısı Əhməd ibn Davud[2] paltarını dəyişdirib gəldi, Babəki görüb onunla danışdı. Sonra o, Mötəsimin yanına qayıtdı və Babəki ona təsvir etdi. Bundan bir az keçəndən sonra Mötəsim ata mindi, əl-Xeyranın[3] iki divarı arasından keçib paltarını dəyişmiş halda daxil oldu, ona baxıb göz gəzdirdi, Babək isə onu tanımadı[4]. O biri gün səhər Mötəsim işin [onun işinə] baxılmasına qərar verdi [bazar ertəsi və ya cümə axşamı idi][5]. Xalq Darvazasından [Bab əl-Ammə] əl-Mətrəyədək adamları yerləşdirdi, çünki istəyirdi Babəki göstərsin və camaat onu görsün. Buna görə o soruşdu: "Bu [adamı] nəyə mindirib gətirmək olar? Necə etməli ki, hamı onu görsün?"

Xizam (ibn Qalib) belə cavab verdi: "Ya Əmir əl-Möminin! Onu göstərmək üçün fildən yaxşısı yoxdur".

"Sən doğru deyirsən", - deyə, Mötəsim cavab verdi və əmr etdi ki, fil hazırlasınlar. O əmr etdi Babəkin qeydinə qalsınlar; ona sonradan ipək qəba[6] və girdə samur qalansuva[1] geydirdilər. O tamamilə tək idi.

---

[1] Samarranın iki fərsəx cənubunda, böyük yol üstündə. Yaqut, IV, səh. 456.

[2] Xəlifə Mötəsimin vəziri.

[3] Samarrada qəsr-qala. B a x: Yaqut, II, səh. 375.

[4] İbn Kəsir. Əl-Bidayə, c. XIV, əl-Qahirə, 1932, səh. 284. Qeyd edir ki, Mötəsim, Babək gəlincəyədək poçt yolu ilə iki gün yol getdi ki, onu gorsün, lakin Babək onu tanımadı.

[5] Xəlifə Qəbul sarayında bazar ertəsi və cümə axşamı günlərində yığıncaq edərdi.Əl-Yəqubi. Buldan, VII, səh. 259.

[6] Q ə b a - ərəb dilində dürüst mənası məlum deyildir. R.Dozi (səh. 352-362) belə güman edir ki, bu, qabaqdan düymələnən və arxadan kəsilən xirqədir.

Məhəmməd ibn Əbd ül-Malik əz-Zəyyat belə demişdir:

Fili adəti üzrə bəzədilər!
O, Xorasan sultanını gətirir!
Və filin ayrı yerləri belə bəzənmir!
Yalnız tək-tək hallarda olur belə!

Əl-Mətirədən Xalq Darvazasınadək camaat ona baxmağa axışmışdı. Onu Qəbul Sarayına [Dar əl-Ammə] Əmir əl-Mömininin yanına gətirdilər və cəllad çağırıldı ki, onun əl və ayaqlarını kəssin. Lakin sonra Mötəsim əmr etdi ki, onun əvəzinə Babəkin öz cəlladını gətirsinlər, saray adamlarından biri Xalq Darvazasından çıxıb qışqırmağa başladı: "Nudnud!" {1231} Babəkin cəlladının adı belə idi və o, gəlincəyədək "Nudnud!" bağırtısı hər yerə yayıldı. O, Qəbul Sarayına daxil olanda, Əmir əl-Möminin ona əmr etdi, Babəkin əl və ayaqlarını kəssin. O bunları kəsdi, Babək yıxıldı. Bundan sonra Əmir əl-Möminin əmr etdi, onun qarnını yırtsınlar və iki nəfərdən[2] biri bunu yerinə yetirdi. Sonra o, Babəkin başını Xorasana göndərdi, bədənini isə Samarrada məşhur olan əl-Əkəbə məhəlləsində çarmıxa çəkdilər.

Sonralar Mötəsim əmr etdi ki, Babəkin qardaşı Abdullah ibn Şərvin ət-Təbəri ilə Dar üs-Səlamda [sülh şəhəri - Bağdad] öz nümayəndəsi İshaq ibn İbrahimin yanına göndərilsin. Ona əmr etdi ki, Abdullahın başını kəssin, onun qardaşı Babəkə verilən cəzalar ona da verilsin, axırda isə onu çarmıxa çəksin. Ət-Təbəri onunla əl-Baradana çatanda sarayda qaldı. Babəkin qardaşı Abdullah ondan soruşdu: "Sən kimsən?" O cavab verdi: "Mən Təbəristan hakimi ibn Şərvinəm". Abdullah dedi: "Şükür Allaha ki, mənim üçün dehqan

---

[1] Çalmanın altında geyilən zərxaradır. İndiki tarbuşa oxşayır. B a x: R.Dozi, səh.365-371; EI, II, səh. 677.

[2] Bu, şübhəsiz, birinci olaraq çağırılan cəlladı və Nudnudu göstərir. Əl-Məsudi (Muruc, VII, səh. 129-130) Babəkin ölümünü başqa şəkildə təsvir edir. Babəkin mənəvi dözümü haqqındakı maraqlı təfərrüat üçün b a x: Al-Tanukhi. Niswar, ed and transl, I921,p. 75.

tapıb və məni öldürməyi ona tapşırıblar". İbn Şərvin belə cavab verdi: "Həqiqətdə isə səni öldürməyi bax kimə tapşırmışlar", çünki Babəki öldürən cəllad Nudnud onunla gedirdi. Abdullah ona dedi: "Sən mənə taysan, o isə vəhşidir, mənə söylə görüm, məni yedirməyi sənə tapşırmışlar ya yox?". İbn Şərvin ondan sorışdu: "Mənə söylə, nə istəyirsən?" Abdullah cavab verdi: "Mənim üçün bir az faludac[1] qarışdır".

İnandığım adam mənə demişdir ki, sonra ibn Şərvin sərəncam verdi və onun üçün gecəyarısı faludac qarışdırdılar, o da doyunca yedi. Sonra o belə dedi: "Ey filankəsin atası "Sabah, Allah istəsə, sən biləcəksən ki, mən dehqanam!", sonra isə xahiş etdi: "Mənə içmək üçün nəbid verə bilərsənmi?" O cavab verdi: "Bəli, lakin bir az". Abdullah dedi: "Əlbəttə, mən çox istəmirəm".

Sonra dörd sətil şərab gətirdilər. Abdullah da oturub səhərədək yavaş-yavaş onu içdi. Səhər tezdən onu Dar üs-Səlama, körpü başına gətirdilər. İshaq ibn İbrahim əmr etdi ki, onun əllərini və ayaqlarını kəssinlər. Abdullah edam zamanı heç səsini çıxarmadı. Sonra əmr verildi ki, onu çarmıxa çəksinlər; o, Dar üs-Səlamın şərq hissəsində iki körpü arasında çarmıxa çəkildi.

{1232} Tauk ibn Əbmədin sözünə əsasən deyirlər ki, Babək qaçanda Səhl ibn Sumbatın yanına gəldi. Afşin Əbu Səidi və Buzbaranı göndərib, Babəki ondan aldılar, Səhl öz oğlu Müaviyəni yüz min dirhəm, Səhl üçün Əmir əl-Möminin adından bir milyon dirhəm$_s$ habelə bəzəkli qiymətli kəmər və patrik tacı verilsin. Bu yolla Səhl patrik oldu. O, habelə demişdi ki, Babəkin qardaşı Abdullah ibn Uxt İstifanus adı ilə məşhur olan Beyləqan hakimi İsa ibn Yusifin yanında idi.

Əli ibn Murrun katibi Məhəmməd ibn İmran [əl-Katib ər-Ravi] belə rəvayət edir: "Əli ibn Murr, Matr adında bir avaranın sözünü misal gətirir; bu adam demişdir: "Ya Əbü-l-Həsən, and olsun Allaha, Babək mənim oğlum idi!" Mən dedim: "Sən bununla nə demək istəyirsən?" O da mənə belə dedi: "Biz ibn ər-Rəvvadın

---

[1] Bal, nişasta və su ilə hazırlanan şirniyyat. B a x: Q.Leyn, səh. 2439.

yanında idik. Babəkin anası birgözlü Bərumənd isə ibn ər-Rəvvadın kənizlərindən biri idi. Mən onun evində mənzil tutmuşdum, o öz əslinə görə aşağı adamlardan idi, buna görə mənə qulluq etməyə başladı, paltarımı yuyurdu. Bir dəfə mən ona nəzər saldım, gəzəyən adamın ehtiras və şəhvəti ilə onun üstünə atıldım, hamilə olanda isə onu tərk etdim. Bundan sonra uzun müddət bir-birimizi görmədik. Sonra görüşdük, belə məlum oldu ki, o, uşaq doğmuşdur. Ancaq mən başqa evdə qaldım. Bir dəfə o, yanıma gəlib dedi: "Mən səndən hamilə olanda mənim yanımda qalırdın, indi isə məni tərk etmisən"", o faş etdi ki, onun oğlu məndəndir. Mən belə dedim: "And olsun Allaha, əgər sən bu barədə söz açsan, səni öldürərəm! ", buna görə o susdu. Amma "Allaha and olsun o, mənim oğlumdur!"Babək ilə müharibə zamanı Afşin qoşun üçün ərzaq almaqdan, hədiyyə və yeni qüvvədən başqa, ata mindiyi hər gün üçün də haqq alırdı.

Rəvayətə görə, Babək iyirmi il ərzində 225500 adam öldürmüş. Yəhya ibn Müaza, İsa ibn Məhəmməd ibn Əbu Xalidə, Əhməd ibn əl-Cüneydə [onu əsir almışdı], Süreyk ibn Əli ibn Sədəqə[1], Məhəmməd ibn Hümeyd ət-Tusiyə və İbrahim ibn əl-Leysə qalib gəlmişdir. Babək ilə birlikdə 3309 adam əsir alınmış, onun yanında əsir olan 7600 müsəlman qadın və uşaqları azad edilmişdir. Babəkin 17 oğlu, 23 qızı və gəlini Afşinin əlinə keçmişdi.

Mötəsim Afşinin başına tac qoydu, ona libas geydirdi, onu brilyantlarla bəzədi. O, Afşinə 20 milyon dirhəm göndərmişdi – bunun 10 milyonu hədiyyə idi, 10 milyonu da o öz döyüşçülərinin ailələrinə payladı. Bundan əlavə, o, Sind hakimi təyin edildi. O, şairlərə tapşırdı ki, onu tərifləsinlər və əmr etdi onlara bəxşiş versinlər. Bu - cümə axşamı II rəbiin 13-də (838-ci il martın 14-də) olmuşdur

{1234} Bu ildə Bizans padşahı Feofil Mixail oğlu[2] Zibatra[1] əhalisinə hücum edib, buranı tutdu onların şəhərini viran etdi. Sonra

---

[1] Məmunun hökmranlığı dövründə Ermənistan hakimi idi. B a x: ət-Təbəri, III, səh. 1072.

[2] F e o f i l - Mixailin oğlu. Georginin nəvəsi - Bizans imperatorudur (829-842)

o təcili olaraq Malatiyeyə[2] gedib biri-birinin ardınca müsəlman qalalarına hücıım etdi. O, müsəlman qadınlarını tutmuşdu [bəzilərinin dediyinə görə onların sayı mindən artıq idi], onun əlinə keçən müsəlman kişilərinə cəza vermişdi, qızmış dəmirlə gözlərini çıxarır, qulaq və burunlarını kəsərdi.

## Bizans hökmdarının müsəlmanlara qarşı etdiyi bu hərəkətinin səbəbi

Rəvayətə görə, bunun səbəbi belə idi: "Babək özünün son günlərinin yaxınlaşdığını hiss edib və yəqin eləmişdi ki, onu hər tərəfdən sıxışdıran, taqətdən salıb həlak olmağa çatdıran Afşin ilə müharibəni davam etdirmək iqtidarında deyildir, buna görə bizanslıların imperatoru Feofil Mixail oğlu, Georgi nəvəsinə yazıb bildirmişdi ki, ərəblərin padşahı bütün öz orduları və döyüşçülərini, hətta öz dərzisini [Cəfər ibn Dinar əl-Xəyyat nəzərdə tutulur] və öz aşpazını [İtahət-Təbbax nəzərdə tutulur] mənə qarşı göndərmişdir, odur ki, onun darvazalarında [sərhədlərdə] heç kəs qalmamışdır. Buna görə "əgər sən oraya, onun ərazisinə soxulmaq istəyirsənsə, bil {1235} ki, sənin yolun üzərinə sənə mane ola biləcək adam qalmamışdır[3], O [Babək] ona məktub göndərməklə ümid edirdi ki, beləliklə, Bizans padşahı qəti hərəkət etməyə başlayacaq və bu yol ilə onun [Babəkin], bəzi fəlakətləri ondan uzaqlaşdırılacaqdır, çünki Mötəsim ona qarşı duran qoşundan bir hissəsini istər-istəməz, geri

---

[1] Mesopatamiyada sərhəd qalasıdır. Əl-Bəlazuri, səh. 191-192; əl-Yaqut, II, səh. 914.

[2] Fərat çayının yuxarı axarında, Zibatradan beş fərsəx aralı olub, Xilafətin sərhədində yerləşən qaladır. EI, III, səh. 192-196; Q.M.Strenc, 120; əl-Yaqut, IV, səh. 633-635.

[3] Fraqon (Fragon. Historie Arab, ed. by M. J. de Goeje, Leiden, 1871, p. 390) əlavə edir: "Əgər sən indi hücum etsən, onun atası və qardaşının (Harun ər-Rəşid və Məmun nəzərdə tutulur) səndən aldıqlarından ikiqat artığını onlardan ala bilərsən.

çağırmalı və Bizans padşahına qarşı göndərməli olacaqdır, bu əhvalat da onun yanında deyil, başqa bir yerdə baş verəcəkdir".

Rəvayət edirlər ki, Feofil 100 000 qoşunla səfərə başladı, bir də deyirlər ki, bunun çox hissəsi nizami ordu idi, təqribən 70 000 nəfərdən çox idi, qalan qoşun isə köməkçi hissələr idi. O, Zibatraya mühəmmirə [1] ilə gəlmişdi; onlar vaxtilə əl-Cibalda üsyan qaldırmışdılar və İshaq ibn İbrahim ibn Müsəb onları məğlub edəndə, onların bir hissəsi bizanslıların tərəfinə keçmişdi [onların başçısı Barsis idi].

# ƏLAVƏ II

## MƏHƏMMƏD İBN İSHAQ İBN ƏN-NƏDİMİN "KİTAB ƏL-FİHRİST" ƏSƏRİNDƏN

{242} Məhəmməd ibn İshaq belə deyir: "Xürrəmilər iki növdür, birinci növ xürrəmilər - mühəmmirə adlanır. Onlar Azərbaycanla Ermənistan Deyləm ölkəsi ilə Həmədan və Daynavər arasındakı dağ vilayətlərində yayılmış, burada səpələnmiş halda yaşayırdılar. Onlar habelə İsfahanla Əhvaz ölkəsi arasına yayılmışlar. Öz mənşəyinə görə onlar maqdırlar [sehrbaz]".

### Babəki-xürrəmilər haqqında

Babəki-xürrəmilərə gəlincə, onların ağası Babək əl-Xürrəmidir. O səhv edib deyirdi ki, Allahdır; o, xürrəmilərin o vaxtadək bilmədikləri qətl, qarət, müharibə və cəzanı dini etiqada daxil etmişdir.

---

[1] Babəkin tərəfdarları olan xürrəmilərin adı belə idi; müqayisə et: E.C.Browne. Literary History of Persia, p. 329; Baghdadi. al-Fard, p. 88, n. I. Əbu Mənsur əs-Səalibi. “Lətaif əl-Məarif”. Leyden, 1868, səh. 169. Həm mübəmmirə, həm də xürrəminin adlarını çəkir

## {243} Onun mənşəyi, meydana gəlməsi, müharibələri və edamının səbəbləri

"Babəkin tarixi" əsərini tərtib edən Vaqıd ibn Əmr ət-Təmimi belə deyir: "Onun atası əl-Mədain [Ktesifon] əhli idi, yağ daşıyıb satarmış. Azərbaycana köçüb Bilalabad adlı kəndin Meyməd [1] rustakında yaşamağa başlamışdır. O, bir qaba töküb belində daşıdığı yağı rustak kəndlərinə aparırdı. O, sonradan Babəkin anası olan taygöz bir qadınla eşqbazlıq edib və uzun müddət onunla yaşamışdır.

[Bir dəfə] o və bu qadın kəndin kənarındakı çöldə kef çəkdikləri və gətirdikləri şərabı içdikləri vaxt kəndin qadınları həmin yerdəki bulaqdan su aparmağa gəlmişdilər. Bu qadınlar nəbati şivəsində mahnı oxuyan bir səsə tərəf getdilər və onları gördülər. Abdullah[2] qaçdı, lakin onlar Babəkin anasının saçından tutub kəndə sürüklədilər və rüsvay etdilər".

Vaqıd deyir: "Sonra bu yağsatan həmin qadının atasına müraciət etdi, bundan sonra onunla evləndi, qadın da Babəki doğdu. Bu adam sonra öz səyahətini davam edərək, Savalan dağına tərəf getdi, burada biri ona hücum edərək, arxadan onun kürəyinə bıçaq soxdu; o, bir müddətdən sonra bu yaradan öldü.

Babəkin anası kənizliyə getdi və Babək on yaşına çatıncayadək özgəyə işlədi. Deyirlər ki, bir dəfə bu qadın, bir tayfanın qoyununu otaran Babəki axtarmağa gedəndə, onu bir ağacın altında çılpaq yatmış gördü, Bu qadın Babəkin saçlarının dibində xırda qan damcıları olduğunu gördü. Sonra birdən Babək oyanıb ayağa durdu və anasının gördüyü qan yox oldu. Qadın belə dedi: "Mən başa düşdüm ki, oğlumun alnına tale şanlı bir şöhrət yazmışdır".

---

[1] Ərdəbil mahalında. B a x: V. de Meynard. Dictionnaire de la Pers, p. 557.

[2] Babəkin atası.

Vaqıd deyir: "Babək yenidən Sara [b][1] rustakında əş-Şibl ilə əl-Əzdinin yanında qulluq edib, onun qoyunlarını otarır. Babək onun nökərlərindən tənbur çalmağı öyrənir. Sonra o, Azərbaycanın Təbriz şəhərinə gedir və burada təqribən iki il Məhəmməd ibn ər-Rəvvad əl-Əzdinin yanında qulluq edir, sonra da öz anasının yanına qayıdır. Bu zaman onun 18 yaşı var idi və o, anasının yanında qalır".

Vaqıd deyir: "Əl-Bəzz dağında və ona bitişik dağlarda. kişilərdən iki nəfər xürrəmilərin təliminə riayət edirdi. Onların hər ikisi dövlətli idi. Əl-Bəzz dağlarının və orada yaşayan xürrəmilərin ağası olmaq üstündə öz aralarında düşmənçilik edirdilər. Bu iki nəfərdən hər biri istəyir ki, ali hakimiyyət yalnız onun əlində olsun. Deyirlər ki, birinin adı Cavidan ibn Suxrak idi, o birisi isə özünün Əbu İmran ləqəbi ilə daha məşhur idi. Yayda onların arasında uzun müharibə gedirdi, qışda isə kəsilirdi, çünki qar dağlarda bütün keçidləri bağlayırdı.

Babəkin mürşidi olan Cavidan bir dəfə öz şəhərindən iki min beş yüz qoyunla çıxıb, bunları Qəzvinin ətraf şəhərlərindən olan Zəncan şəhərinə aparmışdı. O öz qoyunlarını satıb, əl-Bəzz dağına qayıdarkən, yolda onu qar tutur, odur ki, gecəni Meyməd rustakının Bilalabad kəndində keçirdir. Burada o, kəndxudaya müraciət edir ki, gecə, onu bir yerdə saxlasın. Kəndxuda onu Babəkin anasıgildə qalmağa göndərir. Qadın yoxsul və ağır vəziyyətdə olduğuna görə onu qonaq etmək üçün ona yemək verə bilmir, lakin ocaq qalayır və bundan başqa bir iş görə bilmir. Babək isə onun yol yoldaşlarına qulluq etməyə başlayıb, onlara içməli su gətirir.

Cavidan onu çaxır, çörək və atlara yem almağa göndərir; Babək bunların hamısını alıb gətirəndən sonra Cavidan onunla söhbət etməyə başlayır və görür ki, ağır xasiyyətinə baxmayaraq, bacarıqlı və fərasətlidir. Onun danışığı aydın olmayıb çətin anlaşılırdı, özü dələduza oxşayırdı. Cavidan Babəkin anasına belə deyir: "Ay arvad! Mən əl-Bəzz dağı əhliyəm, orada yaxşı vəziyyətim

---

[1] Hazırda Sarab şəhəri. Ərəb coğrafiyaşünasları çox vaxt şəhər adlarının axırıncı hərfini atırdılar. Yaqut, III, səh. 64; İbn əl-Fəqih, səh. 245.

və dövlətim var. Sənin oğlun mənə lazımdır, onu mənə versən və mən onu apara bilsəm, bütün mülk və əmlakının idarəsini ona tapşıraram. Bunun müqabilində sənə hər ay 50 dirhəm göndərərəm". Qadın belə cavab verdi: "Sənin fikrin tərifəlayiqdir, qəlbimdə sənə etimad da var. İstədiyin vaxt onu özünlə apar".

Sonralar Əbu İmran dağdan enib, Cavidanın üstünə getdi və onunla vuruşdu. Lakin Cavidan onu məğlub edib öldürdü. Cavidan özü yaralanıb dağa qayıtdı, yarası da ağrıyırdı. Üç gün öz evində qaldı, sonra öldü.

Onun arvadı Babəkə vurulmuşdu. Babək də onun xahişini rədd etmədi, Cavidan öləndən sonra, qadın ona belə dedi: "Sən çox cəld və zirək oğlansan. Cavidan ölmüşdür, mən {244} onun tərəfdarları arasında onu əvəz edə biləcək bir adam görmürəm. Sabahkı günə hazırlaş, mən onları sənin yanına yığar və deyərəm ki, Cavidan belə demişdir: "Mən bu gecə ölmək istəyirəm, mənim ruhum bədənimdən çıxıb Babəkin bədəninə daxil olacaq və onun ruhu ilə birləşəcəkdir. Babək sizin üçün elə işlər görsün ki, ondan əvvəl heç kəs onu görməmiş və ondan sonra görməyəcəkdir. O, torpaqlar ələ keçirəcək, zalımları məhv edəcək və məzdəkiliyi dirçəldəcəkdir. Onun köməyi ilə, sizlərdən ən zəifi qüdrətli olacaq, ən alçağı yüksələcəkdir". Babək qadının dediklərindən tamahlandı, sevinib hazırlaşdı. Səhər olanda, Cavidanın qoşunu qadının yanına yığışıb belə dedilər: "Necə oldu ki, o bizə öz vəsiyyətini qoymayıb getdi?" Qadın belə cavab verdi: "Heç bir şey vəsiyyət etməkdə ona mane olmadı, bircə bu var idi ki, siz hamınız kəndlərə dağılıb öz evinizə getmişdiniz, o, adam göndərib sizi toplasaydı, [bu] xəbər hər tərəfə yayılardı və sizi ərəblərin bəlasından xilas etmək olmazdı. O, bir sirri sizə açmağı mənə tapşırmışdır, əgər siz ona inanırsınızsa, buna əməl edin". Onlar qadına dedilər: "Söylə, o sənə nə vəsiyyət etmişdir, çünki sağ ikən onun işlərinə mane olmurduq, öləndən sonra da mane olmayacağıq". Qadın dedi: "O mənə belə demişdir: Mən bu gecə öləcəyəm. Ruhum bədənimdən çıxıb, nökərim olan bu cavanın bədəninə daxil olacaq və mən onu öz tərəfdarlarımın başçısı etmək fikrindəyəm, mən öləndən sonra bunu onlara xəbər verin, kim bu

işdə mənə xəyanət etsə, onun etiqadı yoxdur və kim iradəmin əleyhinə çıxarsa, özünə xəyanət etmiş olar".

Onlar dedilər: "Biz bu gənc haqqında onun sənə etdiyi vəsiyyəti qəbul edirik".

Sonra qadın buyurdu bir inək gətirdilər, əmr etdi bu inəyi kəssinlər və dərisini soyub yerə sərsinlər. Qadın şərabla dolu bir tası dərinin üstünə qoydu və çörək doğrayaraq, tasın kənarına düzdü. Sonra o, adamları bir-bir çağırıb, onlara dedi ki, ayaqları ilə dərinin üstünə çıxıb, bir tikə çörək götürsünlər, onu şəraba batırıb yesinlər və belə təkrar etsinlər: "Ey Babəkin ruhu, Cavidanın ruhuna inandığım kimi sənə inanıram". Sonra onlar Babəkin əlindən tutub ona baş əyir və əlini öpürdülər. Onlar qadının hazırladığı şərab və çörək qurtarıncayadək bu işi davam etdirdilər. Sonra qadın onlara yemək və şərab gətirdi.

Qadın onu [Babəki] öz yerində oturtdu, özü də hamının gözü qarşısında onun yanında oturdu. Onlar üç dəfə içəndən sonra, qadın bir reyhan budağı götürüb Babəkə uzatdı, o da reyhanı onun əlindən aldı, onların toyu idi, sonra [onun tərəfdarları] irəli gedib hər ikisinə baş əydilər, bununla onların evlənməsini təsdiq etdilər".

# ƏLAVƏ III

# ƏBU MƏNSUR ƏL-BAĞDADİNİN "KİTAB ƏL-FƏRQ BEYN ƏL-FİRAQ" ƏSƏRİNDƏN

## {251} XI hissə - xürrəmilərdən hər şeyi halal hesab etmək tərəfdarları (Əshab əl-İbah)

## haqqında və islamın bütün təriqətlərinə qarşı onların çıxışı barəsində deyilənlər

Onlar [xürrəmilər] iki növdür: onlardan biri islamdan əvvəl də mövcud idi. Bunlar - məzdəkilərdir. Onlar haramı halal hesab edir və iddia edirdilər ki, insanlar əmlak və qadın cəhətdən şərikdirlər. Onların bu qarışıqlığı o vaxtadək davam etdi ki, nəhayət Ənuşirəvan öz [padşahlığında] onları qırdı.

İkinci növ - xürrəmdiniyyədir. Onlar islam dövlətində əmələ gəlib və iki qrupa bölünür: babəkiyyə və məzyəriyyə; hər ikisi mühəmmirə adı ilə məşhurdur.

Babəkiyyə - Azərbaycan vilayətinin Bəzzeyn dağında meydana gəlnıiş Babək əl-Xürrəminin ardıcıllarıdır. Orada onun tərəfdarları artdı, onlar haramı özlərinə halal bilirdilər və çoxlu müsəlman öldürdülər. Abbasi xəlifələri onlara qarşı Həcib Afşinin, Məhəmməd ibn Yusif əs-Səğri, Əbu Dulaf əl-İcli və digərlərinin başçılığı ilə çoxlu qoşun göndərmişlər. Qoşun onlara qarşı iyirmi il vuruşdu. Nəhayət İshaq ibn İbrahim Babəki və onun qardaşını tutdu. Onların hər ikisi Mötəsimin [hökmranlığı] günlərində Samarrada çarmıxa çəkildi.

Həcib Afşin Babək ilə müharibə zamanı onunla əlbir qəsd düzəltdikdə təqsirləndirilərək edam edildi.

Məzyəriyyəyə gəlincə, onlar Corcanda mühəmmirə dinini elan edən [yayan] Məzyərin {252} ardıcıllarıdır.

Babəkilər dağda bayram gecəsi keçirirlər, yığışıb içir və tütək çalırlar. Həmin gecə onların kişi və arvadları bir-birinə qarışır, çıraq və tonqallar söndürüləndən sonra kişilər arvadlarla bir yerdə yatırlar.

Babəkilər öz dinlərinin meydana gəlməsini Şirvin adlı əmirə [hökmdara] istinad verirlər ki, o da islamdan əvvəl olmuşdur. Onlar iddia edirlər ki, onun atası zənci, anası isə İran şahlarından birinin qızı idi. Onların iddiasına görə, Məhəmməd və digər peyğəmbərlərə nisbətən Şirvin daha ləyaqətli idi. Onlar dağda müsəlmanlar üçün onları namaza çağıran məscid tikmişlər. Onlar öz uşaqlarına Quran [oxumağı] öyrədirlər, lakin gizlicə namaz qılmır, ramazan ayında oruc tutmur və kafirlərə qarşı cihadı məcburi hesab etmirlər.

Məzyərin qiyamı onun vilayətində çox artıb genişlənmişdi, nəhayət, Mötəsimin hökmranlığı günlərində o da tutuldu və Babək əl-Hürrəmi ilə yanaşı Samarrada çarmıxa çəkildi.

Məzyərin ardıcılları hazırda öz dağlarında, Corcandakı qoşunları yanında yarıdarlığa işləyirlər. Zahirdə islama pərəstiş edir, batində isə onu istəmədiklərini gizlədirlər.

{268} Tarix müəllifləri deyirlər ki, batinilərin dini [təbliği] ilk dəfə Məmunun hökmranlığı dövründə meydana gəlmiş, Mötəsimin hökmranlığı dövründə yayılmışdır. Tarixçilər deyirlər ki, Mötəsim ordularının baş komandanı Afşin onların dini təlimini qəbul etmiş və Babək əl-Xürrəmi ilə əlbir olub, qəsd düzəltmişdi. O, əl-Bəzzeyn vilayətində üsyan qaldırdı. Onun dağında yaşayan əhali məzdəkilərin dini təlimini qəbul etmiş xürrəmilər idi. Xürrəmilər də batinilərlə əlbir olmağa [hərəkət etməyə], başladılar. Odur ki, əl-Bəzzeyn əhalisindən və Deyləmdən onlara qoşulanlardan təqribən 300 min adam Babəkin ətrafında toplandı.

Xəlifə [Mötəsim] Afşini onlara qarşı müharibəyə göndərib, bu fikirdə idi ki, o [Afşin] müsəlmanlara sədaqət bəsləyir. Lakin o, gizlində olaraq, Babəklə əlbir olub, ona qarşı müharibəni uzadır, müsəlman qoşununun çatışmazlığını ona deyir, o [Babək] da bu qoşunun çoxunu məhv edirdi.

Sonra Afşinə yeni qüvvələr gəlməyə başladı. Onun yanına yeni qüvvələrlə Məhəmməd ibn Yusif əs-Səğri, Əbu Dulaf əl-Qasim ibn İsa əl-İcli, bunların ardınca isə Abdullah ibn Tahirin sərkərdələri ilə yeni qüvvələr gəldi.

Müsəlmanların qoşununa qarşı babəkilərin və qərmətilərin qüdrəti güclənmişdi, o qədər ki, onlar [müsəlmanlar] babəkilərin hücumlarından qorxub, özləri üçün Bərzənd adı ilə məşhur olan bir şəhər saldılar. İki tərəf arasında müharibə illərlə uzandı, nəhayət Allah müsəlmanlara babəkilər üzərində qələbə bəxş etdi. Babək əsir düşüb hicri 213-cü ildə Samarrada çarmıxa çəkildi. Sonra İshaq onun qardaşını tutub, Təbəristan və Corcan mühəmmirəsinin başçısı Məzyərlə birlikdə Bağdadda çarmıxa çəkdi. Babək öldürüləndən sonra xəlifə Afşinin xəyanətini (269), Babəklə müharibə zamanı

müsəlmanları satdığını öyrəndi. Xəlifə əmr etdi ki, onu öldürüb çarmıxa çəksinlər. Onu çarmıxa çəkdilər.

# ƏLAVƏ IV

# İBN ƏL-İBRİ ADI İLƏ MƏŞHUR OLAN QRİQORİUS ƏBU-L-FƏRƏC İBN ƏHRUNUN "TARİXİ-MÜXTƏSƏR ƏD-DÜVƏL" ƏSƏRİNDƏN

{240} Əl-Cibal, Həmədan, İsfahan, Masabzan və digər yerlərin çoxlu əhalisi xürrəmilərin dinini qəbul etdi. Onlar Həmədan vilayətində toplanıb silahlandılar. Mötəsim onların üstünə qoşun {241} göndərib onları [xürrəmiləri] darmadağın etdi, onlardan 60 min nəfər qırdı, qalanları isə Rum ölkəsinə qaçdılar.

220-ci ildə Mötəsim Afşin Heydər ibn Kavusu əl-Cibala təyin etdi və Babəkə qarşı müharibəyə göndərdi, o da Babəkin üstünə getdi.

Babəkin çıxış hərəkatı 201-ci ildə başlanmışdır. O, sultanın [xəlifənin] bir neçə ordusunu məğlub etmiş, onun bəzi sərkərdələrini öldürmüşdür. Xalq hədsiz dərəcədə qorxu və böyük dəhşət keçirirdi. O böyüdü, quldurlar və qiyam həvəskarları onun ətrafına yığışdılar. Onun adamlarının sayı artdı, piyada qoşun nəzərə alınmadan onun atlıları nəhayət 20 minə çatdı. O da camaata əziyyət verməyə başladı. Onun tərəfdarları nə kişiyə, nə qadına, nə cavana, nə də uşağa rəhm etmirdilər, həm müsəlmanları, həm də zimmiləri qırıb öldürürdülər. Onların əli ilə qırılanları saydılar - 255 500 nəfər oldu. Afşin Babəkə qarşı müharibəyə göndəriləndə, onunla tam bir il mübarizə etdi [bu müddət ərzində], ondan [Babəkdən] bir neçə dəfə qaçdı, yenidən qayıtdı. İş onunla bitdi ki, Babək öz şəhəri əl-Bəzzə çəkildi. Onun vəziyyəti çıxılmaz olmağa başladıqda, [əl-Bəzzdən] getdi, tacir paltarında öz ailəsi ilə birlikdə Rum ölkəsinə tərəf qaçdı. Lakin erməni patriki Səhl ibn Sumbat onu tanıdı və əsir etdi. {242} O

istəyirdi çoxlu pul verib, canını qurtarsın, lakin o [Səhl] bunu qəbul etməyərək, onu Afşinin yanına göndərdi, bundan əvvəl isə ermənilər onun gözünün qabağında anasının, bacısının və fahişə arvadının namusuna təcavüz etdilər, İblis [Babək] də adamları arvadları ilə əsir etdikdə onların başına eyni işi gətirirdi.

Afşin də Babəki Samarrada olan Mötəsimin yanına apardı. O əmr etdi ki, Babəkin cəlladı gəlsin, o gəldi və [xəlifə] əmr etdi ki, onun əllərini və ayaqlarını kəssin, o da kəsdi, o [Babək] yıxıldı. O [xəlifə] əmr etdi ki, onu doğrayıb qarnını yırtsınlar, O, Babəkin başını Xorasana göndərib, bədənini isə Samarrada çarmıxa çəkdi.

# ƏLAVƏ V

## MƏSUDİNİN "KİTAB-İ MURUC ƏZ-ZƏHƏB" ƏSƏRİNDƏN

{123} Ər-Ran ölkəsində və Beyləqanda Babək əl-Xürrəminin işi böyüdü və bu ölkədə onun qoşunu çoxaldı. O öz qoşununu həmin şəhərlərə tərəf, müxtəlif yerlərə göndərdi. O, orduları [ərəb] məğlub etmiş və hakimləri qırmışdı; o, xalqları məhv edirdi. Onda Mötəsim Afşinin başçılığı ilə ona qarşı qoşun göndərdi. Onun vuruşmaları intəhasız uzandı. Babək də öz ölkəsində elə sıxışdırıldı ki, adamları azaldı və qoşunu qırıldı. O, ər-Ran ölkəsində əl-Bəzzeyn [adı ilə] məşhur olan dağlarda gizləndi; bu da Babəkin ölkəsidir ki, indiyədək onun adı ilə məşhurdur.

{124} Bu əhvalat 223-cü ildə baş verdi. Babək, başına nə gəldiyini hiss edəndə, öz sığınacağından qaçmaq qərarına gəldi. O, paltarını dəyişdirib öz yerindən qaçdı. Qardaşı, arvadı, oğlu və bəzi yaxın adamları da onunla qaçdılar. Onlar səyyah, tacir və sarban paltarında getdilər. Onlar erməni patriklərindən biri olan Səhl ibn Sumbatın vilayətinə çatıb, bulaqlardan birinin yanında dayandılar.

Onlara yaxın yerdə bir çoban qoyun otarırmış, ondan bir quzu satın aldılar; bir də istəyirdilər ondan yeməli şeylər satın alsınlar, lakin onlara [satmaqdan] imtina etdi və bulaqdan gedib, Səhl ibn Sumbatın yanına çatdı və ona xəbər verdi ki, bu adam, şübhəsiz, Babəkdir.

Məsələ ondadır ki, Babək öz şəhərindən qaçıb olduğu dağı tərk edəndə, Afşin qorxurdu, o, əlçatmaz dağlardan birindəki qalada özünü möhkəmlədər, o tərəfdə yaşayan bəzi adamlar ona qoşular, onun camaatı artar, qoşununun qalıqları {127} yenə başına toplanar, bundan sonra öz əvvəlki yerinə qayıdar və öz işlərini yenidən başlayar - buna görə də Afşin bütün yolları tutdu. Ermənistan, Azərbaycan, ər-Ran və Beyləqan ölkələrində bütün qalaların və məntəqələrin patriklərinə məktub yazıb vəd etdi ki, [kömək üçün] nə istəsələr onlara verəcəkdir.

Səhl çobanın dediklərinin hamısını eşidəndə, dərhal öz yaxın adamları ilə gedib, Babək olan yerə çatdı. Səhl atdan düşüb, ona yaxınlaşdı, onu bir padşah kimi salamladı və belə dedi: "Ey hökmdar, qalx, sənin movlan yaşayan öz sarayına get, burada Allah səni öz düşmənindən qoruyar". Babək Səhl ilə getdi, onlar Səhlin qəsrinə gəldilər. Səhl Babəki öz taxtına oturtdu, ona çox hörmət göstərib qarşısında boyun əydi.

Süfrə salındı. Səhl də Babək ilə yeməyə oturdu. Babək nə vəziyyətdə olduğunu və onun nə gözlədiyini bilmədiyi üçün Səhlə belə dedi: "Məgər sənin kimi bir adam mənimlə bir süfrə başında otura bilərmi?"

Səhl dedi: "Ey hökmdar, bağışla, məni bağışla! Doğrudan da mənim vəziyyətim elə deyil ki, padşahlarla oturum". Sonra Səhl dəmirçini çağırdı və Babəkə müraciətlə dedi: "Hökmdar, uzat ayaqlarını!" Dəmirçiyə isə əmr etdi ki, onu dəmir [zəncirə] vursun. Babək soruşdu: "Səhl, bu nədir, xəyanətdir? "Səhl ona belə dedi: "Sən qoyun və inək otaran adi çobansan. Sən hara, dövləti idarə etmək və siyasətlə məşğul olmaq hara?" O əmr etdi ki, Babəklə gələnlərin hamısını [zəncirə] vursunlar, Afşinə isə adam göndərdi xəbər versin ki, Babək onun yanındadır.

[Həmin xəbəri alan kimi] Afşin öz köməkçisi Bumadanın [Buzbaranın] başçılığı ilə 400 zirehli atlı göndərdi. Bumada Babəki

və yanındakı adamları təhvil alıb Afşinin yanına gətirdi. İbn Sumbat da onunla gəlmişdi. Afşin onun rütbəsini yüksəldərək, ona [qiymətli hədiyyələr] bağışladı, əyninə fəxri paltar geydirib, başına tac qoydu, qoşunu onun qarşısından keçirtdi, onun üstündən xəracı götürdü, sonra özünü buraxdı.

{128} Mötəsimin yanına bir neçə quş [göyərçin] göndərilib qələbə haqqında məlumat verildi. Bu xəbər əl-Mötəsimə çatan zaman, xalq bu xəbəri gurultu ilə qarşıladı. onu [xəlifəni] isə sevinc bürüdü və o öz sevincini açıq bildirdi. Qələbə [Babək üzərində qələbə] xəbəri ölkənin hər yerinə bildirildi, çünki Babək sultanın çox qoşununu məhv etmişdi.

Afşin atlıların müşayiətilə Babəki götürüb yola çıxdı və nəhayət 223-cü ildə Samarraya çatdı. Afşini Mötəsimin oğlu Harun, xəlifənin ailəsi və [yüksək] rütbəli dövlət adamları qarşıladılar. Afşin Samarraya beş fərsəx qalmış Qatul adlı bir yerdə dayandı. Mötəsim, bir hind padşahının hələ əl-Məmuna bağışladığı boz fili oraya göndərdi. Bu, qırmızı və yaşıl dibac və əlvan ipək parça ilə örtülmüş böyük bir fil idi. Fil ilə yanaşı, eyni parça ilə örtülmüş böyük bir inək də göndərildi. Afşinə [xəlifə] qırmızı dibacdan bir qaftan göndərdi; bunun özü zərlə toxunmuş, döşü əlvan daş-qaş və qiymətli cavahiratla örtülmüşdü, başqa, nisbətən pis bir qaftan və üstündə əlvan daş-qaş olan iki uzun papaq da [ona göndərdi]. Qaftanın birini Babəkə, o birisini isə qardaşına geyindirdilər. Papağın birini Babəkin başına, digərini isə qardaşının başına qoydular. Babəki filə, qardaşını isə inəyə mindirdilər.

Babək fili görüb, təəccüblə soruşdu: “Bu heyvərə heyvan nədir?” Qaftan onun xoşuna gəldi və dedi: "Bu - böyük və əzəmətli bir padşahın şöhrətdən məhrum olan əsirə, miskin, taleyin aldatdığı, bədbəxt və məşəqqətlərə məruz qalmış bir adama hədiyyəsidir. Bu, elə bir sevincdir ki, dalınca kədər gətirir".

Babəkin gəlib keçməsi üçün Qatuldan Samarrayadək yolda iki cərgə adam düzülmüşdü. Bu iki cərgənin ortasından Babək filin üstündə, qardaşı da inəyin üstündə keçirdilər. Babək sağa-sola baxır, kişilərə nəzər salır, onların sayını [müəyyən] edirdi.

{129} Bu, 223-cü il səfər ayının qurtarmasına iki gün qalmış cümə axşamı idi. Camaat belə bir günü və belə təntənəli yerişi heç vaxt görməmişdi.

Afşin Mötəsimin hüzuruna getdi, o da Afşini təntənəli surətdə qəbul edib ona xüsusi iltifat göstərdi. Onun yanına Babəki gətirdilər; ondan soruşdu: "Babək sənmisən?" Babək isə cavab vermirdi. Onda Afşin ona tərəf əyilərək dedi: "Ey biçarə! Əmir əl-Möminin səninlə danışır, sən isə dinmirsən!" Onda Babək cavab verdi; "Bəli, mən Babəkəm!"

Mötəsim [ona] baş əydi və buyurdu onun əllərini və ayaqlarını kəssinlər... başını isə Bağdada göndərib körpüdən assınlar. Sonra isə onun başını Xorasana göndərib, [xalqı qorxutmaq üçün] oranın bütün şəhər və kəndlərində göstərdilər, çünki [orada] xalq [Babəkin] işini çox ciddi hesab edirdi, ona görə ki, onun [Babəkin] sayca çox qoşunu və şəxsi nüfuzu var idi, bir də ona görə ki, az qalmışdı o, bütöv bir dövləti və dini məhv etsin, bu dini yenisi ilə əvəz etsin.

Babəkin başı ilə bərabər qardaşını da Bağdada göndərdilər. Babəkə Samarrada verilən cəzanı eynilə, burada İshaq ibn İbrahim onun qardaşına verdirdi. Babəkin bədəni Samarranın kənar yerində uzun bir dirəkdə çarmıxa çəkildi. Bu yer indiyədək "Babəkin kilsəsi" adlanır, hərçənd ki hazırda (X əsr *-Z.B.)* bu yer demək olar, səhradır.

# ƏLAVƏ VI

# MƏSUDİNİN "KİTAB-İ TƏNBİH VƏ L-İŞRAF" ƏSƏRİNDƏN

{352} Mötəsim Afşini, digər əmirləri və qoşun komandanlarını 220-ci ildə Babək əl-Xürrəmi ilə müharibə üçün Azərbaycana göndərdi. {353} Babək ramazan ayında, lakin deyirlər şəvval ayında (222) əsir alındı, Samarraya gətirilib, orada 223-cü ilin səfər ayında edam edildi.

Babəkin 22 il ərzində əl-Məmunun, Mötəsimin qoşunlarından, o cümlədən əmirlərdən, sərkərdələrdən və əhalinin digər təbəqələrindən öldürdüklərinin sayı azı 500 min nəfərə çatır, lakin deyirlər ki, bundan artıqdır, çünki onları saymaq olmur.

Onun [Babəkin] çıxış hərəkatını 200-cü ilə aid edirlər, lakin deyirlər ki, bu iş Azərbaycan ölkəsində, əl-Bəzzeyn dağında, Babəkin və digərlərinin dostu Cavidan ibn Şəhrək əl-Xürrəminin ardıcılları olan cavidanilərinin başçılığı ilə 201-ci ildə olmuşdur.

## ƏLAVƏ VII

## ƏBU TAHİR ƏL-MƏQDİSİNİN "KİTAB-İ ƏL-BƏD VƏ-T-TARİX" ƏSƏRİNDƏN
(səh. 114-118)

### Babək əl-Xürrəminin tarixi

Rəvayətə görə o, hələ həddi-büluğa çatmamış [ictimai fəaliyyətə başlamışdı] onun anası və Azərbaycanın bir kəndindən çıxmış yoxsul taygöz qadın idi, Savaddan olan Abdullah adlı bir nəbati onunla yaşayırdı və Babək hələ anadan olmamışdan bu adam öldürülmüşdü. Anası işləməyə başladı ki, oğlu həddi-büluğa çatıncayadək onu saxlasın. Bu oğlan ehtiyatlı [fərasətli] və bir gənc olanda, kəndinin adamları onun yeməyi və paltarını vermək şərtilə onu çoban götürdülər.

Deyirlər ki, bir dəfə bu oğlan günorta vaxtı bir divarın kölgəsində yatanda, ona yemək gətirən anası gördü ki, onun

bədəninin tükləri dik qalxıb və hər tükün dibindən bir damcı qan çıxmışdır. [Bunu görən] ana demişdi: "Oğlumu böyük işlər gözləyir".

Həmin dağlarda [o zaman] xürrəmilər yaşayırdılar, bunlara başçılıq edən iki rəhbər bir-birinə zidd olub, bir-birilə düşmənçilik edirdi. Birisinin adı Cavidan, digərinin adı İmran idi.

Bir dəfə öz işləri üçün Babəkin yaşadığı kənddən keçən Cavidan onu gördü və cüssəsinə baxıb fəhmlə hiss etdi ki, bu oğlan möhkəm iradəli adam olacaqdır. Cavidan Babəki anasının icazəsi ilə işə götürüb öz yanına apardı.

Rəvayətə görə, Cavidanın arvadı bu oğlana aşiq oldu, ərinin bütün sirrini ona verdi, xəzinəsi və dövlətini də bildirdi. Aradan bir az keçəndən sonra Cavidanla İmran arasında vuruşma baş verdi, Cavidan yaralandı və bu yaradan öldü. Cavidanın arvadı iddia etməyə başladı ki, Cavidan Babəki öz işlərinin varisi təyin etmişdir, onun ruhu Babəkə keçmişdir və xürrəmilərə vəd etmişdir ki, [ərəblər üzərində] qələbə onun [Babəkin] vasitəsilə əldə ediləcəkdir, gecə-gündüz, ancaq hərəkatın başlanmasını gözləyən xürrəmilər bu arvadın dediklərinə inandılar və Babəkin ardınca getdilər.

Babək sayca az olub və nifrət edilən öz tərəfdarlarına qılınc və xəncər verərək əmr etdi ki, öz kəndləri və evlərinə qayıtsınlar, axırıncı üçüncü gecəyədək gözləsinlər və həmin gecə [müsəlmanların] adamlarına hücum edib onları - kişi, qadın, cavan və uşaqları, yaxın və uzaqdakıları tamamilə qırıb öldürsünlər; onlar da belə etdilər. Səhər məlum oldu ki, həmin kəndlərin bütün əhalisini xürrəmilər qırmışlar, lakin nəyə görə və kimin əmri ilə xürrəmilərin belə etdiklərini heç kəs bilmirdi. Camaat bərk dəhşətə və böyük qorxuya düşdü. Bunun ardınca Babək öz [adamlarını] uzaq mahallara göndərdi; onlar da bütün təbəqələrdən və hər yaşda olan böyük və kiçikləri, müsəlmanları və müsəlman olmayanları o vaxtadək qırdılar ki, nəhayət, buna [yəni adam öldürməyə] adət etdilər. Yolkəsənlər, quldurlar, qiyamçılar və müxtəlif yanlış etiqadda olanlar ona [Babəkə] qoşuldular. Onun dəstələrinin sayı o qədər artdı ki, piyada hesaba alınmadan, təkcə atlıları 20 min nəfər idi. O, [çoxlu] şəhər və kənd ələ keçirtdi, adamlara əzab verməyə, odda yandırmağa, əxlaqsızlıq etməyə, rəhmsizlik və qəddarlıq göstərməyə başladı. O,

sultanın çoxlu qoşununu [məğlub edib] qaçmağa məcbur etdi, onun çoxlu sərkərdəsini öldürdü. Bəzi kitablarda deyilir ki, yaddaşa görə o, bir milyon kişi, qadın və uşaq öldürmüşdür. Tarixlərdə deyilir ki, Babəkin öldürdüyü adamların sayı 255500-nəfərə çatır. Babək ilə müharibə üçün Mötəsim Afşini çağırdı, onu əl-Cibalın hakimi təyin etdi və ona hər müharibə gününə görə 10 min dirhəm, hər istirahət gününə görə isə 5 min dirhəm verdi, azuqə, hədiyyələr, sursat və əl-Cibal əyalətinin gəlirləri isə bu hesaba daxil deyildi; hərbi səfərə başlarkən ona milyon dirhəm bağışladı.Afşin tam bir il Babək ilə müharibə etdi; o da dəfələrlə Afşindən qaçmış və yenidən qayıtmışdı. Babək [özünün] möhkəmləndirilmiş Bəzz şəhərində müdafiədə idi. Onun sonu yaxınlaşanda və çətin vəziyyətə düşəndə tacir paltarı geyib, öz arvadı və uşaqları ilə Ermənistana qaçdı.

Lakin erməni patriklərindən biri olan xaçpərəst Səhl ibn Sumbat onu tanıdı, çünki [bundan] əvvəl Babəkə əsir düşmüşdü və çoxlu pul verib canını qurtarmaq istəmişdi, ancaq Babək bunu qəbul etməmiş və onun gözü qarşısında anasının, bacısının və arvadının başına pis iş gətirmişdi, çünki bu "'iblis" adamları əsir alanda, onların arvadları ilə belə rəftar edirdi.

Səhl Babəki tutdu və Afşinin yanına göndərdi; Mötəsim Babəki diri tutub gətirənə 2 milyon dirhəm, onun başını kəsib gətirənə bir milyon dirhəm təyin etdiyinə gorə, Səhl ibn Sumbata 2 milyon dirhəm gətirdilər və ona icazə verdilər vilayətində hakimləri özü təyin etsin.

Afşin də Babəki Samarraya Mötəsimin yanına apardı, o da əmr etdi onun əllərini və ayaqlarını kəsib bədənini çarmıxa çəksinlər. Bu əhvalat 223-cü ildə oldu.

Deyirlər ki, bu məlunun əli kəsiləndən sonra, o üzünü qanla boyayıb güldü, bununla o, camaata göstərmək istəyirdi ki, əlinin kəsilməsindən ağrı görmür və onun ruhu heç bir şey hiss etmir.

Babək üzərində qələbə islam aləmində ən böyük bir qələbə idi; onun əsir alındığı gün müsəlmanların bayram günü idi. Bu əhvalat 223-cü il ramazan ayının axırına 14 gün qalmış cümə günündə olmuşdur. .

# ƏLAVƏ VIII

# ƏBÜ HƏNİFƏ DİNƏVƏRİNİN "ƏXBAR ƏT-TİVAL" ƏSƏRİNDƏN

{396} Onun [Mötəsimin] xəlifəliyi zamanı elə nailiyyətlər [və qələbələr] olmuşdur ki, bunların misli onun {397} vaxtında heç bir xəlifə zamanında olmamışdır. Bunların arasında - Babək üzərində qələbə, onun əsir alınması, edamı və çarmıxa çəkilməsi, Təbəristan qalasının hakimi Məzyər üzərində [qələbədir]; qalalarda və dağlardakı istehkamlarda gizlənən Məzyər, nəhayət, tutulub edam edilmiş və Babək ilə bir cərgədə çarmıxa çəkilmişdir.

Babəkin işi [hərəkatı] əl-Məmun [hökmranlığının] son günlərində başlanmışdı. Onun əsli və təlimi haqqında adamlar müxtəlif rəydədirlər. Fikrimizcə ən dürüst və qəti budur ki, o, Əbu Müslimin qızı Fatimənin oğlu Mütəhhərin nəslindən əmələ gəlmiş və buna görə fatimilərə mənsub olan xürrəmilər adı almışlar; həmin Fatiməni, rəsulallahın [Səllalahi əleyhi və səlləm] qızı Fatimə ilə qarışdırmamalı.

Babək [Xilafətdə] arası kəsilməyən iğtişaşlar və çətinliklər dövründə meydana gəlmişdir. O, əl-Bəzzdə öz ətrafında olanları öldürməklə işə başlamışdı; onu əhatə edən yerləri ona görə dağıdırdı ki, ölkəni ələ keçirmək və [ərəblərin] onu və ona yaxınlaşmaq üçün əlverişli yerləri ələ keçirmələrini çətinləşdirmək istəyirdi. Onun qüdrəti, doğrudan da, artdı və hərəkatı geniş vüsət aldı.

Onun barəsində əl-Məmuna xəbər çatanda o, Abdullah ibn Tahir ibn əl-Hüseynin başçılığı ilə Babəkə qarşı böyük ordu göndərdi. Onun üstünə gedən [Abdullah] yolda Dinəvərdə və onun ətrafında bizim günlərədək "Abdullah ibn Tahir qalası" ilə məşhur olan yerdə qaldı; bu yer isə öz üzümlükləri ilə məşhurdur. Sonra buradan yola düşüb, əl-Bəzzə çatdı. [Bu zaman] Babək hərəkatı böyük vüsət almışdı və adamlar ondan qorxmağa başladılar. Onunla vuruşdular, lakin ona üstün gələ bilmədilər. Babək onları [xəlifə

ordularını] pərakəndə saldı və onların sərkərdələrini öldürdü. Onun bu vuruşmada öldürdüyü adamlardan biri {398} Məhəmməd ibn Xalid ət-Tusi idi; Əbu Tammam ona həsr etdiyi öz qəsidəsində ağlayaraq deyir:

"Onun ölümü günündə Bənu Nəbhan [tayfası] arasından bədr gecəsinin ayı düşmüş səma ulduzlarını xatırladır".

Yenə bu qəsidəsində deyir: O, möhkəm addımı ilə ölüm batlağına ayaq basdı. Ona isə dedi: "Sənin altında [dibində] dirçəlmə vardır".

Xilafət Əbu İshaq Mötəsim billaha keçəndə, o, bütün qüvvəsini bu tərəfə [Babək tərəfə] çevirdi. O, vəsait və qoşun hazırladı, öz movlası Afşin Heydər ibn Kavusu yanına çağırdı. Böyük bir orduya başçılıq edən Afşin səfərə başladı, gəlib Bərzənddə qaldı və havaların yaxşılaşmasını, yollarda qarın əriməsini gözlədi. Sonra Afşin öz müavini Yubaranı [Buzbaranı] və Cəfər əl-Xəyyat adı ilə məşhur olan Cəfər ibn Dinarı böyük atlı qoşunu ilə onun [Babəkin] ordugahına göndərib əmr etdi ki, orada istehkamlı xəndəklər qazdırsınlar. Onlar da gedib orada qaldılar və xəndəklər qazdılar.

Xəndəklər qazılıb qurtarandan sonra, Afşin Bərzənddə Mötəsimin movlası mərzbanı bəzi sərkərdələrlə öz yerinə qoydu, [özü] gedib xəndəklərdə dayandı. Yubaranı və Cəfər əl-Xəyyatın başçılığı ilə böyük bir qoşunu böyük çayın başına göndərib əmr etdi ki, orada başqa xəndəklər qazsınlar. Onlar gedib orada xəndək qazdılar. Onlar işi qurtarandan sonra Afşin oraya gəldi, Məhəmməd ibn Xalid Buxaraxudatı öz yerinə qoydu, {399} özü isə beş min atlının, iki min piyadanın və bir min fəhlənin başında Darvaza getdi. O, Darvaz yaxınlığında qaldı və [əmr etdi] orada böyük xəndəklər qazıb yanında böyük divar hörsünlər.

Babək və onun adamları uca dağların başından çox vaxt [Afşinin] ordugahına baxıb bərkdən qışqırırdılar.

Sonra şəbanın axırına üç gün qalmış çərşənbə axşamı Afşin əsgəri təchizat və mancanaqla götürüb səfərə başladı. Babək isə Adinə əmr etdi ki, əl-Bəzz şəhərinə hakim təpəni [möhkəmlətsin] və yanında üç min adam saxlasın. O [Adin] olduğu yerin ətrafında

qabaqcadan dərin çalalar qazdırdı ki, düşmən atlılarını özünə yaxın buraxmasın. Həmin gün Afşin öz xəndəklərinə qayıtdı. Ertəsi gün, ramazan ayının birində, cümə günü Afşin, sərkərdələrin və komandirlərin hər tərəfdən mühasirə etdikləri şəhərə [onun hasarlarına] qarşı mancanaqlar və daş atan maşınlar qurdu.

Babək, cərgəyə düzülmüş öz qoşununun yanına gəldi. Onlar dəhşətli döyüşə girdilər, sonra da dağılışdılar. Afşin altı gün bu vəziyyətdə [keçirtdi], bundan sonra isə ramazan ayının axırına yeddi gün qalmış, cümə axşamı onunla [Babəklə] vuruşmaya girişdi. Babək onu [qarşılamağa] hazırlaşdı. O, əl-Bəzzin üstündə çoxlu böyük araba saxladı ki, bunları Afşinin qoşununun üstünə yuvarlatsın. Sonra Babək Musa əl-Əqta [Birqollu] adlı bir adamı Afşinin yanına göndərdi ki, öz yerindən çıxıb onun [Babəkin] qabağına gəlməsini ondan xahiş etsin, ta onunla şəxsən danışıb ürək sözlərini ona desin: əgər Afşin onun arzusunu yerinə yetirsə [müharibəni dayandıracaqdır], əks-halda onunla vuruşacaqdır.

Afşin onun xahişini yerinə yetirdi, Babək də çıxıb, Afşinə yaxın bir məsafədə, onu Afşindən ayıran [çayın] kənarında dayandı. Babək Afşini görəndə ona qışqırdı, lakin Afşin onu sakit edib dedi ki, onun itaət etməsi həm bu dünyada, həm də o dünyada onun xilası üçün [rəhndir]. Babək isə onun məsləhətinə qulaq asmadı, öz mövqeyinə qayıdıb tərəfdarlarına əmr etdi ki, vuruşmaya başlasınlar; [onlar] da onun əmrini yerinə yetirməyə tələsdilər. Onlar arabaları Afşinin qoşunu üstünə yuvarlatdılar, arabalar parçalandı və onun qoşununu dağın başından çəkilməyə məcbur etdi.

Yubara və Cəfər əl-Xəyyat {400} Babəkin qardaşı Abdullah ilə üz-üzə dayanmışdılar. Onlar düşmənin üzərinə atıldılar, onların ardınca hər tərəfdən [qalan] sərkərdələr də atıldılar və onların [babəkilərin] arasında dəhşətli qırğın saldılar. Onlar qaçmağa üz qoyub şəhərə [əl-Bəzzə] girdilər, onların ardınca ərəblər də oraya soxuldular. Vuruşma şəhərin meydanında və mərkəzində davam edirdi. Bu, misli görünməmiş bir vuruşma idi. Evlərdə, bağlarda vuruşurdular. Babəkin qardaşı Abdullah da qaçdı.

Babək özünün [ərəb] qoşunu ilə mühasirə olunduğunu, çıxılmaz vəziyyətə düşdüyünü, tərəfdarlarının ya öldüyünü və ya

qaçdığını görəndə Ermənistana qaçdı. Ruma getmək üçün ər-Ras çayını keçdi. O, ər-Ras çayını keçəndən sonra, vilayətin hakimi Səhl ibn Sumbat ona tərəf getdi.

Afşin yaxın vilayətlərin hakimlərinə, Ermənistan kürdlərinə və patriklərə məktub yazdı ki, Babəkin yolunu kəssinlər. Səhl ibn Sumbat onun yanına gəldi. Babək isə öz qiyafəsini dəyişmiş, başqa paltar geymişdi, ayaqlarını cındırla dolayıb, adi yəhəri olan qatıra minmişdi.

Səhl ibn Sumbat onun üstünə atılıb onu əsir etdi və Afşinə göndərdi, burada onu bəbs etdilər. Afşin qələbə haqqında Mötəsimə məktub yazaraq, onun yanına gəlmək üçün icazə istədi. Xəlifə icazə verdi, o da Babək və onun qardaşı ilə yola düşüb onun yanına gəldi. Hamıya məlumdur ki, Mötəsim əmr etdi, Babəki edam etsinlər, əllərini və ayaqlarını kəsib bədənini çarmıxa çəksinlər.

## ƏLAVƏ IX

## KATOLİKOS İOANNESİN "TARİX" ƏSƏRİNDƏN

(Moskva, 1853, səh. 64-65)

Bu zaman[1] amirapet [xəlifə] bir nəfər vostikan[2] Holu böyük dəstə ilə Ermənistana göndərmişdi. O gəldi və Dvin şəhərinə daxil oldu. İranlılar tayfasından Sevada adlı bir nəfər Baqratilər nəslindən özünə Arusyak adlı bir arvad alıb, bununla [bu evlənmə sayəsində] ölkəmizin böyük hissəsini əlinə keçirtdi. Həmin Sevada vostikan Hola qarşı qəzəblənib qiyam qaldırdı və çoxlu qoşun topladı. Erməni

[1] Katolikos II Ter-Davidin hökmranlıq illəri (806-833).

[2] Xəlifənin canişini

sparapet Smbat və Sünik hakimi [Saak], habelə azatlar dəstəsi də ona qoşuldu. Onun [Sevadanın] beyninə düşdü ki, Holu tutsun və ya öldürsün. O zaman Hol Sevadın, sparapet Smbatın və Sünik hakimi [Saakın] yanına erməni katolikosu Ter-Davidi elçi göndərdi: "Nə üçün və nə səbəbə görə siz qiyam qaldırıb mənə qarşı qəsd düzəltmisiniz. Əgər siz məni [hakim olaraq] qəbul etmək istəmirsinizsə [məni], buraxın və imkan verin buradan sağ-salamat gedim".

Katolikos onları çox dilə tutdu və yalvardı, lakin onu dinləmək istəmədilər, o da kədərli halda buradan getdi. Onların öz pis niyyətlərindən əl çəkmək istəmədiyini görən Hol iki min seçmə döyüşçünü silahlandıra bildi və onların üstünə getməyə başladı. Onların [üsyançılarm] düşərgəsi Urazdan [Zəngi] çayının kənarında, Kavakert kəndinin qarşısında idi. Hol böyük bir qüvvə ilə onlara hücum etdi, onlar da vuruşmaya davara gətirməyib, qaçmağa üz qoydular.

## ƏLAVƏ X

## MOİSEY KALANKATUKLUNUN (DASXURANLININ) "AĞVAN TARİXİ" ƏSƏRİNDƏN

(III kitab, XX fəsil)

Erməni tarixinin 270-ci ili [eramızın 82-ci ili] tamam bitdikdə,[1] taciklərin seçmə əsgərləri gizlicə Partaxdan səfərə çıxıb

[1] Azərbaycan Respublikasının indiki Xocavənd rayonu

Amaras ətrafını qarət etdilər, iki minədək adam əsir aldılar, sonra Mesaranka [1] sərhədində Şikanar adlanan qəsəbəyə gəlib oranı möhkəmləndirdilər. Onda Eranşahik nəslindən olan hökmdar - mərd və gözəl Səhli Smbatean öz şanlı qardaşları və qoşunu ilə səhər açılanda onlara hücum etdi, onları qırıb didərgin saldı və sanki şirin ağzından əsirləri xilas etdi.

Yenə həmin ildə hər şeyi dağıdan, Ermənistan daxilində "Avaranşan" [qarətçi] adı ilə məşhur olan tacik Sevada bütün ölkəni qarət etdi, Sünikə qayıtdı və Squk mahalında olan Şaqat qəsəbəsinin qalasında möhkəmləndi. Sünik hökmdarı Vasak isə iranlı Babanı gətirdi, onu [Sevadanı] məğlub edib qaçmağa məcbur etdi.

Həmin ildə Sünik hökmdarı [Vasak] öldü. Babək Sünik hökmdarı Vasakın qızını özünə arvad aldı.

Bundan sonra Baqk vilayəti Babanın təqsiri üzündən hakimiyyətsiz qaldı. İrandan səfərə çıxan [Baban], ölkəni alıb viran etdi, Baqkın qadın və uşaqlarını qılıncdan keçirtdi.

Sonrakı ildə Baban Yeqrkuni[2] vilayətinə gəldi, 15 minədək əhalini qılıncdan keçirtdi, böyük Makenosas monastrını yandırdı. [Burada] ancaq bir dəyirmandan başqa heç bir şey qalmadı.

Erməni tarixinin 276-cı ili [eramızın 827-ci ili] idi. İki ildən sonra Baban Tavuşu[3] dağıtdı və 150 minədək əhalini qovdu. O, biri ildə isə Baban Let oğlu İbrahimi məğlub etdi. Yenə həmin ildə [830/1] Davon və Şapux dostluğu və sülhü pozaraq, Ablasad adlanan Stepannosu öldürdülər; o, Babanı gətirmişdi ki, o da Bercor vilayətində və Ursas, Karnakaş, Xaxari, Tapat kəndlərində Baqk əhalisini qırmışdı. Sonra onlar Babanın əleyhinə üsyan qaldırdılar və Qoroz qalasında möhkəmlənərək 12 il buranın vilayətlərini əllərində saxladılar. Həmin vilayətlər isə bunlardır: Yuxarı Vaykunik Bercor,

---

[1] Azərbaycan Respublikasının Ağdam və Ağdərə rayonları

[2] Göyçə gölünün cənub sahili

[3] Azərbaycan Respublikasının Qazax rayonu ilə Ermənistan Respublikasının İcevan rayonlarının sərhədində.

Sisakan [və Kotak], Xaband [Mive], Amaras, Paznaik, Mxank[1] və Tri[2].

Bundan sonra Ablasadın qohumları onları [Davon və Şapuxu] tutub gəbərtdilər və Ablasadın bacısı oğlu olub Əbu Musa adlanan, sülhsevər Yesai həmin vilayətləri ələ keçirtdi və bunların hamısına hökmranlıq etdi. Həmin ildə Baban Arazdan keçərək, Amaras vilayətində düşərgə saldı. O, sülhdən danışmağa başladı və deyirdi ki, qiyamçılar ona tabe olsunlar. Bəziləri tövbə edib Babana tabe oldularsa, sonra aldandıqlarını görüb ondan ayrıldılar.

Baban oradan öz ölkəsi Atrpatakana qayıtdı. Rostom adlı sərkərdəsini öz yerində qoşunla birlikdə qoyub, əmr etdi ki, qala ilə vuruşmasın, onları xoşluqla itaətə cəlb etsin. Rostom isə Babanın əmrinə qulaq asmadı, səfər edib, qala ilə vuruşmağa başladı. Onda qalanın döyüşçüləri İsanın gücünə arxalanıb, müqəddəslərin quru cəsədlərini və əllərində xaç tutaraq yeridilər. İran ordusunu ağır məğlubiyyətə düçar etdilər.

## Dərc edilməmiş hissədən

Həmin ildə [erməni tarixinin 286-ci ili - yeni eranın 837-ci ili] eyni hökmdar Səhli Smbatean ölkələri dağıdıb ölümsaçan, qaniçən, yırtıcı, qiyamçı Babanı tutdu və onu Əmir əl-Möminin ixtiyarına verdi. O öz səyinə görə [xəlifə sarayında] böyük mükafat aldı. Ermənistan, Iberiya və Albaniya üzərində ali hakimiyyət ona verildi və o, bütün bu ölkələrdə padşah kimi hökmranlıq etdi.

---

[1] Hamısı Arsaxda

[2] Utidə

# ƏLAVƏ XI

## STEPANNOS ORBELİANIN "SÜNİK TARİXİ" ƏSƏRİNDƏN

(XXXIII fəsil, səh. 95-97)

Müsəlman sərkərdəsi Mruvan Sünik üstünə gedir. İranlı Baban bu ölkənin hökmdarı Vasakın kürəkəni olur, Makenik monastırını yandırır, Geqarkuni vilayətini, habelə Baqasakanı qarət edir.

Erməni tarixinin 176-cı ili qurtaranda[1] dünyanı viran qoyan məlun Mruvan çoxlu müsəlman qoşunu ilə Ermənistana soxuldu və ölkədə yaxşı nə vardısa, hamısını böyük bir atəş kimi məhv etdi. Buna görə o, Avaranşan, yəni dağıdıcı adı ilə məşhur olmuşdur. Böyük bir qarətdən sonra, o, Sünikə soxuldu və istehkamlı Şaqat qalasında dayandı. O, gözəl Sisakan ölkəsini də viran etmək istədi, buna görə öz qoşununu Squk vilayətində topladı.

Onda Sünik hakimi və knyazlar başçısı Vasak təcili olaraq yola düşdü və iranlı Babanı çoxlu qoşunu ilə Azərbaycandan çağırdı. [Baban] da Mruvanı dəhşətli məğlubiyyətə uğratdı və qaçmağa məcbur etdi.

Vasak həmin ildə öldü. Baban onun qızı ilə evləndi və o gündən onun vilayətini idarə etməyə başladı.

Bundan sonra Baqasakan vilayəti daha Babana tabe olmadı. Onda Baban gəlib albaniyalı Ablasadın köməyi ilə Baqasakan vilayətində dəhşətli qırğın törətdi, hətta qadınları və balaca uşaqları da qırdı.

Sonrakı ildə (828) Baban Geqarkuni vilayətinə getdi, 15 min nəfər əhalini qılıncdan keçirtdi, məşhur və gözəl Makenosas

---

1

monastırını qarət edib bütün əmlakını yandırdı və bütün tikililərini yıxıb uçurtdu. Lakin rahiblər [onun gəldiyini] qabaqcadan bilib iki qrupa ayrıldılar. Bir qrup keşik Soqomonun başçılığı ilə Şirak vilayətinə, Zresk adlanan müqəddəs kilsəyə getdi, o biri qrup Albaniyaya gedib, Ners-Mirxa monastırında yerləşdilər.

## ƏLAVƏ XII

## VARDAPERT VARDANIN "ÜMUMİ TARİX" ƏSƏRİNDƏN

(səh. 101)

Həmin günlərdə Bağdaddan bir adam gəldi ki, özü İranda doğulmuş, adı da Bab[an] idi; o, ismaililəri kəskin məğlubiyyətlərə uğradırdı, çoxunu əsir aparırdı, özünü isə ölməz adlandırırdı. Bir vuruşmada o, ismaililərdən 30 min qırmışdı. O, Geqarkuniyədək irəlilədi, böyüyü də, kiçiyi də qılıncdan keçirtdi.

Məmun öldükdən sonra hakimiyyəti onun qardaşı Əbu Saak [Mötəsim] öz əlinə aldı, Apşini böyük bir qüvvə ilə Babanın üstünə göndərdi. Apşin Ermənistana yola düşdü və Babanın qoşununu məğlubiyyətə uğratdı. Sumbat oğlu Səhl isə Babanı əsir tutdu, buna görə də Apşindən min dəfə min kşir gümüş, bir daha yüz min aldı. Babanın əllərini və ayaqlarını kəsdilər, özünü də dirəkdən asdılar.

## ƏLAVƏ XIII

## ƏHMƏD İBN ƏSƏM ƏL-KUFİ, KİTAB ƏL-FÜTUH

Bakı, 1981 (səh. 70-77). Əl-Afşinin hakim təyin olunması. Onun Babək əl-Xürrəmi ilə müharibələri

[Müəllif] deyir: Xəlifə əl-Mötəsimin işləri sahmana gələn kimi o, öz vergi toplayan məmurlarını bütün ölkələrə göndərdi. Sonra o, əl-Afşini Azərbaycan və Ərminiyyəyə hakim təyin edib əmr etdi ki, Babək əl-Xürrəmi ilə müharibəyə başlasın.

Əl-Afşin öz qərargahını keçmişdə Bərzənd adlı şəhər olan yerdə saldırdı. O, Bərzəndi bərpa etdi və onu yolların birləşdiyi yerdə istehkama çevirdi. Burada əl-Bəzzdən, Muğandan, Ərdəbildən və Vərsandan başlanan dörd yol birləşirdi. o, burada ikən onun yanına əsgərlər gəldi və o, Babək əl-Xürrəmi ilə müharibəni başlamağı qərara aldı.

[Müəllif] deyir: əl-Afşinin Babəklə birinci döyüşü Ərdəbil şəhərindən yeddi fərsəng aralı olan Ərşəq adlanan yerdə baş vermişdi. Babək məğlub olub əl-Bəzzə qaçmışdır.

Əl-Afşin Məhəmməd ibn Süleyman əs-Səmərqəndi adlı şəxsi Arrana hakim təyin edib onu Bərdəyə göndərdi. Özü isə Babəklə müharibəni davam etdi. O, Babəklə arasıkəsilməz döyüşlərdə idi. Xəlifə əl-Mötəsim ona yazdı ki, o, Babəklə müharibədə daha da mətin olsun və onun (xəlifənin) göstərişlərini almayana qədər tələsməsin. [Müəllif] deyir: əl-Afşin də Babəklə döyüşləri davam etdirirdi.

Əl-Mötəsim Bağdadda iki il qaldı, sonra isə 220 (835)-ci ildə əl-Qətul adlanan yerə köçdü və burada Samirə adlı şəhərin binasının qoyulmasına əmr etdi. Şəhərin tikilməsi qurtaran kimi o, Samirəyə köçdü.

[Müəllif] deyir: Bütün bu vaxt ərzində əl-Afşin Babəklə müharibə edirdi. O, mətinlik göstərib Babəki əl-Bəzzə çəkilməyə məcbur etdirdi və orada onu mühasirə etdi.

Babək görür ki, onun daha müharibə etməyə gücü yoxdur və 20 nəfər öz yaxın adamları ilə şəhərdən qaçır. Babək onu tanımamaq üçün paltarını dəyişir və az bir vaxtdan sonra Gəzəc adlı şəhərə çatır.

[Müəllif] deyir: Gəzəc əhli Babəkə baxıb onu tanımadılar, hətta ona qarət məqsədilə hücum da etdilər. [Müəllif] deyir: Babək qarətçilərin üzərinə atılıb onları qırdı. [Müəllif] deyir: Hadisənin sədası Səhl ibn Sumbat adlı şəhər hakiminin qulağına çatdı. O öz

adamları ilə hadisə yerinə gedir, Babəki görən kimi onu tanıyır və başa düşür ki, Babək özünü tanıtmaq istəmir. Səhl Babəkə itaət göstərib ona qulluq etdi. Səhlin nəzakətli rəftarı Babəkin xoşuna gəlir və Səhl onu öz qalasına gətirir. Sonra o, Babəki şəraba qonaq edir. Babək içdi və yedi. Babək məst olur və Səhl əmr edir ki, onu buxovlasınlar və sağ əlini boynuna bağlasınlar. Sonra o, Babəki öz xadimlərinə tapşırıb onu əl-Afşinin yanına göndərir.

Əl-Afşin Babəki görən kimi çox sevindi. Sonra o, Səhl ibn Sumbata bir milyon dirhəmlik hədiyyələr göndərdi.

[Müəllif] deyir: xəlifə əl-Mötəsim Səhl ibn Sumbatın Babəkin başına nə oyun gətirdiyini bilən kimi ona mirvari və bahalı qaşdaşla bəzənmiş qızıl tac göndərir. Tacın qiyməti 500 min dirhəm idi. Bundan başqa xəlifə Səhl ibn Sumbatı bütün patriklərin başçısı təyin etdi. [Sl]

[Müəllif] deyir: əl-Afşin Babəklə birlikdə xəlifənin yanına getdi və əl-Mötəsimin əmrilə Babəkin başı vuruldu.

Babək 201 (30.07.816-19.07.817)-ci ildə zühur edib.

## Başqa rəvayət

Əl-Mötəsim əl-Afşini əl-Cibəl vilayətinə vali təyin edib, ona Babəklə müharibə etməyi əmr etdi. Bu əhvalat 220-ci ilin cumada ayının qurtarmasına iki gün qalmış (28.05.835) olmuşdur. Əl-Mötəsim Əbu Səid Məhəmməd ibn Yusifi Ərdəbilə göndərib ona Zəncanla Ərdəbil arasında olan və Babək tərəfindən dağılan qalaları bərpa etməyi əmr etdi. Babək onun üzərinə bir süvari dəstəsi göndərir, lakin Məhəmməd ibn Yusif onu darmadağın edir. Bu, Babək ordusunun birinci məğlubiyyəti idi.

Əl-Afşin Bərzəndə qoşun göndərir və ərəblər oranın qalalarını alırlar. Məhəmməd ibn Yusif Xuşşda yerləşib orda xəndək qazıtdırır. Əl-Mötəsim Böyük Buğa vasitəsiylə əl-Afşinə pul göndərir. Babək qərara gəlir ki, ona hücum edib pullarını əldə etsin. Əl-Afşinlə Babəkin arasında şiddətli döyüş baş verir və Babək uğursuzluqla dala çəkilir. Babək istəyirdi ki, onun əl-Afşinlə işi uzun çəksin və o, əl-

Afşinlə dağlara qar düşənə qədər döyüşlərə girmirdi. O istəyirdi ki, əl-Afşin tərəddüd edib sərt şaxtalara davam gətirməyib, çıxsın getsin.

Əl-Afşinin bir döyüşçüsü deyir: "Mən yuxuda Allahın elçisini gördüm. O deyirdi: Sən bu adamla müharibə etməli və bu işdə səy göstərməlisən. Əks halda mən dağlara əmr edərəm ki, səni daşqalaq etsinlər".

Bunu eşidən döyüşçülər bu yuxu haqda cürbəcür şayiələr yaydılar. Əl-Afşin yuxu görən döyüşçünü yanına çağırıb ona dedi: "Allah mənim niyyətlərim və qoşunlar üçün yaxşı fikirlərim haqda xəbərdardır. Və əgər Allah kiminsə üstünə dağları uçurmaq istəyirsə, qoy bu kəslər allahsızlar olsun!"

Gələn döyüşçülərin birisi dedi: "Ya əmir! Bizim artıq çatdığımız şəhidliyə mane olma! Və biz uca Allahın mükafatına layiq olmaq istəyirik. Hamımızı çağır və biz sənin əmrinlə irəliləyirik. Bəlkə də uca Allah qələbə çalmağımıza kömək edər!"

Əl-Afşin dedi: "Allahın mərhəmətinə ümid bəsləyin və istədiyiniz və seçdiyiniz gün haqda ondan kömək diləyiniz!"

Əl-Afşin qoşunları nizama saldı və Babəkin sərkərdələrindən biri Azinin müdafiə etdiyi təpəni mühasirə etdirdi. Hər tərəfdən təpə üzərinə Əbu Səid Məhəmməd ibn Yusif, Cəfər əl-Xəyyat və Əhməd ibn əl-Xəlil adlı sərkərdələr hücuma keçdilər. Əbu Səid qoşunlarının başında hücuma birinci keçdi.

Azin dağ başında qaya parçaları və daşla dolu arabalar düzmüşdü və ərəblər hücuma keçən kimi, arabaları qabağa itələdi.

Ərəb döyüşçüləri arabaları görən kimi ara verdilər və arabaların təhlükəsi sovuşdu.

Ərəb qoşunlarının onu hər tərəfdən əhatə etdiyini və ərəblərə qarşı işlətdiyi fəndin boşa çıxdığını görən Babək əl-Afşinin yanına öz adamını danışığa göndərib Əmir əl-Mömənindən aman dilədiyini arzuladı. Əl-Afşin amanı ona vəd verdi, ancaq əvəzinə ondan rehin istədi. Lakin bu vaxt əl-Afşin xəbər aldı ki, müsəlmanların bayraqları artıq əl-Bəzzə daxil olub Babəkin sarayları üzərinə sancılmışdır. Babəkin sarayları içində 600 nəfər sığınaq tapmışlar. Saraylar isə dörd idi. Birdən saraylarda gizlənmiş Babək döyüşçüləri darvazaları açıb bayıra çıxdı və ərəbləri qılıncdan keçirməyə başladılar. O ki

qaldı Babəkin özünə o həmin vaxt qaladan qaçıb bir dərədə gizləndi. Əl-Afşin neftatanlara (ən-nəffatin) və başqa döyüşçülərə şəhəri və həmin sarayları yandırmağı əmr etdi. Şəhərdə hər şey yandı, uçuldu və hamar və boş yerə döndü. Sarayların içində qalmış Babəkin döyüşçülərinin hamısı qılncdan keçirildi. Babəkin uşaqları və arvadları əsir alındı. Babək Ərminiyyə tərəfə qaçdı. Əl-Afşin ətrafdakı hakim və patriklərə məktublar göndərib əmr etdi ki, öz vilayətlərində yollara nəzər salıb heç kəsi buraxmayıb, müayinə edilmək üçün yoldan keçən şəxsləri tutsunlar. Əl-Afşinin yanına gələn casuslar xəbər verdilər ki, Babək bir dərədə filan yerdədir. Bu, böyük, içərisi qalın yaşıllığı və ağacları çox olan dərə idi. Dərənin bir ucu Ərməniyyəyə, digəri isə Azərbaycana çıxırdı. Atlı bu dərədən keçə bilməzdi  və Babək qalın meşədə bataqlığın içində gizlənmişdi.

Əl-Afşin bütun yolları 400-500 atlıdan ibarət olan dəstələrlə kəsdirmişdi. Həmin vaxt xəlifə əl-Mötəsimdən qızıl möhürlə möhürlənmiş bir məktub gəldi. Bu, Babəkə verilən və dilədiyi aman fərmanı idi. Əl-Afşin yanına bir adam çağırıb həmin fərmanı Babəkə çatdırmağı təklif etdi. Lakin nə Babəkin uşaqları, nə də döyüşçülərdən kimsə bu fərmanı Babəkə çatdırmağa cürət etmədi. Onda iki nəfər durub dedilər: "Bizə vəd ver ki, sən biz həlak olandan sonra ailələrimizi ac qoymayacaqsan". O buna söz verdi. Bu iki nəfər məktubu götürüb Babəkin yanına getdilər. Onlarla öz məktubunu Babəkin böyük oğlu da göndərdi. Oğlu atasına olmuş hadisələrdən yazıb xahiş edirdi ki, o, aman fərmanını qəbul edib özünü xilas etsin. Babək oğlunun məktubunu oxuyandan sonra məktubu gətirən şəxsin başını vurdurdu. Babək xəlifənin fərmanını açmayaraq sinəsi üstə asdı və məktubu gətirən ikinci adama dedi: "Get, oğlumun yanına və ona de: Bir gün hakim kimi yaşamaq qırx il qul qalmaqdan yaxşıdır!"

Babək həmin qalın meşədə ərzağı qurtaran vaxta qədər gizləndi. Əl-Afşinin silahlı adamları isə ətraf yolları kəsdirməkdə idilər. Babəki aclıq taqətdən saldı və o, ətrafları seyr etməyə başladı. Birdən bir çəməndə bir cüt öküzlü kəndli gördü. Babək öz qulamına dedi: "Özünlə bir neçə dinar götürüb, düş bu kəndlinin yanına. Əgər onun çörəyi varsa onu al!"

Kəndlinin bir şəriki də var idi. O, uzaqdan gördü ki, Babəkin adamı kəndlidən çörək alır və düşündü ki, həmin adam çörəyi güclə alır. Şərik gedir pusquda duranların yanına və onlara xəbər verir ki, bəs bizim yanımıza bir silahlı adam gəlib. Pusquda duranlar dəstənin başçısı atlanır və hadisə Səhl ibn Sumbatın dağlarında baş verdiyi üçün gedir Səhlin yanına. Səhl və onun adamları atlanıb Babək tərəfə yönəldilər. Səhl ibn Sumbat atdan düşüb Babəkin qarşısında yeri öpüb dedi: "Ey mənim ağam! Yolun harayadır?" Babək dedi: "Ruma!" Səhl ibn Sumbat dedi: "Səni mənim kimi başa düşən heç yerdə tapmazsan. Bizim münasibətlərdən xəlifəyə heç bir dəxli yoxdur. Yanıma da heç kəs gəlmir. Sən mənim vəziyyətimdən xəbərdarsan. Bu qışı mənim qalamda keçir, sonra da nə lazım gələcək baxarıq. Axı mən sənin qulunam!"

Babək Səhlin dediklərinə inanıb onun qalasında qaldı. Səhl ibn Sumbat isə əl-Afşinə xəbər göndərir ki, Babək və onun adamları öz qalasındadır, amma Babəkin qardaşı Abdulla İsa ibn İstifanusun qalasında gizlənib. Əl-Afşin Səhlə belə cavab yazdı: "Əgər bunlar doğrudursa, onda sən məndən və Əmir əl-Mömenindən nə istəsən alarsan!".

Əl-Afşin öz adamlarının birinə Babəki təsvir edib, onu Səhl ibn Sumbatın yanına göndərdi. O, Səhl ibn Sumbata bildirdi ki, yanına adamını göndərir və bu adam Babəki şəxsən görməlidir. Səhl ibn Sumbat bu adama dedi: "Sən Babəki yalnız səhər yeməyi vaxtı görə bilərsən. Görəndə ki, biz onun üçün səhər yeməyini tələb edirik, sən bizim aşpazlar libasını geyib, içəri daxil olub nə tələb etdiyini öyrənərsən".

Bu adam elə də etdi. Babək üz döndərib onu tanımadı və soruşdu: "Bu adam kimdir?" Səhl ibn Sumbat dedi: "Bu xorasanlı bir xaçpərəstdir və yanımıza filan ildə gəlib". Babək soruşdu: "Bəs səni burada saxlayan nədir?" O cavabında: "Mən burada evlənmişəm", - dedi. Babək dedi: "Sən haqlısan, çünki misalda deyilir: Birindən soruşanda ki, haralısan, cavab verdi ki, arvadım olan yerdənəm! "Sonra həmin adam əl-Afşinin yanına qayıdıb ona gördüklərini izah etdi. Əl-Afşin Əbu Səidi və Buzbaranı məktubla Səhl ibn Sumbatın yanına göndərdi. Əl-Afşin onlara tapşırdı ki, Səhl ibn Sumbatın

bütün sərəncamlarını yerinə yetirsinlər. Onlar belə də etdilər. Səhl ibn Sumbat onlara təyin edilən yerdə qalmağı əmr edib özlərinə kifayət qədər ərzaq da verdi.

Bundan sonra o, Babəkə dedi: "Sən bu qalada nədənsə keyfsizsən! Yaxınlıqda yaxşı bir çöl var. Etiraz etməzsən ki, bir şahin götürüb nahara qədər ova çıxaq?" Babək dedi: "İstəyirsənsə gedək!"

[Müəllif] deyir: Səhl ibn Sumbat əhvalatı Əbu Səidə və Buzbaraya xəbər verib, nə edəcəyi haqda onlara yazdı. Birinə öz döyüşçüləri ilə bir tərəfdə pusquda durmağı, ikincisinə isə ayrı yerdə. Sonra səhərçağı yola düşüb filan yerə gəlsinlər və atlardan düşüb Babəki yaxalasınlar.

Babək onları görənə qədər onlar Babəki dövrəyə alıb ona qışqırdılar: "Düş atdan!" O soruşdu: "Siz kimsiniz?" Onlardan birisi dedi: "Mən Əbu Səidəm". O birisi də: "Mən Buzbarayam!" - dedi. Babək dedi "Aydındır!" və ayağını əyib atdan düşdü. Sonra o, Səhl ibn Sumbata baxıb onu söydu və dedi: "Sən məni yəhudilərə qara quruşa satdın! Əgər sənə pul lazım idisə mənə deyəydin, mən sənə iki dəfə çox pul verərdim!"

Əbu Səid dedi: "Gəlsənə ata minəsən!" və bundan sonra Babəki əl-Afşinin yanına apardı. Babəkin çiynində ağ geyim və ayağında yüngül ayaqqabı var idi. Babəki əl-Afşinin hüzuruna gətirəndə o, Babəki və qardaşını xüsusi otaqda kilidlədi. Babəki əl-Afşinin yanına o, Bərzənddə ikən gətirdilər və bu da 222-ci ilin şəvval ayının 10-da olub (15.09.837).

Xəlifə əl-Mötəsim Samirədən əl-Afşinin düşərgəsinə qədər olan yolda hər fərsəxdə bir cəsur atlı saxlayıb, çaparlara əmr etdi ki, ona bu şad xəbəri tezliklə çatdırsınlar. Və əl-Afşinin yazılı xəbəri Samirəyə dörd və bəlkə də daha da az gündə gəlib çatdı.

Əl-Afşin Babəklə birlikdə xəlifənin hüzuruna çatanda, onları vəliəhd Harun əl-Vasiq və xəlifənin ailəsi də qarşıladı. Xəlifə Babəki xalqın hüzuruna ən rəzil vəziyyətdə çıxarmaq istədi. O soruşdu: "Bunu nəyin üstündə gətirək ki, onu rüsvay edək?" Kim isə təklif etdi: "Ya Əmir əl-Möminin! Bu iş üçün ən yaxşısı fildir!" Xəlifə dedi: "Düz deyirsən!" və əmr etdi ki, fili adəti üzrə bəzəsinlər. Babəki ağ geyimdə filə mindirdilər.

Şair Məhəmməd əz-Zəyyat bu dəmdə dedi:

Fili adəti üzrə bəzədilər!
O, Xorasan sultanını gətirir!
Və filin ayrı yerləri belə bəzənmir!
Yalnız tək-tək hallarda olur belə!

Babəki şəhərin Xalq darvazasından keçirib xəlifə əl-Mötəsimin hüzuruna gətirəndən sonra o, Babəkin cəlladının çağırılmasını əmr etdi. Cəlladın adı Nüdnüd idi və o gəldi. Xəlifə Babəkin əl-ayağını vurmağı əmr etdi. Cəllad da əllərini və ayaqlarını kəsdi və bunlar yerə düşdü. Xəlifə Babəki doğramağı əmr etdi. Onun qarnını yırtdılar və başını kəsdilər. Sonra başını Xorasana göndərdilər. Bədənini isə Samirədə əl-Əqaba məhəlləsində çarmıxa çəkdilər.

Əl-Mötəsim Səhl ibn Sumbata bir milyon dirhəm, qızıl tac və qaş-daşla bəzənmiş kəmər verilməsini əmr etdi. Səhlin oğlu Müaviyəyə 100 min dirhəm verildi. Əl-Afşin döyüşlərin hər günü 10 min dirhəmdən başqa ərzağını, hədiyyəsini və əlavə qoşunlarını da alırdı. Əgər o, ata minmirdisə, onda 5 min dirhəm alırdı. Bundan başqa, əl-Mötəsim əl-Afşinin başına tac qoydurdu, fəxri libasları geydirdi və külli miqdarda daş-qaş bağışladı.

Əl-Afşin Babəklə iki il beş ay və bir neçə gün müharibə etdi. Doğrusunu isə Allah bilir.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

*К.Маркс и Ф.Энгельс.* Сочинения, т. VIII. М., Госполитиздат.

*К.Маркс и Ф.Энгельс.* Сочинения, т. XIV. М., Госполитиздат.

*F.Engels.* Ailənin, xüsusi mülkiyyətin və dövlətin əmələ gəlməsi. B., 1954.

## Mənbələr

*Абу Йусуф Йакут.* Книга о земельном налоге. Перев. с арабского А.Э.Шмидта. Л., 1941. Архив ЛОИНАЗ, р. 1, оп. 8, № 33, 34.

*Анеци Самуил.* Изборник выдержек из книг историков. Вагаршапат, 1893.

Арабский аноним. Издание текста, перевод, введение и комментарии П.А.Грязневича. М., 1960.

Армянская география VII в. (приписываемая Моисею Хоренскому). Перев. с древнеарм. К.Патканова. СПб., 1877.

Армянский Судебник Мхитара Гоша. Перев. с древнеарм. А.А.Паповянв. Ереван, 1954.

*Бузанд Ф.* История Армении. Перев. с арм. М.А.Геворгяна. Ереван, 1953.

Византийские историки. Перев. с греч. С.Дестуниса. Менандр Византиец. История за период 558-583 г. н.э. СПб., 1860.

Всеобщая история Вардана Великого. Перев. с древнеарм. Н.Эмина.М., 1861.

Всеобщая история Степанноса Таронского, Асохыка по прозванию.

Перев. с древнеарт. Н.Эмина. М., 1864.

Вторая записка Абу Дулафа. Издание и перевод П.Г.Булгакова и А..Б.Халидова. М., 1960.

*Гандзакеци К.* История. Перев. с древнеарм. Т.И.Тер-Григоряна. Баку, 1946.

*Гош Мхитар.* Албанская хроника. Баку, 1960.

*Джанашвили М.Г.* Известия грузинских летописей и историков о Северном Кавказе и России. СМОМПК, вып. XXII, Тифлис, 1897.

*Джанашвили М.Г.* Осада Константинополя скифами, кои суть русские и поход императора Ираклия в Персию (Сочинение Георгия Мтацминдели, составленное им в царствование Михаила V в 1041-1042 гг.). СМОМПК, вып. XXVII. Тифлис, 1900.

*Джуаншер.* Краткая история Грузии. Венеция, 1884 (на арм. яз.).
*Жордания Ф.* Хроника. Тифлис, 1892.
Из анонимной сирийской хроники 1234 г. Перев. Н.В.Пигулевской. В кн.: "Византия и Иран на рубеже VI-VII веков". М.-Л., 1945.
Из сирийской хроники Захария Митиленского. Перев. Н.В.Пигулевской. ВДИ, 1939, № 1.
История Агван Моисея Каганкатваци. Перев. с древнеарм. К.Патканова. СПб., 1861.
История Агван Моисея Каганкатваци. Изд. К.Шахназаряна Париж, 1860.
История Армении католикоса Иоаннеса Драсханакертского Изд. Н.Эмина. СПб., 1861.
История епископа Себеоса. Перев. с древнеарм. Ст. Малхасяна. Ереван, 1939.
История императора Иракла, сочинение епископа Себеоса, писателя VII века. Перев. с древнеарм. К.Патканова. СПб., 1852.
История халифов вардапета Гевонда, писателя VIII века. Перев. с древнеарм. К.Патканова. СПб., 1862.
Картлис Цховреба, т. I. Тбилиси, 1955 (на груз. яз.).
Книга писем. Тифлис, 1901 (на древнеарм. яз.).
*Ковалевский А.П.* Книга Ахмеда ибн Фадлана о его путешествии на Волгу в 921-922 гг. Харьков, 1956.
*Константин Багрянородный.* Об управлении государством. Изв. ГАИМК, 1934, в. 91.
*Корюн.* Житие Месропа Маштоца. Перев. с древнеарм. Т.И.Тер-Григоряна. Научи, арх. Ин-та истории АН Азерб. ССР, инв. № 2064.
Летопись византийца Феофана от Диоклетиана до царей Михаила и его сына Феофилакта. Перев. В.И.Оболенского и Ф. А. Терневского СПб (без даты).
Материалы по истории Азербайджана из "Тарих ал-Камиль" ибн ал-Асира. Перев. П.К.Жузе. Баку, 1940.
*Мирза Джамал Джеваншири.* История Карабаха. Перев. Ф.Бабаева. Баку, 1959.

Рукописи Матенадарана № 667, 2966, 3062, 6409.
*Сабанисдзе Иоанн.* Мученичество Або Тбилели (памятники древнегрузинской и агиографической литературы). Грузинский текст перевел, исследованием и примечаниями снабдил академик АН Груз. ССР К.С.Кекелидзе. Тбилиси 1956.
Сиасет-намэ. Книга о правлении везира XI столетия Низам ал-Мулька. Перев. Б.Н.Заходера. М., 1949.
*Степаннос Орбелиан.* Патмут'ивн нахангин Сисакан. Тифлис, 1910.
*Степаннос Таронский* (Асогик). Всеобщая история. Перев. с древнеарм. Н.Эмина. М., 1864.
*Страбон.* География, кн. XI.
*Такайшвили Е.С.* Источники грузинских летописей. Три хроники, СМОМПК, в. XXVIII. Тифлис, 1900.
Тарих-и Дербенд-намэ, под ред. Алиханова- Аварского. Тифлис, 1898.
*Ухтанес.* История отделения Грузии от армян. Вагаршапат, 1871 (на древнеарм. яз.).
*Фахри.* Правила для государей и рассказы о мусульманских династиях. Перев. И.Холмогорова. Уч. зап. Казанск. ун-та, 1863.
*Феофилакт Симокатта.* История. М., 1957.
Хождение за три моря Афанасия Никитина 1464-1472. М.-Л., 1948.
*Хоренскип Моисей.* История Армении. Перев. с древнеарм. Н.Эмина. М., 1858.
Хронографическая история, составленная отцом Мехитаром, вардапетом айриванским. Перев. с древнеарм. КЛатканова. ТВОРАО, т. XIV, СПб., 1869.
*Худуд ал-алам.* Рукопись Туманского с введением и указателями В.Б.Бартольда. Л., 1930.
*Якуби.* История. Перевод выдержек П.К.Жузе. Баку, 1927.

## Ədəbiyyat

*Абаев В.И.* Среднеазиатский политический термин "Афшин". ВДИ,1959, № 2.
*Абаза В. А.* История Армении. СПб., 1888.
*Абегян М.* История древнеармянской литературы, т. I, Ереван, 1948 (на арм. яз.).
*Абрамян А.* Научные труды армянского ученого VII в. Анании Ширакаци. Ереван, 1944 (на арм. яз.).
*Абуладзе И.* К открытию алфавита кавказских албанцев. Изв. ИЯИМК Груз. ФАН СССР, т. IV, 1938.
*Агазаде Ф., Каракашлы К.* Очерк по истории развития нового алфавита. Казань, 1927.
*Агаян Э.* Албанские названия месяцев. Изв. АН Арм. ССР, 1946. № 5 (на арм. яз.).
*Адонц Н.* Армения в эпоху Юстиниана. СПб., 1908.
Azərbaycan tarixi, c. I. Bakı, 1958.
*Акиньян Н.* Кюрион, католикос Грузии. Вена, 1910 (на арм. яз.)
*Акиньян Н.* Виро, католикос Албании. Андес Амсореа. Вена, 1954 (на арм. яз.).
*Акиньян Н.* Мовсес Дасхуранци (по прозванию Каганкатваци) и его "История Агван". Андес Амсореа. Вена, 1953-1960 (на арм. яз.)
*Акопян С.Е.* История армянского крестьянства. Ереван, 1952 (на арм. яз.).
*Алекперов А. К.* Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960.
*Алиев Г.Ю.* Легенда о Хосрове и Ширин в литературе народов Востока. М., 1960.
*Алишан Г.* Хайапатум, патмут'ивн хайоц. Венеция, 1901.
*Альтман ММ,* О времени возникновения Ганджи как города. Изв.
АзФАН СССР, 1940, №1, Баку.
*Аракелян Г.Н.* Гарни 1. Результаты раскопок 1949-1950 гг. Ереван, 1951.
*Артамонов М.И.* Древний Дербент. СА, 1946, VIII.

*Артамонов М.И.* Очерки древнейшей истории хазар. Л., 1936.
*Артамонов М.И.* История хазар. Л., 1962.
Архитектура Азербайджана эпохи Низами. Сборник. Баку, 1947,
*Асланов Г.М.* К изучению раннесредневековых памятников Мингечаура. КСИИМК, вып. 60, 1955.
*Ахмедов Г.М.* Неполивная бытовая керамика Азербайджана 1Х-ХШ вв. (по материалам раскопок Оренкала). Автореферат дис., Баку, 1957.
*Ахмедов Г.М.* Неполивная керамика Азербайджана (по материалам 1Х-ХП1 вв. раскопок Оренкала). Баку, 1959 (на азерб. яз.).
*Ачарян Р.* Албанский алфавит. Изв. Арм. ФАН АН СССР, 1941, № 3-4 (на арм. яз.).
*Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951.*
*Баратов С.* История Грузии. СПб., 1865-1871.
*Бартикян Р.М.* Источники для изучения истории павликианского движения. Ереван, 1961.
*Бартольд В.В,* Несколько слов об арийской культуре в Средней Азии. СрВ, июнь 1896.
*Бартольд В.В.* Туркестан в эпоху монгольского нашествия, ч. II. СПб., 1900.
*Бартольд В.В.* Историке-географический обзор Ирана. СПб., 1905.
*Бартольд В.В.* Халиф Омар II и противоречивые известия о его личности. ХВ, VI, 1920.
*Бартольд В.В.* Мусульманский мир. II д., 1922.
*Бартольд В.В.* К истории крестьянских движений в Персии. Сб. Этюдов по всеобщей истории в честь 50-летия научной жизни Н.И-Кареева. Пд-М., 1923.
*Бартольд В.В.* Место прикаспийских областей в истории мусульмайского мира. Баку, 1924.
*Бархударян М.* История Албании. Вагаршапат, 1902 (на арм. яз.).
*Башкиров А. С.* Изучение памятников старины Дагестана. Дагестанстарина, т. III, Махачкала, 1927.

*Безменов В.* Материалы для древней географии Закавказья по персидскому сочинению "Зиист-уль-маджалис". Изв. КОИРГО, т. I, 1822-1823.
*Беляев В.И.* Арабские источники по истории туркмен и Туркмении IX-XШ вв. МИТТ, т. 1. М-Л., 1939.
*Беляев Е.А.* Ислам и арабский халифат VII-IX вв. ИЖ, 1938, № 7.
*Беляев Е.А.* Мусульманское сектанство. М., 1957.
*Бердзешвиш Я., Джавахишвили И., Джанашиа С.* История Грузии, т. I. Тбилиси, 1950.
*Бертельс А.Е.* Насир-и Хосров и исмаилизм. М., 1959.
*Булгаков П.Г.* "Книга путей и государств" ибн Хордадбеха. ПС, 66/3, 1958.
*Буниятов З.М.* Бабек и Византия. ДАН Азерб. ССР, 1959, т. XV, №7.
*Буниятов З.М.* Новые данные о местонахождении крепости Шаки. ДАН Азерб. ССР, 1959, т. XV, № 9.
*Буниятов З.М.* О лаколизации города-крепости Базз. Изв. АН Азерб. ССР, сер. общ. наук, 1959, № 5.
*Буниятов З.М.* О термине "хуррам". Изв. АН Азерб. ССР, сер. общ. наук, 1959, № 3.
*Буниятов З.М.* Об имени "Мингечаур". ДАН Азерб. ССР, 1959, т. XV, № 2.
*Буниятов З.М.* О длительности пребывания хазар в Албании в VII-VШ вв. Изв. АН Азерб. ССР, сер. общ. наук, 1961, № 1.
*Буниятов З.М.* Еще раз о неизданных страницах "Истории Агван" Моисея Каганкатваци. Изв. АН Азерб. ССР, сер. общ. наук, 1961, № 4.
*Буниятов З.М.* О местонахождении городов-крепостей Базз и Шаки. КСИНА, XI,VII. М., 1961.
*Буниятов З.М.* Из истории Кавказской Албании VII-VIII вв. Сб. "Вопросы истории Кавказской Албании". Баку, 1962.
*Буниятов З.М.* О деятельности католикоса Албании Виро (596-630). Сб. "Ближний и Средний Восток". М.-Л., 1962.
*Быков А.А.* Дайсам ибн Ибрахим ал-Курди и его монеты. ЭВ, X, 1955.

*Бэр А.* История всемирной торговли, ч. I. М., 1876.
*Ваидов Р.М.* Фрагмент глиняного подсвечника с албанской надписью. Изв. АН Азерб. ССР, сер. общ. наук, 1958, № 4.
*Ваидов Р.М.* Мингечаур в III-VIII вв, Баку, 1961 (на азерб. языке).
*Ваидов Р.М.* и *Фоменко В.П.* Средневековый храм в Мингечауре МКА, т. II, 1951
*Балидов А.З.* Мешхедская рукопись ибн ал-Факиха. ИРАН, 1924
*Васильев А.* Византия и арабы при императоре Феофиле (829-842 гг.). ВВ, 1891, т. VI.
*Васильев А.А.* Византия и арабы. Политические отношения Византии и арабов за время Аморийской династии. СПб., 1900.
*Велиев М.Г.* (Бахарлы). Население Азербайджана - "музей" этнографических сокровищ. Азерб. настольный календарь. Баку, 1924-1925.
*Гагемейстер Ю.А.* Новые очерки Закавказья. ЖМВД, т. XX, XXI, 1848
*Генко А.Н.* Арабский язык и кавказоведение. Труды второй сессии Ассоциации арабистов. Л., 1938.
*Гибб Х.А.Р.* Арабская литература. Классический период. Перев. с арабск. А.Б.Халидова. М., 1960.
*Гиргас В.* Права христиан на Востоке по мусульманским законам. СПб., 1865.
*Голубкина Т.Н.* Еще одна албанская надпись из Мингечаура. ДАН Азерб. ССР, 1949, № 5.
*Грен А.Н.* Династия Багратидов в Армении. ЖМНП, ч. 190. СПб., 1893.
*Даль В.* Толковый словарь, т. IV. М., 1955.
*Джавахов И.А.* История церковного разрыва между Грузией и Арменией в начале VII в. ИИАН. СПб., 1908.
*Джанашиа С.* К критике Моисея Хоренского. МИГК, вып. VI. Тбилиси, 1937.
*Джафарзаде И.М,* Историко-археологический очерк старой Ганджи. Баку, 1949.
*Деминский Ф.А.* Некоторые сведения о Кабристанском участке

Шемахинского уезда Бакинской губернии. Зап. КОИРГО, кн. XXII, вып. 2. Тифлис, 1901.
*Дьяконов М.М.* Очерк истории древнего Ирана. М., 1961.
*Еремян Ст.Т.* Феодальные образования Картли в период марзбанства (532-627 гг.). Тезисы дис. Л., 1935.
*Еремян С.Т.* Моисей Каланкайтукский о посольстве албанского князя Вараз-Трдата к хазарскому хакану Али-Илитверу. ЗИВАН, VII, 1939.
*Еремян С.Т.* Идеология и культура Албании Ш-VП вв. Очерки истории СССР III-IX вв. М., 1958.
*Еремян С.И.* Политическая история Албании III-VII вв. Очерки истории СССР III-IX вв. М., 1958.
*Еремян С.Т.* Раннефеодалъная культура Армении. Очерки истории СССР III-IX вв. М., 1958.
*Еремян С.Т.* Борьба армянского народа против арабского халифата.
Очерки по истории СССР III-IX вв. М., 1958.
*Еремян С.Т.* Экономика и социальный строй Албании IV-VII вв. Очерки истории СССР III-IX вв. М., 1958.
*Жузе П.К.* Папак и папакизм. Изв. Бакинск. гос. ун-та, № 1. Баку, 1921.
*Жузе П.К.* Divan-i lüğət ət-türki. Изв. Вост. факультета АГУ, т. I. Баку, 1926.
*Жузе П.К.* Мутагадлибы в Закавказье в IX-X вв. МИГК, вып. III, Тифлис, 1937.
*Заходер Б.Н.* Из истории волжско-каспийских связей древней Руси. СВ, 1955, № 3.
*Зейдлиц Н.К.* Этнографический очерк Бакинской губернии. Кавказский календарь за 1871 г.
*İbrahimov Z.* Azərbaycan xalqının ərəb işğalçılarına qarşı mübarizəsi, Bakı, 1941.
*İbrahmov Z.* Babək. Bakı, 1944.
*Ибрагимов 3., Тотржевский Е.О.* О доблести и мужестве азербайджанцев. Баку, 1943.
*Иесен А.А.* Новые данные для истории Азербайджана по работам

Оренкалинской экспедиции 1953-1955. Баку, 1956.
*Иностранцев К.А.* Сасанидские этюды. СПб., 1909.
*Иоаннисян А.Г.* Очерки истории армянской освободительной мысли, т. I. Ереван, 1957 (на арм. яз.).
*Исаков М.* Исчезнувший город в Дагестане. ЖИ, 1941.
*Исмизаде О.Ш.* Кабала - столица древней Кавказской Албании. Сб.
[""Вопросы истории Кавказской Албании". Баку, 1962.
История армянского народа. Ереван, 1951.
Qazıyev S.M. Vartaşen və Qutqaşen rayonlarında arxeoloji qazıntılar.
1945-ci ildə Azəerb.SSR EA-nın ekspedisiyası, Bakı, 1947.
*Кадырова Т.* Новые данные о раннефеодальном институте "ильджа".
Обществ. науки в-Узбекистане, № 4. Ташкент, 1961.
*Казем-Бек М.* Баб и бабиды: религиозно-политические смуты в Персии в 1844-1852 гг. М., 1865.
*Казиев СМ.* Албанская надпись в Мингечауре. ДАН Азерб. ССР, 1948. № 9.
*Казиев С.М.* Археологические раскопки в Мингечауре. МКА. Баку,1949.
*Казиев С.М.* Из истории Кабалинского магала. Сб. "Вопросы истории Кавказской Албании". Баку, 1952.
*Казиев СМ.* Новые археологические находки в Мингечауре в 1947 г. ДАН Азерб. ССР, 1948, № 9.
*Капанадзе Д.Г.* Грузинская нумизматика. Тбилиси, 1953.
*Караулов Н.* Примечания к СМОМПК, вып. 29.
*Кафадарлн К.Т.* Город Двин и его раскопки. Ереван, 1952.
*Кмошко М.* Арабы и хазары, Стамбул, 1935.
*Коковцов П.К.* Новый еврейский документ о хазарах и хазаро-русско-византийских отношениях в X в. СПб., 1913.
*Коковцев П.К.* Европейско-хазарская переписка в X в. Л., 1932.
*Котовыч В.Г.* Дагестан в III-V вв. Очерки истории Дагестана, т. I. Махачкала, 1957.
*Крачковский И.Ю.* Древнейший арабский документ из Средней

Азии. Избр соч., т. I. М.-Л., 1955.
*Крачковский И.Ю.* "Риторика" Кудамы ибн Джа'фара. Избр. соч., т. IV. М.-Л., 1956.
*Крачковский И.Ю.* Арабская географическая литература. Избр. соч., т. IV. М.-Л., 1957.
*Крымский А.Е.* История сасанидов и завоевания Ирана арабами. М., 1905.
*Крымский А.Е.* История Персии, ее литературы и дервишской теософии. М., 1914.
*Крымский А.Е.* История арабов и арабской литературы, т. I, II, 1918.
*Крымский А.Е.* Страницы из истории Северного или Кавказского Азербайджана (классическая Албания). Кабала. Сб. "Памяти С.Ф.Ольденбургу". Л., 1934.
*Крымский А.Е.* Страницы из истории Северного или Кавказского Азербайджана (классическая Албания). Шеки. Сб. "Памяти акад. Н.Я.Марра". М.-Л., 1938.
*Куббель Л.Е.* О некоторых чертах военной системы халифата Омаййадов (661-750 гг.). ПС, вып. 4 (67), 1959.
*Куликовский Ю.* История Византии (602-717 гг.). т. III. СПб., 1876.
*Куликовский Ю.* К истории Готской епархии (в Крыму) в VIII в. ЖМНП, ч. 315, 1898.
*Ласкин Г.* Ираклий. Харьков, 1899.
*Лен-Пуль С.* Мусульманские династии. Перевел с англ, с примеч. и дополн. В.Бартольд. СПб., 1899.
*Лео.* История Армении, т. II. Ереван, 1947 (на арм. яз.).
*Липшиц Е.Э.* Павликианское движение в Византии в VIII и первой половине IX вв. ВВ, т. V, 1952.
*Липшиц Е.Э.* Очерки истории византийского общества и культуры VIII - первая половина IX века. - М.-Л., 1961.
*Ломтатидзе Г.А.* Археологические раскопки в Мцхета. Тбилиси, 1955.
*Луконин В.Г.* Иран в эпоху первых сасанидов. Л., 1961.

*Ляйстер А.Ф.* и *Чурсин Г.Ф.* География Закавказья. Тифлис, 1929.

*Магомедов Р.* История Дагестана. Махачкала, 1961.

*Манандян Я.А.* Средневековый итинерарий с армянской рукописи X столетия. Сб. "Памяти акад. Н.Я.Марру". М.-Л., 1930.

*Манандян Я.А.* Народные восстания в Армении против арабского владычества. Ереван, 1939.

*Манандян Я.А.* Маршруты персидских походов императора Ираклия. ВВ, 1950.

*Манандян Я.А.* О торговле и городах Армении в связи с мировой торговлей древних времен. Ереван, 1954.

*Марков А.* Инвентарный каталог мусульманских монет Императорского Эрмитажа. СПб., 1896.

*Марр Н.Я.* Аркаун, монгольское название христиан в связи с вопросом об армянах-халкедонитах. ВВ, т. XIII, 1906.

*Марр Н.Я.* Ани. Книжная история города и раскопки на месте городища. М-Л., 1934.

*Марр Н.Я.* По поводу русского слова "сало" в древнеармянском описании хазарской трапезы VII в. Избр. работы, т. V, М.-Л., 1935.

*Медников Н.А.* Палестина от завоевания ее арабами до крестовых походов. СПб., 1902.

*Мелик-Бахшян* Ст. Г. Павликианское движение в Армении. Ереван, 1955.

*Меликсет-Бек Л.М.* Источники грузинские. В сб. "Обзор источников по истории Азерб.", вып. II. Баку, 3939.

*Меликсет-Бек Л.М.* К истории появления гуннов в Восточном Закавказье. ДАН Азерб. ССР, 1957, т. XIII, № 6.

*Меликсет-Бек Л.М.* Хазары по древнеармянским источникам в связи с проблемой Моисея Хоренского. Сб. "В честь акад. И.А.Орбели". М.-Л., 1960.

*Меликсет-Бек Л.М.* По поводу заметки о письменности у кавказских албанцев. Сообщения Груз. ФАН СССР, т. I, 1940, №1.

*Меликсет-Бек Л.М.* К вопросу о генезисе армянского, грузинского и албанского алфавитов. Труды Музея истории Азерб., т. II, Баку, 1957.
*Месхиа Ш.А.* Города и городской строй феодальной Грузии XVII-XVIII вв. Тбилиси, 1959.
*Месхиа Ш.А.* Из истории грузинского феодального города IX-ХП вв.
Труды Ин-та истории АН Груз. ССР, т. II, 1956.
*Миклухо-Маклай Н.Д.* Географическое сочинение XIII в. на персидском языке. УЗИВАН СССР, т. IX, М.-Л., 1954.
*Монгайм А. Л.* Археология в СССР. М., 1955.
*Мюллер А.* История ислама, т. I, П. СПб., 1895-1896.
*Налбандян В.С.* Тбилиси в армянских литературных памятниках древних и средних веков. Ереван, 1961.
*Негматов Н.* Усрушана в древности и раннем средневековье. Сталинабад, 1957.
*Нюберг Г.С.* Материалы по истолкованию пехлевийских надписей Дербенда. Изв. Об-ва обслед. и изучения Азербайджана, № 8, вып. V, Баку, 1929.
*Оранский И.М.* Введение в иранскую филологию. М., 1960.
*Ормаииан М.* Армянская церковь, ее история, учение, управление внутренний строй, литература, ее настоящее. М., 1913.
Очерки истории Дагестана, т. I, Махачкала, 1957.
Очерки по истории СССР. Первобытно-общинный строй и древнейшие государства. М., 1956.
*Патканов К.* Предисловие к "Истории Агван". М.Каганкатваци. СПб., 1861.
*Патканов К.* Предисловие к "Истории халифов вардапета Гевонда". СПб., 1882.
*Патканов К.* Опыт истории династии Сасанидов по сведениям, сообщаемым армянскими писателями. ТВОРАО, ч. XIV, СПб., 1869.
*Патканов К.* Ванские надписи и значение их для истории Передней Азии. ЖМНП, ч. 177, 1875.

*Патканов П.К.* Библиографический очерк армянской исторической литературы. СПб., 1880.
*Пахомов Е.А.* Краткий курс истории Азербайджана. Баку, 1923.
*Пахомов Е.А.* Монетные клады Азербайджана и Закавказья. Баку, 1926.
*Пахомов Е.А.* Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа, вып. I-VI. Баку, 1926-1957.
*Пахомов Е.А.* Пехлевийские надписи Дербенда. Изв. Об-ва обслед. и изучения Азербайджана. № 8, вып. V, Баку, 1929.
*Пахомов Е.А.* К толкованию пехлевийских надписей Дербенда. Изв. АзГНИИ, т. I, вып. 2. Баку,'1930.
*Пахомов Е.А.* Ганджинский клад 1929 г. и переломный момент арабской торговли в Закавказье. Сб. "Памяти акад. Н.Я.Марру". М.-Л-, 1931.
*Пахомов Е.А.* Крупнейшие памятники сасанидской архитектуры в Закавказье. Проблемы ГАИМК, № 9-10, 1933.
*Пахомов Е.А.* Башни и мавзолеи в Барде. Труды Аз ФАН, вып. 25, Баку, 1934.
*Пахомов Е.А.* Монеты Азербайджана, вып. 1. Баку, 1959.
*Пахомов Е.А.* Пайтакаран-Байлакан-Оренкала. Мат-лы и исследования по археологии СССР, № 67. М.-Л., 1959.
*Пигулевская Н.В.* К вопросу о податной реформе Хосрова Ануширвана. ВДИ, 1937, № 1.
*Пигулевская Н.В.* Сирийский источник VI в. о народах Кавказа. ВДИ, 1939, № 1.
*Пигулевская Н.В.* Маздакитское движение. Изв. ОИФАН СССР.1944. № 3.
*Пигулевскся Н.В.* Византия и Иран на рубеже VI-VII веков. М.-Л.,1945.
*Пигулевская Н.В.* К вопросу об общественных отношениях на Ближнем Востоке. Вестник ЛГУ, 1948, № 4.
*Пигулевская Н.В.* К вопросу о городах Ирана в раннем средневековье СВ, 1955, № 6.
*Пигулевская Н.В.* Города Ирана в раннем средневековье. М.-Л., 1956.

*Пигулевская Н.В.* К вопросу о феодальной собственности на землю в Иране. Вестник ЛГУ, 1956, №8.
*Пигулевская Н.В.* Зарождение феодальных отношений на Ближнем Востоке. УзИВАН, т. XVI, 1958.
*Пигулевская Н.В.* Иран с древнейших времен до конца XVIII в. Л., 1958.
*Пигулевская Н.В.* К вопросу о "письменных" народах древности. Древний мир. Сб. статей "Памяти акад. В.В.Струве". М., 1962.
*Раздое В.В.* Опыт словаря тюркских наречий, т. 3, 4. СПб., 1905.
*Розен В.Р.* Рецензия на издание Де Гуе. ЗВОРАО, 1 (1886) 1887. "Русские города". ЖМВД, т. VI, 1844.
*Р[озен] В.Р.* Рецензия на "Alberunis India", ЗВОРАО, III, 1888.
*Р[озен] В.Р.* Рецензия на A.F.Kremer. ЗВОРАО, 1889.
*Сабинин М.* Полное жизнеописание святых грузинской церкви, ч. I, П. СПб., 1871-1872.
*Савельев П.* Торговля волжских булгар. ЖМНП, 1886, № 8.
*Саидов М.С.* Некоторые памятники материальной культуры в лакских районах Дат. ССР. Уч. зап. ИИЯЛ Даг. ФАН СССР, т. III, 1957.
*Саидов М.С.* О распространении Абу Муслимом ислама в Дагестане Уч. зап. ИИЯЛ Даг. ФАН СССР, т. II, 1957.
*Seyidov Mirəli. "Varsan" sözü haqqında. Azərb. SSR EA Ədəbiyyat və Dil İnstitutunun əsərləri, c. VII, Bakı, 1954.*
*Сенковский О.И.* Некоторые сомнения касательно истории Грузии. Собр. соч., т. VI, СПб., 1859.
*Сихарулидзе Э.Т.* "Китаб ал-хорадж" Абу Йусуфа Йакуба, как источник по истории феодальных отношений в халифате. Автореферат дисс Тбилиси, 1958.
*Срезневский И.И.* Материалы для словаря древнерусского языка пописьменным памятникам, т. III. СПб., 1903.
*Сысоев В.Мş* Берда. Изв. Азерб. Археологич. комитета, вып. 2. Баку, 1926
*Ташчъян Л.П.* Средневековая Барда в период расцвета. Изв. АН Азерб. ССР, 1946, № 9.

*Тер-Гевондян А.* Двинский эмират в Армении в 1Х-Х1 вв. Автореферат дисс. Л., 1958.

*Тер-Григорян Т.И.* Борьба Арцаха с арабскими захватчиками в IX в. Баку, 1942.

*Тизенгаузен Б.* Монеты восточного халифата. СПб., 1873.

*Томара М.* Бабек. М., 1936.

*Торнау Н.* Изложение начал мусульманского законоведения. СПб., 1850.

*Тревер К.В.* Очерки по истории и культуре Кавказской Албании. М.-Л., 1959.

Труды Азербайджанской (Оренкалинской) археологической экспедиции, т. I. 1953-1955. М.-Л., 1959.

*Успенский Ф.И.* История Византийской империи, т. I, Л., 1927.

*Утмазян АМ.* Сюник в 1Х-Х вв. Автореферат дисс. Ереван, 1949.

*Фасмер Р.Р.* Хронология наместников Армении при первых Аббасидах. ЭКВ, т. I, Л., 1925.

*Фасмер Р.Р.* О монетах Саджидов. Изв. Об-ва изучения Азербайджана, № 5. Баку, 1927.

*Фасмер Р.Р.* Завалишинский клад куфических монет УШ-1Х вв. Изв. ГАИМК, т. VII, вып. 2, 1931.

*Финлеп Г.* История Византийской и Греческой империй с 716 по 1453 гг., ч. I, М., 1878.

*Фролова О.Б.* Источники Летописи ибн ал-Асира (XIII век) в разделах, посвященных истории народов СССР. Автореферат дисс. Л., 1954.

*Церетели Г.В.* Арабские диалекты Средней Азии, т. I, Тбилиси, 1953.

*Шанидзе А.Г.* Новооткрытый алфавит кавказских албанцев и его значение для науки. Изв. ИЯИМК ГрузФАН СССР, т. IV, 1938.

*Шанидзе А.Г.* Порядок букв грузинского, армянского и албанского алфавитов. Труды Музея истории Азербайджана, т. II, Баку, 1957.

*Şərifli M.X.* Şirvanın Lizan çarlığı ilə birləşməsi. Azərb. SSR EAX*, 1960, c. XVI,* № 6.

Şərifli M.X. Sacilər dövləti, Azərb. MEA Tarix İnstitutunun əsərləri c. XVI, Вакı, 1961.
*Şərifli M.X.* Orta əsrlərdə eyniadlı Azərbaycan şəhər və qalaları. Azərb.SSR EAX, 1962, c. XVIII, № 3.
*Шахназарян К.* История Агван. Париж, 1860 (на арм. яз.).
*Щихсаидов А.Р.* О проникновении христианства и ислама в Дагестан, уч. зап. ИИЯЛ Даг. ФАН СССР, т. Ш, Махачкала, 1957.
*Шихсаидов А.Р.* Распространение ислама в Южном Дагестане в X-XV вв. Уч. зап. ИИЯЛ Даг. ФАН СССР, т. VI, Махачкала, 1958.
*Шлепчан С.* Административная политика арабского халифата в Армении в У11-Х1 вв. Автореферат дисс. Ереван, 1955.
*Шопен И.* Новые заметки на древние истории Кавказа и его обитателей. СПб., 1866.
*Шустер Б.Я.* Место ибн Мискавейха среди арабоязычных историков, Сб. работ аспирантов Отделения общественных наук АН Узб. ССР, вып. И, Ташкент, 1958.
*Шустер Б.Я,* Шестой том Всемирной истории ибн Мискавейха, как источник по социальным отношениям в позднем халифате. КСИНА, вып. 47, 1961.
*Щеблыкин И.П.* Памятники азербайджанского зодчества эпохи Низами. Баку, 1943.
*Щербак АМ.* Название домашних и диких животных в тюркских языках. Историческое развитие лексики тюркских языков. М., 1951.
*Эмин Н.О,* Очерк религии и верований языческих армян. М., 1896.
*Эмин И.О.* Происхождение и значение имени Иверия-Вирк, армянских писателей. Приложение 13 к книге "Всеобщая история Асогика".
*Эфендиев О.А.* Образование Азербайджанского государства Сефевидов в начале XVI в. Баку, 1961.
*Юзбашян К.Н.* К истории павликианского движения в Византии в IX в. Вопросы истории религии и атеизма, т. IV, 1956.

*Ягелло И.Д.* Полный персидско-арабско-русский словарь. Ташкент, 1909.
*Якобсон А.Л.* Из истории армянского средневекового зодчества (Ганд-засарский монастырь XIII в.). Сб. "Памяти акад. И.А.Орбели". М.-Л., 1960.
*Якубовский А.Ю.* Ибн Мискавейх о походе русов в Берда'а в 332-943/4 г. н.э. ВВ, т. XXIV, 1926.
*Якубовский А.Ю.* Ирак на грани УШ-1Х вв. Труды I Сессии арабистов. М.-Л., 1937.
*Якубовский А.Ю.* Об испольных арендах в Ираке в VIII в. СВ, т. IV, 1947.
*Якубовский А.Ю.* Розен как историк. Сб. "Памяти акад. В.Р.Розена". М.-Л., 1947.
*Якубовский А.Ю.* Итоги работ Согдийско-таджикской археологической экспедиции в 1946-1947,
*Ямпольский З.И.* Восстание Муканны - движение людей в белых одеждах. СВ, т. V. М.-Л., 1948.
*Ямпольский З.И.* Восстание Бабека. Баку, 1941.
*Ямпольский З.И.* Древние авторы о языке населения Азербайджана.Изв. АН Азерб. ССР, 1955, № 8.
*Ямпольский З.И.* К изучению древнего пути из Каспийского моря по реке Куре через Грузию к Черному морю. Труды Ин-та истории АН Груз, ССР, т. II, 1956.
*Ямпольский З.И.* К изучению Летописи Кавказской Албании. Изв. АН Азерб. ССР. 1957, № 9.
*Ямпольский З.И.* Древняя Албания в I-III вв. Баку, 1962.

## NƏŞR OLUNMAMIŞ ƏSƏRLƏR

*Вартапетов А.С.* К вопросу об историческом исследовании христианских памятников Нагорного Карабаха. Архив Ин-та истории АН Азерб. ССР, инв. № 151.
*Вартапетов А.С.* Христианские памятники Карабаха. Архив Ин-та истории АН Азерб. ССР, инв. № 152.

*Жузе П.К.* Арабские племена в Закавказье. Архив Ин-та Истории АН Азерб. ССР, инв. № 507.
*Жузе П.К.* Маз'ядиты-шеЙбаниты в Азербайджане. Архив Ин-та истории АН Азерб. ССР, инв. № 647.
*Пахомов Е.А.* Монеты Азербайджана. Архив Ин-та истории АН Азерб. ССР, инв. № 3500.
*Тер-Григорян Т.И,* Азербайджан в III-VII вв. Архив Ин-та истории АН Азерб. ССР, инв. № 1530.
*Тер-Григорян Т.И.* К вопросу об "Истории страны Албанской МоисеяКаланкайтукского". Архив Ин-та истории АН Азерб. ССР, инв. № 991,
*Тер-Григорян Т.И.* Неизданные страницы "Истории Албанской страны"Моисея Каланкайтукского. Архив Ин-та истории АН Азерб. ССР, № 1386.
*Ямпольский З.И.* О зарождении феодализма в Азербайджане. АрхивИн-та истории АН Азерб. ССР, инв. № 2532.
*Əl-İrisi. Nəzhət ül-maştaq fi ixtiraq əl-afaq.* Roma, 1952
İbn əl-Əsir. əl-Kamil fi-t-tarix isna əşara cüz, Leyden 1876-1581, Qahirə, 1303.

*Əl-İstəxri.* Əl-Məsalik və-l-məmalik. Leyden, 1870.
*Əl-İsfahani.* Əbu-l-fərəc, Kitab əl-Qani, Leyden, 1888.
*Əl-Bağdadi.* Əbd-ül-Qadir, əl-fərqi beyn əl-fərqi, Qahirə, 1910.
*Əl-Bəlazuri.* Futuh əl-Buldan, Leyden, 1876.
*Əl-Brutni.* Əbu Reyhan, əl-Əsar əl-baqiyyəti ən əl-qrun əl-xaliyyəti, Leypsiq, 1878.
Tarix əl-muslimin min sahib şəriət əl-islam Əbu Qasim Məhəmməd ilə əd-dovləti əl-atabəkiyyəti təlif əş-şeyx ul-məkİn curcus bin əl-

Əmid Əbu-əl-Yasir əbi əl-Mukarim bin əbi əl-Teyyub, Leyden, 1320.
*Ət-Turtuşi. Əbu Bəkr Məhəmməd,* Sirac əl-qulub, Bulaq, 1872.
*Ət-Tənuci.* Əl-fərəc bəd əş-şiddət Qur'an, Qahirə, 1938.
*Ət-Tənuci.* Nişavar əl-muhadirə, I c., Qahirə, 1928.
*Əs-Səalabi. Əbu Mənsur,* Lətaif əl-məarif, Bitafıya, 1876.
*Əl-Cəhşiyari.* Əl-Vuzərai və-1-kitab, Qahirə, 1938.
*İbn əl-Cövzi.* Əl-Muntəzami fi-t-tarix (c. V-X), Heydərabad - Dəken, 1357-1359.
*İbn əl-Cövzi,* Tarix Əmr ibn əl-Xəttab, Qahirə.
*Əz-Zəhəbi.* Muxtəsar duvəl-İslam, Qur'an, Heydərabad-Dəkən, 1325.
Hüdud əl-Aləm. Nəşr və tərcümə V.Minorski, Oksford, 1937.
*İbn əs-Sau.* Müxtəsər əxbar əl-xilafa, Bulak, 1302. . .
*Əs-Suyuti.* Tarix əl-xilafa, Qahirə, 1257.
*Əs-Səmani.* Kitab əl-ənsab, Leyden, 1913.
*Əş-Şəhristani.* Əl-Miləl və-n-nihəl, Leypsiq, 1923.
*İbn Havqəl.* Surət əl-ərz, c. I-II, Leyden, 1939.
*İbn Xordadbeh.* Əl-Məsalik və-1-məmalik, Leyden, 1889.
*İbn Xəldun.* Kitab əl-İbar və-d-divan, Bulak. 1384 h.
*İbn Xəllikan,* Vafayat əl-əyan. Qahirə, 1310 h.
*Əd-Dinavəri.* Əl-Əxbar ət-tival. Leninqrad, 1904.
*Əs-Sabi əbu İshaq.* Rəsail əs-Cabi, Sayda, 1898.
*Əs-Sabi-Hilal.* Tuhfat əl-umara. Beyrut, 1904.
*Ət-Təbəri.* Tarix ər-rusul və-l-mülük. I-XII, Qahirə, Hüseyniyə mətbəəsi.
*İbn əl-Tiqtaqa,* Əl-Fəxri fı əl-ədəb əs-sultaniyyə, Qahirə, 1894.
*İbn əbd Rəbbahi.* Əl-İqd əl-fərid, Qahirə, 1913.
*İbn əl-İbri,* Əl-Müxtəsər tarix əd-düvəl, Beyrut, 1860.
*Əbu Ubeyd əl-Qasim ibn Salam.* Əl-Əmval. Qahirə, 1353.
Əl-Uyun və-1-həda'iq, Leyden, 1849.
*Qüdama ibn Cəfər.* Əl-Xərac, Leyden, 1889.
*Əl-Qəzvini.* Asar əl-bilad və əxbar əl-ibad, I-II, Höttingen, 1848.
*Əz-Zəhəbi Hafiz.* Kitab düvəl əl-islam, Heydərabad, 1337 h.
*İbn-Kəsir.* Əl-Bidayə və-n-nihayə, I-XIV, Qahirə, 1932.
*Əl-Qurtubi Arib ibn Səid.* Silat ət-Təbəri, Leyden, 1897.

*İbn əl-Fəqih.* Müxtəsər kitab əl-Büldan, Leyden, 1880.
*İbn Rustə.* Əlac ən-nəfisə, Leyden, 1892.
*Əl-Kindi.* Əl-Vulat və-l-qəza, Beyrut.
*Əl-Qəlqəşəndi.* Sübh əl-ə'şa, Qahirə, 1919-1922.
*Əl-Məsudi.* Ət-Tənbih və-l-işraf, Leyden, 1891.
*Əl-Məsudi.* Muruc əz-zəhəb. Paris, 1861.
*Əl-Mavərdi.* Əl-Əhkam əs-sultaniyyə. Qahirə, 1909.
*Əl~Müqəddəsi.* Əhsən ət-təqasim. Leyden, 1877.
*Əl-Müqəddəsi.* Əl-Bəd'və-t-tarix, Paris, 1899.
*Əl-Məqrizi.* Əl-Məva'iz və-l-i'tibar, I-IV, Qahirə, 1326 h.
*İbn Miskaveyh.* Təğarib əl-üməm, Oksford, 1920-21.
*Əl-Məqrizi.* Şüzur əl-uqud fi zikr ən-nüqud. Nəcəf, 1938.
*Əl-Əzdi.* Nübzət mincüz əs-səmin min Əxbar əd-düvəl əl-münqatiə. Maxtuta.
*İbn ən-Nədim,* Fihrist. Leypsiq, 1871-1872.
*Əl-Vatat.* Qırar əl-xəsa'is, Qabirə, 1299 h.
*Yəhya ibn Adəm əl-Qureyşi.* Əl-Xərac, Leyden,1896.
*Əl-Yəqubi.* Kitab əl-buldan, Leyden, 1897.
*Əl-Yəqubi.* Ət-Tarix, Nəcəf, 1936.
*Əbu Yələ,* Əl-Əhkam əs-sultaniyyə. Qahirə, 1937.
*Yaqut əl-Həməvi.* Möcəm əl-büldan, Beyrut, 1950.
*Yaqut əl-Həməvi.* İrşad (Möcəm əl-üdaba), I-VII, Leyden, 1907-1925.
*Ən-Növbəxti.* Fərq əş'şi'ə, Nəcəf, 1936.
*Əbu Yusif.* Kitab əl-Xərac, Qahirə, 1302 b.
*Əli ibn Əbu Talib.* Nəhc el-bəlağa, I-II, Beyrut, 1889.
*Razi Nəcm əd-Din.* Məraşid əl-ibad, Tebran, 1312 h.
*Əbu Tammam.* Divan, Qahirə, 1957.
*Qərdizi.* Əbu Səid Zeyn əl-əxbar. Tehran, 1333 h.
*Əl-Kaşi.* Mərifət əxbar ər-rical. Tehran, 1317 h.
*Mirxond Məhəmməd.* Rövzət əs-səfa, Bombey, 1271 h.
*əl-Biruni Əbu Reyhan.* Təzakir divan əl-asar əl-qədimə bil-hind, Dehli, 1937.
*Əl-İrbali.* Xülasat əz-zəhəb əl-Məbsun. Qüds, 1885.
*Əl-İsfəraim.* Ət-Təbsir fı-d-bin. Qahirə, 1940.

*Əhməd Əmin.* Fəcr əl-İslam. Qabirə, 1950.
*Əhməd Əmin,* Züha əl-İslam, Qahirə,' 1952.
*Bəyhəm Məhəmməd Cəmil.* Qəvafıl əl-uruba, c. I, Beyrut, 1948.
*Sabit Nüman.* Əl-Cundiyyə, Bağdad, 1929.
*Cürci Zeydan,* Tarix ət-təmədün əl-islamiyyə, c. I, Qahirə, 1902.
*Cövzi Bəndəli.* Min tarix əl-hərəkət əl-fikriyyə fı-l-İslam, Qüde, 1938.
*Hitti F.* Tarix əl-ərəb, c. I, Beyrut, 1952.
*Xəlili Abbas.* İran və İslam, Tehran, 1336 h.
*Həsən İbrahim Həsən.* Tarix əl-İslam, Qahirə, 1953.
*Əd-Duri Əbd əl-Əziz,* Tarix əl-İraq əl-iqtisadi, Bağdad, 1948.
*Əd-Duri Əbd əl-Əziz.* Dirasat fı-1-üsur əl-Abbasiyyə, əl-mutaaxxira, Bağdad, 1940.
*Əd-Duri Əbd əl-Əziz.* Əl-Əsr əl-Abbasi əl-əvvəl, Bağdad, 1945.
*Rifai Əhməd Fərid.* Əl-Əsr əl-Məmun, c. I-III, Bağdad, 1927.
*Ər-Reys Məhəmməd Ziya.* Əl-Xərac fı-d-dövlə əl-İslamiyyə, Qahirə, 1957.
*Təbəri Ehsan.* Babək xürrəmdin, Tehran, Dünya 1339 h.
*Kürd Əli.* Əl-İdarə əl-İslamiyyə fı-izz əl-ərəb. Qahirə, 1934.
*Avvad Qurts,* Mədinət əl-Mavsin, Bağdad, 1959.
*Mustafa Mahmud.* Əl-Ədəb əl-Ərəbi və tarixu, c. I, Bağdad. 1937.
*Nəfisi Səid.* Babək xürrəmdin dilavər-i Azərbaycan, Tehran, 1323 h.
*Sami Şəmsəddin.* Qamus əl-əlam. İstanbul, 1306 h.
*Əbd əl-Münim Macid.* Tarix əs-siyasi li-d-dövlə əl-ərəbiyyə. Qahirə, 1960.
*Abbot N.* Arabic Papyri on the Reign of Al-Mutawakkil. ZDMG B. 92,1938.
*Abu Dulaf.* Mis'ar ibn Muhalhil's travels in Iran. Arab. text with an English translation and commentary by V.Minorsky. Cairo, 1955.
The Apology of al-Kindy, written at the Court of Mamun *(circa* AH 215-AD830) in defence of christianity against Islam, by W.Muir. London, 1887.
*Ardzrouni Th.,* X-e S. Histoire des Ardzrouni, trad, par M.Brosset. Colletion histoirens Arraeniens, 1.1, St-P, 1874.

*Arib ibn Sa'd al-Katib al-Kortobi.* Tabari continiatus, ed. M. J. de Goeje,Lugduni Batavorum, 1871.
*Bal'ami.* Chronicle,ed. B.Dom.Nachrichtenüber die Ghazaren, St-P, 1844.
*Brooks E.W.* A.Syriac Chronicle of the year 846, ZDMG, 51, 1897.
Chronique de Denys de Tell-Mahre, 4-e partie, publ. par I.B.Shabot, Paris, 1895.
Chronique de Tabari, trad. sur la version persane de Belami par H.Zotenberg,t. III, Nogent-le-Rotron, 1871.
The Chronicle of Zaharich of Mitylene, tr. by F.I.Hamilton and E.W.Brooks.London, 1899.
The concluding Portion of the Experiences of the Nations by Miskawaihi,arabic text ed. by A.F.Amedroz, v. I, Oxford, 1920.
Deux historiens Armeniens, Oukhtanes d'Ourha, X-e S. Histore in srois parties, trad. par M.Brosset, 2e livr. St-P, 1871.
*Dindorfius L.* Historici Graeci Minores, II. Lipsiae, 1871.
*Don Juan of Persia.* A Shiah Catolic, tr. by G. le Strange. London, 1926.
*Dowsett C.J.F.* The Albanian Chronicle of Mkhit'ar Gos. BSOAS, XXI/3,1958.
*Dozy R.* A Baghdad Chronicle, Cambridge, 1924.
The Geographical Part of the Nuzhat al-Qulub, comp. by Hamdallah Mustowfi of Qazwin in 740(1339), ed. G. le Strange. London, 1915.
The Geographical Work of Sadik Isfahani, tr. by I. C. London, 1932.
Geographie d'Idrisi, trad. de l'arabe par P.A.Jaubert, t. II. Paris, 1890.
Historical Atlas of the Muslim Peoples, Amsterdam, 1957.
Histoire d'Armenie par le patriarche Jean VI dit Jean Catholicos, trad. de l'Armenien en Francais par M, Saint-Martin. Paris, 1841.
Histoire Chronologie par Mkhit'ar d'Airivank, XIII. S.Trad. de l'Armenien par M.Brosset. St-P, 1869.
Histoire de la Georgie, I, tr. M.Brosset. St-P, 1849.
Histoire de la Siounie par Stepannos Orbelian, I, II, tr. par M.Brosset. St-P, 1864.
Histoire Universelle par Etienne Açoghiq de Daron, trad, par Ed.Dulaurier. Paris, 1886.

The Historical Remains of Hilal as-Sabi, first part of his Kitab al-Wuzara, ed. by H.F.Amedroz. London, 1904.
History of the Caliphs by Jalaluddin as-Suyuti, tr. H.S.Jarett. Calcutta, 1881.
The History of the Caucasian Albanians by Movses Dasxuranci. Transl. by C.J.F. Dowsett. London, 1961.
Hudud al-Alam "The Regions of the World", "A Persian geography 372,
AH-982 A.D.Translated and explaned by V.Minorsky. London, 1937.
*Ibn Serapion.* Description of Mesopotamia and Baghdad, ed. and transl. by G. le Strange (IRAS), 1895.
*Jahiz.* Suhbat al-Muluk (Kitab al-Taj). Ms. or. 9446 of the British Museum.
Kamal ad-din Umar b. Ahmad b. al-Adim. Zubdat al-Halab min tarikh Halab. Paris, 1819.
*Kazem-Beg M.* Derbend-name. St-P, 1851.
*Maqrizi.* Traite des monnoies musulmanes. Trad. par A. I. Silvestre de Sasy. Paris, 1797.
*Matreau G. et Vever H,* Miniatures persans, v. I, Paris, 1913.
*Michel L. Syrien.* Chronique. Par I. B. Shabot, 3. Vol. Paris, 1894-1904.
*Mirza Gholam Khosein Khan.* The Siyar ul-mutakharin. A History of the Nahomedan Power in India, dıring the last centry, v. I. London, 1932.
*Minorsky V.* Persia in AD 1478-1490. An Abridged translation of Falullah b. Ruzbihan Khunji's "Tarikh-i Alam-arayi Amini", London, 1957.
*Mxitaray.* Aneçwoy patmut'iwn. St-P, 1879.
*Muhammed b. al-Hasan b, Isfandiyar.* History of Tabaristan at AH 613 (1416), London, 1905.
*Oukhtannes d'Ourha, X-e S,* Histoire en rois parties, trad. par M.Brosset, St-P, 1871.
*Nasir-e Khosraw.* Kitab-e Jami' al-Hikmatain. Paris, 1953.
Papyrus Erzherzog Reiner. Vienna, 1894.

*Quatremere.* Rasid al-Din. Histoire de Mongols de la Perse. Paris, 1836.
*Shavannes E.* Documents sur les Tou-Kiue (Turks) occidentaux. St-P, 1903.
*At-Tabari's.* The Reign of al-Mu'tasin (833-842), trans. by Elma Marin. New Naven, 1951.
*At-Tanukhi.* Niswar, ed and transl. by D.S.Margoliouth (Oriental transl. Fund, New Series,21), 1921.
*Teophan le Confesseur.* Chronique de 284 a 813, ed. de Boor. Leipzig, 1883-1885.
*Allen W.E.D.* A History of the Georgian People. London, 1932.
*Ameer Ali.* A Short History of the Saracens. London, 1834.
*Arberry A. I.* The Legacy of Persia. Oxford, 1953.
*Arendonk C. von.* Ibn Khordadhbeh; Ibn Rosteh. EI, II.
*Atta Mohammed H.* The Islamic Call. Cairo, no date.
*Bang W. Cabain A. V.* Türkische Turfan-texte, V, SPAW, 1931.
*Bartold V.V.* Afshin; Darband; Ganja in EI.
*Basmadjan K.* Chronologie de Fhistoire d'Armenie. Revue de l'Orient Chretien, XIX, 1914.
*Becker C.H.* Al Beladhori, EI, I.
*Becker C.H.* The Expansion of Saracens. Cambridge Medieval History, II, 1936.
*Bleichsteiner R.* Rosweihe ind Pferderennen im Totenkult der Kaukasischen Völker. Die Indogermanen-und Germanefrage. Viena, 1936.
*Bosworth E.* The Rice of the Karamiyyah in Khurasan. The Muslim World. V.50.N1, 1960.
*Bowen H.* The Life and Times of Ali b. Isa. Cambridge, 1924.
*Brockelmann C.* Ibn al-Fakih; al-Ja'kubi: Kudama, EI, III.
*Brockelmann C.* Geschichte der arabischen Litteratur. Weimar, 1898; Erster Supplementband. Leiden, 1936.
*Brockelmann C.* Das verbältnis von Ibn el Athiri Kamil fıt Tarih in Tabaris ahbar errusul val muluk. Strassburg, 1820.
*Brooks E. W.* The Struggle with the Saracens. Cambridge Medieval History, V.

*Brosset M.* Rapports sur une Voyage Archeologique dans la Georgie et dans l'Armenie, 1, St-P, 1850.
*Browne Edw.* A Literary History of Persia. London, 1929.
*Buniyatov Z.M.* Hazar Türklerinin VII, VIII asrlarda Azerbaycan'da bulunmalari müddeti. VI. Türk Tarih kongresinde rapor. Ankara, 20-26 Ekim, 1961.
*Buryl.B.* History of the Eastern Roman Empie. London, 1912.
*Cahen Cl.* L'evolution de l'Iqta du IX au XIII Siecle. Annales-Economies-Societes-Civilisations. VIII, 1953.1.
*Cahen Cl.* Mouvements populaires et autonomisme urbain dans l'Asie Musulmane du Moyen Age, III, Arabica, t. VI, 1953.
*Camich M.* History of Armenia, v. I. Calcutta, 1927.
*Ceipek J.* Babek, muz pred kterym setrasli chalifove. Novy Orient. Praha, 1952, № 10.
*Czegledy K.* Khazar raids in Transcaucasia in 742-744 AD. Acta Orientalia, T. XI, f. 1-3. Budapest, 1960.
*Christensen A.* Iran sous la Sassanides. Paris, 1936.
*Creswell K.A.* The Lawfullness of Painting in Early Islam, Ars Islamica № 11-12, 1946; IC, № 24, 1950.
*Dagbaschean H.* Cründung des Bagratidenreiches dürch Aichot.Bagratuni, Berlin, 1893.
*Defremery M.* Sur la famile de Sadjides, JA, IV Ser., 1847, tt. IX-X.
*Dennet D.C.* Conversion and Poll Tax in Early Islam. Gambridge, 1950.
*Diringer A.* The Alphabet, N-Y, 1948.
*Dowsett C.J.F.* A Neglected Passage in the "History of the Caucasian Albanians". BSOAS, XIX/3, 1917.
*Dozy R.* Dictionnaire detaille des noms de vetements chez les Arabes. Amsterdam, 1845.
*Dozy R.* Essai sur l'histoire de l'Islamique. Paris, 1874.
*Dozy R.* Supplements aux dictionnaires Arabes, T. 1-2, Leyden-Paris, 1881.
*Dimezil G.* Une chretichte perdue: les Albanais du Caucase. Melange Asiatiques, Paris, 1940-1941.
*Dunlop D.M.* The History of the Lewish Khazars. Princeton, 1954.

*Duri A.* Beginning of History writing in Islam. BSOAS, XIX/1, 1957.
*Flügel G.* Babek. Seine Abstammung und Erstes Auftreten, ZDMG, 1869.
*Fries W.* Das Heereswesen der Araber zur Zeit der Omajjaden nach Tabari Gescholdet, Tübingen, 1921.
*Gabain A. von.* Altürkische Grammatik. Leipzig, 1950.
*Gabrieli F.* II califfatu di Hisham. Manuel de la societe R. d'archeologie d'Alexandrie, v. VII/1, 1955.
*Gabrieli F.* L'eroe Omayyade Maslama. Acc. Nacionale de Lincei, 1950.
*Gazarian M.* Armenien unter der Arabischen Herrschaft, Marburg, 1902.
*Gerland E.* Die persischen Feldzuge des Kaisers Heracleous, BZ, III, 1894.
*Gerschevich J.* Grammar of Manichaean Sogdian. Oxford, 1954.
*Gibb H.A.R.* Abu al-Sadj. EI, NE, I.
*Gibbon Edw,* The Decline and fall of the Roman Empire, v. 3. London, 1895.
*Goeje M. J. de.* Die Istakhri. Balkhi Frage. ZDMG, XXV,
*Goldziher I.* Mohammedanische Studien. X. Halle, 1882.
*Grierzon Fh.* The Monetary Reforms of Abd al-Malik, their metrological basis and their financial repercussions. Journal of the Economic and Social History of the Orient, v. II, p. 3. 1960.
*Gozdowski M., Kmietowicz A., Kubiak W., Lewicki T.* Wczesnosredniowiecnky skarb srebrny z Maurzyc pod Lowiczem, Wroclaw-Krakow-Warszawa, 1959.
*Grousset R.* Histoirc de l'Armenie. Paris, 1948.
*Günaltay M. Semseddin.* Abbas ogullari imperatorlugunun kuruluş ve yükselişinde türklerin rolu. TTKB, c. VI, p. 23-24, 1942.
*Hadi Hasan.* Muhammad Falaki-i Shirwani and his Unique Diwan in Madras, IC, 1950.
*Halasi Kun T.* Türk dili ve tarihi hakkında araştırmalar, I.F.Köprülü'nün dogumunun 60 yıldönününü kutlamak için TTK ve

TDK tarafından çıkarılmıştır. Toplayanlar H. Eran-T.Halasi Kun. Ankara, 1950.
*Henning N. B.* Arabish harag. Oriantalia, IV, 1935.
*Heyd W.* Histoire du Commerce du Levant au moyen äge. Leipzig, 1923.
*Hirsch.* Byzantinische Studien, Leipzig, 1876.
*Hitti Ph.* History of the Arabs, London, 1937; 1957.
*Huart C.* Sadjides. EI, IV.
*Huart C.* Al-Istakhri. EI, II.
*Huart C.* Les Musafırides de l'Adharbaijan. A volume to Ed. Browne, Cambridge, 1922.
*Huart C.* La Parse Antique et la civilisation iranienne. Paris, 1943.
*Hübschman H.* Die Altarmenische Ortsnamen. Indogermanische Forschungen, XVI, 1904.
*Inostranzev M.* Iranian Influence on Moslem Literature, tr. by G.K.Nariman. Bombay, 1918.
*Ivanow W.* Early Shiite Movements. Journal of the Bombay Branch RAS,XVII, 1941.
*Ivanow W.* Ismailis and Karmatians. JBBRAS, XVI, 1940.
*Ivanow W.* The Rice of Fatimilds. London, 1942.
*Justi F.* Iranisches Namenbuch. Marburg, 1835.
*Karaka.* The History of the Parsis, v. I-II. London, 1884.
*Karamianz W.* Elnundzwanzig Buchstaben eines verlorenen Alphabet. ZDMG, XL, 1886.
*Kelekian D.* Dictionnaire turk-francaus, 1941.
*Khanikoff W.* Memoire sur les inscriptions musulmanes du Caucas, JA, v.227, 1862.
*Kirzioglu M. Fahrettin,* Dede Korkut Oguznameleri, Istanbul, 1952.
*Kmoşko M.* Araplar ve Hazarlar. Türkiyet Mecmuati, c. III, Istanbul, 1935.
*Kramers J.H,* Les Khazars. Analecta Orientalia, v.I. Leiden, 1954.
*Kramers J.H.* Mas'udi. Bl, SB.
*Kramers J.H.* The Military Colonisation of the Caucasus and Armenia under the Sasanides. BSOS, VIII/2-3, 1936.
*Kremer A.* Culturgeschichte des Orients, Vienna, Bd. I, 1875.

*Kremer A.* Geschichte der Herrschenden ideen des islams, Leipzig, 1818
*Kremer A.* The Orient under the Caliphs, tr. by S.Khuda Bukhush, Calcutta, 1920.
*Kremer A.* Ueber das Budget der Einnahmen unter des Regierung des Harun ar-Rasid nach einer neu aufgefundenen Urkunde. Verhandlungen des VII Intern. Orient. Congr. Wien, 1888.
*KremerA.* Ueber das einnahmebudget des Abbasiden Reiches vom Jahra 306 H (918-919). Wien, 1887.
*KuratAkdes N.* Abu Muhammad bin A'sam al-Kufmin Kitab al-Futuhu. Ankara Universitesi Dil ve Tarih-Gografija Fakultesi Dergisi, c. VII, Sayi 2, 1949.
*Kurdian H.* The Newly Discovered Alphabet of the Caucasian Albanians. JRAS, 1-2, 1956.
*Kurdian H.* Papak e Sahl ibn Sunbat, Pazmaveb. Venice, 1959.
*Lammens H.* La Syrie. Beyronth, 1921.
*LaneE.W.* Arabic-English Lexicon. London, 1863-1893.
*Lane-Poole S.* The Arabian historians on Mohammadan numismatics. Numismatic Chronicle. Ser. IV, 1884.
*Lane-Poole S.* The Coins of the Eastern khaliefeuts in British Museum. London, 185.
*Lourent J.* L'Armenie entre Byzance et l'Islam. Paris, 1919.
*Lebeau Ch.* Histoire du Ras~Empire, V, XI, XII, XIII. Paris, 1830.
*Lewis B.* The Arabs in HİStory. London, 1950.
*Lökkegaavd F.* Islamic Taxation in the Classis Period. Kopenhagen, 1950.
*Magued A.M.* Histoire Politique de l'Etat arabe, t. 1, Cairo, 1960.
*Manandean H.* Beiträge zur albanischen Geschichte. Leipzig, 1897.
*Margoliough D.S.* Khurramiya. Shorter EI. Leiden, 1953.
*Margoliough D.S.* The Russian Seisure of Barda'a in 943 A. D., BSOS, 1918.
*Marquart J.* Eransahr nach der geographie der Ps. Moses Xorenaçi. Berlin 1901.
*Marquart J.* Osteurodäiche und Ostasiatische Streifzüge. Leipzig, 1903.

*Marquart J.* Skinzzen surh historischen Topographie und geschicte on Kaukasian, Vienna, 1928.
*Mez A.* The Renaissanse of Islam, transl. by D. S. Margoliough and S.Khuda Bukhsh. London, 1937.
*Minorsky V.* Addenda to the "Hudud al-Alam", BSOAS, XVII, 1955.
*Minorsky V.* A New Book on the Khazars. Oriens, 11, 1958.
*Minorsky V.* Caucasica, IV. BSOAS, XV/3, 1953.
*Minorsky V.* La Domination des Dailamites. Paris, 1932.
*Minorsky V.* A History of Shirvan and Darband. London, 1958.
*Minorsky V.* Iran: Opposition, Marturdom and Revolt. "Unity and Variety in Muslim civilisations. Chicago, 1955.
*Minorsky V.* Kasal (Kazah). Ravue des Etudes Armeniennes, t. X. Paris, 1930.
*Minorsky V.* Mazjar; Musafirids; Tarun, in EI.
*Minorsky V.* Roman and Byzantine Campaigns in Atropatene. BSOAS,XI/2, 1944.
*Minorsky V.* Studies in Caucasian Histors. Cambridge, 1953.
*Muir W.* The Caliphate, its Rise, Decline and Fall. Edinburg, 1924.
*MuraltM.* Ed. de Essai de Chronographie Byzantine, St-P, 1885.
*Nöldeke Th.* Der Chalif Mansur. Orientalische Skizzen. Berlin, 1892.
*Nöldeke Th.* Sketches from Eastern History, transl. by J.S.Black. London, 1892.
*Ostrogorsky G.* Geschichte des Byzantinischen Staates. München, 1940.
*Paret R.* Al-Tabari. EI, IV.
*Rawlinson G.* The Seventh Great Monarchy or the Geography, History and Antiquites of Sasanian or New Persian Empire. London, 1876.
*Rieu Gh.* Supplement to the catalogue of the arabic Manuscrist. London, 1894.
*Rosenmüller.* Analecta arabica. Lipsiae, 1825.
*Sadighi G.H.* Les Mouvements Religieux iraniens. Paris, 1938.
*Saint-Marün M.L* Memoires historiques es geographiques sur l'Armenie, II, Paris, 1919.
*Salem E.* Muslim Administrations. IC, XXIII, № 1, 1959.

*Sall G.* The Koran; Commonly called the al-Koran of Muhammad. London, 1857.
*Sauvaire H.* Materiaux pour servir ä l 'histoire de la numismatique et de la metrologie musulmanes. JA 7, ser. XIV, 1879.
*Schechter S.* An unknown Khazar Document. The Jewich Quarterly Review, New series, v. III, № 2, 1912-1913.
*Schwarz P.* Iran in Mittelalter nach den Arabischen geographen, VII. Leipzig, 1896-1936.
*Spuler B.* Iran in frühislamischen Zeit. Wiesbaden, 1953.
*Stern S.M.* The Early Ismaili Missionaries in North-West Persia and in Khurasan and Transoxania. BSOAS, XXIII/1, 1960.
*Strange G.* Al-Abrik, Tephrike the Capital of Paulicians; a correction corrected, İRAS, 1896.
*Strange G.* The Lands of Eastern Caliphate. Cambridge, 1930.
*Sourdel D.* Le vizirat abbaside de 749 a 936 (132 ä 324 de l'Hegire). Damas, II, 1960.
*Sümer Faruk,* Azerbaycan'in türkleşmesi tarihine ümumi bir bakış. TTKB, c. XXI, sayi 83, 1957.
*Szyszman S.* Les khazars. Problemes et controverçes. Revue de l'Histoire de religious, t. 152, v. 2, 1957.
*Szyszman S.* Le Roi Bulan et la Probleme de la conversion des Khazars. Ephemerides Teological Lovaniençes, t. 33,1, 1957.
*Taylor W. C.* The History of Mohammedanism and its sects, London, 1839.
*Tirmizi B.M,* Zoroastrians and their fire temples in Iran and adjoining countries from the 9-th to the 14-th centuries as gleaned from Arabic geographical Works. IC, XXIII, № 4, 1950.
*Thordschian H.* Politische und Kirschengeschichte armeniens unter Aschot I und Smbai I. Wesfasiatische Studien, VIII, 1905.
*Toumanoff C.* The Bagratids of Iberia from the Eighth to the Eleven Century. Le Museon, v. 73, № 3-4, 1960; v. 74, № 1-2, 1961.
*Toumanoff C.* The Early Bagratides. Le Museon, LXII, 1949.
*Toumanoff C.* Iberia on the Eve of Bagratid Rule. An Enquiry into the Political History of Bastern Georgia between the Vl-th and IX-th century. Le Museon, v. 65, № 1-2, 3-4, 1952.

*Toumanoff C.* Some Aspects of Caucasian Social History. Le Museon, v. 72, № 3-4, 1959.
*Toumanoff C.C.J.F. Dowseett (tr.).* The History of the Caucasian Albanians, by Movses Dasxurançi. London, 1961. BSOAS, XXV/2, 1962.
*Tritton A.S.* The Caliphs and their non - Muslim subjects. London. 1930.
*Tritton A.S.* Sidelights on Muslim History. BSOAS, XXI/3, 1958.
*Vasmer V.* Russisches etymologisches wörterbuch, ed. 3,Heydelberg, 1935.
*Vloten G.V.* Recherches sur la domination Arabe le Shiitisme et la Groyances messioniques sous la Caliphat Omayades. Amsterdam, 1894.
*Walker J.* A Catologue of the Arab-Byzantine and Post-Reform Umaiyad Coins fin the British Museum). London, XXV, 1956.
*Weil G.* Geschichte der chalifen, II. Mannheim, 1848.
*Wdlhausen J.* The Arab Kingdom and its Fall, tr. by M.G. Weir. Calcutta, 1927.
*Wellhausen J.* Das Arabische Reich und seine Sturz. Berlin, 1927.
*Wüber D. W.* Iran: Past and Present. New Jersey, 1955.
*Wright E.M.* Babak of Badhd and al-Afshin during the years 816-841 A.D. The Muslim World, v. 38, № 1-2, 1948.
*Yusuf S.M.* The Battle of al-Qadisiyya. IC, XIX/1, 1945.
*Zajachkowski A.S.* Studiöw nad zagadnieniem chazakshim. Krakow, 1947.
*Zambaur E.* Manuel de Genealogie et de chronologie pour l'histoire de l'Islam. Hanovre. 1927.

## ŞƏXS ADLARI GÖSTƏRİCİSİ


| | |
|---|---|
| Abas, Arran katolikosu | - 50 |
| Abbas Xəlili | - 41 |
| Abdullah əs-Suri | - 279 |
| Abdullah ibn Mübarək | - 264 |
| Abdullah ibn Tahir | -275,299-30,306,307,310,368, 377 |
| Abo Tbileli | - 117, 392 |
| Abraam, katolikos | - 56 |
| Abuladze Ş. | - 32, 393 |
| Adons N. | - 31 |
| Adrian | - 14 |
| Afşin Heydər ibn Kavus | - 20, 22, 228, 302, 310, 317 |
| Alp Arslan | - 23 |
| Arib ibn Səd əl-Kurtubi | - 20 |
| Asogik | - 18, 56, 122 |
| Aşot Baqratu | - 208, 210 |
| Aşot Kuropalat | - 222 |
| Avraam, baş yepiskop | - 10, 11 |
| Ayrivantsi | - 12, 13, 18 |
| Baban | - 206, 252, 275, 277, 381, 383, 384 |
| Babi Şaxrperozyan | - 248 |
| Baldu | - 246 |
| Barsis | - 282 |

Bartoid V.V. - 24, 34, 35, 36, 42, 100, 175, 192, 304
Bartolomey - 10
Belyayev Y.A. - 8, 34, 36, 150
Bəikbak - 228
Cavanşir, Arran knyazı - 15, 33, 67, 69, 71, 72, 82-89
Cavidan -24, 261, 262-266, 271, 315, 329, 365, 366, 374, 375
Cəfər əl-Xəyyat Cəmaləddin əl-Əzdi - 29, 245
Cuanşer - 111
Cunadib - 91
Daqbaşean Q. - 205
Danlop D.M. - 35
Davon - 210, 277-278, 381, 382
Davtak - 67, 111
Dovsett Ç. - 13, 16,207, 208, 275
Dozi R, - 39
Əbd ür-Rəhman ibn Həbib, Kordova xəlifəsi - 329
Əbd-ul-lah ibn əz-Zübeyr - 118
Əbd-ül-Malik - 119
Əbd-ür-Rəhman, üçüncü xəlifə - 130
Əbd-ür-Rəhman Həbib, katib - 329
Əbu Bəkr, xəlifə - 17, 90
Əbu Dulaf - 265, 339, 341, 343, 344, 348, 367, 368
Əbu Hənifə əd-Dinəvəri - 22, 271
Əbu İmran - 262, 264, 365
Əbu Mənsur Bağdadi - 260
Əbu Müslim - 100, 217, 218, 263, 377
Əbu Müzəffər İsfəraini - 255
Əbu Sac Divdad - 218, 230, 233, 357
Əbu Səid Məhəmməd - 283, 284, 317, 338, 386, 387
Əbu Tammam - 406
Əbu Yusif Yəqub əl-Kufi - 30
Əbu Zəkəriyyə Yəzid ibn Ayas əl-Əzdi əl-Mavsili - 21
Əbu-l-Abbas Əhməd ibn Yəhya ibn Cabir əl-Bəlazurinin - 20
Əbü-l-fəth ibn Mehdi - 178
Əbü-l-Həyca ibn Rəvvad - 156
Əbü-l-Qasim əl-Cuyzani - 156
Əbü-l-Müsafir əl-Fəth - 246

Əhməd ibn Cüneyd - 274, 315, 361
Əhməd ibn Əbu Duad - 307
Əhməd ibn Əli - 242, 244
Əhməd ibn Xəlil - 338, 339, 347
Əhməd ibn Məhəmməd ət-Tai - 233
Əhməd ibn Məzyəd - 220
Əhməd ibn Tulun, Suriya hakimi - 230, 232
Əl-Bəlazuri - 20, 22, 27, 48
Əl-Cərrah ibn Abdullah - 96, 123, 124, 125, 172
Əl-Həsən ibn Səhl - 325
Əl-Hüseyn ibn Xalid əl-Mədaini - 331
Əl-Xaçini - 215
Əl-Qəzvini - 175
Əl-Məsudi - 23, 38
Əl-Yəqubi - 23, 27, 28, 48
Əsəd ibn Yəzid - 220, 221
Əsəd ibn Zafiri - 182
Ət-Təbəri - 19-23, 29, 38, 46, 301, 360
Faddey - 10
Fatimə, Əbu Müslimin qızı - 377
Feofil, Bizans imperatoru - 20, 22, 281, 282, 291-293, 304, 305, 362, 363, 392
Fəzlullah ibn Ruzbehxan - 113
Flügel Q. - 256, 257
Gevond - 11, 16-17, 94, 122, 125, 127-128, 133-135, 140-141
Hannibal - 37
Harun ər-Rəşid, xəlifə - 30, 129, 130, 141-145, 149, 150, 160, 183, 194-196
Həbib ibn Məsləmə - 93
Həmdullah əl-Qəzvini - 175, 300
Həsən ibn Əli əl-Bazgisi - 213
Həsən ibn Həmdun - 237
Həsən İbrahim Həsən - 41, 258, 407
Həsən, Afşinin oğlu - 307
Həyyun ibn ən-Nəcm - 129
Hilal əs-Sabi - 237
IV Hürmüz - 67, 299
Xalid ibn Yəzid ibn Məzyəd - 149, 181, 205, 221, 225
I Xosrov Ənuşirəvan - 48, 49, 64, 80, 202, 260
Xürrəmə, Fadənin qızı - 259
İbn Ayas - 22

İbn Cərir ət-Təbəri - 19
İbn Əbu Tahir - 100
İbn əl-Əsir - 21, 22, 96
İbn əl-Furat - 28, 237, 239, 240, 241
İbn əl-İbri - 281, 401
İbn ər-Rəvvad - 262
İbn Xordadbeh - 24, 25, 27, 28, 46, 47, 155, 186, 187, 267, 405
Ibn İsfəndiyar - 300, 310
İbn Miskəveyh - 21, 29
İbn Ömər əl-Vəqidi - 19
İbn Rusta - 21, 29
İbrahim Hələbi - 151
İdrisi - 185, 186, 187, 189, 404
Isa ibn İstifanus - 204, 207, 210, 215, 389
İsfəndiyar ibn Fərruxzad - 90
İshaq ibn Müslim əl-Ukayli - 193
İzrael - 248
İzzəddin Əbü-l-Həsən Əli ibn Məhəmməd ibn əl-Əsir - 21
Juze P.K. - 35, 42, 198, 199, 228, 392
Kabad ibn Asəf əl-Beyləqani - 250
Kazımbəy M. - 298
Kraçkovski İ.Y. - 20, 26, 398
Krımski A J. - 35, 42, 63, 102, 106, 130, 163, 207, 208, 210, 313
Qriqori, knyaz - 82, 118
Leo - 41, 222, 257
Məan ibn Zaid - 216
Məhəmməd ibn ər-Rəvvad əl-Əzdi - 262, 318, 361, 364
Məhəmməd ibn Hümeyd əl-Tusi - 274
Məhəmməd ibn Xalid ibn Yəzid ibn Məzyəd - 149, 181
Məhəmməd ibn Mərvan - 120, 121
Məhəmməd ibn Süleyman əl-Əzdi əs-Səmərqəndi - 206
Məhəmməd ibn Sürur - 240
Məhəmməd Mustafa - 161
I Mərvan - 118, 193
Mərvan ibn Məhəmməd - 96, 127, 136, 137
Mərzban ibn Məhəmməd

ibn Müsafir - 155
Mərzban ibn Tarkaş - 307, 309
Mxitar Ayrivantsi - 12, 13, 18
Mxitar Qoş - 13, 62, 111
Mirzə Camal Cavanşir - 160
Moisey Kalankatuklu - 9, 11, 12, 13, 14, 32, 33, 50, 71, 87, 110, 111, 162, 168, 204, 249, 381
Munacim əs-Sulami - 130
Mübarək ət-Türki, türk əmiri - 203
Müqəddəs Qriqori - 10, 111, 248
Müller A. - 37, 40, 162, 255, 257, 258
Mürr ibn Əli ət-Tai - 193
Nəcm əd-Din-Razi - 132
Nəcm ibn Haşim - 129
Nəfi - 260
Nəsr (Nasir) - 282
Nəsr ibn Şəbs - 279
Nizam ül-Mülk - 23, 259, 263, 279, 297
Novruz - 135
Nudnud - 359
Nuh ibn Əsəd - 307
Ömər ibn əl-Xəttab - 91, 98, 139, 183
Ömər ibn Əyyub əl-Kənani - 217
Papak - 264
Patrik - 248
Peroz, Sasani şahı - 175
Saak, Tiflis əmiri - 225
Saak, yepiskop - 248
Sabit ibn Sina - 21
Sanxarib, Bərdə hakimi - 156
Sebeos - 11, 16, 80, 86, 105
Səhl ibn Sumbat - 15, 204, 205, 206, 207, 215, 222, 251, 279, 264, 265, 352, 353, 361, 370, 371, 376, 379, 386, 388, 389, 390
Səid ibn Səlm - 129, 220
Səid Nəfisi - 43
Sima əl-Xəzəri - 240
Smbat Baqratuni - 56, 380
Stepannos Ablasad - 204, 210, 251, 277

| | |
|---|---|
| Stepannos Orbelian | - 10, 11, 16, 18, 252, 383, 392 |
| Sufan, knyaz | - 235 |
| Sumbat, Karoyan nəslindən | - 248 |
| Sumbat ibn Aşot | - 215, 237 |
| Sübeytə ən-Nəhrani | - 123 |
| Sübük | - 242-244 |
| Süleyman ibn Bərmək | - 142 |
| Süleyman, xəlifə | - 122 |
| Şapux Baqratuni | - 11, 210, 234, 277, 278, 381, 382 |
| Şəhriyar | - 229 |
| Şirin | - 55, 56, 394 |
| Şirvin | - 368 |
| Şupxakişo, arxiyepskop | - 176 |
| Şupxaqişo, katalikos | - 54 |
| Tarif əş-Şeybani | - 219 |
| Ubeydullah ibn Mehdi | - 217 |
| Uceyf ibn Ənbas | - 275, 305 |
| Uxtanes | - 11 |
| Vaçaqan | - 66 |
| Valid ibn Uqbə | - 92, 120 |
| Valid, xəlifə | - 96, 121, 177 |
| Varaz-Qriqor | - 57, 69, 85 |
| Varaz-Trdat | - 76, 78, 109, 116, 119, 120, 121, 204, 249 |
| Vasak, Sünik hökmdarı | - 204, 207, 251, 277, 294 |
| Vasif | - 241 |
| Vistəhm | - 67 |
| Yakubovski A.J | - 34, 36, 142, 312 |
| Yampolski Z.İ. | - 8, 12, 14, 32, 40, 43, 106 |
| Yeliazar, katolikos | - 115, 116, 118, 120 |
| Yeremyan S.T. | - 34, 105, 110, 111, 113, 270 |
| I Yəzid | - 116 |
| II Yəzid | - 123, 127, 133, 135 |
| Yəzid Balaş | - 48 |
| Yəzid əş-Şeybani | - 196 |
| Yəzid ibn Məzyəd | - 141, 149, 181, 195, 196, 205, 216, 217, 219, 220, 221, 225 |
| Yəzid ibn Useyd əs-Sulami | - 127, 128, 153, 177, 218 |
| Yusif ibn Əbu Sac | - 18 |
| Yusif ibn Rəşid əs-Sulami | - 195 |

Zaal Baqratuni - 206
Zədüyyə ibn ən-Nahiracana - 46
Zəfər ibn əl-Əla əs-Sədi - 331

## MÜNDƏRİCAT

Giriş.....5

*I fəsil.* **Mənbələrin və istifadə edilmiş ədəbiyyatın xülasəsi** .....9

*II fəsil.* **Azərbaycan ərəb istilası ərəfəsində**
1. VI əsrin axırları və VII əsrin əvvəllərində siyasi vəziyyət .....45
2. Ərəblərin hücumu ərəfəsində Azərbaycanda sosial-iqtisadi münasibətlər (VI əsrin axırı - VII əsrin əvvəli) .....69

*III fəsil.* **Azərbaycan ərəblərin hakimiyyəti altında**
1. Ərəblərin Azərbaycanı istila etməsi .....81
2. Azərbaycan əhalisinin müsəlmanlaşdırılması və qriqoryanlaşdırılması .....97
3. Azərbaycan Əməvilər xilafəti tərkibində (VIII əsrin I yarısı).....115
4. Ərəb-Xəzər müharibələri və Azərbaycan .....121
5. Azərbaycanda torpaq münasibətləri və ərəblərin vergi siyasəti .....131
6. Ərəblərin Azərbaycanda inzibati siyasəti və idarə sistemi .....156
7. Ərəblərin dövründə Azərbaycan şəhərləri, ticarət və ticarət yolları .....164
8. VIII-IX əsrlərdə Azərbaycanda etnogenez problemi .....189

*IV fəsil.* **IX əsrin ikinci yarısında Azərbaycan ərazisində ayrı-ayrı müstəqil dövlətlərin və mülkiyyətlərin yaranması**

1. Şəki və Arran hakimi Səhl ibn Sumbat haqqında ..........................................204
2. Beyləqan hökmdarı Yesai Əbu Musa (İsa ibn İstifanus) haqqında .................210
3. Şirvanşahlar - Məzyədilər dövləti ..................................................................216
4. Satilər dövləti ..................................................................................................227

***Vfəsil.* Azərbaycan xalq kütlələrinin Xilafətə qarşı hərəkatı**
1. Arranda sosial hərəkat ........................................................................247
2. "Xürrəm" termini haqqında ...................................................................254
3. Cavidan, Babək və xürrəmilərin aktivləşməsi. Bəzz qalası ...........................261
4. Xürrəmilərin üsyanı və onun inkişafı ....................................................270
5. Üsyanın son dövrü. Bəzzin süqutu...........................................................280
6. Babəkin son günləri ..............................................................................291
7. Xilafətdə sonrakı siyasi hadisələrə xürrəmilər üsyanının təsiri .......................299

*Əlavələr*
................................................................................................ 315
*Istifadə olunmuş mənbələr və ədəbiyyat* ........................................................391
*Şəxs adları göstəricisi* ..........................................................................415

**ZİYA BÜNYADOV**

**A Z Ə R B A Y C A N  VII-IX Ə S R L Ə R D Ə**

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Kompyuter səhifələyicisi: | *Rəvan Mürsəlov* |
| Korrektor: | *Pərinaz Səmədova* |

Yığılmağa verilmişdir 18.12.2006. Çapa imzalanmışdır 02.02.2007.

Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 26,5. Ofset çap üsulu.

Tirajı 25000. Sifariş 16.

DÜST 5773-90, DÜST 4.482-87

POLYGRAPHİC

PRODUCTION
Tel/Fax:447 75 04, TEl.:447 75 05

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.

Bakı, Şərifzadə küçəsi, 3.

Azərbaycan Respublikasının Prezidenti
**İlham Əliyevin**
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il
tarixli sərəncamı ilə nəşr olunur.